# SABAH

## Sabah Vətənxahın xatirələri

## Qələmə alan: Fatimə Dostkami

**Kitabın adı:.....Sabah**
**Qələmə alan:.....Fatimə Dostkami**
**Tərcümə edən:.....Vüsal Hüseynzadə**
**Çap tarixi:.....2020**
**Çap növbəsi:.....Birinci**
**Tiraj:.....1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 55-18-77, 500-249,

ISBN 22-28-024519-29

# Giriş

Sabah Vətənxahla "Da" kitabında tanış oldum. Müxtəlif hadisələrlə bağlı təxminən altmış yerdə barəsində oxuyanda bildim ki, daha dərin şəxsiyyətə, müqəddəs müdafiə dövrünün ilk günlərinə dair çox dəyərli təcrübələrə malikdir. O zaman 19 yaşlı inqilabçı, eyni zamanda cəsur döyüşçü olmuşdu. 2009-cu ildə xanım Əzəm Hüseyni tərəfindən Müqavimət ədəbiyyatı şöbəsinə çağırılıb onunla yaxından tanış oldum.

Sabah Vətənxah bir gün xatirələrini yazmaq istəyinin səbəblərindən danışdı. 2009-cu ildə bir neçə ay bütün İranı çalxalayan və müxtəlif iğtişaşlara səbəb olan siyasi hadisələr baş verməsəydi, bəlkə heç vaxt xatirələrini söyləməyəcəkdi.

-Gördüm ki, biz sükutumuzla bir addım geri çəkilmişik, əvəzində düşmən xüsusi ajiotajla bir neçə addım irəliləyib, xalqın düşüncəsində haqla batilin yerini dəyişdirmək istəyir. Daha sakit oturmaq vaxtı deyil. Artıq məsuliyyət hiss edirəm. Ümidvaram ötən illərdə dostlarımın, döyüş yoldaşlarımın başlarına gələnləri söyləməklə insanları qəflətdən oyada, maarifləndirə bilərəm.

Xanım Vətənxaha görə, İslam inqilabında və müqəddəs müdafiədə elə böyük potensial var ki, yalnız bəzi hissələrini

söyləməklə də gənclərin yanlışı doğrudan ayırmalarına yardım etmək olar.

Bir neçə gündən sonra xanım Vətənxahın xatirələrini tarixi ardıcıllıqla - uşaqlıq çağından bu günədək - qeyd etməyə başladıq. Ümumilikdə üç mərhələdən ibarət təxminən 300 saatlıq audiomüsahibə alındı.

200 saatlıq söhbətlərdən ibarət birinci mərhələ 87 müsahibəni ehtiva edirdi və iki il vaxtımızı aldı. Bu müddətdə onunla çoxlu eniş-yoxuşlardan keçdik. Beynini məşğul edib təmərküzü çətinləşdirən gündəlik problemlərdən əlavə, xatirələrindəki ağır anları yada salmaq da işin sürətini azaldırdı.

Müsahibimin həyatının müxtəlif hadisələrindən uzun illər ötürdü, bəzi qaranlıq məqamlar vardı. Bu məqamlar tədricən sahə tədqiqatları, əlavə mütaliə və söhbətlərlə aradan qalxdı. Bəzi məqamlara Abdullah Səadət, Əli Əmcədi, Zöhrə Fərhadi, Əşrəf Fərhadi və xanım Vətənxahın anası Firəngbanu Yarəhmədi ilə müsahibə sayəsində aydınlıq gətirildi.

Vətənxahın ailəsinin Xürrəmşəhrin müdafiəsində və o zaman baş vermiş digər hadisələrdə aktiv iştirakını nəzərə alaraq, onlarla, habelə Bilqeys Məlikian, İlahə Hicab, Məryəm Əmcədi və Zöhrə Fərhadi kimi döyüş yoldaşları ilə bağlı bəzi xatirələri onların söylədikləri ilə uyğunlaşdırıldı.

İlk yazı çoxlu zaman sərf ediləndən sonra diqqət və səbirlə ərsəyə gəldi. Sənədli ədəbiyyat janrının şərtlərini qorumaq, məlumatları oxucuya gözəl və səmərəli, eyni zamanda hadisələrin dəqiqliyinə xələl gətirmədən çatdırmaq işin sürətini azaldır, xatirə sahibini yorurdu. Bununla yanaşı, başladığımız işin böyük səbir tələb etdiyini bilərək, araşdırmamızı layiqli şəkildə davam etdirə bildik.

İlk yazının bəzi nöqsan və çatışmazlıqları Qadınlar şöbəsinin eksperti tərəfindən üzə çıxarıldı və müsahibələrin ikinci mərhələsində aradan qaldırıldı. İkinci mərhələ xanım

Vətənxahla razılaşdırılaraq bir neçə ardıcıl gündə səhər tezdən gecəyə qədər davam etdi, kitabı əvvəlindən sonuna qədər kəlmə-kəlmə xatirə sahibinə oxudum. Bu zaman həm xatirə müəllifinin istədiyi düzəlişlər edilirdi, həm də yeni suallara cavab tapırdım.

Müxtəlif mövzular barədə geniş söhbətlər etmək, oxucunu düşündürəcək suallara qaneedici cavablar almaq, ziddiyyətli məqamları düzəltmək, hadisələri tarixi ardıcıllıqla sıralamaq, bir-birinə bağlı hadisələrdə səbəb-nəticə əlaqəsini tapmaq və onlarla başqa məsələ xatirələrin müəllifi ilə bir neçə aylıq yoldaşlığımın nəticəsi oldu.

Gülüb-ağlamaq, ünsiyyət, ülfət, mübahisə, hətta bəzən yüngül inciklik bu növ işlərin təbii nəticəsidir; onları heç vaxt unutmaram. İşin gözəlliyi ortaq məqsədin olmasında idi. Bu məqsəd bizi həvəslə bir-birimizin kənarında əyləşdirir, layihəni tamamlamaq üçün əməkdaşlığa sövq edirdi.

Məqsədimiz bu torpağın kişi və qadınlarının məzlum qəhrəmanlığını yenidən öyrənib qələmə almaq idi. Bu isə asan deyildi. Bir dostumuzun sözü ilə desəm, bu işin böyüklüyünü hamıdan çox şeytan anlayıb pusquda durmuşdu, hər an bir hiylə ilə bizi işdən soyuda bilərdi.

Sabah araşdırıcı ruhlu bir qız idi, İslam dini və İslam inqilabının bütün mərəhələlərini araşdırmış, öyrənmiş, yəqinləşdirmişdi. O, hicablı idi - buna görə yox ki, dindar ailədə doğulmuşdu. O, İmam Xomeyninin müridi idi – buna görə yox ki, İslam inqilabı dövrünün şəraiti tələb edirdi. O, öz doğma şəhərinin müdafiəçisi idi – buna görə yox ki, yaşamağa yeri yox idi və çarəsiz halda Xürrəmşəhrdə qalmalı, onu müdafiə etməli idi... Xeyr! Kitabda oxuyacağınız kimi, Sabah Vətənxah həmin illərin inqilabçı nəslinin bir nümayəndəsi olub, öz inanclarını və həyat yolunu şüurlu şəkildə seçib, bütün ağrı və acılara da hazır olub.

İkinci mərhələdə təxminən 100 saatlıq səs yazısı qeydə alındı. Məlumatları kitaba yerləşdirəndən sonra xanım Əzəm Hüseyni əsəri oxuyub bəzi məqamları xatırlatdı. Yenidən və çox diqqətlə orfoqrafiya düzəlişləri aparıldı. Üçüncü mərhələdə xanım Vətənxahdan bir neçə günlük müsahibə vaxtı alındı.

Müqavimət ədəbiyyatı şöbəsinin müsahibə otağı, İncəsənət mərkəzinin həyəti, naməlum şəhidlərin məzarı yanındakı çadır, xanım Vətənxahın, anamın və qayınanamın evləri bizim müsahibə yerlərimiz oldu. Ümidvarıq sorğu-sual günündə məqsəd və düşüncələrimizin doğruluğuna şəhadət verərlər.

Nöqsanlar aradan qaldırılandan sonra kitab əlavə beş mütəxəssis tərəfindən də oxundu və bəzi düzəlişlər edildi. Bu mərhələdə əsərin müsbət cəhətləri gücləndirildi, artıq hissələr çıxarıldı, oxucunu qane edəcək bir mətnin hazırlandığına əmin olduq. Qadınlar şöbəsi ilə mən daha çox xatirənin kitaba salınmasında israrlı idik, amma xanım Vətənxahın özü məsləhət bilmədi. Bu baxımdan, oxucunun bəzi xatirələr barədə daha çox bilmək istəyəcəyini istisna etmirik.

Qarşınızdakı kitab xatirə sahibinin və yazıçının İslam inqilabının qırxilliyi münasibətilə müştərək hədiyyəsidir. Bu inqilabı yıxmaqdan ötrü çoxları illərdir dişlərini qıcamışlar. Lakin onların unutduqları bir şey var: Nə qədər ki, bu gəminin sükanı müdrik rəhbərin əlindədir, nə qədər ki, Sabah və sabahlar həyatdadır, bu arzuları nakam qalacaq!

Sonda bu layihədə mənə kömək edən bütün əzizlərə təşəkkür edirəm: İncəsənət mərkəzinin və Müqavimət ədəbiyyatı şöbəsinin bu çətin yolda mənə səbir və hövsələ ilə yoldaşlıq edən əməkdaşlarına, davamlı məsləhət və dəstəklərinə görə xanım Əzəm Hüseyniyə, araşdırma və müsahibələri başa çatdırmaqdan, kitabı ərsəyə gətirməkdən ötrü sakit mühit və münasib şərait yaradan həyat yoldaşıma və əziz övladlarıma.

Ümidvaram bu kitab sayəsində təxminən on il xatirələri ilə yaşadığım əziz şəhidlər bu az zəhməti qəbul edib kəfənsiz ağalarının yanında məni yaddan çıxarmayacaqlar.

Fatimə Dostkami
Oktyabr, 2018

# Birinci fəsil:

## *Uşaqlıq*

Kuşk binasındakı evimizin pəncərəsindən başımı çıxardım. Məsud Paki motosikletlə, Bəsic geyimində qapıya gəlmişdi, sevincək və gümrah idi. Məni görən kimi əl yelləyib dedi: "Sabah bacı, salam. Tez ol, gəl, səni uşaqların yanına aparmağa gəlmişəm".

Ayaqlarının altı xırda parlaq ulduzlarla dolu idi. O qədər gözəl və nurlu idi ki, gözlərimi üzündən çəkə bilmirdim. Onu gördüyümə sevinərək və sözlərindən qərarsız halda dərhal pilləkəndən enməyə başladım.

Aşağıya çatmamış bacım Salehənin səsini eşitdim.

-Sabah, hara gedirsən?

-Uşaqların yanına getmək istəyirəm.

-Yox, Sabah, getməyəsən ha. Bilmirsən ki, imtahanın var?! Hara gedirsən?!

Dərin bir ah çəkdim. Qarşıda çətin bir imtahanımın olduğunu xatırladım.

Aşağı enib onunla hal-əhval tutdum. Məsudu kiçik qardaşım kimi istəyirdim. Yuxarıdan gözümə ulduz kimi görünən işıqlar ayaqlarının altında parlayan almazlar imiş. Narahat halda

dedim: “Mənim imtahanım var, sən get, mən sonra gələrəm, inşallah”.

Mətbəxdən gələn səsə yuxudan diksindim. Çaşıb qalmışdım, harada olduğumu bilmirdim. Ürəyimin döyüntüsünü eşidirdim. Yanımda yatmış bacım Şahnaz da həmin səsə oyandı. Həyəcanla mətbəxə qaçdıq. Atam yerə yıxılmışdı, tərpənmirdi. Bizdən sonra anam da mətbəxə qaçıb qışqırmağa başladı. Onun səsinə eyni binada qonşumuz olan bacım Firdovsla həyat yoldaşı Məhəmməd gəldilər. Onların arxasınca da qonşumuz xanım Huşməndlə oğlu Nəsrullah qaça-qaça özlərini yetirdilər.

Nəsrullahla Məhəmməd atamı çətinliklə Nəsrullahın taksisinə qoyub İmam Xomeyni xəstəxanasına apardılar. Böyük bacım Fevziyə ilə anam da onlarla getdilər. Mən evdə qardaşlarım Abbasla Möhsünün və kiçik bacım Munanın yanında qaldım.

Xəstəxananın Təcili yardım şöbəsinin həkimi dedi ki, atam beyin infarktı olub və bu, bədənini iflic edib. O, əl-ayaqlarını yalnız 24 saatdan sonra tərpədə bildi. Onu iki-üç gündən sonra xəstəxanadan buraxdılar.

Atam çox zəifləmişdi. İnfarktdan başqa, bir neçə ay öncə onun ağciyərində xərçəng yarandığını öyrənmişdik. Bir neçə dəfə kimyaterapiyaya da getmişdi.

Bir müddət ötdü. Vəziyyəti yaxşı deyildi. Hamımız gərgin idik. Onun necə ağrı çəkdiyini görəndə çox narahat olurduq. Atam dedi ki, Nemət əmiyə xəbər yollayın, Tehrana gəlsin. Əmim İsfahanın Şahinşəhr rayonunda yaşayırdı. Tez xəbər yolladıq, yoldaşı ilə birgə Tehrana gəldi.

Onlar gəlməzdən öncə atamın vəziyyətinin pis olduğunu görüb qardaşım Casimə də xəbər göndərdik. Casim ölkənin şimalında, Mahmudabadda yaşayırdı. Xürrəmşəhrin işğalından sonra qohumların hərəsi bir tərəfə səpələnmişdi. Qardaşım Casim ailəsi ilə birgə əvvəlcə Əhvazın Bəndiqir kəndinə, sonra

da Şiraz və İsfahana getmiş, axırda Mahmudabadda qaçqınlara məxsus bir şəhərciyə yerləşmişdilər.

Əmimlə Casim gələndən sonra atamın əhval-ruhiyyəsi çox yaxşılaşdı. Özünə gəlib yavaş-yavaş keçmişdən danışmağa başladı. Onlar üçlükdə yaxşı söhbətləşirdilər. Atam 1989-cu ilin dekabrında bir ömür həyatdan sonra keçmiş xatirələrini danışmağa başladı. Biz hər dəfə ondan həyatını söyləməsini istəyəndə boyun qaçırırdı. O vaxta qədər yalnız bunu bilirdik ki, adı Məhəmməddir, Xürrəmşəhrdə doğulub, iki yaşında anasını itirib, atası südəmər bir körpəni saxlaya bilmədiyinə görə xalasının yanında böyüyüb.

Atam bütün həyatını bizə danışdı. Sanki bir aydan artıq yaşamayacağını bilirdi. O, yanvar ayında bizi həmişəlik tərk etdi. Ölməzdən öncə bütün həyatını bir də yada salmaq istəyirmiş; bu dəfə ucadan və əzizlərinin yanında. Çox heyf ki, həmin bir ay bir göz qırpımında ötdü və gözlərimiz ağlar qaldı.

***

Atamın uşaqlıq, yeniyetməlik və gənclik xatirələrinin yüzcildlik bir roman olduğunu düşünməzdim. Babam Bəndər-Abbasın Minab rayonunda yaşamış, gənclik çağında Xuzistana köçmüşdü. O zaman Xuzistanın hakimi Şeyx Xəzəl idi. Babam yaxşı davranışına görə Şeyx Xəzəlin idarəsinə cəlb olunur, onun nəzarəti altındakı İzə və Məscid-Süleyman kimi şəhər və rayonların icra işlərini görür, vergilərini toplayır. Babam əvvəllər Əhli-sünnə məzhəbinə mənsub olmuş, sonradan On iki imam şiəliyini qəbul etmişdir. Ondan sonra heç vaxt ailəsinin yanına dönməmiş, onlarla əlaqədə olan dost və qohumları vasitəsilə vəziyyətlərindən xəbər tutmuşdur.

Babam Salehə adlı bir xanımla ailə qurur, 1919-cu ildə Xürrəmşəhrdə atam dünyaya gəlir. Atam iki yaşında anasını itirir və onu Bəsrənin Kutzin rayonunda yaşayan xalası saxlayır. Beş ildən sonra babam Kutzinə gedib yeddi yaşlı oğlunu özü ilə

Xürrəmşəhrə gətirir. Onda babam ailə qurmuşdu və atamın ögey anasından Bahar, Nicat və Nemətullah adlı iki bacısı və bir qardaşı vardı.

Yeddi yaşına qədər xalasının yanında böyüyən atam Quran oxumağı öyrənir və onu bir dəfə əvvəldən axıra qədər oxuyur. O dövrün adəti belə idi ki, Quranı ilk dəfə xətm edən uşağın ailəsi onu həvəsləndirmək üçün məktəbə hədiyyə aparırmış. Hədiyyə adətən, bir dəst yeni paltardan ibarət olurmuş. Xalası alıb ona aparmışdı.

Atam uşaqlıqdan atasının köməkçisi olub. Atası Rza şah hakimiyyətə gələnə və Şeyx Xəzəl Xuzistan hakimliyindən çıxarılana qədər onun müavini olmuşdu. Şeyx Xəzəl İrana maşın gətirən ilk adamlardan idi. Atam deyirdi ki, o maşınların əksər hissəsi taxtadan düzəldilirdi. O, yeniyetməlik çağından maşınla işə başlayır, Xuzistanda ingilislərin və hindlilərin fəaliyyət göstərdiklərinə görə ingiliscə və hindcə danışmağa başlayır. Bu iki dili mükəmməl bildiyinə görə onlardan xarici maşınlarla işləməyi öyrənir və çox tez bir zamanda Arma nəqliyyət şirkətinin ən yaxşı sürücülərindən olur. Atamı on beş yaşında gözəl, ağ üzlü, atamdan iki yaş kiçik olan və Fəri adlandırılan Fəridə adlı sakit bir xanımla evləndirirlər. Onlar ailə qurandan sonra babamın böyük və çoxotaqlı evində yaşamağa başlayırlar.

Onlardan başqa, atamın qohumlarından biri də orada yaşayırmış. Atamın dediyinə görə, o, həmişə içkili olardı. Buna görə Fəriyə təkidlə tapşırırdı ki, özü evdə olmayanda otaqdan bayıra çıxmasın. Ögey anasının Fərini bəyənmədiyini və onların xoşbəxtliyini istəmədiyini bildiyinə görə daim deyirmiş ki, məbada onun sözü ilə otaqdan çıxasan. Özü də qorxurdu ki, atamın olmamasından sui-istifadə edib onu işlədərlər.

Bir qədər sonra Fəri hamilə olur. Hamiləliyinin son günlərində atam bir işdən ötrü Əhvaza gedir və gecə

Xürrəmşəhrə qayıda bilmir. Maşınların sürətinin az, yolların da daş-kəsəkli olduğuna görə gecə qayıtmama ehtimalı olduğunu ona bildirir, həmişəki kimi təkidlə tapşırır ki, o gəlməmiş ayağını otaqdan bayıra qoymasın. Atam gedəndən sonra ögey anası Fərinin yanına gəlib deyir: "Hamiləliyinin son günləridir, qalx, əşyalarını topla, get atangilə. Burada doğuş ağrıların başlasa, köməksiz qalarsan".

Fəri ərinin icazə vermədiyini nə qədər söyləsə də, sözünə qulaq asmır, axırda onu zorla bir barkasda Əhvaza göndərir. Zavallı Əhvaza qədər ağlayır, o qədər həyəcan keçirir ki, Bəndiqirə çatmamış elə gəmidəcə qardaşım Casim dünyaya gəlir. Atam qayıdanda ögey anasından Fərini soruşur. Onu özünün zorla göndərdiyini söyləmədən deyir ki, atasıgilə gedib. O vaxt böyüklərin hörməti o qədər dəyərli idi ki, atam bu işin içində bir iş olduğunu ehtimal etsə də, atasına görə heç bir söz demir. Qorxur ki, ögey anasına bir söz desə, atası narahat olar. Onda özünün də vur-tut 16 yaşı varmış. O, gənclik qüruru ilə belə söyləyir: "İndi ki gedib, həmişəlik getsin. Mən heç vaxt onun ardınca getmərəm!"

Xuzistan ərəblərinin adətinə görə, adı Məhəmməd olan bir ata ilk oğlunun adını Casim qoymalıdır. Onlar düşünürlər ki, peyğəmbərin adı Məhəmməd, ilk oğlunun adı da Qasim olmuşdur. Bu baxımdan, Əbülqasim (Qasimin atası) künyəsi yalnız Peyğəmbərə məxsusdur. Digərləri ilk oğullarına ona uyğun olan başqa bir ad qoymalıdırlar. Fəri də qardaşımın adını Casim qoymuşdu.

Atam Fərini qiyabi şəkildə boşayır. Casim beş yaşına çatanda anası onu qohumlarından biri ilə atasının yanına yollayır. Fəri bu müddətdə ailə qurmuş, Casimə yoldaşının Hüseyni soyadını verərək ona şəxsiyyət vəsiqəsi almışdı. Casim həmin səfərdə atamı görə bilməyib geriyə anasının yanına qayıdır.

Bir müddətdən sonra atam Əhvaza gedir və soruşa-soruşa ağa Hüseyninin evini tapır. Fəriyə deyir ki, oğlunun ardınca gəlmişdir. O zaman Casimin yalnız beş yaşı olsa da, dayısının yanında işləyirmiş. Atasının onu Xürrəmşəhrə aparmağa gəldiyini öyrənəndə demişdi: "Yaxşı, gedirəm. Burada dayım üçün işləyirəm, ən azı, orada atam üçün işləyərəm".

İllərlə oğlunu görməyi arzulayan atam onu bərk qucaqlayıb öpür, ertəsi gündən öz yanında işləməyə aparır. Casim atama çox oxşayırdı, sanki bir almanı ortadan ikiyə bölmüşdün. Həmin günlərdə atamın hərbi xidmət vaxtı çatır. O, Hərbi Dəniz Qüvvələrinin ozamankı komandanı General Bayandırın şəxsi sürücüsü olur. Onun əsgərlik dövrü İkinci dünya müharibəsinə, İranın İngiltərə, SSRİ və ABŞ tərəfindən işğalı zamanına təsadüf edirdi. O zaman atam General Bayandırı Tehrana aparıb-gətirirmiş. O deyirdi:

-Hicab qadağası zamanı bir dəfə Tehranın Təcriş rayonunda idim. Hicablı bir qadın küçədə evinin önündə qab yuyurdu. Bu zaman bir polis çavuşu başörtüyünü açmaq üçün ona hücum etdi. Yaxınlaşıb xoşluqla dedim ki, qadınla işin olmasın, qoy işini görsün. Polis dedi: "Get işinin dalınca, süpürgəçi, sənə dəxli yoxdur". Bu sözü deyən kimi onunla dalaşmağa başladım, onu o ki var döydüm. Bütün üzü qana boyandı, əldən düşdü, bir tərəfdə uzanıb qaldı. Yanımdakı əsgərlərin birinə dedim: "Get, bir kisə tap, gətir".

Polisi kisənin içinə salıb ağzını bağladım, yoldaşımın köməyilə maşına qoydum, Təcriş polisinə aparıb bölmənin həyətinə atdım. Keşikçi polis: "Bu nədir?" – deyə soruşanda cavab verdim ki, mən süpürgəçiyəm, bu da zibildir!

Polis çavuşu Hərbi Dəniz Qüvvələrinin formasını geyinmiş atamı təhqir etdiyinə görə keşikçi zabit də bir söz deməmiş, özü də kisəyə bir-iki təpik vurub onu hörmətlə yola salmışdı.

Xuzistanın işğalı zamanı əhalinin vəziyyəti çox pisləşmiş, ingilis hərbçilərin fəsad və hegemonluğu Xürrəmşəhrin əmin-amanlığını pozmuşdu. Atam həmin hadisələrə görə hərbi xidmətdən sonra Həbib, Səbur, Tahir və Faleh adlı dörd dostu ilə birgə qardaşlıq, sonra da alicənablıq əhdi bağlamışdı. Onlar bir-birinə söz vermişdilər ki, heç bir rus, ingilis və amerikanı öz məhəllələrinə buraxmasınlar. İkinci əhdləri də bu idi ki, maddi durumu ağır olan məhəllə sakinlərini ac qoymasınlar.

O zaman atam Neft şirkətində və Xürrəmşəhr limanında işləməyi sınaqdan keçirmiş, amma hər ikisində ingilislərin nüfuzuna görə işdən çıxmışdı. O deyirmiş: "Limanın pulu şübhəlidir. Oranın yerini hökumət zorla camaatdan alıb. Ora qəsb olunmuş yerdir və orada qılınan namaz batildir".

Sonra bir nəqliyyat şirkətinin dəvəti ilə bir neçə aylıq Küveytə getmiş, vətəndən uzaq olduğuna görə orada da çox qalmayıb Xürrəmşəhrə qayıtmışdı. O, bir neçə ildən sonra yenidən ailə qurmaq qərarına gəlmişdi. Dayısı yoldaşı Firəngiz ona Bürucerddən bir qızla evlənməyi təklif etmiş, atam da razılaşmışdı. O qız ana tərəfdən nənəmizin kirəçisi olan İran xanımın qızı idi. İran xanım demişdi ki, qızım yetimdir, onu uzaq yerə vermərəm. Şərt kəsmişdi ki, kürəkən burada Bürucerddə yaşamalıdır. Atam da qəbul etməmiş və elçilik nəticəsiz qalmışdı.

Bu zaman dayıdostu Firəngiz, bibi çağırdığımız nənəmə baş çəkməyə gəlir. Dayıdostu onda nənəmlə qohum deyildi, Bürucerdə gedib-gəldiyinə görə onunla tanış olmuşdu. Bibinin evində həmin vaxt 14 yaşında, çox gözəl və incə qız olan anamı görmüş, tez gəlib məsələni atama danışmışdı. Atam ondan öncə Bürucerddə bir neçə dəfə anamın atası ilə görüşmüşdü, ondan xoşu gəlirdi. Buna görə razılığını bildirmişdi. Anam da atamı görüb bəyənmişdi. Əlbəttə, o zaman qızın fikri mühüm deyildi, ata hansı qərarı versəydi, hamı qəbul edərdi.

Atam toy münasibətilə gətirdiyi hədiyyələri anama verir və Bürucerddə qaldığı bir həftədə təmtəraqlı toy edir. Sonra anamı, bibimi, babamı və bəzi qohumları Xürrəmşəhrə gətirir. Bir-iki gündən sonra Xürrəmşəhrdə də toy edir, anamla və Casimlə birgə ailə həyatına başlayırlar. Bibi də bir müddət onların yanında qalır, qızının vəziyyətindən arxayın olandan sonra Bürucerdə qayıdır.

Atamla anamın toyundan bir il sonra, 1953-cü ildə bacım Fevziyə dünyaya gəlir. Həmin ildə Məlavi nəqliyyat şirkətindən verilən tapşırığa əsasən, atam Ənzəliyə köçməli olur. Ailəsi ilə birgə oraya gedir, ancaq çox qalmır, bir il yarımdan sonra Xürrəmşəhrə qayıdır.

Fevziyədən iki il sonra Şahnaz dünyaya gəlir, ondan da iki il sonra Salehə. Salehədən sonra anam Firuzə adlı bir qızı köməkçi kimi evə gətirir. Firuzə bir kasıb qonşumuzun qızı idi. O, gündüzlər anama kömək edir, axşamlar evlərinə qayıdırdı. Beləliklə, həm yeyib-içməyi bizdən olurdu, həm də kömək etdiyinə görə zəhmət haqqı alırdı.

Bu müddətdə bibim digər qızını, yəni Məryəm xalanı başqa bir xürrəmşəhrliyə ərə verir ki, anam tək qalmasın. Məryəm xalamın yoldaşı Məhəmmədəli Hicab yaxşı, dindar bir kişi idi. Biz ona Hicab əmi deyirdik. O, Məryəm xalayla ailə quranda gömrükdə işləyirdi.

Mən Salehədən iki il sonra, 1959-cu ildə Xürrəmşəhrdə dünyaya gəlmişəm. Ailəmizin dördüncü qızı idim. Biri ərəb, biri də lor olan valideynlərim oğlan uşağını sonsuz dərəcədə istəyirdilər. Buna baxmayaraq, anamın dediyinə görə, hər dəfə qızı dünyaya gələndə atam əsla narahat olmur, beşiyimizi öpüb alnına qoyurmuş.

-Məni qaşqabaqlı görəndə deyirdi: "Arvad, Allah eləməmiş, naşükürlük etməyəsən ha! Bu qızların hamısı Allahın nemətidir. Sağlam olduqlarına görə şükür et!"

Atam qızlarına çox əhəmiyyətli yanaşırdı. Heç vaxt yadımdan çıxmaz, qurumasın deyə həmişə əllərimizə yağ sürtərdi. Həmçinin saçtökülmə və traxoma xəstəlikləri yayılanda həm özü sağlamlığımıza diqqət edirdi, həm də anama çox diqqətli olmasını tapşırırdı. Su boruları olmadığına, su anbarından istifadə etdiyimizə görə həmişə anamı məcbur edirdi ki, suyu qaynatsın. Onda bugünkü kimi hamama getmək adəti yox idi. O isə evdə kiçik bir hamam tikmişdi, hər axşam bizi çimməyə göndərirdi. Hətta soyuq qış gecələrində də bu işindən əl çəkmirdi. Bizi bir-bir hamama göndərir, sonra isti su torbası verirdi ki, yorğanın altında qızışaq.

Hələ üç yaşım tamam olmamış atam Xürrəmşəhrdən İraqa köçmək qərarına gəldi. O, qeyrətli və təəssübkeş adam idi, ailə-uşaqlarının hicabın qadağan olunduğu, hər yerin fəsadla dolduğu bir ölkədə qalmalarını istəmirdi. Düşünürdü ki, İraqda bir qədər çətinlik çəksə də, buna dəyər.

Bəsrə şəhərinin Əşşar prospektində Seyid Behbahani soyadlı mömin bir iranlının kirəçisi olduq, bir ildən bir qədər artıq orada qaldıq. Bizim İraqa mühacirətimiz 5 İyun qiyamı günlərinə təsadüf edirdi. Ağa Behbahani inqilabçı adam idi, daim İranla bağlı xəbərləri izləyir, İmam Xomeyninin və digər ruhanilərin çıxışları ilə maraqlanırdı.

Onun kiçik bir qızı vardı, onunla birgə oynayırdıq. Əlbəttə, çox vaxt oyunun ortasında sözümüz çəp gəlirdi və saçyolduya çıxırdıq.

Ailəmizin beşinci uşağı olan qardaşım Əli İraqda dünyaya gəldi. Anam çox sevinir, oğluna baxıb həzz alırdı. Dörd qızdan sonra nəhayət, oğul anası olmuşdu. Atam orada da bir neft şirkətində sürücü işləyirdi. Oranın həyat tərzinə yeni alışmağa başlamışdıq ki, Nemətullah əmi gəldi. Onda atam xəstələnmişdi, qardaşı ondan ötrü narahat idi. Deyirdi ki, qayıdın İrana, nə də olsa, öz vətənimizdir. Atamsa razılaşmırdı.

Axırda Nemət əmi dedi: "Əgər İrana qayıtsan, əvvəlki kimi qardaşıq, yox, əgər qayıtmasan, daha qurtardı!"

Atam daha əmimin sözündən çıxa bilmədi və biz Xürrəmşəhrə qayıtdıq.

İrana qayıdandan sonra yenidən Məlavi şirkətində işə başladı. Şirkət bu dəfə onu Tehrana yolladı. Hamımız oraya getməli olduq. İndiki Risalət meydanının yaxınlığında su anbarı olan bir ev kirayə etdik. Su anbarında bacılarımla oynadığım oyunlar heç vaxt yadımdan çıxmaz. Orada çox yaxşı günlər keçirdik.

Fevziyənin məktəb yaşı çatmışdı, amma atam qızlarının məktəbə getmələrini istəmirdi, evdə anamızın yanında qalanda arxayın olurdu. Özü mütaliəçi adam idi, amma qızlarının tağut rejiminin məktəblərinə getmələrinə pis baxırdı, cəmiyyətdəki fəsadların qızlarına da bulaşacağından qorxurdu.

Atam evə tez gələndə hamımızı başına toplayıb kitab oxuyurdu. Kitablarının çoxu Misir və Beyrutda çap olunmuş ərəbcə kitablar idi, oxuyub bizə tərcümə edirdi: Min bir gecə, Leyli və Məcnun, Qeys və Libnə, Əntər və Əbələ, Əmr və Qeys, Quran hekayələri və s. Ramazan ayında hər axşam ucadan bir cüz Quran oxuyur, ayın sonuna qədər bütün Quranı xətm edirdi. Bütün bunlara baxmayaraq, anam nə qədər israr etdisə, Fevziyəni məktəbə qoymadı.

Bir ildən sonra atamın ezamiyyəti bitdi. Biz yenidən Xürrəmşəhrə qayıtdıq, ancaq orada çox qala bilmədik. Atamı Xürrəmabada göndərdilər. Artıq belə həyat tərzinə alışmışdıq. Haraya gedirdiksə, atam yaxşı bir ev kirayə edirdi, yemək-içmək, geyim və qayğı baxımından korluq çəkməməyimizə, tez-tez yerdəyişmələrdən imkan daxilində az əziyyət çəkməyimizə çalışırdı.

Xürrəmabadda anam israrla atamdan Fevziyəni məktəbə yazdırmasını istədi. Atam qəbul etmirdi, amma nəyahət, anam

onu razı sala bildi. Anam Fevziyəni məktəbə aparanda dedilər ki, 9 yaşı olduğuna görə birinci sinifdə otura bilməz, birinci və ikinci sinif imtahanlarını verməli, qəbul olsa, üçüncü sinfə getməlidir.

Fevziyə istedadlı qız idi. Anam ona birinci və ikinci sinif kitablarını aldı. Quran əlifbasını bildiyinə, gecələr atamla bibinin danışdığı əhvalat və nağıllarla tanış olduğuna görə imtahanlardan keçdi və növbəti dərs ilində üçüncü sinifdə oturdu. Həmin il Şahnaz da birinci sinfə yazılıb məktəbə getdi.

Xürrəmabadda bir az qalandan, oradakı dost və qonşulara öyrəşəndən sonra yenidən Xürrəmşəhrə qayıtmalı olduq. Qayıdandan sonra bacım Firdovs dünyaya gəldi. Onun gəlişilə evimizin ab-havası dəyişdi. O, şirin və sevimli qız idi, Xürrəmabaddakı dostlarımızdan ayrıldığımız üçün çəkdiyimiz qəm-kədəri yadımızdan çıxarırdı.

Anam Fevziyənin, Şahnazın və Salehənin adlarını Pərvin Etisami adına ibtidai məktəbə yazdırdı. O, uşaqlarının dərs oxumalarını çox istəyirdi, altı yaşıma girdiyimə görə məni də onlarla birgə məktəbə yazdırdı. Bir qədər sonra məktəbimizin direktoru anamı məktəbə çağırdı. Direktor və müəllimə anama demişdilər: "Məgər uşağından yorulmusan ki, zorla və vaxtından tez məktəbə göndərirsən?!" Anam, "Məgər nə edb?" – deyə soruşanda belə cavab vermişdilər: "Yazıq heç nə etməyib, amma sinifdə ya yatır, ya da mürgüləyir!"

Doğru deyirdilər; məktəblə uyğunlaşa, partanın arxasında qərar tuta bilmirdim. Ya dəcəllik etmək istəyirdim, ya da oturub yatmaq. Həmişə əsnəyirdim. Məktəbə gecikməyək deyə anam biz dörd qızı səhər tezdən oyadırdı. Bundan əlavə, mənim saçım qıvrım idi, daramaq olmurdu. Hər səhər Fevziyə saçıma yağ sürtüb darayırdı. Bu, çox vaxt alırdı, ikimiz daha tez oyanmalı olurduq. Məktəbdən qayıdandan sonra da o qədər oynayırdıq ki, yatıb istirahət etmək yadımdan çıxırdı. Bu baxımdan, yaxşı

yatmır, səhərlər ağlaya-ağlaya oyanırdım. Sinif mənə olduqca yorucu gəlirdi. Müəlliməm xanım Tələyi idi. Qayğıma qalır, mənə çox fikir verirdi, ancaq yenə də sinifdə başım oyan-buyana aşırdı.

Direktorun və müəlliməmin sözündən sonra anam razılaşıb məni evə gətirdi. Qərara gəldik ki, növbəti ildə məktəbə gedim.

Növbəti ildə atam Şiraza ezam olundu. Əşya və avadanlıqlarımızı toplayıb yeni yerimizə getdik. Anam Bürucerddə yaşayan Qulam dayıma teleqram göndərib Şiraza getmək istədiyimizi xəbər verdi. Dayım tez özünü Xürrəmşəhrə yetirib əşyalarımızı avtobusuna yığdı. Atam bir ay öncədən getmişdi və gəlib bizi apara bilmirdi.

Fars əyalətinin Şirazdan təxminən birsaatlıq məsafədə yerləşən Hüseynabad kəndinə getdik. Yanvar ayı idi. O zaman atam bizim dərslərimizlə anamdan çox maraqlanırdı. Biz Xürrəmşəhrdəki səliqəli partalarımızın arxasından gəlmişdik. Hüseynabad məktəbində isə yalnız bir böyük sinif vardı, birincidən altıncıya qədər siniflərin bütün şagirdləri oraya toplaşmışdılar. Məktəbin dirketoru və yeganə müəllimi olan ağa Xaliqi dedi: "Mən bu şagirdləri zorla idarə edirəm, yeni şagird qəbul edə bilmərəm".

Atam divarları da ağardılmamış köhnə sinfi görüb ağa Xaliqiyə dedi: "Əgər məktəbinizə yeni bir sinif tiksəm, uşaqlarımı qəbul edərsiz?"

-Əlbəttə ki. Bizim burada yerimiz, imkan və şəraitimiz yoxdur. Əgər bunu etsəniz, böyük savab qazanmış olarsız.

Atam Məlavi şirkətinin rəhbərinə demişdi ki, uşaqlarımın təhsil alması üçün burada bir sinif tikmək lazımdır. Əgər lazımi materialları versəniz, qalıb sizinlə işləyərəm, uşaqlarım üçün təhsil imkanı olmasa, burada qala bilmərəm. Atamın müdiri bu şərti qəbul etməyə məcbur olmuşdu. O zaman atam daş mədənlərinə məxsus ağır dumper maşınını idarə edən yeganə

şəxs idi. Bu maşının bütün işarələri ingiliscə idi, hər sürücü onu idarə edə bilmirdi. Beləliklə, müdir Hüseynabad məktəbinə bir sinif tikmək xərcini öz üzərinə götürmüşdü.

Bu illərdə Casim ailə qurmuş, bir uşağı olmuşdu. Atam onu öz şirkətlərində işə düzəltdi, onlar da bizim yanımıza gəldilər. Dadaş Casimin oğlu Kərim də birinci sinfə gedəcəkdi. O, dəcəlliyinə görə qabaqkı dərs ilində sinifdə qalmışdı. Salehə də bizimlə idi.

Hamımız məktəbə getdik. Qərara gəldilər ki, yeni sinif tikilənə qədər köhnə sinifdə oxuyaq və dərsdən geri qalmayaq.

Məktəbimiz gözəl bir çayın kənarında yerləşirdi. Çayın ətrafı ağ yastı daşlarla dolu idi. Daşlar mərmərə bənzəyirdi. Hüseynabad iki yaşıl təpənin arasında yerləşirdi. Məktəbdən bir qədər uzaqlaşandan sonra gözəl yaşıl yamaclarda oynaya bilirdik.

Bir ay bitməmiş yeni sinif hazır oldu. Birinci, ikinci və üçüncü siniflər köhnədə qaldılar, dördüncü, beşinci və altıncı siniflər isə daha böyük olan və divarları ağardılmış yeni sinfə getdilər. Köhnə sinifdə qədim bir soba vardı, güc-bəla ilə sinfi qızdırırdı. Atam yeni sinfə təzə odun sobası aldı.

Əvvəlki kimi hər iki sinfin müəllimi ağa Xaliqi idi. O, dərs cədvəlini elə tərtib etmişdi ki, hər iki sinfi idarə edə bilirdi. Bir sinfə dərs keçir, sonra tapşırıq verib digərlərindən böyük olan bir şagirdi öz yerinə qoyur, özü isə digər sinfə gedib dərs verirdi.

Ağa Xaliqi qayğıkeş, mömin və təmizkar müəllim idi. O, uşaqların əl və dırnaqlarını hər gün yoxlayırdı. Kimin əlinin dərisi qurumuş olsaydı, qorxudub deyirdi ki, sabah əllərini yağlamasan, falaqqaya yatıracağam. Həmişə dərsin axırında tapşırırdı ki, əllərimizi günəbaxan və ya kərə yağı ilə yağlayaq. Çox vaxt kəndxudanın qızı kiçik bir qabda kərə yağı gətirirdi, onunla əllərimizi yağlayırdıq. Hansı şagird dəcəllik etsəydi,

dərs oxumasaydı və ya tapşırıqlarını yazmasaydı, falaqqaya uzanırdı. Bizim sinif nümayəndəmiz iri cüssəli bir oğlan idi. Yaşından bəlli idi ki, bir neçə il sinifdə qalıb. Uşaqlar ondan çox çəkinirdilər. Falaqqa vaxtı gələndə ağa Xaliqinin göstərişilə, uşaqların ikisilə birgə cəzalı şagirdi sinfin yerinə uzadır, nazik çubuqla ayaqlarının altına vururdu. Bizim falaqqamız bu tərzdə idi, xüsusi dəm-dəsgahı yox idi. Ağa Xaliqi cəza məsələsində heç kimə güzəştə getmirdi. Yadımdadır, bir gün kəndxudanın qızını da falaqqaya yatırmışdı. Bacarıqlı və dərsoxuyan şagirdlərdən idi, amma nə üçünsə cəzalandırılmışdı.

Ağa Xaliqi şahnaməni oxumağı da cədvəlimizə salmışdı. O, bizi hər gün bir saat artıq saxlayıb kitabın bir hissəsini oxuyurdu. Bu zaman bizi də yeni sinfə aparıb sıx oturdur, şahnaməni oxuyub izah edirdi. Heç vaxt yadımdan çıxmaz, Söhrabın Rüstəm tərəfindən öldürülməsini oxuyanda hamımız hönkür-hönkür ağlayırdıq.

Ağa Xaliqi mənəviyyatlı adam idi. Yeni sinif tikiləndən sonra ilk günlərdə hamımızı oraya yığıb deyirdi ki, cütayaqlı atılıb-düşün, yer hamarlansın. Bizə öyrətmişdi ki, atılıb-düşəndə xorla belə oxuyaq:

Yolum karxanaya düşmüşdü dünən,
Orada minlərcə kuzə gördüm mən.
Hərə öz diliylə mənə deyirdi:
Hanı kuzə alan, satan, düzəldən?[1]
Yaxud belə oxuyurduq:
Ürəyim əlimdən gedir, ey ürək sahibləri!
Dərd budur ki, gizli sirr əyan olacaq.
Biz gəmini sındıranlarıq, ey cəzalandırıcı külək!
Qalx, bəlkə yenə dostla görüşə bilək.

[1] Şeir Ömər Xəyyama, tərcüməsi Mirmehdi Seyidzadəyə məxsusdur.

O, hər gün saat 12-də məktəbin zəngini vurub deyirdi: “Gedin, çayın kənarında dəstəmaz alın, corablarınızı yuyun və qayıdın”.

Uşaqlara qarşı çox diqqətli idi. Hətta çayın kənarında nəzarət üçün də nümayəndə ayırmışdı, dəcəllik etməyə qoymurdu. Biz qızlar corablarımızı yuyub sıxır, sonra tez qurusun deyə havada fırladıb möhkəmcə əlimizə vururduq. Bu zaman hərə özü üçün bir şeir oxuyurdu. Mən də Bürucerd ləhcəsilə bu şeiri oxuyurdum:

Ey sərçə!
Sənə çörək verərəm, su verərəm.
Onu qurut!

Uşaqlıq aləmimdə fikirləşirdim ki, gözəgörünməz bir sərçə gəlib corablarımı qurudacaq. İlk dəfə dəstəmaz almağı özümdən böyüklərə baxıb öyrəndim. Çayın kənarında dəstəmaz alır, sonra nəmli corablarımızı geyinib sıra ilə məktəbə qayıdırdıq.

Ağa Xaliqi özü azan deyir, məktəbin həyətində hamıya namaz qıldırırdı. Əlbəttə, ona həyət demək olmazdı. Siniflərin önünü çayın kənarındakı daşlarla döşəyib özümüzə həyət düzəltmişdik. Namaz qılmağı da özü öyrətmişdi. O, öndə dayanırdı, biz də arxasında.

Şirazdan yaxşı xatirələrim var. Həftəsonunda atam bizi Şahçıraq ziyarətgahına aparırdı, sonra Vəkil bazarına, oradan da Hafizlə Sədinin məqbərələrinə gedirdik. Birlikdə dondurma və faludə yeyir, alış-veriş edirdik.

Məhərrəmlikdə Hüseynabad kəndinin xüsusi ab-havası olurdu. Atam kəndin mərkəzindəki əyləncə yerində brezent çadırlarla böyük bir təkyə qururdu. Axşamlar camaat oraya toplaşıb əzadarlıq edirdi. Hərdən atam özü də rövzə oxuyurdu.

Dini inanclarla bərabər, onun xüsusi inamları da vardı. Məsələn, bizi heç vaxt pepsi içməyə qoymurdu. Deyirdi ki, bir pepsi alanda israilli iş adamlarının cibinə bir qran pul gedir. Deyirdi ki, bu şirkət bəhailərindir, qazancı da İsrailə çatır. Onlar Fələstini işğal edib əhalisini öldürdüklərinə görə hər pepsi alanda, əslində, fələstinlilərin qanlarının tökülməsində iştirak etmiş oluruq. Biz də alışmışdıq və heç vaxt pepsi içmirdik.[1]

***

Birinci sinif Hüseynabad kəndinin və yaxşı müəllimimiz ağa Xaliqinin xoş xatirələri ilə bitdi. Yayda atam başqa bir ezamiyyətə əsasən, Bürucerd şəhərinə getdi. İkinci sinfi orada oxudum. Həmin ildən yaxşı xatirəm yoxdur. Xəttim pis olduğuna görə müəlliməm tez-tez məni döyürdü. Yazmağa başlayanda bir sətirdən başlayırdım, amma axırına çatanda nədənsə üç-dörd sətir aşağı düşmüş olurdum. Müəllimə mənə yol öyrətmək əvəzinə, hər dəfə əllərimi qabağa tutmağımı söyləyir, taxta xətkeşlə möhkəmcə vurur, gözlərimdən yaş gəlirdi. Bürucerdin soyuq payız və qış fəsillərində əllərim quruyurdu, xətkeş dəyəndə canım yanırdı.

Növbəti ildə atamı Kirmanın Bərdsir rayonuna göndərdilər. Hamımız oraya yollandıq. Atam orada böyük bir bağ evi kirayə etdi. Evin iki otağına biz yerləşdik, birinə də atamın şagirdi olan ağa Barat yoldaşı və iki qızıyla birgə. Kiçik qızı Səkinə təxminən mənimlə yaşıd idi. O, Salehə və mən birlikdə oynayırdıq.

---

[1] Pepsi-Cola şirkəti bəhailərə məxsus olduğuna görə, İslam inqilabından öncə Mərəşi Nəcəfi, İmam Xomeyni, Gülpayiqani və digər təqlid müctəhidləri haramlığına dair fətva vermiş, onun bəhailərin casusluq və anti-İslam mərkəzi olduğunu bildirmişdilər. ABŞ səfirliyindən əldə olunan bəzi sənədlər isə göstərir ki, Pepsi şirkətinin İrandakı distribütoru uyğun səfirliyə belə bir məlumat vermişdi: "Dörd il öncə, yəni 1975-ci ildə İranda pepsinin satışını artırmaqdan ötrü Ayətullah Şəriətmədariyə pul verilmişdir". Bax: Casus yuvasına dair sənədlər, Birinci kitab, səh. 77.

Ev sahibi bağda çoxlu günəbaxan əkmişdi. Bağda və evin ətrafında çoxlu tut ağacları da vardı. Bir gün Şahnazla birgə bir qucaq günəbaxan dərib sevincək evə gətirdik. Fevziyə onları görən kimi bizi danlamağa başladı.

-Siz nə etmisiz?! Ev sahibi razı deyil, bunlar haramdır. Kimin icazəsilə camaatın malını dərmisiz?!

Üçüncü sinfi Bərdsirdə qurtardım. Həmin ilin iyun ayında ikinci qardaşım Abbas dünyaya gəldi, ailəmizin ortamı bir az da səmimiləşdi. Yayda anam hamımızı qədimdən uşaqlara Quran öyrədən bir qonşu xanımın məktəbxanasına aparıb bizə Quran öyrətməsini söylədi. O, maraqlı adam idi. Hər gün ilk bir neçə dəqiqədə bizə Quranın kiçik bir surəsini oxutdurur, sonra deyirdi ki, kiçiklər gedib ağacdan tut yesinlər, böyüklər də evin yuyulmamış qablarını yusunlar. Özü də yıxılıb yatırdı.

Bir ildən sonra yenidən Bürucerdə qayıtdıq. Atam indiki İmam Xomeyni prospektinin Cəşnian küçəsində böyük bir ev aldı. Yeni evimizdə dərin bir quyu vardı, nasosla ondan su çəkirdik. Quyuya yaxınlaşmayaq deyə anam bizə demişdi: "Quyuda qəribə bir valıq var. Adı Xeycədir. Onun uzun qolları var. Kim başını əyib quyuya baxsa, tutub quyuya salır".

Xeycə nağılına hamımız inanırdıq. Quyudan su çəkmək istəyəndə qorxudan gözucu olsa belə, aşağı baxmırdıq. Bəzən Fevziyə ilə Şahnaz quyudan su çəkməkdə yarışırdılar. Kim çox su çəkib həyətin ortasındakı hovuza töksəydi, qalib sayılırdı. Həyətdə nisbətən dərin olan uzun dördbucaqlı bir hovuz vardı. Yayda atam evdə olmayanda gizlicə içinə girib çimirdik. O, qızlarının hovuzda çimmələrini xoşlamırdı.

Atam təbiəti və ovu çox sevirdi. Yayda bizi iş yerinə ən yaxın bir kəndə aparır, orada bir ev kirayə edirdi. Bununla həm bizə yaxın olurdu, asanlıqla evə gəlirdi, həm də biz təbiətdən zövq alırdıq. Atamgilin şirkəti həmin il Bürucerd-Ərak magistralını asfaltlayırdı. Buna görə o, Zalyan adlı bir kənddə bizə ev tutdu.

Oraya gedəndə qohumların çoxu istirahət üçün yanımıza gəlirdi. Bir dəfə Xürrəmşəhrdən Məryəm xalamla Bürucerddən Qulam dayım gəldilər. Bir gün Məryəm xalamın oğlu Əhmədlə Qulam dayımın oğlu Xosrov Salehə ilə mənə dedilər: "Gəzməyə çıxmaq istəyirik. Bizimlə gəlirsiz?" Dedik ki, haraya? Dedilər: "Gəlin, görərsiz".

Onların arxalarınca yola düşdük. Gedə-gedə kəndin məktəbinə çatdıq. Qapı bağlı idi. Əhmədlə Xosrov qapını döydülər. Heç kim açmadı. Məktəbdə kimsənin olmadığını biləndən sonra biri divardan aşıb içəridən qapını açdı. Hamımız içəri girdik. Salehə ilə mən özümüzə gəlincə Əhmədgil məktəbin qapısına vurulmuş Şahənşah bayrağını qopardılar, iki tərəfindən tutub məktəbdən çıxdılar. Onlar məhəllənin küçələrində qaçır, bayraq da yerlə sürünüb toz-torpağa bələşirdi. Biz də onların ardınca qaçırdıq. Qohumlarımızdan heç kim Pəhləvi rejimini sevmirdi. Uşaqların bu hərəkəti Pəhləvilərə nifrət hissindən qaynaqlanırdı.

Biçin mövsümü idi. Əkinçilər biçdikləri noxud və lobyaları çaya yumağa gətirmişdilər. Onların bir neçəsi əlimizdəki bayrağı görüb, haray-həşir salmağa başladı. Axşam atam evə gələndə bildik ki, dəcəlliyimiz kəndxudanın qulağına çatıb, o da birbaş atamın yanına gedib şikayət edib. Atam deyirdi ki, yazığın rəngi qaçmışdı, dayanmadan deyirdi: "Əgər jandarmeriya məmurları uşaqlarının Şahənşah Ariyamehrin bayrağını necə təhqir etdiklərini bilsələr, gəlib səni apararlar. Sən Allah, bu işlərin bir də təkrarlanmasına imkan vermə".

Atamın bir tərəfdən bizim cəsarətimizdən xoşu gəlmişdi, bir tərəfdən də başağrısı yaranmasından qorxurdu. Tapşırdı ki, bunu bir də təkrarlamayaq.

Atamın bir qoşalüləsi vardı, arabir iş yoldaşları və şirkətin mühəndisləri ilə dağa ova gedirdi. Tüfəngin patronları müxtəlif ölçülərdə idi, seçmələrin sayı da fərqlənirdi. Atam deyirdi ki,

böyük patronlar böyük heyvanları, məsələn, ayını ovlamaq üçündür. Kiçik patronlarla isə kiçik heyvanları və quşları ovlayırlar.

Bir gün atam dostları ilə birgə ova getdi. İki-üç gün ötdü, amma onlardan xəbər çıxmadı. Anamla biz çox nigaran qaldıq. Yerlərini öyrənmək üçün əlimiz heç yerə çatmırdı. Atam dördüncü gün səhər çağı gəldi. Çiynində ölü bir dağ keçisi vardı. Atamı və çiynindəki ovunu görüb çox sevindik. O da evə əlidolu qayıtdığına görə çox məmnun görünürdü.

Atam çay içdi, bir qədər istirahət edəndən sonra çox diqqətlə dağ keçisinin dərisini soydu, quruması üçün həyətdə yerə mıxladı. Bizə tapşırdı ki, ona yaxınlaşmayaq. Sonra qayıdıb keçinin qarnını yardı və yaxşıca təmizlədi.

Kabab süfrəmiz hazır idi. Əti şişə çəkməzdən öncə bir neçə parçasını qonşularımıza verdik. Atam bu işlərdə çox diqqətli idi. Hər dəfə ov edəndə qonşuların payını ayırırdı. Deyirdi olmaz ki, biz kabab yeyək, onlarsa kababın iyini! Dağ keçisinin əti çox ləzzətli və yumşaq idi. Uzun müddət dadı damağımızdan getmədi.

Uşaqlıq dünyamızda ovçu atamızdan bir qəhrəman düzəltmişdik. Bu qəhrəman, ayı ilə və digər yırtıcı heyvanlarla vuruşur, bizə dağ keçisi, ceyran və digər ləzzətli heyvanlar ovlayırdı. Onunla ova çıxmağı çox istəyirdik.

***

Dördüncü sinfi bitirəndən sonra yay tətilini Bocnurd şəhərinin Çəmənbid kəndində keçirdik. Bizi bu dəfə də Qulam dayı öz avtobusu ilə apardı. Hər il ötdükcə yerdəyişmədə əşyalarımız azalırdı. Anam hər dəfə əl-ayağa dolaşdığını, çox da işimizə yaramadığını görüb bəzi əşyaları dost və qonşulara bağışlayırdı. Artıq elə yaşa çatmışdım ki, hər il bir yerə köçməkdən xoşum gəlmirdi. Bir nəfərlə səmimi dost olan kimi ayrılmalı olurduq. Dostluq sonrası ayrılıqlar mənə əzab verirdi.

Kənddə bir neçə bəhai ailəsi yaşayırdı. Atam bəhailərin olduğu yerdə yaşamağı əsla sevməsə də, şirkət Çəmənbid kəndindən Məşhədə yol çəkdiyinə görə orada ev tutmağa məcbur olmuşdu. Atam deyirdi ki, bəhailər dövrün imamının zühur etdiyini söyləyirlər. Onlar rəhbərləri Əli Məhəmməd Babı dövrün imamı bilir, Quranı və imamları təhqir etməyi ibadət sayırlar. Buna görə də dindən çıxmışlar, mürtəddirlər. Bizim heç birimiz onların evlərinə yaxınlaşmırdıq.

Mömin və seyid nənələri olmuş dindar bir ailənin kirəçisi olduq. Qonşuların dediyinə görə, 10-15 il öncə vəfat etmiş həmin nənə mömin adam imiş, yuxuda ona bir neçə imamzadənin gizli qəbrini göstəribmişlər. Yuxu bir neçə dəfə təkrarlanandan və qadın araşdırandan sonra yuxuda deyilən məhəllədə bir neçə köhnə qəbir tapılmışdı. Camaat həmin qəbirlərin üstündə zərih düzəltmiş, ziyarətgaha çevirmişdilər.

Təmiz ev idi. Biz divarları ağardılmış iki böyük otağını kirayə etmişdik. Əlbəttə, Çəmənbiddə iki-üç aydan çox qalmadıq. Həmin qısa müddətdə bir dəfə İmam Rzanın (ə) ziyarətinə də getdik. Onda Əlinin 5-6 yaşı vardı. Bir neçə ay idi boğazı bərk ağrıyırdı. Boğazının altından böyük bir vəzi çıxmışdı. Ona xanazır deyirlər. Atam Əlini Tehrana müalicəyə apardı, amma xeyri olmadı. Anam deyirdi ki, gərək Məşhədə gedək, Allah Əliyə yalnız İmam Rzanın (ə) vasitəsi ilə şəfa verəcək. Üç gün Məşhəddə qaldıq. Atam orada Əlinin sağalması niyyətilə qurban kəsib çoxu Küveyt və Livandan gəlmiş zəvvarlara payladı. Gündüzlər məqbərəyə ziyarətə gedir, axşamlar yaxınlıqdakı mehmanxanaya qayıdırdıq.

Məşhəddən qayıdanda Əlinin boğazı bir qədər yaxşılaşmışdı. Bir-iki həftədən sonra isə vəzidən əsər-əlamət qalmadı.

Beşinci sinfi 1969-cu ildə Bürucerddə oxudum. 1970-ci ildə Allah bizim yeddinəfərlik ailəmizə Möhsünü verdi. Anam üçüncü oğlu olduğuna görə çox sevinirdi.

Təxminən on il idi Xürrəmşəhrdən çıxmışdıq. Biz Bürucerddə olanda atam Xürrəmşəhrdə torpaq aldı.

Bürucerddə oxuduğum dərs ili pis il oldu. Dərslərim çətinləşmişdi. İmlam o qədər zəif idi ki, sakit uşaq olmağıma baxmayaraq, imlaya görə sinifdə qaldım. Əksər uşaqlardan fərqli olaraq, riyaziyyatım çox yaxşı idi. İmla dəftərimi həmişə Şahnazla Fevziyədən gizlədirdim, bərbad qiymətlərimi görmələrindən utanırdım. Necə böyük səhv etdiyimi isə sonralar anladım. Əgər dəftərimi bacılarıma göstərsəydim, mütləq mənimlə məşğul olardılar və imtahandan kəsilməzdim.

# İkinci fəsil:

## *İnqilaba doğru*

Çoxlu yer dəyişəndən, bu şəhərdən o birinə gedəndən sonra nəhayət, 1971-ci ildə Xürrəmşəhrə yerləşdik. Atamın aldığı torpaq Səntap məhəlləsində idi. O, qədim dostu Hacı Həbib və başqa iki dostu ilə yan-yana hərəsi təxminən 300 kv metr torpaq almışdılar və birlikdə tikintiyə başladılar. Çəmənbiddən Bürucerdə gedəndən sonra atam işin ağırlığına və ailədən uzaq qaldığına görə yol inşası şirkətindən çıxdı. Bundan sonra mərkəzi Tehranda yerləşən bir trikotaj fabrikinin rəhbəri ona iş təklif etdi. O, atama demişdi: "Tehrana gəl. Sənə yaxşı bir ev və digər avadanlıqlar verərəm, burada yaşayarsan". Atamsa demişdi ki, Tehranın mühitindən, hicabsız küçələrindən xoşu gəlmir və Xürrəmşəhrə getməyi üstün tutur. Anamın və evimizin böyük uşağı olan Fevziyənin fikri də belə idi. Onlar da Xürrəmşəhri daha çox sevirdilər. Biz hamımız Xürrəmşəhri sevirdik.

Atam həmin il Xürrəmşəhrdə Gibson ev avadanlıqları şirkətində TIR sürücülüyünə başladı. O, Amerikadan idxal edilən məhsulları gömrükdən Tehrana aparırdı. Bu işlə yol inşası şirkətindəki işin fərqi bu idi ki, atam aylarla evdən ayrı

qalmırdı, məhsulları Tehrana, yaxud başqa bir şəhərə aparandan sonra yanımıza qayıdırdı. O, adətən, həftədə bir dəfə gedib-gəlirdi.

Yeni ev tikilib qurtarana qədər Xürrəmşəhrdə bir neçə ay kirayədə qaldıq. Evin yarısı tikilər-tikilməz əşyalarımızı toplayıb illərlə köçərilikdən sonra öz evimizə yerləşdik. Yeni ev yarımçıq olsa da, özümüzünkü idi, sevinirdik ki, ilin başında əşyalarımızı toplayıb başqa bir şəhərə getməyəcəyik. Maddi vəziyyətimiz yaxşı olsa da, atam evin tikintisini bitirməyə vaxt çatdırmırdı. Buna görə tikinti bir ildən sonra tamamlandı.

Yeni evimiz Seyhanzadə küçəsində yerləşirdi. Evin arxasında həyət vardı. Küçədən açılan ikitaylı dəmir qapı kiçik bir dəhlizə açılırdı. Dəhlizin sol tərəfində 15-16 metrlik L şəkilli iki otaq yerləşirdi, sağ tərəfdə isə tualet, hamam və mətbəx. 3-4 metr irəlidə həyətə açılan bir qapı vardı. Təxminən 200 kv metrlik böyük bir həyət idi. Bağçada üç xurma ağacı vardı: ikisi böyük, biri kiçik. Kiçik xurmaya Deyri deyirdik, xurması mələs olurdu, bir növ yerik meyvəsi sayılırdı. Məhəlləmizin hamilə qadınları həmin xurmadan yeməyə gəlirdilər. Atam gül əkməyi də çox sevirdi. Bağçaya yaxşı qulluq edir, torpağı drenajlayır, qayınana dili gülü, vəzəri və digər göyərtilər əkirdi.

Xurmalardan əlavə, bağçada kiçik bir innab ağacı da vardı. O, bir ildə 3-4 metr boy atıb bir neçə meyvə verdi. Bu, qeyri-adi hadisə idi. Birillik bir ağac birdən-birə bu qədər boy atıb meyvə verə bilməzdi. Anam çox narahat idi, hey deyirdi: "Gərək bu ağacdan qorxaq. Belə boy ata-ata axırda birimizin başını yeyəcək!"

Qonaq otağımızın bir qapısı həyətə, o biri qapısı eyvana açılırdı. Biz göyərti təmizləməkdən tutmuş çay içməyə qədər əksər işlərimizi eyvanda görürdük.

***

Həmin il ibtidai məktəbin altıncı sinfi ləğv olundu, uşaqlar beşinci sinifdən sonra orta məktəbə daxil oldular. Bu, yeni qərar idi, məktəb rəhbərliyi hələ orta məktəblər üçün xüsusi bir şey fikirləşməmişdi. Firdovsi prospektində yerləşən Pərvin Etisami adına ibtidai məktəbin zalını orta məktəbin birincilərinə, yəni altıncı sinfə vermişdilər. Yeni dərs ilinin başlanmasından bir neçə gün ötdü. Nə düz-əməlli sinif və kitab verildiyini, nə də dərs keçildiyini görüb bütün kağızları bir yerə topladıq, cırıb zalın ortasına tökməklə aksiya keçirdik. Biz deyirdik: "Bu nə vəziyyətdir?! Biz xüsusi sinif və imkanlar istəyirik!" Məktəbin direktoru gəlib dedi: "Təhsil şöbəsindən zəng vurub dedilər ki, sizi bir-iki günə yeni bir orta məktəbə aparacaqlar".

Elə də oldu. Bir neçə gündən sonra yeni məktəbə - Mövləvi prospektində, Şeytan bazarının yaxınlığında yerləşən Abbas Məsudi adına orta məktəbə getdik. Məktəbimiz yeni tikilmiş birmərtəbəli binadan ibarət idi, on-on iki sinfi vardı. Yenə Salehə ilə bir sinfə düşdüm. Mən imla dərsinə görə sinifdə qalmışdım, Salehə də qabaqkı ildə çoxlu nadincliyinə və dərs oxumadığına görə.

Yeni məktəb əvvəlkinə nisbətən çox uzaqda idi. Səntap prospektindən və müxtəlif ağır maşınların istifadə etdiyi bir yoldan keçməli idik. Oradan qorxduğumuza görə yolumuzu dəyişdirib xurmalıqların arasıyla gedirdik.

Fevziyə ilə Şahnaz başlarına çadra atırdılar, Salehə ilə mənsə yox. Biz hər ikimiz köynək geyinib yaylıq bağlayırdıq. Xürrəmşəhrdə qadınların hicabı Tehran və Bürucerddən çox yaxşı idi, buna baxmayaraq, orta məktəbə başlayan kimi hicablılar üçün şəraitin çox da münasib olmadığını fərq etdik.

Altıncı sinifdə oxuyanda İnanlı, Zare və Nəqdi kimi yaxşı dostlarım vardı. Yuxarı siniflərdə onlarla daha səmimi dost olduq. Səkkizinci sinifdə oxuyanda bir dəfə anamla qaz sobası almaqdan ötrü bazara getdik. Girdiyimiz ilk mağazada birini

bəyəndik, amma dedik ki, bir az gəzək, bəlkə daha yaxşısını tapdıq. Bir neçə mağazaya baxdıq. Həmin qaz sobası hər yerdə bir qiymətə idi. Anama dedim ki, məişət avadanlıqları mağazasına gedək, yəqin, orada qiymətlər daha münasib olacaq. Lakin həmin mağazada eyni qaz sobası hər yerdən baha idi. Axırda ən ucuz qiymətə satan mağazaya qayıtdıq. Çox gəzəndən sonra nəhayət, qaz sobasını alıb evə gəldik.

Lakin məsələ bununla bitmədi. Mən bu haqda bir inşa yazdım. Orada bu cümlələr də vardı: "Bu necə ölkədir ki, rəsmi mağaza hər yerdən baha satır! Nə üçün qanunsuzluq elə bir həddədir ki, heç kimə inanmaq mümkün deyil?! Sosial bilgilər kitabımızda qanun və qanunçuluq barədə çox oxumuşuq, lakin heç birini cəmiyyətdə görmürük". İnşanın axırında bu nəticəyə gəlmişdim: "Nə qədər ki dövlətdə hərc-mərclik var, ölkəmiz heç nəyə nail ola bilməyəcək!"

İnşamı oxuyan müəllimə təəccübdən gözləri bərəlmiş halda və əlbəttə, hirslə mənə baxırdı. Həmin gün ictimai məsələlərə etiraz məzmunlu inşa yazan yeddinci şagird idim. Digər altı nəfər də idarələrdə, şəhərlərdə, hətta məktəblərdə mövcud olan bəzi problemlərə toxunmuşdular. Müəllimə inşamı oxuyub qurtarandan sonra özündən çıxıb qışqırdı: "Bu nə qələtdir, edirsiz?! Sizə kim deyib ki, başınızdan böyük sözlər danışasız?!"

Bunu deyib qışqıra-qışqıra direktorun otağına getdi. Çox xəcalət çəkdim. Mən elə bilirdim ki, inşamdan xoşu gələcək, gedib direktoru çağıracağı isə heç ağlıma gəlməzdi. Direktor hamımızı lövhənin önünə çıxarıb dəftərlərimizi aldı və dedi: "İndi bunları otağıma aparıb barənizdə ölçü götürəcəyəm. Dərslər bitənə qədər buradan tərpənməyə haqqınız yoxdur. Tənəffüs vaxtı da bayıra çıxmayacaqsız!" Sonra təhdid etdi ki, bir də bu mövzuda yazsaq, bizi polisə verəcək.

Çox qorxduq. Tənəffüs zəngindən sonra hadisə din və ədəbiyyat müəlliməmiz xanım Zəirin qulağına çatdı. Onun özü

hicabsız olsa da, bizim bəzi məsələlərə qarşı etirazlarımıza acığı tutmazdı. Sinfə gəlib bir qədər bizimlə danışdı, sonra dedi: "Narahat olmayın. Mən direktorla danışar, vəziyyətin pisləşməsinə imkan verməröm".

Sözlərindən ruhlandıq. Allaha şükür ki, onun vasitəçiliyi ilə məsələ xeyirlə bitdi.

Texnologiya müəlliməmiz Həkim soyadlı bir məsihi xanım idi. Onun xüsusi xarakterləri vardı. Məsələn, bayıra çıxmağa icazə istəyəndə deyirdi ki, icazə lazım deyil, rahat olun, hər kəs istədiyi vaxt sinifdən çıxa bilər. Danışanda da bizi sərbəst buraxırdı, inşa müəlliməmiz kimi özündən çıxmırdı. Müəllimələr arasında xanım Həkimlə xanım Zəir düşüncə baxımından bizə daha yaxın idilər.

Sinif yoldaşlarım arasında samosa hazırlayıb məktəbdə satan bir bəhai qız vardı. Uşaqların çoxu onun daimi müştərisi idi. Deyirdilər ki, samosalarına söz ola bilməz. Lakin mən həddən artıq ac olanda da bir bəhainin hazırladığını yemək istəmirdim.

Həmin günlərdə mütaliəyə marağım artdı. Məktəbimizin kitabxanasında fantastik janrda yazılmış çoxlu kitab vardı. O vaxta qədər ailədə ən az kitab oxuyan olsam da, elmi-fantastik kitabları oxuyub mütaliəyə çox həvəsləndim, kitabxanaya tez-tez gedib-gəlməyə başladım. Kitabların mövzu və süjetləri mənə çox yeni və maraqlı gəlirdi.

Səkkizinci sinfi bu vəziyyətdə bitirib Fərəh liseyində doqquzuncu sinfə daxil oldum. Məktəbimiz Firdovsi prospektində yanacaqdoldurma məntəqəsinin qarşısında yerləşirdi. Babamın köhnə evi də onun qarşısında idi. Liseyə daxil olmaq adama yaxşı təsir bağışlayırdı. Həm boy-buxun baxımından inkişaf etmişdim, həm də düşüncələrim əvvəlkindən fərqlənmişdi. Hiss edirdim ki, uşaqlıq dünyasından uzaqlaşmışam, arzularım dəyişib. Beynimdə din və həyat barədə həmişə müxtəlif suallar dolaşırdı.

İlk lisey dostum Mitra Musəvi incə qəlbli, şeir yazan sakit və gözəl bir qız idi, dostları Əmirə Məhəmmədi və Fərəh Mahini ilə birgə İsmətiyyə adlı bir yerə gedib-gəlirdilər. İsmətiyyə Hüseyniyyəyə bənzər bir yer idi, Əhmədzadə meydanının yaxınlığında yerləşirdi. Uşaqlar orada Quran öyrənirdilər. Əmirənin ailəsi Kutşeyxdə yaşayırdı, babası ruhani, ailəsi dindar idi. Ondan fərqli olaraq, Mitranın ailəsi çox da dindar deyildi, hamısından dindarı özü idi. Maddi durumları yaxşı idi. Yalnız bircə bacısı olan Fərəh Mahini də adi ailədən idi.

Onlarla tanış olandan bir qədər sonra qərara gəldik ki, liseydə Quran dərsinə başlayaq. Onlar Quranı İsmətiyyədə, mən də evdə Şahnazdan öyrənirdim. Şahnaz onda orta məkəbi bitirmişdi, Abadanda institutda oxuyurdu. O, Kiyavəş adlı bir müəlliminin nəzarəti altında Quranın qiraətini və tərcüməsini mükəmməl öyrənir, böyük marağına görə bu sahədə yaxşı inkişaf edirdi.

Fevziyə də attestatını alıb Təbriz Dövlət Universitetinin Əkinçilik mühəndisliyi fakültəsinə qəbul olmuşdu, amma atam oraya getməyə icazə vermədi. Deyirdi ki, qızın evdən ayrı qalması yaxşı deyil. Təhsili və universiteti çox sevən yazıq Fevziyə onu razı salmağa çox çalışdı, amma atam dediyindən dönmədi. Axırda evdə qalıb növbəti ilin imtahanlarına hazırlaşmağa başladı.

Quran dərsimizə ayələrin oxunuşu və tərcüməsi ilə başladıq. Tənəffüs vaxtı, idman saatında, məktəbdən buraxılıb evə günorta yeməyinə getməli olduğumuz iki saatda - hər bir kiçik fürsətdə Quran oxuyurduq. Əlbəttə, bunu məktəb işçilərindən və digər uşaqlardan gizlədirdik. Çox vaxt evimizin uzaqda olduğunu, evə gedə bilmədiyimizi bəhanə gətirib yeməyimizi məktəbə gətirir, orada tez yeyir, sonra Quran dərsinə başlayırdıq. Bəzən də dərsimizin olduğunu söyləyib dərs kitablarını qarşımıza qoyur, ancaq Quranla məşğul olurduq. Bir

qədər sonra Fərəhin bacısı da bizə qoşuldu. Etibarlı sinif yoldaşlarımızdan kimin dini məsələlərə rəğbəti olduğunu görürdüksə, qurupumuza alırdıq. Bu uşaqların biri də İran adlı bir qız idi. O, hicablı olmasa da, ağır və mətanətli qız idi, daim oğlan dostu axtaran sırtıq uşaqlardan deyildi. Allaha şükür, o da yavaş-yavaş dəyişdi, hicab bağladı və dindar oldu.

Quran ayələri ilə işləmək, ayələr üzərində təfəkkür yavaş-yavaş məndə hicab məsələsinə fərqli baxış yaratdı. O vaxta qədər hicab mənə atamın təəssübkeşliyini və qeyrətini xatırladırdı, başımı örtməyə başqa bir səbəbim yox idi. Lakin Quran oxumaq üçün qısa bir imkan yaranmasını səbirsizliklə gözləyən mənəviyyatlı uşaqlarla yoldaşlıq get-gedə məni dəyişdirdi, şüurlu şəkildə hicaba meyilləndim.

O zaman on altı yaşıma az qalırdı, açıq-saçıq geyinmək və hicabsızlıq barədə düşünə bilərdim, amma mənəvi durumum elə olmuşdu ki, naməhrəmdən daha çox örtünmək istəyirdim. Daxilimdə yaxşı dəyişiklik baş verməkdə idi.

Əvvəlcə nazik corabımın üstündən bir cüt corab geyinməyə başladım. O vaxta qədər atam, anam və Şahnaz tez-tez mənimlə mübahisə edirdilər ki, nazik corabla bayıra çıxmaq günahdır. Mənsə əsla dinləmir, öz işimi görürdüm.

Məktəb geyimi dizə çatan boz uzun qollu manto idi. Başörtüyü də ixtiyari idi, istəyən örtə bilərdi. Mən başıma nazik şifon yaylıq bağlayırdım. Get-gedə həmin yaylığı daha böyük pambıq yaylıqla əvəzlədim, sonra düyünləmək yerinə çənəmin altında sancaqladım. Daha yaxşı örtünmək üçün köynək və yubkamı enləndirib uzatdım. Bu işlərdə Şahnazın həvəsləndirmələri də təsirsiz olmurdu. Bu dəyişiklik yalnız məndə deyil, Quran sinfinin bütün uşaqlarında yaranmışdı, lakin hərədə bir formada özünü göstərirdi.

Liseyimizin direktoru Səmər adlı bir xanım idi. Şahın doğum günü olan 26 oktyabra qədər məktəbin bütün dərs və

proqramları yalnız rəqs, ifa və bu kimi məşqlərdən ibarət olurdu. Səmərin xanımın bacısı Avstriyada opera müğənnisi idi. Şah hər il onu İrana Vəhdət sarayında konsert verməyə dəvət edirdi. Özü də həmişə elə bəzənib-düzənirdi ki, məktəbdə hicab bağlamayan və bəzənən uşaqlar arasında da Rəsm lövhəsi ləqəbi ilə məşhurlaşmışdı.

Müəllimələr 26 oktyabrdan sonra dərsə başlayırdılar. Onda da çoxu pudra, pomada və alaqarsonla məşğul olur, uşaqların təhsili ilə bağlı heç bir məsuliyyət hiss etmirdilər. Yalnız bəziləri namusla işləyir, dərs keçir, dərsimizə əhəmiyyətli yanaşırdılar.

Yavaş-yavaş Quran dərsimizə bəzi kitab və broşürlər gəlməyə başladı. Məsum imamların həyatı kimi bəzi kiçik kitablar, mərhum Cəlal Ali-Əhmədin əsərləri, Məşrutə və Tənbəki hərəkatları barədə məqalələr... Bu kitablar Kommunist partiyasının yaranması, yaxud Kommunizm adlı bəzi broşürlərlə, siyasi və inqilabi şeir kitabları ilə birgə müxtəlif yollarla bizə çatırdı. Çoxunu Şahnaz gətirirdi, digərlərini də o biri uşaqlar.

Quran dərsimizə qatılan yaxşı uşaqlardan biri də Leylun Novruzi idi. O, hicaba keçməyi çox istəyir, amma buna cəsarət etmir, atasından qorxurdu. Atası hər gün onu məktəbə gətirib-aparırdı. Yazıq qız yaylığını qatlayıb çantasına qoyur, məktəbdə başını bağlayır, gedəndə yenə çıxarırdı.

İlk dəfə Mitra sürməyi rəngli başdan keçirmə örpəklə məktəbə gəldi. O, çox gözəl olduğuna görə hicab bağlayanda daha təsirli olub çoxlarını cəzb edə bilirdi. Özü varlı ailədən olsa da, heç vaxt bahalı paltarlar geyinmir, varlı olduqlarını gözə soxmurdu.

Bir gün ilk zəngimiz idman dərsi idi. Həyətə yığışıb müəlliməmiz Cəfərini gözləyirdik. Məktəbin pilləkənindən yavaş-yavaş həyətə düşdü, Mitranı görən kimi birdən ona

doğru şığıyıb keçirmə örpəyini dartdı və təhqiramiz şəkildə dedi: “Bunu aç! Bu zibil nədir, başına keçirmisən?!”

Yazıq Mitra özünə gəlincə örpək cırıldı. Hamı mat-məəttəl bir-birinə baxırdı. Cəfərinin hicabımıza bu qədər nifrət etdiyini düşünməzdik. Səsinə direktor Səmər xanımla müavini Söhrabi həyətə çıxdılar. Xanım Cəfəri böyük bir iş görmüş kimi dedi: “Həyasız qız! Mənim üçün hicablı olub! Örpəyini başında cırdım”.

Bunu deyib direktorun otağına getdi və daha qayıtmadı. Səmər xanım da onu müdafiə edərək Mitranı danlamağa başladı.

-Bu oyunlar nədir, çıxarırsız?!

Xanım Cəfərinin reaksiyasından şoka düşmüş uşaqlar yavaşca ağlayırdılar. Ertəsi gün direktorumuz Mitra, Fərəh və Əmirənin adlarını çəkib dedi: “Bu üç nəfər məktəbdaxili intizam qaydalarını pozduqlarına görə qovulurlar, bir də bu məktəbə ayaq basa bilməzlər!”

Fərəhlə Əmirə də mənim kimi yaylıq bağlayırdılar, heç biri keçirmə örpəkdən istifadə etmirdi. Buna çox təəccübləndilər, nə üçün ixrac edildiklərini anlamadılar. Bəlkə kimsə onların İsmətiyyəyə getdiklərini direktora çatdırmışdı.

Uşaqlar üç gün dərsə gəlmədilər. Hadisəni Şahnaza danışdım. O bununla bağlı cənab Kiyavəşlə söhbət etdi. Kiyavəş institutda tanınmış müəllim idi, bundan başqa, bəzi günlərdə Abadan radiosundan dini çıxışlar edirdi. Bir gün məktəbə gəlib Səmər xanımla danşıdı. Uşaqlar cənab Kiyavəşin vasitəçiliyi ilə və öhdəlik yazandan sonra məktəbə qayıtdılar.

Ümumilikdə, müəllimələrimizin vəziyyəti yaxşı deyildi. Din müəlliməmiz Mərəşi həmişə köynək-şalvar geyinir, başına parik qoyur və sinifdə deyirdi: “Mənim hicabım var. Baxın, parik qoymuşam, naməhrəm saçımı görə bilmir. Uzunqol köynək geyinmişəm, qollarım görünmür. Şalvar da geyinmişəm. Mən

hicabı belə təbliğ edirəm". Tez-tez bizə tapşırırdı ki, qız gərək ağır olsun, küçədə başıaşağı gəzsin.

Bir gün Quran dərsində Fərəh Mahini "Haqq yolunda" müəssisəsinin broşürlərindən birini mənə verdi. İlk broşürü görən kimi müəssisəyə məktub yazıb məni üzvlüyə qəbul etmələrini istədim. Bir qədər sonra məktubumun cavabı gəldi. Yazmışdılar ki, üzvlüyə qəbul olundun, bundan sonra ünvanına ayda bir broşür göndərəcəyik. Xatırladığım qədərincə "Haqq yolunda" müəssisəsi Qumda Ayətullah Məkarim Şirazinin rəhbərliyi altında fəaliyyət göstərirdi, broşürlərinin əksər mövzuları bəhailiyin mahiyyətinin ifşası və bu azğın firqəyə qarşı mübarizədən ibarət idi. Bəhailiyi qəbul etmiş Əmir Abbas Hüveydanın Baş nazir olduğu 13 ildə bu firqə öz inanclarının təbliği üçün müstəsna fürsət əldə etmiş, müxtəlif yerlərdə tərəfdarlar toplamışdı. Bəhailər əksərən varlı adamlar idilər, öz inanclarının təbliği üçün çoxlu pul xərcləyirdilər. Məhz buna görə bu azğın firqənin izlərini əhalisi kasıb olan ən ucqar sərhəd kəndlərində də görmək olurdu.

"Haqq yolunda" müəssisəsinin broşürləri qrupumuzun uşaqları arasında əlbəəl gəzirdi. Bu broşürlərdən əlavə, Şahnaz bir müddət idi Ustad Mütəhhərinin və Doktor Şəriətinin kitablarını da gətirirdi. O, çox səliqə ilə bir neçə rəfli kiçik bir kitab şkafı düzəltmişdi, gətirdiyi kitabları oraya düzürdü. Mən yağış damlalarını udan quru səhra kimi onları doymadan oxuyurdum.

***

Fərəh liseyi ədəbiyyat təmayüllü olduğuna görə onuncu sinifdə Milan prospektində yerləşən İranduxt liseyinə getdik. Qrupumuzun fəaliyyəti orada da davam etdi. 1977-ci il idi, rejim əleyhinə fəaliyyətlərə görə xalq çoxlu şəhid vermişdi. Bizim də ürəyimiz istəyirdi ki, nə yolla olursa-olsun, bu işlərdə rol oynayaq.

Bu yolda başladığımız ilk iş siyasi məhbus ailələrinə kömək etmək oldu. Quran məktəbinə gedən uşaqlar deyirdilər ki, müəllimələri xanım Abidi bir neçə dostu ilə birgə Xürrəmşəhrin siyasi məhbus ailələrini tanıyır və gizlicə onlara baş çəkir. Deyirdilər ki, həyat yoldaşları və oğulları həbs olduğuna görə bu ailələrin çoxunun vəziyyəti yaxşı deyil və yardıma ehtiyacları var. Biz onlara ərzaq və pul toplamağa başladıq. Bu məqsədlə anama və o zaman institutdan təqaüd alan Şahnaza müraciət edirdim. Onlar əllərindən gələn köməyi edir, heç vaxt "yox" demirdilər.

Ərzağı Quran məktəbinə aparması üçün Mitragilə yığırdıq. Quran məktəbi Məhəmmədi adlı bir gül dükanının yaxınlığında yerləşirdi. Çox istəyirdim ki, topladığımız yardımları özüm sahiblərinə çatdırım, onlarla söhbət edim. Ancaq uşaqlar deyirdilər ki, xanım Abidi bunu əsla məsləhət görmür, çoxlu get-gəllə o yazıqlara başağrısı yaranacağından qorxur. Bu iş elə özümüzə də problem yarada bilərdi. O günlərdə SAVAK ölkədə repressiv mühit yaratmışdı, camaat danışırdı ki, evlərdəki elektrik yuvalarının dəliklərindən insanları dinləyir, hakimiyyətə qarşı danışan hər kəsi aparırlar.

Bir axşam Şahnazın kitablarının arasında makinada çap olunmuş bir broşür gördüm. Broşür Tehranda SAVAK həbsxanalarından azad olunmuş məhbusların dilindən yazılmışdı, müxtəlif işgəncələr barədə məlumatlar vermişdi. Şahnaz broşürü kitablarının arasında elə gizlətmişdi ki, sanki mənim oxumağımı istəmirdi. Buna görə də, onu yatmaq vaxtı paltarımın altında gizlətdim, bir fənər götürüb yorğanın altına girdim. Həmin broşürü oxuyandan sonra keçirdiyim hissləri heç vaxt unutmaram. Canıma lərzə düşmüşdü, sanki ürəyim yerindən qopacaqdı.

İşgəncəyə məruz qalmış məhbusların biri deyirdi: "Bizə verilən ağır işgəncələrdən birinin adı Tanqo idi. Bu zaman

bütün paltarlarımızı soyundurur, qollarımızı bir-birinə bağlayıb tavandan asırdılar. Kabellə üz-başımıza vurub bədənimizi qana bələşdirəndən sonra suda bişmiş bir yumurtanı gözlərimiz önündə qaynar sudan çıxarıb dalımıza salırdılar. Yanar kömür parçası kimi olan yumurta bədənimizə girəndə bağırsaqlarımız bişməyə başlayırdı, biz də ağrıdan ilan kimi qıvrılırdıq. Bizim bu tərzdə əzab çəkib qıvrılmağımıza tanqo deyirdilər. İşgəncə altında qıvrılmağımız onlara tanqo rəqsini xatırladırdı!"

Başqa bir məhbus yazmışdı ki, bizdən heç bir yolla söz ala bilməyəndə bir neçə nəfər bədənimizi və başımızı tutur, qaynar yağı ağzımıza tökürdülər. Kabellə ayaqlarımızın altına o qədər vururdular ki, suluqla dolurdu, sonra şüşə qırıqlarının üzərində yeridirdilər. Bununla da qane olmur, ağrıdan taqətsiz halda yerə yıxılanda tibb məntəqəsinə göndərirdilər ki, yaralarımız sağalsın və işgəncələri yenə təkrarlasınlar.

Bunları oxuyanda bütün bədənim əsir, üzüm tərləyir, canıma titrətmə düşürdü. Sanki qızdırmam vardı. Hər bir işgəncə barədə oxuyanda özümü həmin məhbusun yerinə qoyub çəkdiyi ağrıları bütün vücudumda hiss edirdim. Bir tərəfdən də düşünürdüm ki, indicə SAVAK evimizə tökülüşüb bu broşürə görə məni və bütün ailəmizi həbs edəcək. Onu oxumaq da təhlükəli cinayət idi, o ki qala saxlamaq.

Broşürü oxuyandan sonra ürəyimə qəribə qəm-kədər çökdü. Nəsə etmək, o məzlum insanların intiqamını almaq istəyirdim. Sanki nəsə itirmişdim. Bir müddət idi Şahnaz mərhum Kafi ilə Fəxrəddin Hicazinin kasetlərini gətirirdi. Kasetlərdə rövzə deyilir, Quran ayələri təfsir olunurdu; çıxış edənlər söhbət əsnasında xalqı maarifləndirirdilər. Onlar bəzən üstüörtülü, bəzən də açıq şəkildə şahın zülmündən danışır, dinləyiciləri tağut rejiminin xalqın başına açdığı zülmlər qarşısında susmamağa çağırırdılar. Bu iki natiqin maarifləndirici və siyasi

çıxışları insanlarda böyük təsir buraxırdı. Bu təsir hər gün ötdükcə özünü daha çox göstərirdi.

Həmin gecə səhərə qədər heç kim bilmədən bütün broşürü köçürdüm. Onu bəzi uşaqlara oxutdurmaq istəyirdim.

Ertəsi gün səhər məktəbdə bu barədə Fərəh Mahini ilə danışdım. Mənə həsrətlə, "Xoş halına! Kaş mən də onu oxuya biləydim!" – dediyini görüb broşürü köçürdüyümü və münasib fürsətdə ona verəcəyimi söylədim.

Həmin gün axırıncı dərsə qədər broşürü Fərəhə necə verəcəyimi fikirləşdim. Nəhayət, qərara gəldim ki, dərsdən sonra verim. Qərarım barədə ona bir söz demədim. Axırıncı zəng vurulanda məktəbin dar koridorunda yaranmış sıxlıqda onu tapdım. Həyəcandan ürəyim bərk döyünürdü, bədənim titrəyirdi, boğazım qurumuşdu. Dodaqaltı salavat deyib broşürü köçürdüyüm dəftəri ona uzatdım.

-Fərəh, bu, həmin coğrafiya dəftəridir.

Fərəh bir şey soruşmadan tez dəftəri alıb çantasına qoydu.

Ertəsi gün Fərəh məktəbə gələndə əsəbindən üzü çuğundur kimi qızarmışdı. Çox gərgin idi. Məni həyətdə bir kənara çəkib narahat halda dedi: "Qız, Allah sənə ağıl versin! Hansı cəsarətlə onu məktəbə gətirmişdin?! Demirsən ki, kimsə səni direktora satar, özünün də, valideynlərinin də dərisini soyarlar?!"

-Özün israrla deyirdin ki, broşürü ver, oxuyum.

-Hə, amma demədim ki, məktəbdə verəsən. Ya məktəbdən bayırda bir yerdə görüşərdik, ya evimizə gətirərdin, ya deyərdin, özüm gəlib səndən alardım.

-Mən onu verəndə diqqətli idim ki, heç kim şübhələnməsin. Bu, elə bir şey deyil ki, hamının gözü önündə verələr. Belə şeyləri hamı siçan dəliyində gizlədir. Mən də kimsə şübhələnməsin deyə, onu hamının gözü önündə sənə verdim. Bundan əlavə, broşür barədə səndən başqa heç kimə danışmamışam ki, direktora xəbər çatsın.

Çoxlu mübahisədən sonra səhərə qədər ağladığını söylədi. Sonra qərara gəlib ki, şahın cinayətlərini ifşa etməkdən ötrü onu öz dostlarına oxumağa versin. Halı çox pis idi. Mənim kimi olmuşdu. Mən broşürü oxuyandan sonra bir neçə gün özümə gələ bilmirdim; nə düz-əməlli bir şey yeyə, nə də yata bilirdim. Hər gözümü bağlayanda siyasi məhbusların işgəncə səhnələri gözlərim önündə canlanırdı. Xəstə adamlar kimi daim uzanırdım. Anam, "Sənə nə olub?" – deyə soruşur, mən də cavab verirdim ki, bir şey deyil, bir qədər halsızam.

O vaxtlar "Qəlbimi dar ağacından asacağam" adlı gözəl inqilabi bir şeir dillər əzbəri olmuşdu. Müəllifi Haşim Təvəkküli idi. Uşaqlarla bir yerə toplaşanda həmişə onu oxuyurduq. Şeirin məzmunu zülmə etirazdan ibarət idi. Broşürü oxuyandan sonra hər dəfə onu zümzümə edəndə boğazımı qəhər tutur, özümdən asılı olmadan gözlərimdən yaş gəlirdi. Şeirin bu hissəsi mənə daha çox təsir edirdi:

*Axırda qəlbimə xəncər vuracağam!*
*Qəlbimə güllə vuracağam!*
*Ürəyimi qanla boğacağam!*
*Bu gün böyük cihadım budur.*
*Bilirsiniz ki, nəfslə döyüş din döyüşüdür,*
*Qaranlığın din işığı ilə döyüşüdür.*
*Bax, həqiqət gözü acı ağlayır.*
*Bax, şərafət ayağı bərk titrəyir.*
*Gör bəşərin cəhalət odundan Quran necə yanır!*
*Gör insanların gözündə çirkinliklərin yarasını.*
*Bax, insanlar arasında bu gün də Əli yalqızdır,*
*Bax, Əli davamçılarının başları yenə qanlıdır!*

***

İranduxt liseyində hər sinifdən a, b, c, ç sonluqlu dörd sinif vardı. A sinifləri adətən şəhərin pullu ailələrinin uşaqları üçün idi. B siniflərinə məktəbin adətən dərsoxuyan uşaqları yığılırdı. C və ç siniflərində isə zəif uşaqlar oxuyurdular. Direktorluq bu siniflərin uşaqlarına əhəmiyyətli yanaşmırdı. Hər il uşaqlar bu şəkildə bölünürdülər. Lakin bu il təsadüfən, 10c sinfimizin uşaqları dindar və inqilabçı uşaqlar oldular. Mitradan başqa bütün dindar dostlarımla bir sinifdə idim. İnanlı, Zare, Tədəyyün, Hurisi və Məhəmmədi bacıları da orada idilər. Sinifdəki uşaqların düşüncələri təxminən eyni idi. Bu, bizim üçün dəyərli imkan, direktorumuz üçünsə problem demək idi. Bizim sinfimizdə istedadlı uşaqlar da çox idi. Yadımdadır, bir dəfə kimya müəlliməmiz bir məsələ yazıb dedi: "Bunu kim həll edə bilsə, ona 20 verəcəyəm. Çünki digər üç sinifdə heç kim həll edə bilməyib". Məsələyə baxdım. Bilirdim ki, dəmirin valenti ikidir. Bunu da bilirdim ki, bəzi proseslərdə ikivalentli dəmir üçvalentli dəmirə çevrilir. Bu baxışla məsələni həll edib 20 aldım.

Sinfi öz zövqümüzlə bəzəmişdik. O zaman yazı lövhəsinin üstündən şahın şəklini vurmaq icbari idi. Öz əlimizdə olsaydı, onun mənfur şəklini bir an da saxlamazdıq, amma çarə yox idi. Lakin etirazımızı bildirməkdən ötrü şəklin düz altından divara bir Quran ayəsi vurmuşduq. Tərcüməsi belə idi: "(Ey Peyğəmbər!) Qızıl-gümüş yığıb, onu Allah yolunda xərcləməyənləri şiddətli əzabla müjdələ! O gün yığdıqları qızıl-gümüş cəhənnəm odunda qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə basılacaq (və onlara deyiləcək): "Bu, özünüz üçün yığıb saxladığınız mallardır. Yığdıqlarınızın (acısını) dadın!"[1]

Sinfin divarlarına Vəl-əsr surəsi, cihad və şəhadət ayələri yazılmış posterlər vurmuşduq. Sinif şah rejiminin anti-İslam təbliğatına qarşı replika mərkəzinə çevrilmişdi. Hərdən bəzi

[1] Tövbə, 34-35.

tağut müəllimləri, yaxud direktor müavini sinfimizə baş çəkməyə gələndə deyirdilər: "Məgər bura məsciddir?!" Onlara tutarlı cavab verib ayələri qoparmalarına mane olmaqdan ötrü deyirdik: "Məgər məscidlə məktəb arasında fərq var?! Biri müqəddəs ibadət yeridir, biri də müqəddəs təhsil ocağı. Buna görə nə yaxşı olar ki, elə ən gözəl Quran ayələri ilə bəzənsin". Bundan sonra bir söz demirdilər.

Yadımdadır, hər il 26 yanvar - şahın ağ inqilabının ildönümü ərəfəsində sinifləri bəzəmək üçün uşaqlardan pul yığırdılar. Bu işdən ötrü bir rial da verməyən yeganə sinif biz idik. 1977-ci ildə Xürrəmşəhrdə yerləşən Hərbi Dəniz Qüvvələrinin komandanı dəyişildi. Direktorumuz yeni komandanın qızını və Tehrandan təzə gəlmiş başqa bir qızı sinfimizə gətirdi. Bu bizə bir qədər qəribə gəldi. Adətə görə, onları a sinfinə aparmalı idi. Bu işdə məqsədinin nə olduğunu bilmədik. Bəlkə də bütün uşaqları dindar olan bir sinfə təsir etməkdən, ya da casus yerləşdirməkdən ötrü idi.

Onların geyim, görkəm və hərəkətləri bizim heç birimizlə uyğun gəlmirdi. Bəzən sinifdə komandanın qızı ilə saatlarla mübahisə edirdik. O deyirdi: "Nə üçün müstəmləkəyə etiraz edirsiniz? Müstəmləkə inkişaf gətirir! Müstəmləkəçilər haraya gedirlərsə, orada binalar tikir, yollar çəkirlər. Buna etiraz etmək düzgün deyil!"

Ona deyirdik ki, axı bu inkişaf nəyin qarşılığında həyata keçirilir? Din və mədəniyyətimizin məhvi qarşılığında! O da deyirdi ki, hansı düşüncə və mədəniyyətin? Məgər bu qədər geriliklə bizim düşüncəmiz də var?! Onlarla, xüsusilə də komandanın qızı ilə dayanmadan mübahisə edirdik. Qızcığaz hər işə müdaxilə edirdi, komandan qızı olduğuna görə elə bilirdi ki, gördüyümüz hər bir işin, danışdığımız hər bir sözün ona dəxli var.

07.01.78 tarixində Ettelaat qəzetində Əhməd Rəşidi imzası ilə bir məqalə çap olundu. Orada hicabsızlıq dəyər, hicab isə gerilik və irtica adlandırılmışdı. Bundan başqa, məqalədə Ayətullah Xomeyni təhqir olunmuş, 4 İyun qiyamı qırmızı və qara müstəmləkənin təxribatı adlandırılmışdı. Bu məqaləyə ilk reaksiya Qumdan gəldi. Qum Elm Hövzəsi 8 yanvarı tətil etdi, tacirlər də onlara baxıb 9 yanvarda mağazalarını bağlamaq qərarına gəldilər.

Bazarın tətil olması ilə şahın qırğın törətməsi bir oldu. Qumdakı cinayətlərlə eyni zamanda çoxlu şəhərlərdə qarışıqlıq yarandı. Biz farsca yayımlanan Köln və Moskva radiolarından Qumda baş verənlərdən xəbər tuturduq.

9 Yanvar qiyamında həmvətənlərimizin qanlarına qəltan edildiyini eşidəndən sonra bu qırğına etiraz və zərərçəkmişlərin ailələrilə həmrəylik əlaməti olaraq, üç gün məktəbə getmədim. Halım o qədər pis idi ki, dərs oxumağa heç bir marağım qalmamışdı. Depressiyaya düşmüş adamlar kimi yalnız ağlamaq istəyirdim. Məktəbə gedəndən sonra da bir neçə gün ancaq qara geyindim. Qum şəhidlərinin qırxında təbrizlilər qiyam edib çoxlu şəhid verdilər.

Daha televiziya proqramları əvvəlki kimi deyildi. Ölkədə baş verənləri ciddi senzuradan keçirməyə məcbur olurdular. Radio və qəzetlərdə də vəziyyət eyni idi. Ölkənin müxtəlif yerlərində xalq qiyamları başlanmışdı. Hər bir şəhərin şəhidlərinin qırxında yeni bir şəhər qiyam edib şəhid verirdi. Təxminən böyük şəhərlərin hamısında komendant saatı elan olunmuşdu.

Digər şəhərlərin əhalisinin Qum qiyamına dəstək məqsədilə küçələrə çıxdığını, amma Xürrəmşəhrdə heç bir hadisənin baş vermədiyini görüb çox hirslənirdim. Xürrəmşəhr kiçik bir liman şəhəri idi, Şahənşah ordusunun Hərbi Dəniz Qüvvələri orada yerləşirdi. Bundan əlavə, Müdafiə Nazirliyinin Quru Qoşunlarının qarnizonu da vardı. Bu kiçik şəhər əhəmiyyətli

limanına görə strateji bir yerə çevrilmişdi. Bu baxımdan, heç bir xüsusi siyasi hərəkat olmasa da, daim gizli və gözəgörünməz hərbi nəzarət altında idi. Digər tərəfdən, Xürrəmşəhrin iğtişaş yaratmaq üçün həmişə kiçik bir fürsət gözləyən İraq kimi qonşusu vardı. Bütün bu səbəblərdən ən kiçik inqilabi hərəkətlər də beşiyində boğulurdu, heç kim davamlı bir iş görə bilmirdi. Bütün bunları bilə-bilə yenə də ürəyim sakitləşmirdi, sükutumuza görə vicdan əzabı çəkir, çıxış yolu axtarırdım.

Məktəbə getmədiyim günlərdə Şahnaz istitutdan İmam Xomeyninin bəyanatlarını gətirib bizə oxuyurdu. İlk bəyanat şahın Qumdakı cinayətləri barədə idi. İmamın sözləri ürəyimə yağ kimi yayılırdı. O vaxta qədər ağa Kafidən və Ustad Hicazidən başqa heç bir ruhaninin çıxışını dinləmək imkanım olmamışdı. Ümumiyyətlə, ruhanilər barədə təsəvvürüm tamam başqa idi. Fikirləşirdim ki, onların söhbətlərinin əsas mövzusu din və şəriət hökmləri barədədir. İmam Xomeyninin baxış və düşüncələrinin bu qədər siyasi və maarifçi olduğunu heç vaxt düşünməzdim.

Bir müddətdən sona bu bəyanatları yaymaq vəzifəsi Şahnaza tapşırıldı. Mənim xəttim yaxşı olmadığına görə bəyanatları oxuyurdum, Şahnazla Fevziyə yazırdılar. Sonra onları gizlicə cənab Kiyavəşin tanış etdiyi və trafaret aparatı olan adamın yanına aparırdılar. Bu işi ara-sıra təkrarlayırdıq.

Bütün bunları anamızdan gizlədirdik. Atam olmayanda bizim məsuliyyətimiz onun üzərinə düşürdü. Bunları bilib qorxacağından ehtiyatlanırdıq. Axşamlar Şahnaz, Fevziyə, Salehə və Əli ilə birgə ağa Hicazinin Quran təfsiri kasetlərini dinləyirdik. Bəzən Məryəm xalanın qızı İlahə də bizə qoşulurdu. İlahə məndən üç yaş kiçik olardı, amma İsmətiyyəyə gedib-gəldiyinə, oranın uşaqları ilə dostlaşdığına görə bizə bənzəməyə başlamışdı.

Dərslərimi yaxşı oxumurdum. Məktəbə gedib sinifdə otururdum, amma fikrim cəbrdə, həndəsədə, ədəbiyyatda deyildi. Bir gün Doktor Şəriətinin "Şiə olmaq məsuliyyəti" kitabını xülasə etdim, barəsində bir inşa yazıb sinifdə oxudum. Həmin il inşa və coğrafiya müəllimələrimiz rejimə müxalif idilər, sinifdə bir qədər rahat nəfəs almaq olurdu. Coğrafiya müəllimimiz Cəfəri kommunist idi, xüsusən iqtisadi məsələlərdə hakimiyyətə etirazları vardı. Bir gün bizi məktəbin laboratoriyasına aparıb projektora bənzəyən bir aparatla Lorustanın xaşxaş sahələrindən bir neçə şəkil göstərdi. Şəkilləri özü çəkmişdi. O, şəkillərə mənalı tərzdə baxıb bizim reaksiyamızı gözlədi. Bizə də belə bir mövzu lazım idi.

- Müəllim, bu torpaqlarda xaşxaşdan başqa bir şey əkmək olmaz?! Məsələn, buğda və arpa.

- Əlbəttə olar.

- Əgər olarsa, bəs nə üçün hər şeyi xaricdən idxal edirik? Hətta soğan və kartof da xaricdən gəlir.

Cəfəri yalnız mənalı sükut edir, bir söz demirdi. Xeyrini düşünən adam idi, özünü və karyerasını təhlükəyə atmaq istəmirdi.

Onuncu sinfi beləcə bitirdim. Yay tətilində əsas vaxtım ya kitab oxumaqla keçdi, ya da uşaqlarla birgə. O vaxt dindar uşaqlar daha çox Doktor Şəriətinin kitablarını sevirdilər. Onun əsərləri arasında "Bəli, belə idi, qardaş" kitabı mənə daha çox təsir edirdi. Doktor Şəriətinin kitablarını saxlamaq böyük cinayət sayılırdı, SAVAK kimdə tutsaydı, işini bitirirdi. Onun kitabları oxucunu dəyişdirirdi. Xüsusən hakimiyyətdən və inqilabdan danışanda kitabın qəhrəmanlıq ruhu adamın qanını coşdururdu. Onun əsərlərini oxuyandan sonra sakit qalmaq mümkün deyildi.

Əlbəttə, başqa kitablar da oxuyurdum. Alber Kamyunun "Taun" romanını onda oxudum. Bir dəfə xalamın yoldaşı Hicab

əmi onu əlimdə görüb dedi: "Belə şeylər oxuma, qız, yaxşı deyil, ruhiyyənə pis təsir edər".

Kafkanın da bir neçə kitabını oxumuşdum. Alber Kamyu kimi onun kitabları da həyatda insan birinciliyinə inanan humanist təfəkkürlərlə aşıb-daşırdı. Kafka nihilist idi. Sadiq Hidayətin «Üç damla qan» kitabını da oxumuşdum. Bu kitab on bir hekayədən ibarətdir. Sadiq Hidayətin səlis qələmi vardı, əsərləri məzmunca Kafkanın kitablarına bənzəyirdi. O vaxt Sadiq Hidayətin kitablarını oxumaq gənclər arasında dəb olmuşdu. Kitabları o qədər qaranlıq və məyusedici idi ki, bəzi gənclər oxuyandan sonra intihara cəhd edirdilər. Xürrəmşəhrdə hansısa varlı bir ailənin uşağının Hidayətin kitablarını oxuyandan sonra intihar etdiyini məktəb uşaqlarından və qonşulardan dəfələrlə eşitmişdim. Onun əsərləri mənə maraqlı gəlmirdi. Kitablarında təsvir etdiyi mühit fəsad və pozğunluq dolu idi. Çox vaxt oxuyanda ürəyim bulanırdı, ancaq maraq üçün bitirirdim.

Bunlardan əlavə, Səməd Behrənginin kitablarını da oxuyurdum. Onun ən məşhur romanlarından biri "Balaca qara balıq" idi. Onun qələmini sevirdim.

***

1978-ci ilin 19 avqustunda Abadanın Reks kinoteatrının yandırıldığını eşitdik. Dörd yüzə yaxın insanın ölümü bizi matəmə qərq etdi. Onlar "Marallar" bədii filminə baxdıqları yerdə kinoteatr yanmışdı. Camaat içəridən çıxmaq üçün qapılara qaçmış, amma qapılar bağlı olmuşdu. Yanğınsöndürənlər də gec çatmışdılar, yanğın söndürülənə qədər hamısı diri-diri yanıb kömür olmuşdu.

Hadisə qurbanlarının yeddisində iştirak etmək üçün anamla Abadana getdim. Abadanın Xakistan məzarlığına ilk dəfə idi gedirdim. Orada qələbəlik vardı, sinc və baraban çalıb dəşti oxuyurdular. Ağrıdıcı səhnələr idi. Kinoteatra ən çox gənclər

getdiklərinə görə ölənlərin çoxu gənc idi. Analar övladlarının məzarları başında ağlayır, üzlərinə vurur, yaxalarını cırır, başlarına torpaq tökürdülər.

Yanğının canlı şahidləri deyirdilər ki, SAVAK-a bağlı adamlar kinoteatrın qapılarını bayırdan zəncirlə bağlayıb içəri od vurdular. Yazıqlar elə yanmışdılar ki, çoxu tanınmaz halda idi, içəridəkilərdən bir nəfər belə sağ qalmamışdı.

Güclü istidən və yanmış cəsədlərin dəfnindən yaranan qəribə qoxu halımı pisləşdirirdi. Qan təzyiqim düşmüşdü, başım gicəllənirdi. Gözlərimiz ağlar halda evə qayıtdıq.

Reks kinoteatrı hadisəsi, qurbanların dəfni ilə başa çatmadı. SAVAK məmurları şayiə yaymışdılar ki, Ayətullah Xomeyninin tərəfdarları kinoteatra müxalif olduqlarına görə oranı yandırmışlar. Çox pis ictimai rəy yaranmışdı, hara gedirdiksə, bu şayiəni eşidirdik.

İşimiz camaatla danışıb maarifləndirmək olmuşdu. Onlara deyirdik: "Tutalım, siz deyən doğrudur, axı Marallar filmi pozğun film deyildi ki, Ayətullah Xomeyninin tərəfdarları kinoteatrı və tamaşaçıları yandırsınlar. İkincisi, bizim dinimiz heç kimə zərər yetirməyə icazə vermir, o ki qala öldürməyə. Hamımız bilirik ki, adam ödürmək haramdır, camaatı tənbeh etmək üçün belə bir iş görmək olarmı?!"

***

8 Sentyabra bir-iki gün qalmış atam gömrükdən qarderob tipli soyuducular yükləyib Tehrana apardı. Bir həftədən sonra Xürrəmşəhrə qayıdanda yaxşı deyildi; daim fikrə gedir, gözləri dolur, yavaşca şahı lənətləyirdi. Onun dediyinə görə, şah sentyabrın səkkizində Tehran meydanlarının birində elə qırğın törətmişdi ki, meydanın hər tərəfi şəhidlərin qanına boyanmışdı. O deyirdi: "Bu yezid heç kimə rəhm eləmir, uşaq-qoca bilmir". O, şahı israilçi yezid adlandırırdı. 1973-cü ildə

dünyaya gəlmiş sonbeşiyimiz, kiçik bacım Munanın şirindilliyi də onu sakitləşdirə bilmirdi.

Atam səfərdən heç vaxt əliboş qayıtmazdı, kiçik də olsa, bizə hədiyyə alardı. Zövqü çox yaxşı idi. Mən onuncu sinifdə oxuyanda biz dörd bacının hərəsinə bir köynəklik parça almışdı. Parçaların hərəsi bir rəngdə idi: sarı, göy, çəhrayı və qırmızı. Hərənin parçasını özünə verdi. Qırmızı parçanı mənə verəndə dedi: "Bunu sənə aldım, çünki gül kimisən, bu parça da gül rəngindədir". Onun bu sözü heç vaxt yadımdan çıxmaz. Bu dəfə isə əliboş qayıtmışdı. Tehranda baş verənlərə görə hədiyyə almağa həvəsi qalmamışdı.

Bir gün Neft şirkətinin işçilərinin tətil xəbəri yayıldı. Bunu Abadanda Neft şirkətində işləyən uzaq qohumlarımızdan bir neçəsindən eşitdik. Deyirdilər ki, məişət problemlərinə və müdiriyyətin işçilərə qarşı haqsızlığına görə tətil etmişlər.

Həmin ilin yayı da ötdü. Şahnaz dərsini bitirmiş, Təhsil nazirliyindən tədris icazəsi almışdı. O, səmimi dostlarından, həm də institutun dindar qızlarından olan Xədicə Bazunla birgə orta məktəbdə və ya liseydə tədris üçün müraciət etmişdi. Hicablı olduqlarına görə məktəb direktorları onları incidirdilər. Axırda Xürrəmşəhrin bir kasıb məhəlləsindəki oğlan məktəbinə göndərdilər. Maddi və mədəni baxımdan yoxsul olduğuna görə orada çoxlu cinayətlər baş verirdi. Onlar çarəsiz qalıb qəbul etdilər.

Yavaş-yavaş yeni dərs ilinə hazırlaşırdıq. Sentyabrın 23-də yenə böyük həvəslə məktəbə yollandıq. Dostlarımı yenidən gördüyümə çox sevinirdim. Hər il olduğu kimi, direktor, müəllimlər və çoxlu uşaqlar yenə şahın doğum gününə hazırlaşırdılar.

Məktəblər açılandan təxminən iki həftə sonra Şahnaz dedi ki, maaşlarının azlığına görə Xürrəmşəhrin bütün müəllimləri tətil qərarına gəliblər və sabahdan məktəbə getməyəcəklər.

Ertəsi gün məktəbə gedəndə gördük ki, Xürrəmşəhrin bütün ibtidai və orta məktəb müəllimləri bizim liseyimizə toplaşıblar. Bizim liseyimiz Xürrəmşəhrin ən böyük təhsil ocağı idi və həm də şəhərin mərkəzində yerləşirdi. Direktor məktəbin qapıçısına və onun arvadına tapşırmışdı ki, şagirdlərin heç birini məktəbə buraxmasınlar. Qorxurdu ki, şagirdlər içəri girəndən sonra kütləni idarə edə bilməz. Buna görə bizə deyildi ki, lisey qeyri-müəyyən vaxta qədər tətildir.

Həmin gün məktəbə girə bilmədim. Mitra, Səkinə Hurisi və qrupumuzun digər uşaqları ilə məktəbin önündə görüşdük. Qərara gəldik ki, ertəsi gün hər birimiz ayrı-ayrılıqda içəri girməyə çalışaq. Həm orada nə baş verdiyini bilməyə çalışırdıq, həm də aksiyanı məktəbdən bayıra çıxarmaq, bu bəhanə ilə rejim əleyhinə şüar səsləndirməyin mümkünlüyünü yoxlamaq istəyirdik. Biz həm Qum, Təbriz və digər şəhərlərdə günahsız insanların öldürüldüyünə görə narahat idik, həm də Xürrəmşəhr əhalisindən səs çıxmadığına görə.

Ertəsi gün Şahnazla birlikdə məktəbə getdik. Liseyin qarşısında bir-birimizdən ayrıldıq. Qərara gəlmişdik bir-bir içəri girək ki, bizdən şübhələnməsinlər. Bir qədər gözləyəndən sonra məktəbə aksiyaya gəlmiş bir neçə müəllimənin qapıya yaxınlaşdığını gördüm, başımı aşağa salıb onlarla birgə qapıdan keçdim. Məktəbimizin qapıçısı məni görmədi. Həyətin bir küncündə dayanıb Şahnazı gözləməyə başladım. O, bir neçə dəqiqədən sonra içəri girmək istəyəndə qapıçı saxlayıb demişdi: "Sən şagirdsən, içəri girə bilməzsən. Məktəb tətildir". Şahnaz çantasından tədris icazəsini çıxarıb göstərmişdi. O da üzr istəyib kənara çəkilmiş və Şahnaza yol vermişdi. Əmirə ilə Səidə də içəri girə bildilər. Mitra yarım saatdan sonra bizə qoşulub digər uşaqların bayırda dayandıqlarını söylədi. Yavaş-yavaş məktəbin həyəti qadın və kişi müəllimlərlə doldu. Qadınların çoxu hicabsız idi. İbtidai məktəb müəlliməsi olan Nicat bibimi də

orada gördüm. Onunla göz-gözə gəldik. Mənə yaxınlaşmaq istəyəndə diqqət çəkməkdən qorxub adamların arasında gözdən itdim.

Bir-iki saatdan sonra qətnamə oxundu və müəllimlər yavaş-yavaş getməyə başladılar. Başa düşdüyümüz qədərincə, hələ bir neçə gün dərs olmayacaqdı, yeni qərar çıxana qədər hər gün bizim liseyimizə toplaşacaqdılar. Biz də müəllimlərlə birgə məktəbdən çıxdıq və sözləşdik ki, sabah yenə gələk.

Bu minvalla iki-üç gün keçdi. Müəllimlərin etirazına ümid bəsləmək mənasız idi. Nə qədər gözlədiksə, onlardan səs çıxmadı. Əvvəlcə fikirləşirdik ki, bir-iki günə aksiyalar küçədə davam edər, biz də bekar oturmaz, digər şəhərlərdə olduğu kimi, yaxşı bir yürüş keçirərik. Zaman ötdükcə heç bir hadisə baş verməyəndə isə uşaqlarla qərara gəldik ki, özümüz hərəkətə keçək.

O boyda liseyin şagirdləri arasında yalnız iyirmi aktiv dindar vardı. Qərara gəldik ki, ertəsi gün bütün müəllimlər gedəndən sonra məktəbdə qalaq, hamıdan axırda təkbir deyə-deyə məktəbdən çıxaq, sonra yaxınlıqdakı küçələrdən keçib Milanian prospekti ilə Firdovsi prospektinə yön alaq. Ondan sonrası üçün isə xüsusi bir fikrimiz yox idi.

Ertəsi gün hamımız həyəcanlı idik. Bir tərəfdən görəcəyimiz işə görə həyəcanlanırdıq, digər tərəfdən işin aqibətindən qorxurduq. SAVAK və onun işgəncələri barədə az oxumamışdıq.

Günorta təxminən saat 12-də müəllimlər yavaş-yavaş məktəbdən çıxdılar. Qapıçı bizi görüb niyyətimizi anladı, direktora və müavininə xəbər verənə qədər boğazımıza güc verib "Allahu-əkbər" qışqıra-qışqıra küçəyə çıxmağa başladıq. Hələ məktəbdən bir neçə metr aralanmamış Xürrəmşəhrin dindar və inqilabçı oğlanları bizə qoşulub şüar verməyə başladılar. Təxmin etdim ki, uşaqlarımız İsfahanlılar məscidinə

gedib-gəldiklərinə görə bugünkü aksiyamızdan xəbər tutublar. Onların bir neçəsi bizim rəfiqələrimizin qardaşları idilər.

Firdovsi prospektinə doğru yürüşümüzün başlanmasından çox keçməmiş Hərbi Dəniz Qüvvələrinin hərbçiləri bizi mühasirəyə aldılar. Oğlanları vura-vura bir neçəsini tutub apardılar. Etirazçıları qorxutmaqdan ötrü tez-tez havaya atəş açırdılar. Qızların bir neçəsi yolun kənarındakı mağazalara girdi, mən, Mitra, Səkinə, Səidə, Məryəm Ələvi və tanımadığım başqa bir neçə nəfər isə başımızda qara çadra orada qaldıq. Ətrafımızı sarmış hərbçilərin rəisi əl mikrofonu ilə şəhər əhalisinə deyirdi: "Camaat! Bu gün küçəyə çıxıb şüar verən bu qızlar sizin namuslarınızdır. Namuslarınızı qoruyun. Qoymayın küçə və prospektlərə ayaqları açılsın. Qoymayın SAVAK məsələyə girişsin. Əgər bu, baş versə, namuslarınıza yaxşı olmayacaq!"

O, kişilərin qeyrətini coşdurmaq, hamını bizə qarşı qaldırmaq istəyirdi. Bəzi mağaza sahibləri qızların bir neçəsini öz mağazalarına yönləndirdilər. Bu zaman oğlanların biri yanımızdan keçəndə yavaşca dedi: "Tez dağılışın... Bayandır liseyinə gedin".

Bir-birimizdən ayrıldıq. Tək-tək, iki-iki küçələrdən qaça-qaça Taliqani məhəlləsinin əvvəlindəki Bayandır liseyinə yollandıq. Mitra ilə birlikdə idik, bir qədər sonra Səidə də bizə qoşuldu. Oraya çatanda bildik ki, Bayandır liseyinin oğlanları da bizim kimi yürüş etmiş və təhlükəsizlik qüvvələri ilə dalaşmışlar.

Oraya çatandan az sonra əsgərlərin biri tez bizə doğru qaçmağa başladı. Biz də Taliqani məhəlləsinin içinə üz qoyduq. Oraya ilk dəfə idi getmişdik, küçələrini tanımırdıq. Küçələrin birində bir qapının açıq olduğunu görüb üçümüz də həyətə girdik və qapını bağladıq.

Ürəyim elə bərk döyünürdü ki, sanki yerindən qopacaqdı. Boğazımız qurumuşdu, nəfəsimiz gəlmirdi. Ev sahibi qapının

səsinə çıxdı, rəngimizin qaçdığını görüb nə baş verdiyini anladı və dərhal qışqırmağa başladı:

- Yalla![1] Mənim həyətimdən çıxın! Sizə görə gəlib bizi də apararlar!

Qadın çox qorxmuşdu. Nə qədər yalvardıq ki, heç olmasa, əsgər keçib-gedənə qədər gözləsin, o isə dinləmir, qışqıra-qışqıra sözlərini təkrarlayırdı. SAVAK-ın əlinə keçməkdən qorxurdum. Bu, baş versəydi, başıma nələrin gələcəyini bilirdim. Əgər heç bir hadisəsiz buraxsaydılar da, ondan sonra atam ayağımı evdən bayıra qoymağa icazə verməzdi.

Ev sahibini sakitləşdirməyə, əsgər gedənə qədər vaxt qazanmağa çalışsaq da, faydası olmadı. O deyirdi: "Əgər həyətdən çıxmasanız, özüm çıxıb qışqıracağam ki, gəlib sizi aparsınlar".

Bir neçə saniyədən sonra Mitra dodaqaltı "Bismillah" deyib yavaşca qapını açdı. Küçə sakit idi, deyəsən, əsgər harada gizləndiyimizi öyrənə bilməmişdi. Ev sahibindən üzr istəyib bayıra çıxdıq. Qaçaraq evdən uzaqlaşdıq, sonra bir-birimizdən ayrılıb divarların kənarı ilə gedə-gedə məhəllədən çıxdıq. Allahın köməyi ilə ələ keçmədən qurtula bildik. Baş verənlər barədə isə evdə heç kimə bir söz demədim.

Ertəsi gün müəllimlər yenidən liseyimizə toplaşdılar və aksiya davam etdi. Uşaqların bir neçəsi ilə birgə biz də içəri girə bildik. Bir gün öncə baş verənlərə görə direktor və müavini işlərini möhkəm tutmuşdular. Mikrofonla bir-bir adlarımızı çəkib bizi müəllimlərin arasından çıxaranda bunu anladıq. Əvvəlcə özümüzü adamların arasında gizlətməyə çalışdıq, amma özlərinin bizə doğru gəldiklərini görüb heç nə edə bilmədik. Bizi tapıb məktəbdən çıxardılar.

Kor-peşman liseyin qarşısında dayanmışdıq. Sonralar soyadının Müqbil olduğunu öyrəndiyim bir oğlan birdən

[1] "Ya Allah" ifadəsinin ərəblər arasında geniş yayılmış qısa formasıdır.

məktəbin həyətindəki səkinin üstünə çıxıb qışqırdı: "Ölüm yalnız qonşuya yaxşıdır?! Bəs bizim rolumuz nədir?! Bütün İran etiraz yürüşlərilə dolub, bizsə sakit oturmuşuq!"

Cəmiyyətin arasına çaxnaşma düşdü. Bilmirdim ki, o gənc müəllimdir, yoxsa bizim kimi özünü onların arasına salıb. Kim idisə, çox cəsarətlə bizim ürək sözlərimizi hayqırırdı. Həmin bir neçə cümləni eşidəndə sanki vücuduma yeni bir ruh üfürdülər.

Xanım direktor özünə gəlib gəncin sözünə reaksiya verənə qədər müəllimlər məktəbdən çıxıb yürüşə başladılar. Sevincək onlara qoşuldum. Bu, müəllimlərin ilk planlı yürüşü idi. İranduxt liseyindən Xürrəmşəhr came məscidinə qədər yürüş bir neçə gün davam etdi. Sonrakı günlərdə rəngli çadralara bürünmüş evdar qadınlar və bəzi dövlət işçiləri də bizə qoşuldular. Digər məktəblərin çoxlu qız və oğlan şagirdləri də yürüşdə iştirak edirdilər. Bu yürüşlər məllimlərin etirazı kimi başlamışdı, əslində isə hakimiyyətdən narazılığı nümayiş etdirmək üçün bir vasitə idi.

Bir dəfə yürüş zamanı ixtiyarsız olaraq qışqırdım: "Şaha ölüm! Şaha ölüm!" Birdən məktəbimizin kişi müəllimləri qarşıdan mənə hücum çəkib dedilər: "Dəli olmusan?! Hamımızı ölümə vermək istəyirsən?! Bu şüar nədir, qız?! Sakit ol!"

İnqilabçı uşaqların biri yanımda təkbir deyirdi. Müəllimin etirazını görüb dilləndi: "Sabah, bu nə şüardır?! İndi bunun vaxtı deyil!" Dedim: "Bəs nə zaman vaxtıdır? Şah əleyhinə şüar verməyə gəlmişik, başqa bir iş üçün yox".

Ümumxalq aksiyasına bir neçə ruhani qoşulandan sonra yürüşün marşrutu dəyişdi. Qərara gəldilər ki, bundan sonra came məscidindən başlayıb Pəhləvi və Firdovsi prospektlərinə getsinlər, sonra yenə məscidə qayıtsınlar.

Ruhanilər aksiyaya qoşulandan sonra İmam Sadiq (ə) məscidinin imamı və Ayətullah Şəriətmədarinin Xürrəmşəhrdəki nümayəndəsi Şeyx Şübeyr Ali-Xaqaninin də

bizə qoşulacağını gözləyirdik. Lakin o, Ayətullah Şəriətmədarinin tövsiyələrindən irəli gələrək yürüşü və inqilabı düzgün saymırdı. Bununla yanaşı, bir gün yürüşün əsas təşkilatçıları onu şəhərin tanınmış və etibarlı ruhanisi kimi də dəvət etdilər, o isə qəbul etmədi.

Ayətullah Şeyx Şübeyrin evi məscidə yaxın idi. İkimərtəbəli lüks bir ev idi, xarici görünüşünü bəzəyən ağ daşlarından ruhani evinə oxşamırdı. Bir gün yürüş zamanı onun evinin önündən keçəndə hamı dayanıb "Ağ saray yezidindir" qışqırmağa başladı. Bu zaman şeyxin arvadı ikinci mərtəbənin balkonuna çıxıb camaata pis söyüşlər verdi. Biz o söyüşləri eşitdiyimizə görə xəcalətimizdən yerə girmək istəyirdik. Şəhərin məşhur şeyxinin arvadından heç kim belə hərəkət gözləmirdi.

1978-ci ilin 11 noyabrı qurban bayramına təsadüf edirdi. Şahnazla Əli İmam Sadiq (ə) məscidinə bayram namazı qılmağa getdilər. Bir-iki saat ötdü, amma evə dönmədilər. Yavaş-yavaş həyəcanlanmağa başladıq. Anam tez-tez deyirdi ki, həyəcanlıyam, başlarına bir iş gəlib. Məscidə gedib onlardan xəbər öyrənmək istəyirdim, amma anam qoymurdu, qorxurdu ki, mən də onlar kimi gedib gəlmərəm. Günortaya qədər heç nə öyrənə bilmədik. Hamımız qapının ağzında oturmuşduq. Azana yaxın Şahnaz çox həyəcanlı və rəngi qaçmış halda gəldi. Evə çatan kimi soruşdu: "Ana, Əli gəlib?" Anam qorxuya düşdü.

- Yox, gəlməyib. Məgər nə olub?

- Heç nə. Narahat olmayın.

- Yox, nəsə olub, demək istəmirsən. Qonşunun oğlu Əbdülbarid dedi ki, atışma olub, bir neçə nəfər ölüb. De, görüm uşağımın başına nə gəlib?

- Atışma oldu, amma o qədər də güclü yox.

Atam evə girdi, paltarlarını dəyişib bayıra çıxdı, sonra anamı evə göndərdi. Şahnaz atama yavaşca dedi: "Ata, birdən Əliyə

bir şey olar". Atam cavab verdi: "Qorxusu yoxdur, qızım, İmam Hüseynin (ə) Əli Əkbərinə qurban olsun!"

Atamın cavabından sonra tüklərim biz-biz oldu. Onun Əli barədə bu qədər rahat danışacağı heç vaxt ağlıma gəlməzdi. O gedəndən sonra Şahnazla anam da dözə bilməyib küçəyə çıxdılar. Onlardan təxminən bir saat sonra Əli rəngi qaçmış, dodağı qurumuş halda qayıtdı. Ona bir stəkan su verəndən sonra atam, bir qədər sonra da anamla Şahnaz gəldilər.

Nəfəslərini dərəndən sonra danışmağa başladılar. Şahnaz dedi: "Namazdan sonra camaat şüar deyə-deyə Bayandır liseyinə doğru yola düşdü. Basırıqda Əlini itirdim. Nə qədər axtardımsa, tapa bilmədim. Camaat 26 Yanvar meydanına çatanda "şaha ölüm" şüarı başlandı. Hərbi Dəniz Qüvvələri də atəş açmağa başladı. Camaat gözlərimiz önündə gül ləçəkləri kimi yerə yıxılırdı".

Müqbilin şəhid olduğunu orada eşitdim. İnqilabçı fəallardan idi, onu itirmək mənə ağır gəldi. Həmin gün müxtəlif yerlərdə baş vermiş atışma zamanı yerlilərimizdən çoxları şəhadətə qovuşmuşdular.

Dekabrın 14-də Xürrəmşəhr SAVAK-ının Veysi adlı bir məmurunun evinin bomba ilə partladılması xəbəri dolaşdı. Xürrəmşəhrin inqilabçı uşaqlarından Həsən Müctəhidzadə adlı biri məmurun ailəsi evdə olmayanda dostları ilə birlikdə su kondisionerinin kanalına kustar bomba yerləşdiribmiş. Bir neçə saat ötmüş, amma bomba partlamamışdı. Həsən bombanı yoxlamaqdan ötrü Veysinin evinə yaxınlaşanda partlayış baş vermiş, özü də yaralanmışdı.

SAVAK məmurları tez Həsəni tutub xəstəxanaya aparmışdılar. Dostları onu xilas etməkdən ötrü bir neçə dəfə ağ xalat geyinib xəstəxanaya getmişdilər, amma onun yatdığı palata SAVAK məmurları tərəfindən ciddi mühafizə olunduğundan buna nail olmamışdılar. Uşaqlar Həsənin

vəziyyətini görmüşdülər. Həkimlər də deyibmişlər ki, ciddi yarası yoxdur, bir neçə gündən sonra evə buraxıla bilər. Buna baxmayaraq, həbsxanaya aparılandan bir neçə gün sonra şəhid olduğunu eşitdik. Ona çox ağır işgəncələr vermiş, əllərinin dırnaqlarını çıxarmışdılar.

SAVAK məmurları Müctəhidzadənin ailəsinə belə bir xəbər yollamışdılar: "Əgər oğlunuzun cəsədini istəyirsizsə, dediyimiz qədər pulu bir şirniyyat qutusuna qoyub bizə gətirin. Cəsədi alandan sonra da səssizcə dəfn etməlisiz".

Həsənin dostları ailəsi ilə məsləhətləşib qərara gəldilər ki, şəhid yoldaşlarının cəsədinin qərib şəkildə torpağa tapşırılmasına imkan verməsinlər. Onun dəfni heç vaxt yadımdan çıxmaz. Şəhidin qanı xalqın qəzəbini coşdurmuşdu. Dəfndə iştirak edənlər "Allahu-əkbər! Xomeyni rəhbər!" şüarından tutmuş "Şaha ölüm!" şüarınadək müxtəlif yollarla etirazlarını bildirirdilər. Şüar səsləri hər an ucalırdı.

1979-cu ilin 16 yanvarında anam, Fevziyə, Şahnaz, Salehə, Firdovs və Əli ilə birgə yürüşə getdim. O zaman yürüşlər təxminən səhər saat 8-də başlayır, 11 və ya 12-də bitirdi. Günortaya yaxın idi. İnqilab xiyabanına təzə çatmışdıq. Bir nəfər mikrofonla şüar deyir, biz də təkrarlayırdıq. Birdən mikrofonla şahın qaçdığını elan etdilər. Camaat sevindiyindən atılıb-düşməyə başladı, elə coşqu və həyəcan yarandı ki, o vaxta qədər heç bir yerdə görməmişdim. Camaatın gülüş, şənlik və təkbir səsləri səngimirdi. Şahın qaçdığına inana bilmirdik. Camaatın içindən belə bir şüar ucaldı: "Şah qaçıb! Şah qaçıb!"

Gülər üzlə və ümid dolu qəlblə evə qayıtdıq. Artıq inqilabın qələbəsinə heç bir şübhəmiz qalmamışdı. Allahın köməyi ilə İslam dövlətinin bir addımlığında idik. Son zamanlar o qədər ideologiya ilə rastlaşmışdıq ki, bütün vücudumuzla bir İslam dövlətinə susamışdıq.

Yadımdadır, bir gün məktəbin həyətində qrupumuzun uşaqları ilə dayanıb ertəsi günün yürüşü barədə vədələşirdik. Bu zaman kommunist uşaqların biri yaxınlaşıb dedi: "Vətənpərvər! Bizim yol və məqsədimiz birdir. Sabah mən də sizinlə gələcəyəm!" Dedim: "Gəlmək istəyirsənsə, gələ bilərsən, amma bil ki, yolumuz bir olsa da, məqsədimiz bir deyil. Siz maddiyyat axtarırsınız, bizsə İslam dövləti istəyirik; həm maddiyyatı, həm mənəviyyatı olan bir dövlət".

Bu mənim inancım idi, amma düzünə qalsa, Xalq Mücahidləri Təşkilatının yorulmaz fəaliyyətinə görə, Məsud Rəcəvini Ayətullah Xomeynidən çox tanıyırdım. Bəzən çaşıb qalır, haqqın hansı tərəfdə olduğunu bilmir, haqla batili necə ayırd edəcəyimi düşünürdüm. Bir dəfə ağlıma müraciət etdim: Məgər din insanın hidayəti üçün gəlməyib?! Onda mən də dinə müraciət etməli, onun köməyi ilə doğru-yanlışı bilməli, uyğun örnək tapmaq üçün İslam örnəklərimizdən kömək almalıyam. İmam Hüseyni (ə) bir örnək kimi nəzərimdə tutdum, dedim ki, hamının işini onun şəxsiyyəti, sözləri və əməlləri ilə müqayisə edəcəyəm. Beləliklə, onu yaxşı və pisin meyarı seçdim. Bundan sonra isə sualıma cavab tapmaq üçün çox zamana ehtiyac qalmadı. Ayətullah Xomeyninin söz və rəftarı cəddinə çox oxşayırdı, Məsud Rəcəvi isə İslam hökümlərinə bağlı deyildi. Düzdür, zahirdə çox İslamdan dəm vururdu, ancaq deyirdi ki, mürtəce İslam da var və biz ona qarşı mübarizə aparmalıyıq.

Mənə əzab verən başqa bir məsələ Məsudun tərəfdarı olan uşaqların görkəmi və rəftarı idi. Belə qızlar başlarına kiçik bir yaylıq atır, qısa yubka və cəlbedici paltarlar geyinir, özlərini həmfikir olduqları oğlanlara göstərməyə çalışırdılar. Bunlar mənim öyrəndiyim İslamla uyğun gəlmirdi.

Mən Əbuzər və Miqdadın İslamını istəyirdim; Yasirin, Süməyyənin və Əmmarın canlarını qurban verdikləri dini. Onların barəsində oxuduğum kitabların heç birində belə

hərəkətlərə dair bir şey yox idi. Son illərdəki dini mütaliələrim çox köməyimə gəldi, məni İmam Xomeynini çox sevməyə, ona ürəkdən hörmət bəsləməyə yönəltdi.

Müqbilin və bayram namazındakı digər şəhidlərin ölümündən sonra xalqı sakitləşdirmək olmurdu. Hər hansı səbəbdən keçirilən hər bir toplantı çox tezliklə kiçik yürüşə çevrilirdi. Təqib və qaçhaqov Xürrəmşəhrin əksər prospektlərində davam edirdi. Bir neçə gündən sonra məhərrəmlik gəldi, toplantı və yürüşlər daha da gücləndi, əza və rövzə məclisləri maarifçilik dərslərinə çevrildi. SAVAK bir müddət öncədən dəfələrlə bildirmişdi ki, təziyə məclislərində şahın adı çəkilməməlidir. Lakin Amerika və İsrailin muzduru olan diktatorun adı çəkilmədən hansısa təziyə məclisinin keçirildiyini xatırlamıram.

Çox narahat idik. Gecələr başımı yorğanın altına salıb ağlayırdım. Qəribə halda idik. Bütün vücudumuzu ümid işığı bürümüşdü. İslam dövlətinin qurulacağına nikbin yanaşırdıq. Yavaş-yavaş banklar və dövlət idarələri tətil olundu. Digər vilayət və şəhərlərdən də xalqın müqavimət və şəhadət xəbəri gəlirdi. Ayətullah Xomeyninin bəyanatları inanılmaz sürətlə yayılırdı. Artıq bir müddət idi ona "İmam Xomeyni" deyirdik.

İmam Xomeyninin ölkəyə qayıtmaq istəməsi bizdə vəsfəgəlməz coşqu və həyəcan yaratdı. Şahın gedişindən bir müddət sonra eşitdiyimiz ən xoş xəbər bu oldu. Sanki damarlarımıza yeni qan köçürüldü. O gündən etibarən səbirsizliklə imamın gəlişini gözləməyə başladıq.

Baş nazir Şapur Bəxtiyar ölkənin bütün hava limanlarını qeyri-müəyyən zamana qədər bağladı. Çıxılmaz vəziyyətdə qalmışdıq. Şahın nökərinin hansı addımları atacağından narahat idik. Qorxurduq ki, bir hadisə baş verər, Allah eləməmiş, imama bir şey olar. Onun sağ-salamat vətənə qayıtması üçün çoxlu dua və nəzir edirdik.

Nəhayət, fevralın birində imam gəldi. Həmin gün hamımız televizorun önünə toplaşıb gözlərimizi ekrana dikmişdik. Mehrabad hava limanından min kilometr uzaqda imamın gəlişini gözləyirdik. Nə qədər fikirləşdimsə, axırıncı dəfə nə vaxt televizor önündə oturduğumu xatırlaya bilmədim. Son zamanlar inqilab məsələləri ilə, mitinq və yürüşlərlə o qədər məşğul idik ki, televizora baxmaq tamam yadımızdan çıxmışdı.

İmam Xomeynini gətirən təyyarənin enişi göstəriləndə, gözümü bir müddət əvvəl çərçivəyə keçirib samovar stolumuzun yanındakı divara vurduğumuz gözəl şəklindən çəkmədim. Səhər tezdən hamımız süfrəyə toplaşanda onun mehriban üzünü görək deyə şəkli oradan vurmuşduq. İmam Xomeyninin təyyarənin trapından enməsi göstəriləndə anam ərəblərə xas şənlik səsləri çıxarmağa başladı. Hamımız sevincimizdən ağlayırdıq.

Ondan sonra hər gün yürüş keçirilirdi. Daha xalq evlərdə qərar tuta bilmirdi. Pəhləvi prospektindən Firdovsi və Fəxr Razi prospektlərinə doğru yola düşür, axırda Xürrəmşəhr came məscidinə gedirdik. Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələrinin və Quru Qoşunlarının şəxsi heyəti tam hazır vəziyyətdə idi. Allaha ümidvar olsaq da, inqilabın qələbəsini həqiqətən, bir möcüzə bilirdik. Şahın törətdiyi qırğınlardan, o qədər texnika və imkanlardan sonra əliyalın inqilabçıların qələbəsi qeyri-mümkün görünürdü. Hərbi Hava Qüvvələrinin zabitlərinin imamla beyət şəklini görəndə isə bir qədər arxayınlaşdıq. İnqilab addım-addım qələbəyə yaxınlaşırdı.

Fevralın 8-dən komendant saatı sərtləşdirildi. İmam gələndən sonra ruhlansaq da, həyəcan və təşviş bizdən əl çəkmirdi. Qorxurduq ki, Bəxtiyar imamın yerləşdiyi Rifah mədrəsəsinə hücum planlayar. İmamın canının qorxusu bir an da beynimizdən çıxmırdı.

Fevralın 10-da xəbər tutduq ki, Tehran şəhəri Baş Polis İdarəsinin rəisi komendant saatını axşamüstü beşin yarısından səhər beşə qədər artırmışdır. İmam bunu eşidəndən sonra fərman verdi ki, xalq komendant saatına məhəl qoymayıb küçələrə çıxsın. O, qətiyyətlə buyurmuşdu: "Elə bu axşam komendant saatı ləğv olunmalıdır!"

Ayın 8, 9 və 10-da evimizdə radio bir an belə sönmədi. Suriya radiosu əvvəlki kimi İranın inqilabçı xalqını dəstəkləyirdi, ölkənin, xüsusən də Tehranın mühüm hadisələrini o qədər dəqiq xəbər verirdi ki, hətta hansı xəstəxananın qan, mələfə və dərmana ehtiyacı olduğunu da bilirdik. Radionun ərəb müxbirləri bu xəbərləri İranın müxtəlif yerlərindən hazırlayıb göndərirdilər. Mən xəbərlərin ümumi məzmununu başa düşürdüm, evimizdə atamdan sonra ən yaxşı ərəbcə bilən isə Fevziyə idi. O, Suriya radiosunun xəbərlərini bizə tərcümə edirdi. Şahnazın da ərəbcəsi yaxşı idi.

Evimiz əməlli-başlı inqilab ab-havasında idi. Atam inqilabın qələbə çalacağına çox da ümidvar deyildi. Deyirdi ki, mən bu xalqa inanmıram, onlar Müsəddiqin vaxtında da belə yürüşlər edirdilər, amma zamanı çatanda hamı evdə oturdu.

Son iki-üç gündə qəribə halda, qorxu ilə ümid arasında idik. Həyəcanlanır, təşviş keçirir, çox əsəbiləşirdik. Evimizdə hamının yemək və yatmaq rejimi pozulmuşdu. Hamımız inqilab barədə yeni xəbər gözləyirdik. Gözlərimizi Tehrana - inqilaba və İrana dair ən həssas və ən həyati qərarların qəbul edildiyi Rifah mədrəsəsinə dikmişdik. Arzu edirdim ki, kaş Tehrana gedib imamı yaxından görə biləydim! Bəlkə yalnız onda oğlan olmaq istəmişəm. Oğlan olsaydım, bəlkə də Tehrana getməmə icazə verərdilər.

Suriya radiosundan xəbər verildi ki, İmam Xomeyninin tərəfdarı olan bəzi inqilabçı zabitlər Hərbi Hava Qüvvələrinin yeməkxanasında şaha bağlı zabitləri güllələmişlər. Bundan

sonra qarnizonun qapısı açılmış, xalq içəri girib silahlanmışdır. Radiodan deyirdilər ki, Tehranın əksər prospektlərində barrikadalar qurulub, rejim qüvvələri tankla hərəkət edirlər. Ordu birləşmələrinin çoxunun xalqa qoşulduqlarını da eşitdik.

Allah bilir ki, bu xəbərləri eşidəndə hansı hissləri keçirirdik; yerimizdən qalxıb əl çalır, qışqırırdıq. Hərbçilərin təslim olması xəbəri qələbəyə ümidimizi artırırdı. Hiss edirdik ki, tək deyilik, ordu və hərbçilər də inqilabın arxasındadırlar. Öncələr insanların ordu tərəfindən qətlə yetirildiyini eşidirdik, indi isə hərbçilər dəstə-dəstə xalqa qoşulurdular.

Bir neçə gecə idi yatanda yavaşca ağlayırdım. Uşaqlar məktəbə qəşəng bir şeir kitabı gətirmişdilər. Ondan bir-iki şeir seçib xatirə dəftərimə yazmışdım. Gecələr birini zümzümə edir, ağlayırdım. Şair Xosrov Gülsorxinin yazdığı şeir bir müəllim barədə idi. Müəllim uşaqlara birin birlə bərabərliyi dərsini keçirdi. Bu zaman etirazçı bir şagird yerindən qalxıb müəllimin dərsini tənqid etməyə başlayır, deyir ki, bir birə bərabər olsaydı, bir insan da bir insana bərabər olardı, sərvətli kasıbdan, ağ qaradan üstün olmazdı, müftəxorlar meydan sulamaz, Çin səddi yaranmaz, qul qamçı altda əzilməzdi! Bu şeiri çox sevir, daim zümzümə edirdim.

Fevralın 11-də günortadan sonra birdən radiodan "Ey İran! Ey gövhər dolu torpaq!" mahnısından sonra belə bir xəbər verildi: "Danışır Tehran - İran xalqının radiosu, inqilab radiosu! Xalqın fədakarlığı nəticəsində bu gün istibdadın son qalaları da süqut etdi. Onların biri istibdadın səsi olan radio idi. Xalq bizə güc verdi, yolumuzu açdı, əzəmətli xalqın kiçik bir parçası olaraq, inqilabın səsini hamıya çatdıra bildik". Bu xəbəri eşidəndə hamımız sevindiyimizdən atılıb-düşdük, bir-birimizi qucaqladıq. Səsimiz evi başına almışdı. Gülür, qışqırır, ağlayırdıq. Anam ərəblərə xas şənlik səsi çıxarır, atam qəhqəhə

çəkirdi. Diktorun dediyinə görə, ordu qoşulandan sonra inqilab faktiki olaraq qələbə çalmışdı.

Bu xəbərdən bir saat sonra belə bir rəsmi xəbər verildi: "Diqqət! Diqqət! Bismillahir-Rəhmanir-Rəhim. Danışır İran İslam İnqilabı radiosu! Qeyrətli, şərafətli və müsəlman İran xalqı! Allaha şükür olsun ki, bizə lütf etdi və cinayətkar şah rejimi devrildi!"

Evdən bayıra çıxdıq. Camaat küçələrə dolmuşdu. Bəziləri qurban kəsir, bəziləri sevindiklərindən evlərinin önündə rəqs edirdilər.

İmam Xomeyni İrana gəldiyi ilk günlərdə müvəqqəti hökumətin tərkibini formalaşdırmışdı ki, qələbədən sonra problem yaranmasın.

İnqilabın qələbəsindən sonra şah rejimindən qalmış SAVAK məmurları bekar oturmadılar. Hər axşam radiodan eşidirdik ki, gecə ikən inqilabçı xalqa hücum etmiş, bəzilərini yaralamış, bəzilərini öldürmüşlər. Bir müddət daim belə xəbərlər eşitdik. Yavaş-yavaş İslam İnqilabı Komitəsi yarandı. İmam Xomeyni fərman verdi ki, xalq inqilab zamanı ələ keçirdiyi silahları təhvil versin. İnqilabçı xalq da silahlarını mömin və inqilabçı qüvvələrin əlinə keçmiş qarnizonlara təhvil verdilər.

İnqilabçı xalqla "Xalq Mücahidləri Təşkilatı" arasında ilk ziddiyyət bu zaman yarandı. Onlar silahlarını vermək istəmirdilər. Şəhərin dindar uşaqları arasında buna dair söhbətlər gəzirdi. Onlar deyirdilər ki, biz inqilabdan öncə də silahlı idik, indi nə üçün silahlarımızı təhvil verməliyik?! Biz dövlət tərəfindən qanuni hərbi birləşmə kimi tanınmalıyıq. Onların inqilab rəhbərinin fərmanına qarşı çıxmaları bizə o qədər ağır gəldi ki, elə ilk gündə yanlış yolda olduqlarını bildik.

Qələbədən üç-dörd gün sonra məktəblər açıldı və biz məktəbə qayıtdıq. Sinfimizin inqilabçı uşaqları arasında xüsusi coşqu və sevinc vardı. Bir-birimizi qucaqlayıb öpür, ağlayır,

təbrik edirdik. Çox sevinirdik. O vaxta qədər belə bir hissi təcrübə etməmişdik. İlk iş olaraq, İslam birliyi yaratdıq. Bunu kimin təklif etdiyini yaxşı xatırlamıram, amma təklif dərhal qəbul olundu. Qərara gəldik ki, ertəsi gün səhər düzülüşündə belə bir birlik yaratdığımızı və üzvlüyə qəbul etdiyimizi söyləyək. Mən liseyin İslam birliyinin sözçüsü olaraq, təşkilatımızın yaradıldığını xəbər verəndə məktəb uşaqları əl çalıb bizi alqışladılar. Sonra direktorumuz gəlib çıxış etdi. Ən kiçik inqilabi fəaliyyət üstündə bizi məktəbdən qovan direktor Şahdosti İslam birliyini dəstəklədiyini, ona lazım olan hər bir köməyi etməyə hazır olduğunu bildirdi.

Onun çıxışından sonra uşaqların arasında pıçapıç başladı. Onlar direktorun bir gecənin içində bu qədər əqidə dəyişdirdiyinə inana bilmirdilər. Özünü inqilabçılarla eyni sırada göstərmək üçün də, adətən, bir qədər zaman keçməli idi. 180 dərəcəli bu sərt dönüşdən hamımız şoka düşdük. Bəzi uşaqlar dilləndilər: "Bu necə İslam birliyidir ki, direktor kimi bir SAVAK adamı onu dəstəkləyir!" Bizsə bu sözlərə fikir vermədən ilk gündən üzv qəbul etməyə başladıq. Uşaqlar bizim sinfimizə adlarını yazdırmağa gəlirdilər. Adlarını bir dəftərə qeyd edirdim. Beynimizdə onlar üçün çoxlu proqramlar nəzərdə tutmuşduq. Quran dərslərimizi genişləndirmək, əldə etdiyimiz çıxışların xülasəsini uşaqlara oxumaq, müzakirəyə çıxarmaq, hamını mütaliəyə həvəsləndirmək və digər işlər görmək istəyirdik.

İslam birliyinin uşaqları ilə gördüyümüz ilk işlərdən biri şəhərin divarlarını təmizləmək layihəsi idi. O zaman şəhərin bütün divarları müxtəlif partiyaların şüar və bəyanatları ilə dolu idi. İnqilabçılarla yanaşı tudəçilər, kommunistlər, Xalq Mücahidləri Təşkilatının üzvləri və digərləri öz düşüncə və şüarlarını divarlara doldurmuşdular. Bundan ötrü Mitragildə bir iclas keçirdik, ertəsi gündən məscidin və onun ətrafındakı

tikililərin divarlarını təmizləməyə başladıq. Bir bəyanat və ya plakat görəndə qoparır, əks-inqilabçı və kommunist təfəkkürlərini yayan şüarları spreylə pozurduq.

# Üçüncü fəsil:

## *İmam Xomeyni ilə görüş*

İsfahanlıların məscidində hər cümə səhər çağı Nüdbə duası oxunurdu. Quran məktəbinin uşaqları və xanım Abidinin özü də oraya gedirdilər. Liseyin İslam birliyinin əksər uşaqları ilə danışmışdıq ki, mütləq biz də iştirak edək.

Bir dəfə xalam qızı İlahə ilə oraya getdim. Xanım Abidi duadan sonra dedi ki, Quran məktəbinin uşaqları və bəzi fəal ruhanilər üçün İmam Xomeynidən görüş vaxtı almışdır. Səfər martın 26-a planlaşdırılmışdı. Dedi ki, kim istəyirsə, tez adını yazdırsın.

Onda İmam Xomeyni Qumda yaşayırdı. Onu görmək elə bir arzu idi ki, yatsam, yuxuma girməzdi. Xanım Abidi demişdi ki, bu görüş yalnız Quran məktəbinin uşaqları üçündür. İlahə oraya çox gedib-gəlirdi, məktəbin üzvü idi, mənsə yalnız Nüdbə duasında iştirak edirdim. Bilmirdim mənim də görüşə getməyimə icazə verəcəklər, yoxsa yox.

Xanım Abidinin yanına getdik. İlahə məni təqdim edib dedi ki, məktəbimizin inqilabçı uşaqlarındandır, çoxlu yürüş və mitinqlərdə iştirak edib. Sonra ailəmiz barədə məlumat verdi, o

qədər tərifl̈di ki, axırda xanım Abidini məni də aparmağa razı saldı.

Ata-anamızdan icazə almadan İlahə ilə birgə elə oradaca adımızı yazdırdıq. Qorxurduq ki, gecikərik, fürsət əldən çıxar. Fikirləşdik ki, əvvəlcə adımızı yazdıraq, sonra evdəkiləri bir yolla razı salarıq. Məsələni evdə danışanda atamla anam nəinki etiraz etmədilər, həm də çox sevindilər və özləri də İmam Xomeynini görmək istədiklərini həsrətlə ifadə etdilər.

Martın ortaları idi. Səfərə təxminən iki həftə qalırdı. Sevindiyimdən düz-əməlli yeyib-yata bilmir, imamla görüşümü gündə yüz dəfə, hər dəfə də bir şəkildə təsəvvür edirdim. Gah üzümü göz yaşlarımla islanmış halda təsəvvür edirdim, gah da həyəcandan yanaqları qızarmış gülərüzlə. Görüş anında nə edəcəyimi bilmirdim. Getmədiyim bir yerə, yaxından görmədiyim bir şəxsə dair beynimdə anlaşılmaz təsəvvürlər vardı. Hər gün saatları, dəqiqələri sayırdım. Sanki günlər uzanmışdı, bitmək bilmirdi.

Nəhayət, son iki həftə də ötdü və uşaqlarla Xürrəmşəhr dəmiryol vağzalına vədələşdik. Bizə demişdilər ki, özünüzlə boşqab, qaşıq, çəngəl, stəkan və kiçik bir adyal götürün. Danışmışdıq ki, axşam yeməyinə hamımız kotlet gətirək. Səfərimizin beş gün sürəcəyi planlaşdırılmışdı. Anam, Fevziyə, Şahnaz və Salehə məni vağzala qədər ötürdülər. Hamısı, xüsusən də Şahnaz tez-tez deyirdi ki, imama bizdən salam söylə. İlahə, Səkinə Hurisi, Müjgan, Müjdə və Fərəh liseyinin İslam birliyinin tanımadığım bir üzvü ilə bir kupeyə düşdüm.

Təxminən bir vaqon adam idik. Qatar yola düşəndən sonra uşaqlar sərbəst şəkildə digər kupelərdəki dostlarına baş çəkirdilər. Bizim kupemiz hamısından get-gəlli idi. Hamımız sevinir, həyəcandan bir yerdə qərar tuta bilmirdik.

Qumda məqbərənin arxasında bir küçədə yerləşən, ağa Qiraətiyə məxsus olduğu deyilən bir evə yerləşdik. Evin ikinci

mərtəbəsini bizə verdilər. Birinci mərtəbədə ağa Əllamə və Qumda bizə rəhbərlik edən Hüseyni adlı gənc bir ruhani qalırdı.

Hüseyninin xüsusi xarakteri vardı, quru və kobud adam idi, tez-tez deyirdi: "Gülməyin! Sakit olun! Səs-küy salmayın!" Bir neçə istiqanlı və fəal xuzistanlı qız bir yerə düşmüşdük, dayanmadan zarafat edib bir-birimizi ələ salırdıq. İmam Xomeyni ilə görüş həvəsi sevincimizə əlavə olunmuş, həyəcanımızı bir neçə qat artırmışdı. Üstəlik, çoxları Quma, həzrət Məsumənin məqbərəsinə və Ayətullah Bürucerdi kimi böyük İslam alimlərinin ziyarətinə ilk dəfə idi gedirdi. Bu da canımıza vəlvələ salmışdı. Hüseyni də sinif nümayəndəsi kimi daim bizə xəbərdarlıq etməklə məşğul idi. Çətin olsa da, çalışırdıq ki, səsimiz birinci mərtəbəyə getməsin və cənab Hüseyni nəsihətə başlamasın. Qorxurduq ki, peşman olub bizi Xürrəmşəhrə qaytarar.

Görüşdən öncə Hüseyni bizimlə bir-iki iclas keçirib bəzi məsələlər barədə danışdı, İslam dövlətinə və onda xalqın iştirakına dair məlumat verdi. Sonra iclas sual-cavab məclisinə döndü. Ondan soruşduq ki, şahdan və nökərlərindən qalan ev, zavod və digər mülklər İslam Respublikasına halaldır, yoxsa yox. Dedi ki, bunların heç biri şahın olmayıb, İran xalqının olub, şah onları haqsız yerə qəsb edib. Bu baxımdan, İslam Respublikası tərəfindən alınıb ölkənin inkişafına və xalqın rifahına sərf olunmasının heç bir problemi yoxdur.

Hüseyni özümüzün məqbərəyə getməyimizə icazə vermirdi. Məqbərə evə yaxın idi, deyirdik ki, beş-altı nəfər birlikdə gedib-gələcəyik. O isə razılaşmayıb deyirdi ki, hamımız birlikdə getməliyik. Həqiqətən, ağını çıxarmışdı. O qədər tələbkarlıq edirdi ki, bir neçə dəfə ondan xanım Abidiyə şikayət etdik. O da deyirdi ki, çarəmiz yoxdur, gərək dözək.

Məqbərədə bütün ailə üzvlərimi və inqilab şəhidlərini yad etdim, hamısının əvəzinə ziyarət namazı qıldım. Ayətullah

Bürucerdinin məzarı başında bibini çox xatırladım. Bibi bizə ondan çox danışardı. Biz İmam Xomeynini sevdiyimiz kimi, o da Ayətullah Bürucerdini sevirdi.

Nəhayət, böyük gün gəldi. Hüseyni ilə birgə İmam Xomeyninin məqbərənin yaxınlığında yerləşən evinə getdik. Sadə bir evdə yaşayırdı. Bizi evin görüş üçün ayrılmış otağına apardılar. Təqribən 12 kv metrlik otaq idi. Otağın yuxarı tərəfinə adyal sərilmiş və bir stul qoyulmuşdu. Hüseyni dedi: "Sss! Səs salmayın. İmam gələndə səsiniz çıxmasın, birdən nəsə deməyəsiz!"

Hirsimdən dişlərimi sıxırdım. Orada da bizdən əl çəkmir, göstəriş verir, qadağa qoyurdu. O qədər əsəbi idim ki, bıçaq vursaydılar, qan çıxmazdı. Qəzəblə ona baxdığım yerdə birdən otağın qapısı açıldı və İmam Xomeyni içəri girdi. Bir anlığa parıltılı nur dağının otağa girdiyini hiss etdim. Hamımız yay kimi yerimizdən atıldıq. İmamın yanında gənc bir xanım vardı. Özü deyirdi ki, imamın gəlini, Şəhid Mustafanın həyat yoldaşıdır. Sanki bütün damarlarımda qan qaynayırdı. Çox həyəcanlı idim. Nurlu üzündən gözümü çəkmirdim. İmam Xomeyni ucaboy və yaraşıqlı kişi idi, insanları özünə cəzb edirdi. O, içəri girən kimi əl işarəsilə Hüseynini bayıra çıxardı. O qədər sevindim ki! Hisslərimizi çox düzgün duymuş, hələ içəri girməmiş adamın bizi nə qədər incitdiyini başa düşmüşdü. Hüseyni çıxandan sonra hamımız rahat nəfəs alıb imamın dövrəsinə toplaşdıq. Mən onun arxasında idim.

İmam Xomeyni köhnə qəhvəyi əba geyinmişdi. O, doğrudan da dünya adamı deyildi. Bilmirəm necə oldusa, cəsarətlənib ona yaxınlaşdım və yavaşca əbasını öpdüm. İmamın gözəl ətri ruhuma hopdu, ixtiyarsız halda ağlamağa başladım. İmam Xomeyni otağın baş tərəfinə keçib onun üçün qoyulmuş stulda deyil, yerə sərilmiş adyalın üstündə oturdu. Ondan azca aralıda, sol tərəfində oturdum.

İmam danışmağa başladı, inqilabi fəaliyyətlərinə görə Xuzistan uşaqlarına təşəkkür etdi. Uşaqlar ağlamağa başladılar. Göz yaşları içində onu süzürdüm. Çox qəribə halda idi, uşaqlara elə baxır, diqqət yetirirdi ki, görüşdən sonra hamı deyirdi ki, imam yalnız mənə baxırdı. Sanki hər birimizin ruhumuzu müşahidə edir, halımızı anlayırdı.

Xürrəmşəhrli qadınların inqilabi fəaliyyətlərindən danışıb dedi: "Siz çox zəhmət çəkmisiz, Allah əvəzini verəcəkdir".

Elə bilirdim, yuxu görürəm. Mənə belə bir səadətin nəsib olduğuna inana bilmirdim. Orada olduğum müddət ərzində imama qərq olmuşdum, vaxtımızın nə zaman bitdiyini hiss etmədim. Gözlərimizi açıb-yumunca 15 dəqiqə bitdi və imam başqa bir qrupla görüşə getməyə məcbur oldu.

Evdən çıxanda hamı başqa əhval-ruhiyyədə idi. Daha o səs-küydən, dəcəllikdən əsər-əlamət qalmamışdı. İmamla görüş hamımızı muma döndərmişdi. O görüşdən başqa bir şey haqda fikirləşmək istəmirdim. Bədənimin bütün hüceyrələri ona sevgi və məhəbbətlə dolmuşdu. Hələ getməmiş ona darıxırdım, bir yerdə qərar tuta bilmirdim. İmamımı, rəhbərimi bir də görə bilməmək hissi mənə əzab verirdi. Deyirdim ki, İlahi, yəni onu bircə dəfə də görə bilərəmmi?

Ertəsi gün Xürrəmşəhrə qayıtdıq. Anamla bacılarım həvəslə təəssüratlarımı eşitmək istəyirdilər. Görüşün bütün təfərrüatını dəfələrlə danışdım. Hətta bir anını da yaddan çıxarmasam da, bütün danışdıqlarım o qızıl dəqiqələrin birinin əzəmətini də vəsf edə bilməzdi. İmam Xomeyni ilə görüş hissi o qədər şirin və özəl idi ki, onu yalnız dadmaq lazım idi.

***

1979-cu ilin 30 martında Xədicə Bazun və Xürrəmşəhrin digər inqilabçıları ilə birgə şəhərin came məscidində seçki məntəqəsində idik. Bir neçə gün qabaq məsciddə demişdilər ki, kim seçkilərdə kömək etmək istəyirsə, adını yazdırsın, İcra

hakimiyyətindən vəsiqə alaq. Mən də adımı yazdırdım. Bir-iki gündən sonra məscid tərəfindən seçki məntəqəsinə məlumat yardımçısı seçildim. İclasda dedilər ki, səsverməyə gələnlərin sualları olsa, cavablandırarsız. Yaşlılara mən cavabdeh idim. Onlara başa salırdım ki, bülleten bir yaşıl, bir də qırmızı vərəqdən ibarətdir. Yaşıl İran İslam İnqilabına, qırmızı isə onun əleyhinə səs vermək üçündür.

Həmin gün gördüklərim arasında yalnız hicabsız ateist bir qadın qırmızı vərəqdən istifadə etdi. Qıvrım saçı vardı, əyninə güllü yubka-pencək geyinmişdi. O deyirdi: "Kommunizm quruluşu SSRİ-də uğurla sınaqdan keçirilib. İslamı isə tanımırıq, bilmirik ki, bir cəmiyyətin, özü də bizimki kimi alt-üst olmuş bir cəmiyyətin ehtiyaclarını təmin etməyə qadirdir, yoxsa yox. Mən ona inanıb İslam Respublikasına səs verə bilmərəm!"

İcra hakimiyyətindən bizə günorta yeməyinə kartof və yumurta soyutması gətirdilər. Oğlanlar zarafata deyirdilər: "Elə bilirdik bizə kabab gətirəcəklər! Bu nə xörəkdir!"

Came məscidindəki məntəqədə elə izdiham vardı ki, səsvermə gecəyə qədər davam etdi. Bizə iki dəfə bülleten gətirdilər. Məsciddə adam əlindən yer yox idi. Sanki bu səsvermə ilə hər kəs özünün müsəlman olduğunu sübuta yetirməyə çalışırdı.

Atam, anam və bütün bacılarım came məscidinə gəlib səs verdilər. O gözəl gün heç vaxt yadımdan çıxmaz. İnqilabımızın qələbəsindən məmnun idik, seçkilərlə sanki ona bayram keçirirdik. Xədicə ilə birgə gecəyə qədər məsciddə qalıb səsləri saydıq. Bir neçə nəfərdən başqa hamı İslam Respublikasına səs vermişdi. İmam Xomeyninin fərmanı ilə baş tutan bu referendum İran İslam Respublikası quruluşunu rəsmiləşdirdi, müxalif və düşmənlərin heç bir bəhanəsi qalmadı. 30-31 martda keçirilən referendumun nəticələri 1 apreldə elan olundu.

***

İnqilabdan çox keçməmiş Xürrəmşəhrdə qeyri-adi hərəkət nəzərə çarpmağa başladı. Seyf bazarının yaxınlığında, çayın sahilində bir bina vardı, inqilabdan qabaq ABŞ konsulluğunun olmuşdu. Ərəb Xalq Döyüşçüləri Komitəsi adlı bir təşkilat oranı öz mərkəzinə çevirmişdi. Onlar bütün şəhərlərdə yaradılmış İslam İnqilabı Komitələrinin əksər üzvlərinin fars olduqlarını bəhanə edib, guya ərəblərin problemlərini həll etmək üçün özbaşına qurum yaratmışdılar.

Komitənin səsucaldanlarından daim ərəb mahnıları yayımlanırdı. Onlar birbaş İraqdan dəstək alırdılar, bütün fəaliyyətləri irqi təəssübkeşliyi gücləndirməyə, millətçiliyi yaymağa xidmət edirdi. Oraya gedib-gələnlərin hamısı ərəb paltarı geyinir, Xuzistanın müstəqilliyini tələb edirdilər.

Bu təşkilatın əsas ideoloqlarından biri əslən iraqlı olan Əli adlı bir şəxs idi və təsadüfən, bizim məhəlləmizdə yaşayırdı. Camaat onlara Şüyui deyirdilər. Şüyuilər İraqa gedib orada Bəəs[1] partiyasına cəzb olunan, sonra qayıdıb xalq arasında separatçı düşüncələr yayan adamlar idilər. Ərəb Xalq Döyüşçüləri Komitəsi tağut dövründən bəzi xuzistanlı və xürrəmşəhrlilərə yaradılmış problemləri daim qabardır, onları təhrik etməyə çalışırdı. Sayları da günbəgün artırdı. O zaman Kürdüstanda, Sistan və Bəlucistanda, Günbədkavusda və digər yerlərdə olduğu kimi, Ərəb Xalq Döyüşçüləri Komitəsi də ərəblərə müstəqillik istəyir, Xuzistan əsl ərəb kimliyini qorusun deyə, onun İraqa birləşdirilməsinə çalışırdı.

Komitənin Xürrəmşəhrdə yaydığı müxtəlif bəyanatlarda elə istəklər yer alırdı ki, onların həyata keçəcəyinə özləri də inanmırdılar. Məsələn, onda Xürrəmşəhrdə İraqın yalnız bir orta məktəbi vardı, o da İraq konsulluğunun idi; orada yalnız konsulluq əməkdaşlarının övladları oxuyurdular. Xürrəmşəhr

[1] Bəəs - dirçəliş deməkdir, Səddam Hüseynin başçılıq etdiyi İraq Sosialist Dirçəliş Partiyasının qısa adıdır.

ərəbləri bizim kimi fars dilini bilmədiklərinə görə uşaqlarını dövlət məktəblərinə qoymurdular. Buna görə də, bəzən onnəfərlik ailədən yalnız bir-ikisi yazıb oxumağı bacarırdı.

Bu, Pəhləvi rejiminin siyasətinin nəticəsi idi. İnqilabdan sonra hamımız İslam Respublikası sayəsində ərəbdilli ailələrin uşaqlarının da məktəbə gedəcəklərini gözləyirdik. Əli də məhz bu məqam üzərində dayanırdı. O, Ərəb Xalq Döyüşçüləri Komitəsinin bəyanatlarında qeyd edirdi ki, İranın, ya da ən azı, Xuzistan vilayətinin rəsmi dili ərəbcə olmalıdır ki, ərəb uşaqlar məktəbə gedə bilsinlər. Belə olduqda Xürrəmşəhr ərəbləri də dövlət idarələrində işləyəcək, təcriddən çıxacaqdılar!

Hamı bilirdi ki, bu təşkilatın himayədarı İraq dövləti və Bəəs partiyasıdır. Onların maddi təminatları, üzv qəbul etmək üçün çəkdikləri xərclər, üstəlik, üzvlərinin silah-sursatla təmin olunması buna dəlil idi. Bu təşkilatın oyuncağına çevrilmiş ən mühüm şəxsiyyətlərdən biri də Şeyx Şübeyr Ali-Xaqani idi.

Səddamın və Bəəs partiyasının muzduru olan bu komitənin düşüncələri yavaş-yavaş Xürrəmşəhr ərəbləri arasında yayıldı. İş o yerə çatdı ki, səsləri hər gün şəhərin bir yerindən gəlirdi. Həqiqətən, elə bilirdilər ki, ərəb dövləti qurmaq üzrədirlər. Bizim qonşularımızın təqribən 80 faizi iraqlı mühacirlər idi, belə çağırışlar başlayan kimi hamısı qoşuldu. Məhəlləmizdə yalnız biz qaldıq, bir də Hacı Həbiblə üç qardaşının ailələri.

Ərəb Xalq Döyüşçüləri Komitəsi gənc və yeniyetmələr arasından daha çox tərəfdar toplamışdı. Bizim məhəlləmizdə də vəziyyət eyni idi. Hətta bir-iki dəfə qardaşım Əlini hədələmişdilər ki, bizə qoşulmasan, həyətinizə qumbara atacağıq. Onlar bu sözləri deyəndə atam Xürrəmşəhrdə deyildi. Anam çox qorxdu və tez gedib məsələni Hacı Həbibə danışdı. Hacı dedi ki, qələt edirlər, məgər ölkədə qanun yoxdur, hər kəs istədiyini edə?! O bu sözü deyənləri tapıb ciddi şəkildə təhdid etmişdi. Onlar bizə yaxınlaşmağa cəsarət etməsələr də,

Xürrəmşəhrdə çoxlarını incitmişdilər. Bir neçə dəfə eşitdim ki, Ərəb Xalq Döyüşçüləri Komitəsi şəhərin filan yerini partladıb.

Komitənin yaydığı vərəqlərdə bu da deyilirdi ki, qeyri-ərəblə ailə qurmuş ərəb kişilər arvadlarını boşamalıdırlar, əks təqdirdə, adamlarımız o qadınları öldürəcəklər. Sözlərinə doğrudan da əməl edirdilər. Yadımdadır, bir dəfə məktəbimizin bir sürücüsünə belə bir xəbər yollamışdılar. Onun yoldaşı Bürucerddən idi. O yazıq da deyirmiş: "Axı bu qadın uşaqlarımın anasıdır. Mən ondan nə pislik görmüşəm ki, boşayım?!"

Bir neçə dəfə belə təhdid edəndən sonra özü olmayanda evinə girib arvadını güllələmişdilər.

Ərəb Xalq Döyüşçüləri Komitəsi Xürrəmşəhrdə fəaliyyətlərini günbəgün artırırdı. Bir neçə dəfə eşitdik ki, şəhərin inqilabçı ailələrinin evlərini tapmış, həyətlərinə bomba atmışlar. Şəhərdə təhlükəsizlik əməlli-başlı pozulmuşdu. Bir dəfə mərhum Ayətullah Taliqaninin qızı Əzəm Taliqani Qızıl Aypara Cəmiyyətinin dəvətilə Xürrəmşəhrə çıxış etməyə gəlmişdi. Tədbir cəmiyyətin Dəmiryol meydanının yaxınlığında yerləşən amfiteatr zalında keçirilirdi. Biz də anamla birgə getmişdik. Zal dolduğuna görə ikinci mərtəbədə yer tapıb oturduq.

Əzəm Taliqaninin içəri girişindən az sonra birdən zal güclü bir gurultu ilə silkələndi. Bir göz qırpımında insanlar yerə yıxıldılar, qışqırıq səsləri, toz-torpaq və yanıq iyi hər yeri bürüdü. Partlayış zalın aşağı qapılarının birində baş vermişdi. Əvvəlcə çox qorxduq, amma tez özümüzü toparlayıb qışqırdıq ki, qorxmayın, sakit olun. Camaat zaldan tez çıxmaq üçün bir-birini itələyirdi, ehtimal edirdilər ki, ikinci bomba da partlaya bilər. Qapının yaxınlığında bəzisi yaralandı, amma xoşbəxtlikdən, heç kim ölmədi. Deyilənə görə, səs bombası idi və güclü partladıcı xüsusiyyətə malik deyildi.

Partlayışdan bir neçə gün sonra mühəndis Bazərqan, Qütbzadə və müvəqqəti hökumətin digər üzvləri Xürrəmşəhrə gəldilər. Bazərqan birbaş came məscidinə gəlib dedi ki, Ərəb Xalq Döyüşçüləri Komitəsinin başçısı Şübeyrlə danışmaq istəyir. Yadımdadır, elə həmin gün məsciddən ayaqqabısını oğurladılar. Onun çıxışa başlamasından çox keçməmiş ətraf küçələrdən atışma səsləri gəldi. Bu zaman namazqılanların içinə girmiş bir neçə komitə üzvü ərəblərə xas şənlik səsi çıxarmağa başladı. Həmin gün mən də məsciddə idim. Atışma səslərini eşidib bayıra çıxdıq. Təşkilatın silahlıları mühəndis Bazərqanın çıxışına mane olmaq üçün məscidin ətrafına toplaşmışdılar. Onlar istədiklərinə nail oldular; o qədər səs-küy salıb havaya atəş açdılar ki, mühəndis məscidi ayaqyalın tərk etməyə məcbur oldu.

Şəhərdə vəziyyət hələ də qeyri-sabit idi. Bir müddət idi Xürrəmşəhrin dindar uşaqları SAVAK-ın yerli şöbəsinin sədrinin evini tapmışdılar. Ev komitənin yaxınlığında yerləşirdi. Dindar gənclər Xürrəmşəhrin Müsəlman Gənclərinin Mədəni-Hərbi Mərkəzi adlı təşkilat yaradıb həmin evi ofisə çevirmişdilər. Mərkəzin üzvləri şah əleyhinə yürüş zamanı həbs olunub işgəncə görmüş oğlanlar idilər. Məktəblərdə işləməkdən, gəncləri cəlb etməkdən, SAVAK məmurlarını ələ keçirməkdən tutmuş şəhərdə və sərhəd bölgələrdə nizam-intizam yaratmağa, narkotik maddələrə qarşı mübarizə aparmağa qədər müxtəlif işlər görürdülər. Mərkəzin üzvləri sonradan Xürrəmşəhr Mühafizəçilər korpusunun əsas özəyini təşkil etdilər.

Elə bir gün olmurdu ki, Mədəni-Hərbi Mərkəzin uşaqları ilə Ərəb Xalq Döyüşçüləri Komitəsinin üzvləri arasında qarşıdurma və gərginlik yaranmasın. Belə qarşıdurma və atışmaların birindən sonra mərkəzin uşaqları şəhərin bir qrup tacirinin imzası və təsdiqilə Şeyx Şübeyrə qarşı tənqidi bəyanat

yaydılar. Şeyx bəyanatı görəndən sonra mərkəzdən və bazar tacirlərindən onu təkzib etmələrini istədi. Onların təkzib etmədiklərini görəndə isə İmam Sadiq (ə) məscidində Ərəb Xalq Döyüşçüləri Komitəsinin üzvləri qarşısında dedi ki, Mədəni-Hərbi Mərkəzin üzvləri xarici qüvvələrə bağlı adamlardır. Onun sözləri camaatı qıcıqlandırdı və məsciddə "Mərkəz məhv olmalıdır" şüarı ucaldı. Şeyxin çıxışından sonra camaat mərkəzə doğru yola düşdü.[1]

Həmin gün Şahnazla birgə bazara getmişdim. Özümüzə köynək tikdirməyə parça axtarırdıq. Qayıdanda eşitdik ki, Ərəb Xalq Döyüşçüləri Komitəsinin üzvləri Xürrəmşəhrin hizbullahçı uşaqlarının Mədəni-Hərbi Mərkəzinə hücum etmiş, mərkəzin binasını yandırmışlar. Qalıb onların nə etmək istədiklərini öyrənmədiyim üçün özümü danlamağa başladım. Qalsaydım, bəlkə də əlimdən nəsə gələrdi. Danışırdılar ki, komitənin üzvləri həmin uşaqların bir neçəsini tutmuşlar. Bəziləri küçələrə çıxıb sevindiklərindən havaya atəş açır, şənlik edirdi.

Buna baxmayaraq, ertəsi gün səhər çağı mərkəzin uşaqlarını azad etdilər. Məhəmməd Cahanara da onların arasında idi.

Bu hadisədən sonra iki tərəf arasında qarşıdurma daha da gücləndi. Ərəb Xalq Döyüşçüləri Komitəsi şəhərdə xaosu gücləndirmək üçün inqilabçı uşaqların həyətlərinə qumbara atırdılar. Bu əməllərə və mərkəzə qarşı hücuma görə bazar tətil olundu. Bir gün camaat özü İcra hakimiyyətinə yürüş etdi, sonra da piket üçün came məscidinə toplaşdı. Uşaqların bir neçəsi ilə birgə mən də piketə qoşuldum. Tələbimiz Ərəb Xalq Döyüşçüləri Komitəsinin Mədəniyyət Şöbəsinin bağlanması idi.

---

[1] Bu hücum zamanı mərkəzin binası yandırıldı, Nizam-intizam komitəsinin üçmərtəbəli ofisi uçuruldu. Hücum edənlər mərkəzin təxminən 19 üzvünü, o cümlədən sədri Məhəmməd Cahanaranı tutub Ərəb Xalq Döyüşçüləri Komitəsinin Siyasi Şöbəsinə apardılar.

Aramızda hər cür adam vardı; fədai gerillalardan tutmuş xalq partizanlarına qədər. Xalq Mücahidləri Təşkilatının uşaqları hələ öz simalarını tam açmamışdılar və onlar da aramızda idilər. Onların biri Mərcan adlı gözəl qız idi. Onunla bir sinifdə oxuyurduq, sarı saçı, mavi gözləri vardı. Onu bir dəfə görüb üzünü yaddan çıxarmaq mümkün deyildi.

Piketdə onu gördüm, əlində bir neçə şəkil vardı. Yaxınlaşanda özü şəkilləri göstərdi. Abadandan Mahşəhrə gedən neft borularının şəkilləri idi. Onları görüb çox təəccübləndim. Şəkilləri nə üçün əlində tutduğunu soruşanda dedi: "Təşkilatın məsul şəxslərindən biri belə istədi".

-Bəs fikirləşmirsən ki, nə üçün belə bir şey istəyir?

-Yox. Yəqin belə məsləhətdir.

Mərcanın bu hərəkətini heç cür başa düşə bilmədim. Ərəb Xalq Döyüşçüləri Komitəsi bir müddət öncə Darxuin neftayırma zavodunun borularını partlatmışdı. Bəlkə elə buna görə şəkilləri görəndə çox narahat olub şübhəyə düşdüm. Fikirləşdim ki, bəlkə şəkilləri oranı partlatmaq üçün çəkibmişlər. Mərcana dedim: "Bax, əgər neftayırma zavodundan məsul bir şəxs bunu istəsəydi, heç bir problem olmazdı. Ancaq neft borularının və digər təsisatların belə dəqiq şəklini çəkmək əsla düzgün deyil. Diqqətli ol, birdən elə səhvə yol verərsən ki, sonradan düzəldə bilməzsən".

Sözlərimdən xoşu gəlmədi. Bəlkə elə bildi ki, özümü çox ağıllı, onu isə uşaq zənn edirəm. Ancaq əmin idim ki, bu işin içində bir iş var. Onu özlərinə lazım olan bir məlumatı öyrənməyə alət etmişdilər. Mərcan o gündən sonra heç vaxt mənə yaxınlaşmadı. Sözlərimdən çox narahat olmuşdu.[1]

İcra hakimiyyətindən gəlib bəyanat oxudular. Bəyanatda bəzi çıxış yolları göstərilmiş, bölgənin böhranlı şəraitini nəzərə alaraq, Xürrəmşəhrdə qeyri-rəsmi mərkəz və təşkilatların

[1] Mərcan bir müddət Tehranda gizlənəndən sonra növbəti ildə həbs olundu.

buraxılması, inqilab zamanı və ondan sonra müxtəlif qüvvələr tərəfindən ələ keçirilmiş dövlət mülklərinin boşaldılması və qanunsuz silahların təhvil verilməsi istənilirdi. Bəyanat oxunandan sonra piket iştirakçıları arasında səs-küy başladı. Onlar bizim bütün istəklərimiz deyildi. Təxminən bir saatdan sonra camaatın istəyilə bəyanata bir neçə bənd əlavə olundu, Mədəni-Hərbi Mərkəzə və digər vilayətlərdən gəlmiş pasdarların qərargahına hücum edənlərin cinayət məsuliyyətinə cəlb olunması tələb edildi. Razılaşdırıldı ki, Ərəb Xalq Döyüşçüləri Komitəsinin Siyasi və Mədəniyyət şöbələri mayın 21-nə qədər boşaldılsın, 25 mayda isə bütün silahlarını təhvil versinlər.

İcra hakimiyyəti və valilik məsələyə qarışsa da, əks-inqilabçı cərəyanların və Ərəb Xalq Döyüşçüləri Komitəsinin buna qarşı çıxacağı ehtimal olunurdu. Bu səbəbdən Məhəmməd Cahanara Mədəni-Hərbi Mərkəzin nümayəndəsi kimi dedi ki, verilmiş vaxt başa çatdıqda tələblər həyata keçməsə, xalq yenidən came məscidində piket keçirəcək və bu dəfə aclıq aksiyasına da başlayacaq.

Verilmiş möhlətin son günündə Ərəb Xalq Döyüşçüləri Komitəsinin Siyasi şöbəsi bəyanat yayaraq binaların boşaldılmasını rədd etdi. Təşkilatın Mədəniyyət şöbəsi də buna bənzər bir açıqlama verdi. Hər iki şöbənin üzvləri binalarında oturaq aksiya keçirərək boşaltma qərarına etirazlarını bildirdilər. Dövlət nümayəndələri ilə Ərəb Xalq Döyüşçüləri Komitəsinin nümayəndələri arasında keçirilən uzun-uzadı iclaslar da heç bir nəticə vermədi. Onlar deyirdilər ki, bütün İran xalqı silahını təhvil verəndən sonra biz də təhvil verəcəyik. Vali onlara dəfələrlə xəbərdarlıq etdi, amma məhəl qoymadılar.

Mayın 26-da camaat Mədəni-Hərbi Mərkəzin üzvləri ilə birgə yenidən came məscidinə toplaşdı. Oraya gedəndə aksiyamızın bir neçə gün çəkəcəyini düşünməzdik. Təxminən 300 nəfər idik.

Uşaqlar xəbər verdilər ki, bizim aksiyamızla eyni zamanda camaat və ruhanilər də şəhərdə yürüş etmiş, bütün silahların təhvil verilməsini və şəhərin təhlükəsizliyini qorumaq üçün digər bölgələrdən gəlmiş pasdarlardan da istifadə edilməsini israrla tələb etmişlər.

Günorta xəbər verdilər ki, Ərəb Xalq Döyüşçüləri Komitəsinə bağlı qüvvələr gömrüyə hücum etmiş, silahlı qarşıdurma zamanı bir pasdarı və bir gömrük işçisini şəhid etmişlər. Deyirdilər ki, Hərbi Dəniz Qüvvələri bazarda təşkilatın üç üzvünü tərk-silah etdiyinə görə bu şəkildə cavab vermişlər.

Biz məsciddən çıxmadıq. Bu iki şəhidin dəfni axşama qədər uzandı. Şam azanından sonra əhali şəhidlərin dəfnindən ötrü məscidə toplaşdı. Göz işlədikcə adam vardı. Məsciddə iynə atsaydın, yerə düşməzdi. Təxminən axşam saat onda ovaxtkı vali cənab Mədəni məscidə gəlib icra hakimi, bəzi ruhanilər və Şeyx Şübeyrin bir neçə nümayəndəsi ilə iclas keçirdi. İclasda qərara gəldilər ki, Ərəb Xalq Döyüşçüləri Komitəsinin silahlarının təhvil verməsi üçün möhlət 31 maya qədər uzadılsın. Lakin bu qərar heç birimizi razı salmırdı. Bu səbəbdən etiraz aksiyalarına bir növ rəhbərlik edən Cahanara və Zamani kimi fəal inqilabçılar qərara gəldilər ki, məsciddə qalaq. Məscidin qapısı giriş-çıxışa açıq idi. Biz 24 saat məsciddə qalırdıq, bəziləri, o cümlədən bizim ailəmiz gündüzlər yanımıza gəlir, bizə çörək, pendir və kartof soyutması gətirirdilər.

Şəhərdə xaos vardı. Mən çox narahat idim. Heç vaxt düşünməzdim ki, inqilabdan sonra şəhərim belə qarışa bilər.

Bir neçə gün məsciddə qaldıq. Hamımız qərara gəldik ki, tələblərimiz həyata keçməyincə geri çəkilməyəcəyik. Bu şəraitdə inqilabçı uşaqların birliyi hər şeydən önəmli idi.

Mayın 30-da, yəni uzadılmış möhlətin bitməsinə bir gün qalmış gecə çağı aramsız atəş səsinə oyandıq. Birdən məscidin həyətində bir molotov kokteyli partladı. Hamımız mat-məətəl

bir-birimizə baxırdıq. Heç kimə bir şey olmadı, ancaq çox narahat və həyəcanlı idik. Bu qarşıdurma və gərginliklərin nə vaxta qədər sürəcəyini bilmirdik. Hava işıqlanandan sonra bildik ki, şəhər müharibə vəziyyətindədir. Ərəb Xalq Döyüşçüləri Komitəsi prospektlərdə barrikadalar qurmuş, iki-üç poçt anbarını və Firdovsi prospektində yerləşən yanacaqdoldurma məntəqəsini yandırmış, bəzi evləri talamışdılar. Sanki hərbi rejim qurulmuşdu. Günorta olmamış Karun və Ərvənd çaylarından Hərbi Dəniz Qüvvələrinə hücum edildi, günorta üç ədəd mintonluq ticarət gəmisi yandırıldı. Bu xəbərlər və ətrafdan gələn atışma səsləri Xürrəmşəhrdə fövqəladə vəziyyət yaratmışdı. Biz aksiyamızı yarımçıq qoymağa məcbur olduq.

Camaat inqilabçı uşaqlarla birgə Ərəb Xalq Döyüşçüləri Komitəsinin Siyasi və Mədəni şöbələrinin binalarını mühasirəyə aldı. Bir neçə saat atışmadan sonra Allahın köməyi ilə binalar ələ keçirildi, əsas iğtişaş mərkəzi süqut etdi. Buna baxmayaraq, qarşıdurma şəhərin kənarında daha üç gün davam etdi. Həmin üç gündə şəhər hərbi vəziyyətdə idi, heç kim evindən bayıra çıxmırdı. Vəziyyət o qədər təhlükəli idi ki, bir dəqiqədən sonra haranın partlayacağı, kimlərin öldürüləcəyi bəlli deyildi.

İyunun dördündən şəhərdə nisbi sakitlik yaranmağa başladı. Bununla bərabər, Ərəb Xalq Döyüşçüləri Komitəsinin üzvləri, xüsusən də onlara dəstək məqsədilə Xürrəmşəhrə gəlmiş əşirətlərin get-gəli hələ davam edirdi. Onların şəhərdə azad gəzdikləri bir zamanda sərhəddən xəbərlər gəlməyə başladı. Deyilənlərə görə, sərhəddə şübhəli vəziyyət vardı. Bu xəbərlərin çoxunu Əli gətirirdi. O, Mədəni-Hərbi Mərkəzin uşaqları ilə əməkdaşlıq edirdi.

Bu zaman şəhərdə təhlükəsizliyi təmin etmək və gözlənilən hücumların qarşısını almaq məqsədilə Lorustan pasdarlarından kömək gəldi. Onların Xürrəmabaddan Xürrəmşəhrə gəlişi ilə

Ərəb Xalq Döyüşçüləri Komitəsinin əks-inqilabçı fəaliyyətlərinə son qoymağa zəmin yarandı. İyulun 13-də səhər çağı eşitdik ki, Xürrəmabaddan göndərilmiş korpus mühafizəçilərinin komandiri Ənuşirvan Rzayi Kutşeyxdə gecə yoxlanışı zamanı şəhid edilmişdir. Camaat danışırdı ki, Şəhid Rzayinin qatili Cinomodur. Cinomo ozamankı quldur və yolkəsənlərdən idi və bu xəbər yayılandan sonra qaçıb Şadiqana getdi. Deyirdilər ki, onları satmasın deyə, Cinomonu Ərəb Xalq Döyüşçüləri Komitəsinin üzvləri gizlədiblər.

Şəhid Rzayiyə came məscidində üç mərasimi keçirildi. Məclisə çoxlu adam gəlmişdi. Məclisdən sonra məscidin ətraf prospektlərində yürüş keçirdik, daha sonra bu cinayəti törədənlərə qarşı hazırlanmış qətnaməni oxumaq üçün məscidə qayıtdıq. Qətnamə oxunmazdan öncə uşaqlardan biri tribunadan Şəhid Rzayinin həyatı haqda danışanda birdən bir əl qumbarası partladı. Qumbaranı küçədən məscidin həyətinə atmışdılar. Sonradan bildik ki, həmin partlayış nəticəsində yeddi nəfər şəhid olmuş, çoxları yaralanmışdı.

Biz uşaqların bir qismi ilə birgə məscidin şəbistanında idik. Qumbaranın qəlpələri içəriyə qədər gəldi. Partlayışdan sonra Pərvin Hurisi qışqırmağa başladı. Ona doğru qaçdıq. Üz-gözü qanın içində idi, ağrıdan qıvrılırdı. Əlini üzünə qoymuşdu, baxmağa da qoymurdu. Barmaqlarının arasından qan damırdı. Nəhayət, bir qədər sakitləşdirib gördük ki, qəlpə bir gözünü çıxarıb. Gözündən qan gəlirdi. Uşaqların bir neçəsi onu tez xəstəxanaya apardı.

Vəziyyət gərgin idi, yaralılar qışqırırdılar. Camaat qorxu içində məsciddən bayıra qaçırdı. Ogünkü şəhidlərin biri Əbdülrza Qəyyim adlı bir ərəb gənc idi. O, yeni nişanlanmışdı, Müvəhhidlər liseyinin son sinfində oxuyur, bizim liseydə Quran dərsi keçirdi.

Camaat qəzəblənib Ərəb Xalq Döyüşçüləri Komitəsinin ən güclü himayədarına çevrilmiş Şeyx Şübeyrinin evinə yürüş etdi. Şeyxin evinin mühafizəçiləri camaatın önünü kəsə bilmədilər və ev mühasirəyə alındı. Xürrəmşəhr iğtişaşlarının bəzi təşkilatçıları orada həbs olundular, şeyxin özü Əhvaza göndərildi. Onlardan əlavə, şəhərdə təhlükəsizliyin pozulmasında, terrorda və vahimə yaradılmasında əsas rol oynamış bəzi komitə fəalları da müxtəlif yerlərdə həbs olunub ertəsi gün edam edildilər. Onlardan biri Şeyx Şübeyrin sürücüsü idi.

Şeyx Şübeyr İmam Xomeyninin əmrilə Qum şəhərinə göndərildi. O gedəndən, Ərəb Xalq Döyüşçüləri Komitəsinin binaları ələ keçiriləndən və üzvləri həbs ediləndən sonra çoxlu əks-inqilabçılar Xürrəmşəhrdən qaçdılar. Şəhərdə yenidən sabitlik yarandı. İyulun ortalarında Ərəb Xalq Döyüşçüləri Komitəsinin fəaliyyəti tam iflasa uğradı, inqilabçı qüvvələr əhali arasında böyük nüfuz qazandılar.

# Dördüncü fəsil:

## *İdeologiyaların döyüşü*

Xürrəmşəhr korpusunun yaradılmasına bir müddət öncədən başlanmışdı. Onun ilk üzvləri Məhəmməd Cahanara və Əbdülrza Musəvi kimi gənclər idilər. Korpusun qərargahı Respublika prospektində yerləşirdi. Cahanara Xürrəmşəhr korpusunun komandiri, Əbdülrza da onun müavini oldu. Şəhərin çoxlu gəncləri korpusa cəlb olundular. Onlardan biri də qardaşım Əli idi. Korpus uşaqları Əhvazın qolf meydanına[1] toplaşıb Əli Qəyurəsli adlı bir şəxsin nəzarəti altında hərbi təlim keçməyə başladılar.

---

[1] İnqilabdan öncə neft şirkətində çalışan amerikalılar boş vaxtlarını keçirmək üçün Əhvazın qəsəbələrində öz mədəniyyətlərinə uyğun əyləncə və istirahət yerləri düzəltmişdilər. Onlardan biri də Əhvaz-Mahşəhr magistralının kənarında yerləşən geniş bir ərazi idi. Orada doqquz futbol meydançası və qolf meydanı vardı, bütün ərazi qolf meydanı kimi məşhurlaşmışdı. Əhvaz hava limanının yaxınlığında və dağın yamacında yerləşdiyinə, gözdən uzaq olduğuna görə inqilabdan sonra oranı hərbi təlim mərkəzinə çevirdilər. Müharibə başlayandan sonra isə adını "Şəhadəti gözləyənlər qarnizonu" qoyub Mühafizəçilər korpusunun cənub cəbhələrinin komandanlığına verdilər.

Əli təlimdən qayıdanda çox dəyişmişdi; üzünün dərisi yanmış, çəkisi bir neçə kq azalmışdı. Deyirdi ki, səhərdən axşama qədər günəşin altında ac-susuz ağır təlimlər keçiblər. Bir dəfə günün altında dağa çıxıb-düşmüş, susamış və bir qarpız bostanına çatmışdılar. Əli deyirdi: "Uşaqlarla birgə qarpızları dərib yerə çırpır, başımızla qarpızların içinə girirdik ki, susuzluğumuz yatsın". Onlar bir ay yarım xüsusi təyinatlıların təlimləri kimi ağır təlim keçmişdilər. Əli qardaş Qəyurəslini çox tərifləyir, həm fiziki bacarıqlarından, həm də əxlaqi xüsusiyyətlərindən danışırdı. Uşaqların hamısı onu çox istəyirdi.

Aprelin 18-i, Ordu günü idi. Hamımız came məscidinə toplaşıb, oradan Hərbi Dəniz Qüvvələrinə gedəcək, hərbçilərə gül verəcəkdik. İnqilabın qələbəsindən, ordunun ona qoşulmasından çox az vaxt keçirdi. Bununla onlara xalqın və inqilabın yanında olmalarından məmnunluq mesajı verəcəkdik.

Həmin gün məscidin önünə çoxlu adam toplaşdı. Anam, Şahnaz, Fevziyə, Salehə, Firdovs və İlahə ilə birgə İmam Xomeyni prospekti ilə gedirdik. Birdən güclü yağış başladı, bəlkə on dəqiqə ötməmiş bütün prospekti su basdı. Xuzistanın güclü yağışlarına adət etsək də, bu dəfə həddən artıq gur yağırdı, su topuqlarımızdan bir neçə santimetr yuxarı qalxmışdı. Çayın kənarında yağışın dayanmasını gözlədik, amma faydası olmadı, yağış, şimşək və göy gurultusu altında evə qayıtmağa məcbur olduq.

Deyirdilər ki, bu yağışdan sonra mütləq sel gələcək. Mən o vaxta qədər sel görməmişdim. Dua edirdim ki, pis bir hadisə baş verməsin. Bilirdim ki, əksər qonşularımızın evi palçıqdandır və bu qədər yağışa davam gətirməz.

Atam bayramda bağçamızda çoxlu gül əkmişdi. Həyətə girəndə o qədər qəşəng güldən əsər-əlamət görmədik. Yağış bütün bağçanı yuyub aparmışdı. Biz evimizi ikimetrlik daş

üstündə tikmişdik. Belə olmasaydı, yağış hər şeyi aparardı. Çox həyəcanlı idim. Seldən evləri uçan adamlara yazığım gəlirdi.

Ertəsi gün məktəbdə yalnız seldən söhbət getdi. Uşaqlar selin Xürrəmşəhrin ətrafındakı kəndlərə çoxlu ziyan vurduğunu eşitmişdilər. Məktəb uşaqlarından Əmirə və başqa biri ilə birgə ağa Məhəmmədinin yanına getdik. Əmirənin əmisi olan Məhəmmədi Xürrəmşəhr müəllimlərinin İslam birliyinin fəallarından idi. Dost və qohumlardan bir qədər pul toplayıb onunla birlikdə bazara getdik, düyü, çay və yağ aldıq, kiçik yük maşınına yükləyib seldən zərər çəkmiş kəndlərə yollandıq.

Əbarə kəndinə getdik. Çökəklikdə yerləşdiyinə görə onu su basmışdı. Kənddə topuğa qədər suyun içində gəzirdik. Bəzi evlər seldən sonra yararsız hala düşmüşdü. Zərərçəkmişlərin çoxu kəndin hüseyniyyəsinə toplaşmışdı. Hüseyniyyə nisbətən hündürdə olduğuna görə vəziyyəti yaxşı idi.

Seldən zərər çəkmiş insanların durumu çox acınacaqlı idi. Üz-başları palçığa batmışdı, uşaqlar qışqırır, bəzi qadınlar ağlayırdı. Yazıqlar bir neçə saat içində hər şeylərini itirmişdilər. Sel əkin sahələrini məhv etmiş, mal-qaralarını aparmışdı. Bizim, Təbliğat komitəsinin, şəhər komitəsinin və İmam Xomeyninin fərmanı ilə yeni yaradılmış Quruculuq cihadının yardımları onlara müəyyən həddə təskinlik versə də, gördüyümüz acınacaqlı durum tez bir zamanda düzələnə oxşamırdı.

Evsiz qalmış ailələri Xürrəmşəhrə, otel üçün nəzərdə tutulmuş yeddimərtəbəli yaşıl binaya yerləşdirdilər. Bina Respublika prospektində idi, inqilabdan sonra sahibi ölkədən qaçmış, mülkləri dövlət tərəfindən müsadirə olunmuşdu. Əbarədən əlavə, Xürrəmşəhrin qərbində yerləşən Cüdeydə və Şələmçə kəndlərinin seldən zərər çəkənlərini də oraya gətirmişdilər.

Zərərçəkmişlərə yardım iki-üç ay davam etdi. Bu müddətdə onlar üçün əlimizdən gələn hər bir işi gördük; pul toplamaqdan

tutmuş paltar, ərzaq və yeməkbişirən neft lampası almağa qədər. Bir dəfə onlara baş çəkməyə gedəndə bir otaqdan inək səsi eşitdim. Bir ailə altıncı mərtəbəyə bir buzov çıxarmışdı. Həm təəccübləndim, həm də məni gülmək tutdu. Dilsiz heyvanı altıncı mərtəbəyə necə çıxardıqlarına məəttəl qaldım. Digər ailələr də özləri ilə qoyun və keçi gətirmişdilər. Bu heyvanlar yazıqların olan-qalan varidatı olduğuna görə onlardan keçə bilmirdilər. Onlar öz kəndlərinə qayıdandan sonra uşaqlarla birgə yaşıl binaya getdik. Binanın başına nə gəldiyini yalnız Allah bilir. Sanki binanın qapı və divarlarını külünglə qoparmışdılar. Otaqların içində, kovrolitin üstündə ocaq qalayıb yemək bişirmişdilər. Dedim: "Yazıq otel sahibi! Bura üçün necə arzu və planları varmış! Gəlib otelinin heyvan tövləsinə çevrildiyini görməlidir!"

Bu müddətdə Xürrəmşəhrin çoxlu fəal uşaqları Quruculuq cihadı təşkilatına qoşuldular. Təşkilatın binası İmam Xomeyni prospektində, çayın sahilində yerləşirdi. Bir gün seldən zərərçəkmişlərə daha yaxşı kömək etmək üçün oraya üzv olmağa getdim. Cihadın bir neçə otağı vardı, Mədəni, Səhiyyə, Abadlıq və digər şöbələr üçün nəzərdə tutulmuşdu. Mən Mədəni şöbəyə gedib orada fəaliyyət göstərmək istədiyimi söylədim. Məsul şəxs məndən bir neçə etiqadi məsələ, eləcə də hansı mədəni sahə ilə məşğul ola biləcəyimi soruşdu. Dedim ki, Quran öyrədə bilərəm. Qarşıma bir blank qoydu. Onu doldurub təhvil verdim. Dedi ki, hər neçə gündən bir buraya baş çək, səni seldən zərər çəkmiş kəndlərə Quran öyrətməyə göndərəcəyik.

Quruculuq cihadında fəaliyyət göstərən qızlar arasında Fərəh və İranduxt liseyində sinif yoldaşlarım olmuş Məryəmlə Fəriba Toğrul da vardı. Fəriba ilə dörd il bir sinifdə oxumuşduq. Məryəmlə isə inqilabdan sonra məktəbimizin İslam birliyinin toplantılarında tanış olmuşdum. O, Xürrəmşəhrin Came liseyində təhsil alırdı, mənsə İranduxtda. Bütün şəhər üzrə

İslam birliyinin inqilabçı uşaqları bəzən fikir mübadiləsi aparmaq və ya müştərək bir tədbir keçirmək üçün bir-birinin məktəblərinə gedirdilər. Məryəmi həmin iclaslarda görmüşdüm. Ucaboy, çox istiqanlı və duyğusal qız idi. Xanım Kaidin səsi güclü olduğuna görə yürüşlərdə şüar verirdi, digərləri təkrarlayırdılar. Onunla da həmin iclaslarda tanış olmuşduq.

Bir-iki gündən sonra yenidən cihada getdim. Oradan uşaqların bir neçəsi ilə birgə Cüdeydə kəndinə yollandıq. Kəndin girişində bir 135 mm çaplı top vardı. Çox təəccübləndim. Xuzistan valisi General Mədəninin Ərəb Xalq Döyüşçüləri Komitəsinin hücumlarına qarşılıq vermək üçün hər kəndə bir top yerləşdirdiyini eşitmişdim, amma görməmişdim. Bizim etiraz etdiyimiz işlərdən biri də bu idi. O bununla həmin təşkilatın üzvlərini qorxutmaq istəyirdi, halbuki kənd əhalisini İslam respublikasından narazı salırdı.

Kənddə hərə bir işlə məşğul oldu. Bəzi uşaqlar seldən xəsarət almış evlərin təmirinə başladılar. Mən də küçələrdə oyan-buyana veyillənən uşaqların ardınca düşməyə başladım. Onlara deyirdim ki, gəlib Quran öyrənsinlər. Bilirdim ki, selə görə yaxşı durumda deyillər, dərsə həvəsləri yoxdur, lakin bununla başlarını qarışdırıb ruhlana bilərdilər. Bəziləri mənə əsla məhəl qoymadı, yalnız bir-iki nəfər sözümü dinlədi. Bir-bir evlərin qapısını döyüb deyirdim ki, uşaqlarınızı göndərin Quran oxumağı və oxuyub-yazmağı öyrənsinlər. Onlar da qapını üzümə bağlayıb hirslə deyirdilər ki, bir də onları narahat etməyim. Məndən nə üçün bu qədər acıqları gəldiyini bilmirdim. Mənimlə cüzam xəstələri kimi davranırdılar.

İlk bir neçə gündə vaxtım Quran dərsini təbliğ etməklə keçdi. Nəhayət, bir neçə ailəni razı saldım, uşaqlarını Quran öyrənməyə göndərdilər. Kəndin hüseyniyyəsində dərsə başlayanda təxminən on-on iki şagirdim vardı; 7-8 yaşdan 13-14

yaşa qədər. Onda mənim 20 yaşım vardı, bəzilərindən yalnız bir neçə yaş böyük idim.

Hüseyniyyə torpaqdan tikilmiş böyük bir zal idi, böyük qapısı, bir neçə kiçik pəncərəsi vardı. Pəncərələrdən içəri azca işıq düşürdü. Divarların aşağı hissəsinə çəkilmiş tünd yaşıl boya içərini bir az da qaranlıq edirdi. Uşaqlarla birgə hüseyniyyənin sadə döşəməsi üzərində oturduq. Kiçik Quran surələrini üzündən oxuyur, sadə təcvid qaydalarını öyrədirdim. Dərs vəsaitimiz Quranın otuzuncu cüzünün surələri olan Əmmə-cüz kitabı idi. Qızlara mən dərs keçirdim, oğlanlara da Quruculuq cihadından bir oğlan. Uşaqlarla ala-yarımçıq ərəbcə danışırdım. Bəziləri, xüsusən oğlanlar məktəbə gedib farsca öyrənmişdilər və sözlərimi başa düşürdülər.

Ərəb Xalq Döyüşçüləri Komitəsinin İslam Respublikası barədə mənfi təbliğatından irəli gələrək o zaman bəzi kəndlilər dövlətə ədavət bəsləyirdilər. Komitə kəndlilər üzərində elə işləmişdi ki, çoxları İslam Respublikasının ərəbləri məhv etmək məqsədilə qurulduğunu düşünürdülər. Mədəni-Hərbi Mərkəzlə və digər təşkilatlarla birgə çalışırdıq ki, öz rəftar və fəaliyyətlərimizlə bu zəhərli düşüncəni beyinlərdən çıxaraq, İslam Respublikasında ərəblə qeyri-ərəbin bir olduğunu onlara başa salaq.

Səyimiz nəticəsiz olmurdu. Seldən zərər çəkmiş bəzi insanlar onlara əlimizdən gələn köməyi etdiyimizi görəndə səhvlərini və yanlış mühakimələrini müəyyən qədər anlayırdılar. Bununla yanaşı, bəziləri bizə qan düşməni kimi baxır, heç vəchlə yola gəlmirdilər.

Bir dəfə şagirdlərimin biri dedi: "Xanım, iraqlılar kəndimizin camaatına silah gətirib deyirlər ki, bu silahlar sizin şərəf və namusunuzdur, onları canlarınız kimi qorumalısız. Bu silahlar sizi və ərəb xalqını qoruyacaq!"

Qızcığazın sözləri mənə maraqlı gəldi. O deyirdi: "Xanım, dayım namusunu aparıb satdı, pulu ilə ailə qurdu!" Onların üzərində o qədər iş aparmışdılar ki, silahın namus olduğuna inanırdılar. Ondan sonra digər dostları da Ərəb Xalq Döyüşçüləri Komitəsinin kənddəki işlərindən danışmağa başladılar. Şagirdlərim doğru deyirdilər: Sel evlərdən çoxlu silah çıxarmışdı!

1979-cu ilin yayı Quruculuq cihadında dini-mədəni fəaliyyətlərlə keçdi. O günlərdən xoş xatirələrim var. Gecə-gündüz bilmədən gördüyümüz işlərin nəticəsi məhrum bölgələrin əhalisinin üzündəki təbəssüm oldu. Bununla yorğunluğumuz çıxırdı.

Ərəb Xalq Döyüşçüləri Komitəsinin təhlükəsi sovuşduqdan və şəhərdə əmin-amanlıq bərpa edildikdən sonra dini-etiqadi dərslərə başladım. Həftədə bir-iki gün Şahnazla birgə müəllimlərin İslam birliyinə gedirdim. Orada müxtəlif məsələlər müzakirə olunurdu; məktəblərin problemlərindən tutmuş, inqilabçı müəllimlərin müxtəlif vəzifələrə təklif olunmasına qədər. Həmin iclasların birində qərara gəldik ki, parlament seçkilərində müəllimlərin bir neçəsinin namizədliyini irəli sürək. Hərə bir fikir bildirdi. Bir neçə nəfər də özləri adlarını yazdırdılar.

Mənim fikrimcə, müəllimlərdən Yunis Məhəmmədi ən yaxşı seçim idi. O, müəllimlərin İslam birliyinin üzvlərindən və İmam Xomeyniyə sadiq olan fəal inqilabçılardan idi. Digər tərəfdən, ərəb idi, seçiləcəyi təqdirdə Xuzistanın ərəb tayfaları tərəfindən də dəstəklənəcəkdi. Təsirli və vəhdət yaradacaq adam idi. İnqilabdan qabaqkı və sonrakı yorulmaz fəaliyyətlərindən İslam Respublikasına münasibəti tam bəlli idi. Bu xüsusiyyətlərlə yanaşı, gözəl əxlaqı da vardı, ilk görüşdən adamı özünə cəzb edə bilirdi. Ümumilikdə, hamı tərəfindən sevilirdi.

Həmin gün o da bizimlə idi. Nə qədər gözlədimsə, namizədliyini irəli sürmədi. Bunu görüb əlimi qaldırdım, dedim ki, lütfən qardaş Yunis Məhəmmədinin adını da əlavə edin. Özü təəccüblənib qəbul etmədi, gülüb dedi ki, bu, ağır vəzifədir, öhdəsindən gələ bilmərəm. Onun uyğun namizəd olduğuna dair arqumentlərimi söylədim. Bu zaman müəllimlərin bir neçəsi, o cümlədən Şahnazla Xədicə Bazun sözlərimi təsdiqləyib Yunislə danışdılar. O da bir söz demədi və görünür, razılaşdı. Sonralar seçkilərdə iştirak etdi, Allahın köməyi ilə səs qazandı və Xürrəmşəhr əhalisini bir neçə dəfə İslami Şura Məclisində təmsil etdi.

İnqilabdan sonra yaranmış azadlıqdan istifadə edərək müxtəlif məktəb və ideologiyalar fəaliyyətə başlamışdılar. Onlar əksərən çay kənarında çıxışlar təşkil edir, kitab sərgiləri keçirirdilər. Əhalinin şəhərdə ən çox getdiyi, istirahət edib əyləndiyi yer ora idi. Günortadan sonra oraya dondurma, sendviç, ciyər kababı yeməyə, meyvə şirəsi içməyə gedirdilər.

Çox maraqlı idi. Bu qrupların hər cür imkanları vardı: çadır, kitab, broşür, maqnitofon, mikrofon, hətta Məsud Rəcəvi kimi liderlərinin çıxışlarını göstərən monitor. Görkəm və geyimləri də yaraşıqlı idi. Hamısı bəzənib-düzənib tərəfdar toplamağa çıxmışdı. Təbliğatları da yaxşı gedirdi. Çoxu eklektik solçu və kommunist qruplar kimi məşhurlaşmış, zülmə qarşı mübarizə və cihad düşüncələrini İslamdan götürmüş, ancaq onların icra tərzində rus və çinli mütəfəkkirlərdən təsirlənmişdi.[1]

---

[1] Solçu partizan qruplar 1970-1977-ci illərdə İranda geniş fəaliyyət göstərmişlər. Onların hamısı silahlı mübarizəni vacib sayır, lakin ideologiyada bir-birindən fərqlənirdilər. Əksəri marksist təmayüllərə malik idi, dinin siyasətdən ayrı olduğunu düşünürdü. O zaman dörd partizan təşkilatı vardı: Xalq fədailəri, Tudə partiyası, Xalq mücahidləri və Peykar (marksist mücahidlər). Onların arasında Xalq mücahidləri təşkilatı islamçı sosialist təşkilat idi, ancaq fəaliyyətləri əsnasında ideologiya dəyişdirərək nəinki İslam inqilabından uzaqlaşdı, hətta sonralar İran əleyhinə müxtəlif

Biz inqilabçılar da bekar qalmırdıq. Əlimiz boş olsa, onların imkanlarının heç birinə malik olmasaq da, İslam dövlətimizə güvənirdik. Şəhərin inqilabçı uşaqları ilə danışıb camaatın arasına girir, həmin cərəyanların inanc və düşüncələrini tənqid etməyə başlayırdıq. Onlar deyirdilər ki, İslamda fəhlə haqlarının müdafiəsinə dair xüsusi qanun yoxdur; yaxud İslamın təcrübədən keçmiş bəlli iqtisadi konsepsiyası yoxdur, halbuki kommunizm və leninizmin bununla bağlı xartiyası var. Cavab verirdik ki, biz Quran ayələrini və hədisləri diqqətlə araşdırmadığımıza görə İslam dininə belə yarlıq vura bilmərik. Deyirdik ki, İslam Allah tərəfindən göndərilmiş kamil dindir, müsəlman cəmiyyətinin problemlərini onun qanunları ilə aradan qaldırmalı, insan təfəkkürünün məhsulu olan müxtəlif məktəblərə üz tutmamalıyıq. Onların ən zəif cəhətləri materialist ideologiyaları idi və biz bunun üzərində çox dayanırdıq.

Onlarla mübahisə zamanı toxunduğumuz məsələlərdən biri də müsəlmanların - din xadimlərini və ruhanilərin Stalin tərəfindən qətliam edilməsi idi. Sovet İttifaqında kommunist təfəkkürü qəbul etməyənlərə qarşı dəhşətli cinayətlər törədilmiş, bir günün içində minlərlə günahsız müsəlman qətlə yetirilmişdi. Deyirdik ki, bu cinayətə hansı cavabınız var? Bu, diktator ideologiya deyil?! Buna heç vaxt qaneedici cavab verə bilmirdilər.

Çox vaxt mübahisə qızışırdı, amma hər dəfə Allah kömək edirdi, məğlub olmurduq. Bununla yanaşı, elm və düşüncə boşluğumuz hiss olunurdu. Yadımdadır, həmin ərəfədə Qumdan "İslamda fəhlə haqları" adlı bir büroşur aldım. İmam Xomeyninin "Təhrir əl-vəsilə" adlı fiqh kitabından çıxarış idi. Uyğun mübahisələrdə həmin büroşur mənə çox kömək edirdi.

---

cinayətlər törətməklə İslam respublikasının böyük düşmənlərindən birinə çevrildi.

Marksist, maoist və solçu cərəyanlar göbələk kimi hər yerdən baş qaldırırdı. Bu düşüncələr o qədər yayılmışdı ki, bir gün Əli evə gəlib dedi: "Məhəlləmizə bir nəfər gəlib. O, gənc oğlanları başına yığır, onlara fəhlə haqlarından və fəhlələri Mao üslubunda müdafiədən danışır". Sonralar bildik ki, o adam bir neçə il öncə Şərqi-Asiya ölkələrindən birinə gedib, inqilabdan sonra qayıdaraq Maonun fikirlərini təbliğ etməyə başlamışdır. O, hörmətli adam olmadığına, araq içdiyinə görə ciddi tərəfdar toplaya bilmədi.

Əli 1980-ci ilin iyununda korpus uşaqlarından ikisinin şəhid olduğunu söylədi. Abbas Əsədi ilə Musa Bəxtəvər zastavada iraqlılar tərəfindən vurulmuşdular.

Belə xəbərlər eşidəndə çox narahat olur, Xürrəmşəhrin təhdid altında olduğunu öz gözlərimizlə görürdük. Tehran da buna qarşı heç bir əməli addım atmırdı. Sanki bütün Xürrəmşəhri yaddan çıxarmışdılar. Qəzetlər və televeziya xəbərləri şəhərimizdə baş verənlər haqda bir kəlmə danışmırdı.

İyul ayında Həmədanın Şəhid Nojə qarnizonunun çevriliş planı bütün ölkədə rezonans doğurdu. Çox ciddi xəbər idi. Hamı ekran qarşısında oturmuşdu. Diktorun dediyinə görə, bu çevrilişdə əvvəlcə İmam Xomeyninin Cəmarandakı evi bombalanacaqdı, sonra da ölkənin həssas obyektləri. Lakin Allahın lütfü və İmam Mehdinin (ə) duası ilə çevriliş iştirakçılarından biri tərəfindən aidiyyəti orqanlara xəbər sızdırılmışdı.

Xəbərlərdə deyilənlərə görə, çevrilişin miqyası o qədər böyük imiş ki, ölkənin bir çox hərbi qarnizonlarını əhatə edirmiş; baş tutsaydı, bir neçə saat ərzində ölkəyə nəzarəti ələ keçirəcəkdilər. Qulaqlarımıza inana bilmirdik. Necə ola bilər ki, uğrunda bu qədər şəhid verdiyimiz İslam qruluşunu devirmək istəsinlər?! Bu xəbərdən sonra son zamanlarda Xürrəmşəhrdə baş tutmuş bəzi hərəkətlərin mənasını anladım. Bir neçə gün öncəyə qədər

bir yerə gedəndə və ya liseydən evə qayıdanda geyinib-keçinmiş yad gənclərin əllərində diplomat Kutşeyxdən qayıqla İraqa gedib-gəldiklərini görürdüm. Onlar nə yerli sakinlərdən idilər, nə Xürrəmşəhrdə tanınmış adamlardan. İranla İraq arasında nə üçün bu qədər gedib-gəldikləri bəlli deyildi. İndi isə anlayırdım ki, bu get-gəllər bizim düşündüyümüz qədər əhəmiyyətsiz və səbəbsiz deyilmiş.

Nojə çevrilişinin üstü açılandan sonra ordu sərhəddən çıxdı. Əhvazın 92 saylı zirehli diviziyası faktiki olaraq buraxılmışdı. O vaxta qədər ordu sərhəddə qarovul çəkirdi, çevrilişə cəhddən sonra isə sərhədi lazımınca qoruya bilmədi. İş bu yerə çatanda korpus müdaxilə edib məhdud canlı qüvvə ilə zastavalara girdi və sərhədləri qorumağa başladı. Bir neçə yüz metrdən bir korpus uşaqlarından biri dayanıb keşik çəkirdi. Bunları bizə Əli xəbər verirdi.

İraq tərəfi isə sərhəddəki imkanlarını gücləndirir, bircərgəli tikanlı məftilləri üç cərgəyə qədər artırır, yollarına asfalt çəkirdi. Kazarma və səngərlərini də təmir edir, sərhədə yeni texnikalar gətirirdi.

Bütün bu hərəkətlər şübhəli idi. Burnumuza müharibə qoxusu gəlirdi. Korpus uşaqları sərhəddəki vəziyyəti gündəlik olaraq Xürrəmşəhr korpusunun ilk komandiri Məhəmməd Cahanaraya məruzə edirdilər. Əli deyirdi ki, Cahanara İraqın sərhəddəki fəaliyyətləri barədə bir neçə dəfə Tehrana xəbər verib, təhlükənin Xürrəmşəhrin bir neçə addımlığında olduğunu xatırladıb, ancaq heç bir cavab almayıb.

Musa və Abbas adlı iki gənc pasdarın məzlumcasına şəhadətindən sonra korpus, Quruculuq cihadı və Qızıl Aypara Cəmiyyəti əhaliyə ilk tibbi yardım kursları açdı. Mən kursun elanını Quruculuq cihadında gördüm. Artıq yavaş-yavaş hamı inanırdı ki, nəsə baş verəcək və hazırlaşmaq lazımdır. Mən də bu kurslarda iştirak etmək qərarına gəldim. İlk tibbi yardım

kursunda sınıq və yaraları bağlamaq, qanaxmanı dayandırmaq, tənəffüs yollarını açmaq, süni tənəffüs və iynə vurmaq öyrədirdilər. Kurslar təxminən ikihəftəlik idi. Qızıl Aypara Cəmiyyətindən gəlmiş müəllim çox yaxşı təlimlər keçirdi. Keçilən dərsləri çox sevir, öyrənərkən heç nəyi nəzərdən qaçırmamağa çalışırdıq. Kurslarda həm qadınlar, həm də kişilər iştirak edirdilər.

Tibbi yardım kursundan sonra hərbi kurslara getdim. Mühafizəçilər korpusu bir neçə oğlan liseyində, korpusda, Quruculuq cihadında və Təbliğat komitəsində fəaliyyət göstərən kişi və qadınlara hərbi təlim keçirdi. Bu kursların biri də öz liseyimizdə başladı və mən də iştirak etdim. Məhəmmədi, Mahini, Musəvi və bir neçə sinif yoldaşımla birgə müxtəlif silahlarla tanış olduq, j3 və kalaşnikov silahlarını söküb-yığmağı, qumbara atmağı, üç və beş saniyədə sürünməyi və digər qabiliyyətləri çox həvəslə öyrəndik və dəfələrlə məşq etdik.

Sinif yoldaşlarımdan Xürrəmşəhr İslam Təbliğatı Komitəsinin bir müddətdir açıldığını eşitdim. Şöbə Əhmədzadə meydanının yaxınlığında yerləşirdi, evimizdən çox da uzaqda deyildi. Bir gün Şahnazla birgə oraya baş çəkmək qərarına gəldik.

Xürrəmşəhr İslam Təbliğatı Komitəsinin sədri Höccətülislam İslami adlı ortayaşlı bir kişi idi. O, illərlə Nəcəfdə yaşamış, Seyid Məhəmmədbaqir Sədrin tələbələrindən olmuşdu. Səddam Hüseyn hakimiyyətə gələndən sonra onları İraqdan qovmuşdular. O, İraqdan gələndən sonra Qumda yaşamağa başlamış, amma çox keçmədən Ərəb Xalq Döyüşçüləri Komitəsinin törətdiyi işlərə görə Xuzistana qayıdıb dini-mədəni işlərə başlamışdı.

Ağa İslami dedi ki, Tehrandan gəlmiş bir neçə ruhani gənclərə kurslar açmışlar, siz də orada iştirak edə bilərsiz.

Uşaqlarla birgə bir neçə dərsə getdik. Yaxşı dərslər idi, çoxu etiqadi və siyasi mövzularda sual-cavabla keçirdi.

Hövzə tələbələri gedəndən sonra ağa İslami yeni kurslara başladı. O, ərəb qrammatikasından tutmuş şəriət hökmlərinə qədər dərsləri tədris edirdi. Yavaş-yavaş şəhərin çoxlu fəal uşaqları həmin kurslara cəlb olundular.

Bir gün cənab İslami bizdən çap makinasında yaza bilib-bilmədiyimizi soruşdu. Mən Qızıl Aypara Cəmiyyətində bunun kursunu keçib sertifikat almışdım. Odur ki, bacardığımı söylədim. Cənab İslami dedi ki, boş vaxtlarımda oraya gedib məktublarını çap edim. Mən də qəbul etdim. Məndən başqa Leylun və bacısı Gilan da şöbədə dini-mədəni işlərə kömək edirdilər.

Bir qədər sonra cənab İslami həyat yoldaşını komitəyə gətirib mənimlə tanış etdi. O deyirdi: "Ailəm Qumda yaşayır, arabir bura mənim yanıma gəlirlər. Bu şəhərdə heç kimimiz olmadığına görə onu gətirdim ki, sizinlə tanış olsun, burada qaldığı müddətdə darıxmasın". Xanım İslami utancaq və istiqanlı qadın idi, mənimlə və ailəmizlə gözlədiyimdən də tez dostlaşdı. Yavaş-yavaş uşaqları ilə birgə bizə gəlməyə başladılar. Bir müddətdən sonra isə səmimi dostlara çevrildik.

***

Yayın ortaları idi. Bir gecə qəribə bir yuxu gördüm. Gecə idi və mən damda uzanmışdım. Göyə baxdığım yerdə birdən Xürrəmşəhrin başının üstünü qırmızı buludlar aldı. Buludlar tez-tez hərəkət edir, yerlərini dəyişirdilər. Bu zaman şəhər güclü bir təkanla yerindən qopub bir qədər aralıda yerə çırpıldı. Mat-məəttəl baxdığım yerdə birdən iraqlılar şəhərə hücum etdilər. Ağır döyüş başlandı. Bir iraqlı həyətimizə əl qumbarası atdı. Qumbaranın gurultusundan sonra həyəcanla yuxudan oyandım. Sinəm elə ağrıyırdı ki, sanki ürəyim dayanacaqdı. Çoxlu salavat deyəndən sonra bir qədər sakitləşdim.

# Beşinci fəsil:

## *Müharibə*

1980-ci ilin yayı hadisəsiz ötüşdü. Yayda gördüyüm tək iş İslam Təbliğatı Komitəsinin şəriət hökmləri dərsində iştirak etmək oldu. Dərsə Şahnazla birgə gedirdim. Şahnaz şəriət hökmlərini və hövzə dərslərini çox sevirdi. Axırda qərara gəldi ki, Qum Elm Hövzəsinə təhsil almağa getsin. Atamla anam onun başqa bir yerə getməsinə razı deyildilər. Onlar deyirdilər: "Nə üçün qürbətə getmək istəyirsən?! Axı Qumda kimimiz var ki, səni ona tapşıraq?! Ümumiyyətlə, harada qalacaqsan?"

Şahnaz onları razı salmaq üçün çox əziyyət çəkdi, axırda bir yolla razılıqlarını aldı. Ata-anam sarıdan arxayın olandan sonra Xürrəmşəhrin təhsil şöbəsinə gedib Quma təyinat aldı. Sonra cənab İslami Qum Elm Hövzəsinə bir təqdimat yazdı. Getməyə çox həvəsli olduğundan Allah da işlərini yoluna qoyurdu.

Sentyabrın ortalarında səfərə hazırlaşdı. Qərara gəldik ki, anam, Möhsün, Muna və mən də onunla gedib bir neçə gün yanında qalaq, adını yazdırdığına və yerləşdiyinə əmin olduqdan sonra qayıdaq. Salehə də təxminən iki ay yarım idi rəsmi şəkildə Xürrəmşəhr korpusunun Qadınlar şöbəsinə daxil olmuşdu. O, biraylıq təkmilləşdirici hərbi kursda iştirak

etdiyinə görə evə gələ bilmədi. Əli də həmin bir ayda evə gəlmədi, korpus uşaqları ilə birgə təlimlə məşğul idi. Salehə kimi qızların bir neçəsi də korpusa yazılmışdı. Bəziləri rəsmi üzv idi, yer dolduğuna görə bəziləri də ehtiyat üzv. Məryəm Əmcədi, Nuşin Nəccar, Zəhra Dünyapur korpusun ehtiyat qüvvələrindən, Salehə, Fatimə Banu, Səkinə Hurisi, Şəhla Talibzadə, Fatimə və Nərgiz Bəndərilər isə rəsmi üzvlər idilər.

Mühafizəçilər korpusunu inqilabi bir orqan kimi qəbul etsəm də, xüsusi çərçivə daxilində idarə olunmağı sevmirdim. Hərbi işləri də xoşlamırdım. Sərbəst şəkildə yolumu seçmək istəyirdim. Buna görə korpusa yazılmağa heç vaxt can atmadım.

Fevziyə, Abbas və Firdovs atamla birgə Xürrəmşəhrdə qaldılar, mənsə Şahnaz, Möhsün, Muna və anamla birgə çantalarımızı hazırlayıb Quma yola düşdük. Şahnaz cənab İslaminin Qumdakı evinin ikinci mərtəbəsində qalacaqdı. O, Şahnazı Qum Elm Hövzəsinə ən çox həvəsləndirən adam olduğuna görə bu işdə məsuliyyət hiss edir, gənc bir qızın qürbət diyarda ev axtarmasını istəmirdi. Demişdi ki, həyat yoldaşı da tək qalmasın deyə Şahnaz onlarda qalsın. Atamla anam da məhz buna görə razılıq vermişdilər.

Sentyabrın 19-da qatarla Quma yola düşdük. Yolda uşaqlarla çox deyib-güldük. Ertəsi gün günorta çağı Quma çatdıq. Günorta yeməyinə xanım İslamiyə qonaq olduq. Bir qədər istirahət edəndən sonra həzrət Məsumənin məqbərəsinə ziyarətə getdik. Mən onu ikinci dəfə idi ziyarət edirdim. Quma ilk səfərimi və İmam Xomeyni ilə görüşümü xatırladım. O səfərin dadı hələ damağımdan getməmişdi. Ertəsi gün Şahnazın adını hövzəyə yazdırdıq, sonra ona alış-veriş etmək üçün hamılıqla bazara getdik, bir yeməkbişirən lampa, iki-üç qazan, kasa, boşqab, stəkan və doqquzmetrlik bir kovrolit aldıq. Şahnazın bütün əşyaları bunlardan ibarət idi. Sonrakı günlərimiz ziyarət və gəzməklə keçdi. Xanım İslami o qədər

qonaqpərvər və mehriban idi ki, onlarda özümüzü qonaq kimi hiss etmirdik. Qərara gəldik ki, bir-iki gün də qalıb qayıdaq.

Sentyabrın 22-i, səhər çağı idi. Saat 8-də Möhsün və Muna ilə birgə dəmiryol vağzalına bilet almağa getdik. Günortaya qədər növbədə dayandıq, lakin bilet qutardığından əliboş qayıtdıq. Anam aldığı kovroliti Şahnazın otağına döşəmişdi. Günorta saat ikidə hamımız süfrə başına oturduq. Xanım İslami fisincan-plov bişirmişdi. Yeni növ fisincan idi, qoz yerinə küncüddən istifadə etmişdi. Yeməyin ətri və rəngi adamı valeh edirdi, dadı da gözəl idi.

Radio açıq idi. Yeməyə yeni başlamışdıq ki, bir xəbəri eşidib yerimizdə donduq: İraq təyyarələri Mehrabad hava limanını, Xürrəmşəhri və başqa bir neçə şəhəri bombalayıb! Bu xəbəri eşitcək ürəyim üzüldü. Digərləri də mənim kimi şoka düşdülər. Hamımız mat-məəttəl bir-birimizə baxırdıq. Səddamın həyasızlığının bu həddə çatacağına inana bilmirdik. Əlbəttə, bir müddət öncədən Xürrəmşəhrdə yaranmış vəziyyətdən belə bir xəbər gözləyirdik.

Özümdən asılı olmayaraq süfrədən qalxıb anama dedim ki, vağzala bilet almağa gedirəm. Xanım İslami dedi: "Vay, qız! Gözlə görək nə edirik. Həm də bu vaxt bilet nə gəzir?!"

-Müharibə başlayıb. Uşaqlar Xürrəmşəhrdədirlər. Burada qala bilmərik.

-Yaxşı, gedərsən, amma heç olmasa, yeməyini ye, sonra.

Anam heç bir söz demədən mənə baxırdı. Tez gedib geyindim. Nahar yeməyib qapıdan çıxarkən Möhsünlə Muna da arxamca qaçıb dedilər: "Dayan, biz də gəlirik".

Bu zaman Şahnaz da ayağa qalxıb dedi: "Sabah, mən də gəlirəm". Dedim ki, sən hara?!

-Mən də Xürrəmşəhrə qayıdıram.

-Hara qayıdırsan?! Bu qədər yol gəlmisən, bu qədər əşya almısan... Bura gəlib təhsil almaq üçün atamla anamı güc-bəla ilə razı salmısan, indi hara qayıdırsan?!

-Onlar müharibədən qabaq idi.

Anam vəziyyəti görüb dedi: "Gözləyin, hamımız birlikdə gedək".

Xanım İslami yemək yeməmiş bizi evdən buraxmadı. Birtəhər üç-dörd tikəni boğazımdan ötürüb xanım İslami və uşaqları ilə sağollaşdım, taksi tutmaq üçün evdən çıxdım. Bu müddətdə hamı hazırlaşdı, Şahnaz da əşyalarını qapının ağzına yığdı. Maşınla qayıtdım. Hamı mindi, əşyaları baqaja qoyub dəmiryol vağzalına yollandıq.

Vağzalda dedilər ki, Xürrəmşəhrə bilet yoxdur. Allah bilir ki, bilet növbəsində nə qədər adam vardı. Biletsatan çoxlu israr və xahişlərimizi görüb dedi: "Xanım, qatara minin, bilet yerinə pul verərsiz. İndi yalnız bu yolla getmək mümkündür".

Nə yolla olursa-olsun, hətta ayaq üstə də olsa, Xürrəmşəhrə getmək istəyirdim. Onda yadıma düşmürdü ki, anam və uşaqlar da bizimlədir və bu şəkildə əziyyət çəkəcəklər.

Qatar saat beşdə yola düşdü. Qatarın koridorunda ayaq üstə dayandıq. O istidə elə uzaq məsafəni necə gedəcəyimiz bəlli deyildi. Qatarda hamı müharibədən danışırdı. Heç kimdə baş verənlər barədə dəqiq məlumat yox idi. Hamının rəftarında bir növ tələskənlik görünürdü, hamı təşviş içində idi. Bəziləri bombardmandan və ölənlərdən danışırdı. Sərnişinlərin çoxu yay tətilinə görə səfərə çıxmış xuzistanlılar idi, hamısı tələsik və narahat halda başına nə gələcəyi bilinməyən bir şəhərə qayıdırdı. Bütün koridorlar sərnişinlə dolu idi.

Ayaq üstə yarım saatdan çox dayana bilməyib yerə oturduq. Qatar sürətlə gedirdi. Hava olduqca isti idi, çadranın altında tərləyirdik. Burnumuzun ucundan və çənəmizin altından iri tər damcıları axırdı. Hamımız fikrə getmişdik. Beynimizdə min cür

fikir dolaşırdı. Müharibə haqda tam təsəvvürümüz yox idi. Bildiklərimiz İkinci dünya müharibəsi barədə eşitdiklərimizdən və filmlərdə gördüklərimizdən ibarət idi.

Bir saat ötəndən sonra bir kupenin qapısı açıldı, bir neçə əsgər bayıra çıxıb yerlərini bizə verdilər. Deyirdilər ki, siz ailəsiniz, bu şəkildə koridorda qalmanız yaxşı deyil. Əvvəlcə qəbul etmədik. Yazıqlar nəyə görə bu qədər əziyyət çəkməlidilər! Lakin çoxlu israrlarından sonra kupeyə girdik.

Kupedə ağ-qara saçlı qoca bir kişi də vardı, dayanmadan ağlayırdı. Qatar nəhəng bir ilan kimi Qumun çöllərindən sürətlə keçib irəliləyirdi. Qoca ətrafına fikir vermədən sakitcə ağlayırdı. Kədərli səhnə idi. Heç kim danışmırdı. Axşama yaxın istilik bir qədər azaldı. Qatarın dəmir relslərlə təmasından doğan səsi dinlədiyim yerdə birdən anam sükutu pozdu. O, qoca ilə söhbəti açıb nə baş verdiyini soruşdu. Qoca dedi:

-Orduda xidmət edən iki oğlum var. Dünəndən bəri onlardan heç bir xəbər yoxdur. Bilmirəm sağdırlar, yoxsa şəhid olublar. Gedirəm, görüm başlarına nə gəlib.

-Pis şey fikirləşməyin, inşallah heç nə olmaz.

-Allaha and olsun, əgər uşaqlarım şəhid olsa, özüm hərbi forma geyinib Səddamla vuruşacam.

Tehrandan gəlirdi. Ona oğullarının şəhid olduğunu, yoxsa yaralandığını deməmiş, ancaq tez Xuzistana gəlməli olduğunu söyləmişdilər. Anam yavaşca gözlərinin yaşını silirdi. Duyğusal qadın idi. Narahat bir ataya təskinlik verməyə çalışır, amma özünü saxlaya bilmirdi.

Axşam anamla Möhsün restorandan mərciplov alıb gətirdilər. Yaşlı kişiyə nə qədər israr etdiksə, yemədi. Deyirdi ki, boğazımdan heç nə keçmir.

Sübh azanına yaxın qatar bir stansiyada dayandı. Namazımızı qıldıq. Qatar yola düşəndən sonra işıqları

söndürdülər. Qatar tam qaranlığa qərq oldu. Müharibə vəziyyəti aydın hiss olunurdu.

Təxminən səhər saat 8-də Əndimeşkə çatdıq. Orada sərnişinlərin minib-düşməsi bir qədər uzandı. Bu zaman birdən şəhərin səmasından göy gurultusuna bənzər bir səs gəldi. Ondan sonra da ardıcıl partlayış səsləri eşitdik. İraq təyyarələri səs maneəsini yararaq şəhəri bombalayırdılar. Bütün şəhəri tüstü, toz və alov bürüdü. Bir göz qırpımında qırıcılar şəhərin bir neçə yerini dağıdıb insanları qanlarına qəltan etdilər.

İlk dəfə idi bir şəhərin bombalandığını görürdük. Qatarda çoxları, xüsusən də uşaqlar və yaşlılar qorxdular. Bəzi kupelərdən ağlamaq səsi gəlir, çoxları Səddamı lənətləyirdi. Mən yerimdə quruyub qalmış, ağzıaçıq halda ətrafa baxırdım. Bu zaman qatar yola düşdü. Az sonra qatarın bələdçisi gəlib dedi ki, Əhvaz-Xürrəmşəhr dəmiryolu vurulduğuna görə qatar yalnız Əhvaza qədər gedə biləcək. Xürrəmşəhr sərnişinləri Əhvazda enməlidirlər. Sərnişinlərin arasına çaxnaşma düşdü. Hamı etiraz edib deyirdi: "Biz belə şəraitdə Xürrəmşəhrə necə gedərik?"

Səhər saat 10-da Əhvaza çatdıq. Əhvaz dəmiryol vağzalı adamla dolu idi. Vağzal tərəfindən bir nəfər gəlib dedi: "Burada gözləyin. Ordu Xürrəmşəhr sərnişinlərini aparmaq üçün bir neçə avtobus göndərəcək".

Avtobusların gəlməsi bir saata yaxın çəkdi. Vağzal məhşər səhrasına dönmüşdü. Hamı heyrətlə Əndimeşk bombardmanı barədə danışırdı. Vağzalın işçiləri camaatı ordu tərəfindən gəlmiş yeddi-səkkiz avtobusa mindirdilər. Magistralda diqqətimizi cəlb edən əsas məsələ Xürrəmşəhrdən Əhvaza gedən müxtəlif minik və yük maşınları idi. Magistral birtərəfli yola dönmüşdü. Maşınların üstü, kiçik və böyük yük avtomobillərinin arxası əşya və avadanlıqlarla, arvad-uşaqla

dolu idi. Hamı şəhərdən gedirdi. Üzücü səhnə idi. O qədər adam haraya gedirdi? Tehrana? Quma? Haraya?

Təxminən bir saatdan sonra Xürrəmşəhrə çatdıq. Bizi dəmiryol vağzalında avtobuslardan endirdilər. Vağzalda quş belə uçmurdu. Sentyabrın 23-ü olsa da, istiyə dözmək mümkün deyildi. Sərnişinlər tez avtobuslardan enib dağılışdılar. O qarışıqlıqda diqqətimi cəlb edən ilk şey isti küləyin oyan-buyana diyirlətdiyi tikan kolu oldu. Bir anlığa müharibənin və əhalinin taleyi həmin tikan kolunun taleyi kimi qaranlıq göründü: yersiz-yurdsuz, köməksiz...

Şəhər tətil günləri kimi boş idi, bir gecənin içində kimsəsiz qalmışdı. Sanki küçə və prospektərə ölüm tozu səpmişdilər. Tək-tük maşınlar görünürdü. İxtiyarsız olaraq, ötən illərin 23 sentyabrını xatırladım. Hər il bugünkü gündə məktəblər açılır, şəhərdə qiyamət olurdu, indi isə əşyaları evə aparmağa maşın tapa bilmirdik. Çox gözləyəndən sonra nəhayət, anamla Munanı bir neçə nəfərin mindiyi və məhəlləmizə gedən bir maşınla göndərdik ki, kömək gətirsinlər.

Təxminən yarım saatdan sonra atam bir maşınla gəldi. O gələnə qədər xalq könüllülərindən mülki geyimli və silahlı bir neçə nəfər Səddamın gecə vaxtı Taliqani məhəlləsini vurduğunu, çoxlarının şəhid olduğunu və yaralandığını söylədilər. Deyirdilər ki, gecə orada qiyamət idi. Yaralıları Müsəddiq xəstəxanasına, şəhidləri də Cənnətabad məzarlığına təhvil vermişdilər. Eşitdiklərimizə inana bilmirdik. Bir gecənin içində şəhərimizin başına bu qədər bəlanın gəldiyi imkansız görünürdü.

Əşyalarımızı baqaja qoyub yola düşdük. Küçəmizin başında maşından endik. Küçə ensiz idi, maşın girə bilmirdi. Sürücünün köməyi ilə çamadanlarımızı yerə qoyduq. Şahnaza dedim ki, özümüz yavaş-yavaş çamadanları aparaq, digərləri də gələrlər. Yola düşdük. Hələ küçənin ortasına çatmamış eyni vaxtda bir

neçə yük maşınından dəmir yükün boşaldılmasına bənzəyən qorxunc bir şaqqıltı qopdu. Səs o qədər dəhşətli idi ki, özümüz də bilmədən çamadanları yerə atdıq. Şahnazla bir-birimizə baxıb qeyri-iradi halda gülümsədik. Mən dedim: "Bu nə idi, Şahnaz?"

Qəzəbli təbəssümümüzdən və heyrətli halımızdan çox keçməmiş Fevziyə qapıya çıxıb qışqırdı: "Tez olun, girin içəri. Namərdlər raket atırlar. Tez olun, qəlpə dəyməmiş evə girin!"

-Raket?!

Bu sözü hərbi təlimdə eşitmişdim. Deməli, raketin partlayış səsi beləymiş. Gecədən bəri şəhəri bir neçə dəfə raketlə vurmuşdular. Fevziyə o səsi tanıyır, adını bilirdi. Səs bizdən təxminən 100 metr aralıdan gəlmişdi. Çamadanları götürüb evə girdik. Fevziyəyə dedim:

-Fevzi, sən raket səsini haradan tanıyırsan?

-Bir şey var, atırlar, hara dəysə, dərhal partlayır. Ona raket deyirlər. Partlayandan sonra isti və iti metal parçaları sürətlə ətrafa səpələnir. Kimə dəysə, işini bitirir. Ona qəlpə deyirlər.

-Sən bu şeyləri haradan bilirsən, qız?

-Bilirsən bu neçəncidir?! Gecədən atırlar. Hamı deyir ki, adı raketdir. Mən də qonşulardan eşitdim.

Çamadanı dəhlizə qoyub həyətə qayıtdım. Atam Abbası qucağına götürmüşdü. On iki yaşı olsa da, yazıq partlayış səsindən çox qorxmuşdu. Yarpaq kimi əsir, dayanmadan qışqırırdı: "Mən ölmək istəmirəm! Mən ölmək istəmirəm!"

Anam stəkana bir neçə qənd və qızıl üzüyünü atıb tez-tez qarışdırır, nəvazişlə az-az Abbasa içirirdi. Fevziyəyə dedim: "Gedim, görüm səs haradan gəlib, haranı vurublar". Dedi ki, gözlə, mən də gəlirəm.

Xürrəmşəhrə raket hücumları başlayandan bacılarım Fevziyə ilə Firdovs evdə manto və şalvar geyinir, başlarını bağlayırdılar. Deyirdilər ki, birdən buranı da vurarlar, geyinməyə macal

tapmarıq. Gecə də elə yatmışdılar. Atamla anamın mane olacaqlarından qorxub onlara deməmiş tez evdən çıxdıq. Gedəndə qara brezent çantamı da götürdüm.

Yaxınlıqdakı yaşlı kişi ilə yaşlı xanımın evini vurmuşdular. Hər ikisi yaralanmışdı, camaat onlara kömək edirdi. Fevziyəyə dedim: "Burda kömək edən var, gedək korpusa, görək orda vəziyyət necədir". Yolda Əlini soruşdum. Dedi ki, ondan heç bir xəbərimiz yoxdur.

Korpusda səssizlik idi, quş belə uçmurdu. Qapıçıdan Əlini soruşduq. Dedi ki, hamı Şələmçəyə gedib. Sonra qadın pasdarların yerini soruşduq. Salehənin harada olduğunu bilmək istəyirdik. Dedi ki, onlar Xürrəmşəhr stadionuna yerləşmişlər. Pasdarın sözü bitməmiş birdən yaxınlığımızda bir gurultu qopdu. Fevziyə qəlpə dəyməsin deyə məni yanımızdakı divara söykədi. Az sonra səs gələn tərəfə getdik. Bir neçə küçə irəlidə bir evə raket düşmüş, tüstü, toz-torpaq və barıt qoxusu bütün küçəni bürümüşdü. Evin yaxınlığında bir qoca kişi qan içində yerə yıxılmışdı, qışqırırdı. Kişinin başı yarılmışdı, bütün üzü qana boyanmışdı. Küçənin ortası müxtəlif ölçülərdə qəlpələrlə dolu idi. Fevziyə qaçıb bir maşını saxladı. Kişinin qolundan tutub yavaşca maşına mindirdik və onunla birgə Müsəddiq xəstəxanasına yollandıq.

Müsəddiq xəstəxanası qırxmetrlik prospektin sonunda, çayın kənarında yerləşirdi. İnqilabdan qabaq ona Xümbə xəstəxanası deyirdilər. Kərpic örtüklü birmərtəbəli bina idi. Böyük dəmir qapısı, çəmən həyəti vardı. Sağ tərəfdə morq yerləşirdi, qarşıda isə təcili yardım şöbəsinin qapısı və xəstəxananın əsas korpusuna giriş vardı. Xəstəxanada elə səhnə ilə üzləşəcəyimə heç vaxt inanmazdım. Xəstəxananın həyəti və qapısının önü adamla dolu idi. Qadın və uşaqlar bərkdən ağlaşırdılar. Ərəb qadınlar üz-başlarına vurur, əzizlərinin adını çəkib ağlayırdılar. Bəziləri oturub başlarına torpaq tökürdü, bəziləri də yaxalarını

cırıb, üzlərinə vururdu. Sanki qiyamət qopmuşdu. Taliqani məhəlləsinin şəhid və yaralılarının ailələri xəstəxanaya dolmuşdular. Qocanı özümüz içəri aparmaq istəyirdik, amma izdihama görə xəstəxananın mühafizəçiləri icazə vermədilər, təkcə qocanı aparıb dedilər: "Başqa yerə köməyə gedin, burda ehtiyacımız yoxdur".

Orada kömək edə bilməyəcəyimizi görüb Məryəm xalagilə getmək qərarına gəldik. Onlara baş çəkmək, vəziyyətlərini öyrənmək istəyirdik. Evləri şəhərin mərkəzində, Firdovsi prospektinin varlılar məhəlləsində yerləşirdi; bizim evə nisbətən gömrükdən çox uzaqda idi. Anamla uşaqlar da orada idilər. Uşaqlar çox qorxduqlarına görə anam oraya aparmışdı ki, əsas raket hücumları altında olan gömrükdən uzaq olsunlar. Məryəm xala dedi ki, sizi evinizə buraxmaram. O vaxt üç-dörd ailədən başqa hamısı Ərəb Xalq Döyüşçüləri Komitəsinin tərəfdarı olan əksər qonşularımız getmişdi. Xalam doğru deyirdi, belə bir şəraitdə evə qayıtmaq məsləhət deyildi. Anam Əli ilə Salehəni soruşdu. Dedik: "Salehə stadiona gedib, Əlidən isə xəbərimiz yoxdur. Qapıçı pasdar bütün uşaqların Şələmçəyə getdiklərini söylədi".

Məryəm xalanın böyük qızı Nahid əmisi oğlu Həsənlə ailə qurmuş və yoldaşının təhsilindən ötrü Amerikaya getmişdi. O, ikiyaşlı qızı Punə ilə İrana ailəsini görməyə gəlmiş, bəxtindən müharibə başlamışdı. Məryəm xalanın altı övladı vardı. Böyük oğulları Əhmədlə Mahmud 1973-cü ildə İngiltərəyə getmişdilər, Nahidsə Amerikaya. O birilər də İlahə, Müjgan və Rza idi. Mən İlahə ilə çox səmimi dost idim.

Yorğun olduğuma görə bir qədər uzanıb özüm də hiss etmədən yuxuya getdim. Təxminən bir saat yatdım. Oyananda anamla Şahnaz evdə yox idilər. Xalam dedi: "Atan gəlmişdi. Ananla Şahnaz onunla evinizə paltar gətirməyə getdilər. Hicab

əmi dedi ki, bu vəziyyətdə sizi evinizə buraxmayacaq". Xalam sözünə davam etdi:

-Atan stadiona Salehənin yanına getmişdi.

-Doğrudan? Nə dedi? Salehə necə idi?

-Şükür Allaha, yaxşıdır. Yazıq atan Salehə ilə Əliyə görə çox narahat idi. Salehəni görüb arxayınlaşdı, inşallah Əlidən də xəbər öyrənər.

-Atam demədi ki, Salehəgil orada nə edirlər?

-Dedi ki, orada xalq könüllülərinə silah verir, silahdan istifadə qaydalarını öyrədirlər. Atan da bir silah alıb.

-Afərin atama!

Onda Mühafizəçilər korpusu bəzi şəxslərə xüsusi vəsiqə ilə birgə silah verirdi.

Hicab əmi evdə idi. Xalamın yoldaşının soyadı Hicab olduğuna görə onu Hicab əmi çağırırdıq. O, gömrüyün məhsul buraxılışı şöbəsində işləyirdi. Dedi ki, əvvəllər də sərhəddə atışma olub, axırda İranla İraq arasında saziş imzalanıb və hər şey bitib, lakin bu dəfə məsələ fərqlidir. Biz xəstəxananın içərisinə girə bilmədik, o isə girmişdi. Deyirdi ki, insanlar tikə-tikə olmuşlar və düşmənə cavab verilmədiyinə görə hamı etiraz edir. O deyirdi: "Doğru olub-olmadığını bilmirəm, amma danışırdılar ki, hərbçilərimiz Şələmçədən geri çəkiliblər". Biz söhbət edən yerdə anamla Şahnaz gəldi.

-Nə qədər dediksə, kişi gəlmədi. Məhəlləmizin elektrik enerjisi də kəsilib, göz-gözü görmür.

O, anamla Şahnazı ötürüb özü evə qayıtmışdı. Anama demişdi ki, əsla narahat olma, silahım var və özümü müdafiə edə bilirəm.

-Bağçada özünə səngər düzəldirdi ki, iraqlılar şəhərə girsələr, onlarla vuruşsun.

Belə cəsarətli atam olduğuna görə çox sevindim, bir anlığa ona bütün ömrüm qədər darıxdım.

Birlikdə yüngül şam yedik. Yatmaq vaxtı xalam onikinəfərlik yemək stolunun altına döşək sərdi, Rza, Abbas, Möhsün və Muna orada yatdılar. Stol kiçik sığınacaq kimi idi, partlayış baş versəydi, ən azı, uşaqlar uçqun altda qalmazdılar. Həmin gecə ardıcıl partlayışlardan və fikirdən heç kimin gözünə yuxu getmədi. Birtəhər gecəni başa vurduq.

Sentyabrın 24-də sübh namazından sonra daha yatmadım, İlahə və Nahidlə birgə səhər yeməyi hazırlamağa başladıq. Uşaqlar bir-bir oyanıb yemək istəyirdilər. Təxminən saat 8-ə qədər hamı oyanmış, yeməyini yemişdi. Stəkanları yuduğumuz yerdə birdən qapı döyüldü. Səhər tezdən idi, heç kimi gözləmirdik. Rza ilə Abbas qapıya qaçdılar. Onların ədəb-ərkanla salam vermələri diqqətimizi cəlb etdi. Əvvəl xalam, sonra da biz qapıya yaxınlaşdıq. Məhəllənin Fatimeyi-Zəhra məscidinin imamı Hacı ağa Səadət idi. Dedi ki, məsciddə köməyinizə ehtiyacımız var. Xalam soruşdu ki, nə köməyi? Dedi: "Korpusun uşaqları çoxlu butulka gətiriblər, şəhəri müdafiə etmək üçün molotov kokteyli düzəltmək istəyirlər. Sabunları rəndələyib şüşələrə doldurmaq lazımdır". Xalam dedi: "İndicə hazırlaşıb gəlirik".

Evdə kim vardısa, həvəslə məscidə yola düşdü. Təxminən on nəfər idik. Butulkalar məscidin həyətində idi. Tez-tez sabunları rəndələyib şüşələrə doldurmağa başladıq. Təyyarə və partlayışların gurultusu ilə birgə, yaralıları aparan təcili yardım maşınlarının və qorxmuş piyadaları vurmaqdan ehtiyatlanan avtomobillərin uzun siqnalları da bütün şəhəri başına almışdı. Hər an şəhərin bir tərəfində gurultu qopur, bir məhəllə yerlə-yeksan edilirdi.

İşimiz bitəndən sonra evə qayıtdıq. Xalam nahar yeməyi üçün soyuducudan gümüş balığı çıxardı və düyü təmizləməyə başladı. Balıqların donu açılandan sonra Fevziyə ilə Nahid onlara xüsusi un vurub qızartdılar. Məryəm xala dəbdəbəli

adam idi, həmişə rahat yaşamışdı, maddi imkanları yaxşı idi, geyimləri və yeyib-içmələri digər qohumlardan fərqlənirdi.

Gümüş balığı ləzzətli idi, mən uşaqlıqdan siyənəyi sevirdim. Anam onu təndirdə bişirirdi. Əti o qədər dadlı olurdu ki, xırda sümükləri hərdən boğazımızda qalsa da, heç vaxt vaz keçə bilmirdik. Anam balığın qarnını təmizləyib ədviyyatla və bir neçə xüsusi göyərtilə doldurur, sonra təndirdə yaxşıca bişirirdi. Siyənək yağlı balıq idi, onu həm kabab etmək olurdu, həm də tavada qızartmaq. Amma heç birinin dadı təndirdə bişənə çatmırdı. Anam hərəmizə birini bişirirdi. Onu yeyəndən sonra başımız o qədər ağırlaşırdı ki, ən azı, iki saat yatırdıq.

Nahar yeməyini yenicə yemişdik ki, bir gurultuya diksindik. İraq tərəfinin dünəndən irəlilədiyi bəlli idi. Çünki sonradan top mərmisinə aid olduğunu öyrəndiyimiz səs yaxınlığımıza düşmüşdü. İlahə ilə bayıra çıxdıq. Firdovsi prospektində milli bankın yaxınlığında bir yeri vurmuşdular. Partlayış yerindən çoxlu tüstü və toz-duman qalxırdı. Qaça-qaça ora getdik.

Partlayış nəticəsində bir binanın ikinci mərtəbəsinin divarında böyük bir şkaf boyda yumru dəlik açılmışdı. Evin içi aydın görünürdü. Bütün ev sakinləri qorxudan pilləkənin altına toplaşmışdılar. Xoşbəxtlikdən, heç kim xəsarət almamışdı. Yalnız partlayış dalğası üst-başlarını bulamış, beyinlərini dumanlandırmışdı. Şəhər BM qradları ilə atəşə məruz qalmışdı. Partlayış səsləri səngimək bilmirdi. Evə qayıtdıq. Yolda İlahə son iki gündə Xürrəmşəhrdə baş verənlərdən danışdı. Deyirdi ki, düşmənin vurduğu ilk yerlərdən biri Taliqani məhəlləsinin Salur orta məktəbi olub. Məktəbdə şagird olmamış, ancaq gözətçi kişi ilə yoldaşı şəhid olmuşdu. Sonra Taliqani məhəlləsinin digər yerləri də vurulmuşdu. Deyilənlərə görə, 75-100 nəfər şəhid olmuş, 300-ə yaxın adam yaralanmışdı.

Biz Məryəm xalagilə çatanda anamla Şahnaz evə atamı gətirməyə getmişdilər. Nə yolla olursa-olsun, onu gətirmək

istəyirdilər, evdə tək qaldığına görə narahat idik. Evdə də yaxından və uzaqdan partlayış səsləri eşidirdik. Bir saatımız da gurultusuz keçmirdi.

Təxminən bir saat idi getmişdilər. O gurultular arasında anamla Şahnazdan nigaran qaldıq. Artıq qayıtmalı idilər. Həyəcanlanmağa başladım. Düşmən atəşi aman vermirdi. Səhər olduğu kimi, qrad səsləri anbaan yaxınlaşırdı. Evin yaxınlığında da bir neçə partlayış baş verdi. Hamımız bayıra qaçdıq. Mən Fevziyə, Nahid, İlahə və xalamla qapının ağzında qaldım, Abbas, Möhsün, Rza, Müjgan və Muna isə küçəyə çıxdılar. Uşaq idilər; partlayış səsləri onları həm qorxudur, həm də həyəcanlandırırdı. Məryəm xalagilin küçələrinin başında bir polis bölməsi yerləşirdi. Evin sol tərəfində iki-üç evdən sonra isə həzrət Fatimeyi-Zəhra (s) məscidi yerləşirdi. Qapının ağzında dayanıb ətrafa baxdığım yerdə birdən güclü bir partlayış yer-göyü titrətdi. Bizdən dörd-beş ev aralıda bir ev gözlərimiz önündə yanıb tüstülənməyə başladı.

Bir qədər sonra nə baş verdiyini anladıq. Bütün bədənimiz qurumuş, başımız ağırlaşmışdı. Mat-məəttəl bir-birimizə baxırdıq. Nə üçün belə olduğumuzu bilmirdik. Üç-dörd dəqiqədən sonra Nahid qışqırmağa başladı: "Yalla! Tez evə girin!" Dayanmadan bu cümləni təkrarlayırdı. Onda bu vəziyyətə "dalğaya düşmək" deyildiyini bilmirdik.

Partlayış evimizin sağ tərəfində, təxminən 50 metr aralıqda baş vermişdi. İlahə və başqa beş-altı nəfərlə birgə partlayış yerinə qaçdıq. Ora çatan kimi gördüyüm səhnədən yerimdə donub qaldım. Top mərmisi ikimərtəbəli bir evin həyətinə düşmüşdü. Toz-torpaq yatandan sonra ikinci mərtəbənin nərdəsindən qanlı bir ət parçasının sallanaraq sağa-sola yelləndiyi gözə çarpırdı. Ət ev sakinlərindən birinin fəqərə sütununun parçası idi. Heç bir reaksiya vermədən gözümü ona

dikmişdim. Bilmirdim nə edim: qışqırım, ağlayım, qaçım, kömək edim...

Yerə mıxlanıb qalmışdım. İlahə də hərəkətsiz halda baxırdı. Bir qədər sonra ətrafı görməyə başladım. Evin divarları, həyət və hasar yanmış, qana bələşmiş iri və xırda ət parçaları ilə dolu idi. Nahid, Fevziyə və xalam da ora gəldilər. Xalam bərkdən ağlayır, ikiəlli başına vururdu. Nahid çətinliklə onun qollarını tutdu və həmin halda dayanmadan qışqırmağa başladı: "Tez olun, gedin evə!" Başını itirmiş adamlar kimi dayanmışdıq. Bir təcili yardım maşını həyəcan siqnalı verə-verə gəldi. İçindən bir neçə nəfər düşüb evə qaçdı. Bir nəfər də qışqırırdı ki, dağılışın, buranı yenə vura bilərlər.

Evə qayıtdıq. Nərdədən sallanan ət parçası və sanki ət maşınından keçirilmiş, pəncərələrin ərimiş əyri-üyrü jalüzlərinə səpələnmiş xırda ət parçaları gözlərim önündən getmirdi. Gözlərimi yuman kimi o səhnələri görməyə başlayırdım. Xalam dayanmadan ağlayır, özünü ələ ala bilmirdi. İlahə yavaş-yavaş danışmağa başladı. Həmin ikimərtəbəli ev həkim qonşularının imiş. Özləri Tehrana köçmüş, evi yoxsul bir ərəb ailəsinə vermişdilər ki, həm özləri qalsınlar, həm də evə baxsınlar.

Bildim ki, o qədər ət və dəri beş-altı nəfərlik ailənin bədən üzvləri imiş. O ailədən qalmış yeganə bəlli orqan həmin bir tikə bel parçası idi. Yanmış ət iyi və barıt tüstüsü başıma dolmuşdu. Ürəyim bulanırdı. Bir tərəfə çəkilib qusmaq istəyirdim. Halım pis idi, boğazım göynəyirdi. Bundan sonra özümü belə səhnələrə hazırlamalı olduğuma inana bilmirdim. İstəsəm də, istəməsəm də müddəti məlum olmayan qorxunc bir mərəkənin düz ortasına düşmüşdüm.

Başımıza nə gəldiyini yavaş-yavaş anlamağa başlayırdıq. Öz-özümə fikirləşirdim ki, mən necə öləcəyəm: qəlpə dəyəcək, yoxsa top mərmisi bütün bədənimi parça-parça edəcək; tək öləcəyəm, yoxsa bu yazıq ailə kimi hamımız birgə öləcəyik?..

Beynimdə min cür cavabsız sual dolaşırdı. Arzu etdim ki, kaş elə öləydim ki, cəsədim sağlam qalıb tanınaydı. Cəsədimin tanınmaz qalacağını, heç kimin mənim kim olduğumu bilməyəcəyini düşünəndə pis olurdum. Cənnətabaddakı məzarım barədə fikirləşirdim: Görəsən, məni harada dəfn edəcəklər? Qəbrim kimin qəbrinin yanında olacaq?

Hadisədən çox keçməmiş qapı möhkəm döyüldü. Xalam qapıya qaçdı. Hərəsi bir maşınla iki pasdar gəlmişdi. Dedilər ki, tez evi boşaldıb came məscidinə gəlin. Xalam dedi: "Biz bir nəfəri gözləyirik. Siz gedin, biz özümüz gələrik".

Pasdarlar qəbul etməyib dedilər: "Burada bir nəfər qalsa, kifayət edər. Qalanı bizimlə gəlsin. Burada qalmanız əsla məsləhət deyil".

İlahə, xalam və uşaqlarla birgə pasdarlara qoşulub məscidə getdik. Fevziyə ilə Nahid isə anamla Şahnazı gözlədilər.

# Altıncı fəsil:

## *Came məscidi*

Came məscidində iynə atsan, yerə düşməzdi. Ailələr qorxu və həyəcan içində paltar və yataq boğçaları ilə məscidin həyətində və şəbistanında oturmuşdular. Əksəri yoxsul ailələr idi. Məsciddə qəribə haray-həşir vardı. Camaat çaş-baş qalmışdı, qorxu içində bu bəladan xilas olmağa yol axtarırdı. Nə məscid qalası yer idi, nə də evlərdə əmin-amanlıq vardı. Vəziyyətin nə vaxta qədər belə davam edəcəyi də bəlli deyildi. Balaca uşaqların ağlamaq səsi anaları təngə gətirmişdi. Yazıqlarda günah yox idi. Ata-analarının üzündən qorxu və iztirab yağırdı. Bəziləri ac idi, bəziləri həm də susuz. Ayaqyalın məscidin qarşısında dayanıb şəhərdən çıxmağa maşın axtaranlar da az deyildi.

Xürrəmşəhrin meri Əbdülrza Samei əhalini şəhərdən çıxarmaq üçün üç özüboşaldan yük maşını göndərmişdi. Qərara görə, heç kim özü ilə əşya aparmamalı, maşınlara imkan daxilində çox adam minib şəhərdən çıxmalı idi. Bu zaman Əhvazdan böyük bir yük maşını camaata buz gətirdi. Bir göz qırpımında buzlar boşaldı və yerini evlərindən didərgin düşmüş insanlar tutdular. Qadın, kişi və uşaqlar yer doluncaya

qədər maşına doluşdular. Hətta bəzilərinə yer olmadığından maşından sallandılar. Mat-məəttəl dayanıb zavallı insanlara baxırdım. Maşına minməkdən ötrü əlini tutmağa yer axtarır, bir-birinə yalvarırdılar. Onların maddi durumları, özlərinə görə iş-gücləri vardı, ancaq bir-iki günün içində hər şeylərini itirmişdilər. Əlbəttə, çoxları vətənlərini müdafiə etmək üçün qalmışdılar və bu tezliyə getmək fikrində deyildilər.

Məsciddə kişi və qadın bir-birinə qarışmışdı. O qədər adam nə edəcəkdi! Təbii ki, bir məscidə sığmazdılar, gec-tez onlar barədə bir şey fikirləşmək lazım idi. Sayları da hər an artırdı. Çoxları son bir-iki gündə əzizlərini itirmişdi, ağlaya-ağlaya üz-başlarına vurur, ağı deyirdi. Məktəb uşaqlarından, Quruculuq cihadında və yürüşlərdə fəallıq göstərən uşaqlardan bir neçəsini orada gördüm: Məhnaz Xaksarı, Xədicə Bazunu, Abbasilər ailəsini.

Anam Şahnaz, Fevziyə və Nahidlə birgə məscidə gəldi. Deyirdilər ki, atamı gətirməkdən ötrü bütün yollardan istifadə ediblər, amma razılaşmayıb. Anam məhəllənin boş və təhlükəli olduğunu nə qədər söyləsə də, atam deyirmiş: "Mən evimi bu asanlığa düşmənə təslim edə bilmərəm, burada qalıb onların qarşısını alacağam". Şahnaz deyirdi: "Nə qədər dedim ki, ata can, onların topları, raketləri var, şəhəri vururlar, axı sən bir tüfənglə onlara nə edəcəksən?! Qulaq asmadı ki, asmadı". Anama deyirmiş: "Bu qədər Ərəb Xalq Döyüşçüləri Komitəsinə bağlı münafiq qonşu ola-ola evimi necə qoyum gəlim?!" Şahnaz deyirdi: "İki saat çənə vurandan sonra evdə tək qalmayıb stadiona, yaxud Şələmçəyə digər qüvvələrin yanına getməyə razı saldıq. Qərara gəldik ki, hərdən də evə baş çəksin".

Məryəm xala həkimin evinə top mərmisinin düşdüyünü anama danışdı. Hər ikisi çox ağladı. Fevziyə ilə Nahid günorta yeməyindən qalmış balıqları da qızardıb məscidə gətirmişdilər.

Uşaqlar ac idilər. Mən güc-bəla ilə bir-iki tikə yeyə bildim. Əsla iştahım yox idi.

Axşam namazlarımızı məsciddə qıldıq. Məscidin Mahmud Fərruxi, atası Hacı Əli Fərruxi, Sabuni, Məşədi Məmməd və Abdulla Məhəmmədi kimi etibarlı icma üzvləri qadın və kişiləri bir-birindən ayırmağa başladılar. Hər halda, məscidin hörməti qorunmalı, məhrəm və naməhrəm bir-birindən ayrılmalı idi. Rəna Nəccar, İlahə, Şahnaz və Fevziyə ilə birgə xanımları bir kənara çəkdik. Sonra əşyalarını yanlarına daşımağa kömək etdik. Qadınları məscidin içinə apardıq, kişilərə isə həyətdə yer verdik. Axşam saat ondan sonra düşmən artıq şəhəri çox az vururdu. Axşam məsciddə olan hay-küy də azaldı, hərdən əzalı insanların ağlamaq və zarımaq səsi gəlirdi.

Yatmağa məscidin şəbistanına getdik. Muna anamdan yapışmışdı, atamı istəyirdi. Anam o qədər hövsələsiz idi ki, onu sakitləşdirə bilmirdi. O, gah susayırdı, gah acırdı, gah da tualetə getmək istəyirdi. Atam, Salehə və Əlidən başqa hamımız bir yerdə idik: Abbas, Möhsün, Muna, Şahnaz, Fevziyə və mən. Yerimiz dar idi, yan-yana mehriban tərzdə yatmağa məcbur idik. Məryəm xala ilə uşaqları da yanımızda idilər. İlahə mənim yanımda uzandı. Danışmağa bir dünya sözümüz vardı, amma heç birimiz dinmirdik. Bir neçə dəfə oyan-buyana çevrildik. Gözlərimi zorla bağlayıb yatmağa çalışdım. Sabah məni nə gözlədiyini bilmirdim, amma son iki günün təcrübəsi deyirdi ki, bizi qarşıda tələtümlü günlər gözləyir.

Anam sübh azanından qabaq məni çağırdı. Dəstəmaz almaq üçün tualet növbəsində çox gecikdim. Məscidin imkanları o qədər adama kifayət etmirdi. Azan verildi. Hamı namaza oyandı. Sübh namazını tək halda qıldılar. Hava işıqlanandan sonra Məryəm xala dedi ki, ağa Gəllədarigilə gedək. O, Hicab əminin qohumlarından idi. Hicab əmi gecəni öz evində qalmışdı. Gəllədari səhər xalamgili öz evlərinə səhər yeməyinə

aparmağa getmiş, o da demişdi ki, uşaqlar gecəni məsciddə qalıblar. Hər ikisi məscidə Məryəm xalanı və uşaqları aparmağa gəlmişdi.

Xalamgillə birlikdə Gəllədarinin məscidin yaxınlığında yerləşən evinə getdim. O qaçhaqovda haradansa aşla həlim tapmışdılar. Birinci tikəni ağzımıza qoymamış atəş və partlayış səsləri gəldi. Partlayış səsləri əvvəlcə uzaqdan gəlirdi, sonra isə get-gedə yaxınlaşdı.

Bir az sonra ev bərk bir gurultu ilə titrədi, həyətdən qəlpə və kərpic qırıntılarının səsi gəldi. Cəld küçəyə qaçdıq. Biri ayaqyalın, birinin ayaqqabısının bir tayı ayağında, bir tayı əlində qaçırdı. Bədənimiz əsirdi. Partlayış səsi o qədər yaxından gəlmişdi ki, əvvəlcə elə bildik, raket bizim həyətə düşüb. Lakin bizdən yandakı evə dəymişdi.

Xoşbəxtlikdən, ev boş imiş, partlayışdan heç kim ölmədi. Artıq ora da təhlükəsiz deyildi. Şahanə süfrəmizə əl vurmadan məscidə qayıtdıq. Ağa Gəllədarinin ailəsi də bizimlə gəldi. Anam məscidin arxasındakı Səfa bazarından qaymaq almış, samovarı yandırıb çay dəmləmişdi. Səhər yeməyi yedikləri yerdə gəldik. Hadisəni onlara danışıb biz də səhər yeməyi yedik. Hicab əmi həmin gün qərara gəldi ki, xala ilə uşaqları Sərbəndərə qardaşı oğlugilə göndərsin. Deyirdi ki, daha burada qalmaq mümkün deyil. Ailələrindən buna etiraz edən yeganə şəxs İlahə idi. O, Xürrəmşəhrdən getmək istəmirdi. Bizim getmədiyimizi görüb ürəkləndi, xalamla Hicab əmiyə yalvarmağa başladı ki, qalmasına icazə versinlər. O qədər yalvardı ki, axırda atası xalamgili Sərbəndərə qoyub qayıdana qədər yanımızda qalmasına icazə verdi. Hicab əmi xalam, uşaqlar və Nəccar ailəsi ilə birgə Sərbəndərə yola düşdü. Nəccar ailəsi Hicab əminin ata tərəfdən qohumu idi.

Məscidin radiosu 24 saat açıq idi və səsucaldandan yayımlanırdı. Abadan radiosu hər 10-15 dəqiqədən bir

proqramını saxlayıb həyəcan siqnalı verirdi. Birdən diktor dedi: "Əziz bacı və qardaşlar! Lütfən bundan sonra hamınız qırmızı vəziyyətin davam etdiyini unutmayın. Bu şəraitdə daha ağ vəziyyət elan olunmayacaq!"

Bir gün öncədən korpus qüvvələri bütün şəhər əhalisini məscidə toplamışdı. Səhər yeməyindən sonra İlahə və sinif yoldaşım Məhnaz Xaksarla danışdığım yerdə birdən məscidin yaxınlığından partlayış səsi gəldi. Kömək etmək üçün üçümüz də hadisə yerinə qaçdıq. Toz-torpaq və tüstü yatandan sonra bildik ki, ev boş imiş, heç kim xəsarət almayıb. Yenidən məscidə qayıtdıq.

Məscidin yanında təxminən otuz yaşlı bir gənc kiminsə yaralanıb-yaralanmadığını soruşdu. Dedik ki, heç kim yaralanmayıb. Məscidə girdik. Dostlarının Xəlili çağırdıqları həmin gənc məscidin həyətində, şəbistanın girişinə yaxın bir yerdə parçadan bir otaq düzəldib içinə çarpayı qoydu. Geyimi və zahiri görkəmi inqilabçı uşaqlara oxşamırdı. Sonralar bildik ki, adı Xəlil Nəccardır. Ucaboy, qarabuğdayı gənc idi, sıx qara bığı, nisbətən uzun qıvrım saçı vardı. Daha çox inqilabdan öncəki gənclərə bənzəyirdi. Yanında Keşvər adlı gənc bir qız da vardı, təkərli kiçik masanı çarpayının yanına sürürdü. Masanın üstündə bir neçə nikelli qab vardı, bəzisinin qapağı vardı, bəzisinin yox. Qapaqlı qabların içinə spirtli pambıq qoymuşdu, digərlərinə isə bir neçə qayçı və kiçik maqqaş. Qıza yaxınlaşıb salam verdim, özümü təqdim edib soruşdum: "Bunları nə üçün bura gətirmisiz?" Dedi: "Xəlil bu avadanlıqları işlədiyi klinikadan yaralılara yardım göstərmək üçün gətirib".

İdeyasını bəyəndim. Məscidin həyətində dayanıb danışdığımız yerdə dörd-beş hicabsız qadın və üç-dörd kiçik uşaq ayaqyalın, başıaçıq, üst-başları qanlı və torpağa bulaşmış halda qışqıra-qışqıra məscidə girdi. Görünür, evləri bombalanmışdı, canlarını güclə qurtarmışdılar. Yalnız bir neçə

yüngül yaraları olsa da, qışqırıqlarından bəlli idi ki, çox qorxmuşlar. Onları bir tərəfdə oturtduq. Bir nəfər gedib su gətirdi, üz-başlarına su vurduq, bir az da içməyə verdik. Sonra şəbistandakı qadınlardan bir neçə yaylıq alıb başlarına örtdük. Xəlil Nəccar da əl və üzlərindəki yüngül yaralarını sarıdı. Təxminən yarım saata sakitləşdilər.

Heç bir nəqliyyat vasitəsi Xürrəmşəhrdən boş çıxmırdı. Minik və yük avtomobillərinin hamısı adamlarla və zəruri əşyalarla dolu gedirdi. Maşın tapmayanlar da Abadana doğru piyada baş alırdılar. Acınacaqlı səhnələr idi, bir neçə gün öncəyə qədər firavan həyat sürmüş insanlarla dolu bir şəhər birdən-birə bütün gözəlliyini itirmişdi. Hara baxırdımsa, ya uçmuş, dağılmış evlər görürdüm, ya da qaçan insanlar. Heç kim bir dəqiqədən sonra başına nə gələcəyini bilmirdi. Belə tələsik və həyəcanla yurd-yuvalarını tərk edib şəhərdən qaçan insanların harasa salamat çatıb-çatmayacaqları da bəlli deyildi. Şəhəri qatı tüstü bürümüşdü. Abadanın neftayırma zavodu və neft anbarları yanırdı.

İlahə ilə şəbistanda oturmuşduq. Birdən bir neçə nəfər toz-torpaq içində qaça-qaça özlərini məscidə yetirdilər. Aralarında təxminən əlliyaşlı bir kişi də vardı. Çox pərişan idi, qorxudan rəngi qaçmış 10-12 yaşlı qızın əlindən tutmuşdu. Məhnaz həyəcanla onlara yaxınlaşıb qışqırdı: "Nə olub?"

Kişi Məhnazın atası, qız da bacısı idi. Məhnaz ikinci gündən məscidə gəlmiş, atası ilə kiçik bacısı isə evdə qalmışdı. Anaları bir neçə il öncə dünyasını dəyişmişdi. Məhnazın atası dedi: "Evimizin yanını vurdular, biz də bura gəldik".

Yalnız partlayış dalğasına görə bir qədər qorxmuş, xəsarət almamışdılar. Məhnazın bacısı gözəl qız idi, açıq rəngli axan saçı belinə çatırdı. Zavallı qorxudan tir-tir əssə də, o halda tez-tez bacısına deyirdi: "Saçım naməhrəmlərə görünür, başıma bir şey bağlaya bilmədim".

Məhnaz onu qucaqlayıb əzizlədi. Tez çadramı çənəmin altında düyünlədim, yaylığımı başımdan açıb onun başına bağladım. Məhnazın atası özünə gələndən sonra qızları məsciddə qoydu, özü isə nə baş verdiyini öyrənmək üçün məhəllələrinə qayıtdı. Mən də məsciddən bayıra çıxdım. Müsəddiq xəstəxanasına baş çəkmək, əlimdən gələn köməyi etmək istəyirdim. Bir qədər yaralıları yerbəyer etməyə kömək edib yenidən məscidə qayıtdım. Bir yerdə qərar tuta bilmirdim. Qayıdanda İcra hakimiyyətinin qabağında bir SUV avtomobili dayanmış, içində iki nəfər oturmuşdu. Kənardakı döyüşçülərin birindən maşının kimə məxsus olduğunu soruşdum. Dedi ki, Bəni-Sədrindir, iclasa girib.

Bəni-Sədrdən heç xoşum gəlmirdi. Yaşım və təcrübəm çox olmasa da, onun Xürrəmşəhr hadisələri zamanı laqeydliyini hiss edirdim. Korpus uşaqları sərhəddəki hərəkətlik barədə bir müddət öncədən ona məlumat vermiş, amma hər dəfə belə cavab eşitmişdilər: "Həll edəcəyik". Hansı həll?! O qədər gözlədilər ki, Səddam hərbi hazırlığını tamamlayıb ölkəmizə hücum etdi. Heç indi də bir neçə təyyarənin gəlib İraq artilleriyasını vurmasını əmr edə bilmirdi.

Məsciddə uşaqlara yaxınlaşıb vəziyyəti soruşdum.

Bəni-Sədrin Xürrəmşəhrə gəldiyini hamı bilirdi. Uşaqların biri dedi: "Bəni-Sədr söz verib ki, üç günə Quçan artilleriyasını Xürrəmşəhrə göndərəcək!"

Bundan rüsvayçı söz ola bilməzdi. Əsəbimdən gülə-gülə dedim: "Görəsən, özünü ələ salıb, yoxsa bizi?! Ya həqiqətən, heç nə anlamır, ya da özünü anlamazlığa vurub. Quçan artilleriyası yırğalana-yırğalana 1000 km yolu gəlincə Xürrəmşəhrdən əsər-əlamət qalmayacaq. Özü də beş gündən sonra yadına düşüb ki, Quçan artilleriyasını göndərmək lazımdır?! Dezfulun aviabazasından üç-dörd təyyarə qaldırıb Xürrəmşəhrin yaxınlığındakı düşməni bombalaya bilmir?!"

Nahid adlı bir qız vardı, soyadı yadımda deyil. Bəni-Sədrin tərəfdarlarından idi. Mənim sözlərimi eşidib qıpqırmızı oldu, acıqla dedi:

-Ey! Sabah xanım! Mətbəx uşaqları deyirdilər ki, Bəni-Sədr Dara üslubu ilə vuruşmaq istədiyini bildirib. Deyib ki, əvvəlcə düşməni öz torpaqlarımıza buraxacağıq, sonra hər tərəfdən mühasirəyə alıb məhv edəcəyik!

Dedim:

-Əgər güclü ordumuz olsaydı, hərbi baxımdan hazırlıqlı olsaydıq, bəlkə də bunu düşünmək olardı. Lakin Nojə çevrilişindən, zastava və qarnizonlar boşaldıqdan sonra düşmənin öz torpaqlarımızda mühasirəyə düşməsinin nə mənası var?!

Daha bir söz demədi. Şərait elə idi ki, Bəni-Sədri bundan artıq müdafiə edə bilməzdi. Mətbəxdə işləyən uşaqların çoxu Bəni-Sədrin mənasız sözlərindən hirslənmişdilər.

***

Sentyabrın 26-da Hicab əmi ilə Məryəm xala getdi. Axşam hamı məsciddə müharibədən danışırdı. Şələmçə və Hüdud zastavaları işğal olunmuş, Dej qalası mühasirəyə düşmüşdü, neft anbarları partladılmaq üzrə idi. Düşmən bir gün öncəyə qədər Ərayiz bəndinin arxasına qədər irəliləmişdi və yerini bərkidirdi. Bu gün də Xürrəmşəhr Yol polisinin binasının önünə gəlmişdi. Bu o demək idi ki, şəhər mühasirədə və süqut təhlükəsi altındadır. Kömək gəlməsəydi, Xürrəmşəhrin və əhalisinin başına Allah bilir nələr gələcəkdi!

Məsciddə Zeynəb xanımla tanış oldum. O, ölüyuyan idi, Cənnətabad məzarlığında işləyirdi. Ucaboy və qarabuğdayı qadın idi. Son bir-iki gündə arabir məscidə gəldiyini görmüşdüm. Məsciddən özünə və Cənnətabadda onunla işləyən yoldaşlarına yemək aparırdı.

Şəhərdə qalan ailələr evlərinin şüşələrinə çarpaz şəkildə yapışqan lent vurmuşdular ki, partlayış baş versə, şüşə qırıqları başlarına tökülməsin. İlk bir-iki gündə elektrik enerjisi vardı, üçüncü gündən isə həm su, həm elektrik enerjisi fasilələrlə verilməyə başladı. Allahın ümidinə qalmışdıq. Mövcud vəziyyət barədə doğru-düzgün məlumat verən də yox idi. Ümumiyyətlə, korpus uşaqlarının nə etdiyini bilmirdik. Hicab əmidən eşitdiyimiz son xəbər doğru olsaydı, o demək idi ki, uşaqlar Şələmçədən geri çəkilib Mömini zastavasında mövqe seçmişlər. Məsciddə qalanların da yardıma ehtiyacları vardı. Yemək məsələsində çətinlik çəkirdik. Bu qədər adamın səhər, günorta və şam yeməkləri haradansa təmin olunmalı idi. Bu vəziyyətdə çox davam gətirə bilməzdik. Əgər bir şey fikirləşməsəydik, bir-iki gün ərzində camaat bir-birinin canına düşərdi.

Hər ailə öz yeməyi barədə düşünürdü. Seyf bazarına gedib hələ bağlanmamış tək-tük mağazalardan bir şey alıb məscidə gətirir, birlikdə yeyirdik. Ancaq sonra çoxları heyvanlarını məscidə gətirib qaçqınlara, evsiz-eşiksizlərə verdi. Gündə onların bir neçəsini kəsib məsciddəkilərə yemək bişirməyə başladılar.

Qeyri-bərabər döyüş gedirdi. Şəhər düşmən artilleriyasının atəşi altında idi. Ailəmiz Xürrəmşəhrdə qalmaq qərarına gəlmiş və came məscidinə yerləşmişdi. O vaxta qədər topladığım təcrübələrdən istifadə etməyin vaxtı gəlmişdi; tibbi yardım kurslarından öyrəndiklərimdən tutmuş İslam Təbliğatı Komitəsinin dini və etiqadi dərslərində öyrəndiklərimə qədər. Onların hamısını həyata keçirmək zamanı idi. Fikirləşdim ki, boş əllə olsa belə, İslamı müdafiə etmək üçün şəhərdə qalacaq, ən yaxşı və ən yüksək göstərici ilə fəaliyyət göstərəcəyəm. Bu barədə İlahə və Məhnazla məsləhətləşdim. Üçümüz də eyni fikirdə idik. Şəhərimizin müdafiəçilərinin yükünü qismən də

olsa, azaltmalı idik. Bu təfəkkür şəhərdə ilk üçnəfərlik tibbi yardım komandasının yaranmasına səbəb oldu.

Son bir-iki gündə şəhərdə bir yaralı görən kimi maşın tapıb xəstəxanaya göndərirdik. Lakin Xəlilin gətirdiyi ilk tibbi yardım avadanlıqlarının köməyilə yüngül yaralıları məsciddə müalicə etmək olurdu. Buna görə qərara gəldik ki, yaralıları məscidə aparaq, orada tibbi yardım göstərə bilsək, heç, göstərə bilməsək, üçümüz bir yerdə xəstəxanaya aparaq.

O gündən sonra məscidin ətrafında baş verən hər bir partlayış zamanı İlahə və Məhnazla birgə hadisə yerinə ilk biz gedirdik. Milanilər, Firdovsi və İmam Xomeyni prospektlərindən tutmuş Seyf və Səfa bazarlarına və Ordibehişt meydanına qədər hər yerə gedirdik. Partlayış baş verməyəndə də məsciddə qalıb əlimizdən gələn köməyi edirdik; məscidi süpürür, qabları yuyur, yemək paylayırdıq.

Sentyabrın 28-də Fars vilayətinin Quruculuq cihadı Cəzayiri adlı bir nəfərin rəhbərliyi ilə Xürrəmşəhrə yeddi-səkkiz yük maşını ərzaq gətirdi. Camaat əl-ələ verib tez bir zamanda maşınları boşaltdı. Maşının yükü çərəz, quru çörək, düyü, pendir və qarpızdan ibarət idi. Hamısını məscidin ikinci mərtəbəsinin dəhlizinə yığdılar. Ərzaq maşınları gələndən sonra məsciddə canlanma yarandı. O şəraitdə nəhayət, kimlərinsə bizi düşündüyünü bilib ümidvar olduq. Yük maşınlarını yenicə boşaltmışdıq ki, bir yaralı gətirdilər. Baldırına qəlpə dəymişdi. Xəlil Nəccar çox soyuqqanlı şəkildə maqqaşla qəlpəni çıxarmağa başladı. O, maqqaşı yaranın içində fırladırdı ki, ucu ilə qəlpəni tutub çıxara bilsin. Bütün bu müddətdə yaralı ağrıdan yeri cırmaqlayırdı, alnından tər axırdı, amma o qədər səbirli və mənəviyyatlı idi ki, qışqırmaq əvəzinə yavaşca "Allahu-əkbər" deyirdi.

Bu səhnəni görüb çox narahat oldum. Bilmirəm Xəlilin buna necə ürəyi gəlirdi. Fikirləşirdim ki, kaş işi tez bitəydi, yazıq da

əzabdan qurtulaydı. Qəlpəni çıxarandan sonra yerinə bir neçə tikiş atdı. Bir neçə dəqiqədən sonra yaralı nisbətən sakitləşdi.

Yavaş-yavaş Nahid Ahənkub və gəlinləri İsmət Canbozorgi kimi uşaqlar da bizə qoşuldular. Nahid Əhvazın Cündi-Şapur universitetinin riyaziyyat fakültəsində tələbə idi. Uzun, arıq qız idi, gözəl gözləri vardı. Bilqeys Məlikianla da məsciddə tanış oldum. Məndən altı yaş böyük, sakit və azdanışan qız idi, ibtidai məktəbdə müəllimə işləyirdi. Pozitiv aurası vardı. Hamının əsəbləri gərgin olanda da çox sakit və gülərüz idi. Onunla oturub söhbətləşmək adama yaxşı təsir bağışlayırdı.

Sinif yoldaşlarımdan Əşrəf Fərhadini də orada gördüm. Sonuncu sinifdə onunla bir yerdə oxumuşduq. O da gümrah, fəal və gülərüz qız idi. İncə olsa da, cəld və zirək idi. O məni əmisi qızı Zöhrə ilə tanış etdi. Zöhrə bizdən təxminən beş-altı yaş böyük idi, ucaboy, arıq qız idi. İri gözləri üzünü gözəlləşdirirdi. Bir neçə gün idi onu Əşrəflə məsciddə görürdüm. Zöhrə sakit və həyalı olmaqla yanaşı, ağır təbiətə malik idi, heç vaxt yüngüllük etməzdi.

Məscidin yeməkxana və çayxanası icma üzvlərindən Süleymaninin, Hacı Səfanın, Fərruxinin, həm də Xürrəmşəhrin ən böyük parçasatanlarından olan Misbahinin nəzarəti altında ciddi fəaliyyətə başladı. Anam və bir neçə qadın könüllü şəkildə işə başlayıb məscidin həyətinin bir hissəsini mətbəxə çevirdilər. Anam məscidin çayxanasına rəhbərlik edirdi, Şahnaz, Fevziyə, Mənsurə adlı gənc bir qız və anası mətbəxtdə işləyirdilər. Şəhər get-gedə boşalırdı. Qalanlar əslində, getməyə bir yer tapmamışdılar. Hər halda, hamı bir neçə gündən sonra qayıtmaq ümidi ilə gedirdi. Çoxları, o cümlədən İlahənin qohumu Rəna qızıllarını da aparmamış, evlərinin paltar yuyulan yerində gizlətmişdi. Onlara görə, evləri hər yerdən etibarlı idi.

Qrad atəşləri və partlayış səsləri bir an da səngimirdi. Raketlərin çoxu boş evlərə düşürdü. Bəzən partlayışlarda ev sahibi, yaxud bir qonşu şəhid olur və ya yaralanırdı. Fikirləşirdim ki, məgər İraqın nə qədər silah-sursatı var ki, bir şəhəri belə dayanmadan vurur.[1]

Hər gün Müsəddiq xəstəxanasına baş çəkirdim. Əli və Salehədən hələ də xəbər yox idi. Qorxurdum ki, yaralanıb xəstəxanaya getmiş olarlar. Orada çox üzücü səhnələrlə rastlaşırdım. Əmin idim ki, o səhnələr ömrümün sonuna qədər yadımdan çıxmayacaq. Xəstəxananın dəhlizləri də yaralılarla dolu idi və yaralarından qan axırdı. Raket və mərmi qəlpələri həmyerlilərimin üz və bədənlərini parça-parça etmişdi. Həkimlər və tibb bacıları çaş-baş vəziyyətdə oyan-buyana gedir, hansı yaralıya baxacaqlarını bilmirdilər.

Qəlpə yarası xüsusi formada olurdu. Qəlpə dərini aparmırdı, kəsirdi. Onun güclü zərbəsi və həddən artıq istiliyi dəydiyi yerin dərisini qaraldıb yandırırdı. Qəlpə nə qədər böyük olsaydı, yara da bir o qədər dəhşətli olurdu. Bir dəfə xəstəxanada buduna böyük bir qəlpə girmiş bir yaralı gördüm. Qəlpənin təsirindən budunun həcmi üç dəfə böyümüşdü. Yarasının yanığı, qanaxması və iltihabı o qədər çox idi ki, hamının, hətta tibb işçilərinin də təəccübünə səbəb olmuşdu.

Camaat yüngül yaralıların çoxunu məscidə gətirirdi, orada yaralarını bağlayırdıq. Yüngül qəlpələrin çoxunu Xəlil ibtidai imkanlarla və bir maqqaşla çıxarırdı. O, ağır yaralıların qanaxmasını dayandırır, yaranı yuyurdu ki, xəstəxanaya çatdırılana qədər müəyyən tibbi yardım işləri görülmüş olsun.

Bir dəfə Müsəddiq xəstəxanasına yaralı aparanda Əlidən xəbər öyrənmək üçün morqa baxmaq istədim. Bu qərarı qəbul etməkdən ötrü çox əziyyət çəkdim. O vaxta qədər Əlini

[1] Sonralar Xürrəmşəhrdə əsir düşmüş bir iraqlının xatirələrində oxudum ki, Bəəs ordusu şəhərin işğalından ötrü 90 minaatan hazırlamışdı.

şəhidlərin arasında axtarmağa cəsarət etməmişdim. Daha ondan heç bir xəbər olmadığını gördükdə bu qərarı verməyə məcbur oldum.

Birinci dəfə olduğuna görə qorxub tək getmədim. Yaralı aparmaq bəhanəsi ilə Fevziyənin də mənimlə gəlməsini istədim. Mətbəxdə iş çox olsa da, Əli haqda bir xəbər öyrənə biləcəyimizi eşidəndə razılaşdı. Xəstəxanada xüsusi bir hadisə baş verməmişdi, hər tərəfdən qışqırıq səsi gəlirdi. Tibb bacıları bir an belə istirahət etmədən gecə-gündüz çalışdıqlarına görə çox yorğun idilər. Fikrim morqda qalmışdı. Belə bir qərara gəldiyimə özüm də inana bilmirdim.

Mən uşaqlıqdan ölüdən qorxurdum. Qorxurdum yox, dəhşətli dərəcədə qorxurdum. İkinci sinifdə oxuyanda bir dəfə Bürucerdə getmişdik. Cümə axşamı idi. Anamla İmamzadə Cəfər məzarlığına babamın qəbri üstə getdik. Fatihə oxuduğumuz zaman birdən çoxlu adamın bizə tərəf gəldiyini gördüm. Onlar ölmüş yaxınlarını dəfn etməyə gəlirdilər. O vaxta qədər gördüklərimdən fərqli olaraq, ölünün üzərinə çadır və ya parça çəkməmişdilər, kəfənə bükülü halda gətirirdilər. Ölü kök kişi olduğuna görə qohumlarının qolları üzərində yellənirdi. Bir anlığa bədənim titrəməyə başladı, tüklərim biz-biz oldu. Çox qorxsam da, ölüdən gözlərimi çəkə bilmədim, qəbrinin başına qədər baxdım. O gündən sonra hər "ölü" sözü eşidəndə eyni qorxunu yaşayırdım. Bu lənətə gəlmiş qorxunu aradan qaldırmağa çox çalışmış, amma bacarmamışdım. İndi isə nə olursa-olsun, morqu axtarmaqdan başqa yol olmadığını qəbul etməli idim.

Ayağımı morqa qoyduğum an heç vaxt yadımdan çıxmaz. Morqun işçisi içəri girməyə icazə vermirdi. Fevziyə ilə ona yalvardıq, dedik ki, çoxdandır qardaşımızdan xəbər yoxdur, bəlkə də şəhid olub və cəsədi buradadır. Nəhayət, qapını açdı. Ayağımı morqa qoyan kimi canıma yüngül titrətmə düşdü.

Bütün damarlarımın əsdiyini hiss edirdim. Ayaqlarımda addım atmağa güc yox idi. Buna baxmayaraq, hiss etdirmədən birtəhər içəri girdim.

Düşündüyümün əksinə olaraq, sıx-sıx yığılmış şəhid cəsədlərilə dolu kiçik zal idi. Dörd cərgə soyuducu, hər cərgədə üç siyirmə vardı. Şəhidləri siyirmələrə qoymuşdular. Ora normal xəstəxana şəraiti üçün hazırlanmışdı, müharibə şəraitində o qədər cəsəddən ötrü deyildi. Ölüdən qorxmaq bir yana, Əlinin meyitini tapmaq üçün görməli olduğumuz iş bir yana! Üst-üstə yığılmış cəsədlərin hər birinin üzünə baxmalı idik. Bütün vücudumu vahimə bürümüşdü. Fevziyə də morqa ilk dəfə girirdi, ancaq vəziyyəti məndən çox yaxşı idi. Dodaqaltı "Bismillah" deyib irəlilədim. Morqda hər cür cəsəd vardı: qadın, kişi, qoca, gənc... Hərəsi bir şəkildə şəhid olmuşdu. Cəsədlər arasında balaca uşaqları görmək ciyərimə od vururdu. O məsum uşaqların məzlumluğu bir başqa idi.

Bəzi şəhidlərin ağız və gözləri açıq, yumruqları düyünlü idi. Elə vəziyyətdə idilər ki, həqiqətən də "Allahu-əkbər" deyə-deyə dünyadan köçdükləri hiss olunurdu. Bəzilərinin zahiri görkəmi olduqca qorxunc olmuşdu: bədənlərində qanaxma və yara yox idi, amma qəribə tərzdə bükülüb burulmuşdu! İlk dəfə idi ki, belə bir şeylə rastlaşırdım. Onların üz və bədənlərinin hansı hadisə nəticəsində o günə düşdüyü bəlli deyildi. Sanki bədənlərində sümük yox imiş, parça kimi düyünlənmişdilər; nə üz öz yerində idi, nə sinə, nə də əl və ayaqlar.[1] Cəsədlərin geyimlərindən məlum idi ki, əksəriyyəti yoxsul insanlardır; kimsəsiz olduqlarına görə şəhərdə qalmış, bir yerə getməmişdilər. Əksər qadınların paltarları ucuz parçadan idi, əkin sahələrində işləməkdən əl-ayaqları qabar olmuşdu.

Ürəyimdə dua edirdim ki, raket və qəlpədən ölməyim. Raketlərin partlayış dalğası şəhidlərin paltarlarını parça-parça

[1] Tezliklə öyrəndik ki, onlar güclü partlayış dalğasına düşmüşdülər.

etmişdi. Öləndən sonra da kiminsə bədənimi görməsini istəmirdim. Arzu etdim ki, şəhid olacağamsa, güllə ilə şəhid olum.

Allaha şükür ki, Əlini cəsədlərin arasında tapa bilmədik. Morqun işçisinə təşəkkür edib qardaşımızın orada olmadığını bildirəndə dedi: "İstəsəniz, Cənnətabada da baş çəkin. Şəhidləri ora yuyub kəfənləməyə aparırlar. Bəlkə oradan bir xəbər öyrənə bildiniz". Fevziyəyə dedim ki, gedək Cənnətabada.

Cənnətabad məzarlığının yarımçıq divarı üstündən nərdələr düzülmüşdü. Qapıdan içəri girdik. Sağ tərəfdə müdiriyyət otağı vardı. Pərvizpur adlı bir nəfər ölülərin adlarını qeyd edirdi. Eşitmişdim ki, müharibə başlayandan sonra naməlum şəhidlərin şəklini çəkir, yaxud paltarından bir parçasını və ya üzük kimi bir nişan götürüb dəftərə qeyd edir, yaxınlarından kimsə gələndə göstərirlər.

Otağa girib Əlinin ad və soyadını söylədim. Pərvizpur dəftərinə baxıb dedi: "Yox, belə bir cəsəd almamışıq". Ürəyim sakitləşmədi. Dedim: "Bugünkü şəhidləri görə bilərəmmi? Bəlkə qardaşım bugünkü naməlum şəhidlərin arasındadır". Dedi ki, buyurun.

Məzarlığın yuyucu yeri müdiriyyətdən bir neçə metr aralıda yerləşirdi. Bir neçə otaqlı bir tikilidən ibarət idi. Ayaqlarım getmək istəmirdi, amma çarə yox idi. Fevziyə məndən cəsarətli idi; əlimdən tutdu, birlikdə içəri girdik. Şəhidləri bir otağa düzmüşdülər, növbə ilə yuyub kəfənləyirdilər. Orada 10-15 şəhid cəsədi vardı. Çox qorxsam da, Fevziyə ilə axtarmağa başladıq.

Otağın bir küncündə düyünlənmiş ağ və qanlı bir boğça vardı. Bir nəfər dedi ki, onu evlərin birində dağıntının altından çıxarıblar. Cəsəd o qədər parçalanmışdı ki, kəfənləmək üçün boğçaya bükməyə məcbur olmuşdular. Çox qorxdum.

Bədənimin tükləri biz-biz durmuşdu. Gördüyümə necə inana bilərdim?! Məgər bir insanın cəsədi bu günə düşə bilərdi?!

Digər şəhidləri də yoxladıq. Allaha şükür ki, Əli onların da arasında deyildi. Sevinclə kədər arasında qəribə bir hisslə Cənnətabad məzarlığını tərk etdik.

Sentyabrın 28-dən məscidin işləri qaydaya düşdü. Xorasandan İsa adlı 27-28 yaşlı gənc aşpaz mətbəxin məsuliyyətini üzərinə götürdü. Yaxşı bişir-düşürü vardı, o şəraitdə ən az imkanlarla çox yaxşı xörəklər bişirirdi. Qiyməplov, qiymə, mərciplov onun ən çox bişirdiyi xörəklər idi.

Bir dəfə şəhərdəki ev və mağazaların soyuducularından məscidə çoxlu balıq və toyuq gətirdilər. Onları gətirib bişirməsəydik, iylənib xarab olacaqdı. O qədər toyuq və balığı təmizləmək çətin idi, amma hər halda, baş tutdu. Xanımlardan Müin, Əfsanə, Pərvanə və Ənqali də mətbəxdə işləməyə başladılar. Əfsanə və Pərvanə Qazizadələr yaxşı və istiqanlı ailədən idilər, ataları hərbçi idi. Son bir neçə gündə ailələri Xürrəmşəhrdən getmiş, nə qədər israr etsələr də, bu iki bacı getməyib demişdi: "İmam Xomeyni "Qalıb müqavimət göstərin" - dediyinə görə qalacağıq".

Xanım Ənqali əslən Buşəhrdən idi, Xürrəmşəhrdə yaşayırdı. Özü deyirdi ki, uşağı olmadığına görə qardaşının uşağını götürüb böyüdüb. Qardaşı oğlu onda Quruculuq cihadında işləyirdi, bibisini məscidə kömək etməyə gətirmişdi.

Məscidin suyu üçüncü gündən tam kəsilmişdi. Kişilər hər gün maşınla çaydan su gətirirdilər. İlahə və digər qızlarla birgə çalışırdıq ki, imkan daxilində məscidin tualetinə getməyək. O qədər adamın gözləri önündə utanırdıq. Axşam yeddi-səkkiz nəfər toplaşıb özümüzlə su götürür, Xədicə Bazunun və ya Əşrəf Abbasinin yaxınlıqdakı evlərinə gedirdik.

Axşamlar məsciddə zülmət qaranlıq olurdu. İçəridən bayıra azca işıq düşən kimi dərhal vurmağa başlayırdılar. Buna görə

bütün pəncərələri adyalla örtmüşdük ki, fənər və lampalarla düşmənə hədəf verməyək.

Axşamlar Xürrəmşəhr səmasında İraq təyyarələri çoxalırdı, amma gecə saat ondan sonra vəziyyət bir qədər sakitləşir, düşmən artilleriyasının atəşi də azalırdı. Belə olanda məsciddən daha arxayın şəkildə çıxa bilirdik.

Bu bir neçə gündə həm bədənim, həm də paltarlarım çox çirklənmişdi. Tozlu və qanlı paltarlarım əynimdə ağac kimi bərkimişdi. İlk bir-iki gündə tibbi yardım zamanı yaralı və şəhidlərin bədənindən paltarıma qan sıçrayanda fikirləşirdim ki, özümü necə suya çəkib namaz qılacağam. Təyəmmümlə, qanlı və nəcis paltarlarla namaz qılmalı olduğumu qəbul edincə bir neçə gün çəkdi. Hamının vəziyyəti eyni idi. İçməyə suyu güclə tapırdıq, o ki qala hər gün yuyunmağa.

Yavaş-yavaş dırnaqlarımın altındakı qurumuş qana da alışdım. Bir neçə gün öncəyə qədər əl və dırnaqlarıma o qədər qulluq edirdim ki, misli yox idi. Dırnaqlarım həmişə uzun, cilalı və yaraşıqlı olurdu. Gözəl əllərim, uzun barmaqlarım vardı. İndi isə dırnaqlarımın altında qurumuş qanı yuyub-təmizləməyə də vaxtım yox idi. Xəlil Nəccardan öyrənmişdim ki, hərdən bir qədər savlon kremi və ya ağ spritlə əllərimi yuyub dezinfeksiya etməliyəm. Təkcə mən yox, bütün uşaqlar belə idilər. Vəziyyət o həddə çatmışdı ki, özümüzdən iyrənirdik. Belə bir vəziyyətdə kimsə hamama getməyi təklif etdi. Bu fikri hamımız bəyəndik. Qərara gəldik ki, İlahə, Şahnaz, Fevziyə, Əşrəf, Zəhra, Əfsanə, Pərvanə və Xədicə ilə birgə Xədicəgilə hamama gedək. Müharibənin ilk günündə, döyüş başlayandan bir neçə saat sonra Xədicənin anası hamamlarının vannasını doldurmuşdu ki, su kəsilsə, əziyyətə düşməsinlər. Xədicə vannaya kiçik bir qab qoyub dedi: "Uşaqlar, məncə, hərəmizə üç-dörd qab bəs edər. Ehtiyatla istifadə edin ki, hamı yuyuna bilsin".

Növbə ilə hamama girdik. Paltarlarımızı çıxarmağa cəsarət etmirdik. Həmin anda evə bir mərmi düşə və dağıntı altında çılpaq qala bilərdik.

Hamamda olduğum bir neçə dəqiqədə dayanmadan Ayətül-kürsi oxuyurdum ki, bir hadisə baş verməsin. Tələsik yuyunub ölüyə toxunma qüslü verdim və bayıra çıxdım. Çıxandan sonra Xədicə mənə boz dama-dama köynək verdi. Şahnazla Burda jurnalının üzündən tikdiyimiz köynəyi də günün altına qurumağa sərdim.

Mətbəxdə işləyən uşaqların paltarları bizimkindən təmiz idi. Onlar daha çox istidən və tərdən əziyyət çəkirdilər, paltarları bizimki kimi tozlu və qanlı olmurdu. Örpəklərimizi nəmli-nəmli başımıza örtdük. Bilirdik ki, bir neçə dəqiqəyə quruyacaq.

Yüngülləşdim. Bir neçə gün idi boynumda ölüyə toxunma qüslü vardı. Bundan başqa, Xürrəmşəhrin sentyabrı hələ çox isti idi. Normalda gündə iki dəfə duş qəbul edirdik, indi isə bir həftəyə yaxın idi bədənimizə su dəymirdi. Xədicənin və ailəsinin canına nə qədər dua etdik! Halımız çox yaxşılaşdı.

Paltarlarım çox tez qurudu. Götürüb geyindim və uşaqlarla məscidə qayıtdıq.

Məsciddə səliqəli geyinmiş ucaboy bir qadın mənə yaxınlaşıb söhbətə başladı. Əynində cins şalvar və uzun manto vardı, 27-28 yaşı olardı. Mənə dedi:

-Siz Vətənxahsız?

-Bəli.

-Salehə Vətənxahı tanıyırsız?

-Bəli, bacımdır. Nə olub ki?

-Mən Rəfiiyəm, liseydə bacının müəlliməsi olmuşam. İndi nə edir, halı necədir? Sizi ona oxşatdım, bildim ki, qohumusuz.

-Bəli. Allaha şükür, Salehə korpusda fəaliyyət göstərir. Cahanara onu Kutşeyxə göndərib.

Xanım Rəfii gündüzlər məscidə köməyə gəlir, gecələr evinə qayıdırdı. Uşaqlar deyirdilər ki, evləri Ordibehişt prospektində yerləşir. Onunla tanış olandan bir-iki gün sonra günorta evlərinə nahar yeməyinə gedəndə məni də dəvət etdi. Ondan nə üçün məsciddə hamı ilə birgə yemək yemədiyini soruşanda dedi: "Bu xörəklər döyüşçülərindir, nə qədər ki evdə özümə bir şey hazırlaya bilirəm, nə üçün məsciddə yeyim?!"

Sözləri çox xoşuma gəldi. Düşüncə tərzimiz eyni idi. Son vaxtlar bir neçə kq arıqlamışdım. Müharibə ab-havası, baş vermiş hadisələrin həyəcanı və döyüşçülərin fikri məni düz-əməlli bir şey yeməyə qoymurdu. Ağzıma bir tikə aparanda elə bilirdim ki, döyüş yerindəki uşaqların payını yeyirəm. Bu baxımdan, bacardıqca aclığa dözməyə çalışırdım. Həmin gün isə günorta namazına yaxın xanım Rəfiigilə getdik.

Dolaşan xəbərlərdən bilirdik ki, iraqlılar qərbdən şəhərə girmiş, təxminən Dizelabad meydanına qədər irəliləmişlər. Ordibehişt prospekti çox təhlükəli yer olan Taliqani məhəlləsinə yaxın idi. Lakin döyüşçülər mövqelərində ayıq-sayıq olduqlarına görə günorta çağı şəhərdə bir-iki saat gəzmək olurdu. Məsciddən qırxmetrlik prospektə, oradan da Ordibehişt meydanına getdik. Xanım Rəfiigilin evi prospektin ikinci küçəsində yerləşirdi. Evində gözəl bir tutuquşu vardı. Evə girən kimi tutuquşunun qəfəsini təmizləməyə başladı. O şəraitdə tutuquşu görüb həm təəccübləndim, həm də çox sevindim. Elə böhranlı durumda quşa qulluq etmək çətin idi. Xanım Rəfii quşun su və dənini dəyişdirib danışmağa başladı:

-Müharibə başlayanda evimizdə hamı Xürrəmşəhrdən getdi. Hüseyn və Əmir adlı iki qardaşım var, hər ikisi korpusdadır. Hüseyndən xəbərim var, amma müharibənin ikinci günündən bu yana Əmirdən heç bir xəbərim yoxdur. Yerini və vəziyyətini öyrənməkdən ötrü hər yerə baş çəkmişəm, elə bil, su olub yerə hopub.

Halını başa düşürdüm. Mən də qardaşım Əlidən xəbərsiz olduğuma görə narahat idim. Dedim ki, biz də neçə gündür döyüşçü qardaşımız Əlidən xəbərsizik.

Xanım Rəfii qazana bir-iki stəkan düyü töküb təmizlədi, çaydandakı bir qədər su ilə yuyub qazın üstünə qoydu. Dedi ki, düyü qaynayana qədər hamama girəcəyəm. Dedim ki, yaxşı, mən düyüyə baxaram.

Hamama girmək istəyəndə birdən İraq qırıcılarının səsi gəldi. Qırıcılar aşağıdan uçub şəhəri bombalamağa başladılar. Heyrət içində bir-birimizə baxdığımız yerdə tank səsləri eşitdik. Məgər bu, mümkün idi?! Məgər iraqlılar belə asanlıqla buraya qədər gələ bilərdilər?! Bir neçə dəqiqə ərzində bütün vəziyyət alt-üst oldu, evin divarları titrəməyə başladı. Qeyri-ixtiyari olaraq, əlimi şalvarımın ciblərinə apardım. Qumbaraların cibimdə olub-olmadığını yoxlamaq istəyirdim. Onları məscidin silah anbarından götürmüşdüm, əsirliyin bir addımlığına çatanda istifadə edim deyə. Düşmənin əlinə sağ keçmək istəmirdim.

Çox təəssüfləndim. Cibim boş idi. İlk dəfə idi məsciddən qumbarasız çıxmışdım. Fikirləşmişdim ki, Ordibehişt prospekti elə də uzaqda deyil, tez gedib-qayıdaram. Çox həyəcanlandım. İraqlıların əlinə keçsəydim, başıma nələr gələrdi!

Xanım Rəfii də mənim kimi fikirləşirdi. Həyəcandan gözləri bərəlmişdi. Görünür, məni özü ilə gətirdiyinə çox peşman olmuşdu. Hər an yaxınlaşan tankların səsi başıma düşürdü. Ürəyimdə bütün vücudumla Allahı səsləyir, Onu beş kimsəyə and verirdim ki, əsir düşməyim.

Xanım Rəfii tez qazı söndürdü, köməkləşib qaz balonunu sürüyə-sürüyə balkona çıxardıq. Tutuquşunun qəfəsini pilləkənin altına qoydum ki, evi vursalar, ona bir şey olmasın. Özümüzü müdafiə etmək üçün isə nə etməli olduğumuzu bilmirdik. Qaçıb mətbəxdən iki böyük bıçaq götürdüm. Birini xanım Rəfiiyə verdim, o birini də özüm əlimdə tutdum.

Düşmən qarşısında yeganə silahımız bu idi. İşə yarayıb-yaramayacağı əsla bəlli deyildi. Xanım Rəfiinin üzü ağappaq olmuş, dodaqları saralmışdı. Öz-özümə dedim ki, Sabah, qarşında güzgü yoxdur, yəqin sən də bu gündəsən!

Pilləkənin altında, tutuquşunun yanında gizlənib Allaha təvəkkül etdik. Qırıcıların və partlayışların səsi gəlir, ev beşik kimi yırğalanırdı. Təyyarələr gedəndən sonra tankların səsi daha yaxşı eşidildi. Orada təxminən yarım saat gözlədik. Tank səsləri uzaqlaşandan sonra ehtiyatla həyətə çıxıb vəziyyəti öyrənmək istəyirdim, amma xanım Rəfii qoymadı. Orada bir neçə dəqiqə də qaldıq, sonra yavaşca həyətə çıxdım. Sakitlik olduğunu görüb ehtiyatla qapını açdım, oğrun-oğrun küçəyə göz gəzdirdim. Nə ilə üzləşəcəyimi bilmirdim. Ətrafa baxdım. Birdən gözlərim küçənin başında dayanmış bir neçə hərbçiyə dikilib qaldı və dərin bir ah çəkdim.

Gec-tez əsirliyə hazır olmalı idik. Əl qumbaralarını gətirmədiyimə görə özümü lənətləyirdim. İraqlıların əlinə sağ keçmək istəmirdim. Bu barədə fikirləşdiyim yerdə gördüyüm səhnə bir anlığa yenidən təsəvvürümdə canlandı. Hərbçilər bizim əsgərlərin boz köynəyindən geyinmişdilər. Dərhal ürəyim sakitləşdi. Min bir ümidlə yenidən qapını açıb diqqətlə bayıra baxdım. Bəli, küçənin başındakılar öz döyüşçülərimiz idi. Deməli, səsi gələn tanklar da bizimkilər imiş. Qeyri-ixtiyari şəkildə gülümsəyib rahat nəfəs aldım, sonra evə qaçıb xanım Rəfiini səslədim: "Qorxma, öz tanklarımızdır. Tez gəl, məscidə qayıdaq".

Evdən məscidə qədər yolu necə getdiyimizi bir Allah bilir. Xanım Rəfiinin evi küçənin sonunda idi, döyüşçülərlə aramızda təxminən yüz metr məsafə vardı. Onlar bizi görmədilər. Bu, məsciddən son qumbarasız çıxışım oldu.

Başımıza gələnləri məsciddə danışmadıq. Xanım Rəfii mətbəxə getdi, mən də şəbistana Xəlil Məavinin yanına. Xəlil və

Abdulla Məavi qardaşları xürrəmşəhrli gənclər idilər, son bir neçə gündə məsciddə tanış olmuşduq. Onlar düşmənlə vuruşmaq üçün müxtəlif bölgələrə gedirdilər. Xəlilin 19, Abdullanın da təxminən 16 yaşı vardı. Xəlil dolu və qarabuğdayı, Abdulla isə arıq idi, günəşdən yanmışdı, göz-qaşı o qədər qara idi ki, elə bil sürmə çəkmişdi. Xəlil çox fəal, qardaşı isə bir qədər sakit idi. Abdulla döyüş məntəqəsindən təzə qayıtmışdı. Gördüm ki, köynəyinin arxasına nəsə yazır. Nə yazdığı diqqətimi cəlb etdi. Baxanda bu sözləri gördüm: "Ölüm xar olmaqdan yaxşıdır!"

Ona dedim: "Qardaşım, burada ölmürlər, şəhid olurlar".

Başını qaldırıb dedi: "Şəhadət də bir cür ölümdür".

Dedim: "Yox, bunlar başqa-başqa şeylərdir. Quranda deyilir ki, Allah yolunda qətlə yetirilənlərə ölü deməyin, onlar diridirlər və Allah yanında ruzilərdən bəhrələnirlər!"

Qane olub dedi: "Yaxşı, yazacam ki, şəhadət ölümdən yaxşıdır".

# Yeddinci fəsil:

## *Şahnazların şəhadəti*

Gecənin yarısından düşmən təyyarələri şəhəri bombalamağa başlamışdı. Məsciddə bir an da gözümüzü yuma bilmədik. Çoxlu yaralı gətirdilər. Xəlil bir dəqiqə belə bekar qalmırdı. Onun yanında idim, əlimdən gələn köməyi edirdim. Yaralı döyüşçülər Dej qarnizonunun süqut etməkdə olduğunu deyirdilər. Yeddi İraq tankı Xürrəmşəhr sərhədindən içəri girmişdi. Korpus uşaqları düşməni ləngitməkdən ötrü Xürrəmşəhr körpüsünü partlatmışdılar. Vəziyyət yaxşı deyildi. Şəhər işğal olunmaq üzrə idi.

İşimiz bir qədər azalandan sonra məsciddən çıxdım. Məscidin yaxınlığında məktəb uşaqlarından ikisini gördüm. Hər ikisi Xalq Mücahidləri Təşkilatının üzvü idi. Onlar daha çox Mərcanla və onun dostları ilə oturub-dururdular. Doğrusu, onları orada görüb təəccübləndim. Düşüncə və əməllərindən şəhəri müdafiə edənə oxşamırdılar. Onlarla görüşüb hal-əhval tutdum, harada olduqlarını, nə iş gördüklərini soruşdum. İndiyə qədər şəhərdə qalmaları maraqlı idi. Dedilər ki, uşaqların bir neçəsi ilə birgə came məscidinin yaxınlığında bir

hüseyniyyəyə yerləşiblər. Orada nə iş gördüklərini soruşanda dedilər ki, heç nə, uşaqlarla birgə şəhərin zibbilərini toplayırıq.

Əvvəlcə elə bildim ki, səhv eşitmişəm. Buna görə yenidən soruşdum: "Nə edirsiz?" Yenə dedilər: "Zibilləri toplayırıq".

Təəccübdən özümü saxlaya bilmədim, gülüb dedim: "Zibil toplayırsız?! Bu qaçhaqovda?! Bu qədər sahibsiz cəsəd yerdə qala-qala, siz zibil toplayırsız?! Bəs zibbilləri toplayıb nə edirsiz?"

Belə reaksiya gözləmirdilər. Qaşlarını çatıb dedilər: "Hər halda, bu da bir xidmətdir. Yerdə bu qədər zibil və heyvan leşi qalıb, bunları da kimsə toplamalıdır, yoxsa yox?!"

Bir tərəfdən Bəni-Sədrin boş sözləri, bir tərəfdən heç kəsin əl yetirmədiyi döyüşçü uşaqların qəribliyi, digər tərəfdən də bu uşaqların sözləri ürəyimə çox ağırlıq etməyə başladı. Xürrəmşəhri elə qərib və yalqız görməmişdim. Hamının yekdilliklə müdafiə barədə düşünməli olduğu bir vaxtda hərə bir hava çalırdı.

Xalq Mücahidləri Təşkilatının üzvlərinin bu vəziyyətdə zibil toplamaq məsələsi mənə şübhəli görünürdü və bilirdim ki, əhəmiyyətsiz məsələ deyil. Bu barədə danışmaq üçün məsciddə Mahmud Fərruxidən etibarlı adam tapmadım. Mahmud Xürrəmşəhrdə dini kitab mağazasının sahibi Hacı Fərruxinin oğlu idi. Kitab mağazasından əlavə, bir ümumi hamamları da vardı. Ağa Fərruxi Xürrəmşəhrin ən etibarlı və inqilabçı adamlarından biri idi. Mağazası Səfa bazarçasında yerləşirdi, oğulları Mahmudla Qasim də orada işləyirdilər.

Mahmudu ilk dəfə atasının mağazasında görmüşdüm; başıaşağı, utancaq, mömin oğlan idi. Qarabuğdayı gənc idi, bir gözü uşaq vaxtı zədələndiyindən görmürdü. Buna baxmayaraq, zirək uşaq idi. Şahnazla birgə onların mağazasına tez-tez gedib-gəldiyimizə görə bizi tanıyırdı. Səddamın hücumundan sonra came məscidinə gəldiyim ilk gündən onu da görür və "Qardaş

Mahmud" çağırırdım. Atası ilə birgə məscidə köməyə gəlmişdi. Onları tanıdığıma, düşüncə tərzləri ilə tanış olduğuma görə yaxınlaşıb Xalq Mücahidləri Təşkilatının uşaqlarının sözlərini söylədim və əlavə etdim: "Mümkünsə, gedib baxın, görün nə edirlər".

Mahmud diqqətli və sayıq adam idi. Onun bu xüsusiyyətini məsciddə olduğumuz bir neçə gündə hiss etmişdim. Bizimlə birbaş əlaqədə olmasa da, hər şeyə diqqət yetirdiyi bəlli idi. Sözlərimi dinləyib dedi: "Sabah bacı, sabah vaxt ayırın, birlikdə gedək, görək nə edirlər".

Nahid günortadan bu yana mənimlə ciddi davranırdı. Axşam namazından sonra məni bir küncə çəkib dedi: "Sabah, bilirsən ki, adın qara siyahıya düşüb?"

-Yox, bilmirdim. Qara siyahı nədir?

-Qara siyahıdakılar təhlükəsizlik baxımından problemli adamlardır. Qarışıqlıq qurtarandan sonra hərbi tribunalda mühakimə olunacaqsan.

-Yaxşı, bəs sonra nə olacaq?

-Heç nə, tribunalın qərarı ilə edam ediləcəksən. Prezident barədə dediyin sözlərə görə ölüm hökmün veriləcək.

Həm əsəbiləşdim, həm də məni gülmək tutdu. Öz-özünə nə fikirləşmişdisə, gəlib bu mənasız sözləri danışırdı. Çox soyuqqanlılıqla dedim: "Bax, Nahid can, məni nə ilə qorxutmaq istəyirsən?! Edamla?! Mən ölümdən qorxan olsaydım, burada qalmazdım. Kim bilir ki, bu şəraitdə bir dəqiqədən sonra sağ qalacaq, yoxsa yox?! Bu vəziyyətdə məni edamla, tribunalla qorxudursan?!

Bir söz demədən qulaq asırdı.

-Mən hələ də sözümün üstündə dururam. Cənab Bəni-Sədriniz ölkəyə xidmət yox, xəyanət edir!

"Xəyanət" sözünü eşidib günorta olduğu kimi özündən çıxdı.

-Yenə ağzına gələni danışırsan, Sabah! Sözlərinə diqqət et!

-Ürəyin necə istəyirsə, elə də fikirləşə bilərsən, Nahid xanım. Amma əgər gözlərini azca açsan, görərsən ki, bu adamın işləri, əlini əlinin üstünə qoyması xəyanətdən başqa bir şey deyil. Papağını qarşına qoy, fikirləş: Doğrudanmı yaxınlıqdakı bir şəhərin artilleriyasını göndərmək olmazdı?! Mütləq Xürrəmşəhrə ən uzaq şəhər olan Quçanın artilleriyasını göndərmək lazım idi?!

Heç nə deməyib naraht halda getdi. Yəqin fikirləşib ki, bir az da ağız-ağıza versə, iş daha da pisləşər, Bəni-Sədr barədə başqa sözlər də eşidər. Həmin gün də ötdü. Növbəti sabahları gözləməli idik.

***

Səhər tezdən qışqıraraq qaça-qaça məscidə gələn bir qadının səsinə həyətə çıxdıq. Qadın bir söz demədən həyətin ortasına qədər gəldi, sonra var gücü ilə özünü vurmağa başladı. Üz-başına vurur, saçını yolurdu. Onun yanına qaçdıq. Qəribə halda idi. Ürəkdən qışqırıb ağlayır, özünü vururdu. İki-üç nəfər onu saxlaya bilmirdik. Ürək yandıran qışqırtıları arasında hərdən deyirdi: "Vay, balam! Vay, balam!"

Bir qədər sonra yorulub tövşüyə-tövşüyə yerə oturdu. Bir daha ondan nə baş verdiyini soruşduq. Yumruqla sinəsinə vura-vura dedi: "Dünən axşamüstü evimizi bombaladılar, yeniyetmə oğlum yerindəcə şəhid oldu". Şəhər kiçik idi, demək olar ki, hamı bir-birini tanıyırdı. Onun hansı ailədən olduğunu öyrənmək üçün soruşdum: "Soyadız nədir?" Dedi: "Şəhidi". Sonra əlavə etdi:

-Qonşuların köməyi ilə uşağımın cəsədini Cənnətabada yuyub dəfn etməyə apardım. Orada cəsəd çox olduğundan dedilər ki, sizin uşağı həyətə qoyacaq, sabah kəfənləyib dəfn edəcəyik. Bu gün cəsədi təhvil almağa gedəndə təkcə başını qarşıma qoyub dedilər ki, axşam itlər bədənini tikə-tikə ediblər...

Qadın danışdığı yerdə yenidən halı pis oldu, ayağa qalxıb yenə qışqırmağa, üz-başına vurmağa başladı. Hamımız şok içində idik. Məgər belə bir şey mümkün idi?! Ağlamaqdan üzümüz islandı. Nə qədər edirdimsə, qadının danışdığı səhnəni təsəvvür edə bilmirdim. Yeniyetmə oğlunun şəhadətindən başlayıb, Cənnətabada qədər davam edir, gecəyə çatanda yenidən evlərinin partladığını və şəhid olduğunu təsəvvür edirdim. Sanki itlərin cəsədə hücum anında kimsə beynimin kasetini saxlayıb geri qaytarırdı. Mat-məəttəl bir-birimizə baxır, səssizcə ağlayırdıq. Qadına dedim: "Axı belə şey olar?! Bəlkə səhv edirsən, o baş sənin oğlunun deyilmiş?"

Qadın sözlərimə məhəl qoymur, dayanmadan şivən qoparıb uşağını səsləyir, deyirdi: "Yaraşıqlı bədənin üçün anan ölsün! Ay kimi üzün üçün anan ölsün!"

Deyəsən, uşağının üzünü görmüşdü, oğlu olduğuna əmin idi.

Hələ bu hadisənin şokunda ikən ucaboy və qarabuğdayı bir gənc qadın da məscidə girdi. Girişdə dayanıb ətrafa baxdı, ağlayan qadının başına yığışmış kişilərə yaxınlaşdı, çox cəld şəkildə, şəxsi heyətə baxış keçirən zabit kimi bir-bir kişilərin üzünə tüpürüb qışqırmağa başladı:

-Bişərəflər! Binamuslar! Biqeyrətlər! Nə üçün hamınız məscidə toplaşmısız? Arvad-uşaqlarınızın başına yığışmısız ki, al arvadı onları boğmasın?! Əlinizə silah götürüb camaatın cəsədlərini quduz itlərdən qorumaq yerinə burada gizlənmisiz. Qeyrətiniz hanı?! Bir yerə yığışmısız, camaatın başına nə gəldiyindən xəbəriniz yoxdur! Adızı da kişi qoymusuz. Gedin bığ-saqqalızı qırxın, arvadların içində oturun...

Qadın qışqırdıqca əsəbiləşir, həyəcanlanırdı. Dil-dodağı qurumuş, rəngi qaçmışdı. Heç kim qadının təhqirlərinə cavab vermirdi. Məncə, ananın sözlərinin şokundan çıxmamışdılar. Qadın o ananın başına gələn hadisəni haradansa öyrənib məscidə gəlmişdi. Gənc qadın o qədər gileylənib danışdı ki,

axırda bədəni titrədi, qıc oldu və yerə yıxıldı. Gözləri bir yerə dikilib qalmışdı, ağzından ağ köpük gəlirdi. Tez onu böyrü üstə uzatdıq, məsciddəkilərdən birinin çantasının ipini qoparıb dişlərinin arasına qoydum. Bunu tibbi yardım kurslarında öyrənmişdim.

Ümumilikdə pis bir söz deməsə də, məscidə hörmətsizlik etdiyinə, ağzının suyunu atdığına və kobud ifadələr işlətdiyinə görə ondan əsla xoşum gəlmədi. Özünə gələndən sonra uşaqlar adını soruşdular. Dedi ki, adım Zəhradır, Xürrəmşəhrdənəm. Bu bir neçə gündə harada olduğunu soruşanda dedi: "Harada partlayış baş verirdisə, ora gedir, cəsədləri toplayıb Cənnətabada aparmağa kömək edirdim. Axşamkı hadisəni eşidəndən sonra daha özümü saxlaya bilməyib bura gəldim".

Məscidin telefonçusu, qarabuğdayı və qıvrımsaç İbrahimi bəzən mikrofonla elan edirdi ki, məsələn, Cənnətabadda şəhidlərin dəfni üçün parçaya ehtiyac var və sair. Lakin heç vaxt oraya qarovulçu lazım olduğunu bildirməmişdi. Ardıcıl partlayışlar nəticəsində heyvanların tikə-tikə olduğuna və şəhid qanlarının iyinin yayıldığına görə itlərin quduzlaşıb sahibsiz meyitləri yeməsi gözlənilən idi. Belə bir hadisənin necə baş verdiyini isə heç cür təsəvvür edə bilmirdik.

Qərara gəldik ki, qadın sakitləşəndən sonra uşaqların biri oğlunun cəsədinin qalığını dəfn etmək üçün onunla Cənnətabada getsin, sonra onu digər qaçqınlarla birgə şəhərdən çıxarsınlar.

Sonralar Zəhra bizə danışdı ki, heç kimin əl vurmağa cəsarət etmədiyi parça-parça olmuş ən qorxunc cəsədləri toplayıb Cənnətabada aparırmış. Artıq hamı bilirmiş ki, harada belə bir cəsəd görsələr, ona xəbər vermək lazımdır. Sonralar onun şəklini bir jurnalda gördüm, dağıntıların altından üç-dörd yaşlı bir uşağın yarımçıq cəsədini çıxarıb kameranın önünə tutmuşdu.

Bu iş getdikcə Zəhranın əhval-ruhiyyəsində mənfi təsir buraxdı, onu olduqca aqressiv birinə çevirdi. Bəzən çox kiçik bir məsələ üstündə özündən çıxıb qışqırır, söyməyə başlayırdı. Buna görə yavaş-yavaş Şər Zəhra ləqəbilə məşhurlaşdı.

Günorta döyüşçülərin biri korpus geyimində məscidə gəlib yemək bişirilən yerə getdi. O, döyüşçülərə yemək aparmaq istəyirdi. Yazıq sözünü deyər-deməz məscidin aparıcı şəxslərindən və Xürrəmşəhrin tanınmış tacirlərindən olan bir nəfər hirslə qışqırıb dedi: "Xeyr, ağa, burda sizə verməyə bir şeyimiz yoxdur. Bu yeməklər öz döyüşçülərimiz üçündür. Sizin öz payınız var. Get, öz başçılarından al!"

Döyüşçü həmin kişinin o qədər adam içindəki rəftarından xəcalət çəkib başını aşağı saldı və dedi: "Hansı pay, hacı?! Uşaqlar döyüş xəttində ac-susuzdurlar. Bu qarışıqlıqda heç kəs bizə baxmır!"

Kişi dedi: "Mən sözümü dedim, ağa can, bu yemək öz döyüşçü uşaqlarımızındır".

Əxlaqlı döyüşçünün sükutundan ürəyim yandı. Susuzluqdan qurumuş dodaqlarına, toz-torpaqlı üz-başına baxıb özümü saxlaya bilmədim, kişiyə yaxınlaşıb əsəbi halda dedim: "Nə üçün onlara yemək vermirsiz? Bu nə deməkdir ki, öz döyüşçülərimizindir?! Məgər müharibədə vuruşanlar arasında bizim-sizin var?!" Kişi dedi: "Bacı, sən qarışma, bu məsələlərin sənə dəxli yoxdur!" Dedim: "Nə üçün dəxli yoxdur? Bu qədər pendiri, çörəyi, çərəzi nə üçün yığıb saxlamısız? Yəqin fikirləşirsiz ki, bir neçə günə müharibə bitəcək və siz bu ərzaqları aparıb satacaqsız! Camaatın malını özünüz üçün yığırsız?"

Xosrovun anası məscidin mətbəxində işləyirdi, oğlu isə döyüşürdü. Mübahisə etdiyimizi görüb bizə yaxınlaşdı və məni müdafiə etməyə başladı. Mən dedim: "Biz indi bu Allah

bəndəsinə yemək verəcəyik ki, uşaqlara aparsın. Görək kim bizə mane olacaq?!"

Kişi dedi: "Heç mənə də dəxli yoxdur, gedin, ürəyiniz nə istəyir, edin. Mən də bunlardan ötrü əsəblərimi korlayıram".

Xosrovun anası ilə gedib pendir qablarının birini açdıq və döyüşçülərə pendir qoymağa başladıq. İşimiz bitəndən sonra iki böyük qarpız seçib ona verdik.

Həmin döyüşçü gedəndən sonra Bürucerddən məscidə bir mikroavtobus gəldi. Sərnişinlər arasında arıq bir ruhani vardı, onu Şeyx Şərif çağırırdılar. Bizi illərdir tanıyırmış kimi gülərüzlə və şirin dillə salamlaşıb halımızı soruşdu. Yeniyetmə oğlu da yanında idi. Çox səmimi şəkildə nə etdiyimizlə, nə işlə məşğul olduğumuzla maraqlandı. Özü ilə ərzaq və digər yardımlar gətirmişdi. Yükü boşaltmaq üçün kişilərdən kömək istədi. Yük maşınlarında düyü, quru çörək, balıq konservi, qarpız və çərəz vardı. Yardım məscidin idarə heyətinə təhvil verildi. Onlar da camaatın köməyilə ərzağı məscidin dama gedən pillələrinə yığdılar. İdarə heyətinin qərarı ilə Məryəm Əmcədi anbara cavabdeh təyin olundu. Gənc ruhaninin gəlişi və yardım gətirməsi camaatın və məscid xadimlərinin əhval-ruhiyyəsini çox yüksəltdi.

Şeyx Şəriflə eyni zamanda bir neçə kişi və iki qadından ibarət başqa bir qrup da gəldi. Onlar özləri haqda məluat verib Tudə partiyasının üzvü olduqlarını bildirdilər. Dedilər ki, sizinlə çiyin-çiyinə vuruşmağa gəlmişik. Sözlərini eşidəndən sonra istehzayla təbəssüm edib getdim. Qadınlar şalvar-köynək geyinmiş, başlarına da qısa bir yaylıq atmışdılar. Şəhərin vəziyyətindən çox qorxduqları hiss olunurdu. İraqlıların Xürrəmşəhri belə asanlıqla top atəşinə tutmalarına, bir neçə gün ərzində bu qədər şəhid və yaralı verdiyimizə inana bilmirdilər. Qorxularından rəngləri qaçmışdı. Əmin idim ki, qalan deyillər.

Elə də oldu. Günortadan sonra hamısı yoxa çıxdı. Necə və nə ilə getdiklərini bilmədik.

Əlidən hələ də xəbərimiz yox idi. Anam çox narahat idi. Qanadı sınmış quş kimi oyan-buyana qaçır, hər kəsdən Əlini soruşurdu. Fevziyə, Şahnaz və mən də ağlımız çatan hər yerdə onu axtarırdıq: xəstəxanada, morqda, məzarlıqda, şəhid və yaralıların arasında. Hətta müxtəlif mövqelərdə vuruşan uşaqlardan da soruşmuşduq, ancaq heç bir xəbər yox idi. Çox narahat idik. Bu vəziyyət altıncı günə qədər davam etdi.

Sentyabrın 29-da günorta çağı məscidin həyətində dayanmışdıq. Bu zaman Əli xürrəmşəhrli Qasim Mədədi adlı bir gənclə məscidə gəldi. Görən kimi qaçıb boynunu qucaqladım və öpməyə başladım. Utanıb qollarımı boynundan açdı və dedi: "Sabah, bu nə işdir?! Ayıbdır! Hamı bizə baxır".

Sözlərinə məhəl qoymadan onu öpür və deyirdim: "Nə edim?! Bir aydır səni görmürəm, Əli can".

Onu sağ-salamat gördüyümə inana bilmirdim. Üst-başı toz-torpağın içində idi, çox arıqlamışdı. Üzü günün altında yanıb qaralmışdı. Bir neçə sutka oyaq qalana oxşayırdı. Əvvəllər də arıq olmasına baxmayaraq, daha çox arıqlamışdı. İsrarla onu buraxmamı istəyirdi, zavallı dostundan xəcalət çəkirdi. Dedim: "Əli can, mən səni meyitlərin arasında axtarırdım, orada tapmayıb əsir düşdüyünü sandım. Salamatsan, Allaha şükür!"

Anam, Fevziyə və Şahnaz da gəldilər. Hamımız Əlinin başına toplaşdıq. Heç vaxt ağlımıza gəlməzdi ki, gün gələcək Əlini bir anlığa görmək üçün bu qədər həsrət çəkəcəyik. Əvvəllər isə uşaqlıq dünyamızda bir-birimizlə mübahisə edir, dalaşırdıq.

On yeddi yaşı vardı, amma korpus geyimində sanki bir neçə yaş böyümüşdü. Gözlərimizə inana bilmirdik. İnsan bir ay ərzində necə bu qədər bərkiyə bilərmiş! Hamımız məscidin həyətində oturub onun harada olduğunu soruşduq. Dedi: "Şələmçə işğal olunandan sonra uşaqlarla birgə Mömini

zastavasına çəkilməyə məcbur olduq. Bu bir neçə gündə həmin zastavanın ətrafında idik. Zastavanı da qoruya bilmədik, bir neçə saat müqavimətdən sonra ora da əlimizdən çıxdı. Biz çox çətinliklə oradan çıxdıq, ancaq düşmənin mühasirəsinə düşdük. Nə suyumuz vardı, nə çörəyimiz. Yerdən bir neçə qurumuş xurma tapıb uşaqlar arasında böldük. Yaxınlıqda bir qurbağalı gölməçə vardı, içi yosunlamışdı. Yosunları kənara çəkib bir-iki qurtum içir, susuzluğumuzu yatırırdıq".

Əli yalnız fiziki cəhətdən deyil, mənəvi cəhətdən də çox xəsarət almışdı. Dediyinə görə, həmin qısa müddətdə dostlarından çoxu şəhid olmuşdu. O, Heydər Heydərinin şəhadəti haqda danışıb deyirdi ki, patronları bədəninə dolayıb zərrə qədər qorxmadan iraqlılara atəş açırdı. O, şir kimi idi, ölümdən qorxmurdu. Dayanıb düşmənlərin torpaqlarımıza girmələrinə dözə bilmirdi. Namərdlər onu alnından vurdular.

Deyirdi ki, gömrük iraqlıların əlinə keçib. Ondan öncə orada təxminən 200 toyota avtomobili varmış. Cahanara uşaqlara deyibmiş ki, kim bacarırsa, birini götürüb aparsın, xalqın malı düşmənlərin əlinə keçməsin.

Əlinin və son günlərdə məscidə gedib-gələn döyüşçülərin dediklərinə görə, iraqlılar yol polisinə və Yüzevlər məhəlləsinə qədər irəliləmişdilər. Əlinin gətirdiyi xəbərlər yaxşı deyildi. Deyirdi ki, belə getsə, bir neçə gündən artıq davam gətirə bilməyəcəyik və şəhər işğal olunacaq.

Onlara bir qədər qarpız və quru çörək gətirdim. Yeyib bir-iki saat yatdılar, oyanandan sonra getməyə hazırlaşdılar. Anam çox israr etdi ki, heç olmasa, bir gecə məsciddə yanımızda qal, dincəl, sabah qayıdarsan. Əli razılaşmayıb dedi ki, bir saat da bir saatdır, uşaqlar təkdirlər və köməyə ehtiyacları var.

Onu qapıya qədər ötürdük. Prospektə qədər getmək istəyirdik, amma qoymadı. Həsrətlə onu süzüb öz-özümə

dedim: “Sabah, Əliyə yaxşı bax, bəlkə onu bir də görməyəcəksən!” Əli sağollaşıb getdi.

Günortadan sonra Mahmud Fərruxi Bəhruz Muradi adlı dostu ilə məscidin tibbi yardım guşəsinin yaxınlığına gəlib məni səslədi. Dedi ki, əgər bir işin yoxdursa, dünən dediyin hüseyniyyəyə gedək. Birlikdə məsciddən çıxdıq. Bəhruz Muradini son iki-üç gündə məsciddə görmüşdüm. Sakit və azdanışan gənc idi, nisbətən uzun qıvrım saçı vardı. Çox vaxt döyüş yerində olub məscidə az gəlsə də, Mahmud Fərruxi ilə dost idi. Vaxt tapan kimi məscidə gəlib uşaqlara baş çəkirdi.

Üçümüz birlikdə hüseyniyyəyə yollandıq. Orada heç kim yox idi. Mahmud Fərruxi dedi: "Sabah bacı, bəlkə dünən onlarla mübahisə etdiyinizə görə şübhələndiyini başa düşüb buranı tərk ediblər".

Bəhruz Muradi də onun sözlərini təsdiqlədi. Mən dedim: "Bilmirəm, bəlkə də siz deyən kimidir". Mahmud Fərruxi dedi: "Yenə də xəbər verdiyinizə görə sağ olun. Bundan sonra da şübhəli bir şey görsəniz, ya mənə, ya da Bəhruza deyin. Bu şəraitdə beşinci kolondan çox ehtiyatlı olmalıyıq".

Məscidə qayıtdıq. Mətbəxə anamın yanına gedib atamı soruşdum. Əli sarıdan arxayın olmuşdum, lakin atama görə nigaran idim. Mənə dedi:

-Deməyi unutdum, sən dünən xəstəxanaya gedəndə atan məscidə gəlmişdi. Deyirdi ki, yol polisinin ətrafında korpus uşaqlarının yanındadır, onlarla birgə vuruşur.

-Özü necə idi?

-Allaha şükür, sağ-salamat idi.

Nə üçünsə birdən evimizi xatırladım: Allah bilir nə günə qalıb! Səddam Xürrəmşəhri elə vururdu ki, o vaxta qədər evimizə mərmi və ya raket düşməmiş olmazdı. Bir gecənin içində hər şey alt-üst olmuşdu. Keçən həftə bu vaxt hamımız

evimizdə deyib-gülürdük. Bu hadisələr baş verməsəydi, yavaş-yavaş universitetə hazırlaşacaqdım.

Bu gün şəhər bir qədər sakitlik idi, tək-tük partlayış səsləri gəlirdi. Müharibəni Səddam və onun qüvvələri idarə edirdilər. Onlar hücum edəndə biz müdafiə olunmağa məcbur qalırdıq, onlar istirahət edəndə biz də nəfəsimizi dərib növbəti döyüşə enerji toplayırdıq. Məscidin həyətində yaralıların yaralarını bağlamaqdan ötrü yapışqan lent kəsdiyim yerdə gözüm gənc bir qıza sataşdı. Sakitcə bir küncdə oturub gözlərini bir nöqtəyə dikmişdi. Başında rəngli çadra olsa da, düz-əməlli hicabı yox idi, sarı saçı və ağ boynu aydın görünürdü. O, dizlərini qucaqlayıb sakitcə ağlayırdı. O qədər ağlamışdı ki, rəngli gözləri sanki qanla dolmuşdu. Xosrovun anası da tez-tez gedib-gəlir, üzünü ona tutub deyinirdi. O isə məhəl qoymadan yalnız ağlayırdı. Onun kim olduğu, nə üçün dayanmadan ağladığı mənə maraqlı gəldi. Qalxıb ona yaxınlaşmaq istəyəndə Xosrovun anası qaşqabaqla başımın üstünə gəlib dedi: "Sabah can, o qızı görürsən? Orada oturub ağlayanı deyirəm".

-Bəli. Onu tanıyırsan?

-Çox da yox, ancaq bilirəm ki, ev-eşiyi olmayanlardandır. Deyəsən, əxlaqi vəziyyəti də yaxşı deyil. Qorxuruq ki, beşinci kolondan olar. Mən bir yerə getməliyəm, gözün onda olsun. Yaxşı?

-Bəli, mən elə indi onun yanına getmək istəyirdim.

-Sağ ol, qızım.

Yaxınlaşıb salam verdim və soruşdum:

-Burada nə edirsən? Ailən hardadır?

Qəliz ləhcə ilə cavab verdi:

-Ailəm burda, Xürrəmşəhrdədir. Sən Allah, qoyun gedim.

-Yəni eviniz burdadır?

-Hə. Amma məni bura gətirdilər, indi də getməyə qoymurlar.

-Eviz hardadır? Hansı küçədə?

-Küçənin adını bilmirəm, amma tanıyıram.

Məscidə göz gəzdirdim, bilmək istəyirdim ki, qardaşlardan hansı buradadır. Bəhruz Muradi qapının ağzında dayanmışdı. Mahmud Fərruxi tapşırmışdı ki, şübhəli bir şey görsəm, ona söyləyim. Yaxınlaşıb salamlaşandan sonra qız barədə məlumat verib dedim: "Bəhruz qardaş, gedib görmək istəyirəm ki, bu qızın dedikləri doğrudur, yoxsa yalan. Əgər doğru desə, ailəsinə verəcəm, yalan demiş olsa, məscidə qaytaracam. Amma tək getmək istəmirəm, mənimlə gedə bilərsən?" Dedi ki, gedək.

Üçümüz yola düşdük. Gənc qız bizi iki saata yaxın küçələrdə gəzdirdi. Fəxr-Razi prospektindən başlayıb Darvaza meydanına, oradan Taliqani istiqamətinə, sonra da qırxmetrlik prospektə getdik. Çox əsəbiləşdim. Bəhruz Muradi çox səbirli və əxlaqlı adam idi, heç nə demirdi. Axırda qızın başına qışqırdım:

-Gördün ki, özün də evizin yerini bilmirsən?! Məscidə qayıdırıq. İki saatdır bizi ələ salmısan!

Deməyə sözü yox idi. Məscidə qayıtdıq. Qız içəri girdi. Yenə gözümü ondan çəkmədim. Bəhruz Muradi dedi: "Bu bir neçə gündə belə adamlardan çox görmüşük". "Bəs onlarla nə edirsiz?" - deyə soruşanda belə cavab verdi: "Onları Abadanın islah müəssisəsinə göndəririk. Orada nə edəcəklərini bilirlər".

Bəhruz məscidə gəlmədi. Qapının yanında məscidin imamı Hacı ağa Məhəmmədini gördüm. Salamlaşıb hal-əhval tutandan sonra dedim: "Hacı ağa, gəlin məsciddəki qaçqınları ruhlandırmaqdan ötrü "Təvəssül" və ya "Kumeyl" duası təşkil edək. Bəlkə bununla bir az sakitləşib ruhlanarlar".

Hacı dedi: "Yox, indi dua məclisi ruhdan düşməyə və məyusluğa səbəb olar". Dedim: "Bu nə sözdür?! İnsanlar Allahın zikri ilə sakitləşirlər, ümidsizlik hardan çıxdı?!" Hacı ağa əli ilə əbasını bir qədər kənara çəkdi, silahını göstərib dedi: "Sən narahat olma, mən belə şeylərə fikir verirəm".

Məqsədini anlamadım. Mənim təklifimdən ötrü silah göstərməyə ehtiyac yox idi. Hərəkətindən narahat oldum və daha bir söz demədim.

Məscidə girdim. Həyətdə arıq uzun bir qız ağa İbrahimi ilə danışırdı. Anam yaxınlaşıb dedi: "Sabah, bu qızı tanıyırsan?" Dedim ki, yox, kimdir? Dedi: "Bu, zəmanəmizin Zəhrasıdır. Şəhid atasını öz əlləri ilə dəfn edib. Maşallah, dağ kimi möhkəmdir!" Dedim: "Doğru deyirsən? Sən hardan tanıyırsan?" Dedi: "Dünən Şahnazla Cənnətabadda gördük. Ölüyuyanların yanında şəhidlərin kəfən və dəfninə kömək edir".

Onu, yəni Zöhrə Hüseynini orada ilk dəfə idi görürdüm. Anamla yaxınlaşıb salam verdik. Bizi çox səmimi və gülərüzlə qarşıladı. Adı Zöhrə olsa da, anamın istəyilə onu Zəhra çağırmağa başladıq.

Məscidə gəlişimizdən bir neçə gün sonra Hacı Fərruxi Məryəm Əmcədi ilə mənə yaxınlaşdı, bizə inandığını bildirib hərəmizə bir M1 silahı verdi. Sonra dedi ki, məscidin silah və ərzaq anbarını mühafizə edək, məscidin idarə heyətinin icazəsi olmadan oraya kimsəni buraxmayaq. Məryəm Əmcədini məscidə gəldiyim ilk gündə görmüşdüm.

Həmin günlərin birində Zöhrə Hüseyni və Məryəm Əmcədi ilə birgə anbarın yanında söhbət etdiyimiz yerdə ağ kostyum geyinmiş gənc bir oğlan əlində diplomat məscidə girdi. Yaşı otuzdan çox olmazdı, nisbətən uzun saçı, mavi gözləri vardı. O qədər səliqəli geyinmişdi ki, onu görən kimi özümdən asılı olmadan öz paltarlarıma baxdım. Zahiri görkəmlərimizdə necə də uyğunluq vardı! Bizim tozlu, qanlı paltarlarımız hara, onun ağ və yaraşıqlı kostyumu hara!

Cavan hamının diqqətini cəlb etdi. Eynəyinin arxasından bir qədər məscidə göz gəzdirdi, Xəlil Nəccara yaxınlaşdı, onunla görüşüb dedi: "Mən Abdulla Səadətəm, Hüseyn Fəxrinin xalası

oğlu. Behbahanda aptekdə işləyirdim. Bura gəlmişəm ki, əlimdən bir kömək gəlsə, edim".

Xəlil onu başdan-ayağa süzüb dedi: "Bağışlayasan, cənab, bizdə köməyə ehtiyac yoxdur, özümüz də burada artığıq".

Zavallı məyus halda Mahmud Fərruxiyə yaxınlaşıb dedi: "Burda mənim əlimdən nə gələr?" Fərruxi Xəlil Nəccarı göstərib dedi: "Gedək, səni bu dostumuza təqdim edim, onlara kömək edərsən". Cavan dedi: "Onunla danışdım, məni qəbul etmədi. Dedi ki, bizdə köməyə ehtiyac yoxdur". Mahmud Fərruxi gülümsəyib dedi: "Eybi yox, bir dəfə də birlikdə gedək".

Cavanı Nəccarın yanına apardı və söhbət etməyə başladılar. Zəhra Hüseyniyə baxıb yavaşca və istehza ilə dedim: "Özlərini fədai partizan sayanlar burada yarım gündən artıq davam gətirmədilər, bu adam bu görkəmi, bəzək-düzəyi ilə yəqin yarım saat ancaq davam gətirər!"

Zəhra da gülüb sözümü təsdiqlədi. Cavan Mahmud Fərruxinin vasitəçiliyindən sonra gedib həyətə düzdüyü dərman qutularını gətirdi və dərmanları ayırmağa başladı. Şam namazı vaxtı məscidin bir küncünə çəkilib diqqətlə namazını qıldı və yenidən işinə döndü. Yatmaq vaxtı çatanda ağ kostyumunu çıxarıb qəhvəyi şalvar-köynəkdən ibarət yataq formasını geyindi və həyətin bir küncündə yatmağa getdi. Onun nizam-intizamını görəndə Zəhrayla məni gülmək tuturdu. Şərt kəsirdik ki, səhər saat dörd olmamış gedəcək. Axı bu tip adam burada necə qala bilərdi!

Amma tələskənlik edib yanlış mühakimə yürütmüşdük. Sonralar Doktor Səadət kimi məşhurlaşan o adam heç bir yerə getməyib Xürrəmşəhrdə qaldı, şəhərin müdafiəçiləri ilə çiyin-çiyinə xidmət etdi. Səadət sübh namazından sonra bir qədər idman etdi, gün çıxandan sonra isə iş yerinə getdi.

***

Müsəddiq xəstəxanasına kömək etməyə getmişdim. Qayıdanda uşaqlar məscidin önündə baş vermiş bir hadisə haqda danışırdılar. Nə baş verdiyini soruşdum. Dedilər ki, sən gedəndən sonra Mayor Şərifnəsəb məscidə gəlmişdi. Deyirdi ki, bacılar, yol polisində canlı qüvvəyə ehtiyac var, amma bu əsgərlər ruhdan düşüblər, gəlin onlarla danışın, bəlkə sizin sözlərinizi qəbul edərlər.

Bu zaman Şahnaz bir yük maşınının arxasına çıxıb ucadan əsgərlərə demişdi: "Bəs qeyrətiniz harda qaldı?! Burda əlinizi əlinizin üstünə qoyub dayanmısız ki, vətən torpaqları düşmənin əlinə keçsin?! Əgər siz vuruşa bilmirsizsə, çəkilin kənara, biz qadınlar şəhərimizi müdafiə edək".

Sonra Əfsanə, Pərvanə, Xədicə və Fevziyə ilə birgə maşına minib demişdilər ki, siz torpağı və namusu müdafiə etməyə getmirsizsə, özümüz gedərik. Maşın məsciddən qırxmetrlik prospektə doğru yola düşəndən sonra əsgərlər qeyrətə gəlib onun arxasınca qaçmış qızları yerə endirib özləri döyüş yerinə yollanmışdılar.

Ertəsi gün Şirazdan üç yük maşını gəldi. Məsciddəki bütün kişilər yükü boşaltmağa getdilər. Əvvəllər olduğu kimi, quru çörək, xurma, çərəz, pendir, yağ, qarpız, alma və bu kimi şeylər idi. Yükü boşaltmağa hətta qadınlar da kömək edirdilər. Mən də köməyə başladım. Gördüm ki, yükləri məsciddə çadra ilə yerbəyer etmək çətindir. Düşündüm ki, qardaşlar gələnə kimi çadramı çıxarıb rahat işləyim. Çadranı çıxarıb divara vurulmuş mıxdan asdım.

Yükləri yerbəyer etməyə hamıdan tez xanım Purheydəri başladı. O, üç övlad anası idi. Qızı Məryəm ailəli idi, müharibə başlayandan sonra Xürrəmşəhrdən Xürrəmabada həyat yoldaşının qohumlarıgilə getmiş, Məhəmməd və Mürtəza adlı iki yeniyetmə qardaşını da özü ilə aparmışdı. Xanım Purheydərinin əri Xürrəmşəhrin fəallarından idi. Xanım

gündüzlər məscidə gəlir, axşamlar Taliqani məhəlləsinə evlərinə qayıdırdı. Beşinci və ya altıncı gündən o da məscidə yerləşdi, daha evinə getmədi. İmanlı və möhkəm qadın idi, ona baxıb həvəslənirdik. Daim salavat və zikrlə məşğul idi, bütün işlərinə "Bismillah" deyərək başlayırdı. Məscidin mətbəxində işlədiyi yerdə daim Ayətül-kürsi oxuyurdu. Məni görüb dedi: "Sabah, bəzi qutularda paltar var; həm təzə, həm köhnə. Gərək məscidin həyətinə aparıb orada ayıraq".

Ərzaq qutularını anbara yerləşdirib, uşaqlarla birgə paltarları ayırmağa başladıq. Bəzi paltarlar çox köhnə və yararsız, çoxu isə yaxşı idi. Paltarları ayırdığımız yerdə xanım Purheydəri əlində kiçik bir bağlama bizə sarı gəldi. Yaxınlaşanda gördüm ki, gözləri yaşarıb. Dedim: "Nə olub? Niyə narahatsız?" Dedi: "Uşaqlar, görün ərzaq qutularının birindən nə tapmışam".

Xanım Purheydərinin əlində iki-üç ovuc qurut və bir məktub vardı. O, qoca qadının yazdığı məktubu titrək səslə oxumağa başladı. Qadın İslam döyüşçülərini salamlayıb çoxlu dua etdikdən sonra yazmışdı ki, bu qədər qurut onun döyüşçülərə göndərə biləcəyi yeganə şeydir, az və dəyərsiz olduğunu bilir, amma işlərinə yarayacağına, Allahın və döyüşçülərin qəbul edəcəyinə ümid bəsləyir.

Hamımız ağladıq. Sanki həmin qoca qadın qarşımızda oturub bu sözləri özü söyləyirdi. Necə kasıb olduğunu, qurutları göndərməkdən və məktubu yazmaqdan ötrü nə qədər əziyyət çəkdiyini düşünəndə ürəyim od tutub yanırdı.

İşimiz qurtarandan sonra çadramı götürməyə getdim, amma nə qədər axtardımsa, tapa bilmədim. Məscidin bütün şəbistanını axtardım. Yardım üçün göndərilmiş paltarların da arasını aradım, kimi görürdümsə soruşurdum, amma tapılmadı ki tapılmadı. Sanki kimsə götürmüşdü. Çox vaxt bir evə raket düşəndə qadınlar hicabsız bayıra çıxıb məscidə qaçırdılar. Belə vaxtlarda bir şey tapıb başlarını örtürdük. Yük gələndən bəri isə

belə bir vəziyyət yaranmamışdı. Çadrasız qalacağıma inana bilmirdim. Göndərilən paltarların arasında da çadra yox idi. Məsciddən çıxmağa utanırdım. Əlbəttə, köynəyim enli idi, amma sanki əynimdə bir şey olmadığını hiss edirdim.

Bir anlığa ilk dəfə çadra örtməyimi xatırladım. Şahnazın iki çadrası vardı. Bir gün ona dedim ki, çadralarından birini ver, başıma atım. Çox sevindi, təzə çadrasını gətirib mənə verdi. Ertəsi gün hara gedirdimsə, başımda çadra olurdu. Hətta məktəbə də elə gedirdim. Gözəl hiss idi. Sanki bir neçə yaş böyümüşdüm. Başımda çadra olanda özümə inamım bir neçə dəfə artırdı. Bu müddətdə çadrama çox alışmışdım. İndi isə nə edəcəyimi bilmirdim. Bir-iki saat məsciddə qaldım. Bayıra çıxmağa üzüm gəlmirdi. Yadıma düşən hər yeri axtardım, sanki su olub yerin dibinə girmişdi. Artıq tapılacağına ümidimi üzüb məscidin həyətinə çıxdım. Fevziyə təəccüblə mənə baxıb dedi: "Sabah, çadran hanı?"

Məsələni ona danışdım. Uşaqlarla birgə yenə məscidin hər yerini axtardıq, sanki tapılması qismət deyilmiş. Əlimdən bir şey gəlmirdi; başqa bir çadra tapılana qədər dözməli idim. Başqa çadra isə uzun müddət tapılmadı.

Oktyabrın biri, səhər çağı idi. Gün çıxan kimi düşmən təyyarələri şəhəri vurmağa başladı. Dünən nisbətən sakit keçmişdi, bu gün isə çoxlu səs-küylə başladı. Məhnazla məsciddən çıxıb partladılmış yerlərə getmək istəyəndə qorxunc bir gurultu qopdu. Partlayış yerinə qaçdıq. Tövşüyə-tövşüyə özümüzü Nəqdi prospektinin başına çatdırdıq. Yanğınsöndürmə məntəqəsini vurmuşdular. Tüstü və toz-torpaq hər yeri bürümüşdü, göz-gözü görmürdü. Toz-dumanın içində bir kişi aşa-aşa məntəqədən çıxıb qışqırdı: "Uşaqlara kömək edin! Yaralanıblar!"

Kişi bir tərəfdə oturdu. Məhnazla içəri girdik. O qədər tüstü və tozun içində iki nəfəri görə bildik. Yaralı halda yerə yıxılıb

qışqırırdılar. Biri yaşlı kişi idi, qoluna və çiyninə qəlpə dəymişdi. Mən yaşlı kişiyə yaxınlaşdım, Məhnaz da o birinə. Yarasını sarımaq lazım idi, amma o qədər toz və tüstü içində mümkün deyildi. Ona kömək edib ayağa qaldırdım, binadan bir neçə addım aralıda yerə oturdub yarasını sarıdım. Məhnazın kömək etdiyi adamın harasından yaralandığı yadımda deyil, ancaq bilirəm ki, yarası dərin olduğundan tez xəstəxanaya çatdırılmalı idi. Küçəyə qaçıb bir maşın tapdıq və onları Müsəddiq xəstəxanasına apardıq.

Xəstəxanadan yenicə qayıtmışdıq ki, qırxmetrlik prospektdə Quran məktəbinin uşaqları Şahnaz Hacışahla, Şahnaz Məhəmmədinin qəlpədən yaralandıqlarını eşitdik. Məsciddə, xüsusən də mətbəxdə iş çox olanda Quran məktəbinin uşaqları köməyə gəlirdilər. Buna görə onların çoxu ilə tanış idik. Şahnazın yaralandığını deyən kimi anam yerindən qalxıb dedi: "Sabah, bir saat qabaq hər ikisi burdaydı, bizə çox kömək etdilər". Dedim ki, xəstəxanaya gedirəm, görüm necədirlər. Anam dedi: "Gözlə, mən də gəlirəm".

Bacım Şahnaz dilləndi: "Gözləyin, mən də gəlim".

Şahnaz Hacışah Fərəh liseyində bizim Şahnazın sinif yoldaşı olmuşdu. Maşın tapmağımız bir qədər çəkdi. Anamın rəngi qaçmış, dodaqları ağarmışdı. Bacım dedi: "Şahnaz məscidə gələndə təzə sarımtıl köynək geyinmişdi. Anam ona dedi ki, mübarəkdir, çox yaraşır. O da gülüb dedi ki, bəs bilmirsiz, gəlinlik paltarımdır?! Görün bu paltarda gəlinlərə necə oxşayıram!"

Həmin bir kəlmə sözə görə anam onun yaralandığını eşidən kimi tez-tez deyirdi: "Ondan ötrü narahatam, birdən başına bir iş gələr. Bəlkə də nəsə olacağını bilirmiş".

Xəstəxananın işçilərindən bir neçə dəqiqə öncəki partlayışdakı yaralıları soruşduq. Bir tibb bacısı: "İkisi şəhid

olub, biri yaralanıb. Şəhidlər orada dəhlizdədirlər" – deyib qarşı tərəfi göstərdi. Eşitdiklərimə inana bilmirdim.

-İkisi şəhid olub, biri yaralanıb!

Tibb bacısına qulaq asdığım yerdə birdən anamın ağlamaq səsinə özümə gəldim. Başımı çevirib gördüm ki, anamla bacım Şahnaz dəhlizdə hər iki cəsədin başı üstə dayanıb ağlayırlar. Onlara yaxınlaşdım. Hər iki Şahnaz şəhid olmuşdu: Şahnaz Məhəmmədi və Şahnaz Hacışah. Şahnaz Məhəmmədini dəhlizin yerində üzü üstə, Şahnaz Hacışahı isə arxası üstə uzatmışdılar. Çadraları da bədənlərinə bükülmüşdü.

Anam deyirdi: "Gördün, Sabah, gördün?! Gəlinlik palтarı kəfəni oldu. Gördün ki, ona ilham olunmuşdu?"

Şahnazın üzü ağlamaqdan islanmışdı, amma yenə də anamı sakitləşdirməyə çalışırdı. Yeni bir hissi təcrübə edirdim. Şahnaz Hacışahın cəsədi yanında birdən bütün vücudumun boşaldığını hiss etdim. İxtiyarsız halda divara söykəndim. O, ilk şəhid dostum idi. Gülüş və zarafatlarını xatırladım. İmam Xomeyni ilə görüşə gedəndə səfər yoldaşı olmuşduq. Duyğusal və mehriban qız idi. Xatirə dolu həmin səfərdə köməkləri, qayğıkeşliyi yadıma düşdü, gülüş səsi qulağımda dolaşdı. O haray-həşirdə sanki başqa bir səs eşitmirdim. Necə də qəşəng yatmışdı!

Cəsədləri yolun üstə idi. Bir tibb bacısı yanımızdan keçəndə dedi: "Onları kənara çəkin, yolu bağlayıblar".

Bu müddətdə Zöhrə Hüseyni də xəstəxanaya gəlib yanımızda dayanmışdı. Bir ona, bir də anama baxıb dedim ki, mən bacarmaram. Anam dedi: "Kənara çəkil, Zöhrə ilə qaldırarıq".

Zöhrə Şahnaz Hacışahın ayaqlarından, anam da qollarından tutdu. Cəsəd sağlam görünürdü, qəlpənin hara dəydiyini də bilmirdik. Bir-iki addım getməmiş Şahnazın cəsədi əllərindən yerə düşdü. Gözlərim anamın əllərinə dikilib qaldı. Şahnazın sol qolu çiyindən qopub anamın əlində qalmışdı! Zöhrə nə baş

verdiyini bilmədən qışqırdı: "Xanım Vətənxah, nə edirsiz?! Siz Allah, şəhidin hörmətini saxlayaq!"

Elə bildi ki, anam diqqətsizlikdən əlini buraxıb. O isə yerində quruyub qalmışdı. Əslində, hamımız elə idik. Məlum oldu ki, qəlpə Şahnazın çiyninə dəyib, sol çiyninin ətrafını, xüsusən də ürəyini sıradan çıxarıb. Anam elə mat halda əyilib Şahnazın çiynindən tutdu və Zöhrə ilə birgə kənara çəkdi. Şahnazın qolunun bədənindən ayrılmasına təəssüf və kədərlə dəhlizdə dayandığımız halda, həyətdən bir maşının aramsız siqnal səsi, sonra da bir nəfərin hay-küyü gəldi.

Həyətə qaçdıq. Orada elə bir səhnə ilə qarşılaşdım ki, əminəm ömrümün sonuna qədər yadımdan çıxmaz. Siqnal qanlı və torpaqlı cəsədlərin yığıldığı kiçik bir yük maşınından gəlirdi. Sürücü ikiəlli başına vura-vura hıçqırtı ilə deyirdi: “Camaat, bədbəxt oldum, evim yıxıldı! Kömək edin! Başıma kül oldu!”

Yük maşınının arxasında 14 cəsəd vardı: qoca, gənc, uşaq. Onlar faciəli şəkildə şəhid olmuşdular, hətta bir cəsəd belə sağlam deyildi. Qəlpələr bədənlərini dəlik-deşik etmiş, ürəklərini, bağırsaqlarını, bütün içalatlarını bayıra tökmüşdü. Uzun ərəb paltarları, çit şalvarları, parça-parça olmuş köynəkləri torpağa və qana bulaşmış, bir-birinə düyünlənmişdi. Cəsədləri maşından endirəndə nə qədər ehtiyatlı davransaq da, qopmuş bədən üzvləri yerə düşürdü. Birinin qəlpə dəymiş dabanını görüb çox qorxdum. Qəlpə dabanını elə parçalamışdı ki, kokos boyda olmuşdu. Çoxunun üzü yanıb parçalanmış, bədənlərində sağlam yer qalmamışdı.

Maşının sürücüsü özünü vurub ucadan ağlaya-ağlaya qırıq-qırıq səslə danışırdı. Demə, cəsədlərin hamısı bir ailənin üzvləri imiş. Onlar günorta vaxtı süfrə başına toplaşıbmışlar; baba və nənədən tutmuş nəvəyə qədər. Birdən süfrələrinin ortasına bir top mərmisi düşüb, bir neçə saniyəliyə evdən bayıra çıxmış sürücüdən başqa hamısı yerindəcə şəhid olub. Sürücü həmin 14

nəfərlik ailənin sağ qalmış yeganə üzvü idi. Başına böyük bir fəlakət gəlmişdi. Bu hadisədən sonra bəlkə də özünə gələ bilməyəcəkdi. Cəsədləri oradan birbaş Cənnətabad məzarlığına apardılar. Morqun vəziyyəti yaxşı deyildi, kiçik bir morqda bu qədər cəsədə yer yox idi.

Xəstəxanaya qayıtdıq. Şahnaz Hacışahla Şahnaz Məhəmmədinin cəsədlərini də morqa aparmışdılar. Şahnaz Hacışah anası ilə bacısının Xürrəmşəhrdən getdiyini bizə söyləmişdi. Qardaşı Hüseyn də döyüş bölgəsində idi. O, bacısı Şahnazla bir-birinə çox bağlı idilər. Biz gözləməli, ailəsi qayıdandan sonra Şahnazı təhvil verib dəfn etməli idik.

Məsciddə idim, səhər baş verən hadisələri düşünə-düşünə mətbəxin uşaqları ilə birgə döyüşçülərə xörək çəkirdim. Günortaya qiymə varımızdı. Onu çörəyin arasına tökür, sellofan torbaya qoyub düyünləyirdik. Yol polisi istiqamətində vuruşan döyüşçülərin ikisi yemək aparmağa gəlmişdi. Atam da anama demişdi ki, yol polisində döyüşçülərin yanındadır. Xörəklərdən birinin ona çatacağına ümidlə sonuncu torbanı düyünləyirdim. Bu zaman camaatı yük maşınına mindirib şəhərdən çıxaran uşaqların biri dedi: "Bir neçə gün öncə camaatı maşına mindirdiyimiz yerdə birdən bir qadın ikiəlli başına vurub maşından yerə atıldı. Nə baş verdiyini soruşanda dedi ki, uşağı evdə beşikdə qalıb. Yazıq bahar buludu kimi ağlıyıb sinəsinə vurur, uşağını çağırırdı. Dediyinə görə, evinin yanına raket düşmüş, o da qorxudan tez evdən çıxmış, uşağı götürməyi unutmuşdu!" Bu da müharibənin başqa bir mənfur üzü idi. Kim inanardı ki, bir ana uşağı olduğunu yaddan çıxara bilər?!

Bir neçə gün olardı məsciddəki uşaqlardan bir neçəsi günorta vaxtı döyüşçülərin yerləşdiyi bəzi məhəllələrə yemək aparırdılar. Həmin günlərin birində uşaqlar qayıdanda Əli Əmcədini də özlərilə gətirdilər. Əli Məryəmin böyük qardaşı idi, təxminən 23 yaşı olardı. Ucaboy və enlikürək gənc idi,

topuğundan yaralanmışdı. Çəkməsi və corabı yaraya yapışıb qalmışdı, qopmurdu. Deyirdi ki, iki gündür yaralanıb və o vaxtdan bu vəziyyətdədir. Görünür, ayağını çəkmədən çıxarıb yarasını bağlamağa macal tapmamışdı. Yara çəkmənin içində istidən bişib coraba və çəkməyə yapışmışdı.

Məryəm dayanmadan ağlayırdı. Uzun müddətdən sonra qardaşını gördüyünə görə qanadsız quş kimi oyan-buyana gedirdi. Xəlil Nəccar çəkməni ayağından ayıra bilmədiyini görüb yaraya bir qədər dettol, savlon və fizioloji serum tökdü, corabın və çəkmənin islanıb yumşalmasını gözlədi. Bir neçə dəqiqədən sonra çətinliklə çəkməni çıxardı. Yara çox irinləmişdi. Bunu həm yaranın görkəmindən bilmək olurdu, həm də yayılan üfunətli qoxudan. Uşaqlıqdan lak, neft və benzin iyini çox xoşlayırdım. Dettolun da buna bənzər qoxusu vardı, amma yara çəkmədə qalıb o qədər irinləmişdi ki, kəskin dettol iyi də onun qoxusunu azalda bilmirdi. Əli güclə ağrıya dözürdü, rəngi saralmışdı. Ona yazığım gəlirdi. Məsum üzü iri tər damcıları ilə dolmuşdu. O qədər ağrıya rəğmən, səsi çıxmırdı, sakitcə başını aşağı salıb oturmuşdu. Xəlil Nəccar corabını çıxaranda zikr deyir, heç bir şikayət etmirdi. Müharibə uşaqlarımızı bir gecənin içində kişiləşdirmişdi. Bəlkə də adi şəraitdə olsaydı, o da bu ağrıya dözə bilməzdi. Məryəm qardaşının yanında oturub əlini tutmuşdu, tez-tez, "Bacın qurban!" - deyirdi. Zavallı Əli də utanıb əlini bacısının əlindən çıxarır və dodaqaltı deyirdi: "Ayıbdır, bacı, mən yaxşıyam".

Xəlil Nəccar yaranı betadinlə yuyub sterilizə olunmuş bintlə bağladı. Yaranı yuyanda Əli dodaqlarını sıxıb yavaşca "Allahu-əkbər" deyirdi. Çox əziyyət çəkəndə yumruqlarını düyünləyib sıxırdı. Çox dözümlülük göstərdi. Başqa birisi olsaydı, ağrıdan huşunu itirərdi. Xəlil dedi ki, gərək bir neçə gün məsciddə qalıb istirahət edəsən. O isə həmin gün axşamüstü axsaya-axsaya döyüş yerinə qayıtdı.

# Səkkizinci fəsil:

## *Şəhid ata, şəhid oğul*

Sentyabrın 29-u, səhər çağı idi. Hava hələ tam işıqlanmamış məscidin yanındakı evlərin birini vurdular. İlahə ilə partlayış yerinə qaçdıq. Səs Fəxr-Razi prospektindən gəlmişdi. Orada çoxlu köhnə evlər vardı. Küçəyə girib bir neçə metr irəliləyəndən sonra bir evin qapısının yerindən qopub kənara düşdüyünü gördük. Evin kənarında qoca bir kişi bir neçə uşaqla birgə dayanıb bərkdən ağlayırdı. İçəri girdik. Uçmuş divarlardan və kərpic qırıqlarından həyətdə bir təpə əmələ gəlmişdi. Birtəhər onun üstündən keçməli olduq.

Evin önündə ağlayan qoca da həyətə girib ürəkyandıran sızıltı ilə dedi: "Yoldaşımla gəlinim mətbəxə səhər yeməyi hazırlamağa girmişdilər, birdən partlayış baş verdi".

Raket mətbəxin düz üstünə düşmüşdü, oradan tüstü və toz-duman qalxırdı. Hələ mətbəxə girməmişdim, ancaq partlayışın səsindən bilirdim ki, yaxşı səhnə ilə qarşılaşmayacağam. Bir qədər irəlilədim. Mətbəxdən əsər-əlamət yox idi. Dam və tavan gəlinlə qayınananın başına uçmuşdu.

Qocanın oğlu da gəlib çıxdı. Hamımız şok içində uçqunu kənara çəkməyə başladıq. Az sonra qırxyaşlı bir qadının qanlı

və tozlu üzü göründü. Sinədən aşağı hissəsi pis vəziyyətdə və bütün bədəni qəlpə ilə dolu idi. Sanki bütün sümüklərini bir yerdə əzmişdilər. Başından və sinəsindən başqa bütün bədəni bir-birinə qarışmışdı. Onu bayıra dartmağa qorxurduq, bədən üzvləri bir-birindən ayrılardı. Qoca ilə oğlunun ağlamaq səsi başıma düşürdü. Gəlini tərpətməyin imkansız olduğunu görüb İlahəyə dedim ki, gedək, arvadı tapaq.

Onun harada olduğunu bilmirdik. Ehtiyatla dağıntıları kənara çəkməyə başladıq. Birdən uçqun arasında qara parça gördük. Elə bildim, qadının şalıdır. Toxunmaq istədikdə əlim yumşaq və əzilmiş bir şeyə batdı. Tez əlimi çəkdim. Qadının beyninin qırıqları və ət parçaları barmaqlarıma yapışmışdı. Sanki bir anlığa məni üçfazalı elektrik cərəyanı vurdu. Belim sancdı. Adi şəraitdə olsaydım, var gücümlə qışqırıb qaçardım. Lakin qoca ilə oğlu bizə baxdığından onlara bundan artıq əzab vermək düzgün deyildi. Əlimi daş və torpağa sürtüb barmaqlarımı təmizlədim və geri çəkildim.

Gördüklərim inanılmaz idi. Partlayış dalğası qadının başını bükmüşdü, bir paltar kimi burulmuş, kəllə qənd kimi olmuşdu. Qadının üzündəki orqanlarından heç bir əsər-əlamət qalmamışdı. Üzü, saçı və ağ şalı bir-birinə qarışmışdı. Başına o qədər torpaq və əhəng tökülmüşdü ki, saçı ağarmışdı. Üzücü səhnə idi. Qoca ilə oğlu qadının vəziyyətini görüb bir-iki addım geri çəkildilər, qışqırıb başlarına vurmağa başladılar. Həyətdən də qadının dörd-beş balaca nəvəsinin ağlamaq səsi gəlirdi.

Yenidən cəsədə yaxınlaşıb əl vurmağa qorxurdum. Barmaqlarımın qadının başına girməsi dəhşətli bir hiss idi. Ərinə dedim: "Cəsəd ağırdır, mən tərpədə bilmirəm. Gərək oğlunla kömək edəsiz".

Bir göz qırpımında evi yıxılmış qoca ağlaya-ağlaya dedi: "Yaxşı, xanım, nə edim?" Dedim ki, bir adyal gətir, içinə qoyaq.

Halım pis idi, ürəyim bulanırdı. Əlim hələ qanlı idi. Qadının beyninin xırda ağ ovuqlarının bir qədəri hələ də barmaqlarım arasında qalmışdı. Qoca kişi adyalsız qayıtdı. Zavallı özündə deyildi. Evdə bir qədər fırlanıb əliboş qayıtmışdı. Cəsədə yaxınlaşdıq. Qadının əl və ayaqları da qarnına və belinə dolanmışdı. Heç bir bədən üzvü yerində deyildi, yalnız bir topa tozlu və qanlı ətlə üz-üzə qalmışdıq. Kişi arvadına yaxınlaşmağa cəsarət etmirdi. Haqqı da vardı. Qadın həqiqətən, qorxunc vəziyyətdə idi. Ona dedim: "Gəl, köməkləşib onu çıxaraq". Heç bir söz demədən yalnız mənə baxdı. Oğlu atasının vəziyyətini görüb yaxınlaşdı, dedi ki, mən kömək edərəm.

Bilirdim ki, qadının bədəni bir-birinə qarışıb qorxunc hala düşdüyündən sifəti də yaxşı durumda deyil. Harasına əl vursaydıq, bədəni parçalana bilərdi. Ətrafıma baxdım. Mətbəxin qapısı qopub həyətə düşmüşdü. Oğluna dedim: "Get, qapını gətir, ananı onun üstünə qoyaq".

Heç bir söz demədən gedib qapını gətirdi. Çox ehtiyat və qorxu içində qadının qanlı bədənini itələyib xərək kimi istifadə etdiyimiz qapının üstünə atdıq. Balaca uşaqların nənələrini bu vəziyyətdə görmələrini istəmirdim. Əlimdə olsaydı, cəsədi onların gözləri önündə çıxarmazdım, amma üstünə örtməyə bir şey yox idi. Fikirləşdim ki, kaş çadram olaydı, qadının üstünə ataydım. Cəsədi bayıra çıxarandan sonra qoca kişi daha ucadan ağlamağa başladı. Onun səsi ürək parçalayırdı.

Uşaqlar əzilib-bükülmüş nənələrinə heyrətlə baxırdılar. Birinci cəsədi çıxarandan sonra İlahə onları aparmaq üçün maşın gətirməyə getmişdi. Qadını çıxaranda isə artıq qapının ağzında kiçik bir yük maşını dayanmışdı. Dördümüz köməkləşib cəsədi maşının arxasına qoyduq. Qoca ağlaya-ağlaya yerli ərəb ləhcəsilə deyirdi: "Qardaş! Evim yıxıldı!"

Sonra gəlinin cəsədinin yanına qayıtdıq. Yoldaşı şok içində, qorxa-qorxa xanımının cəsədinə baxırdı; nə ağlayır, nə də

qışqırırdı. Uçqunu bir qədər kənara çəkdik. Qapını cəsədin altına qoyduq, cəsədi yavaş-yavaş onun üstünə itələdik. Nəhayət, bütün cəsəd uçqunun altından çıxıb qapının üstünə düşdü. O cəsədi də uşaqların vahimə dolu baxışları önündə həyətdən çıxarıb maşına qoyduq. Yazıq körpələr üz-başları toz-torpaq içində, sanki huşsuz halda bizə baxırdılar. Göz yaşları üzlərində palçıqlı iz buraxmışdı. Bir tərəfdən güclü partlayış, bir tərəfdən də ana və nənələrinin əzilmiş cəsədləri onları şoka salmışdı. Heç biri əl-ayağımıza dolaşıb maneçilik törətmirdi. Qoca ilə oğlu maşına minib cəsədlərlə Cənnətabad məzarlığına getdilər. Zavallı uşaqlar onlar qayıdana qədər gözləməli idilər.

Qayıdanda İlahə ilə ikimiz də sakit idik. Qoca arvadın qorxunc çöhrəsi bir an da gözlərim önündən getmirdi. Halım yaxşı deyildi, taqətim çəkilmişdi. Qoca arvadın əlimdə qurumuş qanına baxdım. O indi süfrə başında oturub nəvələrinə səhər yeməyi verməli idi![1]

***

Məscidin önündə toyota markalı bir neçə avtomobil dayandı. Hacı ağa Xalxali maşınların birindən endi. Onu televizorda görmüşdüm, inqilabdan sonra Narkotik Maddələrə və Qaçaqmalçılığa qarşı Mübarizə İdarəsinin rəisi təyin olunmuşdu. Narkotik qaçaqçılara qarşı operativ və sərt tədbirləri onu hər yerdə məşhurlaşdırmışdı. Xalxali bir neçə silahlı mühafizəçi ilə həyətə girib bir tərəfdə dayandı. Digər maşınlarda gələnlər və zahiri görkəmlərindən xarici olduqları bilinən bir neçə jurnalist də həyətə girib yanında dayandı. Xalxali qamətini düzəldib dedi: "Əziz bacı və qardaşlar! Biz indi Xürrəmşəhr cəbhələrindən gəlirik. Bir neçə dəqiqə öncə

[1] Ondan sonra bir neçə il yuxuda kabus gördüm: Hara gedirdimsə, üç-dörd metrlik kəllə qənd formasında olan qara paltarlı bir qarı arxamca düşür, piramida şəkilli birmetrlik qara başını üzümə yaxınlaşdırır, sanki mənə nəsə demək istəyirdi. Ancaq o, heç vaxt heç nə demədi.

düşmənlə döyüşdə qələbə çalıb Bəəs qüvvələrini bölgədən uzaqlaşdırdıq".

Camaat təkbir deməyə başladı. Xalxali düşmənə meydan oxuyurmuş kimi qəhrəman görkəm alıb üzünü xarici jurnalistlərə tutub dedi: "Düşmən elə bilməsin ki, onun qarşısında aciz qalacağıq. Bütün dünya bilsin ki, biz həmişə qalibik!"

Şüarçı sözləri heç cür ürəyimə yatmırdı. Bilmirəm camaat nə üçün tez-tez salavat və təkbir deyirdi. Oradakıların sözlərindən vəcdə gəldiyini görüb dedi: "Siz Xürrəmşəhr əhalisinə başqa bir şad xəbərim budur ki, bu gün evlərinizdən oğurluq edən beşinci kolon üzvünü tutmuşuq. Mən elə indicə müharibə qanunlarına uyğun olaraq, onun edam hökmünü çıxaracaq və burada gözləriniz önündə icra edəcəyəm".

Sonra başı ilə yanındakılara işarə verdi. Onlar gedib maşınların birindən qolları arxadan bağlanmış bir gənci məscidə gətirdilər. Xalxali əli ilə onu göstərib dedi: "Bu sizin evinizin, namusunuzun oğrusudur və indicə cəzasını çəkəcək!"

Çarəsizlikdən evlərini tərk edib məscidə toplaşmış didərgin əhali oğrunun tutulduğunu eşidib sevindi. Xalxali onu güllələmək üçün məsciddən çıxarıb qarşıdakı ağaca bağlamalarını əmr edəndə heç kim ən yüngül etiraz da etmədi. Xalxalinin əmrilə gəncin gözlərini də bağlayıb bir neçə dəqiqə ərzində güllələdilər. Bütün bunlar on beş dəqiqədən az müddətdə başa çatdı. Oğrunun diz çöküb başını irəli sallamış cansız bədənini ağacdan açıb Cənnətabada göndərdilər. Ölüm hökmünün icrasından sonra Xalxali ilə yanındakılar Xürrəmşəhrdən getdilər. Mən gəncin ölüm səhnəsini görüb narahat oldum. Bilmirdim ki, həqiqətən, heç kimin buna etirazı yox idi, yoxsa Xalxaliyə etiraz etməyə cəsarətləri çatmadı.

Bu hadisəyə məsciddə hərə bir cür şərh verməyə başladı. Bəzi adamlar deyirdilər: "Cəzası idi. Vəziyyətdən sui-istifadə edib

camaatın evinə oğurluğa girməməli idi!" Az bir qismi belə deyirdi: "Müharibə gedir, yazıq aclıqdan və çarəsizlikdən bir dələduzluq edib, bundan ötrü onu öldürmək düzgün deyildi!" Bəziləri də deyirdilər: "Qanun-qanundur, cavan-qoca tanımır. Gərək oğurluq etməyəydi. İndi ki edib, müharibə zamanı oğurluğun cəzası ölümdür!"

Vəziyyətim çox pisləşdi. Gəncin ailəsini düşünürdüm: Görəsən, indi haradadırlar, uşaqlarının başına nə gəldiyini bilirlərmi?!

***

Həsən Sorxunu son bir neçə gündə məsciddə görmüşdüm. Əbuzər qrupunun uşaqlarından idi.[1] Bilmirəm həqiqətən, soyadı Sorxu idi, yoxsa üzünün dərisi çox qırmızı olduğuna görə uşaqlar onu belə çağırırdılar. Bozumtul-yaşıl forma geyinəndə amerikalı və israilli əsgərlərdən fərqlənmirdi.

Abbas Əlivənd də hər gün döyüşçülərə yemək və su aparan uşaqlardan idi. Məni yaralılara yardım edəndə görmüşdü. Bir neçə gün idi ona deyirdim ki, bir dəfə məni də döyüş yerinə aparsın, amma hər dəfə boyun qaçırıb deyirdi: "Vaxt çoxdur. Vaxtı gələndə özüm deyəcəm". Məsciddə kömək edən qızlar arasında Məryəm Əmcədi ilə mən döyüş yerinə getməyə hamıdan çox israr edirdik. Bəzən Şeyx Şərif məscidə gələndə və yeri düşəndə ona da deyirdik. O da deyirdi: "Hələ gözləyin. Qardaşlar ordadırlar, sizə ehtiyac yoxdur".

Günorta idi. Xalxali təzə getmişdi. Abbas Əlivənd Həsən Sorxu ilə məscidə gəldi, mənə yaxınlaşıb yavaşca dedi: "Sabah bacı, döyüş yerinə getmək istəyirsənsə, qalx, gedək. Uşaqlara yemək aparırıq".

---

[1] Əbuzər qrupu müxtəlif mövqelərdə fəaliyyət göstərən könüllü xalq dəstələrindən idi. Onlar yaralıları geri gətirir, döyüşçülərə silah-sursat aparırdılar. Mühasirə halqası daralanda onlar da şəhərin müdafiəçilərinə qoşuldular.

Yay kimi yerimdən atıldım. Məryəm məsciddə olsaydı, o da gedərdi. Həsən Sorxu ilə Abbas Əlivənd iki-üç ədəd iyirmilitrlik bakı və yemək torbalarını kiçik yük maşınının arxasına yığıb öndə oturdular. Mən də maşının arxasına mindim. Çox həyəcanlı idim. Yol polisi istiqamətinə gedirdik. Əlidən eşitmişdim ki, orada vəziyyət çox pisdir, qızğın döyüş gedir. Bilmirəm necə olmuşdusa, Abbas məni məhz oraya aparmaq qərarına gəlmişdi.

Uşaqlarımızın düşmənlərlə döyüş səhnələrini görməyə tələsirdim. Onların əliyalın halda düşmənin önünü necə kəsdiklərini görmək istəyirdim. Döyüş yeri ilə məsafəmiz çox olmadığına görə birbaş döyüşün özünü görmək istəyirdim. O vaxta qədər ancaq xəbərləri eşitmişdim.

Maşın sürətlə yerindən tərpəndi. Şəhər əməlli-başlı ruhlar aləminə dönmüş, sanki hər şey ölüm yuxusuna getmişdi. Xürrəmşəhr bir neçə gün ərzində alt-üst olmuşdu, şəhərdə partlayış səslərindən başqa heç nə eşidilmirdi. Qəlpə dəymiş it və pişik leşləri şəhərin görünüşünü korlayırdı. Əksər ev və mağazaların divarlarına raket və mərmi dəymiş, əşyalar yolun ortasına səpələnmiş, küçələr çala-çökək olmuşdu. Elektrik kabelləri qırılıb dirəklərin yanına tökülmüşdü.

Kiçik yük maşınının arxasında atılıb-düşürdüm. Dəmir kuzadan möhkəm yapışıb kabinənin şüşəsinə söykənsəm də, arıq bədənim hər çökəkdə göyə atılırdı. 170 sm boya və 50 kq çəkiyə görə arıq sayılırdım. Son on gündə də çox arıqlamışdım. Başımı aşağı salıb dizlərimin üstündə saxlamağa çalışırdım.

Mövləvi və Səntap prospektlərini və Dəmiryol meydanını arxada qoyduq. Maşının ətrafına tez-tez raket düşür, qəlpələr başımızın üstündən keçirdi. Dizelabad prospektindən yeni körpü istiqamətinə gedirdik. Yolun kənarı iraqlıların yanmış maşınları ilə dolu idi, onlardan hələ də tüstü çıxırdı. Görünür, bizimkilərlə güclü döyüşə girmiş, axırda geri çəkilməyə məcbur

olmuşdular. Yeni körpüdən keçib Yüzevlər məhəlləsinə doğru getdik.

Yüzevlər məhəlləsi cərgə ilə düzülmüş dördmərtəbəli binalardan ibarət idi. Evlər gömrük və liman işçiləri üçün tikilmişdi. Şələmçə işğal ediləndən sonra iraqlılar yeni körpüyə çatmışdılar. Həmin günsə Yüzevlər məhəlləsinin arxasına qədər geri çəkilmiş və çoxlu itki vermişdilər.

Məhəllənin ilk binasının yanında ordu əsgərləri dayanmışdılar. Həsən Sorxu onların önündə əyləcə basdı və hər ikisi maşından düşdü. Mən də onların arxasınca getdim. J3 və kalaşnikov güllələrinin və RPG qumbaraatanlarının səsi bir an da kəsilmirdi. Abbas Əlivənd əsgərlərin başına qışqırmağa başladı:

-Niyə burda oturmusuz? İraqlılar məhəllənin arxasına tökülüşüblər, uşaqların çoxu yaralanıb, şəhid olub. Uşaqlar hətta yaralıları geri gətirə bilmirlər, sizsə burda boş-boş oturmusuz. Nə üçün onlara kömək etmirsiz?

Abbas Əlivəndin iri cüssəsi, qalın səsi vardı. Əsəbi halda bu sözləri deyən kimi, 19-20 yaşlı bir əsgər uşaq kimi ağlamağa başlayıb dedi: "Qardaş, Allah haqqı, biz kömək etmək istəyirik, amma icazə vermirlər". Həsən Sorxu dedi: "İcazə vermirlər?! Kim icazə vermir?"

Əsgər yenə ağlaya-ağlaya dedi: "Komandirimiz. Əmr edib ki, olduğumuz yeri tərk etməyək. Özü də hər saatdan bir gəlib bizi yoxlayır, hazır-qayıb edir. Deyib ki, kim qayıb olsa, səhra tribunalına veriləcək".

Bundan gülünc söz ola bilməzdi! Döyüşün qızğın yerində, belə bir böhranlı şəraitdə bu qədər əsgər dayansın, amma vuruşmağa icazə verilməsin. Bir 106 mm çaplı topları da vardı, yəqin istirahət etməsi üçün kölgəyə qoymuşdular! Mən dözə bilməyib əsgərlərə dedim: "Bu sözlərdən xəcalət çəkmirsiz?! O

komandir kimdir ki, sizə belə bir əmr verir?! Döyüşün ortasında belə əmr olar?!"

Əsgərlərin biri dedi: "Bacı, biz komandirimizə tabe olmalıyıq". Dedim: "Tabe?! Belə bir xain komandirə tabe olarlar?! Sizin aranızda bir kişi yoxdur ki, bu komandirin alnından bir güllə vursun?! Komandiriniz deməyib ki, şəhəri tez düşmənə təhvil verin?"

Hələ sözüm qurtarmamış komandirləri şəxsi heyəti yoxlamaq üçün bir SUV avtomobili ilə şəhər tərəfdən gəldi. Bizə yaxınlaşan kimi üzümü ona tutub dedim: "Şəhərdə düz-düz gəzib camaatın uşaqlarını tək qoymaqdan utanmırsız?!"

Komandir şəxsi heyətin önündə bir qızdan belə bir söz gözləmədiyinə görə qeyzlə dedi: "Bunun sənə dəxli yoxdur. Biz yuxarıdan əmr almışıq, müdaxilə etməyə icazə verilmir".

Bu sözü deyən kimi Abbas Əlivənd çaxmağını çəkib silahını komandirə sarı tutdu. O da tez çaxmağını çəkib silahını Əlivəndə doğrultdu. Vəziyyəti belə görüb tez silahımı əsgərlərə tuşlayıb komandirlərinə dedim: "Əgər atəş açsan, hamınızı güllələyəcəm".

Bunu deyəndən sonra əsgərlərin bir-ikisi, onların ardınca da başqa bir neçəsi komandirlərinə etiraz etməyə başladılar. Komandir vəziyyəti belə görüb silahını aşağı saldı, bir qədər sakit qaldı, sonra əsgərlərə dedi: "Kim istəyirsə, getsin, özü bilər, ancaq sonra bundan ötrü cavab verəcək".

Əlivənd tez topun qoyulduğu avtomobilə mindi, Həsənlə mənə də işarə ilə vanetə minməyimizi söylədi. Həsən Sorxu sükanın arxasına keçdi, mən də öndə oturdum. Əsgərlərin ondan çoxu bizimlə gəldi. Bir tərəfdə dayanıb qeyzlə bizə baxan, hirsindən bığını çeynəyən komandirlərinə məhəl qoymadan yola düşdük.

Uşaqların yanına əlidolu getdiyimizə görə çox sevinirdim. Silah-sursat baxımından necə sıxıntıda olduqlarını bilirdim. Belə bir şəraitdə bir top da böyük qənimət idi.

Çoxlu xahişdən sonra ilk dəfə idi döyüş yerinə gedirdim. Orada vəziyyət o qədər gərgin, döyüş o qədər qızğın idi ki, özümdən asılı olmadan beynim işləmədi. Gurultu, toz-torpaq və yer titrəməsi zehnimi mühasirəyə almış, şoka salmışdı. Vəziyyət o vaxta qədər eşidib təsəvvür etdiyimdən olduqca dəhşətli idi. Korpus uşaqları məhəllənin arxasında səngər seçib qarşılarındakı düşmənə atəş açırdılar.

Özümüzü uşaqlara yetirməli idik. Yüzevlər məhəlləsinin küçələri təhlükəli idi, iraqlılar artıq evlərə girmişdilər. Atəş səslərindən yerlərini müəyyən etmək olsa da, oradan çox ehtiyatla keçməli idik. Evlərin damlarından bizim olduğumuz yerləri asanlıqla görürdülər. Bu, işimizi çətinləşdirirdi.

Uşaqlara yemək aparmaq, evlərə çatmamış küçələrin birindən keçmək üçün bir-birimizi qorumalı və əyilə-əyilə keçməli idik; özü də düzünə yox, ziqzaq şəklində. Belə olanda bizi yaxşı nişan ala bilmirdilər. Qeyri-adi halda idim. Vücudum yeni və qəribə hisslə, qorxu dolu həyəcanla dolmuşdu. Hərəkətlərimə çox fikir verir, özümü zəif göstərmək istəmirdim. Əlivəndin məni gətirdiyinə bir an da peşman olmasını istəmirdim. Bilirdim ki, yaxşı çıxış etməsəm, məni bir də gətirməyəcək.

Qaça-qaça hərdən əlimi şalvarımın cibinə salıb üstümdəki iki əl qumbarasını yoxlayırdım. Geyindiyim əsgər şalvarını müharibənin ilk bir-iki günündə məsciddən götürmüşdüm. Korpusun iki cür şalvarı vardı: Biri hərbi formalarının idi, o birinə isə iş şalvarı deyirdilər. İş şalvarı bir qədər enli və rahat idi. Öz cins şalvarım narahat olduğundan bu şalvarlardan birini götürüb geyinmişdim. Qumbaraları onun cibinə asanlıqla qoya bilirdim.

Döyüşçülərin biri iraqlılarla bizimkilərin arasında yaralanıb qalmışdı. Uşaqlar səhərdən çox çalışmış, onu xilas edə bilməmişdilər. Top gələndən sonra isə vəziyyət dəyişdi. Abbas düşmənə ilk mərmini atanda bizimkilərin arasında canlanma yarandı, çox ürəkləndilər. Təkbir səsləri yeri titrədirdi. Düşmən mövqeyinə bir neçə mərmi atandan sonra hücumları azaldı və vəziyyət bir qədər sakitləşdi.

Vəziyyət sakitləşəndən sonra uşaqlardan iki-üç nəfəri yaralını gətirmək qərarına gəldi. Abbas Əlivənd və Həsən Sorxu ilə mən də silahlarımızı avtomat rejiminə keçirib uşaqları qorumağa başladıq. Onlar irəliləyərək tez bir zamanda su arxına düşmüş yoldaşlarını çıxarıb gətirdilər. O, qarnından yaralanmış, çoxlu qan itirmişdi. Geri aparmaq üçün onu yavaşca maşının arxasına qoyduq. Gətirdiyimiz su və yeməkləri tez maşından endirdik. Uşaqlar iyirmilitrlik su baklarını görüb çox sevindilər, quruyub çatlamış dodaqları gülümsədi.

Biz tez qayıtmalı idik. Yaralı onsuz da çoxlu qan itirmişdi, onu tez xəstəxanaya çatdırmaq lazım idi. Maşına mindik. Əlivənd dedi ki, səni məscidin yanında endirib özümüz xəstəxanaya gedəcəyik. Məscidin yaxınlığındakı dördyolda saxladılar və mən maşından endim.

Döyüş yerinə getdiyimi məsciddəki uşaqlara dedim. Hamısı məni dövrəyə alıb nə baş verdiyini soruşurdu. Ordu əsgərləri və səhərdən günortaya qədər arxda qalmış yaralı barədə hər şeyi danışdım, canlı qüvvənin və texnikanın çatışmadığını söylədim. Bildirdim ki, bircə top düşmənin geri çəkilməsinə səbəb oldu.

Uşaqlar arasında pıçapıç başlandı. Hamısı döyüş yerinə getmək istəyirdi. Həmin gündən başlayaraq tibbi yardım komandasındakı qızların döyüş yerinə getməsi təklif olundu. Qardaşlar bu təklifi bəyənmədilər, bizim döyüşün ortasına getməyimizi qeyrətlərinə sığışdırmırdılar. Digər tərəfdən, həm

döyüşün, həm də yaralıları yerbəyer etməyin öhdəsindən gəldiklərini deyirdilər.

***

Günortadan sonra Hüseyn dayı avtobusu ilə məscidin yanında dayanmışdı. Çox təəccübləndim. Fikirləşirdim ki, bu vəziyyətdə Bürucerddən Xürrəmşəhrə niyə gəlib. Deyirdi ki, sizi aparmağa gəlmişəm. Onu şəhərə buraxmamış, avtobusla şəhərə girməyin qorxulu olduğunu demişdilər. O da demişdi ki, bacımla uşaqları şəhərdə qalıblar, nə yolla olursa-olsun, onları aparmalıyam.

Hələ dayımın sözü bitməmiş atam gəldi. O, döyüş yerindən gəlirdi, üz-başı toz-torpağın içində idi. Onu sağ-salamat gördüyümə görə necə sevindiyimi bir Allah bilir. Anamla uşaqlar da məscidin önündə idilər. Qızlarla bir-bir atamızı qucaqlayıb öpdük. Hamımız bir yerdə idik. Dayım dedi: "Bacı, hazırlaşın, gedək". Anam dedi: "Hara gedək?" Dayım dedi:

-Bürucerdə. Daha burda qalmağın mənası yoxdur.

-Məgər mən uşaqlarımı burda qoyub gedə bilərəm?! Əli bir tərəfdə, Salehə bir tərəfdə. Axı mən hara gedim, dadaş?

Hüseyn dayı bir saata yaxın anamla danışdı, amma anam razılaşmayıb deyirdi: "Burda daha rahatam, ən azı, Əli ilə Salehədən xəbər öyrənə bilirəm. O biri uşaqlarım da yanımdadırlar, arxayınam". Dayım danışır, hər raket gurultusundan sonra başını əyirdi. Hələ qulağı bu səslərə alışmamışdı. Hüseyn dayı nə qədər israr etsə də, faydası olmadı. Yazıq deyirdi: "Biz sizdən ötrü çox narahatıq. Nə bir xəbər öyrənə bilirik, nə də sizə baş çəkə bilirik. Axı nə üçün uşaqları yanınızda saxlamısız? Yazıq Munanın, Abbasın nə günahı var ki, belə çətin qaçqın şəraitində qalıblar?!"

Dayım haqlı idi. O şəraitdə yaşamaq hamıdan çox uşaqlara çətin idi. Hər dəfə partlayış səsi gələndə yazıqlar sərçə kimi anama yapışırdılar. Muna birinci sinifdə oxuyurdu, Möhsünlə

Abbas da dördüncü və beşinci siniflərdə. Onlar müharibəni başa düşəcək yaşda deyildilər. Qidalanma vəziyyətləri bərbad idi, hər dəfə güclə bir şey tapıb yeyirdilər. Məscidin sanitar vəziyyəti də ürəkaçan deyildi. Tualetə getmək üçün növbədə dayanıb çox gözləməli olurduq. Anam bir qədər yumşalıb atama dedi: "Nə edək? Uşaqları göndərək, getsinlər? Belə daha arxayın olarıq". Atam dedi: "Mənim etirazım yoxdur, amma Munanın sənsiz qalacağını düşünmürəm. Orda yazıqları bezdirəcək, onların da bizə əlləri çatmayacaq". Anam dedi: "Doğru deyirsən. Firdovsu da onlarla göndərərik".

Firdovs bu sözləri eşidən kimi qaşlarını düyünlədi. Zavallı əsla getmək istəmirdi. Deyirdi ki, sizin yanınızda qalmaq istəyirəm. Uşaqlarla getməsi üçün anam ona çox xahiş etdi, axırda razılaşmaqdan başqa yolu qalmadı. Onda Firdovsun 15 yaşı vardı. Onun getdiyinə görə uşaqlardan arxayın olduq.

Uşaqların da heç biri getmək istəmirdi, amma atam qərara gəldiyinə görə onun sözünün üstünə söz deməyə cəsarət etmirdilər. Dayım xalam qızı İlahədən də çox israrla getməsini istəyir, tez-tez deyirdi: "Qız, bunların hamısı burdadırlar, axı sənin anangil də burda deyil, bəs sən nə üçün qalıbsan?!"

Dayım nə qədər israr etsə də, razılaşmayıb dedi ki, xalamgilin yanında qalacağam.

Uşaqlar avtobusa minəndə atamdan başqa hamımız ağlayırdıq. Anamın bütün üzü islanmışdı, tez-tez uşaqları Firdovsa taşpırırdı. Hüseyn dayının dörd uşağı vardı: Məhəmmədhəsən, Əli, Rza və İlham. Anam uşaqlara tapşırırdı ki, dayıdostunu və uşaqları incitməsinlər. Elə bilirdik ki, dayımı və uşaqları sonuncu dəfə görürük. Xürrəmşəhrin vəziyyətinə görə heç kim bir dəqiqədən sonra başına nə gələcəyini təxmin edə bilmirdi. Muna anamdan ayrılmırdı. Onu bərk qucaqlayıb yalvarırdı ki, sən də bizimlə gəl. Dayım onu anamın boynundan ayırıb avtobusa mindirdi. Sağollaşandan sonra yola düşdülər.

Avtobus qırxmetrlik prospektə dönəndə sanki ürəyimizi qoparıb özü ilə apardı. Dodaqaltı Ayətül-kürsi oxuyur, Allaha yalvarırdıq ki, Bürucerdə sağ-salamat çatsınlar. O şəraitdə dayımın avtobusu düşmən üçün hərəkətli bir hədəf idi, hər an vurula bilərdi.

Hamama çox ehtiyacım vardı. Bütün paltarlarım qanlı və toz-torpaqlı idi. O qədər çirkli idi ki, ağac kimi qurumuş, parçalıqdan çıxmışdı. O biri qızların da vəziyyəti belə idi. Görkəmimizdən, üz-başımızdan acığımız gəlirdi. Bir neçə gün öncə Xədicəgildə yuyunmuşduq, ancaq elə bil aylardır su üzü görməyən adam kimi idik. Bu problemi necə həll edəcəyimizi düşündüyümüz zaman Zöhrə Hüseyni Abdulla Məavinin bizə kömək edə biləcəyini söylədi.

Abdulla 15-16 yaşında olsa da, üzü və cüssəsi yaşını az göstərirdi, onunla rahat danışırdıq. Abdulla dedi: "Xalamgilin evi Abadandadır. Onlar gedəndə evlərinin açarını mənə veriblər. İndi gedib gətirərəm".

Tez evin açarını gətirdi. Açarı alıb Zöhrə Hüseyni, İlahə və Bilqeyslə birgə Abadana yola düşdük. Abdullanın xalasıgilin sadə evləri vardı. Bir-bir hamama girdik. Növbə mənə çatanda əvvəlcə paltarlarımı yuyub, sərmək üçün uşaqlara verdim. Duşun altına yenicə girmişdim ki, birdən qırmızı vəziyyət elan olundu, təyyarələrin gurultusu və bombardman başlandı. Tələm-tələsik bayıra çıxıb nəmli paltarlarımı geyindim.

Uşaqlarla birgə Xürrəmşəhrə qayıtdıq, evin açarını Abdullaya verib təşəkkür etdik.

Boş vaxt tapan kimi uşaqlarla birgə sarğı taxtası düzəltməyə başlayırdıq. Onları bərk taxtalardan düzəldirdik. Tibbi yardım və ya başqa bir iş üçün məsciddən çıxanda yaxşı taxta tapmaq üçün ətrafımıza diqqətlə baxırdıq. Xalq yardımları gələndə işimiz asanlaşdı. Yardımların çoxu taxta yeşiklərə düzülmüş meyvələr olurdu. İşimiz onların mismarını çıxarıb sarğı taxtası

düzəltmək olmuşdu. Sarğı taxtası yara ilə birbaş təmasda olduğuna görə təmiz olmalı, dezinfeksiya edilməli idi. Çox vaxt yara o qədər dərin olurdu ki, yaralının sınmış sümükləri ətdən çıxırdı. Belə yaralar tez irinləyə bilərdi. Buna görə sarğı taxtasına sterilizə olunmuş pambıq dolayırdıq. Pambıq tapmayanda evlərdən topladığımız mələfələrdən istifadə edirdik.

Məscidin həyətində sarğı taxtası düzəltdiyim yerdə birdən Fəxr-Razi prospekti tərəfindən partlayış səsi gəldi. Oradakı evlərin heç birində adam olmadığına əmin idim, ancaq döyüşçülərin gedib-gəldiyi yer olduğuna görə tez məsciddən çıxdım. Raket boş evlərdən birinə düşmüş, heç kimə xəsarət toxunmamışdı. Köməyə ehtiyac olmadığını görüb məscidə qayıtdım.

Qayıdanda raket zərbəsindən tavanı uçmuş və ayaqqabıları küçəyə tökülmüş bir mağaza gördüm. Gedəndə o qədər fikirli idim ki, görməmişdim. Küçənin ortasına tökülmüş sahibsiz ayaqqabıları görəndə özümdən asılı olmadan döyüş yerindəki uşaqların ayaqqabıları yadıma düşdü. Dünən oraya yemək aparanda birinin ayağına gözüm sataşmışdı. Ayaqqabısının önü elə yeyilmişdi ki, ayağının bütün barmaqları bayırda qalmışdı. Yazığın yaşı az idi, gözlərimi onun ayaqqabısına dikdiyimi görüb utandı, barmaqlarını cırıq ayaqqabısının içinə saldı. Digər döyüşçülərin paltar və ayaqqabıları da pis vəziyyətdə idi. Çoxlu fəaliyyətə və yerdə süründüklərinə görə əksərən şalvarlarının dizləri də cırıq olurdu. Mən bəzilərinin çəkələklə döyüşə getdiklərini görmüşdüm. Bəziləri isə ümumiyyətlə ayaqyalın vuruşurdular.

Uşaqların məzlumluğu adamın ürəyinə od vururdu. O səhnələri görəndən sonra özümün ayaqqabı geyinib, döyüşçülərin isə ayaqaylın qalmalarına dözə bilmədim, idman ayaqqabımı bir döyüşçünün ayağındakı çəkələklə dəyişdirdim.

Bunları yada salandan sonra yolumu ayaqqabı mağazası tərəfdən saldım. Əmin idim ki, mağazanın sahibi orada olub sözlərimi eşitsəydi, uşaqlara ayaqqabı aparmağıma ürəkdən razılıq verərdi. Ayaqqabıların bəzisi partlayışdan yanmış, çoxu da küçəyə səpələnmişdi. Bununla yanaşı, hələ mağazada çoxlu ayaqqabı vardı. Onları cütləyib bağlarını bir-birinə bağladım. Bacardığım qədər ayaqqabı aparmaq istəyirdim, amma sahibindən icazə almadan mağazanın içinə girməyə cəsarət etmədim, yalnız küçəyə tökülənləri götürdüm. Onlar sanki döyüşçülərin payı idi. Bir cüt dabansız ayaqqabı da özümə götürüb məscidə yola düşdüm.

Məsciddə təsadüfən, ayaq barmaqlarını cırıq ayaqqabısında gizlədən cavan oğlanı gördüm. Ayaqqabısının önü tam açılmışdı. Bir neçə döyüş yoldaşı ilə məscidə istirahət etməyə gəlmişdi. O günlərdə məscid hamının evinə çevrilmişdi. Bir Allah bilir ki, onu görməyimə necə sevindim. Ayaqqabıları məscidin divarının dibinə töküb ona yaxınlaşdım, gəlib həm özü, həm də dostları üçün ayaqqabı götürməsini istədim. Zavallı çox sevindi, görünür, cırıq ayaqqabılarla çox əziyyət çəkirmiş.

Uşaqlar döyüş yerindən yaxşı xəbərlə gəlməmişdilər. Dediklərinə görə, düşmən gömrükdən Səntapa, yəni bizim məhəlləmizə girmişdi. Evlərimizin düşmən səngərinə çevrildiyini düşünüb pis oldum. Bu xəbərdən öncəyə qədər evimizə qayıtmağa ümidim çox idi, bütün vücudumla gözləyirdim ki, bugün-sabah dövlət tərəfindən canlı qüvvə və texnika göndəriləcək, müharibə bitəcək, biz də evlərimizə qayıdacağıq. Məhəlləmizin işğal olunduğunu eşidəndə isə sanki bütün ümidlərim puç oldu.

Bilqeyslə birgə doktor Səadətin yanında dərmanları yaxşı öyrənmişdik. Səadət onların adlarını və qruplarını deyəndə çox tez yadda saxlayırdım. Buna xüsusi maraq və istedadım vardı.

Amoxicillin, penicillin, gentamicin kimi antibiotikləri, novalgin, baralgin, aspirin, naproxen kimi ağrıkəsiciləri, qarınağrı və ishal dərmanlarını, alüminium mg şərbətini, dimeticon, simeticon, ranitidin kimi mədə həblərini, ürək dərmanlarını, sakitləşdirici valium dərmanını və iynəsini yaxşı tanıyırdım. Hər qrupa aid dərmanları ayırıb yerinə qoyurdum. İynələri də eyni üsulla qruplara bölmüşdük. O zaman amoxicillin və penicillin kimi əzələ iynələri həmişə əlimizin altında olurdu. Doktor Səadət öyrətmişdi ki, dərmanların son istifadə tarixinə baxaq və vaxtı keçənləri zibil qutusuna ataq. Əsəb dərmanlarına və sakitləşdiricilərə məsciddə ehtiyac olmur, onları xəstəxanaya verirdik. Doktor Səadət yavaş-yavaş bizə serum qoşmağı öyrətdi. Xüsusi xarakterləri vardı, heç vaxt onu "doktor" çağırmağa qoymurdu. İşimiz çox olsa da, namaz vaxtı işini saxlayıb namaza gedirdi. Namazlarını tələsmədən və çox diqqətlə qılırdı. Cümə axşamı Kumeyl duasını yaddan çıxarmırdı. Təmizliyə riayət etmək baxımından da birinci idi. Biz bəzən qanlı, toz-torpaqlı əllərlə xörək yeyirdik, o isə əllərini təmiz yumayınca süfrəyə oturmurdu.

Bir axşam məscidin ətrafında güclü partlayış səsi eşidib bayıra qaçdıq. Partlayış o qədər yaxında baş vermişdi ki, məscidin günbəzinin kərpicləri titrəyirdi. Növbəti bombanın məscidin həyətinə, bizim başımıza düşəcəyini gözləyirdik. Qadınların qışqırıq səsi məscidi bürümüşdü. Yavaşca kəlmeyi-şəhadətimi dedim. Elə bilirdim ki, daha işimiz bitdi. Ürəkdən arzu edirdim ki, kaş atam, Abbas, Möhsün, Muna, Əli və Salehə də yanımızda olaydılar. Hamımız birlikdə getsəydik, çox yaxşı olardı. Yarısı gedəndə digər yarısı əzab içində qalırdı!

Bunları fikirləşdiyim yerdə vəziyyət yavaş-yavaş sakitləşdi. Haranın bombalandığını bilmək üçün məsciddən çıxdıq. Bombaların hamısı məscidin ətrafına düşmüş, Allahın köməyi ilə heç biri məscidə dəyməmişdi. Məscidə ən yaxın bomba

Tədəyyün adlı sinif yoldaşımgilin evinə düşmüşdü. Camaatla birgə dağıntıları kənara çəkməyə başladıq. Xoşbəxtlikdən, evdə Tədəyyündən başqa heç kim olmamış, o da həmin vaxt həyətə çıxıbmış. Əlbəttə, ayağının biri ağır yaralanmış, çoxlu qan itirmişdi. Partlayış dalğasına görə şokda idi, gözlərini yaralanıb əzilmiş dizinə dikib qalmışdı. Kişilərin biri cəld maşını qapının ağzına gətirdi, bir neçə nəfərlə köməkləşib onu maşına qoyduq. Qəlpə dəymiş ayağını əlimlə tutmuşdum, fikir verirdim ki, dizindən qopmasın. Ayaq dəridən və bir tikə ətdən asılı qalmışdı. Onu xəstəxanaya apardıq.[1]

***

Sentyabrın 30-dan etibarən məscidə gətirilən yüngün yaralıların sayı bir neçə dəfə artdı. İraqlılar yol polisi istiqamətindən Dizelabada doğru gəlmişdilər. Sentyabrın 3-də günorta çağı Bəəs qüvvələrinin şəhərə girdiklərini, Dəmiryol meydanına və İbn Sina adına ibtidai məktəbə qədər irəlilədiklərini eşitdik. Mən beşinci sinfi həmin məktəbdə oxumuşdum. Məktəbin siniflərində, həyətində məsum Xürrəmşəhr uşaqlarının yerinə iraqlıların gəzdiklərini fikirləşəndə halım pisləşirdi. Onların məscidlə məsafələri elə də çox deyildi. Şəhərin işğalı fikri xora kimi canıma düşmüşdü.

Məsciddəkilərin arasına çaxnaşma düşdü. Hərə bir iş görürdü. Bəziləri Mahmud Fərruxinin və Şeyx Şərifin icazəsi ilə Məryəmlə birgə keşik çəkdiyimiz silah anbarından qumbara və patron götürürdü. Hava olduqca isti idi. Bunu adamların üz-başlarındakı tərdən və susuzluqdan qurumuş dodaqlarından başa düşmək olurdu. Heç kim bir yerdə qərar tuta bilmirdi. Düşmən şəhərə girmişdi, təhlükə qulağımızın dibində idi. Dünən onları Yüzevlər məhəlləsindən çıxarmışdıq, ancaq gecə vaxtı yenə irəliləmişdilər.

---

[1] Ayağı kəsilsə də, Tədəyyün sonralar dərsini oxuyub Əhvaz Tibb Universitetini bitirdi və həmin şəhərdə həkim işlədi.

İraq tərəfi səhər tezdən şəhəri güclü hava və artilleriya atəşinə tutmuşdu. Məscidə gətirilən yaralılar o qədər çox idi ki, başımızı qaşımağa vaxtımız yox idi. Birinin yarasını bağlayan kimi o birinin yarasının qanını yuyub təmizləməli idik. Bu iş bitməmiş bir ağır yaralı gətirirdilər, tez maşına mindirib Abadanın Taliqani xəstəxanasına göndərirdik. Bir neçə gün öncə İraq MiQ-ləri Müsəddiq xəstəxanasını bombaladıqlarına görə orada heç bir xidmət göstərilmirdi. Elektrik enerjisi kəsildiyinə görə morq da istifadəsiz qalmışdı.

Bütün bu amillər yaralıların işini çətinləşdirirdi. Onların qanaxma müddəti artmış, tibbi yardım sürəti azalmışdı. Lakin bunlar döyüşçülərin və şəhərdə qalmış əhalinin iradəsini zəiflətmək əvəzinə, onları qalıb müqavimət göstərməyə ruhlandırırdı. Biz qalıb şəhərimizi müdafiə etməli idik. İmamımız da, biz də bunu istəyirdik. Hamımız Bəni-Sədrdən ümidimizi üzmüşdük. Ordu da onun tabeliyində idi, onun iradəsinin əksinə gedə bilmirdi. Bütün ümidimiz imama idi.

Salavat deyə-deyə bir yaralının yarasını sarıyırdım. Bir neçə dəqiqə öncə bayıra çıxmış Mahmud Fərruxi tövşüyə-tövşüyə məscidə gəlib dedi: "Bacı və qardaşlar! Molotov kokteyli düzəltməkdən ötrü ətrafdakı mağazalardan çoxlu butulka və sabun toplamışıq. Başqa yolumuz yoxdur, düşmən artıq şəhərə girib, nə yolla olursa-olsun, qarşısını almalıyıq. Kömək edin, sabunları doğrayıb şüşələrə dolduraq".

Cəld işə başladıq. Əlim gah butulkalarda idi, gah da yaralıların yarasında. Bu zaman Şeyx Şərif də məscidə gəldi. O, Mayor Şərifnəsəb adlı bir zabitlə birgə daim cəbhə ilə məscid arasında idi. Mayor Şərifnəsəbin qırx yaşı olardı, özünəməxsus xarakteri vardı. O, sözləri ilə daim insanları müqavimətə həvəsləndirirdi. Bir dəfə əsgərlərin biri ona silahsızlıqdan şikayət edəndə çox ciddi şəkildə dedi: "Silah-sursat iraqlılardadır, gərək gedib onlardan alasan!" Danışığı ilə həmişə

uşaqları cəsarətləndirirdi. Özü hərbçi olsa da, daha çox xalq könüllüləri ilə işləyirdi. O, işindən ötrü xüsusi çərçivə təyin etmir, ətrafına hasar çəkmir, həqiqətən, ürəkdən və qeyrətlə vuruşurdu.

Şeyx Şərif deyirdi ki, döyüşçülərimiz son damla qanlarına qədər müqavimət göstərəcək, Allahın izni ilə düşmənin bundan artıq irəliləməsinə imkan verməyəcəklər. Deyirdi ki, düşmənlər tanklarla yol polisinin 5 km-liyindən Dəmiryol meydanına qədər irəliləmişlər, amma korpus uşaqları və xalq könüllüləri boş əllə onları dayandırmışlar. Düşmən Xürrəmşəhri qərb istiqamətindən ağır hücuma məruz qoymuşdu.

Hamımız işə başladıq; həm mətbəx və tibbi yardım uşaqları, həm də məsciddəki digər adamlar. O qədər cəld sabun doğrayırdıq ki, bir neçə dəfə bilmədən barmaqlarımızın dərisini qopardıq. Molotov kokteylləri hazır olandan sonra döyüşçülərə verirdik. Deyirdilər ki, tanklar irəliləsə, ən azı, evlərin damından hərəkətlərinə mane ola bilərik.

Döyüş yerlərindən və Dəmiryol meydanından gələn hər bir xəbəri səbirsizliklə gözləyirdik. Axşama yaxın Mayor Şərifnəsəb Şeyx Şəriflə birgə yorğun halda, amma gülərüzlə məscidə gəlib dedilər ki, uşaqlar Allahın köməyi ilə düşməni geri qovdular. Bu xəbəri eşidəndən sonra insanların necə sevindiyini yalnız Allah bilir. Təkbir səsi ucaldı, çoxları şükür səcdəsi etdi. Əgər iraqlılar irəliləsəydilər, bizi şəhadətdən, ya əsirlikdən, şəhərimizi də işğaldan başqa bir şey gözləmirdi.

Təxminən bir saatdan sonra korpus uşaqları sevincək məscidə gəldilər. Tutduqları bir neçə əsiri geri göndərmək istəyirdilər. Çoxlu şəhid vermiş olsaq da, uşaqlar düşmənin qarşısını aldıqlarına görə sevinclərindən yerə-göyə sığmırdılar. Dediklərinə görə, iraqlılar tanklarını qoyub qaçmışdılar. Korpus uşaqları həqiqətən, xüsusi rəşadət göstərmişdilər.

Axşamüstü əsirləri apardılar. Döyüşçülərin tövsiyəsi ilə əsirlərə həm su verirdik, həm də yemək. Onlar da dayanmadan "dəxil Xomeyni" qışqırır, imamın mərhəmətinə sığındıqlarını ifadə edirdilər. Gözlərində xüsusi qorxu əlamətləri vardı. Onları öldürəcəyimizdən qorxur, bizdən elə insani rəftar gözləmirdilər.

Əsirləri göndərəndən sonra korpus uşaqları qənimət götürdükləri tank və maşınlarla təxminən yarım saat məscidin önündə paraddan keçdilər. Biz də təkbir deyə-deyə onlara təşəkkür edirdik.

***

Doktor Səadətlə və uşaqlarla birgə məscidin həyətində oturub camaatın gətirdiyi və Fəxr-Razi prospektində raketlə vurulmuş aptekdən topladığımız dərmanları ayırırdıq. Bu yerdə gənc bir kişi ağlaya-ağlaya məscidə girdi. Ucaboy, enlikürək kişi idi, tozlu parlaq saçı çiyninə çatırdı. Yumru və sıx qara saqqalı vardı, boz şalvar geyinmişdi. Əməlli-başlı bir partizan təsəvvürü yaradırdı; sanki aylardır döyüş bölgəsindədir və şəhər üzü görməyib. Gələn kimi həyətdə bir az gəzdi, ətrafına baxdı, sonra divara söykənib uşaq kimi ağlamağa başladı. Zar-zar ağlayırdı, çiyinləri tərpənirdi. Fikirləşdim ki, yəqin dostunu və ya əzizini itirib. Yad adama oxşayırdı, onu məsciddə görməmişdim. Hamıdan öncə ona yaxınlaşıb dedim: "Qardaş, Allah səbir versin! Bir az dözmək lazmdır".

Sözümü dinləmədən səsini ucaltdı. Yenə dedim: "Qardaş, özün bilirsən ki, bu şəraitdə yalnız ruh yüksəkliyimizi qorumaqla davam gətiririk. Şəhidlik hər bir müsəlmanın son arzusudur, ən yüksək məqam şəhidə aiddir".

Bunu deyəndən sonra bir qədər sakitləşib dedi: "Bacı, bunları yaxşı bilirəm. Mən dostlarımın şəhid olduğuna görə yox, bu şəhərin məzlumluğuna ağlayıram".

Yerimdə quruyub qaldım. Təəccübümü və sükutumu görüb dedi: "Mən Tehrandan gəlmişəm. Biz on iki dost idik. Dost yox,

qardaşdan da yaxın idik, xanım. Keçən il Kürdüstan iğtişaşlarında hamımız oraya getdik, bir ilə yaxın vuruşduq. Demokrat partiyasından, hörgütlərdən tutmuş əks-inqilabçı qüvvələrlə döyüşə qədər əlimizdən gələni əsirgəmədik. Vəziyyət sakitləşəndən sonra Tehrana qayıtdıq. Xürrəmşəhrdə vəziyyətin pisləşdiyini eşidib dünən on ikimiz də Xuzistana yola düşdük, bu gecə çatdıq və dərhal yol polisi ətrafında vuruşan uşaqlara qoşulduq. Müdafiəsiz Xürrəmşəhr cəbhəsinə təzə gəlmişdik ki, dostlarım bir-bir olduqca məzlum şəkildə şəhid oldular. Mən yoldaşlarımdan səkkizinin şəhid olduğunu bilirəm, bura gəlmişəm ki, o biri üç nəfərdən bir xəbər öyrənim".

Sözü buraya çatanda mən də ağlamaq istəyirdim. Xürrəmşəhrin və onun müdafiəçilərinin məzlumluğunu necə gözəl başa düşmüşdü! Getdikcə daha bərkdən ağlayırdı. Ürəyi dolu idi. Uşaqlar onu bir tərəfdə oturdub əlinə bir stəkan su verdilər. Bir qədər sakitləşəndən sonra dedi ki, bir neçə saat da gözləyəcək, o biri dostları gəlməsələr, beş şəhid yoldaşının cəsədini götürüb Tehrana qayıdacaq.

Onu dinlədiyim yerdə təxminən iyirmiyaşlı ucaboy, arıq bir gənc korpus şalvarında və nazik ağ köynəkdə məsciddən çıxdı, düz mənə doğru gəlib salam verdi. Kim olduğunu və mənimlə nə işi olduğunu düşündüyüm yerdə dedi: "Mən Əli Hüseyniyəm, Zöhrənin qardaşı".

Onu tanıdım, ancaq mənim onun bacısı ilə dost olduğumu haradan bildiyini anlamadım. Əlində bir korpus köynəyi və kalaşnikov avtomatı vardı. Səliqəsiz və toz-torpaqlı üst-başı döyüş yerindən gəldiyini göstərirdi. Bacısı Zöhrəni soruşdu. Dedim: "Allaha şükür, yaxşıdır. Bir neçə dəqiqə qabaq burada idi, harasa getdi".

Silahı və köynəyi uzadıb dedi: “Bu silahı iraqlılardan qənimət almışam. Zəhmət olmasa, bacımı görsəniz, verin, deyin ki, saxlasın, sonra gəlib alacam”.

Silahı və köynəyi alıb dedim: “Baş üstə! Əmanətinizi sağ-salamat təhvil verəcəyəm”.

Başqa bir söz demədən sağollaşıb getdi. Zəhraya – mən onu belə çağırırdım - çox yazığım gəldi. O, qardaşını görməyi çox istəyirdi, ondan ötrü ora-bura qaçmışdı, ancaq düz məsciddən getdiyi zaman qardaşı gəlmişdi. Dediyinə görə, üç-dörd aya yaxın idi Əlini görmürdü. Əli müharibə başlamazdan öncə cərrahiyyə əməliyyatından ötrü Tehrana getmiş, əməliyyatdan sonra Xürrəmşəhrə qayıdıb birbaş cəbhəyə yollanmışdı. Bu müddətdə bacı-qardaş bir-birini görə bilməmişdilər. Silahı köynəyə büküb dərman şkafının üstündə gizlətdim.

Zöhrə məscidə gələndə axşam düşmüşdü. Cənnətabad məzarlığına köməyə gedibmiş. Ona dedim:

- Axırı Əlini görə bildin, yoxsa yox?

- Yox, Sabah, hələ tapmamışam.

- Axşamüstü bura səni görməyə gəlmişdi.

İnana bilmirdi. Yazıq görkəmi aldı.

- Nə vaxt?

- Sən məsciddən gedəndən bir neçə dəqiqə sonra. Sənə bir əmanət verdi.

Köynəyi və kalaşnikovu gətirib verdim. Köynəyi görən kimi gözləri yaşardı, qucaqlayıb qoxuladı, öpdü və kövrəldi.

- Sən Allah, görürsən?! Mən haçandır cəsədlərin, döyüşçülərin arasında, gümanım gələn hər yerdə Əlini axtarıram, o isə mən məsciddən çıxan kimi bura gəlib!

-Zəhra can, daha nə etmək olar?! Narahat olma. Allaha şükür elə ki, sağ-salamatdır. Bunun özü dünya qədər dəyərlidir.

-Sabah, gedək, silahı bizdə gizlədək? Orda olsa, arxayın olaram. Məscidə bu qədər adam girib-çıxır, bilmirəm hara qoyum.

Birlikdə getdik. Evləri Taliqani məhəlləsində bələdiyyə binalarında idi. Taliqani də təhlükəli yer idi. Silahı döşəklərin arasına qoyub yenidən məscidə qayıtdıq.

Azan verilmişdi. Namazımızı qıldıq. Təxminən saat on idi. İraqlılar şəhəri atəşə tutmağa başlamışdılar. Zəhra və Əşrəflə birgə məscidin həyətində oturub danışdığımız yerdə korpus uşaqlarından biri qışqırıb başına vura-vura məscidə gəlib dedi: "Kömək edin! Bütün uşaqları öldürdülər! Qardaşlarımızı qanlarına qəltan etdilər! Korpusun qərargahını vurdular..."

Çox qorxdum. Qardaşım Əlini xatırladım və bütün vücudumu həyəcan bürüdü. Əsgərlər məscidin həyətində rahat yatmışdılar. Anam heç kəsin məhəl qoymadığını görüb kişi və əsgərlərə hirsləndi:

- Ayağa qalxın! Xəcalət çəkin! Qardaşlarınızın köməyə ehtiyacı var, sizsə başızı atıb yatmısız!

Anam bunu deyib həmin pasdardan korpusun qərargahının yerini soruşdu. Sonra anam, Şahnaz, Əşrəf, İlahə və Zəhra ilə birlikdə getdik. Tələsik Bahar küçəsinə, korpusun Admiral Rəsayi adına orta məktəbdə yerləşən qərargahına qaçdıq. Məsciddən çıxandan sonra qardaşım Əlinin döyüşçülərin düzəltdikləri səngərin yanında kədərli halda dayandığını gördüm. O da məscidə köməkçi aparmağa gəlmişdi. Onu görüb sakitləşdim, yaxınlaşıb soruşdum: "Əli, necəsən? Halın yaxşıdır?" Dedi: "Kaş ölmüş olaydım, Sabah!"

Qüssədən səsi titrəyirdi. Gecənin qaranlığında hamımız qaça-qaça özümüzü Admiral Rəsayi məktəbinə çatdırdıq. Yolda bildik ki, anam həyəcandan məsciddən ayaqyalın çıxıbmış. Məktəbdə korpus uşaqlarından ikisi üz-başları tozlu halda, qəm-kədər içində hərəsi əlində bir lampa məqsədsiz şəkildə

oyan-buyana gedirdilər. Hər yeri barıt və yanmış ət iyi bürümüşdü. Zülmət qaranlıq olsa da, lampaların zəif işığından məktəbin bütün həyətini bürümüş tüstünü və toz-dumanı görmək olurdu. Məktəbin qabağında bir chevrolet blazer dayanmışdı, içi korpus uşaqlarının cəsədlərilə dolu idi. Bir təcili yardım maşını da vardı, içində bir neçə yaralı uzanmışdı.

Dizlərim əsirdi. Anam ağlaya-ağlaya sinəsinə vururdu. Bir anlığa təsəvvür etdim ki, əgər Əli də bu cəsədlərin arasında olsaydı, nə edərdim?! Maşının içindəki cəsədlərdə ilk diqqətimi cəlb edən uşaqların birinin əzilib parçalanmış nisbətən iri, amma yarımçıq bədəni oldu.

Məktəbə girmək istəyirdik, amma buraxmırdılar, deyirdilər ki, dama bir neçə top mərmisi düşüb, hansısa partlamamış ola bilər. Özləri o halda şəhidləri göz yaşları içində dağıntıların altından çıxarıb maşına aparırdılar. Biz də bir tərəfdə dayanıb onlara tamaşa edirdik. Onlar necə də məzlumcasına şəhid olmuşdular!

Heç şübhəmiz yox idi ki, bu iş beşinci kolonun əməlidir. Korpusun qərargahının koordinatlarını onlardan başqa kim düşmənə belə dəqiq şəkildə verə bilərdi?! Korpus uşaqları təhlükəsizliklə bağlı tez-tez yerlərini dəyişdirirdilər. Bu partlayış isə beşinci kolonun şəhərdəki güclü fəaliyyətindən xəbər verirdi. Şəhidləri bir-bir blazerə, yaralıları da təcili yardım maşınına qoyurdular. Bir yaralının ayağı dizdən kəsilmişdi, maşından sallanırdı. Qorxurdum ki, qaranlıqda qopub düşər, heç kim bilməz. Yaxınlaşıb qanlı ayağını ikiəlli ehtiyatlı götürüb öz yanına qoydum. Əlim ayağının qanından istiləşdi. Qəribə hisslər keçirirdim. Yaralı nə etdiyimi anlamadı. O, gözübağlı uzanıb ağrıya dözməyə çalışır, yavaşca "Allahu-əkbər" deyib əlləri ilə maşının yerini çəngələyirdi.

Şəhid və yaralıları Abadanın Taliqani adlı xəstəxanasına göndərmək qərarına gəldilər. Əvvəlcə təcili yardım maşınını

məscidə sürəcək, yüngül yaralıları orada endirəcək, ağır yaralıları xəstəxanaya aparacaqdılar. Şəhidləri də orada morqa təhvil verəcəkdilər. Maşınlar yola düşəndən sonra biz də qaça-qaça məscidə getdik. Oradan məscidə təxminən 10 dəqiqəlik yol vardı. Biz çatanda təcili tibbi yardım maşını yüngül yaralıları endirib getmişdi. Yeddi-səkkiz yaralını məscidin həyətinə uzatdılar. Tez Xəlil Nəccara kömək etməyə başladıq. Uşaqlar yaraların üzərinə fənərlə işıq tutur, Xəlil də diqqətlə və səbirlə əlindən gələni edirdi. O, üzdəki qəlpələri çıxarır, yaralarını tikirdi. O uşaqların necə dözümlü olduqlarını bir Allah bilir! Xəlilin məşğul olduğu müddətdə "Allahu-əkbər", "ya Hüseyn" və "ya Zəhra" pıçıltılarından başqa bir səsləri çıxmırdı. Yaralıların dediyinə görə, mərminin düşdüyü yerin yaxınlığındakı uşaqların çoxu tikə-tikə olmuşdu. Özləri bir qədər aralıda olduqlarına görə bir neçə yerdən qəlpə yarası almışdılar.

Yaralıların arasında birinin vəziyyəti yaxşı deyildi. Qəlpə topuğunu parça-parça etmişdi. Xəlil Nəccar onun ayağını yumağı mənə tapşırdı, özü isə serum qoşdu. Çəkməsi yandan açılmışdı, yarası görünürdü. Çəkməni çıxarmaq üçün yavaşca bağını açdım. Yarası elə dərin, qanaxması o qədər güclü idi ki, ayağının qopacağından qorxurdum.

Çox ehtiyatla çəkməni çıxardım. Əllərim qanın içində idi. Ayaq sümükləri əti parçalayıb bayıra çıxmışdı. Vəziyyəti olduqca ağır idi, sanki ayağının əti rəndələnmişdi. Onu məscidə gətirməməli idilər. Görünür, yaranın çox dərin olduğunu bilməmişdilər. Dezinfeksiya etmək üçün yarasının üzərinə savlon tökdüm, sonra bir neçə tənziflə üstünü örtdüm. Biz bu işə tamponlama deyirdik. Bunu edəndə yaralı dözə bilmir, gözlərini yumub huşunu itirir, bir qədər sonra yenə gözlərini açırdı.

Ayağı topuqdan kəsilmək üzrə idi. Xəlillə bir-birimizə baxdıq. Məsciddə olan imkanlarla əlimizdən heç nə gəlmirdi. Onu xəstəxanaya aparmaq lazım idi.

Yaralıları məsciddən xəstəxanaya göndərmək işinə Xəlil Nəccar rəhbərlik edirdi. Məsciddəkilərdən birinin kiçik yük maşını vardı. Tez onu çağırıb dedi ki, elə bu dəqiqə onu xəstəxanaya aparsın. Yaralı çoxlu qan itirmişdi, həyatı təhlükədə idi. Kişilər huşdan getmək üzrə olan yaralını maşının yük yerinə uzatdılar. Qərara gəldilər ki, yaralıya yardım etmək üçün onları gətirmiş pasdar da Taliqani xəstəxanasına getsin.

Şəhid və yaralılara xidmət göstərən Müsəddiq xəstəxanası vurulandan sonra yaralıları Taliqani xəstəxanasına aparırdıq. Taliqani xəstəxanası Abadanla Xürrəmşəhrin arasında, Hava limanı meydanında yerləşirdi, beşmərtəbəli və üçkorpuslu bina idi. Korpusların hər biri dördbucaq şəkilli böyük binadan ibarət idi, bir-birinin yanında elə tikilmişdi ki, birlikdə 360 dərəcəlik bir dairə əmələ gətirirdilər. Memarlıq baxımından gözəl bina idi, bayırdan firuzə rəngli kafellə və 3 sm-lik sarı kərpiclə örtülmüşdü.

Taliqani xəstəxanası biri Doktor Ariən, biri də Professor Cavadi olmaqla üç-dörd həkim tərəfindən tikdirilmişdi. Birinci mərtəbədə cərrahiyyə şöbəsi yerləşirdi, digər şöbələr isə o biri mərtəbələrdə idi.

Taliqani xəstəxanasının adı çəkilən kimi pərişan halda məscidin həyətində gəzişən Zəhra Hüseyni tez Xəlilə yaxınlaşıb onu da aparmaları üçün yalvarmağa başladı. Nə qədər israr edirdisə, Xəlil razılaşmırdı, deyirdi ki, gecənin yarısı onu üç naməhrəm kişi ilə xəstəxanaya göndərə bilməz. Zəhra qardaşından xəbər tutmaq üçün oraya getmək istədiyini deyəndə isə bir qədər yumşaldı. Zəhra dedi ki, qardaşı korpusda xidmət edir, qərargah vurulanda ya yaralanıb, ya da şəhadətə qovuşub. Xəstəxanaya gedib morqu axtarmaq

istəyirdi. Axırda Xəlil razılaşdı. Zəhra maşının arxasında yaralının yanında oturdu, pasdar da sürücü ilə öndə. Maşın yola düşəndən sonra ürəyimə həyəcan doldu. Nə üçünsə Əli Hüseyninin dodaqları çatlamış siması gözlərim önündən getmirdi. Başına bir iş gəldiyindən qorxurdum. Zəhranın səbri qalmamışdı. Şəhid atasının dəfnindən yalnız beşcə gün ötürdü. İndi qardaşının müsibətinə necə dözə bilərdi?!

Sübh saat dörddə Zəhra Hüseyni məscidin qapısından içəri girənə qədər bir an da gözlərimi yummadım. Onu görən kimi yanına qaçdım. Üzünün ifadəsi bir neçə saat öncə ilə yerlə-göy qədər dəyişmişdi. Ağlamaqdan gözləri qızarmış, şişmişdi. Bir anlığa ürəyim üzüldü, amma pis bir şey fikirləşmək istəmədim. Əllərindən tutub dedim: "Zəhra, nə oldu? Əlini tapa bildin?"

Gözlərini gözlərimə dikib batıq səslə dedi: "Hə, tapdım".

-Allaha şükür. Necə idi? Yaralanmışdı?

Sanki quyunun dibindən gələn səslə dedi:

-Sabah, Əli şəhid oldu, atamın yanına getdi.

Əlinin məsum və utancaq üzü növbəti dəfə gözlərim önündə canlandı. Axşamüstü yorğun halı ilə, üzündəki toz-torpaqla yenə nurlu və mənəviyyatlı gənc kimi görünürdü. Deməli, səhv etməmişdim, çöhrəsində şəhadət nuru varmış. Dedim: "Zəhra, doğru deyirsən?! Bəlkə səhv edirsən?"

O, ürəkdən ağlayırdı.

-Yox, Sabah, öz gözlərimlə gördüm. Mən xəstəxanaya çatanda şəhidləri aparan blazer orda idi, şəhidləri morqa təhvil verirdi. Mən də maşının yanında dayandım. Bütün şəhidləri maşından çıxardılar, amma Əli yox idi. Bir qədər rahatlaşdım, amma mən çatan kimi köhnə bir əsgər adyalının arasında bir şəhidi aparmışdılar, onu görməmişdim. Dedim ki, hamısını görmüşəm, gedim ona da baxım. Morqun qapısının yanında adyalı kənara çəkəndə Əlinin qanlı üzünü gördüm.

İkimiz də bərkdən ağlayırdıq. Zəhra bunları deyəndən sonra birdən uca səslə dedi: "Ya Hüseyn!"

Üzündən öpdüm, isti yanaqlarından axan göz yaşlarını silib əllərindən tutdum və dedim: "Zəhra can, sən Allah, bir az yavaş, burda yatanların çoxu döyüşçüdür. Sənin kimi güclü bir adamın ağlamaq səsini eşitsələr, hamısı ruhdan düşər".

Zəhranın səsini eşidib bizə yaxınlaşan ilk şəxs Xəlil Nəccar oldu. Onu artıq ağa Xəlil çağırırdıq. Məsələnin nə yerdə olduğunu bilmədən bizə hirsləndi.

-Sizə nə olub? Gecənin yarısı niyə qışqırırsız? Görmürsüz camaat yatıb?!

Bir-birimizi qucaqlayıb ağladığımızı görəndə məsələni başa düşdü. Az sonra mətbəxin və tibbi yardımın əksər uşaqları Zəhranın başına yığışıb ağlayırdı. Onların ən çox buna ürəkləri yanırdı ki, Zəhra beş gün ərzində həm atasını, həm də qardaşını itirmişdi. Bu müsibətlərə dözmək asan deyildi. Özümüzü onun yerinə qoymayınca nə çəkdiyini anlaya bilmirdik.

Uşaqlar gedəndən sonra ikimiz bir az da ağladıq. Onun məzlum ağlamasından ürəyim alovlanırdı. Bu qədər qəm-kədərə necə dözəcəkdi?! Zəhra dedi: "Sabah, anam Əlini dəlicəsinə sevir, pərəstiş həddində istəyir. O bilsə, nə olacaq?!"

Zəhra anasına kürd ləhcəsilə "da" deyirdi. Onlar Dehloran kürdlərindən idilər. Əli evin böyük oğlu olduğuna görə anası ona qarşı digər uşaqlarından daha həssas idi. Bu qısa müddətdə Zəhranı tanıdığım, ailəsi barədə eşitdiyim qədərincə, onlar duyğusal insanlar idilər. Əlinin şəhadət xəbəri ona çox ağır gələcəkdi. Ona yalnız Allah kömək edə bilərdi.

Ağır gecə idi. Uşaqlarımızın nə qədər məzlum olduğunu yalnız Allah bilir. Hamısı gül kimi ləçək-ləçək olmuşdu. Həmin gecə nə qədər ailə əzizini itirdi. Zəhra dedi: "Taliqani məhəlləsinin morqu dolmuşdu. Dedilər ki, səhər tezdən gəlib cəsədi təhvil almasanız, naməlum şəhid kimi dəfn edəcəyik".

Zəhra deyirdi: “Hələlik anamın bilməsini istəmirəm. Əliyə o qədər bağlıdır ki, əminəm bu xəbərə dözə bilməz. Üstəlik, hələ atamın matəmindən çıxmayıb, oğlunun da şəhid olduğunu ona necə söyləyə bilərəm?!”

Zəhranın anası uşaqları ilə birgə Şeyx Süleyman məscidində idi. Zəhraya dedim: “Zəhra can, belə eləmə, qoy anan Əlini görsün, ana ilə oğulun görüşü qiyamətə qalmasın. Sonra bilsə, səni bağışlamaz”.

Zəhra razılaşmayıb deyirdi ki, anamı yaxşı tanıyıram, bu şəraitdə Əlinin şəhid olduğunu ona söyləmək əsla düzgün deyil. O, həm anasının səhhətinə görə narahat idi, həm də bacı və qardaşlarının vəziyyətinə görə. Qorxurdu ki, anası bir həftə içində həm ərini, həm də oğlunu itirdiyini bilsə, dözə bilməz.

Səhər saat altıya yaxın anasını və bacı-qardaşlarını Sərbəndərə aparmaq üçün bir maşın tapmağa getdi. Onları tez Xürrəmşəhrdən çıxarmaq istəyirdi, qorxurdu ki, getməzdən öncə Əlinin şəhid olduğunu eşidərlər. Zavallının atasının yeddisi çıxmamış qardaşının cəsədi əlində qalmış, amma yenə də ailəsini sağ-salamat göndərmək barədə düşünürdü. Özünə hakim ola bilməsəydi, hər şeyi başa düşərdilər, onda da Allah bilir, nə olardı!

Zəhra Əlinin şəhid olduğunu həmin gün səhər tezdən dayısına xəbər verib onu məscidə gətirdi. Sonra mənə, Həsənə və Abdulla Məaviyə dedi ki, dayısı ilə birgə xəstəxanaya gedib Əlinin cəsədini təhvil alaq. Qorxurdu ki, anasıgili göndərmək çox çəkər, Əlini naməlum şəhid kimi dəfn edərlər.

Zəhra gedəndə yenə qarşısına keçib dedim: “Zəhra can, əminsən ki, anana demək lazım deyil? Əli ananın böyük oğludur, özün deyirsən ki, onu dünyalar qədər sevir, ona çox bağlıdır. Belə olsa, oğlunu görmək arzusu həmişəlik ürəyində qala bilər!”

Çox fikirləşir, amma bu şəraitdə oğlunun şəhid olduğunu anasına deməyi münasib saymırdı. Deyirdi ki, qorxuram dözə bilməz, başına bir iş gələr. Əgər ona da bir şey olsa, bu şəraitdə balaca uşaqlara kim baxar?! Qərarında ciddi olduğunu görüb bir söz demədim.

Hüseynlə Abdulla nə qədər axtarsalar da, maşın tapa bilmədilər. Yaxınlıqda Abadandan yeni gəlmiş təzə bir təcili yardım maşını görünürdü. Sürücüsünə nə qədər yalvardıqsa, bizə kömək etmədi. Deyirdi ki, Abadandan yalnız yaralı aparmağa gəlmişəm, başqa bir iş görə bilmərəm.

Növbəti dəfə ona yaxınlaşıb başa saldıq ki, xəstəxanadan şəhidimizin cəsədini alıb dəfn etməsək, onu naməlum şəhid kimi dəfn edəcəklər. Bundan sonra yumşalıb bizi aparmaq qərarına gəldi. Bu müddətdə Zəhra da anasıgili yola salıb məscidə gəlmişdi. Bizə dedi: "Hamısını göndərdim getsinlər, təkcə bacım Leyla qaldı. O, Cənnətabadda mənimlə birgə Zeynəb xanıma kömək edir".

-Əlinin şəhid olduğunu ona söylədin?

-Yox, onu görməmişəm. Cənnətabada zəng vurdum ki, Əlinin cəsədini aparmazdan öncə Zeynəb xanım ona xəbər versin, cəsədi birdən görüb şoka düşməsin. Ancaq alınmadı, deyəsən, telefonları kəsilib.

-İnşallah heç bir problem yaranmaz.

Zəhra və dayısı ilə birgə Abadana qədər ağladıq. Xəstəxanada Məavi və Hüseyn Eydi ilə morqun yanında dayanıb Zəhra ilə dayısının cəsədi təhvil almalarını gözləyirdik. Əlini gecə bükdükləri adyalda təhvil verdilər. Abdulla ilə Hüseyn onlara kömək edib cəsədi təcili yardım maşınına qoydular. Zəhra Əlinin baş tərəfində oturdu, başını qucaqlayıb saçını tumarlamağa, toz-torpağını təmizləməyə başladı. Hərdən əyilib üzünü öpür, onu qoxulayırdı. Zəhra Əli ilə danışıb acılı-

şirinli uşaqlıq xatirələrini söyləyirdi, həyatda çəkdikləri çətinliklərindən, yoxsulluqlarından danışıb ağlayırdı.

-Əli can, yadındadır, orta məktəbdə oxuyanda maddi vəziyyətimiz pis olduğuna görə təhsili buraxıb işləməyə başladın? Boru çəkməkdən bənnalığa qədər hər bir işi görüb evin xərcini çıxarırdın. Yadındadır, gecədən səhərə qədər uşaqlarla və ana ilə birgə oturub xurma təmizləyir, sonra da onları aparıb satırdın?

O vaxta qədər çoxlu imkansız dostlarım olmuşdu, amma Zəhra qədər kasıbını görməmişdim. Əlinin silahını gizlətmək üçün evlərinə gedəndə sadə vəziyyətlərini görüb bunu anladım. Əlbəttə, bu yoxsulluq onu səbirli və möhkəm yetişdirmişdi, çoxları onun ruh yüksəkliyinə qibtə edirdi.

Zəhra bunları danışanda hamımız, xüsusən dayısı ürəkdən ağlayırdı. O, Zəhraya yalvarırdı: "Bəsdir, qız, sən Allah, bu sözlərlə hamımızı öldürdün!" O isə sakitləşmək bilmirdi, sanki son üç-dörd aya qədər yox, bütün ömrü qədər Əliyə sözü vardı, onları söyləməyə heç vaxt imkan yaranmamışdı. Onun Əli ilə söhbəti daş-qayanı əridirdi!

Əlinin üzündə gözəl təbəssüm qalmışdı. Yarıaçıq gözləri bacısının üzünə baxırdı. O bacı ki, bundan sonra anası, kiçik bacı və qardaşları üçün onun və atasının yerini doldurmalı idi. Bir gecənin içində Zəhranın boynuna necə böyük yük düşmüşdü!

Qəlpə Əlinin sağ budunu yarmış, böyrünü parçalamış, xırda qəlpələr ürəyinə qədər səpələnmişdi. Gözəl təbəssümü ilə yanaşı düyünlənmiş yumruğunun da böyük mesajı vardı. O, son ana qədər müqavimətdən yorulmamışdı. Üzündəki ifadədən şəhadət anında ağrı çəkənə oxşamırdı. Qərara gəlmişdik ki, əvvəlcə vidalaşmaq üçün onu came məscidinə, oradan da Cənnətabada aparaq. Təcili yardım maşını məscidin qapısının önündə dayandı. Uşaqlar tez gəlib maşının başına

toplaşdılar. Xüsusən bu bacı-qardaşın atasının şəhadətindən yalnız bir neçə gün ötdüyünü bilənlər ucadan ağlayırdılar. Zəhra uşaqlara dedi: "Nə üçün ağlayırsız?! Bu gün qardaşımın toy günüdür. Ona ağlamayın, şənlənin..." Zəhranın bu sözündən sonra hamı daha ucadan ağlamağa başladı.

Bir neçə dəqiqə məscidin önündə qaldıq, sonra Cənnətabada yola düşdük. Zəhra yolboyu ağladı. Məzarlığın içində maşından endik. Əlinin dəfninə korpusdan və şəhər rəhbərliyindən bir neçə nəfər də gəlmişdi. Zeynəb xanım bizə yaxınlaşıb özünü vurmağa başladı. Başına və sinəsinə vurub deyirdi: "Bala can, toyun mübarək! Əli can, toyun mübarək!"

Zəhra ona dedi: "Sən Allah, belə eləmə, biz daha pis oluruq. Leyla hardadır?" Zeynəb xanım dedi: "Narahat olma, burda deyil, iş dalınca gedib və bu tezliyə gəlməz".

Zeynəb xanım dedi ki, Əli üçün su və kəfən hazırlayıb. O şəraitdə su və parça tapmaq çox çətin olsa da, Əliyə həm qüsl verdilər, həm də kəfənlədilər.

O vaxta qədər Zəhranın atasının qəbrinin yerini bilmirdim, Əlini yeni bir məzarın yanına aparanda öyrəndim. Zeynəb xanım həmin məzara əlini vurub tez-tez deyirdi: "Seyid Hüseyn! Seyid Hüseyn! Seyid Əlini gətirdik. Ayağa qalx, təhvil al. Qərib oğlun gəlib, ayağa qalx!"

Həmin bir məzardan başqa yaxınlıqda hər yer qəbirlə dolu idi. Sanki bu oğlun tezliklə şəhid olub atasının yanına gələcəyini bilirmişlər. Əlinin cənazəsini məzara qoymaq istəyəndə uzaqdan Leylanın gəldiyini gördük. Onu tanıyırdım, Zəhra ilə məscidə gəlib-gedirdi. Bir anlığa yerimdə quruyub qaldım. Görəsən, Zəhra ona nə deyəcəkdi?!

Leyla bizə yaxınlaşıb salam verdi, Zəhranın, dayısının və bizim qızarmış üzümüzü görüb təəccübləndi, yavaşca bacısına yaxınlaşıb dedi: "Nə olub? Şəhid gətirmisiz? Kimdir?"

Zəhra bir qədər dayanandan sonra dilləndi:

- Korpus uşaqlarındandır.
- Mən tanıyıram?
- Hə, tanıyırsan.

Leyla yenidən üzümüzə baxıb dedi: “Bizim Əlidir?”

Zəhra təsdiq əlaməti olaraq başını yellədi. Leyla birdən “ya Hüseyn” qışqırıb ağlamağa başladı. İki bacı bir neçə dəqiqə qucaqlaşıb ağlaşdılar. Hamımız ağlayırdıq. Dayı hamıdan qərarsız idi, üz-başına vururdu. Bir az sonra Zeynəb xanım onları bir-birindən ayırıb dedi: “Şəhid bundan artıq gözləməməlidir!”

Əlinin üzünü açdılar. Təbəssümü daha da gözəlləşmişdi. Nurlu üzündə meyit sarılığından əsər-əlamət yox idi. Təbəssümü o qədər qəşəng idi ki, adam həqiqətən, təəccüb edirdi. Üzü dünənkindən gözəlləşmişdi. Onun üzünə baxanda cihad və şəhadət barədə oxuduğum və eşitdiyim bütün Quran ayələrini görürdüm. Üzünə kim baxsaydı, bu dünyadan məmnun getdiyini anlayardı. Bilmək istəyərdim ki, şəhadət anında ona nə göstəriblər ki, bu qədər gözəl və rahat gedib.

Ağlamaqdan titrəyirdim. Əlimdən bir şey gəlmirdi. Zeynəb xanım doğru deyirdi, Əli çox qərib idi. Onun dəfnində yalnız biz bir neçə nəfər iştirak edirdik. Zəhra məzara girib Hüseynin, Abdullanın və dayısının köməyilə Əlini qəbrə qoydu. Sonra kəfəni açdı, Əlinin üzü göründü. Öz-özümə fikirləşirdim ki, Zəhra indicə özündən gedəcək, amma Allah ona çoxlu iman və güc vermişdi, şəhid qardaşını başqa birinin dəfn etməsinə razı olmurdu. Əlinin bacıları bizim qədər taqətsiz deyildilər.

Əlinin əhləd daşı da yox idi. Zəhra daş yerinə silah qutusunun qapağını qoydu, sonra məzara ehtiyatla ovcu ilə torpaq tökməyə başladı. Leyla məzarın kənarında dizi üstə oturub atası ilə danışırdı; deyirdi ki, Əlidən muğayat olsun, onu tək qoymasın.

Dəhşətli, ağır anlar idi. Hamımızın vəziyyəti pis idi. Dünən Əlini görəndə kimin ağlına gələrdi ki, 24 saat keçməmiş onun məzarı başında oturacağam. Nə qədər etdimsə, hətta məzara bir ovuc da torpaq tökə bilmədim. O gözəl gəncin üstünə öz əllərimlə torpaq tökməyə ürəyim gəlmədi. Onun yerində qardaşım Əli və ya başqa bir qardaşım olsaydı da, yenə ürəyim gəlməzdi.

Az sonra dayısı Zəhranın əlində tutub məzardan çıxardı, Məavi qardaşları ilə birgə qəbri doldurmağa başladı. İşləri bitəndən sonra hamımız qəbrin kənarında dizi üstə oturub fatihə oxumağa başladıq. Bu zaman Zeynəb xanım həmin məzar yerinin necə boş qaldığından danışdı:

-Zəhranın atasını dəfn edəndə bu qəbri də başqa bir şəhid üçün qazdılar, amma qəbrə su dolmuşdu, heç kimi dəfn edə bilməyib suyun qurumasını gözlədik. Bu müddətdə qəbrin suyu qurumadı. Bu gün səhər çağı yaxınlaşanda gördüm ki, nəhayət, quruyub və orada ölü dəfn etmək olar. Məhz həmin vaxt məzar sahibini Cənnətabada gətirdiz!"

Təxminən bir saat məzarın başında oturduq. Zəhra özünü ələ almışdı, Leyla ilə dayısı isə çox dözümsüzlük edirdilər. Leyla Cənnətabadda Zeynəb xanımın yanında qaldı, bizsə məscidə qayıtdıq.

# Doqquzuncu fəsil:

## *İlk döyüş*

Əli Hüseyninin dəfni ilə başlayan on birinci gün ağır gün oldu. İraq artilleriyası dayanmadan came məscidinin ətrafını vururdu. Məscidin vəziyyəti o qədər təhlükəli olmuşdu ki, o şəraitdə tibbi yardım mənasız idi. Çünki məscidə yerləşənlərin hamısının canı təhlükədə idi. İki-üç gün öncə məscidin ətraf prospektləri bombalanmağa başlayandan tibbi yardım qrupunun məsciddən çıxarılıb doktor Şeybaninin Fəxr-Razi prospekti ilə İnqilab prospektinin kəsişdiyi dördyolda yerləşən tibb mərkəzinə köçürülməsinin söhbəti gedirdi. Düşmən gec-tez came məscidini vuracaqdı, orada qalmaq məsləhət deyildi.

Doktor Şeybaninin tibb mərkəzini görmüşdüm. Üç-dörd il öncə bir dəfə Möhsünün dişi ağrıyanda ora aparmışdıq. Tibbi yardım üçün yaxşı, sakit yer idi. Otaqları çox olduğuna görə kişi və qadınlara xüsusi otaqlar ayırmaq, qadınlara ayrılan otaqda heç olmasa, bir saat uzanıb istirahət etmək olardı. Doktor Şeybani də hələ şəhərdə qalmışdı, məsciddə digərlərinin yanında idi. Ağa Fərruxi ondan ofisini tibbi yardım qrupuna verməsini xahiş edəndə əvvəlcə qəbul etməmiş, sonra isə qərarını dəyişib razılaşmışdı.

Uşaqlarla və doktor Səadətlə birgə əşyalarımızı toplamağa başladıq. Dərmanları, ilkin tibbi yardım alətlərini toplayıb məscidin bir tərəfinə yığdıq. İşləyə-işləyə Zəhraya fikir verir, yanında olmağa, onu tək qoymamağa çalışırdım. Zəhra öz aləmində idi, başını qarışdırmağa çalışırdı, amma qardaş qəmi bu tezliyə unudulan deyildi.

Əşyalarımızı topladığımız yerdə Hüseyn dayı bacı və qardaşlarımın əlindən tutub məsciddən içəri girdi. Tez anamgili çağırdım. Muna anamın qucağına qaçıb ağlamağa başladı. Yazıq çox darıxmışdı. Hüseyn dayı dedi: "Bacı, nə qədər etdimsə, uşaqların qalmadılar, deyirdilər ki, bizi Xürrəmşəhrə qaytar. Allah bilir, hansı müsibətlə gəlmişəm".

Doğru deyirdi. Avtobusun vurulmaması da Allahın işi idi. Anam Firdovsa hirsləndi:

-Qız, iki gün davam gətirə bilmədin?

Firdovs dedi:

-Mən nə edim?! Uşaqlar qalmadılar.

Həmin gün atam da gəldi. O, hər imkan düşəndə bizə baş çəkirdi. O da dayımı və uşaqları görüb çox təəccübləndi. Yazıq sevinirdi ki, uşaqları bu haray-həşirdən kilometrlərlə uzaqda təhlükəsiz yerdədirlər. Daha bilmirdi ki, dayını təngə gətiriblər, axırda onları Xürrəmşəhrə qaytarmağa məcbur olub. Atam Firdovsa dedi: "Niyə qayıtdız? Bəyəm burda halva paylayırlar?!"

Firdovs da məəttəl qalmayıb dedi: "Bəs özüz nə üçün qalmısız? Qalmısız ki, vuruşasız. Bəs biz adam deyilik?! Biz də sizin kimi qalıb vuruşmaq istəyirik..."

Anam Firdovsa gözlərini ağartdı. Atam da uşaqların qayıtmasından və Firdovsun hazırcavablığından əsəbiləşib özündən asılı olmadan Möhsünün qulağının dibindən bir şillə ilişdirdi. Sanki uşağın başını elektrik cərəyanı vurdu. Zavallı nə üçün vurulduğunu da bilmədi. Atam heç vaxt qızlara əl

qaldırmazdı. Bununla Firdovsun hirsini yazıq Möhsünə boşaltdı.

Hüseyn dayı çox narazı idi. Anama dedi: "Əstəğfirullah! Bacı, bu şəhər bugün-sabah işğal olunacaq, düz-əməlli hərbi birləşmə yoxdur, siz bu şəhərdən nə istəyirsiz, niyə əl çəkmirsiz?! Siz Allah, bəsdirin, hazırlaşın, gedək. Axı burda boş əllə nə edə bilərsiz?!"

Atam anama dedi: "Hüseyn ağa doğru deyir, heç olmasa, sən uşaqlarla qayıt. Qoy bunlar sarıdan arxayın olaq". Anam bu müddətdə çox mənəvi əzab çəkmişdi. Bu gərginlikdən bir neçə günlüyə uzaqlaşa bilsəydi də, xeyrinə olardı. Bununla yanaşı, getmək istəmirdi. Dayım vəziyyəti belə görüb küsmüş kimi sağollaşdı və məsciddən çıxdı. İlahə ilə onun arxasınca qaçdıq, dedim ki, gözlə, sabaha qədər anamı razı salacağıq.

Axşam anamla çox danışdıq, axırda qəbul etdi. Firdovs çox narahat oldu. O da getməli idi. Yazıq elə bilirmiş ki, gəlibsə, daha qala bilər. Ertəsi gün səhər tezdən anamla və uşaqlarla sağollaşdıq. Anam ürəkdən ağlayıb bizi bir-birimizə tapşırır, tez-tez deyirdi ki, onu özümüzdən və Əlidən xəbərsiz qoymayaq. Ürəkdən arzu edirdim ki, kaş Əli də burada olub onu yola salaydı! Bir neçə dəqiqədən sonra dayım, anam və uşaqlar getdilər. Onların sağ-salamat çatmaları üçün dua etdik.

***

Əşya və avadanlıqlarımızı doktor Şeybaninin ofisinə apardıq. Hüseyn Eydi də bizə kömək etdi. Ofisin qapısı kiçik bir dəhlizə açılırdı. Dəhlizin sonunda kiçik bir zal, ətrafında da dörd otaq vardı. Təxminən 12 kv metrlik bu otaqların ikisi solda, ikisi sağda yerləşirdi. Otaqların birini iynə vurmağa və yara bağlamağa ayırdıq, birinə doktor Şeybaninin öz əşyalarını yığıb qapısını qıfılladıq. Otaqların biri aptek oldu, bütün dərmanları ora yığdıq. Pəncərəsindən prospekt görünən digər otağı da təcili yardım otağı etdik. Aptek etdiyimiz otaqda bir qapı vardı, kiçik

həyətə açılırdı. Həyət çox gözəl idi. İstirahət etmək üçün aptekin yerinə kovrolit sərdik. Ofisdəki çarpayını təcili yardım gözləyən yaralı üçün kiçik zala qoyduq.

Axşama qədər əşyalarımızı yığmaqla məşğul olduq. Namazdan sonra hamımız həyətə çıxdıq. Doktor Səadət dua kitabını gətirdi, üstünə zəif fənər işığı saldı, sonra yanıqlı səslə Təvəssül duasını oxumağa başladı. Yavaş-yavaş "ya vəcihən indəllah, işfə ləna indəllah" zümzümələri ucaldı. O halda Təvəssül duası oxumağın bizi nə qədər yüngülləşdirdiyini bir Allah bilir.

Şəhərin vəziyyəti, camaatın qəribliyi və didərginliyi, döyüşçülərin məzlumluğu, yaralı və şəhidlər – bütün bunlar qəlblərimizə ağırlıq edirdi. Ümumi ruh yüksəkliyini nəzərə aldığımızdan, bu yükü yerə qoymağa imkan olmamışdı, indi isə doktor Səadət xeyrə səbəb olmuş, Təvəssül duası ilə işimizi asanlaşdırmışdı.

Hamımız doyunca ağladıq. Sanki belə bir fürsət gözləyirdik. Doktor Səadətdən əlavə, Həsən Sorxu, Xəlil və doktor Mustəfəvi adlı bir oğlan da aramızda idi. O, dünən məscidə gəlib tibbi yardıma qoşulmuşdu. Dediyinə görə, Şirazlı idi və tibb universitetində oxuyurdu. O, uşaqlar arasında Doktor Mustəfəvi ləqəbilə məşhurlaşmışdı. Qara Həsən də abadanlı idi, Xürrəmşəhrdə döyüşürdü. O, yavaş-yavaş tibb qrupundakı oğlanlarla, xüsusən doktor Səadətlə tanış olub dostlaşdı, hər dəfə məscidə gələndə bizimlə görüşürdü. Təsadüfən, həmin gün də bizimlə tibb mərkəzinə gəlmişdi.

Ertəsi gün Bilqeysin bacısı qızı Məhin də oraya gəldi. Qərara gəldilər ki, Bilqeyslə Məhin orada qalsınlar. Bir müddət sonra Xürrəmşəhrdən əkinçilik fakültəsinin tələbəsi olan Əkbəri soyadlı bir qız da bizə qoşuldu. Onunla bir neçə gün idi məsciddə tanış olmuşduq. Xanım Əkbəri fəal qız idi, heç bir işdən boyun qaçırmırdı. Mətanətli, dözümlü, bilikli və imanlı

tələbə nümunəsi idi. Mehrəngiz də tibb mərkəzində bizimlə idi. O, olduqca mehriban qız idi, adı xarakterlərinə tam uyğun gəlirdi. Onu lisey dövründən tanıyırdım.

Doktor Şeybaninin tibb mərkəzindən əlavə, bəzi uşaqlar da Abadanda bir qərargaha toplaşmışdılar. Məryəm Köhəndil, Zöhrə Eyvəzi, Müjgan və Müjdə Onbaşı kimi uşaqlar vaxtlarının çoxunu doğum evində yaralılara qulluqla keçirirdilər. Adətən, Xürrəmşəhrdən Abadana yaralıları onlar aparırdılar. Əlbəttə, onda Quran məktəbi də bağlanmamışdı, Səham Taqəti, Xədicə Abidi və Fəxri Taqəti kimi uşaqlar orada idilər. Şahnaz Məhəmmədi ilə Şahnaz Hacışah şəhadətə qovuşanda Səham da orada olub çiyin və daban nahiyələrindən yaralanmış, amma yenə uşaqların yanına qayıtmışdı.

Tibbi yardım qrupu doktor Şeybaninin tibb mərkəzinə köçəndə mətbəx də məsciddən daşındı. Yerdəyişmə təhlükəsizlikdən ötrü idi. Onların yeni yerləri məscidin yaxınlığında, çayın sahilində yerləşən yarımçıq tikilidən ibarət idi.

Biz tibb mərkəzinə köçəndən bir-iki gün sonra oraya Conşan adlı dezfullu bir gənc gəldi. Deyirdi ki, hövzə təhsili alıb və inqilab məhkəməsində işləyir. Qəliz Dezful ləhcəsi vardı. Kim gəlirdisə, iş və fəaliyyətlərindən danışıb çoxlu vəsiqə və qərar göstərirdi. Deyirdi ki, Kürdüstan iğtişaşlarında çox işləyib, indi də Xürrəməşəhrdə döyüş getdiyinə görə buraya gəlib. Sənədləri sözlərini təsdiqləsə də, nə üçünsə ona inana bilmirdik. Özünəməxsus danışıq və hərəkət tərzi vardı. Oradakı digər oğlanlardan fərqli olaraq, söhbət edəndə düz adamın gözünün içinə baxırdı. Onun bu adətindən hamımız əziyyət çəkirdik, bizə yaxınlaşdığını görəndə bir iş dalınca getməyə çalışırdıq. Bu xasiyətinə rəğmən, hər dəfə fürsət düşəndə bizə nəsihət verirdi:

-Bacılar! Siz elə yeriməlisiz ki, mətanətizdən ayaqlarınızın altındakı yer titrəməlidir. Çalışın döyüşün qızğın yerində də hicabınıza mümkün qədər riayət edin!

Onun sözlərindən həqiqətən, hirslənirdim. Bizim hicaba necə riayət etdiyimizi, naməhrəmlə necə məsafə saxladığımızı özü görürdü. Uşaqlar hətta qollarının düyməsinə də fikir verirdilər ki, birdən iş vaxtı açılar və biləklərinin bir hissəsi görünər. Dəfələrlə yorğunluqdan yorulub əldən düşsək də, naməhrəmin görəcəyini düşünüb bir dəqiqə də uzanıb istirahət etməmişdik. Hamımız belə idik.

Mən tibbi yardımla məşğul olsam da, həmişə yaralı ilə məsafə saxlayır, yarasını bağlayanda və damarını axtaranda əlimi bədəninə vurmurdum. Yaranı bağlayanda həmişə pambıqdan və ya sterilizə olunmuş tənzifdən istifadə edirdim. Əlbəttə, əksər yaralı və döyüşçülər bizim kimi idilər, tibb bacılarının onlara qulluq etmələrindən əsla xoşlanmırdılar. Bütün bunlara görə Conşan kimi bir adamın yeri gəldi-gəlmədi nəsihət verməsi bizə çox ağır gəlirdi.

Tibb mərkəzinə köçəndən bir gün sonra İlahənin əmisi oğlu bəzi zəruri əşyalarını və sənədlərini götürmək üçün yoldaşı Fatimə xanımla birgə Sərbəndərdən Xürrəmşəhrə gəldi. Onlar came məscidinə gedib İlahəni soruşmuşdular. Məsciddəki uşaqların biri İlahəni tibb mərkəzinə aparmağa gəldi. Birlikdə onların yanına getdik. İlahə Fatimə xanımdan anasını və ailəsini soruşdu. "Hamısı yaxşıdır" - deyib əlavə etdi: "Təkcə sənə görə narahatdırlar. Heç olmasa, bir neçə günlüyə bizimlə gəl, onlara baş çək, sonra qayıdarsan".

İlahə Fatimə xanımın təklifini bəyəndi, üzünü mənə tutub dedi: "Sabah, birlikdə gedib onlara baş çəkək, qayıdarıq".

Təsadüfən, bir-iki gün idi yuyunmağa yer axtarırdım. O qədər çirkli idim ki, daha dözə bilmirdim. Dedim ki, yaxşı, birlikdə gedib tez qayıdarıq. Zəhra Hüseyni də orada idi. Bizim

Sərbəndərə hazırlaşdığımızı görüb dedi ki, o da gedib ailəsinə baş çəkmək istəyir. Qərara gəldik ki, üçümüz də Fatimə xanımla yoldaşına qoşulub gedək. Çantamı götürdüm və yola düşdük. Qara brezent çantamı birinci gün evdən çıxanda götürmüşdüm.

Hüseyn ağanın maşını oturacaqlarına qırmızı çexol çəkilmiş qəhvəyi rəngli bir chevrolet idi. Maşına minən kimi kondisioneri yandırdı, sərin külək bizə çox yaxşı təsir bağışladı. Zəhra Hüseyni dedi: "Nə maraqlıdır! İlk dəfədir kondisionerli maşın görürəm!"

Körpünün üstündən keçdik, Abadan-7 stansiyasını arxada qoyub Mahşəhr-Abadan magistralına çıxdıq. O vaxta qədər şəhəri tərk etməyən bəzi ailələr də gedirdilər. Çöllükdə, yolun kənarında yerdən yarım metr hündürdən çəkilmiş böyük neft boruları diqqətimi cəlb etdi. Onları görəndə Mərcanı xatırladım – came məscidində Ərəb Xalq Döyüşçüləri Komitəsi əleyhinə piket keçirdiyimiz günü. Həmin gün mənə bu boruların bir neçə şəklini göstərmişdi. Əlbəttə, bugünkü neft boruları ilə onların çox fərqi vardı. Bu gün gördüklərim bombalanıb param-parça edilmiş borular idi.

Təxminən bir saat yarımdan sonra Sərbəndərə çatdıq. Sərbəndər bir bazardan, bir neçə prospekt və küçədən ibarət sənaye şəhərciyi idi. Bu şəhərciyi illər öncə yaponlar petrokimya zavodunun işçiləri üçün salmışdılar. Hüseyndən Hicab əminin evinin ünvanını soruşduq. Dedi ki, onlar Kommunist Abbas adlı bir adamın ata evini kirayə ediblər, kimdən soruşsaz, tanıyır.

Zəhra və İlahə ilə birgə kommunist Abbasın evini və Zəhranın anasıgilin yaşadığı yeri axtarmağa başladıq. Sərbəndərin kiçik bazarına çatdıq. Bazar kiçik Sərbəndər meydanının dövrəsindəki bir cərgə mağazadan ibarət idi, əhalinin gündəlik ehtiyacı olan məhsullar satılırdı. Sərbəndər kiçik və darıxdırıcı yer idi. Mağazaların önündəki tutulmuş kanalların qoxusu qərib qaçqınların və vəziyyətləri

paltarlarından bəlli olan uşaqların iyi ilə birgə adamın ürəyini bulandırırdı.

Bazarın önündən keçəndə gözlərim Günovaya sataşdı. Günova təxminən 27 yaşlı ruhi xəstə idi, onu ilk dəfə came məscidində görmüşdüm. Qadının ailəsinin kimliyi, harada olduğu bəlli deyildi, pisxoloji baxımdan ağır durumda idi, arabir təşənnücə bənzər güclü sinir tutmaları olurdu. Üzü çirkli sızaqlarla dolu idi, görəndə adam iyrənirdi. Məsciddəki qarışıqlıqda əsla sözə baxmayan və yola gəlməyən Günovaya baxmaq çox çətin və əsəbləri pozan iş idi.

Uşaqlar arasında hamıdan çox Əfsanə Qazizadə Günovanın qeydinə qalırdı. Yazıq deyirdi ki, qorxuram bayıra çıxar, başına bir iş gələr. Yaxınlarının kim və harada olduqlarını heç kim bilmirdi. Bəlli deyildi ki, müharibədən öncə harada olub, ümumiyyətlə evi-ailəsi olub, yoxsa yox. Onun düz-əməlli danışdığını da heç vaxt görmədim. Danışığı daha çox qışqırmağa bənzəyirdi. Əlimi Zəhranın qoluna vurub dedim: "Zəhra, ora bax, Günova bura necə gəlib çıxıb?!" Zəhra dedi: "Hə, doğrudan... Burda nə edir?!"

Yazıq pərişan saçla, çirkli üz-başla bir mağazanın günlüyünün altında oturub ayaqlarını uzatmışdı, nəsə yeyirdi. Vəziyyəti o qədər bərbad idi ki, başına yüz milçək oturmuşdu. Ona çox yazığım gəldi.

Satıcıların birindən kommunist Abbasın evinin ünvanını soruşdum. Zəhra ilə yolumuz ayrılırdı. Onunla sağollaşıb evə doğru yola düşdük. Yolda İlahə ilə çox zarafatlaşıb gülüşdük. İlahəyə deyirdim ki, bir ömürdür "kommunistə ölüm" şüarı veririk, indi isə kommunistə işimiz düşüb. Nəhayət, evi tapıb qapını döydük. Hicab əmi və Məryəm xala bizi görüb çox sevindilər. Öz ayaqlarımızla sağ-salamat gəldiyimizə inana bilmirdilər. İlahə Məryəm xalanı qucaqlayıb üzündən öpməyə başladı.

Hicab əminin kirayə etdiyi ev böyük idi, yaxşı həyəti vardı. Xalam həyətdən ip çəkib üstünə çoxlu paltar sərmişdi. Səsimizə Nahid və Punə də həyətə çıxdılar. Bir-birimizi görüb çox sevindik. Elə qucaqlaşıb öpüşürdük ki, sanki illərdir bir-birimizi görmürdük.

Xalam qonaqların şərəfinə günortaya balıq bişirdi. Yeməkdən sonra çox söhbətləşdik. Deməyə çox sözümüz vardı. Günortadan sonra İlahə ilə bir-birimizə işarə verdik ki, yavaş-yavaş getməliyik. Mən hazır idim, amma İlahə qalxıb paltarını geyinmək istəyəndə birdən Hicab əmi yay kimi yerindən atılıb önünü kəsdi və dedi: "Hara gedirsən?! Məgər qoyaram ki, yenidən döyüşün ortasına gedəsən?!"

İlahə yerində quruyub qaldı. Belə bir halla rastlaşacağını düşünməmişdi. Nə qədər israr edirdisə, Hicab əmi daha da hirslənib deyirdi: "Ayağını bu evdən bayıra qoya bilməzsən!"

İlahə yazıq-yazıq mənə baxıb onu müdafiə etməyimi gözləyirdi. Zavallının gözləri dolmuşdu. Məryəm xala da bir söz demirdi, qorxurdu ki, vasitəçilik edər, qızı gedəndən sonra başına bir iş gələr, sonra atasına cavab verə bilməz. Ağzımı açmaq istəyəndə Hicab əmi dedi: "Sabah can, sən də getməyəcəksən. Burda yanımızda qal. Bu müharibənin axırı bəllidir. Belə getsə, Xürrəmşəhrdə ya əsir düşəcəksiz, ya da öləcəksiz!" Dedim: "Mən mütləq getməliyəm. Çünki məndən başqa Əli, Salehə, Şahnaz və Fevziyə də Xürrəmşəhrdədirlər, tək deyiləm".

Hicab əmi bundan artıq israr etmədi. Sağollaşanda Məryəm xala mənə bir qədər pul verdi. İlahəni qucaqlayanda kövrəlib ağlamağa başladı. Əsla düşünməzdik ki, ikimiz gəlib, tək qayıdacağam. Çox tapşırdı ki, özümdən muğayat olum, imkan tapan kimi onlara gedim.

Qayıdanda mikroavtobusa minməli idim. Axşamüstü saat 6-da mikroavtobus Mahşəhr üçyolunda bütün sərnişinlərini

endirdi. Ora son dayanacaq idi. Mən Mahşəhrdən Abadana, oradan da Xürrəmşəhrə getməli idim.

Abadanın səması uzaqdan qara görünürdü. Şəhərə yaxınlaşdıqca qaraltı da böyüyürdü. Tüstü neft, benzin və dizel yataqlarından qalxırdı. Xosrovabadın nəhəng neft anbarları vurulandan bəri şəhərin səması mavi olmamışdı. Göydəki boz qatı tüstüdən ürəyim sıxıldı. Bu torpaqların başına nə gələcəyi bəlli deyildi. Abadana çatanda budağın üstünə qonmuş bir dəstə quş diqqətimi cəlb elədi. İlk dəfə idi elə quşlar görürdüm. Sərçəyə bənzəyirdi, amma qarğa kimi qara idi. Birdən cikkiltilərindən sərçə olduqlarını, şəhərin tüstü dolu səmasında uçduqlarına görə qaraldıqlarını anladım.

Xürrəmşəhrə gedən kiçik bir yük maşınına mindim. O zaman bu maşınlar şəhərdə ən teztapılan nəqliyyat vasitələrindən idi. Abadanda sakitlik idi, ancaq Kutşeyxə və Xürrəmşəhrə yaxınlaşdıqca atışma və partlayış səsləri çoxalırdı. Birdən məni qəribə hiss bürüdü. Mən atəş və bombardman altında da belə bir hiss keçirməmişdim. Çox həyəcanlı idim. Bir anlığa İlahənin yoxluğunu hiss etdim. Tənhalıq yoldaşımı məndən almışdılar. O, yanımda olsaydı, yəqin ki daha rahat olardım. Maşın came məscidinin yanında dayandı. Əvvəlcə yarımçıq tikilidəki mətbəxə getdim. Şahnaz və Fevziyəni görmək istəyirdim. Onlara İlahə ilə Sərbəndərə getdiyimi, xalamla Hicab əmini gördüyümü söylədim. Sonra dedim ki, İlahə nə qədər yalvardısa, Hicab əmi qayıtmasına icazə vermədi.

Uşaqlar da dedilər ki, günortaya yaxın məscidin günbəzinə bir mərmi düşüb, bir hissəsi uçub. Dediklərinə görə, həmin gün dayanmadan məscidin ətrafını vururmuşlar. İki-üç raket də məscidin arxa hissəsinə düşüb yandırıb, uşaqlar tez söndürüblər. Mətbəxdəki uşaqların yanına elə tələsik getmişdim ki, bunların heç birini görməmişdim.

Tibb mərkəzinə çatanda hava qaralmışdı. Uşaqlar məni görüb sevindilər. Vəziyyət elə idi ki, kimdənsə bir-iki saat xəbər olmayanda, sağ-salamat görməyə ümidimiz qalmırdı. Uşaqlardan döyüş vəziyyətini soruşdum. Dedilər ki, bu gün Səntapda çox güclü döyüş gedib, çoxlu şəhid vermişik və nəticədə döyüşçülərimizin sayı azalıb. Deyirdilər ki, yaralıların biri kəsilmiş əlini götürüb məscidə gəlibmiş, uşaqlar onu tibb mərkəzinə göndəriblər. Burada da ona kömək edə bilmədiklərinə görə tez bir maşın tutub Taliqani xəstəxanasına yollayıblar. O yazıq yaralının və kəsilmiş əlinin aqibəti barədə heç kim heç nə bilmirdi. Uşaqların dediyinə görə, iraqlılar çayın o tərəfindən Xürrəmşəhr gömrüyünə girmişdilər.

Tibb mərkəzi bütün gecəni dayanmadan titrədi. Səhər çağı uşaqların bir-ikisi ilə birbaş məscidə getdim. İnsanları mümkün qədər məsciddən çıxarmışdılar. Bəzi uşaqlar döyüş yerinə getməyə hazırlaşırdılar. Onlara dedik ki, bizə də icazə versinlər, tibbi yardım üçün onlarla gedək. Razılaşmayıb dedilər ki, hələlik lazım deyil, ehtiyac olanda gəlib apararıq. Bütün fikrimiz döyüş yerində idi. Uşaqlara yaxın olsaydıq, çox yaxşı olardı, kimsə yaralananda onu geri gətirmək üçün bir neçə nəfər döyüşdən ayrılmazdı. Ağır duruma və canlı qüvvə çatışmazlığına görə bir nəfər də önəmli idi.

Məndən başqa Bilqeys, doktor Mustəfəvi və doktor Səadət də döyüş yerinə hazırlaşmışdılar. Oraya getməyə böyük həvəsim vardı, ancaq qorxurdum ki, uşaqlar bizi görüb hirslənər, geri qaytararlar. İndiyə kimi şəhərdə qalmağımız da çox etirazlara səbəb olmuşdu. Əlbəttə, on ikinci gün bəzi korpus uşaqları bütün qız və qadınları şəhərdən göndərmək istəyəndə Şeyx Şərif bizi müdafiə edib demişdi: "Əgər bunlar əsir də düşsələr, həzrət Zeynəb kimi olarlar". Ondan sonra heç kim şəhərdə qalmağımıza etiraz etmədi.

Şeyx Şərifin sözləri bizi arxayınlaşdırmışdı. O bizi müdafiə etməsəydi, gücümüz çatmaz, bəlkə də şəhərdən getməyə məcbur olardıq. İmam Xomeyni oktyabrın 1-də axşam çıxış edib hamının qalıb şəhəri müdafiə etməsini istəyəndən sonra qalmağa israrımız daha da çoxalmışdı.

Ertəsi gün tibb mərkəzinə gətirilən yaralıların sayı çox idi. Bir günün içində yaralılarla bir neçə dəfə Abadana Təcili yardım xəstəxanasına getməyə məcbur oldum. İnqilabdan öncə Şir və Xurşid adlanan bu xəstəxana ibtidai imkanlarla yüngül yaralılar üçün nəzərdə tutlmuşdu, xüsusi aparatları yox idi. Xəstəxananın vəziyyəti çox gərgin idi. Mən yaralıların qanlı mələfələrini dəyişməkdən tutmuş otaqları təmizləməyə qədər əlimdən gələni edirdim. Çoxlu qan itirmiş yaralıların bədənlərinin titrəməsi yadımdan çıxmaz. Yazıqların bütün bədənləri əsir, hətta dişlərinin səsi gəlirdi. Belə olanda onların üstünə yorğan və ya bir neçə mələfə örtürdük.

Günortaya yaxın Tehrandan Şeybaninin tibb mərkəzinə beşnəfərlik bir qrup gəldi. Qrupun başçısı doktor Sadiqi idi. Digərləri də həkim idilər. Biri cərrah köməkçisi idi. Hamısından gənc olan biri həyat yoldaşını da özü ilə gətirib Abadana qoymuşdu. Bu müddətdə müxtəlif şəhərlərin həkimləri Xürrəmşəhrə gəlmiş, amma ən çox bir-iki gün davam gətirmiş, sonra qayıtmışdılar.

Çayın suyundan istifadə etdiyimizə görə bir neçə gün idi həm biz, həm də döyüşçülər çox güclü qarın ağrısına tutulmuşduq, həqiqətən, həkimə ehtiyacımız vardı. Buna baxmayaraq, doktor Sadiqinin qrupunun gəlişinə çox da sevinmədik. Digərləri kimi onların da Xürrəmşəhrin birgünlük qonaqları olduqlarını, ilk bombardmandan sonra gedəcəklərini bilirdik. Ancaq deyəsən, yenə səhvə yol vermişdik. Doktor Sadiqi elə həmin gün bütün heyətlə birgə döyüş yerinə getdi. Onun cəsarət və ixlasından çox xoşumuz gəldi. Bəlli idi ki,

digərləri kimi qoyub qaçmayacaqdı. Döyüş yerindən qayıdıb Fəxr-Razi prospektində, doktor Şeybaninin tibb mərkəzinin düz arxasında yerləşən ümumi terapevt doktor Colanzadənin tibb mərkəzinə yerləşdilər.

Çay suyundan içdiyinə görə Şahnazın vəziyyəti çox pisləşmişdi. Onun öncədən də mədə ağrısı vardı, hətta bir dəfə mədə qanaxması da olmuşdu. Onun vəziyyəti hamımızdan pis idi, hey deyirdi ki, sanki bir nəfər əlini qarnıma salıb bağırsaqlarımı parçalayır. Ağrısı o qədər güclü idi ki, yeri çəngələyirdi. Onu doktor Sadiqinin yanına apardım. Doktor müayinə edib dedi ki, ehtimal verirəm güclü ağrı apendisitdəndir, çirkli suya aidiyyəti yoxdur. Şahnazın öncədən də mədə ağrısı olduğunu söyləyəndə isə analiz yazdı və tez cavabını gətirməyimi istədi. Cavaba baxandan sonra dedi ki, apendisit yoxdur, mədəsi həssas olduğuna görə çirkli su ona daha pis təsir edib. Doktor dedi ki, çayın suyundan istifadə etməsə, yazdığı dərmanlarla tez sağala bilər.

Şahnazdan arxayın olandan sonra bir gün qabaq uşaqlarla xəstəxanaya apardığım yaralıların yanına getdim. Dünən gömrükdə başına qəlpə dəymiş bir yaralının şəhid olduğunu eşitmişdim. Digərlərinin vəziyyəti ilə maraqlandım.

Get-gedə yaralılar o qədər çoxaldı ki, Abadan xəstəxanaları daha hamısını qəbul edə bilmədi. Biz də xəstələrimizi Darxuindəki səhra xəstəxanasına aparmağa məcbur olduq. Ora Xürrəmşəhrə uzaq idi.

Oktyabrın 8-də axşamüstü 25-26 yaşlı bir yaralını Darxuin xəstəxanasına apardım. Ora hərbi bölgə olduğuna görə xəstəxanaya girməzdən öncə silahlarımızı təhvil verməli idik. Mən silahımı təhvil verib içəri girdim. Yaralının ayağı həm yaralanmışdı, həm də sınmışdı. Yaxşı xatırlamıram, ya budundan, ya da baldırından yaralanmışdı. Ancaq onu bilirəm ki, o yaralının halı və rəftarı mənə çox maraqlı gəlirdi,

digərlərindən fərqlənirdi. Onu tibb mərkəzinə gətirəndən xəstəxanaya aparana qədər bir an da "Əlhəmdu lillah" "İlahi, şükür" zikrləri dilindən düşmədi. Həkimlər ona baxanda da eyni işi görürdü. Həkimlər gedəndən sonra Bilqeyslə ona yaxınlaşıb halını soruşduq. Başını qaldırıb bizə baxdı və dedi: "Bacılar, gərək bu anların qədrini biləsiz. Bu anlarda hamımız Allaha çox yaxın oluruq".

Bu sözləri deyə-deyə ağlayırdı. Gözəl arifanə halı vardı, bütün ətrafını təsiri altına salırdı. Get-gedə hıçqırtı ilə ağlamağa başladı. Belə ki tibb bacıları gəlib bizi otaqdan çıxardılar. Onunla sağollaşıb getdik.

Xəstəxanadan çıxanda silahımı almaq üçün bacaya yaxınlaşdım. Əsgər məndən silah daşımaq üçün icazə vərəqəsi istədi. Belə bir şey olmadığını bildirəndə dedi ki, silahını qaytarmaq mümkün deyil. Xürrəmşəhrin müdafiəçilərindən və silaha ehtiyaclı olduğumu nə qədər desəm də, razılaşmadı, dedi ki, sənin üçün yalnız bir iş görə bilərəm: Silahının nömrəsini verirəm, sabah Abadan polisinə get, gör oradan ala bilirsən, ya yox.

Gəlib məsələni Conşana danışdım. Dediyinə görə, onun hər yerdə tanışı vardı: inqilab məhkəməsindən tutmuş, polisə və digər yerlər qədər. Dedi ki, Tehran universitetinin İlahiyyat fakültəsinin uşaqlarından olan dostu ağa Məhəmmədi Xürrəmşəhrə gəlib. Dediyinə görə, Conşana və digər dostlarına silah daşımaq üçün icazə vərəqəsini o almışdı. Dedi ki, onunla söhbət edərəm, sənə də birini alar. Ertəsi gün Conşanla Abadan polisinə getdik, silahımı alıb özümə verdi. Sonra da dedi ki, ağa Məhəmmədi icazə vərəqəsi almaq üçün 3x4 ölçüsündə bir şəkil istəyir.

***

Uşaqlarla hamama getmək qərarına gəldik. Mən Məryəm xalamgildə hamama getmişdim, ancaq digərlərinin paltar və

bədənləri çirkli idi. Yuyunmağa bir yer tapmaq ümidi ilə Abadana getdik. Orada bir qədər gəzib Quruculuq cihadına çatdıq. Zəhra Hüseyni, Zöhrə və Əşrəf Fərhadilər, Məryəm Əmcədi və Bilqeys Məlikianla birgə bəlkə bir saatdan artıq orada dayanıb bir tanış gözlədik. Harada yuyunacağımızı bilmirdik. Günorta olmuşdu. Çox ac idik. Uşaqlara dedim ki, bir az pulum var, gedək bir şey alıb yeyək.

Zəhra dedi: "Pulu ver, gedib bir şey taparam". Pulu alıb Kəfişə bazarına tərəf getdi. Bir az sonra iki uzun çörəklə və içində bəndəri turşusu olan kiçik bir torba ilə gəldi. Dedim: "Zəhra, bu nədir almısan?! Bu turşu mədəmizi dələr".

Dedi: "Yox, Sabah, bilirsən çörəklə turşu necə ləzzətli olur?! Bir dəfə yoxla, çox dadlıdır".

Zəhra çörəyi turşu torbasına batırıb iştahla yeməyə başladı. Barmaqları da turşuya batırdı. Hamı etiraz etdi.

-Bu necə yeməkdir?! Heç olmasa, çörəyini turşuya vur, ye.

Zəhra da deyirdi:

-Yox əşi! Siz çox ərköyünsüz, müharibə vaxtı bu sözlərin yeridirmi?!

Bir qədər zarafatlaşandan sonra çörəklə turşunu necə yediyimizi bilmədik. Neçə gündən sonra yeganə yemək idi ki, əsl dadını hiss edirdim. Ondan öncə düz-əməlli bir yemək yeyə bilməmişdim. Həmişə ya quru çörək yeyirdik, ya da isti xörək tapanda döyüşçülərin haqqı olduğunu düşünüb vicdan əzabı çəkirdik. Zəhranın tərifləyiyi turşu-çörək hamımızın xoşuna gəldi.

Küçədə oturub çörək yediyimiz yerdə bir-iki dəfə gözlərimiz Quruculuq cihadının binasında keşik çəkən gənc oğlana sataşmışdı. Yeməyimizi bitirəndən sonra bizə yaxınlaşıb başını aşağı saldı və dedi: "Bacılar, burda bir işiniz var? Kimisə gözləyirsiz? Mən iki saata yaxındır növbədəyəm, o vaxtdan burda oturmusuz". Dedim: "Biz Xürrəmşəhrdənik, came

məscidində tibbi yardım üçün yerləşmiş xalq könüllülərindən". Bunu deyəndə cavanın üzü güldü.

-Bəs bu qədər vaxtı burda nə edirsiz?

Çox çətin sual idi. Yuyunmağa hamam axtardığımızı söyləməyə utanırdıq. Lakin başqa yolumuz yox idi. Utana-utana dedim: "Qardaş, bizim işimiz elədir ki... Yaralı və şəhidlərlə çox təmasda olduğumuzdan bütün paltarlarımız qanlıdır, namaz qılmaq üçün çox əziyyət çəkirik. Bu gün işimiz az idi, dedik ki, buraya gələk, bəlkə yuyunmağa bir yer tapdıq".

-Nənəmgilin evləri yaxındadır, özləri də evdə yoxdurlar, qohumlarının yanına gediblər. Bir neçə dəqiqə gözləyin, gedib açarı gətirim. Orda yuyuna bilərsiz.

Çox sevinib ona təşəkkür etdik. Cavan oğlan təzə getmişdi ki, bir maşın xüsusi təyinatlı hərbçi bizə yaxınlaşdı. Məsciddə və tibb mərkəzində gördüyümüz birisi maşından enib salam verdi və orada nə etdiyimizi soruşdu. Dedim ki, heç nə, burda işimiz var. Dedi: "Bu vəziyyətdə nə iş?! Nə vaxtdan burda dayanmısız? Axı biz xürrəmşəhrlilər öz yerlilərimizin qeyrətini çəkməyə bilmirik!"

Elə danışdı ki, sanki biz heç nə başa düşmürük və yalnız özü qeyrətlidir. Odur ki biz də hamamdan ötrü gəldiyimizi söyləməyə məcbur olduq. Bunu deyən kimi dilləndi: "Məgər burda kimisə tanıyırsız?"

Bizə nənəsigilin evinin açarını gətirəcək cavan haqda danışdıq. Hələ sözümüz bitməmiş əsəbiləşdi.

-Bu qarışıqlıqda tanımadığınız bir adamın evinə hamama getmək istəyirsiz?! Yad bir adama necə inana bilirsiz?! Zahiri görkəmi normal göründüsə, elə bilirsiz heç bir problemi ola bilməz?

Sakit qaldığımızı görüb dedi: "Bizim ata evimiz Abadandadır, sizi apararam, orda yuyunarsız".

Sözləri məntiqli olsa da, həm mən, həm uşaqlar dindar görkəmli o gəncin nənəsigilə getmək istəyirdik. Buna görə dedik: "Axı o yazıq açar gətirməyə gedib, qayıdanda bizi burda görməsə, narahat olar".

Heç vəchlə qane olmayan xüsusi təyinatlı amiranə tərzdə dedi: "Xeyr! Lazım deyil! Tez maşına minin, sizi atamgilə aparacam".

Razılaşmaqdan başqa yolumuz yox idi. Bundan artıq israr etsəydik, yaxşı çıxmazdı. Maşına minib yola düşəndən sonra həmin cavan maşının arxasınca qaçaraq açarı göstərirdi. Allah bəndəsini əziyyətə saldığımıza görə çox narahat olduq.

Bir neçə dəqiqədən sonra xüsusi təyinatlının evinə çatdıq. Yaşlı ata-anası vardı. Bizi tanımasalar da, gülərüzlə qarşıladılar. Oğulları dedi: "Bu xanımların hamama ehtiyacları var, ona görə gəliblər".

Hamamı hazırladılar, növbə ilə girib yaxşıca yuyunduq. Başımdan topa-topa saç tökülürdü. O qədər tərləyib toz-torpağa bələşmişdik ki, saçım ağac kimi bərkimişdi, arasına barmaq girmirdi. Çarəsizlikdən saçımı toplayıb başımın arxasında bərk bağladım.

Hamamdan çıxandan sonra Zəhranın darağı ilə saçımızı darayıb səliqəyə saldıq. Hərbçinin anası günorta yeməyinə mərci şorbası bişirmiş, kiçik qazanda plov asmışdı. Yemək çox olmasa da, bərəkətli idi, hamımız doyduq. Yeməkdən sonra qadın dedi: "Bir az istirahət edin, yorğunluğunuz çıxandan sonra gedərsiz".

Dördümüz də otaqda uzandıq. Hamıdan tez Bilqeys yuxuya getdi. Mən saat ikinin xəbərlərini gözlədiyimə görə yatmadım. Saat ikidə diktor batıq səslə dedi ki, düşmən ötən gecə onikimetrlik raketlə Dezfulu vurub. Xəbəri eşidən kimi üçümüz də birdən ayağa qalxdıq. Vəziyyətin bu həddə çatacağına inana bilmirdik. Elə bilirdik ki, bugün-sabah Xürrəmşəhrə köməkçi

qüvvələr gələcək və müharibə bitəcək. Müharibənin Dezfula və digər şəhərlərə keçməsi bizi çox narahat etdi. Bilqeys səsimizə yuxudan oyandı, narahatlığımızı görüb həyəcanla nə baş verdiyini soruşdu. Məsələni ona söyləyəndən sonra narahtlıqdan üzünə vurdu. Həmin bir-iki saat istirahət əməlli-başlı burnumuzdan gəldi. Xüsusi təyinatlılar Dezfulun vurulduğunu öyrənəndə dedilər ki, tez qalxın, Xürrəmşəhrə getmək lazımdır. Günorta saat üçə yaxın bizi Şeybaninin tibb mərkəzində endirib getdilər.

Tibb mərkəzinin uşaqları da xəbəri radiodan eşitmişdilər. Çox narahat və həyəcanlı idik, yavaş-yavaş inanmağa başlayırdıq ki, müharibə düşündüyümüzdən çox çəkəcək. Axşama qədər xüsusi bir xəbər gəlmədi. Axşam namazlarımızı qılandan sonra bir yerə toplaşdıq. Üz-gözümüzdən qəm-kədər yağırdı. Zəhraya dedik ki, bizə rövzə oxusun. Onun yaxşı səsi vardı, tibb mərkəzində tək olanda, ya da maşınla bir yerə gedəndə yavaşca mərsiyə oxuyardı. Cahanbəxş Kürdizadə adlı buşəhrli məşhur bir məddahın üslubunu yamsılayırdı. Gözəl səsindən əlavə, atası və qardaşı şəhid olduğuna görə səsində ürəkyandıran bir sızıltı vardı. Zəhra dedi: "Sizə hansı rövzəni oxuyum?" Dedik ki, İmam Hüseyn (ə) qəriblərinin gecəsində həzrət Zeynəbin əsirlik rövzəsini.

Zəhra, "Yetimlik! Dərmansız dərddir yetimlik..." - deyən kimi ağlamağa başladıq, otağı hıçqırtı səsi bürüdü. Ağlayıb yüngülləşmək üçün hamı kiçik bir səbəb axtarırdı. Son günlərdə gördüyüm şəhid və yaralıların üzləri bir-bir gözlərim önündən keçdi. Şəhərimin gənclərinin ləçək-ləçək olması, yerlilərimin didərginliyi, düşmənin ayaq basdığı torpağımın dərdi və müharibənin min cür digər problemi bütün beynimi məşğul edirdi.

Digər uşaqlar da mənim kimi idilər. Hamımız aciz qalmışdıq. Zəhra özü də rövzə oxuya-oxuya ağlayıb bir qədər yüngülləşdi. Gecə gözlərimə yuxu getmirdi.

On altıncı gün xüsusi bir hadisə baş vermədi. Nisbətən sakit bir gün idi, amma əvəzində sübh azanına yaxın İraq tərəfi şəhəri güclü atəşə tutdu. Raket, mərmi və qrad səsləri bir an kəsilmirdi. Quru qoşunları şəhəri elə atəşə tuturdu ki, hər an tibb mərkəzinə və məscidə çatacaqlarını gözləyib hazır vəziyyətdə dayanmışdıq. Tibbi yardım alətlərini səliqə ilə masanın üzərinə düzüb yaralıları gözləyirdik.

Oktyabrın 7-də səhər çağı yardım çantamı və silahımı götürdüm, Zöhrə Fərhadi və Conşanla birgə gömrüyə yola düşdük. Digər yerlərə gedəndə silahımı götürmür, Məryəm Əmcədiyə tapşırırdım. Düşmənin hücumu şiddətlənmişdi, hansısa döyüşçünün tibbi yardım çağırmaqdan ötrü döyüşdən ayrılmasını istəmirdik. Son günlərdə canlı qüvvə də azalmışdı, yaralıları dərhal geriyə aparacaq adam yox idi. Azsaylı döyüşçülərlə şəhəri müdafiə etmək zərurəti yaranmışdı. Buna görə qərara gəlmişdim ki, harada mənə ehtiyac olduğunu və əlimdən bir iş gəldiyini hiss etsəm, orada olum.

Darvaza meydanı səmtindən Mövləvi dördyoluna, sonra Səntap məhəlləsinə doğru getdik. Mövləvi prospekti raket zərbələrindən aşmış elektrik dirəklərinə görə kabellə dolu idi. Kabellərdən başqa, dağılmış evlərin kərpicləri və mağazaların dəmir jalüzləri də yola səpələnmişdi. Qəlpə yarasından ölmüş toyuq, xoruz və digər heyvan leşləri Mövləvi prospektində qəribə görkəm əmələ gətirmişdi. Düşmənin heyvan kimi yırtıcı olduğunu gözlə görmək olurdu. Raket partlayışından yaranmış çala-çökəklər sürətimizi azaldırdı. Bütün bu maneələrdən əlavə, Səntapa yaxınlaşdıqca düşmən atəşi də güclənirdi.

İraqlılar gömrükdə idilər. Onların qarşısını almaq üçün gömrüyün arxasına keçməli idik. Bundan ötrü Səntap

prospektindən keçib liman evlərinin arxasına getməmiz lazım idi. Getdiyimiz yol məhəlləmizə yaxın olduğundan yaxşı tanıyırdım.

M1 silahı ağır idi, qaçanda mənə mane olurdu. Ondan əlavə, tibbi yardım çantası da belimdə idi və sürətimi azaldırdı. Liman evləri elə tikilmişdi ki, bəzi yerlərdə daha çox düşmən hədəfində olurduq. Buna görə bəzən əyilə-əyilə, bəzən də oturaq halda getməyə məcbur olurduq. Qaçanda Zöhrə Fərhadinin şalvarının balağı küçənin kənarındakı tikanlı məftillərə ilişdi.

İraqlılar gömrüyün içindən qumbaraatanla atəş açırdılar. RPG mərmiləri bitmək bilmirdi. Səntap prospektindən keçmək asan deyildi. Dayanmadan başımıza atəş yağdırırdılar. Qarşımızda olduqlarına görə prospektdən keçəndə bir-birimizi qorumalı idik. Conşan bizi qorudu və biz keçdik. Sonra biz prospektin o tərəfindən düşmənə atəş açıb onun gəlməsinə şərait yaratmağa başladıq. Allah bilir ki, hansı çətinliklə gömrüyün divarlarının arxasına keçə bildik. Tibb mərkəzindən çıxıb oraya çatana qədər ən azı, iki saat keçdi.

Düşmən gömrüyün qapısının üstündən atəş açırdı. Yenə bir-birimizi qoruduq və təxminən yarım saat vuruşandan sonra gömrüyə girə bildik. 106 mm çaplı topu daşıyan bir pikapın oraya girişi diqqətimi cəlb etdi. Diqqətlə baxdıqda Məryəm Əmcədini maşında gördüm. O da pikapın ekipajından olmuşdu. Sürətlə önümüzdən keçib getdilər.

Gömrüyün girişində kiçik bir gözətçi otağı vardı. İçəridə gənc bir oğlan yaralanıb yerə yıxılmışdı. Güllə və ya qəlpə gicgahını yarmışdı, başının dəliyindən yavaş-yavaş qan axır, üzündə və yerdə laxtalanırdı. Hələ bədənində can vardı, əl-ayağını tərpədirdi. Məzlum çöhrəsi vardı. Üzünü toz-torpaq və qan örtsə də, bitişik qara qaşları və uzun kirpikləri simasını çox fərqləndirirdi. Yaşı 18-19-dan çox olmazdı.

Ona baxdığımız yerdə birdən Conşan silahını çəkib yaralı döyüşçünün başı üstə getdi, silahı alnına dayadı, atəş açmaq istəyəndə qışqıraraq ona tərəf qaçdım.

-Nə edirsən?!

-Görmürsən əzab çəkir?! Onu xilas etmək istəyirəm!

Onun bu hərəkətinə bərk əsəbiləşib qeyzlə dedim:

-Sən xilas etmək istəyirsən?! Özünü nə zənn edirsən?! Allahın yanından gəlmisən ki, belə bir icazən var?!

Zöhrə də dilləndi: "Məgər o, atdır ki, xilas etmək istəyəsən?!"

Dedi: "Axı bu yazıq nə vaxta qədər əzab çəkməlidir?! Axı bu vəziyyətlə qalası deyil!"

Dedim:

-Sən kimsən ki, belə danışırsan?! Məgər sən həkimsən ki, yaşayıb-yaşamayacağını söyləyəsən?!

-Biz Kürdüstanda olanda sağalmasına ümidimiz olmayan yaralı qardaşlarımızı vururduq ki, əzab çəkməsinlər.

Doğru söylədiyinə əmin deyildim.

-Əgər orada da belə etmisizsə, çox səhv etmisiz! Bu döyüşçüyə əl vurmağa qoymaram. Onu xəstəxanaya göndərəcəyik. Ömrü qalıbsa, yaşayacaq, qisməti şəhadətdirsə, daha bir iş görə bilmərik.

Sözümün ona faydası olmadığını və silahı yaralının alnından çəkmədiyini görüb öz silahımı çəkdim və dedim:

-Əgər onu vursan, mən də səni vuracam!

Conşan mənim həddən artıq əsəbi olduğumu görüb silahını geri çəkdi və dedi: "Mənə dəxli yoxdur, nə bilirsiz edin. Ancaq mənim bildiyim qədər bu yaralı çox davam gətirsə, bir saat yaşaya bilər!"

Yaxınlaşıb başının yaralanmış hissəsinə bir neçə sterilizə olmuş tənzif qoydum və möhkəm bağladım. Sonra onu bir qədər sonra gələn maşının arxasına qoyub bir döyüş yoldaşı ilə Taliqani xəstəxanasına göndərdik. Maşın vurulmasın deyə

saatda 120 km sürətlə sərt döngələrdən keçib Mövləvi prospektinə çatdı və Allahın köməyilə sağ-salamat getdi.

İlk dəfə idi gömrüyə girirdim. Uzun illər onun qonşuluğunda yaşamış, içərisini yaxından görməyi arzulamışdım. Gəmilərin gömrüyə yan alıb yüklərini limana boşaltdığını görəndə bağlı qutuların içində nə olduğunu bilmək istəyirdim.

Gömrükdə göz işlədikcə taxta konteynerlər vardı. Onlar bir növ anbar sayılırdı, müxtəlif yeni əşyalarla dolu idi. Əlbəttə, konteynerlərə plomb vurulmuşdu, yalnız raket və ya top partlayışından dağılanların içini görmək olurdu. Belələrində çoxlu tikiş maşınları, qazan, boşqab, qaşıq və çəngəl kimi mətbəx əşyaları, elektrik avadanlıqları, böyük generatorlar və digər əşyalar gözə dəyirdi.

Bütün söz və sənədlərinə rəğmən, Conşana güvənə bilmirdik. Əlbəttə, o şəraitdə arxasınca getməkdən başqa yolumuz yox idi. Axı heç kim bizi döyüş yerinə aparmırdı!

İdxal edilmiş çoxlu mərmər daşlarının yığıldığı bir yerə çatdıq. İki metr enində, bir metr hündürlüyündə çox böyük daşlar idi. Conşanın arxasınca gedib üç tərəfdən bu daşlarla əhatəyə alınmış bir əraziyə çatdıq. Conşan dedi: "Bacılar, bir neçə dəqiqə burda gözləyin, gəlirəm".

Mən dilləndim: "Hara gedirsən? Bu qədər yolu yaralılara kömək etməyə gəlmişik, boş durmağa yox".

Dedi: "İndi gedərik. Mənim işim çox çəkməyəcək!"

Bunu deyib dərhal getdi. Ətrafımızdan keçən güllələrin vıyıltısını aydın eşidirdik. Uşaqlarımıza açılan atəşlərin şiddətini daşların arasından da duymaq olurdu. O daşlar olmasaydı, biz də güllələrdən payımızı alardıq.

Conşanı təxminən bir saat gözlədik. Yavaş-yavaş ondan şübhələnməyə başlayırdıq. Fikirləşirdik ki, bizi bura nə üçün gətirib, özü isə yoxa çıxıb? Orada qalmaq məsləhət deyildi.

İraqlılar irəliləsəydi, mühasirəyə düşə bilərdik. Eyni zamanda Conşan gəlib bizi axtara da bilərdi.

Bu zaman bir nəfər daşların arxasından məni çağırdı. Çox gərgin və narahat bir əsgər idi. Dedim:

-Bəli, qardaş, bir şey olub?

-Bacı, siz tibbi yardımdansız?

-Bəli. Nə olub?

Qaşlarının düyünü bir qədər açıldı.

-Bacı, dostum güllə yarası alıb yerə yıxıldı. Nə qədər çağırıram, cavab vermir. Məncə, huşunu itirib. Onun yarasını bağlaya bilərsiz?

-Hə, gedək.

Zöhrə dedi ki, mən qalım, Conşan gələndə bizi axtarmasın. Onunla sağollaşıb əsgərin ardınca yola düşdüm. Güllə yağışı aman vermirdi, hər biri qırmızı arı kimi yan-yörəmizdən keçirdi. Birtəhər gedirdik. Əsgərlərin səngər kimi istifadə etdikləri böyük bir daş parçasına çatdıq. Əsgər əli ilə daşın arxasını göstərib dedi: "Dostum ordadır".

Ona yaxınlaşdım. Snayper iki qaşının ortasından vurmuşdu. Əsgər yerindəcə şəhid olmuşdu, amma dostu yaşının və təcrübəsinin azlığına görə bilmirdi. Dostunun əksinə olaraq, şəhid iri cüssəli idi. Onun şəhid olduğunu söyləmədən dostuna dedim: "Qardaş, kömək edə bilərsən dostunu geri aparaq?" Dedi: "Hə, amma bu atəşdə necə?"

O şəraitdə cənazə aparmaq ağıllı iş deyildi. Biz özümüzü güclə geri çatdıra bilərdik, amma şəhid cəsədinin yanından laqeyd keçməyi vicdanım qəbul etmədi. Anasının gözlərinin həmişə yolda qalacağını düşünüb narahat olurdum. Bundan əlavə, düşmən irəliləyib şəhidin cəsədinə hörmətsizlik də edə bilərdi. Hətta bizim bir patronumuzun da düşmən əlinə keçməsini istəmirdim, o ki qala şəhid cəsədinə.

Ətrafıma nəzər saldım. Cənazəni yerlə sürüyüb aparmaq da olmurdu. Xərək əvəzi istifadə etmək üçün taxta axtarmağa başladım. Gözlərim gömrüyün bir tərəfində yerə düşmüş əl arabasına sataşdı. Əsgərə dedim ki, gedib onu gətirsin. Tez gedib gətirdi. Qərara gəldik ki, o, şəhidin bədənini qaldırsın, mən də ayaqlarını. Bir dəfə "ya Əli" deyib əsgərin köməyi ilə şəhidi arabanın üstünə qoyduq. Əsgər arabanın dəstəklərindən tutdu mən də önə keçdim və yola düşdük. Gömrüyün qapısına doğru gedirdik. Asfalt küçədən keçmək mümkün deyildi. Ora düşmənin hədəfində idi, bizi vura bilərdilər. Buna görə anbarların arxasından gömrüyün divarına doğru yola düşdük. Yavaş-yavaş bizə doğru açılan atəşlərə RPG mərmiləri də əlavə olundu. O mərəkədə birtəkərli arabanı saxlayıb itələmək çətin idi. Raket və mərmilər yeri şumlamışdı, yol çala-çökəklə dolu idi. Azca ehtiyatsızlıq etsəydik, şəhid yerə düşərdi. Araba bir neçə dəfə əyildi, amma əsgərlə köməkləşib cəsədi saxladıq.

Gömrüyün divarına çatana qədər 40 dəqiqədən artıq sürdü. Top mərmisi gömrüyün divarının bir hissəsində böyük bir yarıq açmışdı. Oradan keçə bilərdik. Əsgərə göstərib dedim ki, gedək oraya. Torpaq və kərpiclərin üstü ilə birtəhər yarıqdan keçdik.

Yarığın o tərəfində Mayor Əqaribpərəst şəxsi heyətilə birgə vuruşurdu. Oradan gömrüyə yerləşmiş düşmən qüvvələrinə mina atırdılar. Onların yanında kiçik bir yük maşını vardı. Şəhidi əsgərlərə təhvil verdim, mayorla sağollaşıb geri qayıtdım. Zöhrəyə görə narahat idim. Hələ oradan uzaqlaşmamış Conşan da peyda oldu. Əsəbi halda gəlirdi, mənə çatanda dedi: "Kim dedi ki, mövqeyini tərk edib bura gələsən?!"

Mən də sərt cavab verdim: "Hansı mövqeyi?! Ora iki qızın qalmalı olduğu yer deyildi. Bəlkə bizi iraqlılara təhvil vermək istəyirdin? Məgər ora qalası yer idi?! Görmürdün necə sürətlə irəliləyirdilər?! İstəyirdin qalıb əsir düşək?"

Bunu deyib getdim və çox çətinliklə özümü Zöhrəyə çatdırdım. Yazıq o qədər vaxtı orada tək-tənha oturmuşdu. Yerimi tərk etdiyimə görə Conşanın necə etiraz etdiyini danışıb dedim: "Qalx gedək. Burada qalmaq təhlükəlidir, iraqlılar irəliləsələr, əsir düşəcəyik. Bu Conşanın nə planı olduğu bəlli deyil. Mən ona inanmıram!"

O da mənimlə eyni fikirdə idi. Qərara gəldik ki, döyüşçü uşaqların yanına gedək. Biz onlara yardım etməyə gəlmişdik. Hələ bir neçə addım uzaqlaşmamış Əbuzər qrupunun uşaqlarından Məsud Pakinin əyilib qaça-qaça bizə doğru gəldiyini gördük. Dedi: "Siz burda nə edirsiz?" Başımıza gələnləri ona danışdıq. Dedi: "Uşaqlar bir neçə anbar öndədirlər. Mənim arxamca gəlin".

Təxminən 10-12 nəfər bir anbarın arxasında mövqe seçib düşmənə atəş açırdı. Həmid Xoşnud, Abbas Əlivənd, Qasim Mədəni, Həmid Bordbar, Əmir Samiri, Hadi Peyrov və Xəlil Məavi də orada idi. Hamısı Xürrəmşəhrin müdafiəçiləri və Əbuzər qrupunun üzvləri idi. Həmid Xoşnud 15-16 yaşlı bir yeniyetmə idi. Üzü günəşdən yanmışdı, sakit və utancaq oğlan, döyüş yerində isə çox aktiv idi. İşbirliyim olmadığına görə Qasim Mədəni ilə Həmid Bordbarı yaxşı tanımırdım. Hər ikisi Həmid Xoşnuddan böyük görünürdülər. Əmir Samiri ilə Hadi Peyrov da həmçinin. Onların adlarını sonradan öyrəndim.

Uşaqları qoruduğum vaxt istisna olmaqla hələ döyüş məqsədilə düşmənə bir güllə atmamışdım. Gömrükdə elə qızğın döyüş gedirdi ki, tibbi yardımdan öncə müdafiə haqda düşünməli idik. Eyni zamanda diqqətim uşaqlarda və tibbi yardımda olmalı idi.

M1 silahı ilə vuruşmaq çox çətin idi, sürətimi azaldırdı. Uşaqların yanında bir neçə j3 silahı vardı. Öz silahımı verib, əvəzinə bir j3 götürdüm. Elə bilirdim ki, əvvəlcə dəqiq nişan almalı, sonra atəş açmalıyam. Buna görə silahın qundağını

çiynimə söykəyib atəş açmağa başladım. Məsud Paki mənə yaxınlaşıb dedi: "Silahı bir qədər rahat tut. Belə tutsan, səni incidər". Soruşdum ki, bəs necə tutum? Dedi: "Elə tutmalısan ki, qundağı qoltuğunun altından arxaya çıxsın".

Doğru deyirdi. J3 bu tərzdə çox yüngül və idarəsi asan olurdu. Bunu ilk atəşdən anladım. Təxminən yarım saatdan sonra Qasim Mədəninin aramızda olmadığını duyduq. Əmir Samiri bir qədər ətrafı axtardı, amma ondan əsər-əlamət tapmadı. Üzünün rəngi qaçmışdı. Dedi: "Birdən əsir düşər! Bir neçə dəqiqə öncə burda idi, bəs hara getdi?"

Əlimizdən bir iş gəlmirdi. Qayıtmasını və ya ondan bir xəbər gəlməsini gözləməli idik. Bizə günorta yeməyi gətirdilər. Döyüşün şiddəti bir qədər azalmışdı. Oturub uşaqlarla birgə silahlarımızı təmizləyirdik. Bizə yemək gətirənin adı Cəfər Musəvi idi.

Zöhrə və Məryəm Əmcədi ilə birgə içində nə olduğunu bilmədiyimiz 200 letirlik bir bakın üstündə oturduq.

Əlim silahda, bütün diqqətim isə ətrafda idi. Qorxurdum ki, birdən döyüşçülərin arasında Əlini görərəm. Onu yaxşı tanıyırdım, bilirdim ki, məni döyüş yerində görsə, çox narahat olub hirslənəcək. Adam içində mənimlə ağır danışmasını istəmirdim. Ümumiyyətlə, bütün korpus uşaqları onun kimi idilər, qızların döyüş yerinə getmələrini istəmirdilər; üstəlik, gömrük kimi düşmənlə məsafənin az olduğu yerə. Hərəmiz bir neçə tikə yemək yedik. Yeməyimiz quru çörəkdən və lobya konservindən ibarət idi. Yemək yediyimiz yerdə Qasim Mədəni gəldi. Əmir Samiri onu görən kimi ayağa qalxdı, qışqırıb dedi: "Sən hardasan? Ömrümüzün yarısı getdi, oğlan!"

Qasim Mədəni çox narahat idi.

- Getmişdim ki, görüm iraqlılar hara qədər irəliləyiblər.

Əmir Samiri çox əsəbi idi.

-Qəribə adamsan! Tək-tənha irəli gedərlər?! Heç nə, orda halva paylayırlar! Birlikdə gedə bilməzdik?!

-Mənim qardaşım, irəlidə nə olduğunu bilmədən necə hamımız yola düşüb gedə bilərdik?! Onda hamımız birlikdə ya şəhid olardıq, ya da əsir düşərdik.

-Heç olmasa, getdiyini söyləyəydin. Demirsən ki, birdən yoxa çıxanda adam qorxar, beyninə min cür fikir gələr?!

-Yaxşı, bağışlayın.

Əmir Samiri daha heç nə demədi. Qasim Mədəninin səsi kövrək idi. Bir qədər dayanandan sonra dedi: "Uşaqlar, Riyazla Bijən şəhid oldular, cəsədləri də iraqlılara çox yaxın yerdə qaldı, gətirə bilmədim".

Birdən oturduğumuz yerdən üç metr aralıya bir raket düşdü. Dərhal üzümün sol tərəfinin yandığını hiss etdim. Hərarət o qədər güclü idi ki, bir anlığa üzümün yarısının getdiyini düşündüm. Əlimlə yavaşca üzümə toxundum. Bir damla belə qan yox idi. Yenidən hər iki əlimi üzümə çəkib bir şey olmadığına əmin oldum. Bildim ki, hərarət partlayış zamanı üzümə sıçrayan qumun və torpağın istiliyi imiş.

Zöhrə yerə yıxılıb ağrıdan qıvrılırdı. Bir qədər aralıda da Əmir Samiri yerə yıxılmışdı. Onun vəziyyəti çox pis idi, qan boynundan yarım metr yuxarı fəvvarə vururdu. Məryəm Əmcədi Əmir Samirini görüb şoka düşmüşdü, qışqırırdı; elə bilirdi ki, başı qopub. Onlardan əlavə, Cəfər adlı bir döyüşçünün də belinə qəlpə dəymişdi. O da ağrıdan qışqırırdı.

Tez Zöhrəyə yaxınlaşdım. Dizinə qəlpə dəymiş, şalvarı qandan islanmışdı. Qorxudan rəngi qaçmışdı, amma özünü ələ almağa çalışırdı. Yalnız dizinə qəlpə dəydiyini, çox da narahatlığa səbəb olmadığını görüb Əmir Samirinin yanına qaçdım.[1] Məryəm Əmcədi də salamat idi. Yalnız başını aşağı

[1] Zöhrə sonralar zarafata deyirdi: "Sabah, sən başını mənə borclusan. Əgər dizim olmasaydı, qəlpə düz başına dəyib səni o dünyaya göndərəcəkdi".

salıb qışqırırdı, Əmirə baxmağa qorxurdu. Başına qışqırıb dedim: "Məryəm, bəsdir, ayağa qalx, kömək elə!"

O isə hələ də qışqırırdı. Yaxınlaşıb dedim: "Mənim bacım, o yazıq yaralanıb, səsi çıxmır, sənə isə bir şey olmayıb, gəlib ona kömək etmək əvəzinə oturub qışqırırsan. Sakit ol, qalx, ona kömək edək. Gərək qanaxmasını dayandıraq. Tez qalx". Məryəm ağlaya-ağlaya dedi: "Axı hansına yardım edək?!"

Nə qədər sterilizə edilmiş tənzif vardısa, çantamdan çıxarıb Samirinin boynunun yarasına qoydum, var gücümlə sıxmağa başladım. Elə ilk bir neçə saniyədə hamısı qana bələşdi. Məcbur olub digər tənzifləri də çıxardım və yaranı bir qədər də sıxdım. Tamponun qalınlığı təxminən 10 sm olardı. Bu şəkildə qanaxmanı dayandırmağa ümid bəsləyirdim.

Bir neçə dəqiqədən sonra qanaxma dayandı. Xoşbəxtlikdən, bizə yemək gətirən maşın getməmişdi. Əmir Samirini sürücünün və Məryəmin köməyilə maşının arxasına qoyduq. Sonra Cəfər Musəvinin yanına qaçdım. Qanaxması güclü deyildi. Yarasını daha asan şəkildə bağladım. Yerindən tərpənə bilmirdi. Onu iki döyüşçü ilə birgə götürüb maşına qoyduq.

Zöhrəyə yaxınlaşdım. Bu müddətdə Məryəmdən onun ayağının yarasını bağlamasını gözləyirdim, ancaq heç nə etməmişdi. Məryəmlə birgə onu da qaldırıb maşına qoyduq və geri yolladıq. Yaranı bağlamağa vaxt yox idi, tez getməli idilər. Zöhrə döyüş yerində qalmaq istəyirdi, amma dizindən yaralandığına görə ayağı tərpənmirdi, o vəziyyətdə qalmasının mənası yox idi.

Düşmən atəşi bir an da səngimirdi. Avtomat, qumbaraatan və minaatanlar üstümüzə atəş yağdırırdı. Bizimsə sursatımız bitmişdi. Üç-dörd nəfərimiz də yaralanıb xəstəxanaya göndərilmişdi. Canlı qüvvəyə və silah-sursata ehtiyacımız

---

Doğru deyirdi. Biz yan-yana elə oturmuşduq ki, Zöhrənin dizi mənim gicgahımın böyründə qalmışdı.

vardı, lakin döyüşçülərin sayı çox olmadığına görə heç kimi geri göndərə bilmirdik.

Biz geri getsəydik, yerləşdiyimiz mövqe tezliklə düşmənin əlinə keçər, uşaqlarımız öldürülərdi. Bir tərəfdən də Riyazla Bijənin cəsədlərini geri gətirməli idik. Orada qoysaydıq, iraqlılar irəliləyəndən sonra cəsədləri təhqir edərdilər. Uşaqların birinin kömək və sursat gətirməli olduğu söylənəndə qışqırıb dedim: "Mən gedib kömək gətirə bilərəm".

Əvvəlcə çox təəccüblənib dedilər: "Əminsən ki, gedə bilərsən? Qorxmursan? Yolu yaxşı tanıyırsan?" Dedim: "Hə, əminəm. Buranı yaxşı tanıyıram. Bu gün bir şəhidi də geri apardım. Üstəlik, gömrükdən çıxmaq üçün ikinci bir yol öyrənmişəm".

Razılaşıb tapşırdılar ki, çox diqqətli olum.

-Bütün yol düşmənin hədəfindədir, elə get ki, vura bilməsinlər.

"Bismillah" dedim, kəlmeyi-şəhadətimi oxuyub yola düşdüm. Gəldiyim yolla qaçmağa başladım. Başıma nə gələcəyini bilmirdim. Vəziyyət pis olsa da, Allah şahiddir ki, canıma görə zərrə qədər də narahat deyildim. Dodaqaltı Allahı çağırırdım ki, ən azı, gömrüyün divarlarının arxasına, ordu qüvvələrinin yerləşdiyi yerə salamat çatım, onlara deyim gedib kömək gətirsinlər.

Uşaqlarla yerləşdiyimiz divarın arxasına keçdim. Artıq tam şəkildə iraqlıların hədəfində idim. Ziqzaq şəkildə qaçmağa başladım. İraqlılar sol tərəfimdə idilər, yanımıza düşən raketi də oradan atmışdılar. Məni aydın görürdülər. Bunu ayağımın yanından keçən, dəmir dirəklərə dəyib yerə düşən güllələrdən anlayırdım. Güllələrin heç biri dizimdən yuxarı atılmırdı. Əsir düşməmək üçün bütün gücümü ayaqlarıma verib qaçırdım. Güllələr ayaqlarımdan azca aralıya dəydiyinə görə, görünür, diri tutmaq istəyirdilər. Məni düşmənin hədəfindən çıxaracaq

ilk döngəyə qədər təxminən 50 metr məsafə vardı. O məsafə mənə 500 metr kimi gəlirdi. Oraya çatana qədər sanki bir il ötdü. Nəhayət, sağ-salamat keçə bildim. Döngənin arxasında divarda böyük bir dəlik vardı. Səhər çağı şəhidi oradan keçirib Mayor Əqaribpərəstin əsgərlərinə vermişdik. Onlar liman evləri səmtində idilər. Uşaqlarımızın əsir düşmək qorxusu mənə əzab verirdi.

Özümü əsgərlərə yetirib məsələni danışdım. Sözlərimi eşidib çox narahat olacaqlarını, əllərindən gələni edəcəklərini gözləyirdim, ancaq öz dərdləri açıldı.

-Bizim əllərimiz də boşdur, özümüzün də köməyə ehtiyacımız var. Uşaqlarımızın biri şəhid olub, hələ geri göndərə bilməmişik. Yaralımız da çoxdur.

Sözlərini eşidib hirsləndim. İnana bilmirdim ki, bir neçə metr o tərəfdə uşaqlarımız köməksizlikdən və silahsızlıqdan şəhadət, ya əsarət riski altındadırlar, bunlar da yüz bəhanə ilə kömək etmək istəmirlər.

Səsimi ucaldıb dedim: "Məgər siz imam üçün, inqilabı qorumaq üçün gəlməmisiz?! Bəs nə üçün bəhanə gətirirsiz? Fərz edin ki, bura Kərbəla səhrasıdır, heç bir şeyimiz də yoxdur. Belə olsa, İmam Hüseynə (ə) kömək etməyəcəksiz? Allahın dininə kömək etmək istəmirsiz? Mən də sizdən biriyəm, üstəlik, qızam, sizsə əsgərsiz. Mən indi gömrükdən gəlirəm. Siz qız və qadınlardan əskik deyilsiz ki!"

Öz əlimdə deyildi, od üstündəki üzərlik kimi olmuşdum, hamıya meydan oxuyurdum. Mayor Əqaribpərəstin tabeliyində olan hərbçilərin həmin mövqeyi qorumağa dair əmr aldıqlarını, yeni əmr gəlməyincə yerlərini tərk edə bilməyəcəklərini bilsəm də, sakit qala bilmirdim. Bu sözləri deyəndən sonra mayor əsəbiləşib üzünü şəxsi heyətə tutdu və dedi: "Qeyrətsizlər! Siz ön xəttə getmiş gənc bir qızdan da əskiksiz?! Yalla! Hamı sıraya!"

O, aldığı əmrə etinasız halda dedi: "Bacım, biz hara getməliyik?"

Əsgərlər arxamca yola düşdülər. On-on beş nəfər olardılar. Onlara dedim ki, arxamca gəlin, sizi iraqlıların daha az hədəfində olan yolla aparacağam. Divarın dəliyindən girdik, amma daha gömrüyün tikililəri önündən və iraqlıların gördüyü əllimetrlik yerdən keçmədik, tikili və anbarların arasından yol axtarmağa, raketlərin açdığı dəliklərdən keçməyə başladıq. Yolumuz bir qədər uzansa da, Allahın köməyi ilə sağ-salamat çatdıq.

Uşaqlar köməkçi qüvvələri, xüsusən də gətirdiyim minaatanı görüb çox sevindilər. Oradan sağ çıxıb kömək gətirəcəyimi gözləmirdilər. Minaatanı düşmən mərmisinin düşdüyü yerə qoydular. İraqlılar atəşi bir an belə dayandırmırdılar, silah-sursatları Qarunun xəzinəsi kimi bitmək bilmirdi. Əsgərlər bir neçə mina atandan sonra döyüş bir az da qızışdı. Düşmən bizi at nalı kimi mühasirəyə almışdı. Riyazla Bijənin cəsədini də çıxara bilmirdik.

Geri çəkilməli idik. Əsgərlərlə və Mayor Əqaribpərəstlə birgə narahat halda geri çəkildik. Cəsədləri çıxara bilməsək də, əsgərlərin döyüşə qoşulmasından sonra iraqlıların atəşi azaldı və biz itki vermədən geri çəkilə bildik. Günortadan sonra təxminən saat dörddə isə tibb mərkəzində idik. Bədənimizdə güc qalmamışdı, havanın istisi də bizi əldən salmışdı. Başımıza gələnləri Bilqeysə, Keşvərə və Əkbəriyə danışdım. Bizimlə gəlmədiklərinə görə çox təəssüfləndilər. Zöhrəni və digər yaralıları soruşdum. Onlar da xəbərsiz idilər. Maşın birbaş xəstəxanaya getmişdi.

Həmin gecə Riyazla Bijənin fikri bir an da başımdan çıxmadı. Müharibənin ilk günlərində eşitmişdim ki, iraqlılar bizim uşaqları şəhid edəndən sonra cəsədlərini təhqir edir, qulaqlarını,

dillərini kəsirlər. Bu cinayətlərin bir hissəsi də bədənləri üzərinə sidik ifraz etmək idi.

Səhər çağı Məsud Pakini gözləyirdim. Öncəki gün sağollaşıb tibb mərkəzinə gedəndə demişdi ki, sabah cəsədləri gətirmək üçün yenə gömrüyə gedəcəklər. Ona demişdim ki, gedəndə məni də tibb mərkəzindən götürsünlər. Döyüş yerinə getmək həvəsi bütün vücudumu sarımışdı. Zəhra Hüseyni, Məryəm Əmcədi, Zöhrə və Əşrəf Fərhadilərlə birgə ilk günlərdən döyüşçülərə xahiş edirdik ki, bizi də döyüş yerinə aparsınlar, amma həmişə deyirdilər: "Nə qədər ki biz varıq, sizə növbə çatmır". Onlarla yalnız doktor Səadət və doktor Mustəfəvi kimi kişi tibb işçiləri gedirdilər. Mayor Şərifnəsəbdən bizi döyüş yerinə aparmasını xahiş edəndə də "yox" deməyib cavab verirdi: "Yaxşı, bacılar, nə vaxt sayınız ona çatsa, apararam. Bundan az sayda apara bilmərəm".

Biz də heç vaxt on silahlı qız bir yerə toplaşa bilmirdik. Qızların bir hissəsi mətbəxdə işləyirdi, bir hissəsi də tibbi yardımla və yaralıları xəstəxanaya aparmaqla məşğul idi. Lakin döyüşçülərin sayı azaldıqca bizim döyüş yerində fəaliyyət şansımız da çoxaldı. Bu müddətdə qızların özlərini sübut etmələri üçün də yetərli imkanlar yarandı və döyüşçülərin çoxu bu sarıdan arxayın oldu. Buna görə Məsuda bizi də aparmasını söyləyəndə etiraz etməyib razılaşdı.

# Onuncu fəsil:

## *Yaralanma*

İraq tərəfi oktyabrın 10-da Xürrəmşəhri səhərə qədər güclü atəşə tutdu. Şəhərin işğalı üçün geri sayımın başlandığını hiss edirdik. Səhər çağı Zəhra, doktor Mustəfəvi, Həsən Sorxu, doktor Səadət və Əbuzər qrupunun uşaqları ilə birgə yenidən döyüş yerinə yollandıq. Onların köməyi ilə özümüzlə daha çox tibbi ləvazimat apardıq. İki silah qutusunu tənzif, bint, betadin, savlon, yapışqan tibbi lent və bu kimi əşyalarla doldurub maşının arxasına qoyduq. Doktor Səadət qutuların üstündə oturdu, Zəhra Hüseyni ilə mən də qapının yanında. Maşın Fəxr-Razi prospektindən enib Darvaza meydanına çatdı. Oradan Respublika prospektinin sonuna, sonra da Mövləvi xiyabanına döndük. Oradan Şeytanbazarda yerləşən İmam Musa Kazim (ə) məscidinə getdik.

Əbuzər qrupunun uşaqları demişdilər ki, daha çox canlı və texniki qüvvə götürməkdən ötrü birbaş məscidə getmək lazımdır. Məscidə girdik. Xalq könüllülərinin bir qismi, habelə Əbuzər qrupunun Məsud Paki, Həmid və Qasim Xoşnudlar və Qasim Mədəni kimi bəzi üzvləri orada idilər. Bir nəfər planları bölüşməkdən ötrü məscid rəhbərliyinin yanına getdi. Onlar

dedilər: "İraqlılar Səntapın girişindədirlər. Birbaş oraya getsəz, böyük ehtimalla vurarlar". Dünən də eyni şəraiti təcrübə etmişdik. Xürrəmşəhr korpusunun uşaqlarından biri dedi: "Biz iraqlıları gömrükdən qovmaq üçün ora girmək istəyirik, amma bilmirik necə gedək ki, itki verməyək".

Onların arasında yalnız mən Səntap məhəlləsindən idim, oranın bütün küçə və dalanlarını uşaqlıqdan tanıyırdım. Təxminən hər gün anamla birgə məhəllə evlərinin və xurmalığın arasından keçib Şeytanbazara alış-verişə gedirdik. Məktəbə gedəndə də iki yolumuz vardı: biri xurmalıqdan keçən qısa yol, biri də Səntap prospektindən keçən uzun yol. O yolları o qədər gedib-gəlmişdim ki, hər yeri əlimin içi kimi tanıyırdım. Səntap məhəlləsinin küçə və döngələrini tanımayan adam üçün yol tapmaq çətin idi. Bu baxımdan, dilləndim: "Mən o məhəllədənəm. Orta məktəbdə də Şeytanbazarın arxasındakı Abbas Məsudi adına məktəbdə oxumuşam. Həmin yolu bir neçə il gedib-gəlmişəm, yaxşı tanıyıram. Sizi elə apararam ki, iraqlılar bilməzlər".

Bu müddətdə məscidə və xəstəxanaya gedib-gəldiyimə görə təxminən hamımız bir-birimizi tanıyırdıq. Bəlkə də buna görə inanıb mənim bələdçi olmağımla razılaşdılar. Qərara gəldik ki, bir qədər məsciddə gözləyək, digər uşaqlar da gəlsinlər, sonra yola düşək.

Təxminən iki-üç saat gözlədik. Məscidin həyətində kiçik bir hovuz vardı. Suyu təmiz olmasa da, heçdən yaxşı idi. Zəhra ilə əl-üzümüzü yuduq, bir qədər də dəstəmaz üçün götürüb xəlvət bir yerə getdik. Bir mələfə tapıb pərdə kimi istifadə etdik və bir-bir dəstəmaz aldıq.

Heç birimizin çadrası yox idi. Mən çadramı məsciddə itirmişdim, Zəhra da bir cəsədin üstünə atmışdı. Müharibənin birinci həftəsində şəhidləri yerbəyer etmək üçün Cənnətabadda işləyəndə yol polisi və yeni körpü istiqamətində parçalanıb

qurdlanmış bir cəsəd görmüşdü. Heç kim ona əl vurmağa cürət etmədiyindən məcbur qalıb çadrasını cəsədin üstünə atmış, digərlərinin köməyi ilə Cənnətabada dəfn etməyə aparmışdı.

Məsciddə günorta namazlarımızı qılıb balıq konservindən ibarət günorta yeməyimizi yedik. Sonra bir qarpız kəsdilər, hərəmiz kiçik bir dilim götürdük.

Nəhayət, gözlədiyimiz uşaqlar gəldilər və gömrüyə yola düşdük. Sayımız iyirmidən az idi. Mən silahı çiynimə atıb öndə gedirdim. Çox keçmədən məsciddəki korpus hərbçisi mənə yaxınlaşdı. Ucaboy, yaraşıqlı gənc idi. Dedi: "Bacı, siz indi bizim bələdçimizsiz. Düzgün deyil ki, məndə uzi olsun, sizdə isə J3. Bu sizə ağırdır. Mənim silahımı alın, J3-ü verin. Belə daha rahat olarsız".

Axan saçı alnına tökülmüşdü. Utancaq gənc idi, danışanda başını aşağı salırdı. Bu sözləri deyib tez uzidən istifadə qaydalarını öyrətməyə başladı. Birdəqiqəlik təlim keçib öyrənməyimi gözlədi. Silahımı çiynimdən götürüb ona verdim, onunkunu alıb təşəkkür etdim. Uzi yüngül avtomat idi. Bilirdim ki, İsrail istehsalıdır və avtomat rejimində geri təpmir.

Uşaqları ara yollarla aparmaq istəyirdim. Əksər sakinləri Ərəb Xalq Döyüşçüləri Komitəsinin üzvləri olan küçələrdən keçməli idik. Kimsə evində olub bizi görsəydi, beşinci kolona və iraqlılara xəbər ötürərdi. Buna baxmayaraq, düşmənin atəşi altında olan yoldansa, bu yol yaxşı idi.

Xurmalıq ərəblərin Sərifə deyilən kənd evləri ilə dolu idi. Sərifə qamışdan və samanlı palçıqdan tikilmiş birotaqlı yay evləri idi. Bu evlərin sahibləri ilin soyuq fəsillərində şəhərdəki və ya Şadiqandakı evlərinə gedirdilər. Müharibə oraya da çatmış, sahibsiz sərifələri uçurmuşdu. Əksərinin tavanı çökmüş, heç bir qapı-baca qalmamışdı. Camaatın əşyaları evlərin yerinə və həyətlərə tökülmüşdü. Hər şey alt-üst olmuş, yataqların çoxu yanmışdı.

Uşaqları təhlükəsiz yolla aparacağımı söz verdiyimə görə çox həyəcanlı idim. Qorxurdum ki, evlərin birində kimsə gizlənmiş olar və iraqlılara yerimizi bildirər. Harada şübhəli ev görürdümsə, deyirdim ki, gözləyin. Təpiklə qapını açıb içinə baxır, heç kimin olmadığına əmin olurdum. Hansı evin qapısı bağlı, pəncərəsi açıq olurdusa, içində beşinci kolon üzvünün gizləndiyindən şübhələnirdim. Bu zaman əvvəlcə evi yoxlayır, sonra yolumuza davam edirdik. Evlərə girəndə Həsən Sorxu tez ardımca gəlirdi. Qorxurdu ki, içəridə kimsə olar və təkbaşına bacarmaram.

Sürətimiz çox azalmışdı. Uzaqdan-yaxından gələn partlayış və atəş səsləri bir an da səngimirdi. Yavaş-yavaş öz məhəlləmizə yaxınlaşdıq. Evimiz Seyhanzadə küçəsində yerləşirdi. Orada da vəziyyət eyni idi: bütün qonşularımız komitə tərəfdarları idi.

Böyük həyəcan içində evimizi görməyi də çox arzulayırdım. İstəyirdim ki, evə baş çəkib hansı vəziyyətdə olduğunu görüm, amma buna nə imkan vardı, nə də o qədər yad adamın önündə evimizin yerini söyləmək istəyirdim. Səbəbini bilmirəm, amma nədənsə kiminsə evimizin yerini öyrənməsini sevmirdim. Ancaq bir Allah bilir ki, evimizə getməyi necə azulayırdım! Çox istəyirdim ki, anamgilin yataq otağının ağzında, samovarın yanında oturub ayaqlarımı uzadım, bir stəkan çay içim və bütün yorğunluğum çıxsın. Çay içəndə gözlərimi İmam Xomeyninin alma ağacına söykənmiş gözəl şəklinə dikim. Anam imamın şəklini samovarın yanına qoymuşdu ki, hər səhər onun üzünə baxaq. Kaş Əli ilə birgə hamamın içində basdırdığımız kitab və bəyanat çamadanını götürə biləydim! Ya da ən azı, şəkil albomumuzu götürüb özümlə aparaydım. Kim bilir, bundan sonra nə baş verəcəkdi!

Qapımızın önündən keçdik. Evin zahiri görünüşü təxminən salamat qalmışdı. Bir qədər irəlidə kiçik bir xurmalığa girdik. Ondan sonra nisbətən enli və böyük bir çay gəlirdi. Onun

üstündən çətinliklə hoppanıb bir neçə yarımçıq ev tikilmiş əraziyə daxil olduq. Evlərin önündən Məmuri kanalı axırdı.

Şah dövründə kanalın bir hissəsinə diametri iki metrə çatan böyük kanalizasiya boruları qoyub üstünə torpaq tökmüşdülər. Kanalizasiya suyu bu yolla kanala tökülür, sonra çaya axırdı. Kanalın o tərəfində Şeyx Dezful hüseyniyyəsi, bir qədər irəlidə də gömrük yerləşirdi. Daha irəli getmək mümkün deyildi. Çox sakitcə orada gizləndik. O qədər yaxın idik ki, gömrükdəki iraqlıların səsini aydın eşidirdik.

Tikililər arasından ikimərtəbəli yarımçıq bir evi seçdik. Hüseyniyyə və Məmuri prospekti oradan yaxşı görünürdü. Doktor Səadət, doktor Mustəfəvi və Zəhra birinci mərtəbədə qaldılar, mən döyüşçülərlə birgə ikinci mərtəbəyə qalxdım. Tikilinin içindən çox şey görünmürdü. Buna görə çox ehtiyatla dama çıxdıq. Orada əyilə-əyilə gəzirdik ki, görünməyək. Damın divarının kənarında özümüzə mövqe seçdik. Korpus komandiri yanımızdakı manqadan iki qumbaraatan seçib damın girişindəki tikilinin üstünə yerləşdirdi. Dama divar məqsədi ilə çəkilmiş kərpiclərin arasından iraqlıların yerləşdiyi Şeyx Dezful hüseyniyyəsini asanlıqla görə bilirdik. Ora çoxlu düşmən toplaşmışdı. Səsləri də aydın gəlirdi. Onlar gömrükdən çıxıb Səntap məhəlləsinə girmişdilər.

Komandir şəxsi heyəti yerbəyer edən zaman birdən damın girişinin üstünə çıxmış qumbaraatan köməkçilərindən biri iraqlıları görüb həyəcanlandı, icazə almadan silahı avtomat rejiminə keçirib "Allahu-əkbər" qışqırdı və atəş açmağa başladı.

Bir anlığa hamımız yerimizdə quruyub qaldıq. Heç kim belə özbaşına hərəkət etməməli idi. Hamımız əl-ələ verib düşməni qəfil yaxalayacaqdıq. O isə bununla bütün planı pozdu.

Həmin əsgər bütün darağını boşaltdıqdan sonra özünü yerə atdı. Hamımız yerə uzandıq. İraqlılar dayanmadan atəş açırdılar. Vəziyyət ağırlaşırdı. Damın kərpic divarını vurur,

divar da sürətlə yeyilib sıradan çıxırdı. Bilirdilər ki, divarın arxasında gizlənmişik. İraqlılar damın girişini qumbaraatanla vurub pilləkənə yolumuzu bağladılar. Ora gedə bilmədiyimizi görüb ehtiyatla sürünə-sürünə damın arxa tərəfinə keçdik.

Qonşu ev birmərtəbəli idi. Ora atılıb qaçmalı idik. Bir-bir damın divarından sallanıb aşağı atıldıq. Bu, çətin olmadı. Artıq düşmənin hədəfində deyildik və bir qədər nəfəs ala bilirdik. Uşaqların biri üçüncü evin damına baxıb dedi: "Uşaqlar, bu iki ev arasında bir qədər boşluq var. Yəni bu damdan o birinə keçmək üçün təxminən bir metr yarım hoppanmalıyıq. Əgər yıxılsaq, çıxmaq çətin olacaq və orada sıxışa bilərik".

Ürəyim üzüldü. Bəs mən nə edəcəkdim? Yüngül və ucaboy olsam da, qorxurdum. Oradan yıxılsaydım, məni kim çıxarardı. Ümumiyyətlə, o vəziyyətdə bu, mümkün idi? Qərara gəldilər ki, bir-bir hoppansınlar.

Hər biri "Bismillah" deyir, bir-iki metr arxadan qaçıb o biri dama hoppanırdı. Allahın köməyi ilə hamısı ağır J3 silahları, sursat çantaları və RPG qumbaraatanları ilə sağ-salamat o tərəfə keçdilər. Bircə mənimlə komandirləri qaldıq. Gördüm ki, yazıq oyan-buyana gedir, nəsə demək istəyir, amma üzü gəlmir. Dedim:

– Sən getmirsən, qardaş?

– Gedəcəm, amma əvvəl siz hoppanın.

– Nə fərqi var?! Sən hoppan, mən də gələcəm.

O, problemsiz hoppandı, amma digərləri kimi tez yerə uzanıb özünü qorumaq əvəzinə dayanıb başını aşağı saldı, əlini mənə uzadıb dedi: "Bacı, əlini mənə ver, hoppan. Bura çox hündürdür, birdən yıxılarsız".

Bunu deməkdən ötrü çox əziyyət çəkdiyini rənginin dəyişməsindən və səsinin titrəməsindən anladım. Çox həyəcanlı olsam da, dedim: "Yox, qardaş, lazım deyil. Narahat olmayın, mən hoppana bilirəm. İnşallah bir şey olmaz".

– Bacı, birdən yıxılarsan, kömək edim.

– Allaha təvəkkül, yıxılmaram.

– Yaxşı, onda tez ol.

Bir qədər geri çəkilib yavaşca "Bismillah", sonra da bir dəfə "Ya Sahibəzzaman" dedim və bütün qüvvəmi ayaqlarımda toplayıb hoppandım. Qonşu dama keçən kimi bir anlığa ayağımın bütün əzələlərinin dartılıb qırıldığını hiss etdim. Ayaqlarım elə ağrıdı ki, elə bidim, daha yeriyə bilməyəcəyəm. Başımı qaldıranda komandirin dodaqlarındakı təbəssümü gördüm. Sağ-salamat keçdiyimə görə sevinirdi. Ayaqlarımın necə ağrıdığını bildirmədim. Döyüşçülər sürünə-sürünə damdan çıxıb pilləkənlə aşağı enmişdilər. Biz də sürünə-sürünə getdik, pilləkəndə ayağa qalxanda əzələlərimdə güclü dartılma hiss etdim və ilk bir neçə addımda axsadım.

Küçəyə çıxandan sonra ilk daxil olduğumuz ikimərtəbəli yarımçıq binanın həyətinə qayıtdıq.

Zəhra, doktor Mustəfəvi və doktor Səadət birinci mərtəbədə hərəsi bir küncə sığınmışdı. Məsələni onlara danışdım. Düşmənə atəş açan döyüşçünün kim olduğunu soruşdular. Onun yaralandığını söylədiyim yerdə özü axsaya-axsaya gəlib bir tərəfdə oturdu. Planımızı pozduğuna görə ona qarşı çox hirsli idik, yaralandığını görüb sevinirdik. Ancaq dedi ki, yuxarıdan özünü saman tayasının üstünə atıb və topuğu burxulub.

Ona dedim: "Nə üçün belə etdin, qardaş? Biz bu qədər əziyyətlə özümüzü onların başı üstə çatdırmışdıq ki, qəfil yaxalayıb ciddi zərbə vuraq, sənsə hər şeyi korladın!"

Başını aşağı salıb dedi: "Bağışlayın, bilmirəm necə oldu. Onların şəhərdə əllərini-qollarını sallayaraq gəzdiklərini görəndə özümdən asılı olmadan əlim tətiyə getdi. İnanın ki, özümdən asılı olmadı. Əsla dözə bilmədim".

Çox peşman idi. Daha bir söz demədik. Artıq iş-işdən keçmişdi, danışmaqla düzələn deyildi. Düşmənin atəşi azalana qədər gözləməli idik. Ən kiçik hərəkətimizi beşiyində boğa bilərdilər. Çox heyif oldu. İraqlılar duymadan səssiz-səmirsiz başlarının üstünü alıb hamısını məhv edə biləcəyimiz bir halda bir nəfərin düşünməmiş hərəkəti ilə özümüz iraqlılardan daha pis vəziyyətə düşdük.

Gəlişimizdən bir-iki saat keçirdi, amma hələ bir iş görə bilməmişdik. Düşmən oranı elə vururdu ki, bir addım ata bilmirdik. Komandir gəlib dedi: "Bacı, gömrüyə başqa bir yol tanımırsız? Burada belə qalmağımızın mənası yoxdur. Üstəlik, onlar bizə yaxınlaşa bilərlər".

Dedim: "Tanıyıram. Gəldiyimiz yoldan başqa bir yol da var. Ordan gedə bilərik".

Gülümsədi. İkinci dəfə idi mənə etimad edirdi. Yenə ardımca yola düşdülər. Gömrüyün maşın yolu Səntap prospektinin düz axırında idi. Prospekt gömrüyün qapısından başlayıb Dəmir yolu meydanına qədər davam edirdi. Beşinci sinifdə Dəmir yolu meydanında yerləşən İbn Sina adına ibtidai məktəbdə oxumuş, ora çox gedib-gəlmişdim. Uşaqları ora aparmaq, sonra gömrüyün divarının arxasındakı Cədəli məktəbinin yanından çıxmaq istəyirdim. Razılaşdılar və yola düşdük.

Həyətdən çıxdıq, oturaq halda uzun yol gedib xurmalığa girdik. Gələndə də həmin xurmalıqdan keçmişdik. Evimizin önündən keçib Mövləvi prospektinə doğru düz deyil, sol tərəfə, Səntap prospektinə və Məmuri kanalına döndük.

Kanalın üstündə taxta körpü vardı. Taxta parçalarından düzəldilmiş laxlaq körpülərdən idi. Taxtaların da hər ikisindən biri düşmüşdü. Ehtiyatla onun üstündən keçib Xürrəmşəhr şeyxlərindən birinə aid olan çox böyük bir evə çatdıq. Evin yanında Hərbi Dəniz Qüvvələrinin bir neçə diversantını görüb çox sevindik. Salamlaşıb hallarını soruşduq. Dedilər ki, burada

nə edirsiz? Dedik ki, gömrüyə girmək istəyirik. Biri dedi: "İraqlılar ordadırlar, necə girmək istəyirsiz?" Dedim ki, mümkün qədər irəliləyəcəyik.

Diversantların birinin əlindəki silah diqqətimi cəlb elədi. Soruşdum ki, bağışlayın, bu nə silahıdır? Dedi ki, MG3 pulemyotudur. Soruşdum ki, ağırlığı nə qədərdir?

– Təxminən 14-15 kilo, - deyib əlavə etdi: "Yoxlamaq istəyirsən? Amma geri təpməsi güclüdür".

– Yox, çox ağırdır. Onu heç əlimdə tuta bilmərəm.

Komandirimiz diversantlarla danışmağa başladı. Onlara necə gəldiyimizi və evdə nə baş verdiyini söylədi. Dedilər ki, iraqlılar indi düz gömrüyün ağzındadırlar, dayanmadan ətrafa atəş açırlar, diqqətli olun.

Qarşımızda, yəni Səntap prospektinin o tərəfində dəmir yolu vardı. Biz oradan keçməli idik. Oğlanların bir neçəsi və diversantlar atəş açıb bizi qorudular və biz əyilə-əyilə dəmir yolunun o tərəfinə keçdik. Hərəkətdən öncə komandirin uzi avtomatını verib J3-ü aldım. Qorxurdum ki, qaçaqaçda itirərəm, silahı məndə qalar.

Doktor Səadət, doktor Mustəfəvi və Zəhra ilə birgə dəmir yolunu keçib xurmalığa girdik. Orada qamış və lifdən düzəldilmiş bəzi daxmalar və kasıb kənd evləri vardı, görkəmləri sahiblərinin necə yoxsul olduqlarını car çəkirdi. Getdiyimiz yol qövsvarı şəkildə Cədəli məktəbinə gedirdi. O yolla gedib liman evlərinə çatdıq.

Oradan gömrük divarının arxasına irəlilədik. Əqaribpərəst şəxsi heyəti ilə birgə oradan gömrüyün içindəki düşmənlərlə vuruşurdu.

İraqlılar bölgəni elə atəşə tuturdular ki, Səntap qapısından gömrüyə girmək mümkün deyildi. Qərara gəldim ki, ilk dəfə gördüyüm və bir şəhid cəsədini əl arabası ilə çıxardığımız yarıqdan içəri girək. Lakin o yarığa yaxınlaşmaq və oradan

keçmək asan deyildi. Yolun vəziyyətini komandirə izah etdim. Qumbaraatana tapşırdı ki, hərəkətdən öncə iraqlılara bir RPG mərmisi atıb başlarını qarışdırsın.

Qumbaraatan ilk mərmini dəmiryol relsinin keçdiyi qapının küncündən atdı. İkincini atmaq istəyəndə komandir qışqırdı: "Dayan! Arxasındakı alovdan yerimizi təyin edib vura bilərlər. Tez yerini dəyiş, ikincini başqa yerdən at!"

Yanımızdakı döyüşçülər də iraqlılara atəş açmağa başladılar. Çoxunun silahı J3 idi, daraqları tez boşalırdı. Onlara kömək etmək üçün Zəhra ilə birgə tez daraqları doldurub onlara verməyə başladıq. Qumbaraatan ikinci mərmini atmaqdan ötrü divarın yarığına sarı qaçdı.

Yarığın yaxınlığında, yəni qapıdan 10-15 metr arxada komandir atəş əmri verdi. Qumbaraatan tez RPG-ni doldurub atəş açdı. Bir neçə saniyədən sonra yerini dəyişməmiş üçüncü mərmini atmağa hazırlaşanda birdən yanımızda güclü bir gurultu qopdu.

İraqlılar tez tərpənib təşəbbüsü ələ almışdılar. Atəşin gücləndiyini hiss etdim. Zəhra ilə üz-üzə dayanmışdıq. Bir anın içində ağır partlayış dalğası bütün vücudumu titrədib halımı dəyişdirdi. Nədənsə əvvəlcə güclənmiş atəşi və partlayış dalğasını hiss etdim, sonra isə gurultu səsini. İraqlıların RPG mərmisi bizdən 3 metr aralıya düşmüşdü. Çaş-baş halda öz qumbaraatanımıza baxdığım yerdə yaxınlığımızda başqa bir partlayış da baş verdi, qumbaraatanımız iki-üç nəfərlə birgə bir gül kimi yavaşca ləçək-ləçək oldu.

Partlayış dalğası beynimə təsir etmişdi. Ətrafdakı hərəkətləri yavaşladılmış film kimi seyr edirdim. Üzümü Zəhraya çevirdim. Əlləri ilə üzünü tutub ehtiyatla dizləri üstə oturdu. Yavaşca və təəccüblə dedim: "Zəhra, nə oldu?"

Zəhranın cavabından qabaq doktor Səadətin qışqırtısını eşitdim. Mayor Əqaribpərəstin şəxsi heyəti partlayış səsini

eşidib bizə doğru qaçırdı. Doktor Səadətin qoluna və Zəhranın belinə qəlpə dəymişdi. Zəhraya yaxınlaşmaq istəyəndə doktor Mustəfəvi qaçıb ona kömək etdi və Səntap prospektindəki təcili yardım maşınına apardı.

Doktor Səadətə yaxınlaşdım. Bir əli ilə yarasını bağlayırdı. Yaralıların yanına qaçdım. Parça-parça olmuş cəsədləri necə toplayacağımı bilmirdim. Ət, tüstü, barıt və torpaq iyi bir-birinə qarışmışdı. Barıt iyi hamısından kəskin idi. Mayorun əsgərlərindən biri dedi: "Bacı, siz yaralılarla məşğul olun, şəhidləri biz götürərik".

Onlardan əlavə, üç-dörd nəfərə də qəlpə dəymişdi. Onları tez geri göndərməli idik. Mən çatınca təcili yardım maşını Zəhranı apardı. Başqa bir maşın gözləməli idik. Halım yaxşı deyildi. Bütün bu işləri beyni dumanlı və çaş-baş halda görürdüm. Əqaribpərəstin əsgərləri yaralı və şəhidləri yaxınlıqdakı bir evə aparırdılar. Bildim ki, ora onların qərargahıdır.

Maşın gəlincə şəhid və yaralıların yerə düşmüş silahlarını toplamağa başladım. Dörd-beş J3 silahını çiyinlərimdən asıb tibbi yardım əşyaları ilə dolu qutulara yaxınlaşdım. Çox çətinliklə onları həyətə sürüdüm. Qutular o qədər ağır idi ki, onurğa sümüklərim zoqquldayırdı. Sanki bütün bədənimdə nəbz vururdu.

Qutu və silahları aparandan sonra yerə düşmüş daraqları topladım. Bir patronun da yerdə qalmasına ürəyim gəlmirdi. Hamısını evə daşıdım.

Həyətdə Mayor Əqaribpərəsti gördüm, bir ayağı dizə qədər gipsdə idi. Ayağının barmaqları qanamış, göyərmişdi. Dünən onu görəndə salamat idi, heç nəyi yox idi. Vəziyyətim yaxşı olmadığına görə yaralanması barədə danışa bilmədim. Məryəm Köhəndil də həyətdə idi. Ona yaxınlaşdım. Əlində bir maqnitofon vardı, həyətdə yerdə oturmuşdu. Soruşdum ki, nə edirsən? Dedi ki, döyüşlərin səsini yazıram.

Bu zaman bir təcili yardım maşını gəldi. Sürücü tez maşından endi. İri cüssəli və nisbətən kök adam idi. Maşından enən kimi bizdən 5-6 metr aralıya daha bir mərmi düşdü və əsgərlərin biri yerə yıxıldı. Toz-duman bir qədər yatandan sonra sürücü yaralıya yaxınlaşdı. Mən də ardınca getdim. Hələ yaralıya çatmamış Səntap qapısı ilə dəmir yolunun arasına bir raket düşdü, sürücü, "Ax!" – deyə qışqırıb məndən iki-üç addım irəlidə dizi üstə oturdu.

Özümü ona yetirdim. Sinəsinin sol tərəfinə, yəni düz ürək nahiyəsinə qəlpə dəymişdi. Əlini yarasına qoymuşdu, barmaqlarının arasından bulaq kimi qan axırdı. Əllərimi qoltuğunun altına keçirib var-gücümlə çəkməyə çalışdım, amma ağır olduğundan bir qarış da apara bilmədim. Hələ huşu yerində idi. Ona dedim: "Qardaş, əlini at çiynimə, özün kömək elə, səni maşına aparım".

Bir qədər qalxıb sağ əlini çiynimə qoydu. Onu qaldırdım. Bütün alnı tərləmişdi. Ağrısı çox olsa da, ağırlığını mənə salmamağa çalışırdı, amma yenə də ayaqları yerlə sürünürdü. Ağrıdan onurğa sümüklərimin bir-birindən ayrıldığını hiss edirdim.

Maşına yaxınlaşdığımız yerdə birdən 7-8 metr aralıda başqa bir mərmi partladı. Aşağı əyildik. Partlayışdan sonra sol dizimdə güclü göynərti hiss etdim. Zərbə o qədər güclü idi ki, bir anlığa ayağımın dizdən kəsildiyini düşündüm. Toz-torpaq yatandan sonra ayağıma baxdım. Ayaqqabımın üstündə üç damcı qan vardı. Ayaqqabım krem rəngli məxmərdən olduğuna görə həmin üç damcı aydın bilinirdi. Bildim ki, mənə qəlpə dəyib. Birtəhər sürücü ilə özümü maşına çatdırdım. Sürücü yaralandığımı bilmədi, maşının yanında mənə təşəkkür etdi. Əsgərlər köməkləşib onu maşına qoydular. Tez şəhidləri də maşına daşıdılar. Şəhidlərin birindən başsız və əl-ayaqsız bir

bədən qalmışdı. Sonra biri qaçıb həyətdəki yaralıları gətirməyə getdi.

Doktor Səadət həyətdə yaralı əllə yaralılara yardım edirdi. Həyətdəkilərin yüngül yaraları vardı. Bununla yanaşı, onları da maşına mindirib cəld xəstəxanaya yola saldılar.

Axsaya-axsaya gedib həyətdə oturdum. Heç kim yerişimdə dəyişikliyi duymadı. Zaman ötdükcə ayağımın yarası və göynərtisi çoxalırdı. Qanaxma güclənmişdi, ağrım da çox idi, amma öz ayaqlarım üstə dura bildiyimi, ağır yaralanmadığımı düşünüb sevinirdim. Nə baş verdiyini heç kimə demədim. Şalvarım qana boyansa da, hamı elə bilirdi ki, yaralıların qanıdır. Yaralandığımı söyləsəydim, məni də geri göndərəcəkdilər. Mənsə qayıtmaq istəmirdim. Nə qədər ki bacarırdım və heç kimin əl-ayağına dolaşmırdım, qalıb yaralılara yardım etmək istəyirdim.

Şalvarımın balağını qaldırıb ayağıma nə olduğuna baxmağın yeri deyildi. Yalnız bir tənzif götürüb balağın altından qəlpə dəyən yerə qoydum. Hələ ayağım yanırdı. Qəlpə yerində nəbzim vurur, zoqquldayırdı. Şalvarımda kiçik dəlik yaranmışdı. Onun üstündən yaranı bağladım. Mantom uzun olduğuna görə ayağa qalxanda ayağımı bağladığım bilinmədi.

Doktor Səadət yaralı əllə tibbi yardım əşyalarımızı topladı. Tibb mərkəzinə qayıtmaq üçün maşın gözləyirdik. Təxminən yarım saatdan sonra bir maşın gəlib bizi apardı.

Mərkəzdə uşaqlar Zəhranı soruşdular. Dedim ki, yaralandı, xəstəxanaya apardılar. Özümün də yaralandığımı orada söylədim. Ağrı amanımı kəsmişdi. Doktor Səadət təəccüblə dedi: "Qız, sənə nə vaxt qəlpə dəydi ki, biz bilmədik?! Orada deyərdin, heç olmasa, yaranı bağlayardıq".

Uşaqlar o qədər ağrıya dözüb heç kimə söyləmədiyimə inana bilmirdilər. Doktor Səadətə dedim: "Qorxurdum ki, məni geri

göndərərsiz. Mümkün olduqca digərlərinin yanında qalmaq istəyirdim".

Xəlil Nəccar dedi: "Hazırlaş, səni xəstəxanaya göndərəcəyik". Dedim: "Xəstəxana lazım deyil, burda bağlayın, yetər". Dedi: "Yaxşı, yarana baxaram, imkan olsa, qəlpəni çıxararam, olmasa, gərək gedəsən".

Çarpayıda oturub şalvarımın balağını qaldırdım. Nəccar maqqaşını götürüb işə başladı. Maqqaşı yarama salıb fırladırdı. Birdən ucadan "ax" dedim, sonra gözlərim qaraldı və özümdən asılı olmadan çarpayıya uzandım. O vaxta qədər də çoxlu ağrı çəkmişdim, amma qəlpəni çıxarmağın ağrısı o qədər güclü idi ki, birdən-birə bütün taqətim çəkildi və özümdən getdim.

Xəlil Nəccarın səsini eşidirdim. Deyirdi ki, maqqaşın ucu qəlpəyə dəyir, amma nə edirəmsə, çıxmır, qanaxma da çoxalıb. Qalxıb bir serum gətirdi, qoluma qoşub dedi: "Gərək sabah xəstəxanaya gedəsən; həm qəlpəni çıxarsınlar, həm də tetanus vaksini vursunlar".

Hava qaralmışdı. Gözlərimi bağladım. Düşünürdüm ki, yuxuda sakitləşərəm. Ancaq gecə qızdırmam qalxdı, titrəməyə başladım. Uşaqlar yanımda idilər: Əşrəf, Keşvər, Bilqeys, Mehrəngiz və xanım Əkbəri. Mehrəngiz yanıma gəlib üz-başıma əlini çəkdi və mehriban səslə dedi: "Narahat olma, sağalarsan. Bir şey deyil, keçəcək".

Bilqeys hamıdan çox narahat idi. Bu müddətdə onunla çox səmimi dost olmuşduq. Üstümə adyal atdı və səhərə qədər yanımdan tərpənmədi. Yazıq çox qorxurdu ki, ayağımın yarası irinləyib başıma iş açar. Doktor Səadət iltihab əleyhinə dərman verib təkidlə tapşırmışdı ki, vaxtında içim.

Üstümdə iki adyal ola-ola sübh çağı titrətmədən və dişlərimin səsinə yuxudan oyandım. Dizim çox ağrıyırdı. Sarğını dəyişdirmək vaxtı idi. Açanda gördüm ki, yaranın ətrafı gömgöy olub. Budumun bir hissəsi də göyərmişdi, yaranın

ətrafı çox ağrıyırdı. Elə sübh çağından İraq tərəfi şəhəri vurmağa başlamışdı. Partlayış səsləri bir an da kəsilmirdi. Qəribə və acı hiss idi. Şəhər gözlərimiz önündə işğal olunurdu. Şəhərimizi qorumaqdan ötrü əlimizdən gələni etmişdik, ancaq düşmən çox əclaf, biz də əliboş idik.

Partlayış səsləri hər an yaxınlaşırdı. Came məscidinin ətrafını çox vururdular. Hamımız tam hazırlıqlı vəziyyətdə idik. O şəraitdə Taliqani xəstəxanasına gedib tetanus vaksini vurdurmalı idim. Qorxurdum ki, ayağımın yarası başıma iş açar. Xəstəxanaya tək getmək istəmirdim. Uşaqların da işləri vardı, yaralılara yardım etmək üçün qalmalı idilər. Buna görə Musəvi adlı bir oğlandan mənimlə gəlməsini istədim. Adı yadımda deyil, təxminən 15 yaşlı ucaboy, qarabuğdayı oğlan idi. Bir neçə gün idi Kərəcdən Xürrəmşəhrə yaralılara yardım etməyə gəlmişdi. İlk baxışdan diqqətimi cəlb eləmişdi. Xürrəmşəhrin istisində qara sviter geyinmişdi, sinəsində kiçik boz yazı vardı. Bildim ki, ilin bu vaxtında Kərəcdə hava sərin olurmuş. Şalvarı da qəhvəyi idi. Şəhərə gəlişindən yalnız iki-üç gün keçirdi. Bu müddətdə bir an da istirahət etmədən əlindən gələni etmişdi. Uşaqlarla birgə ya yaralı gətirir, ya da şəhidləri Abadana Şəhidlər gülzarı məzarlığına aparırdı.

Yaxınlaşıb dedim ki, Taliqani xəstəxanasına getmək istəyirəm, tetanus vaksini vurduracaq, dizimi rentgenə saldıracaq, qəlpənin vəziyyətini öyrənəcəyəm. Düşünmədən mənimlə gəlməyə razılıq verdi.

Tibb mərkəzindən çıxıb, maşın tapana qədər piyada yeriməyə başladıq. Əlbəttə, çətinliklə və çox yavaş-yavaş gedirdim. Bir qədər sonra bir maşın dayanıb bizi mindirdi.

Musəvi ilə sakit oturub ətrafımızdakı küçələrə baxırdıq. Ona dedim: "Doğrusu, necə oldu ki, Xürrəmşəhrə gəldin?"

Danışmağa fürsət gözləyirmiş kimi dedi:

– Biz Sənəndəcdə yaşayırdıq. Mən ailənin yeganə oğluyam. Kürdüstan iğtişaşları zamanı qiyamçılara qarşı olan digər ailələrlə birgə orada əziyyət çəkirdik. Valideynlərim başıma bir iş gəlməsindən qorxub Kərəcə köçdülər.

Sözünə təəccübləndim.

– Bəs elə isə cəbhəyə gəlmənə necə razılıq verdilər? Axı bura Kürdüstandan yüz qat artıq təhlükəlidir!

Gülümsədi.

– Cəbhəyə gəldiyimi bilmirlər. Onlara deməmişəm.

– Doğru deyirsən?!

– Hə, vallah, doğru deyirəm.

– Onda çox səhv etmisən. Gərək onlara deyəydin.

– Elə bilirsən ki, desəydim, gəlməyə qoyardılar?

– Gərək bir yolla razılıqlarını alaydın. Bilmirsən yazıqlar səndən ötrü necə narahatdırlar!

Daha cavab vermədi. Taliqani xəstəxanasına çatıb Təcili yardım şöbəsinə getdik. Orada bir kişi həkim oturmuşdu. Yaralı gətirəndə onunla bir neçə dəfə görüşmüşdük. Yanımda yaralı olmadığını görüb təəccüblə dedi: "Bəs yaralınız hanı?" Dedim ki, yaralı özüməm.

Hadisəni danışıb dedim ki, tetanus vaksini vurdurmağa gəlmişəm. Dedi ki, gözlə, gedim iynə gətirim.

Uşaqlıqdan iynədən qorxurdum. Xəstələnəndə razı idim ki, nə qədər desələr, dərman və şərbət içim, amma iynə vurmasınlar.

İynənin həyəcanından əl-ayağım buzlamışdı. Xəstəxanada və tibb mərkəzində mənim kimi iynədən qorxan çoxlarını görmüşdüm. Bəzən görürdüm ki, yaralıya bir neçə qəlpə dəyib, çoxlu xəsarət alıb, eyni zamanda dözür, səsi çıxmır, amma iynə vurmaq və ya serum qoşmaq istəyəndə qoymur, gözlərini yumur ki, iynənin bədəninə vurulmasını görməsin. Həkim

qoluma iynə vurub dedi ki, Radiologiya şöbəsinə get, Füruzan ayağının şəklini çəksin.

Füruzanı tanıyırdım. Radiologiya şöbəsinə yaralı aparanda ona çox kömək etmişdim. Hərdən yaralının sınmış əl və ya ayağını tuturdum, o da şəklini çəkirdi.

İşim bitəndən sonra rentgenin cavabını həkimə apardım. Baxıb dedi:

– Qəlpə diz sümüyünün yanındadır. Allaha şükür, sınıq yoxdur, ətinə batıb. Gedib çıxara bilərsən.

– Bəs saxlamaq istəsəm, necə? Məni incitməz?

– İndi problem yaradacağını düşünmürəm. Bəlkə sonralar yerindən tərpənib incidə bilər. Hər halda, qərar sənindir.

– Hələlik qalsın.

– Onda sənə bir qədər dərman yazıram; həm ağrın azalsın, həm də yaran iltihab etməsin.

Çağırılmamış qonağımı başağrısı verməyənə qədər yadigar saxlamaq istəyirdim. Ağrıtsa da, onu sevirdim. O mənim inqilaba və imama sevgimin ən kiçik sənədi idi. Öz-özümə deyirdim ki, bəlkə səni o dünyada bu kiçik qəlpə xilas edəcək!

Dərmanlarımı alandan sonra Zəhraya, Zöhrəyə, Əmir Samiriyə və digər yaralılara baş çəkməyə getdim. Tibb bacıları bizim kimi uşaqların get-gəlindən xoşlanmırdılar, tez-tez bizə bildirmək istəyirdilər ki, onların işlərinə müdaxilə edirik. Amma əslində, belə deyildi. Biz sadəcə, təcili yardımçı idik, onların işlərinə qarışmırdıq.

Əvvəlcə Musəvi ilə birlikdə Əmir Samirini və digər qardaşları ziyarət etməyə getdik. Bizi görüb çox sevindilər və ruhlandılar. Sonra Zöhrə ilə Zəhranın yanına getdim. Hərəsi bir palatada yatırdı. Əvvəlcə Zöhrəni ziyarət etdim. Kədərli halda çarpayıya qısılıb qarşısına baxırdı. İçəri girən kimi məni gördü. Ona yaxınlaşdım. Bütün əzizlərini itirmiş adam kimi narahat idi. Səbəbini soruşanda kövrək halda dedi: "Sabah, burda

məhrəm və naməhrəm məsələlərinə əsla riayət etmirlər. Hamımızı bir palataya salıblar. Mən çox əziyyət çəkirəm, uzanmağa utanıram. Burda qalmaq istəmirəm. Sən Allah, bir iş görün, tez burdan çıxım".

Qəlpə Zöhrənin dizinin altına dəymişdi. Soruşdum ki, qəlpəni çıxardılar, yoxsa yox?

– Deyirlər ki, çıxarmağa ehtiyac yoxdur, dizin yumşaq yerindədir, heç bir problem yaratmaz.

– Bəs onda səni nə üçün buraxmırlar?

– Nə bilim?! Deyirlər ki, hələ bir az qalmalısan.

– Qoy görüm, nə edə bilirəm.

Zəhra başqa bir palatada yatırdı. Doktor Mustəfəvi və bacısı Leyla başı üstə dayanmışdılar. Çarpayısına yaxınlaşdım. Leyla kömək edib oturtmuşdu, ona armud şirəsi verirdi. Salamlaşıb halını soruşdum. Dedi ki, Allaha şükür, yaxşıyam. Qəlpə onurğa kimi həssas bir yerə girsə də, əhval-ruhiyyəsi Zöhrədən yaxşı idi. Qəlpənin ona ciddi xəsarət yetirmədiyini görüb çox sevindim. Həmin qəlpə Zəhranı bir ömür şikəst edə bilərdi, amma Allah onu qorumuşdu.

Qəlpəyə görə Zəhranı təbrik etdim. O zaman şəhid ailələrini həm təbrik edir, həm də başsağlığı verirdilər. Yaralılarla da bunabənzər rəftar edirdilər. Bir qədər onunla danışıb Zöhrənin yanına qayıtdım. Yazıq yavaşca ağlayırdı. Yenə dedi: "Sən Allah, uşaqlara de, məni burdan çıxarsınlar".

Ona söz verdim ki, ayağım Xürrəmşəhrə dəyən kimi uşaqlarla danışıb sənin xəstəxanadan buraxılmana çalışacağam. Üzündən öpüb dedim ki, narahat olma. Sonra sağollaşıb xəstəxanadan çıxdıq.

Xürrəmşəhrə getməyə maşın axtarırdıq. Bir yanğınsöndürən maşını Hava limanı meydanına gedirdi. Əl yellədim, saxladı. Qalxıb sürücünün yanında oturduq.

Meydanda enib oradan Xürrəmşəhrə piyada yola düşdük. Şəhərdə birinci Həmid Xoşnudu gördük. Ona dedim: "Zöhrə Fərhadinin yanında idim. Yazığın ayağına qəlpə dəyib, xəstəxanadadır. Həkimlər deyib ki, təhlükəli yerdə olmadığına görə çıxarmaq lazım deyil, amma buna baxmayaraq, onu xəstəxanadan buraxmırlar. Yazıq çox əziyyət çəkir. Palatada bir neçə kişi xəstə də var. Çox narahatdır. Ona söz verdim ki, Xürrəmşəhrə gedən kimi uşaqlara deyəcəm, səni xəstəxanadan çıxaracaqlar". Həmid dedi: "Yaxşı, belədirsə, onu çıxararıq". Dedim: "Gərək onu gətirməyə bir şey də tapaq".

Mənimlə getdiyinə görə Musəviyə təşəkkür edib mətbəxə Şahnazla Fevziyənin yanına getdim. Yaralandığımı bilmirdilər. İstəyirdim ki, digərlərindən eşidib qorxmadan özümü görsünlər. Yol yeriyəndə qəlpə məni bir qədər incidirdi, amma işimdən edəcək həddə deyildi. Şahnazla Fevziyəyə dedim ki, səhər xəstəxanaya Zəhra ilə Zöhrəni görməyə getmişdim. Dedilər ki, hə, Zəhranın yaralandığını uşaqlardan eşitdik. Bir qədər sonra dedilər: "Özün nə edirsən?" Dedim: "Dünən gömrüyə getmişdik. Güclü döyüş gedirdi. Bir qəlpə də mənə qismət oldu".

Şahnaz həyəcanla dedi: "Doğru deyirsən? Harana dəyib?" Dedim ki, dizimə. Fevziyə şalvarımı yuxarı çəkib yarama baxmaq istədi, ancaq kişilər hüseyniyyəyə girib-çıxdıqlarından tez əlini tutub dedim: "Qorxmayın, bir şey deyil. Səhər xəstəxanaya gedib həkimə göstərdim. Rentgenə baxıb dedi ki, bir şey yoxdur. Tetanus iynəsi də vurdu".

İnana bilmirdilər. Məni bir kənara çəkib dizimi görməyincə əl çəkmədilər.

Zöhrənin ağlar gözləri, narahat üzü daim gözlərim önündə idi. Ona söz vermişdim ki, xəstəxanadan çıxaracağam. Məsciddə məsələni Məsud Pakiyə, Xəlil Məaviyə və Həsən Sorxuya da

danışdım. Qərara gəldilər ki, ertəsi gün səhər çağı birlikdə xəstəxanaya gedib onu çıxaraq.

Tibb mərkəzinə qayıtdım. Həmin gün qızlardan heç kimi döyüş yerinə buraxmamışdılar, yalnız oğlanlar getmişdilər. Axşamüstü onlardan soruşdum ki, gömrüyə girə biliblər, yoxsa yox. Dedilər ki, nəinki gömrüyə girmək, heç yaxınlaşa da bilməyiblər. Beləliklə, Riyazla Bijənin cəsədi hələ də yerdə qalmışdı.

Uşaqlar oktyabrın 12-də səhər çağı məni aparmaq üçün tibb mərkəzinə gəldilər. Cənnətabad məzarlığı fəaliyyətini dayandırana qədər oranın yuyulma yerində işləmiş Zeynəb xanım da tibb mərkəzinə gəlmişdi. Oradan Mahşəhrə qızını görməyə getmək istəyirdi. Dedi ki, mümkünsə, məni də bir yerə qədər aparın. Uşaqlar razılaşdılar.

Zeynəb xanım, gündüzlər tibb mərkəzinə yaralı gətirən 17-18 yaşlı Tahirə adlı bir qız, Məsud, Həmid və Xəlil Məavi ilə birgə Taliqani xəstəxanasına yollandıq. Əvvəlcə ziyarət adı ilə Zöhrənin yanına getdik, ona dedik ki, hazırlaşsın, ilk fürsətdə onu xəstəxanadan çıxaracağıq. Düzünə qalsa, onu qaçırmaq istəyirdik. Çünki hələ icazə vərəqəsi verməmişdilər. Xəstəxanada şərait elə idi ki, sanki hamını cəbhədən ayırmaq istəyirdilər. Buna görə yaralıları buraxmır, ciddi yarası olmayanları da tez başqa şəhərlərə göndərirdilər.

Tibb bacıları Zöhrənin şalvarını qəlpə dəyən yerdən qayçı ilə kəsmişdilər, ayağının bir hissəsi açıq idi. O, ayağı görünməsin deyə belinə ağ mələfə doladı. Onu əlil arabasına oturdub palatadan çıxardıq. Tibb bacılarının biri önümüzü kəsib Zöhrəyə dedi ki, hara gedirsən?

Zöhrə dedi: "Dostlarım gedirlər. Onlarla sağollaşım, qayıdıram".

Daha bir söz demədi. Zöhrəni bayıra çıxarıb həyətdə bir dövrə vurduq. Qapıçının başı yaralı gətirmiş təcili yardım

maşınına qarışanda onu tez həyətdən çıxarıb maşına oturtduq və sürətlə oradan uzaqlaşdıq. Zöhrə çox sevinib uşaqlara təşəkkür etdi. Bir qədər irəlidə sağollaşıb onlardan ayrıldım.

Tibb mərkəzinə qayıtdım. Uşaqların yanına getmək istəyəndə 17-18 yaşlı bir cavanı gördüm. Silahlı idi, üst-başından döyüşçü olduğu bilinirdi. Yanımdan keçib bir neçə metr aralıda dayandı, bir qədər sonra yenə gəlib yanımdan keçdi. Yenə bir yerə getmədi, bir neçə metr məndən arxada dayandı. Başıaşağı cavan idi. Hiss elədim ki, nəsə demək istəyir, amma bacarmır. Fikirləşdim ki, yaxınlaşıb söhbətə başlayım, mənimlə bir işi olub-olmadığını soruşum; işi olsa, heç, olmasa da, üzr istəyib gedərəm.

Yaxınlaşıb dedim:

– Salam, qardaş, yorulmayasan.

– Salam, bacı.

– Haralısan? Haçandır gəlmisən?

– Lorustandan gəlmişəm, on gündür.

– Mənim görə biləcəyim bir işin var?

Başını aşağı salıb ayaqqabısının ucunu yerdə fırlatmağa başladı, sonra səs tonunu azaldıb dedi:

– Doğrusu, bacı, bir söz demək istəyirəm, amma üzüm gəlmir. Bir neçə dəfə yanınızdan keçdim ki, söyləyim, bacarmadım.

– Əgər əlimdən gələn bir işdirsə, çəkinmə, de. Sən də mənim qardaşım!

– Düzü, şəhərimizə getmək, evə baş çəkmək istəyirəm, amma üstümdə pul yoxdur. Soruşmaq istəyirdim ki, Xürrəmşəhrdən getmək üçün sizdə az da olsa, pul varmı.

Ona yazığım gəldi. Zavallı heç bir iddiasız-filansız canını oda atıb vuruşmağa gəlib, amma evə getməyə pul tapmır! Məryəm xalamın verdiyi puldan hələ otuz tümən qalırdı. Əlimi cibimə salıb pulu çıxardım. On tümənini özümə saxladım, iyirmisini

ona uzadıb dedim: "Bağışla qardaş, mənim olan-qalanım bu otuz tüməndir. İyirmi tüməni sənin olsun, on tümənini də özümə saxlayıram ki, birdən vəziyyət dəyişsə və şəhərdə qala bilməsəm, əlimdə bir şey olsun".

Cavan sevinib dedi: "Bacı, həqiqətən, minnətdaram. Sizə necə təşəkkür edəcəyimi bilmirəm. Allah köməyiniz olsun!"

***

Uşaqlar gömrüyün və Dej bazasının işğal olunduğunu söylədilər. Dedilər ki, bazada müqavimət göstərən gizirlər şəhid olublar. Dərin bir ah çəkdim. Gömrüyün işğal olunması çox pis xəbər idi. Şəhərin mühüm bir hissəsi əldən çıxmışdı. Torpağın bu qədər əziz olduğunu düşünməzdim. Xəbəri eşidəndən sonra ürəyim sıxıldı, qəlbim sındı. Hamımız çox narahat olduq. Canımızdan keçməyə hazır idik, amma torpağımızdan yox. Zaman ötdükcə məyusedici xəbərlər eşidirdik. Xürrəmşəhrin işğalı anbaan gerçəkləşirdi.

İraqlılar hər tərəfdən bizə yaxınlaşmışdılar. Qərbdən təxminən Ordibehişt meydanının yaxınlığına, cənub-qərbdən Əhmədzadə meydanına, şərqdən də dövrə vurub Abadan-7 stansiyasına qədər gəlmişdilər.

Döyüşçülərin dediyinə görə, şəhərdə yalnız 300-400 müdafiəçi qalmışdı. Korpus və ordu döyüşçüləri Fəxr-Razi və İnqilab prospektlərinin kəsişdiyi dördyolda, doktor Şeybaninin tibb mərkəzinin yaxınlığında mövqe seçmişdilər. Firdosvi prospektində, came məscidinin yanında da eyni işi görmüşdülər. Şiddətli döyüşlər gedirdi. Bir dəfə tibb mərkəzinin pəncərəsindən ordu hərbçilərinin yerə uzanaraq şəhəri müdafiə etdiklərini görmüşdüm.

Gecə yenə qızdırma və titrətməm başladı. O şəraitdə bircə bu, əskik idi! Yaram zoqquldayırdı, bütün bədənim tərləmişdi. Düşmən dayanmadan fişəng atıb hər tərəfi işıqlandırırdı.

Xürrəmşəhrin səması həmin gecə səhərə qədər qaralmadı. Yer dayanmadan beşik kimi yırğalanır, qızğın döyüş gedirdi.

İraqlılar hər an mühasirəni daraldırdılar. Ürəyimizə qəribə qorxu düşmüşdü. Tibb mərkəzinin qapısı məscidlə üzbəüz idi. İraqlıların oradan girməyəcəklərinə əmin idik. Bilirdik ki, sakitcə və vuruşmadan qapıdan girə bilməzlər, ancaq daim fikirləşirdik ki, bu dəqiqə dama tökülüşüb oradan enəcəklər.

Zülmət qaranlıqda tibb mərkəzinin kiçik zalına toplaşmışdıq. Növbəti dəfə kəlmeyi-şəhadətimi söylədim. Bütün bədənim titrəyirdi; həm qızdırmadan, həm də qorxudan. Bir saatdan sonra nə baş verəcəyini yalnız Allah bilirdi. Gecə uzanır, səhər açılmaq bilmirdi. Oktyabrın 12-si necə də uzun oldu! Günəş çıxsaydı, həyəcan və iztirabımız bir qədər azalardı. Onda ən azı, ətrafımızı görüb nə baş verdiyini bilərdik.

Qardaşım Əli yadımdan çıxmırdı, daim fikirləşirdim ki, indi tibb mərkəzinin qapısı açılacaq və onun qanlı bədənini gətirəcəklər. Nə etdiyini, harada olduğunu bilmirdim. Quranın "Əmmən yucib"[1] ayəsini zümzümə etməyə başladım.

Gecə yarıdan keçmiş Abbas Əlivənd bir neçə yaralı gətirdi. Bir-ikisinin qarın və böyürlərinə güllə dəymişdi, iki-üçü də əlbəyaxa döyüşdə yaralanmış, sinə və qarınlarına süngü girmişdi. Süngüdən yaralananları görəndə həyəcan və qorxumuz bir neçə dəfə artdı. Hər şey düşmənin yaxında olduğunu göstərirdi. Artıq şəhərin küçələrində əlbəyaxa döyüş gedirdi. Bu isə Xürrəmşəhrin işğalının hər zamandan daha real olduğunu sübut edirdi. Yaralarını bağlayıb qanaxmalarını dayandırmağa çalışdıq. Daxili qanaxma ehtimalı olduğuna görə onları tibb mərkəzində saxlamaq olmazdı. Əlivəndə dedik ki, onları xəstəxanaya aparsın. Onları götürüb çıxdı, amma hara və necə apardığını bilmədik.

---

[1] Nəml, 62: "(Bütlər yaxşıdır) yoxsa əli hər yerdən üzülüb darda qalmış birisi Onu çağırdığı zaman duasını qəbul buyuran, (sizdən) şəri sovuşduran?!".

# On birinci fəsil:

## *Dik duruş*

Nəhayət, 13 oktyabr səhəri açıldı. İraqlılar gecədən dayanmadan şəhəri vururdular.

Biz tibb mərkəzində idik. Küçədən bir maşının aramsız siqnal səsi gəldi. Adətən, ağır yaralı gətirəndə sürücü belə edirdi. Beş saniyə çəkməmiş qapının önündə, yaralı gətirmiş SUV avtomobilinin yanında idim. Qızların iki-üçü də gəldi. İki xüsusi təyinatlı tez maşından enib dedilər: "Bacı, yaralı gətirmişik".

Yaralını təhvil almaq üçün onlarla birgə maşının arxa qapısına yaxınlaşdım. Ancaq onu görən kimi yerimdə quruyub qaldım, gözlərimə inanmadım. Yaralı sakitcə oturacaqda oturmuş bir xüsusi təyinatlı idi, burnundan yuxarı hissəsi yox idi. Kəlləsi yerində idi, amma göz, qaş və alın yerində yalnız qanlı çuxur görünürdü. Saçaq-saçaq ət parçaları sallanırdı, məlum deyildi ki, alnının dərisidir, yoxsa beyninin parçaları. Üzündə qan laxtalanmışdı. Qəlpə gicgah tərəfdən dəymiş, iki gözünü birdən aparmışdı.

Yerimdə donub qalmışdım. O biri qızlar da mənim günümdə idilər. Dözümlü yaralıya mat-məəttəl baxdığım yerdə yoldaşlarının biri qışqırdı: "Bacı, nə edirsən? Nə gözləyirsən?"

Özümə gəldim. Quyunun dibindən gələn bir səs kimi güclə yoldaşına dedim: "Gərək təcili yardım maşını ilə xəstəxanaya aparaq. Get, sürücüyə de, maşını bura gətirsin".

Xüsusi təyinatlı cəld yaxında dayanmış təcili yardım maşınına sarı qaçdı. Sürücü təcili yardım maşınını onların avtomobilinə yapışdırıb qapısını açdı. Həqiqətən, özümdə deyildim. Əlimi yaralıya sarı uzadıb yavaşca dedim: "Qardaş, əlini mənə ver, gərək təcili yardım maşınına gedək".

Onun sakitliyinə və rahatlığına heyran qalmışdım. Yəni doğrudan da heç bir ağrı hiss etmirdi ki, elə vüqarla oturub qanlı əllərini dizlərinin üstünə qoymuşdu?!

Mənə dedi: "Yox, bacı, yalnız hara getməli olduğumu söylə". Dedim: "Yaxşı, necə istəyirsiz!"

Yerə enib əlini maşından tutdu. 24-25 yaşı olardı. Uca boyu, güclü bədəni vardı. Ayağa qalxanda iri cüssəsi daha çox nəzərə çarpırdı. Yoldaşı tez qaçıb əlindən tutmaq və onu təcili yardım maşınına mindirmək istədi. O isə dedi: "Yox, xahiş edirəm, qoyun özüm minim".

Heç kimin kömək etməsinə imkan vermirdi. Çox qeyrətli idi. Necə möhkəm addım atırdı! Onu görəndə məni qəribə hiss bürüdü. Öncə belə bir hissi təcrübə etməmişdim. Mənim bələdçiliyimlə yavaşca maşına mindi. Hətta uzanmadı, oturdu. Üzündəki qanın dayanmaq fikri yox idi. Nə edəcəyini bilməyən aciz bir adam kimi idim. Mən də maşına minib sürücüyə yola düşməsini bildirdim. Onun kimi bir yaralı üçün mində bir saniyə də dəyərli idi. Maşın yola düşəndən sonra dedim: "Qardaş, uzan, belə çətin olar". Dedi ki, yox, belə rahatam.

Halını anlaya bilmirdim. Hətta səsi də titrəmirdi. Məgər ağrısı olmaya bilərdi?! Bəs nə üçün narahat görünmürdü? Bilmirdim hansı hisslə danışır; gənclik qürurundan, yoxsa güclü imanından özünə belə hakim ola bilir? Maşın bombardmandan yaranmış çala-çökəklərdən keçib sürətlə və güclü təkanlarla

xəstəxanaya doğru gedirdi. Qan laxtaları üzünə və paltarına tökülmüşdü. Yarasına baxanda özümdən asılı olmadan belim sancırdı. Yarası o qədər dərin idi ki, üzünün oyuğuna iki barmaq girərdi. Onun möhkəmliyinə və dözümlülüyünə heyran qalmışdım. O yara ilə bəlkə də bir saatdan çox yaşaya bilməzdi.

Taliqani xəstəxanasına çatdıq. Sürücü bir neçə uzun siqnalla qapıçıya yaralı gətirdiyini bildirdi. Maşın tez həyətə girib binanın önündə dayandı. Sürücü maşından enib qapını açdı. Kömək etməyə qoymayacağını bildiyim üçün daha bir söz demədim, yalnız yolu göstərdim. Öz ayağı ilə maşından endi.

Tibb bacılarından iki-üçü tez özlərini yetirdilər. Yaralının üzündəki yaranı, eyni zamanda onun ayaq üstə yeridiyini görüb bizim kimi çox təəccübləndilər, onu dövrəyə alıb xərəyə uzatdılar. Xərəyə uzanan kimi birdən bədənində bir dartınma baş verdi, başı və boynu çiyinlərinin arasına girdi. Bir qədər sonra başı boşaldı və yana düşdü.

O, şəhid olmuşdu. Başının üstə ağlamağa başladım. Bütün yolboyu özümü saxlamışdım. Buraya qədər yaşaması da möcüzə idi, amma şəhadətinə çox üzüldüm. Heyif elə qeyrətli gəncdən!

Bir qədər başının üstə qalıb sonra tibb mərkəzinə qayıtdım. Qayıdanda da yolboyu sakitcə ağladım. Onun rəşadəti mənə çox təsir edirdi. Əmin idim ki, bu günü heç vaxt unutmayacağam. Uşaqlara onun möhkəmliyindən və qəhrəmancasına şəhadətindən danışanda istisnasız olaraq, hamı ağladı. Həmin gün xüsusi təyinatlının xatirəsi ilə bitdi. Axşama qədər bikef oldum. Əcəb pis dünya idi![1]

***

[1] Məzlum Şəhid Doktor Behiştinin bir cümləsi eynilə həmin günün hadisəsini yadıma salır. O deyirdi ki, biz tarixdə dik duruşumuzla qalacağıq. Həmin xüsusi təyinatlı tarixin həqiqətən, dik duruşlularından idi. O qeyrətli gənc şəhadət anına qədər möhkəm dayanıb ölümü ələ saldı.

Oktyabrın 14-də gecə saat 12-dən Taliqani məhəlləsində əlbəyaxa döyüş başlamışdı. Xürrəmşəhrdə döyüş tərzi özünəməxsus idi. Həm iraqlılar, həm də şəhərin müdafiəçiləri müxtəlif bölgələrə səpələnmişdilər. Şəhərdaxili və partizan döyüşlərində şəhərin müxtəlif bölgələri əlbəəl olurdu. Yaralı gətirmək üçün tibb mərkəzinə gəlib-gedən döyüşçülər bizə vəziyyəti söyləyirdilər.

Səhərəcən mərkəzdə heç kim bir an da gözlərini yummadı. Döyüşçülər tez-tez yaralı gətirirdilər. Bədənlərindəki süngü yerlərindən bilmək olurdu ki, əlbəyaxa döyüşdə yaralanmışlar.

Ertəsi gün, yəni 15 oktyabr saat 11-ə qədər vəziyyət elə davam etdi. İstirahət etməyə bir an da vaxtımız yox idi. Yaralıların sayı çox idi. Bəzilərini xəstəxanaya göndərməli idik. Uşaqlar arasında işlər bölünmüşdü: oğlanlar yaralıları xəstəxanaya təhvil verir, qızlar mərkəzdəki yaralılara yardım göstərirdilər. İraqlılar o qədər yaxınlaşmışdılar ki, daha qəlpədən yaralananlar az idi. Əksər yaralılara güllə dəymişdi.

Ayağımın yarası yadımdan çıxmışdı. Ötən gecə üçüncü gecə idi ki, qızdırmadan titrəyirdim. Lənətə gəlmiş titrətmə məndən əl çəkmək istəmirdi. Doktor Səadət deyirdi ki, istirahət etmədiyimə görə zəifləmişəm, ona görə bu qədər qızdırmam olur. Doğru deyirdi, son iki-üç gündə olduqca çox işləmişdim. O şəraitdə istirahətin həqiqətən, mənası yox idi. İstirahət etmək üçün ya şəhərdən getməli, ya da qalıramsa, digərlərinin əl-ayaqlarına dolaşmamalı idim. Bəlkə də qızdırmam Xəlil Nəccarın qəlpəni axtararkən yarama saldığı sterilizə olunmamış maqqaşa görə idi.

Yaralılardan eşitdiyimiz xəbərlər bizi məyus edirdi. Hamısı iraqlıların yüksək hərbi hazırlığından və şəhəri işğal etmək üçün güclü tamahlarından xəbər verirdi. Deyirdilər ki, boş əllə bundan artıq müqavimət göstərmək mümkün deyil. Yazıqlar

doğru deyirdilər. Canlı və texniki qüvvə baxımından o qədər çatışmazlıq vardı ki, canları, bədənləri ilə döyüşə girmişdilər.

Hökumətin bacarıqsızlığından təngə gəlmişdim. Zaman ötdükcə xəyanətlərini daha yaxşı anlayırdım. Lənətə gəlmiş Bəni-Sədrin kimi ələ saldığı bəlli deyildi. İyirmi gün ötürdü, amma Quçan zirehli diviziyası hələ gəlib-çıxmamışdı. Heç olmasa, Əlidən xəbər öyrənmək istəyirdim.

Oktyabrın 14-dən etibarən tibb mərkəzinin bütün qızları silahlandılar. Yavaş-yavaş elə vəziyyət yarandı ki, daha mərkəzdə oturub yaralı gözləyə bilmirdik. Şəhidlərin sayı o qədər çox idi və canlı qüvvə o qədər azalmışdı ki, yaralıları yerdən götürüb geri gətirəcək adam qalmamışdı. Hamısı qalıb düşmənə qarşı müqavimət göstərməli idi. Buna görə tibb mərkəzindən çıxıb ətraf küçə və prospektləri gəzirdik ki, yaralı və ya köməyə ehtiyacı olan bir adam görsək, yardım edək.

Yaralıları xəstəxanaya aparmaq işi də çox ləng gedirdi. Daha nə maşın qalmışdı, nə də benzin. Uzun müsibətlə bir maşın tapırdıq. O vaxta qədər yaralılara müvəqqəti yardım etməyə, qanaxmalarını dayandırmağa çalışırdıq.

Mətbəxin yerini üçüncü dəfə dəyişdirdilər. İraqlılar beşinci kolon vasitəsi ilə yerini öyrənib vururdular. Biz məsciddə olanda bəzi gecələr zülmət qaranlıqda birdən şəhərin bir yerindən fənər işığına bənzər bir işıq qalxır, kiməsə işarə verməkdən ötrü iki-üç dəfə yanıb-sönürdü. Bununla hansısa yerin koordinatını verirdilər.

Axşam doktor Səadət yenə Təvəssül duası oxudu. Son bir neçə gündə hər axşam oxuyurdu. Mənəvi baxımdan vəziyyətimiz elə bərbad idi ki, daim özümüzü yüngülləşdirməyə fürsət axtarırdıq. Zülmət qaranlıqda Təvəssül duasını oxuduq. Şəhərin işğal edilib iraqlıların əlinə keçməsi fikri məni bir an da rahat buraxmırdı. Ev-eşiklərimizdən bir şey qalmasa, Fevziyə ilə Şahnazdan başqa heç kimdən düz-əməlli

xəbərim olmasa da, Allah şahiddir ki, yanaqlarımdan süzülən göz yaşları daha çox Xürrəmşəhrin işğalı və vətən torpağının düşmən əlinə keçməsinə görə idi. Bilirdim ki, gec-tez şəhəri tərk etməliyik. Bura qədər davam gətirməyimiz də çoxlarına görə ifratçılıq idi.

Hər neçə saniyədən bir İraq fişəngləri şəhəri işıqlandırır, partlayış səsi bir an da dayanmırdı. Mən, Əşrəf, Bilqeys, Mehrəngiz, Keşvər və xanım Əkbəri o vaxta qədər tibb mərkəzində qalmış yeganə qızlar idik. Gecə olmasına baxmayaraq, hamımız hazırlıqlı vəziyyətdə idik; ayaqqablarımızın bağını bağlamış, örpəklərimizi bərk düyünləmiş, silahlarımızı təmizləyib hazırlamışdıq. Bir neçə dəqiqədən sonra nə baş verəcəyi bəlli deyildi. Biz ən çox dama görə həyəcanlı idik. Daim fikirləşirdim ki, indicə damdan tökülüşüb içəri girəcəklər. Atəş açmağa və vuruşmağa hazır idik.

Tez-tez oktyabrın ikisini xatırlayırdım. Həmin gecə iraqlılar korpusun qərargahını vurmuş, uşaqları qanlarına qəltan etmişdilər. Fikirləşirdim ki, bizi də onların taleyi gözləyir. Yalnız ürəyimdə Allahı çağırırdım ki, əgər mərkəzimizə raket və mərmi düşsə, paltarlarıma bir şey olmasın və bədənim görünməsin. Fişənglərin işığı altında hər birimizin gözlərində qorxu görünür, bununla yanaşı, hər kəs o birinə təskinlik verməyə çalışırdı.

Ayaqlarımızın altındakı yer bir an da sabit qalmırdı. Elə bir dəqiqə yox idi ki, gözlərimiz önündə bir divar dağılıb-uçmasın. Düşmən Xürrəmşəhri ələ keçirməkdən ötrü əlindən gələni əsirgəmirdi: 80 mm çaplı raket, RPG qumbaraatanı, 106 mm çaplı top mərmisi, qrad və s.

***

Təşviş və həyəcanla ağır bir gecəni başa vurduq. Gələn yaralılardan öyrəndik ki, gömrük və Taliqani məhəlləsi

tamamilə işğal olunmuşdur. Fevziyə ilə Şahnaza baş çəkmək qərarına gəldim. Şəhərdə vəziyyətin çox təhlükəli olduğuna görə olduqca ehtiyatla mətbəxə getdim. Onların vəziyyətləri də bizimkindən geri qalmırdı. Üstəlik, ora hər yerdən təhlükəli idi. Qazizadə bacıları, xanımlar Ənqali, Purheydəri, İlahənin əmisi yoldaşı, Məsumənin anası və Fatimə adlı bir qız hələ orada idilər. İraqlılar oranı vurmaq istəyirdilər ki, döyüşçülərə əzab-əziyyətlə verilən bir tikə çörək də kəsilsin və şəhər təslim olsun.

Onlardan atamı soruşdum. Dedilər ki, iki-üç gün öncə gəlib bizə baş çəkib. Allaha şükür, yaxşı imiş, ancaq çox arıqlayıbmış. Onun üçün çox darıxırdım. Yazıq o qədər sıxıntıya tab gətirəcək yaşda deyildi. Bir qədər orada qalıb tibb mərkəzinə qayıtdım. Dedim ki, birdən yaralı gətirərlər. Mahmud Fərruxi ilə Mehdi Albuğəbiş tibb mərkəzinə gəlmişdilər və uşaqlarla danışırdılar. Mən çatanda Mahmud Fərruxi deyirdi: "Məgər biz ölmüşük ki, Xürrəmşəhr işğal olunsun?!" Albuğəbiş də deyirdi: "İraqlılar yalnız bizim cəsədlərimizin üstündən keçib şəhərimizi ala bilərlər!"

Sözlərini eşidib ruhlandım. Bu qədər sıxıntıya və əlimizin boş olmasına rəğmən, uşaqlarımızın belə fədakarcasına müqavimət göstərdiklərini, bir addım da geri çəkilmək fikrində olmadıqlarını görəndə bütün vücudumla Allaha şükür etdim.

Mərkəzə gəlişimdən çox keçməmiş bir yaralı gətirdilər. Təxminən 18 yaşlı uzun saçlı bir gənc idi. Qəlpə kəlləsinin yarısını aparmışdı. Toz-torpaqlı qara saçı qana və beyninin parçalarına bələşmişdi, ancaq ürəyi döyünürdü. Uşaqlara dedim: "Mən onu apararam. Siz qalın, digər yaralılara yardım edin".

Mahmud Fərruxi dedi: "Sabah bacı, gərək onu doğum evinə aparasız. Vaxt azdır, Taliqani xəstəxanasına aparınca iş-işdən keçər". Dedim ki, yaxşı, ora apararam.

Doğum evi Xürrəmşəhrin Kutşeyx bölgəsində yerləşirdi və döyüşçülərin dediyinə görə, hələ orada sakitlik idi. Yaralını gətirdikləri maşınla mərkəzdən doğum evinə yola düşdük. Yolda tez-tez nəbzini yoxlayırdım. Doğum evinin uzun dəhlizinə çarpayı düzüb yaralıları uzatmışdılar. Çoxu da yerdə uzanmışdı.

Ağ xalatlı həkimlərin birinin yanına qaçıb yaralının başı üstə gətirdim və dedim: "Sən Allah, ona yardım edin".

Həkim yaralıya nəzər salıb çox soyuqqanlılıqla mənə baxdı və dedi: "Bacı, axı mən buna nə edim?!"

Həkimin soyuqqanlılığından bir anlığa özümü itirib qışqırdım: "Necə yəni nə edim?! Sən həkimsən, məndən soruşursan ki, nə edim?! Onu əməliyyat otağına apar, damarını tap..."

Həkim də acıqla dedi: "Mən ümumi terapevtəm, cərrah deyiləm. Sonra da görmürsən ki, beyninin yarısı üzünə tökülüb?! Məgər ona nə etmək olar?! Bu, çox yaşasa, bir neçə dəqiqə yaşaya bilər..."

Haqlı idi, ancaq mən qəbul etmək istəmirdim. Hərəkətimdən xəcalət çəkdim. Şəhərin fikrindən aqressiv olmuşdum. Yazıq həkimin günahı yox idi. Başına qışqırsam da, tapşırdı ki, tibb bacılarının biri yaralının damarını tapsın. Daha orada qalmayıb xəstəxanadan çıxdım.

Qayıdanda atamı tibb mərkəzində gördüm. Mətbəxə gedib uşaqlardan məni soruşmuş, onlar da mərkəzin ünvanını vermişdilər. Təxminən səhər saat 11-dən gözləyirmiş. Yazıq bu müddətdə çox arıqlamışdı, amma Allaha şükür, sağ-salamat idi. Sakitcə mənə dedi: "Sabah, qızım, şəhərdən getmək istəmirsən? Bilirsən iraqlılar haracan gəliblər? Daha burda qalman məsləhət deyil".

Atamın səsi kövrək idi, simasına elə qəm-kədər çökmüşdü ki, sanki əzizlərindən biri ölmüşdü. Həm sözünün üstünə söz

demək istəmirdim, həm də heç vəchlə getməyə razı deyildim. Buna görə dedim:

– Bəs uşaqlar? Şahnazla Fevziyə razılaşdı?

– Yox, onlar da yalvardılar ki, qalsınlar.

– İcazə verirsən mən də qalım? Axırda nə etsək, birlikdə edərik.

– Qızım, təhlükəlidir. Əsir düşmə ehtimalınız çoxdur. Mən sizin qalmanıza necə dözə bilərəm?!

– Ata, əmin ol ki, nə vaxt təhlükə hiss etsəm, özüm gedəcəm.

– Yəni bundan da artıq təhlükə hiss etməlisən?!

– Hələ uşaqlar burdadırlar. Mən də onların biri. Şahnaz, Fevziyə və tibb mərkəzinin uşaqları nə etsələr, mən də edərəm.

İnciməsin deyə səs tonumu bacardıqca yumşaltmışdım. Yazıq bir söz deməyib başını aşağı saldı. Söhbəti dəyişdirib dedim: "Ata, Əlidən xəbərin var? Ona görə çox narahatam".

Dedi: "Yox, qızım, nə xəbəri?! O da bu şəhərin cavanlarından biri. İnşallah Allah onları qoruyar!"[1]

Atam bir qədər qalıb getdi. Ondan sonra mən də bayıra çıxdım. Uşaqlar deyirdilər ki, iraqlılar Əhmədzadə meydanını da tutublar. Beləliklə, əlimizdə yalnız bir neçə prospekt qalmışdı.

---

[1] Sonralar Şahnazın dediyinə görə, oktyabrın 15-də günorta çağı korpus uşaqlarından iki-üçü bir vanetlə mətbəxə gedib demişdi ki, Xürrəmşəhr daha qalmalı yer deyil, gərək buradan gedəsiz. Onlar da ciddi etiraz edib demişdilər ki, döyüşçülərimiz burada qalınca biz də qalacağıq, heç kim bizi şəhərdən çıxara bilməz. Korpus uşaqlarının biri silahını çıxarıb onlara tuşlamış, demişdi ki, indi ki qalırsız və iraqlıların əlinə keçib öləcəksiz, qoyun özüm sizi öldürüm. Vəziyyət bu yerə çatanda başqa biri vasitəçilik edib qızlara demişdi ki, heç olmasa, sizi Kutşeyxə müharibə otağına aparaq, orada döyüşçülərə yemək bişirin. Uşaqlar da razılaşıb onlarla getmişdilər. Lakin bu onları şəhərdən çıxarmaq üçün bir plan imiş. Uşaqların heç biri Kutşeyxdəki müharibə otağını görmədi. Hamısını Xürrəmşəhrdən çıxarıb Abadan-7 stansiyasında maşından endirmişdilər.

İraqlılar 16 oktyabrda came məscidi ilə Darvaza meydanının arasını, yəni Fəxr-Razi prospektini də tutdular; ya evlərdə idilər, ya da damlarda. Onların döyüş düzülüşü U formasında idi: Zirehli qüvvələri U-nun iki qolunun başında yerləşirdi, piyada qüvvələri də oturacaqda. Oktyabrın 12-yə qədər U-nun sol qolu Bəhmənşir çayına və Abadan-7 stansiyasına qədər irəliləyib Abadan-Mahşəhr magistralını bağladı, sağ qolu da çayın içindən gömrüyə girdi, Əhmədzadə meydanı, Firdovsi prospekti və Fərəh liseyi səmtinə irəlilədi. U-nun oturacağı da İraqın Quru Qoşunlarının briqadaları idi, bir başı Abadana, bir başı da Xürrəmşəhr gömrüyünə qədər uzanırdı. Canlı və texniki qüvvə çatışmazlığı davam etsəydi, bu növ irəliləmə ilə Xürrəmşəhrin işğalına bir şey qalmırdı.

Tibb mərkəzinin arxasında mövqe seçmiş uşaqların yanına getmək üçün bir-birimizi qorumalı idik. Oğlanların bir neçəsi növbə ilə düşmənə atəş açıb bizi qorudu, Fəxr-Razi prospektinə çatan küçələrdən keçdik. Uşaqların yanına təzə çatmışdıq ki, iraqlılar bizim yerləşdiyimiz küçədə bir evin divarını qumbaraatanla vurdular. Tez yerə uzandıq. Döyüşçülərin biri yaralandı. Onun yanına qaçdım. Buduna qəlpə dəymişdi. Şalvarının qəlpə dəyən yerinin bir qədər yuxarısından və bir qədər aşağısından kəsdim. Bir ovuc tənzifi yarasının üstünə qoyub sıxdım, sonra bintlə möhkəm bağladım. Qanaxmanın qarşısını almaq istəyirdim. Sümüyü də sınmışdı, tərpənə bilmirdi.

Heç kim bizə fikir vermirdi. Uşaqlar mövqe seçib iraqlılara atəş açırdılar. Yaralı arıq olsa da, onu qaldıra, hətta kənara çəkə bilmirdim. Qanaxması güclü idi. Bir neçə saniyə ərzində bütün tənziflər qana boyandı. Oğlanlara yaxınlaşıb dedim: "Bunu yolun o tərəfinə keçirib tibb mərkəzinə aparmaq lazımdır".

Biri baxdı, danışmaq istəyəndə dedim: "Yaxşı, mən sizi qoruyaram, onu aparın". Təəccüblə dedi: "Atəş açа bilirsən?" Dedim ki, hə, bilirəm.

Divarın arxasına, həmin döyüşçünün dayandığı yerə getdim, J3 silahımı avtomat rejiminə keçirdim, iraqlıların harada olduqlarını dəqiq bilmədiyimə görə ziqzaq şəklində atəş açmağa başladım. Məlum deyildi ki, evlərdə, pəncərələrin arxasındadırlar, yoxsa qarşıdakı küçələrdə. Döyüşçülərin ikisi yaralını tez yolun o tərəfinə keçirib tibb mərkəzinə apardı. Onlar gedəndən sonra özüm də tibb mərkəzinə getmək qərarına gəldim. Bu, asan deyildi, amma Allaha təvəkküllə tez prospektdən keçdim. Hər an ehtimal verirdim ki, güllələrin biri mənə dəyəcək, yerə yıxılacağam, ancaq Allaha şükür, heç bir problem yaranmadı.

Tibb mərkəzində yaralının nəbzini yoxlayıb həyat əlamətlərini nəzərdən keçirdim. Sonra onu təcili yardım maşınına qoyub xəstəxanaya göndərdik. Şiddətli döyüşün getdiyinə və daha çox yaralı gətiriləcəyini bildiyimə görə mərkəzdə qalmağı üstün tutdum. Yaralıların dediyinə görə, Əhmədzadə meydanında qızğın döyüş gedirdi, iraqlılar Ordibehişt meydanı tərəfdən İcra hakimiyyətinə doğru gəlib körpünü mühasirəyə almaq istəyirdilər. Bilirdik ki, tankların və zirehli qüvvələrin ayağı körpüyə dəysə, tam mühasirəyə düşəcəyik. Buna görə korpus əksər qüvvələrini oraya yerləşdirmişdi.

Ayın 15-də günortadan axşam saat 11-ə qədər gətirilən əksər yaralılar əlbəyaxa döyüşdə yaralanmışdılar. Şəhidlərin sayı da olduqca çoxalmışdı. Yaralılar deyirdilər ki, iraqlılar bizə çox yaxınlaşıblar, özümüzünkülərlə onların yerini ayırd edə bilmirik. Dost-düşmən bir-birinə qarışmış, döyüşçülərin müqavimət imkanları azalmışdı.

O şəraitdə hətta bir an da bekar qalmırdıq. Yaralıların çoxu bıçaq və süngü ilə yaralanmışdılar, daxili qanaxmaları vardı. O vaxta qədər gördüklərimiz güllə və qəlpə yaraları idi, onlarla necə davranacağımızı bilirdik, süngü kəsikləri isə kiçik olsa da, çox təhlükəli idi. Namərdlər bunun da təlimini keçmişdilər. Yaraların çoxu bədənin böyrək və dalaq kimi yumşaq yerlərində idi. Buna baxmayaraq, tibb mərkəzində ölən olmadı.

Şəhidləri Abadana aparırdıq. Taliqani xəstəxanasının morqu daha kifayət etmirdi. Buna görə Mihən dondurma zavodunun buzxanasını işə salıb şəhidləri orada saxlayırdılar. Hər şəhid bir-iki gün saxlanır, ardınca kimsə gəlməyəndə naməlum şəhid kimi dəfn edilirdi.

Yaralılardan eşitmişdik ki, Şeyx Şərif müdafiəçilərin bir qismini gömrüyün ətrafına toplayıb müqavimət göstərir. Bu xəbəri, həmçinin Mayor Şərifnəsəbin və xüsusi təyinatlıların düşmənə müqavimət göstərdiklərini eşidib ruhlanırdıq.

Əbuzər qrupunun uşaqları arasında Mustafa adlı yaşıl gözlü bir gənc vardı. Xürrəmşəhrdən idi, hələ saqqalı çıxmamışdı, uzaqbaşı 16-17 yaşı olardı. Yaralıları xəstəxanaya aparanda onu çox görmüşdüm. Oktyabrın 15-də uşaqlar yaralı gətirəndə dedilər ki, Mustafaya qəlpə dəydi və yerindəcə şəhadətə qovuşdu. Dediklərinə görə, qəlpə göz nahiyəsini aparmışdı. Onun o vəziyyətdə şəhid olduğunu eşidib çox pis oldum. Mustafa üzünün ən gözəl hissəsini Allaha qurban vermişdi!

Axşam təxminən saat 11-də düşmən atəşi azaldı, vəziyyət bir qədər sakitləşdi. Acından ölürdüm. Onsuz da son iyirmi üç gündə heç vaxt düz-əməlli yeməmişdim, ancaq bir neçə gün idi mətbəx bağlanmışdı, hərəyə bəlli miqdarda verilən quru xurmadan başqa yeməyə heç nə yox idi. O vaxta qədər tibb mərkəzinin yeməyi gündə bir dəfə gətirilməklə mətbəxdən təmin olunmuşdu.

Mövcud vəziyyəti nəzərə alaraq, əmin idik ki, bir-iki gün ərzində mərkəzi boşaldıb getməli olacağıq. İraqlılar yaxınlığa çatmışdılar, daha qalmaq mümkün deyildi. Hər an ehtimal verirdik ki, damdan içəri girəcəklər. Xəlil dedi: "Uşaqlar, kömək edin, əşyalarımızı toplayaq. Daha burda qalmaq mümkün deyil".

Yaranmış sakitlikdən istifadə edib tibb mərkəzinin əşya və avadanlıqlarını toplamağa başladıq. Bütün dərmanları götürdük; sarğı və bandajları da həmçinin. Hamısını mərmi qutularına yığdıq. Bu vaxta qədər qalmaqdan ötrü çox müqavimət göstərmişdik, indi isə ətrafdakı küçələrdən iraqlıların danışıqlarını eşidirdik. Canımızdan çox döyüşçülərə başağrısı yaratmaqdan qorxurduq.

Oktyabrın 16-da səhər çağı yerdəyişməyə hazır idik. Hava işıqlaşandan sonra mərkəzdən çıxdım. Qara Həsən İnqilab prospektinin o tərəfində dayanmışdı. Məni görən kimi əlini qaldırıb dedi: "Sabah bacı, salam". Hələ salamın cavabını verməmiş həmin qolunun biləyindən bir güllə dəydi. Sağ əli idi. Qara Həsən yavaşca divara yaxınlaşıb yerə oturdu. Ona yaxınlaşmaq istəyirdim, amma qorxdum ki, məni də vurarlar. Qışqırıb dedim: "Qalx, gəl içəri". Əsgərlər onu qorudular, özünü prospektin bu tərəfinə yetirib tibb mərkəzinə girdi. Xəlil Nəccar onun əlini bağladı, bir parça ilə boynundan asdı ki, əziyyət çəkməsin. Qara Həsən dedi ki, uşaqların yanına qayıtmaq istəyirəm. Əsgərlər yenə onu qorudular və o, yoldaşlarının yanına getdi. Əlinə güllə dəyməsindən hamı bildi ki, iraqlılar gecə irəliləmiş, came məscidinə yaxınlaşmışlar. İnanılası deyildi. Düşmən bizim bir neçə addımlığımızda idi.

Bu hadisədən çox keçməmiş atam tibb mərkəzinə gəldi. Onu dünən görmüşdüm, amma Allah bilir ki, görməyimə necə sevindim. Atam dedi: "Sabah can, gəlmirsən gedək, qızım?

Vəziyyət çox təhlükəlidir. Artıq həqiqətən, burda qalmaq olmaz".

Ona əşyalarımızı toplayıb getməyə hazırlaşdığımızı demək istədiyim yerdə iki yaralı gənc gətirdilər. Hər ikisi bədənlərinin yuxarı hissəsindən yaralanmışdı. Uşaqlar onların əl-ayaqlarından tutub gətirmişdilər. Onları təhvil alıb çarpayıya uzatdım. Atam bir qədər sakit qalıb yaralılara baxdı, sonra heç bir söz demədən və məni gözləmədən başını aşağı salıb getdi. Sanki həmin iki yaralının gəlişi ilə cavabını almışdı. Yaralıların vəziyyəti ağır idi, orada qoyub atamın ardınca gedə bilməzdim. Sinə və qarınlarına qəlpə dəymişdi, qanaxmaları çox idi.

Atamın gedişindən bir dəqiqə keçməmiş tibb mərkəzinin yaxınlığına bir raket düşdü. Onun hara düşdüyünə baxanda gördüm ki, iki nəfər atamın qoltuğuna girib içəri gətirir. Yerimdə quruyub qaldım. Atamın bu asanlığa yaralandığına inana bilmirdim. Çiynindən belinə qədər qana boyanmışdı.

Onu üzü üstə çarpayıya uzatdılar. Çiyinlərinin ortasına, belinə və əlinin içinə qəlpə dəymişdi. Keşvər Nəccarla onun başı üstə idim, Xəlil Nəccar da damarını axtarırdı. Ona çox ürəyim yanırdı. Üç qəlpə yarası almışdı, ağrısı çox idi, amma özünü ələ alırdı ki, səsi çıxmasın. O, kişinin ağlayıb qışqırmamalı olduğunu düşünən kişi tiplərindən idi.

Belinə və çiyninə girmiş qəlpələrə bir şey edə bilməzdik. Yalnız yara yerlərinə tənzif qoydum. Əlinin yarasını isə yuyub bağlamaq olardı. Onun əlini özüm bağlamaq istəyirdim. Tez işə başladım. Əlinə sarğı taxtası bağladığım yerdə Şahnazla Pərvanə Qazizadə tibb mərkəzinə gəldilər. Onların gəlişindən bildim ki, uşaqların müqavimətinə görə iraqlılar geri çəkiliblər. Belə olmasaydı, Qara Həsənin əli kimi hər bir hərəkət yerindəcə vurulardı.

Şahnaz atamın qanlı bədənini görüb qorxdu. Yaşlı gözlərini ona dikmişdi, bir söz demirdi. Ağrıdan atamın rəngi göyərirdi.

Nəfəs alanda çox əziyyət çəkdiyi bilinirdi. Həkimlərdən eşitmişdim ki, belə yaralıya Sianoz olduğunu deyirdilər. Şahnaz titrək səslə dedi: "Sabah, atama nə olub?" Dedim: "Qorxma, Allaha şükür, yarası dərin deyil".

Nə baş verdiyini söylədim. Yavaş-yavaş atamın nəfəs almağı çətinləşdi. Onu tez xəstəxanaya aparmalı idik. Təskinlik üçün Şahnaza demişdim ki, yarası dərin deyil, amma tənəffüsündən bilirdim ki, qəlpə ağciyərinə xəsarət yetirib və onu tez bir zamanda çıxarmaq lazımdır.

Atamı başqa iki yaralı ilə birgə təcili yardım maşınına qoyub özümüz də mindik. Yer dar olsa da, başqa yolumuz yox idi. Yolda atam tez-tez deyirdi: "Qızım, nəfəsim daralır, nəfəs ala bilmirəm". Ona deyirdim: "Ata, ağzını aç, çalış yavaş-yavaş nəfəs alasan, indicə çatırıq".

Sürücü ayağını qazdan götürmürdü. Qırxmetrlik prospekt yerinə çayın kənarı, yəni İmam Xomeyni prospekti ilə getdik. İraqlılar qırxmetrlik prospekti tutmuşdular. Şahnaz xəstəxanaya qədər atamın əlini tutub öpür, dayanmadan ağlayırdı. O həm çox həssas idi, həm də qan görəndə halı pis olurdu.

Hər üç xəstəni Taliqani xəstəxanasına apardıq. Xəstəxanada qiyamət idi. Yaralıların sayı o qədər çox idi ki, işçilər tələsirdilər. İraqlılar səhərdən güclü hücuma keçmişdilər. Atamı dərhal əməliyyat otağına apardılar. Bir saatdan sonra əməliyyatdan çıxdı, amma hələ rəngi özünə gəlməmişdi, üzü qaralmışdı. Sonra onu palataya aparıb əlini gipsə saldılar.

Bilirdim ki, ağciyərinə güllə və ya qəlpə dəyən adama əməliyyatdan sonra sinə borusu qoyurlar. Bu, bir şlanqdan ibarətdir, bir başını qabırğaların arasından ağciyərə salırlar ki, içəridəki qanı bayıra çıxarsın. Əvvəllər yaralılarda bunu görmüşdüm. Atamda isə belə bir şey yox idi. Onu əməliyyat otağından çıxaran tibb bacısına dedim:

– Bəs nə üçün sinə borusu yoxdur?

– Ona ehtiyac yoxdur.

– Ehtiyac yoxdur?! Bəs nə üçün əməliyyat otağına aparmışdız?

– Bel və əl nahiyələrindəki qəlpəni çıxarmaq üçün.

– Yəni ağciyərində də qəlpə olduğunu bilmədiz? Kürəyində bu qədər qanı görmədiz? Belindəki qəlpəni çıxardız, amma bir qarış yuxarıdakını görmədiz? Axı belə şey olar?!

Tibb bacısı təəccüblənib atamın köynəyini qaldırdı. Yarası o qədər çox idi ki, əməliyyat zamanı paltarlarını çıxarmağa vaxt tapmırdılar. Onun çiyinlərinin ortasından da yaralandığını görüb dedi: "Biz elə bildik ki, belinin qanıdır". Dedim: "Atam boğulur, sizsə deyirsiz ki, elə bildik!"

Səsimi ucaltmışdım. Əlimdə deyildi. Onu yenidən əməliyyat otağına qaytardılar. Xəstəxana o qədər izdihamlı idi, əməliyyat otağı o qədər tez-tez dolub-boşalırdı ki, o qarışıqlıqda heç kim atamın ağciyərində qəlpə olduğunu bilməmişdi.

Təxminən bir saatdan sonra atamı gətirdilər. Allaha şükür, ümumi vəziyyəti yaxşı idi, rəngi də açılmışdı. Şahnaza dedim: "Sən atanın yanında qal, mən tibb mərkəzinə baş çəkim, qayıdıram".

Dedi: "Yaxşı, mən burdayam, arxayın get".

Tibb mərkəzinə günorta çatdım. Güllələr havada uçuşur, qırmızı arılar kimi vızıldayaraq yan-yörəmizdən keçirdi. Uşaqlar atamı soruşdular. Xəstəxanada baş verənləri danışıb dedim ki, şükür Allaha, hələlik yaxşıdır.

Bir qədər sonra təcili yardım maşınının uzun siqnalı gəldi. Onun ardınca da bir nəfər qışqırdı ki, qaçın, yaralımız var. Yazıq dayanmadan qışqırıb kömək istəyirdi. Deyirdi ki, yaralının vəziyyəti çox ağırdır, tələsməsəz, şəhid olacaq. Tez bayıra qaçdıq. Təcili yardım maşınının arxa qapısı yox idi. Yaralıya baxdım. Qəlpələr sinəsindən dizinə qədər bədənini əzmişdi. Bütün sinəsi, qarnı və budları parça-parça olub normal

haldan çıxmışdı, onları bir-birindən ayırd etmək olmurdu. Vəziyyəti çox ağır idi, amma hələ yaşayırdı. Bir an da gözləyə bilməzdik. Musəvi həmin maşında tibb mərkəzinə gəlmişdi. Yaralını maşından çıxarmaq istəyəndə kimsə dilləndi: "Burda ona bir iş görə bilmərik, gərək xəstəxanaya getsin".

Musəvi hələ maşında oturmuşdu, yerə enmirdi. Ona yaxınlaşıb pəncərədən dedim: "Sən də gedirsən?"

Gördüm ki, cavab vermir. Özümdən asılı olmadan əlimi qapının dəstəyinə aparıb açdım. Birdən ölü kimi qəfildən üstümə elə düşdü ki, tez bir əlimlə örpəyimdən yapışdım. Bilmirəm nə üçün belə oldu. Mən təcili yardım maşınına yaxınlaşanda, hətta ondan öncə tibb mərkəzindən çıxanda Musəvini görmüşdüm. Çox adi şəkildə maşında oturub önünə baxırdı.

Sürücü Musəvinin üstümə düşdüyünü görüb tez qaçdı, onu tutub yerə uzatdı. Örpəyimin düyününü bərkidib üzünə yaxınlaşdım. Fikirləşdim ki, bəlkə aclıqdan, yuxusuzluqdan və ya güclü stresdən özündən gedib. Dedim: "Nə olub, Musəvi? Nə üçün birdən-birə belə oldun? Məni eşidirsən?"

Musəvi heç bir söz demədən dörd-beş dəfə tez-tez gözlərini qırpdı, üzünün rəngi göyərdi, başı sağ tərəfə əyildi. Onu başdan-ayağa süzdüm. Güllə və ya qəlpədən əsər-əlamət görmürdüm. Paltarları da heç yerdən cırılmamışdı.

Doktor Səadət sürücüyə dedi: “Yaralıların vəziyyəti çox ağırdır. Gərək xəstəxanaya aparasan. Burda onlara bir iş görə bilmərik”.

Sürücü dərhal yola düşdü. Doktor Səadət Musəviyə yaxınlaşıb həyat əlamətlərini yoxladı.

Fikirləşirdim ki, yəqin yaralını o vəziyyətdə görüb şoka düşüb, ya da son bir neçə gündə sinir təzyiqi onu əldən salıb. Üzünün göyərtisi yavaş-yavaş açılıb saralmağa başladı. Yenidən nəbzini yoxladım. Normal deyildi. Tənəffüsü də çox aritm idi.

Gecikmək olmazdı. Bu zaman ərzaq maşını gəldi. Uşaqlara su və yemək verəndən sonra doktor Səadət sürücüyə və onunla gəlmiş döyüşçüyə dedi ki, Musəvini maşına qoymağa kömək etsinlər. Doktor Səadət tibb mərkəzində qaldı, mən Musəvi ilə getdim.

Bəhruz qəsəbəsində doğum evini keçəndən sonra maşından anormal səs çıxdı və birdən söndü. Sürücü yerə enib dedi: "Bədbəxtlikdən, benzinimiz qurtardı".

O qarışıqlıqda haradan benzin tapacaqdıq?! Musəvi əlimdə qalmışdı, gec tərpənsəydik, tənəffüsü daha da pisləşə bilərdi. Maşından enib yolun ortasında dayandım. Nə edəcəyimizi bilmirdik. Oradan hansısa maşının keçməsini gözləməli idik.

Təxminən beş-altı dəqiqədən sonra xurmalıqdan qırmızı bir mikroavtobus çıxıb bizə doğru gəlməyə başladı. Necə sevindiyimi bir Allah bilir! Mikroavtobus bizə yaxınlaşanda döyüşçü ilə sürücü yolu bağladılar. Mikroavtobus dayandı. Ona yaxınlaşıb ağır bir xəstə olduğunu, maşınımızda benzinin bitdiyini söylədilər. Sürücü yerə enib bizim maşınımıza yaxınlaşdı, Musəviyə baxdı, ona və bizə yazığı gəlirmiş kimi dedi: "Yaxşı, gətirin maşına, bir yerə qədər apararam".

Sürücümüzlə döyüşçü Musəvini qaldırıb mikroavtobusa qoydular. Mən də minib onun yanında oturdum. Üzündən gözümü çəkmirdim. Qorxurdum ki, bir anlıq nəfəsi gəlməz və süni tənəffüsə ehtiyacı olar. Üzünə baxdığım yerdə birdən yavaşca dodaqlarını tərpətməyə başladı. Sanki nəsə demək istəyirdi. Tez qulağımı ağzına yaxınlaşdırdım. Belə deyirdi: "Xu... xu... xu..."

Bundan sonra birdən gözünün qaraları yuxarı qalxdı və ağzından ağ köpük çıxdı. Çox qorxdum. Bütün vücudumu vahimə bürüdü. Özümü itirmişdim. Musəvi gözlərim önündə can verirdi. Tez əllərimin barmaqlarını bir-birinə keçirib sinəsinə qoydum, ürək masajı etməyə başladım. Döş qəfəsini ilk

sıxdığımda sol çiyninin altından nazik qan sızmağa başladı. Bildim ki, ürəyinə güllə dəyib.

Bir anlığa səsi başımda dolaşdı. Onda mənə həyat hekayəsini danışırdı. Məndən başqa heç kim bilmirdi ki, bu gənc Kərəcdə yaşayan bir ailənin yeganə oğludur və valideynlərinin ondan xəbəri yoxdur. Özümdən asılı olmadan sürücünün başına qışqırdım: "Cəld ol! Bu ölür!"

Musəvinin qəribliyi, kimsəsizliyi məni dəli edirdi. Səbəbini bilmirəm, amma özümü müqəssir sayırdım. İlk dəfə idi belə bir şəraitdə özümə nəzarət edə bilmir, ürəkdən ağlayırdım. Kaş valideynlərinin adlarını, ünvanlarını biləydim! Sürücü qaza basdı və çox tezliklə Taliqani xəstəxanasına çatdıq.

Xəstəxanada cəld Təcili yardım şöbəsinə qaçdım, qışqırıb yalvardım ki, ağır xəstə gətirmişik. Mənimlə birgə sürücü və döyüşçü də qışqırırdı. Göz yaşım dayanmırdı. Şöbəyə cavabdeh olan ağa Qurbani və bir neçə tibb bacısı xərəklə mikroavtobusa qaçıb tez onu içəri gətirdilər. Təcili yardım şöbəsində həkimə yalvarırdım ki, sən Allah, onu ölməyə qoymayın. Bu zaman həkim üzünü bir tibb bacısına tutub dedi: "Bu da isterik olub!"

Məni deyirdi. O vaxta qədər dəfələrlə xəstəxanaya ağır yaralı aparmışdım, amma heç birində belə dözümsüzlük etməmişdim. Bu sözdən əsla xoşum gəlmədi. Fikirləşirdim ki, isterik olan özünü xəstəliyə vurub diqqət cəlb etmək istəyir. Lakin Allah şahiddir ki, mən elə deyildim.

Doktor Qurbani fonendoskopun başcığını Musəvinin sinəsinə qoydu, bir neçə dəfə yerini dəyişdirdi, sonra başını qaldırıb məyus halda üzümə baxdı və dedi: "Tapşırıb".

Bunu deyən kimi iki əlimlə üzümü tutub ucadan ağlamağa başladım. Bir qədər sonra hıçqırtım başlandı. Ürəyim od tutub yanırdı. Nə etməli olduğumu bilmirdim. Bu müddətdə o qədər şəhid vermişdik, ancaq bu dəfə vəziyyətlə barışa bilmirdim.

Qurbani onun kimliyini öyrənməkdən ötrü ciblərini yoxladı. Bir neçə günəbaxan tumundan başqa heç nə yox idi. Dedi: "Onu tanıyırsan?" Dedim: "Çox da yox". Dedi: "Necə yəni? Adı nədir? Ailəsi hardadır?"

Musəvi barədə bildiklərimi qırıq-qırıq söylədim. Tibb bacılarına işarə verdi ki, onu aparsınlar. Nə qədər çalışırdımsa, sakitləşə bilmirdim. Tibb bacılarının biri məni qucaqlayıb başımdan öpdü və dedi: "Əzizim, narahat olma, sonda biz qalib gələcəyik. Əmin ol ki, bu gənclərin qanı hədər getməyəcək!"

Bir neçə dəqiqədən sonra sakitləşdim. Qurbani ilə sağollaşmağa gedəndə məni buraxmadı. Dedi ki, halın yaxşı deyil, gərək bir qədər qalıb yaxşılaşasan, sonra gedərsən.

Sürücü ilə döyüşçü qayıtdı, mən qaldım. Qurbani məni xəstəxananın yeməkxanasına aparıb dedi: "Bilmirəm neçə gündür düz-əməlli xörək yemirsən. Əvvəl naharını ye, sonra get".

Evdən qaçıb Xürrəmşəhrə gəlməsi barədə danışanda Musəvinin üzündə yaranan utancaq və məzlum görkəm gözlərim önündən getmirdi. Qurbani dedi: "Nə üçün bu qədər narahatsız? Siz bu xalqdan ötrü əlizdən gələni etmisiz. Bu bir neçə gündə nə qədər əziyyət çəkdiyizi, fədakarlıq etdiyizi özüm görmüşəm. Haçandır nə doyunca yatırsız, nə də bir tikə çörək yeyirsiz; nə gecəz var, nə gündüzüz! Daha bundan sonrası sizin borcuz deyil, hökumətin vəzifəsidir..."

Sanki mənə rövzə oxuyurdu. Yenidən ağlamağa başladım. Halbuki ondan öncə dostlardan kim belə ağlasaydı, ilk mən etiraz edib digərlərini ruhdan salmasına imkan vermirdim. İndi isə həqiqətən, əlimdə deyildi, özümlə bacara bilmirdim. Şəhər işğal ərəfəsində idi, çox əzab çəkirdim.

Radionun səsi gəlirdi. Diktor dedi ki, bu gün Xürrəmşəhr "Xuninşəhr", yəni qanlı şəhər oldu. Deyirdi ki, işğalçıların Xürrəmşəhrə hücumları artdığına görə müdafiəçi şəhidlərin

sayı da yüksəlib və Xürrəmşəhr qanlı şəhərə çevrilib. Xürrəmşəhrə belə bir ləqəb verildiyini eşidib çox hirsləndim. O qədər haray-həşir salmışdıq ki, şəhərin dadına çatın, amma heç kim eşitməmişdi, indi isə şəhərdən ötrü timsah kimi göz yaşları töküb matəm saxlayırdılar! Mənə çox ağır gəlirdi. Məgər biz onların mərhəmətinə möhtac idik?! Bu sözlər hansı dərdə dərman edirdi?!

Təxminən bir saatdan sonra bir qədər özümə gəldim. Qurbani çox israr etdi ki, xörəyimi yeyim, amma boğazımdan heç nə keçmədi. Günorta yeməyinə plovla qatıq vardı. Güclə bir-iki qaşıq qatıq yeyib sağollaşdım və tibb mərkəzinə qayıtdım.

Hələ yorğunluğumu çıxarmamış gənc bir oğlan içəri girib dedi: "Tez olun, kömək edin. Yaxınlıqda bir evi vurdular, içində ailə vardı".

Bilqeys, Keşvər və doktor Səadətlə birgə oğlanın ardınca qaçdıq. Tibb mərkəzindən bir neçə küçə yuxarıda, Fəxr-Razi prospektinin meydana yaxın hissəsində bir evə top mərmisi düşmüşdü, ev sakinləri uçqunun altında qalmışdılar. Şəhər boşaldılsa da, hələ tək-tük bəzi ailələr kimsəsizlikdən şəhərdən çıxmamışdılar. Evin yanında bir döyüşçü də qəlpə yarasından yerə yıxılmışdı. Doktor Səadətlə oğlan uçqunu kənara çəkib ev sakinlərini çıxarmağa başladılar.

Evə tamaşa etdiyim yerdə Xürrəmşəhr uşaqlarından yaxşı sürücülüyü ilə tanınan Müsəddiq furqonlu SUV avtomobili ilə gəldi. Arxasında qapı yox idi, içinə süngər döşək sərmişdilər. Gəlib yanımızda dayandı. Özü və yanındakı bir döyüşçü maşından enib evə kömək etməyə qaçdılar. Keşvər yaralı döyüşçüyə yaxınlaşdı. Mən evə getmək istəyəndə köməyə gəlmiş uşaqların biri uçqunun altından çıxardıqları kiçik bir uşağı qucağıma verib dedi: "Hamısı ölüb. Ailəsindən heç kim sağ qalmayıb".

Təxminən ikiyaşlı bir uşaq idi, partlayışın gücündən əynindəki bütün paltarları cırılmışdı. Bədəninə mərci dənələri boyda qəlpələr dəyib yandırmışdı, amma hələ yaşayırdı. Partlayış dalğasının təsirindən hərdən qışqırır, qucağımda əl-ayaq çalır, sonra birdən dayanıb üzümə baxırdı. Kök, qəşəng oğlan uşağı idi. Onu qucağımda möhkəm tutub maşına yaxınlaşdım, uşaqların digər ev sakinlərini çıxarmalarını gözlədim.

Uşaqla birgə furqonlu avtomobilin önündə oturdum. Yaralı döyüşçünü maşının arxasına qoydular. Keşvər də arxada oturdu. Maşın sürətlə yola düşdü. Qırxmetrlik prospektin əvvəlində Məhəmmədinin gül, sonra da Muradinin mebel mağazaları yerləşirdi. Hər ikisini vurmuşdular. Mebel mağazasından gələn yanmış taxta iyi hər yeri bürümüşdü.

Müsəddiq çala-çökək yollarla sürətlə sürürdü. Gül mağazasından bir qədər yuxarıda maşınımızı atəşə tutmağa başladılar. Uşağı qucağıma sıxıb başımı mümkün qədər aşağı əydim. Hər şeydən çox uşaq üçün qorxurdum. Müsəddiq bacardıqca sürətini artırdı. Maşının kuzovuna dəyən güllələrin səsi adamı vahiməyə salırdı. Güllələr qarşı və sol tərəflərdən yağdırılırdı. Onlar qırxmetrlik prospektin sol tərəfini ələ keçirmişdilər.

Maşının hərəkət sürəti çox yüksək idi. Qırxmetrlik prospektlə gedirdik. Bir anlığa geri çevriləndə gördüm ki, Keşvər ayaqlarını maşına sıxıb, iki əli ilə yaralı döyüşçünün uzandığı döşəkdən bərk tutub. Maşın hər dəfə sağa-sola dönəndə yaralı və cəsədlər maşının küncünə sürüşürdülər. Keşvər qışqırdı: "Sabah, gəl arxaya, mən bunları saxlaya bilmirəm. İndi maşından düşəcəklər".

Yazığın gücü çatmırdı. Mən də bilmirdim nə edim. Belə güclü hərəkət əsnasında arxaya keçə biləcəyimə əmin deyildim. Buna baxmayaraq, düşünmə zamanı deyildi. Uşağı ön oturacağa

qoyub dedim: "Mən geriyə dostumun yanına gedirəm. Uşağa fikir verərsən".

"Bismillah" deyib sürücünün arxasındakı oturacağa atıldım. Döşəyin bir hissəsi maşından bayıra çıxmışdı. Allahın köməyi ilə problem yaranmadan və güllə dəymədən Keşvərin yanında oturdum. Bir əlimlə döşəkdən bərk yapışdım, o biri əlimlə döyüşçünün paltarından tutdum, sonra da ayaqlarımı bərkitməyə çalışdım.

Xəstəxanaya çatınca çox həyəcan keçirdim. Uşağa görə narahat idim. Bilmirdim ki, ona dəymiş bu qədər qəlpə yağışından hansı dərin yara açıb, hansı yüngül. Müsəddiq bir əlini sükandan tutmuş, bir əli ilə də uşağı möhkəm saxlamışdı. Uşaqdan əlini çəksəydi, çuxurların birində atılıb, Allah bilir, hara düşərdi. Atəş səsi bir an da kəsilmirdi. Ürəyimdə dua edirdim ki, xəstəxanaya salamat çataq.

Döşəyin aşağı hissəsi maşından bayırda idi. Keşvərlə bir anlığa əlimizi boşaltsaydıq, döyüşçü ilə birgə yerə düşərdik.

Körpünün üstünə çatdıq. İraqlılar körpünü vurmuşdular. Müsəddiq ehtiyatla sürürdü ki, maşının təkəri dərin çuxurlara düşməsin. Allahın köməyi ilə körpüdən keçib xəstəxanaya çatdıq.

Yerə enib maşına baxanda gözlərimiz bərəldi. Bütün maşın aşsüzən kimi dəlik-deşik olmuşdu. Allahdan, heç birimizə güllə və qəlpə dəyməmişdi. Uşaqla döyüşçünü tibb bacısına təhvil verdik. Uşağı yuyundurmağa apardılar. Onu xəstəxanaya çatdıra bildiyimizə görə yaxşı hisslər keçirirdim.[1]

[1] Sonrakı illərdə o uşağın çox həsrətini çəkdim. Fikirləşirdim ki, nə üçün həmin gün onun yanına getmədim, başına nə gəldiyindən xəbərim olmadı. Bəlkə o uşaq mənə həmin günlərin yadigarı ola, qaçqınlığını mənimlə bölüşə bilərdi. Həmin uşağı saxlamaq arzusu hələ də ürəyimdə qalıb.

İkinci mərtəbəyə atamın yanına getdim. Şahnaz hələ yanında idi. Atamın vəziyyəti də yaxşılaşmışdı. Düzdür, hələ nəfəs darlığı vardı, ancaq ağciyərinə qəlpə girdiyinə görə təbii idi.

Axşamüstü Xürrəmşəhrə qayıtmaq qərarına gəldim. Həmin gün tibb mərkəzini boşaltmağı gözləsək də, hələ tibbi yardım işi davam edirdi. Şahnaz mənimlə gəldi, Keşvər xəstəxanada qaldı.

Axşama yaxın piyada Xürrəmşəhrə yola düşdük. Hava limanı meydanına qədər getdik. Meydanın yaxınlığında saçını at quyruğu kimi yığmış hicabsız gənc bir qız citroën dyane maşınını yanımızda saxlayıb soruşdu:

– Hara gedirsiz?

– Bəhruz qəsəbəsinə.

– Minin. Mən Abadana gedirəm, əvvəl sizi apararam.

Ön oturacaq siqaretlə dolu idi. Biz arxada oturduq. Ona dedim: "Bu qədər siqareti hara aparırsan?" Dedi: "Abadana, döyüşçü yoldaşlarıma".

Məqsədi solçular, yəni kommunistlər idi, o vaxt bir-birini "yoldaş" çağırırdılar. Ona dedim: "Düşünmürsən ki, işin çox da yaxşı deyil?! Döyüşçülərə başqa yolla da kömək edə bilərsən". Dedi: "Yox, təsadüfən, çox düzgün iş görürəm. Onlar vuruşurlar, əsəbləri korlanıb. Bu siqaretlər onlara çox kömək edəcək!"

Bəhruz qəsəbəsində maşından endik. Daha bir maşın tapıb Xürrəmşəhrə yola düşənə qədər qızın qəribə işləri barədə danışdıq.

Körpüyə çatmamış tibb mərkəzinin bəzi uşaqlarının təcili yardım maşınında şəhərdən çıxdıqlarını gördük. Bilqeys maşının şüşəsiz pəncərəsindən əli ilə bizə işarə verirdi ki, qayıdın. Onun işarələrinə məhəl qoymadan Şahnazla birgə came məscidinə tərəf getdik.

Orada döyüşçülərdən eşitdik ki, Şeyx Şərif Qünuti günorta bəzi döyüşçüləri ilə birgə qırxmetrlik prospektdə əsir düşüb.

Dərin ah çəkdik. Şeyx Şərifi itirmək kiçik məsələ deyildi. O, həmişə ruhani geyimində olurdu. Qorxurdum ki, iraqlılar onu çox təhqir edərlər. Ürəyimdə dua edirdim ki, çox əziyyət çəkməsin.

Uşaqlar tibb mərkəzini boşaldıb şəhərdən çıxandan az sonra bir top mərmisi düz mərkəzin üstünə düşüb onu tamam çökdürmüşdü. Mərmi bir neçə dəqiqə tez düşsəydi, Allah bilir, uşaqların neçəsi şəhid olardı. Hava qaraldıqca vıyıldaya-vıyıldaya oyan-buyana gedən güllələrin qızartısı daha aydın görünürdü.

Ala-toranlıqda məscidin həyətində dayanmışdıq. Əsla yaxşı deyildim. Nəfəs almağa çətinlik çəkirdim. Bu müddətdə heç vaxt bugünkü kimi darıxmamışdım. Ağır bir günün qürubu gəlmişdi. Məsciddə Şahnazla məndən başqa qız yox idi. Tibb mərkəzi də boş idi. Şəhərin bütün divarlarından qürbət və ayrılıq qoxusu gəlirdi. Hər şey ölüm yuxusuna getmişdi. Ürəyimin partlamaq üzrə olduğunu hiss edirdim. Bilirdim ki, şəhərdə bundan artıq qala bilmərik.

Hara gedəydim?! Şəhərim burada idi... Evim burada idi... Xatirələrim burada idi... Mən bu fikirdə ikən məscidin qapısının yaxınlığına bir raket düşdü, bütün həyət titrədi. Məsciddə qalmaq fikri də beynimdən çıxdı. Bundan başqa, məscid artıq kişilərə məxsus olmuşdu, iki qızın o qədər döyüşçü arasında qalması əsla düzgün deyildi. Şahnaz aciz halda dedi: "Sabah, gedək, daha burda qalmağımızın mənası yoxdur".

Dedim: "Doğru deyirsən. İndi bizə güllə dəysə, bu yazıqları da işlərindən edəcəyik".

Məsciddən bayıra çıxdıq. Döyüşçülərimizin nəzarətində olan İnqilab prospekti ilə çaya doğru yola düşdük. İmam Xomeyni prospektinə, Abadana gedən maşınlara çatdıq. Şahnaz mətbəx uşaqlarının yanına getmək, mən də tibb mərkəzinin uşaqlarına

çatmaq istəyirdim, amma onların haraya yerləşdiklərini bilmirdik.

Xürrəmşəhrin qürubu həmişə darıxdırıcı olsa da, bugünkü qürub olduqca cansıxıcı idi. Qırmızı günəş şüası çayın üzərinə elə yayılmışdı ki, sanki bütün çaya su yerinə qan dolmuşdu. Sanki gördüyüm bütün şəhidlərin qanı toplaşıb Xürrəmşəhrin tənhalığını və qəribliyini bizə göstərirdi. Bu kədərli qürub barədə hisslərimi Şahnaza söyləmədim, amma uzun sükutundan bəlli idi ki, o da bu qanlı qürub haqda düşünür. Sıxıntıdan sinəm sancırdı. Yalnız Allah bilir ki, o anlarda ürəyimdə nə tufan vardı və necə həyəcan keçirirdim. Şahnazın üzünə baxmağa cəsarət etmirdim. Düşünürdüm ki, göz-gözə gəlsək, çox kövrələcək, bir-birimizə qoşulub zar-zar ağlayacağıq. Hələ ürəyimizdə azca ümid işığı qalmışdı. Ağlayaraq onu da söndürmək istəmirdim.

Taliqani xəstəxanasına gedib döyüşçülərdən uşaqların yerini soruşduq. Bildik ki, mətbəx uşaqları şəhərin Elektrik Şəbəkəsinin binasına yerləşmişlər. Tibb mərkəzinin uşaqlarını da soruşdum, amma heç kimin xəbəri yox idi.

Gecə vaxtı Şahnazla birgə Elektrik Şəbəkəsinə getdik. Ora Abadan-Xürrəmşəhr magistralında yerləşirdi, Abadana daha yaxın idi. Enerji Təchizatı İdarəsi və digər müvafiq ofislər də orada yerləşirdi, böyük bir həyətlə bir-birindən ayrılırdı. Binanın zirzəmisində yerləşmiş mətbəx uşaqları Şahnazla məni görüb çox sevindilər. Şahnazın onları tapacağını, onların yanına qayıdacağını düşünmürdülər.

Məğlub olmuş ordu əsgərləri kimi hərə bir tərəfə çəkildi. Heç kəsdə hövsələ qalmamışdı. Hamımız əmin idik ki, şəhərimiz bugün-sabah işğal olunacaq. Vəsfəgəlməz bir halda idik. Sanki diri-diri ətimizi kəsirdilər. Heç vaxt düşünməzdim ki, torpaq bu qədər əziz ola bilərmiş. Torpaq hər şeydən əziz idi: atadan, anadan, bacıdan, qardaşdan... Və bu əzizimiz can üstə idi.

Zirzəminin acı sükutu və qərib qaranlığı arasında Mahmud Fərruxinin şəhid olduğunu eşitdim. Bu xəbəri kimin verdiyi yadımda deyil, ancaq onu bilirəm ki, bir anlığa əl-ayaqlarımda taqət qalmadı. Çox ağır və nəhs gün idi bu gün! Oktyabrın 16-sı müharibədən keçən bütün günlər qədər uzanmış, ağırlaşmışdı. Mahmud Fərruxidən başqa, çoxlu uşaqlar da şəhid olmuşdu.

Qürbət qəmi ürəklərimizə ağırlıq edirdi. Hamının səsi kövrək idi. Daha ağlamamağın, ruh yüksəkliyimizi qoruyub digərlərini məyus etməməyin mənası yox idi. Uşaqlar bir-bir şəhid olur, şəhər addım-addım işğal edilirdi. Uşaqların biri dedi: "Artıq ikinci gecədir ki, şəhərimizdə deyiləm".

Öz halımda idim, ətrafıma fikir vermirdim, amma yavaş-yavaş uşaqların ağlamaq səsi gəlirdi. Səhərə qədər bu vəziyyətdə olduq, gözümüzə yuxu getmədi.

Sübh namazından sonra havanın işıqlanmasını gözlədim, sonra Şahnazla birgə uşaqlarla sağollaşıb xəstəxanaya getdik. Orada tibb mərkəzinin uşaqlarının yerini öyrənməyə ümid bəsləyirdim; ya özləri yaralılara baş çəkməyə gələcəkdilər, ya da Əbuzər qrupunun uşaqlarından yerlərini öyrənəcəkdim.

Elə də oldu. Taliqani xəstəxanasında Əbuzər qrupunun uşaqlarından bir neçəsini gördüm. Uşaqlarımızı soruşanda dedilər ki, Abadanın Karvansara otelinə yerləşiblər. Çox sevinib dərhal xəstəxanadan çıxdım.

Karvansara oteli inqilabdan bir-iki il öncə tikilmişdi, şahın qardaşı Qulamrzanın idi. Abadanın Xürrəmşəhr səmtindən girişində tikilmiş gözəl və böyük otel idi. İçəri girdik. Bir neçə metr irəlidə sol tərəfdə keşikçi otağı vardı. İçərisində iki nəfər oturmuşdu. Bayıra çıxıb soruşdular ki, kiminlə işiniz var?

Dedim: "Biz Xürrəmşəhrin təcili yardımçılarındanıq. Qrupumuz əvvəlcə came məscidində fəaliyyət göstərirdi, indi isə deyəsən, bura köçüblər. Onların yanına getmək istəyirik".

Adlarımızı soruşdu, sonra bir dəftər çıxarıb dedi: "Buranı imzalayıb gedə bilərsiz".

Dəftəri imzalayıb içəri girdik. Keşikçi otağından bir qədər irəlidə otelin həyətində böyük və gözəl bir yumurtavarı hovuz vardı. İçində su yox idi. Allah bilirdi ki, su görməyə necə darıxmışdıq; çirkli əllərimizi yumağa təmiz su! Otelin firuzə rəngli hovuzuna baxdığımız yerdə Bilqeys yaxınlaşıb bizi qucaqladı.

Otelin əsas binasına girdik. Foyenin sol tərəfində bağlı bir zal vardı. Uşaqlar ora yerləşmişdilər. İçəri girdim. Keşvər, Əşrəf, Əkbəri və Mehrəngiz orada idilər. Bir-birimizi sağ-salamat gördüyümüzə görə çox sevinirdik. Uşaqlar bir-bir yaxınlaşıb bizi qucaqladılar. Dünəndən bəri güllə və ya qəlpə yarası almadığımıza inana bilmirdilər. Dediklərinə görə, korpus uşaqları dünən çox şəhid vermişdilər. Belə ki şəhər korpusunun əsas heyəti sıradan çıxmışdı. Uşaqları tapdığıma görə yenidən təcili yardım işimizi davam etdirə bilərdik.

Karvansara oteli Tehrandan gəlmiş İslam fədailəri adlı bir təşkilatın ixtiyarına verilmişdi. Rəhbərləri Seyid Müctəba Haşimi adlı ucaboy, enlikürək kişi idi, Xürrəmşəhrdə gördüyüm xüsusi təyinatlılara bənzəyirdi. Tehran ləhcəsi ilə danışırdı, söz və hərəkətlərindən kriminal avtoritetlərə bənzəyirdi. Sandıqçı adlı bir müavini vardı. Haşiminin yaşı 40-dan bir qədər artıq olardı, uzun saçı və saqqalı vardı. Partizanlar kimi gödəkcə və altıcibli şalvar geyinir, başına yaşıl əyri komandos papağı qoyurdu. Əvvəl görəndə elə bildim ki, rəsmi hərbçilərdəndir, amma uşaqlar dedilər ki, könüllüdür. Biz foyenin sol tərəfinə yerləşmişdik, Haşiminin ofisi də sağ tərəfdə idi.

Həmin gün axşamüstü Şahnazla Taliqani xəstəxanasına atamı görməyə getdik. Tibb bacıları dedilər ki, onu OPD xəstəxanasına aparıblar. Oraya yollandıq. Orada Rza Albuğəbişi gördük. O, xürrəmşəhrli uşaqlar arasında tanınmış adam idi, müharibənin

ilk günlərindən məscidə gəlib-gedirdi. Şeyx Şərif Xürrəmşəhrə gələndən sonra onun sürücüsü və daimi yoldaşı olmuşdu. Dünən yaralandığını eşitmişdim, sağ olduğuna görə sevindim. Onu başdan-ayağa sarımışdılar, amma danışa bilirdi. Başlarına gələnləri soruşdum. Dedi ki, iki-üç maşınla birgə İcra hakimiyyətindən qırxmetrlik prospektə tərəf gedəndə vurulmuşdular.

O deyirdi: "İraqlılar aramızda əmmaməli bir ruhani olduğunu biləndə sanki dünyanı onlara verdilər. Sevindiklərindən oynamağa başladılar. Deyirdilər ki, Xomeyni tutmuşuq. Şeyx Şərif əvvəlcə kəlmeyi-şəhadətini oxudu, sonra onlara dedi ki, biz hamımız müsəlmanıq, bizi bir-birimizə vuruşduran kafir Səddamdır. Onlar da vəhşi kimi şeyxin canına düşüb onu döyməyə və təhqir etməyə başladılar. Arıq bədənini o ki var döyəndən sonra silaha keçdilər. Əvvəlcə ayaqlarından vurdular, sonra yavaş-yavaş yuxarı qalxdılar. Şeyx Şərif güllələnən zaman "Allahu-əkbər" və "La ilahə illəllah" deyirdi. Onu təxminən on nəfər mühasirəyə almışdı; bəzisi vurur, bəzisi də ətrafında rəqs edirdi. İraqlıların biri süngü ilə şeyxin əmmaməsini yerə saldı. Hamısı qışqırırdı: "Xomeynini əsir tutmuşuq!" Şeyx o vəziyyətdə qırıq-qırıq sözlərlə ərəbcə onlara deyirdi: "Xomeyni dövrün Hüseynidir, Səddam da dövrün Yezidi. Yezidin bayrağı altından çıxıb, İmam Hüseynin bayrağı altına girin!"

Komandirləri Şeyx Şərifi sakit edə bilmədiklərini görüb hirsləndi, süngüsünü gicgahına batırıb başında fırlatmağa başladı. Şeyx onda "İnna lillah və inna iləyhi raciun" və "Allahu-əkbər" qışqırdı. Vəhşi komandir şeyxin kəlləsini qaşlarının üstündən kəsib yerə atdı. Şeyxin beyni göründü. Onu dövrəyə almış iraqlılar başının üstünü götürüb bir-birinə verir, rəqs edə-edə deyirdilər: "Xomeynini öldürdük".

Onu yerdə sürüyəndən, təpikləyəndən sonra əmmaməsini boğazına doladılar və bir binanın ikinci mərtəbəsindən asdılar.[1]

Rza Albuğəbiş daha davam edə bilmədi. O danışanda hamımız bərkdən ağlayırdıq. Onu bu şəkildə təhqir etdiklərinə, öldürdüklərinə inana bilmirdim. Ürəyim od tutub yanır, bərk döyünürdü. Bu ruhani şəhid necə ağır anlar yaşamışdı!

Müsəddiq də yavaşca ağlayırdı. Dünən o da onlarla birgə yaralanmışdı və xəstəxanada yatırdı. Şeyx Şərifin üzü və mavi qəbadakı görkəmi gözlərim önündən getmirdi.

Əbdülrza Albuğəbiş, Müsəddiq, Müjgan Onbaşı və digər sürücü, yaralı və tibb işçiləri axşam saat doqquza qədər yaralı və yarımhuşlu vəziyyətdə yerdə qalmışdılar. İraqlılar onların öldüklərini düşünüb getmişdilər. Döyüşçülərimiz qüvvələrini toplayıb saat doqquza yaxın həmin ərazini geri almış, onları xəstəxanaya gətirmişdilər.

Tibb bacıları onun yanında bundan artıq qalmamıza icazə vermədilər. Deyirdilər ki, istirahətə ehtiyacı var. Onunla sağollaşıb xəstəxanadan çıxdıq.

Otelin zirzəmisində yerləşən anbarda qara, boz və digər rənglərdə bir neçə top parça vardı. Paltarlarım çox pis vəziyyətdə idi. Son günlərdə bir dəst paltarla o qədər ora-bura qaçmışdım ki, qan və torpaq canına hopmuş, sanki çürümüşdü. Abadan bazarından paltar almağa da pulum yox idi. Qərara gəldim ki, həmin parçalardan bir neçə metr kəsib özümə manto tikim. Orada iynə, sap, qayçı və digər tikiş alətləri də vardı. Qayçını götürüb boz parçadan iki metrə yaxın kəsdim, Şahnazın köməyi ilə əllə özümə uzun enli bir manto tikdim. Məhdud imkanlara görə yaxşı bir şey çıxdı. O şəraitdə çox işimə yaradı.

---

[1] Şeyx Şərifin şəhadəti barədə geniş məlumat Rza Albuğəbişin xatirələrindən ibarət "Şeyx Şərif; Höccətülislam Məhəmmədhüseyn Şərif Qünutinin həyat və mübarizəsinə bir baxış" kitabında ətraflı məlumat verilmişdir.

Oktyabrın 19-da mətbəx uşaqlarını da Karvansara otelinə gətirdilər. Elektrik şəbəkəsi də təhlükəli yer olmuşdu. Uşaqlar deyirdilər ki, bizdən bir neçə saat sonra binanın yaxınlığına raket düşmüş və İsa yerindəcə şəhid olmuşdu.

Bir dəfə otelin həyətində uşaqlarla oturduğumuz yerdə birdən keşikçi otağı tərəfdən səs-küy gəldi, bir neçə nəfər qəfildən dalaşmağa başladı. Nə baş verdiyini bilmək üçün ora yaxınlaşdıq. Dediklərinə görə, Haşiminin döyüşçülərindən biri otelə girmək istəyən xürrəmşəhrli döyüşçüdən hara getdiyini, kiminlə işi olduğunu soruşmuş, o da birdən-birə özündən çıxıb deyibmiş ki, bura bizim evimizdir, siz min kilometr o tərəfdən gəlib şəhərimizdə bizi yoxlayırsız. Xürrəmşəhrli uşaqlar çox həssas və tezinciyən olmuşdular. Sanki nə qədər səbir və hövsələmiz vardısa, hamısını işlədib bitirmişdik, dözümlülük əmsalımız çox azalmışdı.

Bizi görən kimi utanıb dayandılar. Seyid Haşimiyə yaxınlaşıb dedim: "Qardaş, biz hər şeyimizi, hər kəsimizi itirmişik. Nə evimiz qalıb, nə ailəmiz. Şəhərimizdən də bir şey qalmayıb. Siz Allah, uşaqlara deyin, xürrəmşəhrli uşaqları bir qədər nəzərə alsınlar. Bu yazıqların əsəbləri yerində deyil. Gedib-gələrkən onların hər şeyə diqqət yetirmələrini gözləmək olmaz. Yazıqların heç biri normal durumda deyil".

Haşimi təsdiq əlaməti olaraq başını yelləyib dedi: "Tapşıracam, bundan sonra xürrəmşəhrli uşaqları nəzərə alsınlar".

Haşimi bir söz demədən, yerlimizə ağır söz demiş gənc az sonra gedib onun üzündən öpdü və dedi: "Qardaş, düzdür ki, yaşımız azdır, amma böyük-kiçik nə olduğunu anlayırıq. Mən səndən üzr istəyirəm".

Sonra bir salavatla hamı dağılışdı.

Mətbəx uşaqları otelin həyətinin bir hissəsini mətbəxə çevirdilər. Oteldə su tankeri vardı, ərzaq baxımından da hər şey

yerində idi, anbarda düyü və dənli bitkilərdən tutmuş pomidor pastasına, ətə qədər hər şey tapılırdı.

Oktyabrın 19-da axşamüstü yenə xəstəxanaya getdim. Dünən getmiş olsam da, həyəcanlı idim. Yenə Rza Albuğəbişə və digərlərinə baş çəkdim. Onlarla bir neçə dəqiqə hal-əhval tutandan sonra xəstəxanadan çıxdım. Qapının ağzında Şər Zəhranı gördüm. Dedi ki, hara gedirsən? Dedim ki, Karvansara otelinə gedirəm, uşaqlarımız oradadırlar. Dedi ki, mən də gələ bilərəm? Dedim ki, gedək.

İkimiz otelə doğru yola düşdük. Yolun əvvəlində yanımızda bir maşın dayandı. İçində bir neçə xüsusi təyinatlı vardı. Onların biri soruşdu: "Bacılar, hara gedirsiz?"

Bu müddətdə Xürrəmşəhrdə oyan-buyana çox getdiyimizə görə əksər hərbçilər bizi tanıyırdılar. Bəlkə həmin tanışlığa görə saxlayıb soruşurdular. Karvansara otelinə uşaqlarımızın yanına getdiyimizi söyləmək istəyirdim, ancaq Zəhra məndən qabaq dilləndi: "Xürrəmşəhrə gedirik".

Xüsusi təyinatlıların biri dedi: "Biz də ora gedirik. İstəsəniz, bizimlə gedə bilərsiz".

Maşınlarına mindik. Çox həyəcanlı idim. Bu tezliyə yenidən Xürrəmşəhrə qayıdacağımı düşünməzdim. Ora nə üçün getdiyimi, çatandan sonra nə edəcəyimi bilmirdim, ancaq ürəyim istəyirdi ki, Xürrəmşəhr torpağına bir də ayağım dəysin. Yanımda ailə üzvlərimizdən heç kim olmasa da, orada qəriblik hiss etmirdim.

Körpüdən keçib İmam Xomeyni prospektinə girdik, came məscidinin qabağında dayandıq. Maşından enəndə tapşırdılar ki, məsciddən uzaqlaşmayaq. Ordu hərbçiləri məscidlə üzbəüz olan Fəxr-Razi prospektindəki səngərlərində döyüş vəziyyətində uzanmışdılar.

Məscidə girdik. Həyətdə oturmuş əsgərlər ayağa qalxıb bizə yaxınlaşdılar. Biri bizi görməyinə çox sevinirdi. Dedi: "Bacılar, siz hələ şəhərdəsiz?! Allaha şükür!"

Belə başa düşdüm ki, bizim orada olduğumuza görə şəhərin hələ ayaqda olduğunu, təslim olmayacağını düşünürdü.

Məscid təxminən boşalmışdı. Orada elə həmin bir neçə döyüşçü vardı. Məscidin qapı və divarlarından qəriblik yağırdı. Bir neçə gün öncəyə qədər orada necə qələbəlik vardı, indi isə necə sakit və qərib idi! Daxilimdən gələn bir səs deyirdi ki, Sabah, məscidlə vidalaş, bu, son görüşdür, bura bir də nə vaxt gələcəyin bəlli deyil. Bir qədər həyətdə dayanıb məscidə tamaşa etdik.

Məscidin qapısının yanında Mayor Şərifnəsəbi gördük. İçəri girirdi. Hələ düz-əməlli salamımızı almamış acıqla və təəccüblə soruşdu: "Siz burda nə edirsiz?"

– Baş çəkməyə gəldik. Dedik ki, bəlkə əlimizdən bir iş gələr.

– Yox, əsla burda qalmaq olmaz. Sizin görəcəyiniz bir iş də yoxdur. Burda vəziyyət çox təhlükəlidir. Tez şəhərdən çıxın. İndiyədək necə qalmısız?! Bütün bacılar gediblər.

– Biz də getmişdik, yenidən qayıtdıq.

– Şəhərə necə gəldiz?

– Xüsusi təyinatlılar Abadandan gəlirdilər. Bizi də aparmalarını xahiş etdik.

– Qəribə adamlardır! Nə qədər ki özünüzün və bizim başımıza bir iş açmamısız, tez qayıdın!

Məscidlə vidalaşıb Xürrəmşəhrdən çıxanda ürəyimdə Sədinin bir beytini oxuyurdum. Bunu bacılarımla və atamla şeir deyişməsində əzbərləmişdim:

“Can bədəndən gedəndə hər cür söz deyərlər,

Mən öz gözlərimlə gördüm ki, canım gedir!”

Həqiqətən, ruhumun bədənimdən çıxdığını hiss edirdim. Ömrümdə yeganə zaman idi bütün vücudumla arzulayırdım ki,

kaş oğlan doğulaydım. Oğlan olsaydım, heç kim məni şəhərdən çıxara bilməzdi və mən son nəfəsimə, son damla qanıma qədər onu qoruyardım.

Məscidin qabağında bir vanet yük maşını vardı, döyüşçülərə yemək gətirmək üçün şəhərdən çıxmağa hazırlaşırdı. Ürəyimiz istəməsə də, Zəhra ilə birgə mindik. Məddah olduğuna görə Xürrəmşəhrdə tanınmış adamlardan olan Hacı Fəxrinin oğlu Hüseyn Fəxri də arxada oturmuşdu. Uşaqlardan eşitmişdim ki, çox yanıqlı növhə oxuyur. Maşın hərəkət edəndən sonra Zəhra ona dedi: "Qardaş, bir az bizim üçün oxu, ürəyimiz çox sıxılır".

Hüseyn Fəxri utancaq oğlan idi. Üzü qızardı, başını aşağı salıb mızıldaya-mızıldaya dedi: "Axı burda necə oxuyum?!"

Zavallı bizdən utanırdı. Zəhra israr edib dedi: "Sən Allah, oxu. Şəhərimizdən çıxırıq. Ürəyimiz çox sıxılır. Doyunca ağlamaq istəyirik. Bizim üçün bir qədər oxu".

Vanetin arxasında məndən və Şər Zəhradan başqa iki-üç döyüşçü də vardı. Onlar da Zəhranın belə xahiş etdiyini görüb dedilər ki, oxusun. Hüseyn Fəxri Aşura günortasının rövzəsini - İmam Hüseyn (ə) rövzəsini oxudu. Ağzını açan kimi Zəhra ilə ağlamağa başladıq. Bütün üzümdən yaş axırdı. İxtiyarım əlimdə deyildi, daxildən parçalanırdım. Nə yaxşı ki, Zəhra ondan oxumasını istəmişdi!

Hüseyn Fəxri Hava limanı meydanının yaxınlığında rövzəsini bitirdi. Onlarla sağollaşıb maşından endik. Orada yenə üzümü Xürrəmşəhrə çevirib bir qədər baxdım. Arzu və həsrət dolu baxış idi. Ürəkdən arzu edirdim ki, bütün bu hadisələr bir yuxu olaydı!

Hava qaralana yaxın otelə çatdıq. Xürrəmşəhrə getdiyimi uşaqlara söylədim. Hamısı deyirdi ki, xoş halına! Sonra şəhərin vəziyyətini soruşdular. Dedim ki, şəhər hələ işğal olunmayıb, amma qalacağına ümid də yoxdur. Gecəni Xürrəmşəhrin xəyalı və onda keçirdiyim anların xatirəsi ilə yatdım. Yeniyetməlik və

məktəb xatirələri bir-bir gözlərim önündən keçirdi. Xürrəmşəhri Allaha tapşırdım.

# On ikinci fəsil:

## *Xürrəmşəhrin işğalı*

Tibbi yardım qrupumuz fəaliyyətsiz qalmışdı. Bir neçə gün idi doktor Səadətdən xəbərimiz yox idi. Elə bilirdik ki, uşaqlarla birgə Xürrəmşəhrdən çıxıb, amma çıxmamışdı və heç kimin ondan xəbəri yox idi. Mənəvi baxımdan hamımız məhv olmuşduq. Xürrəmşəhrdə olanda iş və fəaliyyətlərimiz bəlli idi, bütün dəqiqələrimiz şəhərimizi qorumağa, yaralılara təcili tibbi yardım göstərməyə sərf olunurdu. Abadanda isə məqsədsiz qalmışdıq, qəriblik və didərginlik hissindən boğulurduq. Özümüzə gəlmək, ayağa qalxıb işləmək üçün zamana ehtiyacımız vardı. Buna görə bir neçə gün məqsədsiz şəkildə oteldə qaldıq. Lakin heç bir halda bölgədən çıxmaq istəmirdik.

Hərdən otelə gələn "Allahu-əkbər" və Əbuzər qrupunun uşaqlarından eşitmişdik ki, iraqlılar oktyabrın 21-də Abadanın 2 km-liyinə qədər gəlmişdilər. Uşaqlar Kutşeyx səmtində, körpünün altında mövqe seçib onların Abadana girmələrinə mane olurdular. Dediklərinə görə, oktyabrın 21 və 22-də qırxmetrlik prospektdə hələ əlbəyaxa döyüşlər davam edirdi.

Oktyabrın 23 və 24-də iraqlılar İcra hakimiyyətinin binasını tutdular. Bu bina Xürrəmşəhr körpüsünə baxırdı. Onlar dama

üç pulemyot yerləşdirib körpünün üstündən keçən hər bir şeyi vurmağa başladılar. Bununla Xürrəmşəhrdəki uşaqların Abadanla əlaqəsi kəsildi, arxa cəbhəyə heç bir yolları qalmadı. Şəhərdən çıxarılması mümkün olmayan və tibbi yardım göstərilməyən yaralılara yazığım gəlirdi.

Bir anlığa döyüşçülərin hücum zamanı "Allahu-əkbər" qışqırmaları yadıma düşdü. Bu, bəzi hərbçilər arasında lətifəyə dönmüşdü. Gecələr məsciddə uşaqlara deyirdilər ki, axı bu necə hücum tərzidir. Dünyanın hər yerində düşmənə səssiz hücum edir, qəfil yaxalayırlar, sizsə hücumdan öncə qışqırıb onları xəbərdar edirsiz.

Uşaqlara qarşı çox acıqlı idilər, onlar barədə hirslə danışırdılar. Təlim keçib peşəkar döyüş taktikalarına yiyələnmiş hərbçilər idilər, özlərini azyaşlı uşaqlarla müqayisə edirdilər. O uşaqlar bir neçə gün öncəyə qədər heç silah tutmağı bacarmırdılar. Uşaqların "Allahu-əkbər" səslərinin küçəbəküçə kəsilməsi və şəhərin yavaş-yavaş, məzlumcasına düşmənlərin əlinə keçməsi fikri məni pisləşdirirdi.

Həmin günlərin birində doktor Səadət otelə gəldi. Onu görüb çox sevindik. Aramızda yazılmamış bir qanun vardı: Kim bir neçə gün yoxa çıxsa, bilin ki, ya şəhid olub, ya da əsir düşüb! Doktor Səadət danışırdı ki, bəzi döyüşçülərlə birgə çox çətinliklə körpünün altından keçib Xürrəmşəhrdən çıxmışlar. Son bir neçə gündə də Hərbi Dəniz Qüvvələrinin matros və diversantları ilə birgə Kutşeyxdə imiş.

Xürrəmşəhrdən məyusedici xəbərlər gəlirdi. Şəhərə gedib-gələn uşaqlar danışırdılar ki, bir neçə gecədir Mayor Şərifnəsəb iyirmiyə yaxın əsgəri səhərə qədər məscidin həyətində qaçırır, onlara deyir ki, hərbi yerişlə ayaqlarınızı yerə möhkəm vurun, bir neçə addımlığımızda olan iraqlılar səsimizi eşitsinlər, şəhəri tərk edib getdiyimizi və ya sayımızın az olduğunu düşünməsinlər. Mayor Şərifnəsəbin qeyrəti həqiqətən,

alqışalayiq idi. Onun boş əllə fədakarcasına müqavimət göstərdiyini bilib qürur hissi keçirirdik.

Oktyabrın 24 və ya 25-də səhər çağı şəhərin səs maneəsinin yarılma səsinə həyətə qaçdıq. Göydə iki İraq qırıcısı var idi, iki İran qırıcısı da onları təqib edirdi. Onlara baxıb "Allahu-əkbər" deyirdik. Sürətli və gözəl təqib idi. Öz qırıcılarımıza görə narahat idik. Qorxurduq ki, İraq təyyarələri onları vurar. Bizim təyyarələrin biri İraq MiQ-ini vurdu. O, göydə yanmağa başladı, bir qədər sonra da Xürrəmşəhrlə Abadanın arasına düşdü, tüstüsü havaya qalxdı. Var gücümüzlə "Allahu-əkbər" qışqırırdıq. Oğlanlar sevindiklərindən əl çalıb gülürdülər. F4 qırıcısının pilotu bizə gözəl və yüksək ruhiyyə bəxş etmişdi!

Gecənin yarısına qədər vəziyyət dəyişmədi. Xürrəmşəhr haqda məyusedici xəbərlərdən başqa bir söz eşitmirdik. Mən gündüzlər Taliqani xəstəxanasına gedib tibb bacılarına kömək edir, yaralılara yardım göstərirdim.

Oktyabrın 26-da sübh saat 4-də kişilərin həyətdən gələn danışıq və ağlamaq səsinə yuxudan oyandıq. Həyətə qaçdıq. Abbas Əlivənd "Allahu-əkbər" qrupunun 10-12 döyüşçüsü ilə birgə dalğıc geyimində, başdan-ayağa palçığın və yosunun içində idi. Başlarına vurub ağlayır, deyirdilər ki, Xürrəmşəhr işğal olundu.

Hamımız ağlamağa başladıq. Səsimiz oteli başına almışdı. İslam fədailəri döyüşçülərindən biri Əlivənddən soruşdu: "Axı necə oldu? Danış görək, nə baş verdi?"

O dedi: "Bir-iki saat öncəyə qədər bütün uşaqlar müqavimət göstərirdilər. Ancaq gördük ki, bütün şəhər iraqlıların əlinə keçib, yalnız biz bir neçə nəfər qalmışıq. Dalğıc forması geyindik və iki qayıqla körpünün altından suya girib şəhərdən çıxdıq. Qayığımızda o qədər uşaq vardı ki, yolda çevrildi, hamımız suya düşdük. Kim üzməyi bacarırdısa, bu taya keçdi, qalanı boğuldu".

Bugün-sabah şəhərin işğal olunduğunu eşidəcəyimizi bilsək də, yenə də çox pis olduq. Əzizini itirmiş adam kimi idik. Artıq bütün ümidlərimiz puç oldu. Bir qədər sakitləşəndən sonra hamımız bir yerdə oturduq, uşaqlar danışmağa başladılar.

– Günbatan çağı Müharibə otağından ratsiya ilə bildirdilər ki, dərhal Xürrəmşəhri tərk edin. Uşaqlar razılaşmayıb deyirdilər ki, son ana qədər şəhərdə qalacağıq, öz ayaqlarımızla şəhərimizdən çıxan deyilik. Onlar bizim müqavimət göstərdiyimizi görüb dedilər ki, iraqlılar körpünü tutublar, biz heç bir yolla kömək və yemək göndərə bilməyəcəyik. Siz də nə qədər ki əsir düşməmisiz, yaxşısı budur, şəhərdən çıxasız.

Psixoloji vəziyyətimiz çox ağır idi. Vəziyyət belə davam etsəydi, iraqlılar yavaş-yavaş Abadana da girəcəkdilər. Yalnız İmam Xomeyniyə görə ümidimiz ölməmişdi. Bir-birimizə ürək-dirək verib deyirdik ki, qəm yeməyək, imam var və Allah mütləq yardım edəcək.

***

Haşimi hələ bizi yaxşı tanımasa da, təcili tibbi yardım qrupu kimi qəbul edirdi. Bir gün Karvansara otelinin həyətində bir neçə nəfərlə danışdığı yerdə yaxınlaşıb salam verdim, halını soruşdum və onunla işim olduğunu söylədim. Yanındakılar uzaqlaşdılar. Ona dedim: "Ağa Haşimi, olar ki, tibbi yardım qrupunu sizin döyüşçülərinizin nəzarətində olan mövqelərə yaxın bir yerə köçürəsiz?" Dedi ki, necə məgər? Dedim: "Belə olsa, çox yaxşı olar. Həm döyüşçülərə tibbi yardım işi yaxşı baş tutar, həm də fəaliyyətimiz döyüş yerinə fokuslanar". Dedi: "Yaxşı fikirdir. Qoyun görüm, nə edə bilirəm".

Karvansara otelinin bütün otaqları İslam fədailəri döyüşçüləri ilə dolu idi. Onlara hətta yuxarı mərtəbələrin dəhlizlərində də yer vermişdilər. Biz bütünlüklə kişilərdən ibarət bir mühitdə əziyyət çəkirdik. Bəlli idi ki, bu amil Haşiminin də diqqətindən yayınmır və bizi başqa yerə

köçürmək istəyir. Bunu ondan bildim ki, iki gündən sonra döyüşçüləri ilə birgə Kutşeyxə gedəndə məni, Bilqeysi və qrupumuzdakı qızlardan başqa bir-ikisini özü ilə apardı. Bizə dedi: "Gedək, görək sizin üçün münasib bir yer tapa bilirik?"

Bütün Kutşeyx bölgəsi cəbhəyə çevrilmişdi, uşaqlar iraqlılara qarşı mövqe seçmişdilər. İslam fədailəri Kutşeyx cəbhəsinin bir hissəsinə nəzarət edirdi. Haşimi toyota pikapının arxasında bizimlə birgə oturmuşdu. Yolda bizə dedi: "Sizcə, suyun, namaz qılmaq imkanlarının mövcud olmadığı müharibə şəraitində nə etməliyik? Bir dəqiqə ərzində sağ-solumuza otuz-qırx raket düşdüyü şəraitdə namaz qılmaq barədə fikriniz nədir?"

Tez dilləndim: "Namaz qılmaq elə vacib əməldir ki, onu əsla tərk etmək olmaz. Su olmayanda təyəmmüm edirik. Yaranan qısa fürsətdə necə olursa-olsun, namaz qılmaq lazımdır".

Yenidən dedi: "Bəs təqib şəraitində, döyüşçülərin ayaqlarında daim çəkmələr olanda necə?"

Dedim: "Çəkməni çıxarmaq lazım deyil. Təqib vəziyyətində ayaqqabı ilə dayanıb namaz qıla bilərik".

Haşimi gülümsəyib dedi: "Afərin, bacı. Bu yaşda şəriət məsələlərizi belə dəqiq bilmənizi gözləmirdim".

Bunları bizdən nə üçün soruşduğunu bilmədim. Məncə, bizim dindarlığımızı yoxlamaq istəyirdi. Zavallı bizdən bu cavabları gözləmirmiş. Bəlkə də çadra yerinə manto geyindiyimizə görə elə bilirmiş ki, şəriət məsələlərindən çox da başımız çıxmır. Əlbəttə, haqlı idi. O zaman hər yerdə o qədər münafiq, kommunist, solçu partizan vardı ki, kimin hansı qrupdan olduğu bəlli deyildi. Yəqin bununla bizim kimliyimizə əmin olmaq istəyirmiş.

Abadan-12 stansiyasında və Kəfişə istiqamətində İraq təyyarələrinə qarşı zenit-raket kompleksi quraşdırmışdılar. Müharibədən qabaq Əmiri prospektindəki məscidə, zenitlərin

qoyulduğu yerin yaxınlığına, ağa Çəminin qıldığı cümə namazına gedirdik.

Bəhruz qəsəbəsinə daxil olduq. Maşın dayandı və hamımız yerə endik. Haşimi yaxınlıqdakı kiçik bir evi göstərib dedi: "Dünən burda idik. Fikirləşdim ki, sizin işə yarayar. Gedək, içinə baxaq".

İçəri girdik. Evdə kiçik bir zal və iki yataq otağı vardı. Otaqların birində ikiqapılı bir divar şkafı yığılmışdı. Haşimi şkafa yaxınlaşıb qapısını açdı. Şkafın bütün gözlərində ev, mülk və mağaza sənədləri vardı. Dedi: "Əcəb yerə gəlmişik! Buranın sahibi necə də pullu imiş! Bütün sənədlər bir nəfərin adınadır".

Maraqlanıb sənədlərin birini götürdüm. Hacı Asinin adına idi. Onu tanıyırdım, Xürrəmşəhrdə tanınmış adam, sinif yoldaşım Mitra Musəvinin ana tərəfdən babası idi. Digərlərinə bir söz deməyib sənədi yerinə qoydum. Haşimi evin qalan yerlərinə də baxıb fikrimizi soruşdu. Mən dedim: "Məncə, bura bizə uyğun deyil". Haşimi dedi: "Nə üçün?" Dedim: "Bura uşaqlarımızın əsas mövqeyi olan Bayındır prospektindən uzaqdır. Əgər döyüşçülərin biri orada, körpünün altında və ya Hərbi Dəniz Qüvvələrinin bölgəsində yaralansa, yaxşısı budur ki, əsas prospektlə tez Taliqani xəstəxanasına aparasız, nəinki bir neçə küçədən və kiçik prospektdən keçib bura gətirəsiz. Hər halda, biz burada kor nöqtədə olacağıq". Haşimi təsdiq əlaməti olaraq başını yelləyib dedi: "Doğru deyirsən, bacım, amma indi sizi başqa bir yerə apara bilmərəm. Çünki hələlik yalnız bu ərazi bizim ixtiyarımızdadır". Dedim: "Eybi yox, münasib bir yer tapılana qədər oteldə qalar, yaralılara yardım göstərməkdən ötrü özümüz oteldən çıxarıq".

Haşimi razılaşdı və birlikdə otelə qayıtdıq.

Tibb bacıları bizi sevmədiklərinə görə Taliqani xəstəxanasına köməyə gedəndə onlardan uzaq durmağa çalışırdıq. Əvvəllər həmişə get-gəldə idik, ora yaralı aparırdıq. Xürrəmşəhrdən

çıxandan sonra isə aparmağa yaralı yox idi, biz oradakı yaralılara kömək etməyə gedirdik, tibb bacıları da elə bilirdilər ki, onların yerini tutmaq istəyirik. Onlar düşünürdülər ki, biz iş bacarmırıq və orada olmamalıyıq.

Xürrəmşəhrin işğalından bir-iki gün keçirdi. Bir günün içində bütün əzizlərini itirmiş adam kimi idim, heç kəsə və heç nəyə hövsələm yox idi. Mənəvi baxımdan elə vəziyyətdə idim ki, ailə üzvlərimin harada olduqları, nə iş gördükləri də mənə önəmli deyildi. Bir gecənin içində bütün həyat həvəsimi itirmişdim.

Günəşin batmağına az qalırdı. Karvansaranın həyətində oturub dizlərimi qucaqlamışdım. Bu zaman xalam qızı İlahə otelə girdi. Onu görməyimə həm çox təəccübləndim, həm də çox sevindim. Məni görən kimi yanıma qaçdı. Əvvəlcə qucaqlaşıb doyunca ağladıq. Xürrəmşəhr müsibəti bu tezliyə yaddan çıxan deyildi. Bir qədər yüngülləşəndən sonra içəri uşaqların yanına getdik. Keşvər, Bilqeys və Əşrəf də İlahəni görüb çox sevindilər. İlahədən soruşdum:

– Hicab əminin əlindən necə qaça bildin? Bura necə gəldin? Sənə kim dedi ki, biz burdayıq?

– Sabah, nə atama dedim, nə anama!

– Necə yəni? Yəni həqiqətən, evdən qaçmısan? Demirsən ki, yazıqlar birtəhər olarlar?

– Bilirsən ki, desəydim, heç vaxt qoymazdılar. Çox narahat olmasınlar deyə Rzaya dedim.

Rza İlahənin kiçik qardaşı idi, onda təxminən 15 yaşı vardı. İlahə dedi:

– Xürrəmşəhrin işğal olunduğunu eşidəndən ürəyim partlayırdı. Çox çalışdım ki, hamı kimi Sərbəndərdə qalım, amma ürəyim dözmədi. Nəhayət, bu gün yola düşüb gəldim. İstəyirdim Xürrəmşəhrə ən yaxın yerə gedim. Belə olanda ürəyim sakitləşir. Şadiqan üçyoluna qədər maşınla gəldim, ordakı ordu əsgərlərindən Abadana necə gedə biləcəyimi

soruşdum. Dedilər ki, bir maşın tapsan, yaxşıdır, olmasa, gərək piyada gedəsən. Tehranlı əsgərlərin biri dedi ki, bacı, mən də Abadana gedirəm, gəl, birlikdə gedək; yolda maşın tapsaq, minərik, olmasa da, ən azı, tək getməzsən. Tanımadığım bir adamla yola çıxmaq çox çətin olsa da, başqa yolum yox idi. Razılaşdım və yola düşdük. Yolda bütün maşınlar Abadandan çıxırdı, şəhərə gedən yox idi. Biz də yağışın islatdığı torpaq yolla piyada gəldik.

İlahənin o qədər yolu piyada gəldiyinə inana bilmirdim. Ayaqqabıları palçıqlı idi. Uşaqlar ona su və yemək gətirdilər. Oturub ayaqlarını uzatdı, masaj etməyə başladı. Yazıq çox əziyyət çəkmişdi. Görən kimi qurumuş dodaqlarından necə susadığını bilmişdim, amma on saat piyada yol gəldiyini əsla gözləməzdim.

İlahə ilə birgə onu gətirmiş əsgərin yanına getdik. İlahə məni ona təqdim etdi. İlahəni gətirdiyinə görə ona təşəkkür etdim. Dedi: "O da mənim bacım! Böyük iş görməmişəm. Belə bir şəraitdə bura gəlib cəbhəyə xidmət etmək istəyirsə, necə cəsarətli xanım olduğunu göstərib. Mənim yoldaşlığıma çox da ehtiyac yox idi".

Əsgər danışanda başını qaldırıb üzümüzə baxmağa utanırdı. Xoşbəxtlikdən, İlahə yaxşı yoldaş tapmışdı. Yolda hava soyuyanda gödəkcəsini də çıxarıb ona vermişdi.[1]

Ertəsi gündən İlahə ilə birgə Taliqani xəstəxanasına köməyə getməyə başladıq. Axşamüstü xəstəxanadan qayıdanda Abadanın Hava limanı meydanında üzü Xürrəmşəhrə tərəf dayanıb günəşin qürubuna tamaşa edirdik. Qürub mənzərəsi hava limanının qapısı yanında basdırılmış dəmir millərin

[1] Həmin əsgər Tehrandan əxlaqlı və yaraşıqlı bir gənc idi. Oteldə Haşiminin uşaqlarının yanında qaldı. Bir neçə gündən sonra gecə vaxtı bir pikapla işıqları söndürmüş vəziyyətdə döyüş mövqeyinə gedərkən avtomobil qəzasında şəhadətə qovuşdu.

arxasından daha da darıxdırıcı görünürdü. Xürrəmşəhr və Günəş millər arxasındakı dustağa bənzəyirdi. Bəzən İlahə ilə bir saat orada dayanıb baxırdıq.

Beynimdə min cür fikir dolaşırdı. Gələcəkdə Xürrəmşəhri və əhalisini nə gözlədiyini bilmirdim. O anda Bəni-Sədrə qarşı qəlbimdəki kin yadıma düşür, gözlərim yaşarırdı. Onun xəyanəti bizi bu günə qoymuşdu. O vaxta qədər heç kimə qarşı belə qəzəbli olmamışdım. Başımıza gələn bütün müsibətləri ondan, onun satqınlığından bilirdim. Ürəyim sıxılırdı. Belə bir adamın İmam Xomeyninin yanında İslam inqilabının siyasətlərini icra etməsi məni məyus edirdi. Sinəmə ağır qəm çökmüşdü. Pis günlər yaşayırdıq. Bütün xürrəmşəhrli uşaqların vəziyyəti belə idi. İlahə gələndən sonra bir neçə gün işimiz bundan ibarət oldu.

Bir gün atamı görmək üçün Neft şirkətinin xəstəxanasına gedəndə bildik ki, onu müalicə üçün Şiraza göndəriblər.

# On üçüncü fəsil:

## *Düşmənə doğru*

Oktyabrın 31-də sübh namazını qılandan sonra bizə verilmiş zalda oturduğumuz yerdə İslam fədailəri qrupunun uşaqlarının səsini eşitdik. Az sonra Abbas Əlivənd həyəcanla gəlib dedi ki, iraqlılar Abadana giriblər.

Sanki başıma bir qazan buzlu su tökdülər. Bütün canıma titrətmə düşdü. Nə qədər edirdimsə, dizlərimin əsməsinin qarşısını ala bilmirdim. Əgər Abadanı da alsaydılar, artıq bütün Xuzistanın işğalı qaçılmaz olacaqdı. Əlivənd dedi: "Abadan korpusunun uşaqları dedilər ki, iraqlılar Zülfüqariyə giriblər". Soruşdum ki, əminsiz? Dedi: "Hə. Dəryaqulu Surani adlı bir nəfər əvvəlcə Abadan korpusuna gedib məsələni söyləyib, sonra da yolda nə qədər məscid və müxtəlif hərbi dəstələr görübsə, hamısına deyib. Əvvəlcə sözünü qəbul etməyib yazığı yaxşıca döyübmüşlər!"

Dəryaqulunun vəziyyətini yaxşı başa düşürdüm. Bir anlığa 27 sentyabr gününü xatırladım. Məryəm Əmcədi ilə birgə Taliqani xəstəxanasına yaralı aparmışdıq. Onu təhvil verəndən sonra Piruz məscidinə getdik. Sürücünün orada işi vardı. Xürrəmşəhrin came məscidi kimi ora da izdihamlı, get-gəlli yer

idi. Məryəmlə bir tərəfdə oturub məsciddə verilən xörəyi yediyimiz yerdə xanımların bir neçəsi bizə yaxınlaşdı. Xürrəmşəhrdən olduğumuzu bilib vəziyyəti öyrənmək istəyirdilər. Onlara dedim ki, vəziyyət olduqca ağırdır, İraq tərəfi irəliləyib, bizim də nə canlı qüvvəmiz var, nə də silah-sursatımız. Hökumət də heç bir iş görmür, şəhərə və əhaliyə kömək etmək əvəzinə əlini əlinin üstünə qoyub şəhərin işğalını gözləyir. Bir qədər söhbətləşəndən sonra dağılışdılar. Az sonra məscid qızlarından biri tələsik bizə yaxınlaşıb dedi: "Tez buradan gedin. Sizi beşinci kolon kimi təhvil vermək istəyirlər".

Bundan gülünc fikir ola bilməzdi. Üç-dörd kəlmə doğru sözə görə bizi münafiqlikdə, casusluqda ittiham edirdilər. Gec tərpənib məsciddən çıxmasaydıq, Allah bilir, başımıza nə gələrdi.

Əlivəndin sözündən sonra uşaqların arasına çaxnaşma düşdü. Hələ Xürrəmşəhrin işğalının şokundan çıxmamışdıq. O acı hadisədən dörd-beş gün sonra belə bir xəbərə hazır deyildik. Biri soruşdu: "Axı necə gəliblər?"

Əlivənd dedi: "Yeddinci və doqquzuncu stansiyalardan dövrə vurub Bəhmənşir çayı üzərindən körpü salmış, Zülfüqariyə çoxlu tank və canlı qüvvə yeritmişlər".

Xürrəmşəhrin işğalından sonra iraqlılar Karunun ətrafını, yeddinci stansiyanı və Kəfişəni dayanmadan vururdular. İndi Abbasın sözlərindən iraqlıların yolu və hədəfi bəlli olurdu. Zülfüqaridə yerlərini bərkidəndən sonra Xosrovabad magistralını tuta və həzrət Xızır məqamı ziyarətgahından keçib Ərvəndə çata bilərdilər. Ərvənd çayı vasitəsilə də İraqla əlaqə yaradıb Abadanı asanlıqla ələ keçirərdilər.

Abadanı tutsaydılar, Fars körfəzinə giriş onların nəzarətinə keçəcəkdi. Bu zaman neft yataqlarına nəzarətdən əlavə, öz torpaqları və canlı qüvvələri ilə əlaqələrini bərkidəcək, yalnız

qarşı cəbhə ilə vuruşacaq, Həmid və Əhvaz zastavalarına asanlıqla gedib bütün Xuzistanı tutacaqdılar.

Kişilər döyüş yerinə getməkdən danışırdılar. Hələ hara getməli, nə etməli olduqları barədə qərara gəlməmiş dedim ki, mən də gəlirəm. Bir anlığa hamı sakit qaldı. Bilqeyslə Keşvər də tez dilləndilər: "Biz də gəlirik".

Abbas Əlivəndin qalın səsi vardı. Üçümüzün də getmək istədiyimizi görüb etirazla dedi: "Necə yəni "mən də gəlirəm"?! Hələ nə baş verdiyini bilmədiyimiz bir yerə qadınları da aparaq?! Lazım deyil!"

Razılaşmayıb dedim: "Mən gələcəm. Mən əvvəllər də döyüş yerində olmuşam, özün bilirsən".

Xarakterim digər qızlara nisbətən sərt idi. Özümə görə çevik idim, oğlanlardan geri qalmırdım. Döyüş yerində də olmuşdum. Bəlkə buna görə bir də "mən gələcəm" deyəndə Əlivənd dinmədi. Mən Xürrəmşəhrdə ilk dəfə Əlivəndin özü ilə döyüş yerinə getmişdim, amma deyəsən, yadından çıxmışdı.

Əksəri İslam fədailəri qrupundan olan kişilər getməyə hazırlaşdılar. Təxminən 500 nəfər idilər. Onlar gündüzlər Kutşeyx cəbhəsindəki döyüşlərdə iştirak edirdilər. Kutşeyx cəbhəsi çox həssas idi. Uşaqlar bir qədər diqqətsizlik etsəydilər, iraqlılar cəld körpü salıb sudan keçər, Abadana girərdilər.

Zala qayıdıb təcili yardım əşyalarını çantama qoydum və getməyə hazırlaşdım. Çanta dolunca bint, tənzif, betadin və savlon götürdüm. Dəri cildli kiçik bir dəftərçəm də vardı. Onu bir əsgər Zəhra Hüseyniyə, o da mənə vermişdi. Hərdən darıxanda ürək sözlərimi yazır və ya rəsm çəkirdim. Onu və silahımı götürüb həyətə çıxdım.

Əlivənd mənim qərarlı üzümü görüb daha bir söz demədi. Qızların biri etiraz etdi: "Bəs Sabahı nə üçün aparırsız?" Əlivənd dedi: "Sabah bacı indiyədək bir neçə dəfə döyüş yerində olub, birinci dəfəsi deyil!"

Xürrəmşəhr uşaqlarından təxminən iyirmi nəfəri orada idi. Doktor Səadətdən, Qasim Fərruxidən başqa yalnız Əlivəndi, Məsud Pakini, Həsən Sorxunu və Məsumənin qardaşını tanıyırdım. Məsumə Şəhid Heydər Heydərinin yoldaşı idi. Şəhid Heydəri müharibənin birinci günündə sərhəddəki qarşıdurmalarda şəhadətə qovuşmuşdu. Tibb mərkəzinin uşaqlarından doktor Mustəfəvi də bir neçə gün idi aramıza dönmüşdü. O da bizimlə gedirdi. Cəld vanetlərə, SUV avtomobillərinə və toyota pikaplarına minib yola düşdük.

Xosrovabada çatdıq. Ora Abadanın ən cənub hissələrindən idi. Orada çoxlu kərpicbişirən soba vardı. Ordunun postunda enib sıraya düzüldük və sobalara doğru getməyə başladıq. Ordunun artilleriyası və Xosrovabad zastavası da orada yerləşirdi.

Döyüşçülər arasında hər cür adam vardı. Abadan korpusunun və İslam fədailərinin uşaqlarından tutmuş müxtəlif könüllü dəstələrə qədər. İraqlıların Zülfüqari qəsəbəsinə girdiyini kim eşitmişdisə, ora yollanmışdı ki, Xürrəmşəhr hadisəsi təkrar olunmasın. Döyüşçülər tez-tez bir istehkamdan o birinə keçir, təkbir deyə-deyə düşmənə atəş açırdılar.[1]

Bir sıra ilə yavaşca irəliləyirdik. Ordunun Xosrovabadda bir-birinin arxasında düzəltdiyi bir neçə istehkamdan enli və uzun olanının arxasında mövqe seçib iraqlılara atəş açmağa başladıq. Onlar da bizi cavabsız qoymurdular. Ordu artilleriyasının atəşindən sonra Zülfüqari xurmalıqlarına doğru bir istehkam da irəliləyə bildik.

---

[1] Əbdülhüseyn Bənadiri həmin günün xatirələri barədə yazır: "Həmin tarixi və unudulmaz gündə böyük qəhrəmanlıqlara şahid oldum. Uşaqlar M1, J3 silahları, hətta çomaqla vuruşmağa gedirdi. Qoca bir kişi velosipedinin önünə uzun bir çomaq bağlayıb tövşüyə-tövşüyə Zülfüqari xurmalıqlarına tərəf sürürdü. Bu qədər cəsarət, iman, iradə və vətənpərvərlik görüb fəxr etdim, gözlərim yaşardı. Qoca-gənc, namazqılan-namazqılmayan - hamı Zülfüqariyə doğru axışırdı. Bəzi yerlərdə əlbəyaxa döyüş gedirdi".

İraqlıları gözlə görmürdük, amma güllə və raketləri dayanmadan üstümüzə yağırdı. Hamımız istehkamın arxasına sığınmışdıq. Xürrəmşəhr korpusunun uşaqlarından bir neçəsini orada gördüm. Onlara yaxınlaşıb salam verəndə qaşlarını düyünləyib çox soyuq şəkildə cavabımı verdilər. Məni tanıyır, Əlinin bacısı olduğumu bilirdilər. Məni orada, o qədər kişinin arasında gördüklərinə görə narahat olduqlarını bildirirdilər. Barəmdə nə fikirləşdikləri önəmli deyildi. Mən vaxtında tibbi yardım göstərilmədiyinə görə hansısa yaralının ölməsinə razı ola bilməzdim. Çox istəyirdim ki, onlardan Əlini soruşum, amma soyuq rəftarlarına görə soruşmadım.

Gəlişimizdən bir neçə dəqiqə sonra bir nəfər qışqırdı: "Təcili yardım! Təcili yardım!"

Səs gələn yerə hamıdan qabaq qaçdım. Raket qəlpəsi bizdən bir neçə metr aralıda döyüşçülərin birinin əlini ağır yaralamışdı. Əli biləkdən kəsilmiş, dəridən asılı qalmışdı. Güclü qanaxması vardı. Nə edəcəyimi bilmirdim. Əlinin qopmasının qarşısını almaq üçün lazımi alətlərim yox idi. Əvvəlcə bir bintlə yaradan bir qədər yuxarı hissəni möhkəm bağladım ki, qanaxması azalsın. Sonra ətrafa baxdım. Yerdə bir karton parçası vardı. Onu götürüb çırpdım, qolunun altına qoyub biləyi yavaşca yerinə yapışdırdım. Karton qalın olsa da, tez bir zamanda qanla islandı. Çoxlu bint və tənziflə əli sarğı taxtasını əvəz edən kartona bağladım ki, qolundan ayrılıb düşməsin.

Yaralı 17-18 yaşlı bir gənc idi. Əvvəlcə yalnız ucadan "Allahu-əkbər" deyirdi, əlini bağlayanda isə ağrıdan yerində qıvrılıb qışqırdı: "Yandım! Yandım!"

Ona yazığım gəlirdi. Necə ağrı çəkdiyini heç kim bilmirdi. Çoxlu qanaxmadan qorxduğunu da düşünürdüm. Əlim və paltarım qana bulaşmışdı. Biləyinin saçaq-saçaq olmuş əti əlimə dəyəndə pis olurdum, taqətim çəkilirdi. İşləyə-işləyə tez-tez ona deyirdim: "Qardaş, səbirli ol, bir şey olmayıb. Səni xəstəxanaya

aparacağıq, orda hər şey həll olacaq. Allah böyükdür, narahat olma!"

Onu tez xəstəxanaya aparmalı idik. Damarını tapıb bir iynə sancdım və bizi gətirən maşınların biri ilə göndərdik. Günortaya qədər ən ağır yaralımız həmin döyüşçü oldu.

Ətrafımız Bərəhut çölü kimi idi; nə bir ağac vardı, nə də kol. Yalnız iraqlıların yerləşdiyi yerdən bir qədər irəlidə yaşıl xurmalıq görünürdü. Güclü atışma gedirdi. İraqlılar doğrudan da Abadanı tutmağa gəlmişdilər.

Çoxlu döyüşçü güllə yarası aldı. Biri çiynindən yaralanmışdı, çox dözümsüzlük edirdi. Güllə bədəninə girdiyinə görə bir iş görə bilmirdim. Cəld yarasını bağlayıb xəstəxanaya göndərməyə hazırladım. Birinin də buduna güllə dəymişdi, amma digərlərindən sakit idi. Yarasından çoxlu qan axırdı. Çəkməsinin bağını açıb yaradan bir neçə santimetr yuxarıdan bağladım.

Günortaya yaxın iraqlıların atəşi zəiflədi. Palçıqla örtülmüş iki furqonlu maşın yaralıları Taliqani xəstəxanasına apardı. Onları aparmazdan öncə damarlarına iynə taxdım ki, xəstəxanada işləri ləngiməsin.

Günorta təxminən saat 2-də şəxsi heyətə "İrəli" əmri verildi. Görünür, iraqlılar geri çəkilmişdilər. İstehkamın arxasından çıxıb kərpicbişirən sobalardan keçməli və qarşımızdakı xurmalığa girməli idik. Ziqzaq şəklində atəş açıb bir-birimizi qoruduq və tez irəli yola düşdük. Bir neçə dəfə silahdan istifadə edəndən sonra onunla işləmək asanlaşdı. Axşamdan heç nə yeməmişdim, acından zəifləmişdim və şəkərim düşmüşdü.

Yavaş-yavaş Zülfüqari qəsəbəsinin xurmalığına girdik. Abadan korpusunun bəzi uşaqlarının dediyi kimi, iraqlılar Bəhmənşir çayı üzərindən üzən körpü salıb Zülfüqariyə tank və canlı qüvvə yeritmişdilər. Çox maraqlı idi. Sanki cəhənnəmdən cənnətə girmişdik. Zülfüqari qəsəbəsi çox gözəl idi,

Xosrovabadın quruluğundan və susuzluğundan fərqli olaraq, başdan-ayağa yaşıllıq idi. Xürrəmşəhrdə də xurmalıq çox idi, ancaq Zülfüqarinin xurmalığı zahiri görkəm baxımından çox fərqli idi. Xürrəmşəhrin xurmalıqlarının yeri quru olurdu, Zülfüqaridə isə rütubət yüksək olduğundan yer bağ kimi yaşıllıq, yabanı ot və güllərlə dolu idi. Havanın sərinliyi gözəl xurma ətrinə qarışıb adamın ovqatını yaxşılaşdırırdı.

Xurma ağaclarının gözəl ətri bir anlığa məni uşaqlıq çağıma apardı. 10-12 yaşımda bacılarım və dostlarımla Xürrəmşəhrin xurmalıqlarında oyan-buyana qaçır, xurma qınlarının ardınca düşürdük. İncə, yaşıl qınların içində xurma salxımının tumurcuqları olurdu, bağ sahibləri xurmaları daha məhsuldar olsun deyə onları digər ağaclara peyvənd edirdilər.

Bağ sahiblərinin işi bitəndən sonra boş qınları kənara tullayırdılar. Biz onları götürüb içinə su doldurur, bir-iki saatdan sonra içirdik. Xurma qını üstündə həmişə dava olurdu. İçinə su tökəndə dadlı olurdu, içib çox həzz alırdıq.

İraqlıların dayanmadan atdıqları snayper tüfənginin səsi bülbüllərin cəh-cəhinə oxşayırdı. Zülfüqaridə bir anlığa məni ağlamaq tutdu. Belə gözəl bir cənnətdə qan töküldüyünü görüb pis olurdum. Düşünürdüm ki, Abadan və Xürrəmşəhr əhalisinə edilən böyük zülmdən əlavə, buranın təbiətinin təravətinə daha böyük zülm olunmuşdur. Gözlərim xurma ağaclarının altındakı bitkilərin zərif gövdələrinə sataşanda Səddamı və onun törətdiyi cinayəti lənətləyirdim. Bu zərifliyi qaniçənliyin yanında təsəvvür edə bilmirdim.

Xurmalığa düşüb mühitin sakitliyini pozan raketlər ürəyimə od vururdu. Axşamüstü idi, aclıq mənə çox əziyyət verirdi. Bu müddətdə azı 10 kq arıqlamışdım. Yerdə xurma axtarmağa başladım. Xuzistanın xurma mövsümü bitmişdi, bütün xurmaları dərmişdilər. Ağacda və yerdə xurma tapılsaydı, qurumuş xurmalar olurdu. Bir neçəsini tapıb yedim.

Xurma yeyəndə gözüm Qasim Fərruxiyə sataşdı. O, qardaşı Mahmud Fərruxinin şəhid olduğunu eşidib Kirmandan, hərbi xidmətdən Xürrəmşəhrə gəlmişdi. Yaraşıqlı cavan idi, xarakterləri Mahmuddan çox fərqlənirdi. Mahmud kimi dindar və əxlaqlı olsa da, onun başıaşağı və utancaq olduğu qədər şuxtəb və zarafatcıl idi.

Qasim Fərruxi yeni nəfəsli döyüşçü idi, Xürrəmşəhrdəki müqavimət günlərinin əzablarını görməmiş, yanmış cəsəd toplamamış, yerdən parçalanmış beyin və ikiyə bölünmüş bədən götürməmişdi. O hələ morqa əzilib-yuvarlanmış cəsədlər təhvil verməmişdi, bizim kimi oturub şəhərinin işğal xəbərini nə vaxt eşidəcəyini gözləməmişdi. Bu baxımdan, davranışlarında xüsusi gümrahlıq vardı. Silahı elə ürəklə götürüb atəş açırdı ki, sanki heç vaxt yorulmayacaq. O, dindar ruhiyyəsindən irəli gələrək inqilabdan öncə atası və qardaşı ilə birgə Pəhləvi rejimi əleyhinə fəaliyyətlərdə iştirak etmişdi. Buna görə də, qardaşı Mahmudun şəhadətindən sarsılmamışdı.

Müharibə sıxıntısına baxmayaraq, orada bir qədər sakitləşdik. Ətrafımız çöllük yerinə xurma ağacları ilə dolu olduğuna, bir növ gizləndiyimizə görə bir qədər əmin-amanlıq hiss edirdik. Xurmalıqda camaatın evi vardı, əkinçilik edirdilər. Buna görə çox atəş açmağa qorxur, ehtiyatla irəliləyirdik.

Bir neçə dəqiqə piyada gedəndən sonra xurmalığın digər yerlərinə nisbətən açıq və təxminən geniş bir əraziyə çatdıq. Orada palçıqdan tikilmiş bir kənd evi vardı. Zülfüqaridə gördüyüm ilk ev idi. Tez xurmaların arxasında gizləndik. Evin içində kiminsə olub-olmadığını, varsa da, iranlı, yoxsa iraqlı olduğunu bilmirdik. Bir neçə dəqiqə evi pusduq. Uşaqlar bir xəbər çıxmadığını görüb iki-üç dəfə havaya atəş açdılar. İstəyirdik ki, evdə kimsə varsa, reaksiya versin. Doktor Mustəfəvi də bir neçə dəfə avtomatdan atəş açdı, amma evdən səs çıxmadı.

Evə yaxınlaşdıq. Döyüşçülərin biri təpiklə qapını açdı və içəri girdik. Həyətdə biri ortayaşlı, biri də gənc olmaqla iki kişi xanımları ilə birgə həyəcanla və toz-torpaq içində dayanmışdı. Elə bilirdilər ki, biz iraqlıyıq. Qasim Fərruxi soruşdu: "Burda nə edirsiz?" Kişilərin biri qorxa-qorxa dedi: "Bura bizim evimizdir!"

Fars dilində qəliz ərəb ləhcəsi ilə danışırdı. Qasim Fərruxi dedi:

- Məgər iraqlılar burda deyildilər? Onları görmədiz?

- Hə, axşam burda idilər. Öldürmək üçün bizi də vurdular.

- Nə üçün vurdular? Siz ki onlar kimi ərəbsiz!

- Bizə dedilər ki, siz xainsiz. Əgər xain olmasaydız, indi burda olmazdız. Sonra da silahlarının qundağı və çəkmələri ilə bizi döyməyə başladılar. Vurub deyirdilər: "Siz necə ərəbsiz ki, silahız yoxdur və bizə kömək edib iranlılara qarşı vuruşmursuz!"

- Qadınlarla işləri olmadı?

- Allaha şükür ki, yox. Ancaq bizi çox döydülər.

- Bəs nə üçün öldürmədilər?

- Əl-ayaqlarına düşüb yalvardıq, dedik ki, biz sizin qardaşlarızıq. Məgər bizi xilas etməyə gəlməmisiz?! Məgər demirdiz ki, Xuzistan Ərəbistandır?! Bəs nə üçün bizi öldürürsüz? Bu sözlərdən sonra bir qədər yumşalıb döyməklə kifayətləndilər.

Bir anlığa Karvansara otelindəki uşaqların sözünü xatırladım. İraqın farsca radiosu Abadan əhalisinə belə bir müraciət oxumuşdu: "Ey Abadan əhalisi! Ey bu torpaqların qüdrətli ərəbləri! Siz bizdənsiz. Evlərinizin qapısına ağ bayraq vurun ki, sizinlə işimiz olmasın. Biz sizi iranlıların əsarətindən xilas edəcəyik!"

Uşaqlar Bəhmənşir çayının bu tayında və Fəyyazi səmtində bəzi ərəb evlərinin qapısının üstündə ağ bayraq görmüşdülər.

Qasim Fərruxi dedi ki, tez buradan gedin, bura təhlükəlidir, iraqlılar qayıda bilərlər və bu dəfə rəhm etməyib sizi öldürəcəklər. Onlarla sağollaşıb yolumuza davam etdik.

Təxminən bir saata yaxın idi bir neçə dəstəyə bölünmüşdük. Hər dəstə xurmalığın bir hissəsində irəliləyirdi. Bizim qrupumuzda iyirmi nəfər vardı. Təxminən oteldən birlikdə çıxan uşaqlar idik. Təkcə Abbas Əlivənd bizdən ayrılıb başqa qrupla getmişdi. Yavaş-yavaş yorğunluq bizi əldən salırdı. Üstəlik, həm ac idik, həm də sursatımız azalmışdı. Getdiyimiz yolu o şəraitdə piyada qayıdacağımızı düşünüb qərara gəldik ki, daha irəliləməyək.

Abadan korpusunun komandirlərindən biri dedi: "Mən uşaqların üç-dördü ilə geri qayıdıb ərzaq, sursat və köməkçi qüvvə gətirəcəm. Ancaq heç kim geri çəkilməməli, buranı tərk etməməlidir. İraqlılar hər an irəliləyə bilərlər. Biz tez qayıdacağıq".

Doktor Səadət ona yaxınlaşıb dedi: "Bizim tibbi yardım əşyalarımız da bitib. Əgər döyüş olsa, ehtiyacımız olacaq. Gərək özüm Abadanın Qızıl Aypara Cəmiyyətindən alım. Məndən başqasına vermirlər".

Komandir razılaşdı və dörd-beş nəfər geri qayıtdı. Gedişlərindən təxminən bir saat sonra hələ döyüş davam edirdi. Uşaqların bəzisi dedi ki, patronumuz az olduğuna görə heç kim avtomat rejimində atəş açmasın, hamı tək-tək və bir qədər fasilə ilə atəş açsın.

Təxminən iki saat müqavimətdən sonra bildik ki, iraqlıların güllələri öndən deyil, sağ tərəfimizdən atılıb xurmalara dəyir. Bir anlığa yerimizdə quruyub qaldıq. Fikirləşirdik ki, qarşıya atəş açaq, yoxsa sağ tərəfə. Yavaş-yavaş çox da uzaq olmamaqla sağ və sol tərəflərimizdən iraqlıların səsi gəlməyə başladı.

Günəşin batmasına az qalırdı, yemək və sursat gətirməyə getmiş uşaqlar isə gecikirdilər. Orada qalsaydıq, çox tezliklə

xurmalıq zülmət qaranlığa qərq olacaqdı və daha yolu tapıb qayıda bilməyəcəkdik. Çaş-baş qaldığımız yerdə qrupun şəhər adamlarından olan və mülki geyimli bir üzvü ucadan və həyəcanla dedi: "Biz mühasirəyə düşürük. Gərək tez geri qayıdaq. Tez geri çəkilməliyik".

Harada olduğumuzu bilmirdik. Ratsiyamız yox idi, heç bir yerlə əlaqə saxlamırdıq. Bilmirdik ki, çox irəliləmişik, yoxsa hər şey qaydasında gedir.

Canımıza vahimə düşmüşdü. Bir tərəfdən, komandir təkidlə tapşırmışdı ki, heç kim hətta bir addım da geri çəkilməsin, digər tərəfdən, iraqlıların səsi və güllələri hər an bizə yaxınlaşırdı.

Uşaqların bir neçəsi geri çəkilməyə hazırlaşdı, hətta bir neçə addım çəkildilər. Qərarlarının ciddi olduğunu, digərlərini də qane etdiklərini görüb ucadan dedim: "Yox! Heç kim geri çəkilə bilməz!"

Həmin döyüşçü etiraz etdi.

- Qalıb nə edək? Bəlkə kömək gətirməyə gedənlər başqa bir yerdə döyüşə qatılıb bizi yaddan çıxarıblar!

- Hətta yaddan çıxarsalar belə, heç kim geri çəkilə bilməz. Burda qalıb axırıncı patrona qədər müqavimət göstərəcəyik.

Kobud tərzdə cavab verdi:

- Hə, qalıb əsir düşək?! Qalıb nə edək?

- Məgər əmr verilməyib ki, burda qalaq?! Deməli, qalmalıyıq. Ya öləcəyik, ya da öldürəcəyik. Burda bizdən başqa döyüşçü yoxdur ki. İraqlılar da indi giriblər torpağımıza. Biz qoyub getsək, qarşılarını kim alacaq?! Biz buranı boşaldaq, iraqlılar gəlsinlər?!

Mən bunu deyəndən sonra sanki "get işinin dalınca" deyirmiş kimi əlini yellədi və geri qayıtmağa başladı. Dörd-beş nəfər də tez ardınca getdi. Qərarının ciddi olduğunu görüb silahımı ona doğruldub qışqırdım: "Özüm səni vuracam!" Sözümü eşidən kimi yerində mıxlandı, dönüb üzümə baxdı. Yenə dedim:

"Peyğəmbərin adına and olsun, doğru deyirəm. Əgər bir addım da atsan, özünü ölmüş bil".

Qəzəb və nifrətlə mənə baxdı, sonra bir söz demədən qayıdıb xurma ağaclarının birinin arxasında dayandı. Heç kimdən səs çıxmırdı; kimsə nə məni, nə də onu təsdiqləyir, hamı dayanıb tamaşa edirdi. Bir anlığa gözüm Qasim Fərruxiyə sataşdı. Dodağında təbəssüm vardı, təsdiq əlaməti kimi başını yellədi. Hərəkətimin düzgünlüyünə əmin oldum.

Xurma ağaclarının arxasında mövqe seçib havanın ala-toranlığında qalan patronla müqavimətimizi davam etdirdik. Əgər onların önündə dayanmasaydıq, irəliləyib hamımızın işini bitirərdilər. Diqqətlə və düşünülmüş şəkildə atəş açırdıq. Allahın köməyi ilə yavaş-yavaş bizdən uzaqlaşdılar.

Kömək gəlincə təxminən iki saat yarım çəkdi. Bu müddət mənə bir ömür qədər keçdi. Onların həyatları qarşısında böyük məsuliyyət hiss edirdim. Komandirin əmrinə tabe olsam, digərlərini də buna vadar etsəm də, daim ürəyimdə deyirdim ki, birdən səhv etmiş olaram və uşaqları ölümə verərəm. Allaha şükür olsun ki, iraqlılar bizim müqavimətimizlə geri çəkildilər və atəş səsləri azaldı.

Ərzaq maşınını görəndə rahat nəfəs aldım. Maşınla gəlmiş, bir qədər döyüşçü də gətirmişdilər. Doktor Səadət onlarla deyildi. Komandirdən soruşanda dedi ki, Qızıl Aypara Cəmiyyətində işi uzandı, onu gözləyə bilmədik. Canlı qüvvə, sursat və yemək gələndən sonra məlum oldu ki, heç kim bizi unutmayıbmış və gördüyümüz iş düzgün imiş. Əllərindəki sellofan torbalarda içinə plov qoyulmuş çörəklər vardı. Onları uşaqlara payladılar. Çox susuz idim, amma yalnız susuzluğumu yatıracaq həddə iki-üç qurtum içdim. Qorxurdum ki, tualetə ehtiyacım olar. O şəraitdə, o qədər naməhrəmin arasında bundan ötrü münasib yer axtarmağı heç sevmirdim.

Yemək yeyib nəfəsimizi dərəndən sonra silahlarımızın daraqlarını doldurub irəliləməyə davam etdik. Əlbəttə, bu dəfə daha diqqətlə və ehtiyatla gedirdik. Bir neçə dəqiqədən sonra anbara bənzəyən böyük bir tikiliyə çatdıq. Zahirindən əkinçilərin anbarına oxşayırdı. İçində kiminsə olub-olmadığını bilmədiyimizdən bir qədər geridə xurma ağaclarının arasında gizləndik.

Az sonra uşaqların bir neçəsi gizlicə özlərini tikiliyə yetirib içinə baxdılar. Tikili boş idi. Hamımız ətrafını yoxladıq. O vəziyyətdə yaxşı sığınacaq idi. Hava qaralanda Qasim Fərruxiyə yaxınlaşıb dedim: "Əgər mümkünsə, məni birtəhər geri göndər. Hava qaralır, burda qalmaq istəmirəm". Dedi: "Yaxşı, qoy görüm bu maşın qayıtmaq istəyir, yoxsa yox. Əgər qayıtsa, onunla gedərsən".

Qasim Fərruxi yerindən qalxmamış, geri çəkilmək istəyən oğlan kobud şəkildə mənə dedi: "Heç yerə gedə bilməzsən! Hamını saxladığın kimi, özün də burda qalmalısan. Mənimlə sənin nə fərqin var?! Nə üçün biz qalmalıyıq, sənsə qayıtmalısan?! Mən qoymayacam..."

Qasim Fərruxiyə dediyim sözləri eşitmişdi. Bir anlığa onu başdan-ayağa süzdüm. Xüsusi görkəmi vardı. Hansı qrupdan olduğu bəlli deyildi. Krem rəngli bir köynəklə cins şalvar geyinmiş, uzun saçı çiyninə tökülmüşdü. Üzünü də dibindən qırxmışdı. Səsini elə qaldırırdı ki, hamı eşitsin. Gecəni orada qalmaq istəmirdim, ancaq sözünə məhəl qoymayıb getsəydim, digərlərində ruh düşkünlüyü yaratmış olacaqdım. Belə bir adamın özünü döyüşçü adlandırmasına təəssüf etdim. Mənim gecə vaxtı bu qədər kişinin içində nə üçün qalmaq istəmədiyimi başa düşəcək şüuru yox idisə, daha ona nə deyə bilərdim?!

Qasim Fərruxiyə üzümü tutub dedim: "Yaxşı, eybi yoxdur. Mən də qalıram". Qasim oğlana tərs-tərs baxdı, yaxınlaşmaq istəyəndə dedim: "Xahiş edirəm, əhəmiyyət vermə!"

Bilirdim ki, bir söz desə, mübahisə yaranacaq. Həmin cavanın danışığından bəlli idi ki, mübahisəyə bəhanə axtarır.

Təyəmmüm edib ayaqqabı ilə axşam namazımızı qıldıq. Günorta namazımızı da elə qılmışdıq. Hava qaralandan sonra iraqlılar atəşi dayandırdılar. Bir-iki saatdan sonra uşaqların çoxu tikilinin içinə uzanmağa getdi. Mən, Qasim Fərruxi, doktor Mustəfəvi və bir neçə xürrəmşəhrli döyüşçü isə oturub söhbətləşirdik.

Hamımız yorğun idik. Səhərdən çoxlu yol gəlmişdik, istirahətə ehtiyacımız vardı. Anbara girdik. Girişdə qapının yanında oturub divara söykəndim. Uşaqlar da yatmağa getdilər. Mən sübhə qədər oturmaq istəyirdim.

Doktor Mustəfəvi yarım saatdan sonra mənə baş çəkməyə gəldi. Gördü ki, eləcə oturub dizlərimi qucaqlamışam. Dedi: "Sabah bacı, bir az uzan, sən də hamı kimi yorulmusan". Dedim: "Yox, belə daha rahatam. Uzana bilmərəm".

Haradansa bir adyal tapmışdı. Mənə verib dedi: "Bunu üstünə at. Heç olmasa, ayaqlarını uzat, yorğunluğun çıxsın".

Adyalı alıb təşəkkür etdim. Onu özümə büküb başımı dizim üstə qoydum. Bir neçə dəqiqədən sonra doktor Mustəfəvi yenə gəldi. 220 litrlik bir bakı yerdə mənə tərəf diyirlədirdi. Yaxınlaşıb dedi: "Sabah bacı, bunu önünə qoy, arxasında uzan, heç kim səni görməyəcək".

Ona təşəkkür etdim. Bakı önümə qoydum, amma yenə uzanmadım. Heç ayağımı uzada bilmirdim, o ki qala uzanmağa. Səhərə qədər bəlkə cəmi bir neçə dəqiqə mürgülədim. Olduqca yorğun idim, çox yuxum gəlirdi, amma mühitə görə həyəcan və iztirabım məni yatmağa qoymurdu. Bütün gecəboyu dua edirdim ki, tez səhər açılsın.

Səhərin ala-toranlığında doktor Səadətin dördlitrlik bir su bakı ilə mənə yaxınlaşdığını gördüm. Uşaqlara səhər yeməyi gətirmişdilər. Mənə yaxınlaşıb dedi:

– Salam. Necəsən? Əminəm ki, gecəni yatmamısan!

– Salam. Hə, yata bilmədim. Bəs axşam nə üçün qayıtmadın?

– Qızıl Aypara Cəmiyyətində işim uzandı, sonra da maşın tapa bilmədim.

– Mənimlə gəl, gedək dəstəmaz alım?

– Gedək.

Tualetə ehtiyacım vardı, amma tək bir yerə getməyə qorxurdum. Orada tək-tük kənd evləri gözə dəyirdi, içinə girmək olurdu, amma qorxurdum ki, evlərdə iraqlılar, ya da başqa bir adam gizlənmiş olar. Həmin evlərin birinə doğru getdiyimiz yerdə Qasim Fərruxi də gəlib dedi ki, gözləyin, mən də gəlirəm.

Qasim Fərruxi ilə doktor Səadət bir evin qapısının önündə dayandılar, mən tez içəri girdim. Bir qədər sonra öz yerimizə qayıtdıq, təyəmmüm edib namaz qıldıq.

Uşaqlar səhər yeməyinə pendirlə çörək hazırlamışdılar. Hərəyə kiçik bir parça düşdü. Payımı götürüb bir tərəfə yeməyə getdim. Çörəyi ağzıma qoymaq istəyəndə bir it yaxınlaşıb məndən bir neçə metr aralıda dayandı. Bütün bədəni əsirdi. Ona yazığım gəldi. Ya ardıcıl partlayışlardan qorxmuşdu, ya da başqa bir şeydən.

Gözlərini əlimdəki tikədən çəkmirdi. Bildim ki, acdır. Onun pendirlə çörək yeyib-yemədiyini bilmirdim. Başqa bir şeyim olmadığına görə onu itə atdım. İt çörəyi havada tutub yeməyə başladı. Bir qədər sonra quyruğunu bulayıb getdi. Heyvan ac imiş. Onun ardınca baxdığım yerdə Qasim Fərruxi gəlib dedi: "Nə üçün payını ona verdin? Günortaya qədər nə edəcəksən?" Dedim: "Çox ac deyiləm. Zavallı it deyəsən, məndən də ac imiş".

Bu zaman Abbas Əlivənd də yanımıza gəldi. Onu dünən günortadan görməmişdik. Məni görüb təəccüblə dedi: "Sabah bacı, nə üçün axşam otelə qayıtmadın?" Dedim: "Qayıtmaq

istəyirdim, amma döyüşçülərin biri qoymadı". Dedi: "Qoymadı?! Necə yəni? Danış, görüm nə olub".

Məsələni ona danışdım. Hələ sözüm qurtarmamış üzü qızardı, mənə dedi: "Yalla! Onu göstər, görüm hansı biqeyrət səni qayıtmağa qoymayıb? Qadına gücü çatır?! Tez ol, de görüm, kim idi!"

Hadisəni ona danışdığıma peşman oldum. Problem yaranacağından qorxurdum. Qərara gəldim ki, kim olduğunu söyləməyim. Nə qədər israr etdisə, heç nə demədim. Dedim ki, bir şey olmayıb, özüm qalmaq istədim. Dedi: "Bir şey olmayıb?! O alçaq qələt edib səni getməyə qoymayıb. Məgər kimdir ki, sənin yolunu kəsə?! Bəziləri sanki zorla bura gəliblər. Gəlmək istəmirlər, gəlməsinlər, daha başqaları ilə nə işləri var?!"

Əlivənd hirslə danışdığı yerdə birdən bir neçə helikopter səsi gəldi. Komandir cəld gizlənməyimizi əmr etdi. Helikopterlərin hansı tərəfə məxsus olduğunu bilmirdik. Başımız üstündən atəş açanda bildik ki, düşmən helikopterləridir, Quru Qoşunlarına yol açmaq istəyirlər.

Tez özümü anbarın divarına yapışdırdım. Palçıq divar idi, mənim paltarlarım da açıq rəngdə idi. Belə çox da görünmürdüm. Helikopterlər bir qədər ətrafımızda dövrə vurub hara gəldi bir neçə raket atdılar. Raketlər bizdən aralıya düşüb Zülfüqari qəsəbəsinin gözəl təbiətinə ziyan vurdu. Bir neçə dəqiqədən sonra getdilər.

Xurmalığa səpələndik. Xoşbəxtlikdən, helikopterlərin gəlişi ilə Əlivəndin diqqəti dünənki hadisədən yayındı və daha mövzunu açmadı. Biz xurmalıqda irəlilədikcə düşmən atəşinin səsi də yaxınlaşırdı. Yavaş-yavaş aramızda döyüş başladı. Ehtiyatla atəş açır, patronlarımıza qənaət edirdik. Bununla yanaşı, günortaya qədər yaxşı irəliləyə bildik.

Yavaş-yavaş yerdə düşmən cəsədləri görürdük. Bəhmənşir çayına yaxınlaşdıqca cəsədlərin sayı da çoxalırdı. Bəzilərinə

güllə dəymişdi, bəziləri də qəlpə yarasından ölmüşdü. Cəsədləri görüb çox təəccübləndim. O vaxta qədər gördüyüm şəhid cəsədlərindən çox fərqlənirdi. Ölümlərindən çox keçməsə də, üzləri qaralmışdı. Bizim şəhidlərimizin rəngi hətta iki gündən sonra da dəyişmirdi, uzaqbaşı, bir qədər ağarırdı ki, bu da onları nurlu göstərirdi. Sanki Allah işğalçıların üzünü qaraltmışdı!

O qədər qara cəsəd gördüm ki, bir anlığa düşündüm: İlahi! Axı iraqlılar qaradərili deyillər! Bəs nə üçün bunların hamısı belədir? Üz, görkəm və bədən quruluşları bizim döyüşçülərimizlə yerlə-göy qədər fərqlənirdi. Bizim uşaqlarımızın çoxu azyaşlı, arıq idi, hələ üzlərində tük bitməmişdi, iraqlılar isə tam əksinə, əksəri ucaboy, enlikürək idi, üzlərinin yarısını müxtəlif şəkilli bığlar tutmuşdu. Bədənləri taxta kimi qurumuş, mumiyalanmış cəsədlər kimi olmuşdular. Sanki ölümlərindən yüz il ötürdü.

İrəlilədikcə heç bir düşmən səngəri görmədim. Gəlmələri ilə getmələri bir olmuşdu, səngər qazmağa macal tapmamışdılar. Allahdan, uşaqlar onların gəldiklərini tez bilib önlərini kəsmişdilər.

İslam fədailəri qrupunun uşaqları ilə birgə Zülfüqari qəsəbəsinin evlərinə çatdıq. O vaxta qədər o döyüşçüləri tanımırdım. Dediklərinə görə, çoxu Tehranın cənubundan idi, İmam Xomeyniyə sevgiləri onları cəbhəyə gətirmişdi.

Zülfüqari qəsəbəsində bir qədər idarə evləri vardı. Küçələr cərgə ilə salınmış, evlərin qapıları üzbəüz qoyulmuşdu. Evlərin bəzisinin önündə, bəzisinin də arxasında həyət vardı. Kənd evlərindən fərqi bu idi ki, palçıq və taxtadan deyil, kərpiclə dəmirdən tikilmişdi. İraqlılar ötən gecə qəsəbə evlərinə yerləşmiş, bir gecədə küçələri qazıb səngər düzəltmişdilər. Səngərləri bizim Xürrəmşəhrdə düzəltdiklərimizdən çox fərqlənirdi. Küçənin yerini dərin qazıb, tavan yerinə bir cərgə

plitə düzmüş, üstünü torpaqla və ya qum kisələri ilə örtmüşdülər.

Səngərlərin biri hamısından böyük və imkanlı idi. Camaatın evindən xalça gətirib yerə sərmişdilər. Hətta divarlarına da xalça vurmuşdular. Görünür, komandir səngəri imiş.

İrəlidə gözüm bir düşmən cəsədinə sataşdı. Yaşı otuzdan bir qədər artıq olardı. İri cüssəli idi. Çiyninə güllə dəymişdi, yarımaçıq gözləri göyə baxırdı. Poqonlarından adi əsgərə bənzəmirdi. Yadigar saxlamaq üçün poqonunu qopardım. Ürəyimdə dedim ki, kaş axşam onu mən cəhənnəmə vasil etmiş olum! Maraqlı bir çantası vardı. Yaşıl brezent çanta idi, iki ipi və qana bulaşmış çoxlu kiçik cibi vardı. İplərin biri cəsədin çiynindən sallanırdı, o birini kəmər kimi böyrünə keçirmişdi. Modeli elə idi ki, qaçanda və yeriyəndə tərpənmir, bədənə yapışırdı.

Uşaqları səslədim. Məsud Paki ilə Həsən Sorxu gəldi. Musəvi adlı bir nəfər də yanlarında idi. Musəvi tibbi yardım qrupundan, Xürrəmşəhrin came məscidinin imamının oğlu idi. Əlivənd də cəsədin başı üstə gəlib dedi: "Zabit imiş".

Poqonu uzadıb dedim: "Hə, bu da rütbəsidir. Yadigar götürdüm".

Əlivənd gülümsəyib dedi: "Yaramaz polkovnik imiş. Əcəb cəsəd tapmısan! İndi ki özün tapdın, qənimətləri də sənə çatır. Nə lazımındırsa, götür".

Çantadan əlavə, belinə qəhvəyi rəngli dəri qumbara qabı da bağlamışdı. Əlimi uzadıb çantasının ipini açdım. Çantası işimə yarayardı, tibb çantamdan çox yaxşı idi. Onu boşaltdım. İçində bir diş fırçası və bir neçə şokolad vardı. Qumbara qabını da açdım. O, işimə yaramayacaqdı, amma yaxşı yadigar idi.

İraqlının silahı kalaşnikov idi. Daraq hissəsini taxta rənginə bənzəyən sarı rənglə boyamışdılar. Baxanda elə bilirdin, metal deyil, taxtadandır. Mən qənimətləri götürəndə onun bədəni

ağac kimi qurumuşdu. Sanki əti yox idi, bütün bədəni sümükdən ibarət idi.

Bəhmənşir çayının sahilinə çatdıq. İnanılmaz idi; iraqlılar sahilə iki-üç buldozer və dörd-beş tank gətirib körpü salmışdılar. Sonralar bildim ki, o körpü bizim təyyarələrimizin bombardmanı nəticəsində dağılıb suya batmışdı.

Yanımızdakı polislərdə ratsiya vardı. Xosrovabad qarnizonunun artilleriyası ilə əlaqə saxlayıb iraqlıların koordinatlarını verdilər. Mövqe seçdiyimiz yerdən atəş açmağa başladıq. Mən əyilib atəş açdığım yerdə birdən patronun gilizi sağ qaşıma dəyib yardı. Bir anlığa gözümdə güclü ağrı hiss etdim, gözüm qaraldı. Tez yerə oturdum. Üzüm isti və qanlı idi. Elə bildim, güllə dəyib. Yavaşca əlimi alnıma aparıb yara yerinə toxundum. Boş giliz qaşımın dərisinin bir hissəsini aparmış, gözümə xəsarət yetirməmişdi. Üzümə qan damırdı. Bir tənzif götürüb qatladım, qaşımın üstünə qoyub sıxdım. İki-üç dəqiqə saxladım. Allahın köməyi ilə qan dayandı və tikişə ehtiyac olmadı.

Günortaya yaxın iraqlıların atəşi azaldı, bizim atəşimiz gücləndi. Müdafiə üçün oraya gəlmiş polislər ratsiya vasitəsilə topçularla əlaqədə idilər. Onlar deyirdilər: "Ehtiyatlı olun. Bəhmənşir çayının içəri sahilini vurmayın. Bizimkilər ordadırlar. Çalışın, çayın ortasından o tərəfi vurun".

Hələ rabitəçinin sözü bitməmiş çayın o tərəfini vurmaq yerinə bizim olduğumuz yeri vurmağa başladılar. Vəziyyət ağırlaşdı. Həm dost bizi vururdu, həm də düşmən. Bir qədər keçəndən sonra dedim: "Ən azı, bir qədər geri çəkilək, uşaqlarımızın koordinatından çıxaq".

Qrupumuza başçılıq edən abadanlı döyüşçü dedi: "Xeyr, geri çəkilmək olmaz".

Dedim: "Qardaş, deyirik ki, bir qədər geri qayıdaq, bizimkilərin hədəfindən uzaqlaşaq".

Komandir qəbul etmir, deyirdi: "Bu, geri çəkilmək deyil, bəs nədir?! Geri çəkilməyin buynuzu olmur ki!"

Hər ikimiz səsimizi ucaldırdıq. Dedim: "Əgər biz geri çəkilən olsaydıq, dünən geri çəkilərdik, bura qədər gəlməzdik!"

Səngərlərimiz əkinçilərin tarla və xurmaları suvarmaq üçün qazdıqları arxlardan ibarət idi. Düşmənin güllə və qəlpəsindən qorunmaq üçün ora sığınmışdıq. Mübahisə etdiyimiz yerdə birdən önümüzdəki arxa bir top mərmisi düşdü, qəlpəsi uşaqların birinin gicgahına dəydi və başından qan fəvvarə vurdu. Digər iki-üç döyüşçüyə də qəlpə dəydi, ancaq birincinin vəziyyəti çox ağır idi.

Komandirə dedim: "Əgər bir neçə metr geri qayıtsaydıq, dünya dağılardı?! İndi inadkarlıq zamanıdır?!"

Hirsimdən səsim titrəyirdi. Başına qəlpə dəyib huşsuz halda, üzü üstə yerə yıxılmış gənci tanıyırdım. Bir saat öncə silahımı təmizləyəndə mənə yaxınlaşıb demişdi: "Bacı, ver, silahını təmizləyim. Bu, asan iş deyil, əziyyət olar". Ona çətin olmadığını, öhdəsindən gəldiyimi söylədim, amma yenə israr etdi. Silahı ona verdim. Bir neçə metr aralıda oturub sünbə ilə təmizləməyə başladı. İşləyəndə öz aləmində idi, dodaqaltı "Dayə! Dayə! Döyüş zamanıdır!" şeirini oxuyurdu. Nə barədə fikirləşdiyini bilmirdim. Səsi hələ də qulaqlarımda idi.

Onun yanına qaçdım. Qəlpə alnına dəymiş, bütün üzü qana boyanmışdı. Gözlərinin çökəklərinə də qan dolmuşdu. Tez çantamdan iki tənzif çıxarıb üzünə çəkdim. Beyni silkələnmişdi. Yerindən tərpənmir, nizamsız nəfəs alırdı. Doktor Mustəfəvi yanımda idi. Dedim ki, nə olursa-olsun, onu geri qaytarmalıyıq. Uzun yol gəlmişdik, belimizdə qaytara bilməzdik. Doktor Mustəfəvi dedi: "İndi bir xərək təşkil edərəm". Dedim ki, necə? Dedi: "Bir köynək və iki silahla. Əsgərlikdə öyrənmişəm".

Köynəyini çıxarıb düymələrini bağladı və tərsinə çevirdi. Qollar içəridə qaldı. Sonra iki tərəfdən qolların yerindən iki

silah keçirib kiçik bir xərək düzəltdi. Yaralını onun üstünə qoyduq. Doktor Mustəfəvi xərəyin başından tutdu, iki nəfər də aşağısından. Üç nəfəri məşğul etsə də, bu şəkildə aparmaq asan oldu.

Yola düşdük. Xurma ağacları üçün çəkilmiş arxlardan keçməli idik. Bu isə çətin idi. Yaralının bədəni ət kimi olmuşdu. Başı sallanır, qanı yerdə iz buraxırdı. Alnı və gözləri şişmiş, üzünün rəngi göyərmişdi. Əziyyətlə olsa da, onu arxaya çatdıra bildik. 500-1000 metr arası yol getdik. Yaralını təcili yardım maşınına təhvil verib səhər Bəhmənşir çayına doğru getdiyimiz yolla qayıtdıq. Öz artilleriyamıza gedib uşaqlarımızı vurduqlarını demək istəyirdik.

Kərpicbişirən sobaların yanına çatdıq. Mexaniki və səyyar topxana bir neçə 200 mm çaplı, bir 106 mm çaplı topdan və bir neçə minaatandan ibarət idi. Bir nəfərin əlində ratsiya vardı, onlara haranı vurmalı olduqlarını söyləyirdi. Doktor Mustəfəvi uzaqdan qışqırmağa başladı, gedib atəş açan topçunun yaxasından tutdu, vurmaq istəyəndə digərləri qoymadılar. Sanki özündə deyildi. O deyirdi: "Köpək uşaqları, haranı vurursuz?! Öz uşaqlarımızı qətliam edirsiz! Nə üçün irəliləmirsiz? Nə üçün önə gəlmirsiz ki, nə baş verdiyini biləsiz?"

Topçular mat-məəttəl doktor Mustəfəviyə baxırdılar. İmkanı olsaydı, onlara namus söyüşü də verərdi. O qədər hirsli idi ki, bıçaq vursaydın, qan çıxmazdı. Biri dedi: "Dadaş, biz nə bilək siz ordasız? Bizə haranı deyirlərsə, oranı da vururuq. Biz nə bilək siz bu qədər tez irəliləmisiz?"

Doktor Mustəfəvi dedi: "Uşaqlarımız səhər saat 10-da sizə bir koordinat veriblər, siz də iki saatdır oranı vurursuz. Düşünmürsüz ki, birdən irəliləmiş olarıq? Nə üçün verdiyimiz yeni koordinatları vurmursuz?"

Doktor Mustəfəvi nə qədər qışqırıb danlayırdısa, yazıqların səsi çıxmırdı. Necə səhv etdiklərini başa düşmüşdülər. Doktor Mustəfəvi o qədər hirsli idi ki, qorxdum yenidən yumruq-təpiklə onları döyməyə başlayacaq. Onların dalaşacaqlarını gözləyirdim, amma xoşbəxtlikdən, topçuların sükutu onu bir qədər sakitləşdirdi. Onlar dedilər: "Dəqiq deyin, görək hardasız, biz də ondan o tərəfi vuraq".

Yerimizi deyib yenidən Bəhmənşir istiqamətinə qayıtdıq. Günortadan sonra təxminən saat 3-də uşaqların yanına çatdıq. Dedilər ki, bir-iki saatdır artilleriya çayın o tərəfini vurur və daha bizimlə işi yoxdur. Məlum oldu ki, doktor Mustəfəvinin hay-küyü topçuların dəqiqliyini artırıbmış.

Abadandan günorta yeməyi gətirdilər. Mərciplov idi. Axşamdan heç nə yeməmişdim. Əllərimi yaxınlıqdakı kiçik su arxında yudum, iştahla yeyib cana gəldim. Gecəni orada qalmaq istəmirdim. Buna görə göz qoyurdum ki, maşın qayıdanda onunla gedim. Ayaqlarım zoqquldayırdı. Son 48 saatda onları çox işlətmiş, ayaqqabımı çıxarmamışdım. Qəlpə də məni incidir, dizim qaşınıb göynəyirdi.

Karvansara otelində uşaqlar məni dövrəyə aldılar. Harada olduğumu, nə iş gördüyümü, nə baş verdiyini bilmək istəyirdilər. Qaşımın yarasından da soruşdular. Çox yorğun olsam da, Xosrovabadda, Zülfüqaridə və Bəhmənşir çayının sahilində baş verənləri təfərrüatı ilə danışdım. Çoxlarının gözündə döyüş yerinə getmək həsrəti görürdüm. Xüsusən də çoxlu irəlilədiyimizi biləndə həvəslənirdilər. Sonra otelin mətbəxinə Şahnazla Fevziyənin yanına getdim. Soruşdular ki, şirsən, yoxsa tülkü? Dedim ki, şir.

# On dördüncü fəsil:

## *Səngərdən səngərə*

Tibbi yardım qrupu Karvansara otelinə yerləşəndən sonra öz effektivliyini əldən vermişdi. Döyüş mövqelərinə uzaq olduğuna görə heç bir yaralını ora gətirmirdilər. Uşaqlar da bu səbəbdən çox dilxor idilər. Xürrəmşəhrin işğalına qədər hamımız fəal idik, bir dəqiqəmiz də boş keçmirdi. Həm məsciddə olanda, həm də doktor Şeybaninin tibb mərkəzinə köçəndən sonra daim tibbi xidmətlə məşğul olmuşduq; xalq yardımlarını ayırır, yaralılara kömək edir, onları xəstəxanaya aparır, dərmanları qruplara bölür, tibbi yardım əşyalarını hazırlayırdıq.

Mən Zülfüqari cəbhəsinə gedə bilsəm də, oteldəki dostlarımı düşünürdüm. Çoxları döyüş yerinə gəlmək istəyirdi. Gərək bir şey fikirləşəydik. Təcili yardım işini davam etdirmək istəyirdiksə, oteldən daşınmalıydıq. O şəraitdə cəbhədə müəyyən yükün altına girmək üçün qalmışdıq. Əks-təqdirdə, çoxları kimi Abadandan və Xuzistandan getməli idik.

İkinci dəfə İlahə ilə birgə Zülfüqari cəbhəsinə getdik. Onu da aparmaq üçün Əlivəndə çox israr etdim.

Berimi və Neft şirkətini arxada qoyub Xosrovabada girdik. Xosrovabad qarnizonundan və kərpicbişirən sobalardan da o tərəfə keçdik. Qarşıda post vardı, parol lazım idi. Parolu qrupumuzdan yalnız Əlivənd bilirdi. O, tibbi yardım qrupunun başçısı sayılırdı. Biz döyüş yerinə onunla və Qasim Fərruxi kimi uşaqlarla birgə gedirdik.

Zülfüqari xurmalıqlarına girib döyüşçülərə qoşulduq. Hələ güclü döyüş gedirdi. Biz də bir döyüşçü kimi onlarla çiyin-çiyinə vuruşmağa başladıq. Döyüş təxminən iki saat davam etdi. İraqlılar bölgəni dayanmadan vururdular. Görünür, Abadanı tutmaq fikirləri çox ciddi idi. Bu iki saatda təcili yardıma ehtiyac olmadı və irəliləməyə davam etdik.

Günortaya yaxın düşmən atəşi azaldı. Fikrim uşaqlarda qalmışdı. Səhər biz gələndə tapşırmışdılar ki, onların da getmələri üçün bir iş görüm. Uyğun bir zamanda Qasim Fərruxiyə yaxınlaşıb dedim ki, digər qızlar da Karvansaradan döyüş yerinin yaxınlığına köçmək istəyirlər. Burada olsalar, daha yaxşı yardım edə bilərlər. Ona Xürrəmşəhrdəki fəaliyyətlərimiz barədə məlumat verdim. Dedi ki, çalışaram əlimdən gələni edim.

Təxminən bir saatdan sonra gəlib dedi: "Bu barədə uşaqlarla danışdım. Biri dedi ki, Zülfüqariyyədə qohumunun evi var, tibbi yardım qrupundakı bacılar istifadə edə bilərlər". Sonra əlavə etdi ki, gərək gedib evə baxaq.

İlahə, Qasim Fərruxi və Ləklə birgə həmin evi görməyə getdik. Ev xurmalığın kənarındakı binalarda idi. Təxminən otuzmetrlik bir həyəti olan 100 kv metrlik ev idi, həyətə maşın salmaq üçün darvazası da vardı. Həyətə girəndən sonra sol tərəfdə bir tualet vardı, ortada da kiçik dördbucaq hovuz.

Evin bir dəhlizi vardı, oradan zala girirdik. İçəri girən kimi hamımız sevindik. Ev sahibi İmam Xomeyninin gözəl bir şəklini çərçivəyə keçirib divardan asmışdı. Onu görüb gülümsədim,

son bir neçə günün bütün yorğunluğu canımdan çıxdı. Necə də yaxşı yerə gəlmişdik!

Zalda dörd qapı vardı: Biri mətbəxə, biri hamama, digər ikisi də təxminən 10 kv metrlik kiçik otaqlara açılırdı. Evin bütün əşyaları yerində idi: xalçalar, yataqlar, şkaflar...

Təmiz ev idi. Evin xanımı səliqəli adam imiş. Uşaqların bir tərəfdən səliqə ilə yığılmış kitab və dəftərləri, mətbəxdəki qablar – bütün bunlar adamın ürəyini yandırırdı. Görünür, müharibədən öncə bu evdə gözəl həyat varmış. Qapı və pəncərələr bağlı olduğundan ev çox da tozlanmamışdı.

Kitablara yaxınlaşdım. Birinci və dördüncü sinif kitabları idi. Birini açıb üzümə yaxınlaşdırdım, dərindən nəfəs alıb qoxusunu sinəmə ötürdüm. Bir anlığa özümün də kitab-dəftərlə məşğul olmalı olduğumu xatırlayıb pis oldum. Kim bilərdi ki, bu il məktəblər belə başlayacaq!

Evdən çıxandan sonra Qasim Fərruxi dedi ki, tibbi yardım qrupunun oğlanlarını da yandakı evə gətirmək istəyirik. Beləliklə, hər gün Karvansara otelinə qədər uzun yolu gedib-gəlməyə ehtiyac olmayacaqdı.

Hava qaralmaq istəyəndə Qasim Fərruxi, İlahə və Ləklə birgə piyada otelə yola düşdük. Maşın yox idi. Fikirləşirdik ki, yolda bir maşın saxlayıb bizi mindirər. Təxminən bir saat gedəndən sonra Abadana gedən bir maşın peyda oldu.

Oteldə Fevziyə ilə Şahnaza dedim ki, Zülfüqaridə yaxşı bir yer tapmışıq, uşaqlarla oraya daşınacağıq. Şahnaz soruşdu: "Sabah, Əlidən xəbərin yoxdur?" Dedim: "Yox. Təsadüfən, Xosrovabadda korpus uşaqlarını gördüm, ancaq rəftarları xoşuma gəlmədi. Tanıdıqlarımın hamısı üz-gözlərini turşutdular, salamımı da düz-əməlli almadılar. Valideynlərimizin bizimlə işləri yoxdur, onlarsa narahatdırlar. Əlini soruşmaq istəyirdim, düzü, cəsarət etmədim".

Noyabrın 10-da məhərrəmlik girdi. Builki məhərrəmlik öncəkilərdən çox fərqlənirdi. Anam hər il məhərrəmin birinci axşamında qara paltarlarımızı çıxarardı. Evimizin yaxınlığında bir hüseyniyyə vardı. İlk axşamdan qonşularla birgə gedib divarlarına qara parçalar vurardıq.

Bir il anamın hüseyniyyəyə nəzri vardı. Diləyi qəbul olandan sonra ora bir tablo sifariş verdi. Üstünə belə yazılmışdı: "Həzrət Zəhra (ə) hüseyniyyəsi".

Məhərrəmliyin birinci axşamında uşaqlarla birgə Karvansara otelində Aşura ziyarətnaməsi oxuduq. Ziyarətnaməni oxuyanda qəribə hisslər keçirirdim. Başları üstə getdiyim şəhidlərin üzləri bir-bir gözlərim önündə canlanırdı. Bizim müharibəmiz Aşura hadisəsinə çox oxşayırdı. Şəhidlərimizin məzlumluğu İmam Hüseynin (ə) köməkçilərinin məzlumluğundan geri qalmırdı.

Ertəsi gün doktor Səadətlə Qasim Fərruxi əşyalarımızı toplamağa kömək etdilər. Qızlardan mən, Bilqeys, Əşrəf və İlahə qrupla birgə Zülfüqariyə gedib yeni yerimizə yerləşəcəkdik. Xanım Əkbəri, Mehrəngiz və Keşvər də bizdən sonra gələcəkdilər. Belə qərara gəlmişdik ki, gündüzlər döyüş yerinə gedək, axşamlar da kim otelə qayıtmaq istəməsə, Zülfüqaridə qalsın. Əvvəlcə orada qalmağı nəzərdə tutmamışdıq, amma axşam xəbər gəldi ki, uşaqların biri qəlpə yarasından və güclü qanaxmadan şəhid olub. Deyilənə görə, döyüş o qədər şiddətli imiş ki, yoldaşları qanaxmanın qarşısını almağa macal tapmayıblar.

Bu xəbəri eşidəndə çox pis oldum. Nə üçün bir gənc mənim kimi bir təcili yardımçının olmadığına görə qanaxmadan, yarasının bağlanmamasından ölməli idi?! Döyüşçülərin çoxu yara bağlamağı, qanaxma dayandırmağı bacarmırdı. Bacaranlar da döyüş vaxtı buna macal tapmırdılar. Dediklərinə görə, yazığı xəstəxanaya aparanda yolda şəhid olmuşdu. Əgər o vaxta qədər döyüş yerində olmağımın vacibliyinə bir faiz şübhəm vardısa,

bu xəbərdən sonra əsla şübhəm qalmadı ki, cəbhədə olub yaralılara yardım etməliyəm.

Tibbi yardım əşyalarımızı vanetə yükləyib, İslam fədailəri qrupunun uşaqlara yemək və su daşıyan üzvləri ilə birgə Zülfüqariyə yola düşdük. Əbuzər qrupunun uşaqlarından Məsud Paki, Həmid Xoşnud və başqa bir neçə nəfər də bizimlə getdi.

Bu dəfə öncəki yolla, yəni kərpicbişirən sobalar tərəfdən getmədik. İraqlılar Zülfüqaridən çıxarıldığına görə yol açılmışdı, dövrə vurmağa ehtiyac yox idi. Birinci küçədən və Əhmədabad kəndindən sonra su tankerlərinin yanından keçib Xosrovabada çatdıq. Hərbi polis önümüzü kəsib parolu soruşdu. İslam fədailəri qrupunun uşaqları parolu söyləyəndən sonra Xosrovabada girdik, oradan Zülfüqari və xurmalıq səmtinə döndük, əşyalarımızı evə qoyub çıxdıq.

***

Zülfüqariyə gedəndə içi yosunlamış dayaz bir kanaldan keçirdik. Bir gün yenə uşaqlarla birgə keçəndə uzun bir taxtanın köməyilə kanalın üstündən hoppandım. Mənim ardımca İlahə ilə Əşrəf də hoppandı. Bilqeys dolu və sakit, bizə nisbətən bir qədər ləng idi. O, J3 silahını əsa kimi kanalın içinə qoyub hoppandı. Onun bu hərəkətinə hamımızı gülmək tutdu. Kreativ bir iş görmüşdü; nə bizdən geri qalmışdı, nə də kimdənsə kömək gözləmişdi. Silahına işarə ilə dedim: "Bilqeys, yaxşı ki bu çomağı gətirmisən. Axır ki bir yerdə işinə yaradı".

Bilqeys qaşqabaqla dedi: "Məgər pis bir iş gördüm?! Onun köməyi ilə hoppandım".

Biz kanaldan keçəndən sonra Lorustandan gəlmiş bir döyüşçü qızların çevikliyini görüb lor ləhcəsi ilə qışqırdı: "Şir kimi qızlara eşq olsun! Afərin sizə!"

Qasim Fərruxi bizi bir qədər kənardan görmüşdü. Gülə-gülə yaxınlaşıb Bilqeysə dedi: "İndi ki bu çomağın köməyi ilə

hoppandın, heç olmasa, onu çiyninə qoy, təsəvvür elə ki, beldir!"

***

Əşyalarımızı evə qoyub çıxandan sonra düşmən təyyarələrinin səsi gəldi. Abadanın xəstəxana və Neftayırma zavodu kimi strateji yerlərini bombalamağa gəlmiş İraq MiQ-ləri idi, manevrləri bitmək bilmirdi. Bombalarının haranı yerlə-yeksan edəcəyini düşünəndə adam dəli olurdu. Onlar gələndə hamı gərginləşirdi.

Batareya ilə işləyən kiçik bir radiom vardı. Üç kanal tuturdu. Tibbi yardım qrupunun uşaqlarında və döyüşçülərin çoxunda ondan vardı. Daim gözləyirdik ki, görək İmam Xomeyni hansı yeni müraciəti edəcək. Xürrəmşəhrdə olanda o qədər intensiv çalışır, yaralılarla o qədər çox məşğul olurduq ki, radio dinləməyə imkan olmurdu. Bu şəraitdə isə sanki bütün ümidimiz imamın səsini və müraciətini dinləməyə bağlanmışdı. Onun timsalında elə böyük dayağımız vardı ki, heç bir qüvvə və silahla müqayisəyə gəlməzdi.

Biz döyüşçü və ya pasdar olmadığımızdan, başımız üstə bəlli bir komandir durmadığından birbaş İmam Xomeynini komandirimiz sayır, onun əmrlərini dinləyirdik. Radioları bir an da əlimizdən yerə qoymurduq. Müxtəlif kanalları axtarır, imamdan yeni əmr və tapşırıq gözləyirdik. Onun sözünün hətta bir an da yerdə qalmasını istəmirdik. Eşidən kimi imkan daxilində və gücümüz çatan qədər əməl etməyə başlayırdıq. Bura qədər bütün müqavimətləri ona borclu idik.

Bundan əlavə, artıq müharibə təkcə Xuzistanda getmirdi, cəbhə İranın şimal-qərbindən başlayaraq Xuzistanın ən aşağı nöqtəsinə qədər uzanırdı. Düşmənin hara qədər irəlilədiyini bilmək istəyirdim. Xürrəmşəhrdən əlavə, Qəsri-Şirin, Sərpol-Zəhab, Bostan, Süsəngird və Dehlaviyyə kimi şəhərlər də düşmənin əlinə keçmişdi. İraqlılar İran torpaqlarının bir neçə

min kv km-inə qədər irəliləmişdilər. Ağ vəziyyət elan olunana qədər yeni xəbərlər eşitmək üçün müxtəlif kanalları axtardım. Yeni xəbər yox idi. Döyüşlər davam edirdi.

Təyyarələr gedəndən sonra xurmalıqda irəliləyib döyüş mövqeyinə çatdıq. Hələ Bəhmənşir çayının arxasında idik. Döyüşçülərin bir neçəsi yaralanmışdı. Xoşbəxtlikdən, vəziyyətləri ağır deyildi. Yaralarını bağladıq, problemləri həll olundu. Döyüş davam edirdi. Düşmənin hər on daraq patron, bir neçə RPG və top atəşlərinə qarşı biz bir daraq patron boşaldırdıq. Əlbəttə, iraqlıların atəşi kor və hədəfsiz idi, daha çox xurma ağaclarına dəyirdi.

Bir neçə gündən sonra tasua günü gəldi. Döyüş yerinə getmişdik. Yerləşdiyimiz evdən kiçik bir Məfatih kitabı götürmüşdük. Partlayışlar bir qədər azalanda onu açıb Aşura ziyarətnaməsini oxumağa başladıq. Son günlərdə hər axşam İmam Hüseynə (ə) kiçik bir təvəssül məclisi keçirmişdik. Dualarımızda hər şeydən əvvəl İmam Xomeyninin sağlığı və ömrünün uzunluğu üçün dua edirdik, sonra döyüşçülərimizin qələbəsi üçün. Ötən illərin məhərrəmliklərini tez-tez xatırlayırdıq. Keçən il hamı ailəsinin yanında əzadarlıq edirdi. İnqilab dövründən o günə qədər şəhid olmuş dost-tanışlarımızın adlarını çəkir, onlara fatihə oxuyurduq.

Mahmud Fərruxinin sözlərini, Şahnaz Hacışahın gözəl əxlaqını xatırladım. Gənc fəal Mehdi Albuğəbiş inqilab zamanı bir an da rahat dayanmırdı, mitinq və yürüşlər üçün əlindən gələni edirdi. Həsən Müctəhidzadəyə verilən dəhşətli işgəncələr yadıma düşdü. Xürrəmşəhrdə arxa-dayağımız olan mübariz ruhani Şəhid Şeyx Şərifi xatırladım. Onların yeri necə də görünürdü!

Ailəmizdən xəbər bilmək istəyirdim. Onlarla əlaqəmiz yox idi. Yalnız onu bilirdim ki, anamla uşaqlar Bürucerddədirlər, atam da Mahşəhrə göndərilib. Onlar üçün çox darıxırdım,

amma cəbhədən və təhlükədən uzaqda olduqlarına görə sevinirdim.

Günortadan sonra qızlarla birgə yeni evdəki mərkəzimizə qayıtdıq. Ayaqlarım ağrıdan zoqquldayırdı. Son bir neçə gündə xüsusən dizimə qəlpə dəymiş ayağımı nəzərə almadan ürəyim istəyən qədər ora-bura getmişdim. Halım yaxşı deyildi. Fikirləşdim ki, orada, digərlərinin yanında qalmaq istəyirəmsə, bir qədər istirahət etməliyəm. Ertəsi gün uşaqlar döyüş yerinə hazırlaşanda dedim ki, bu gün getməyəcəyəm.

Ev sahibinin uşaqlarının dəftərindən bir vərəq qoparıb yanımdakı qələmlə rəsm çəkməyə başladım. Uşaqlıqdan rəsmim yaxşı idi. Böyüyəndən sonra daha da həvəsləndim. Zülfüqaridəki minlərlə xurma ağacından birinin rəsmini çəkdim. Xurma ağacı mənim üçün müqavimət simvolu idi. Onlar dik dayanıb döyüşçülərə sığınacaq verirdilər. Başlarına top mərmiləri yağırdı, amma eləcə durur, əyilmirdilər. Onlar insana ən çox bənzəyən bitki idilər. Xurmalıqda olanda onların bizim dərdimizi hiss etdiklərini düşünürdüm.

Çox diqqətlə xurmanın kölgəsini çəkib rənglədim. Yaxşı bir rəsm alındı. Ağacın altında bir çardaq da çəkdim. Real mənzərə idi. Zülfüqaridə əkinçilər xurma ağaclarının budaq və liflərindən özlərinə çardaq düzəltmişdilər. Döyüşçülər onlardan istehkam kimi istifadə edir, içindən düşmənə atəş açırdılar. O çardaqlar beynimə həkk olunmuşdu. Rəsmi qatlayıb çantama qoydum.[1]

Həmin axşam tibb mərkəzində qəribə ab-hava vardı. İlk aşura gecəsi idi ki, heç bir rövzəxanımız yox idi. Xomeyninin Kərbəlasında İmam Hüseynin (ə) və silahdaşlarının qəribliyini bütün vücudumuzla dərk edirdik. Xomeyninin səhabələri də şəhidlər ağasının səhabələri kimi dövrün yezidinin dişə qədər

[1] Rəsmi uşaqlara göstərəndə doktor Səadət onu məndən aldı. Bir müddət öncə onu görəndə dedi ki, həmin rəsmi hələ də yadigar saxlayır.

silahlanmış ordusu qarşısında qəribcəsinə, məzlumcasına müqavimət göstərirdilər, Allaha, uğrunda can verdikləri yola ümiddən başqa bir şeyləri yox idi. Ağamızın yalqız olduğu kimi biz də yalqız və əliboş idik.

Hər il bu günlərdə evimizdə qiyamət olurdu. Anam məhərrəmin ilk ongünlüyündə rövzəxan çağırırdı. Məhəllədə ona mollayə deyirdilər. Mollayə qırx yaşlı bir qadın idi, məhəlləmizin qadınları onu rövzə oxumağa dəvət edirdilər. Evimizdə gözəl məclis keçirilirdi. Mollayənin məlahətli və həzin səsi vardı, yanğısı daşı əridirdi. O, ərəbcə oxuyurdu. Rövzədən sonra mərsiyə oxuyur, qadınlar da ayaq üstə dayanıb sinə vururdular. Biz məclisdə birinci sırada dayanmırdıq. Ora yaşlı qadınlara məxsus idi, qız uşaqlarını ora qoymurdular. Rövzədən sonra qonaqlara zəfəranlı və darçınlı çay, süd və xurma verilirdi.

Atam aşura gününə iki qoyun alıb qurban kəsirdi. Qonşular bizə gəlib anama ehsan bişirməyə kömək edirdilər, hərə bir iş görürdü. Anam adətən, qiyməplov bişirirdi. Bir neçə nəfər düyü ilə lobya təmizləyir, bəziləri kartof, bəziləri də ət doğrayırdı.

Bütün bu anları xatırladıqca gözlərimdən yaş axırdı. Dodaqaltı Səddamı lənətləyir, arzu edirdim ki, müharibə tezliklə bitsin və hamımız evlərimizə qayıdaq.

Aşura günü günortadan sonra Qasimlə atası Hacı Əli Fərruxi mərkəzə gəldi. Hər ikisi döyüş yerindən gəlirdi. Mahmudun şəhadətindən sonra Hacı Fərruxi oğlu Qasimi tək qoymurdu, Zülfüqaridə çiyin-çiyinə vuruşurdular. Qasim dedi: "Sabah bacı, axşam Abadan korpusunun, Abadanın və Fars vilayətinin Quruculuq cihadının uşaqları Bəhmənşir çayından üzən körpü salıb o tərəfə keçdilər. O qədər möhkəm körpü düzəltmişdilər ki, maşınlar da üstündən keçdi".

Bu xəbərə hamımız sevindik. Körpü salmayınca irəliləmək mümkün deyildi. Xürrəmşəhrin küçələrində gedən döyüşlərdən

o qədər acı xatirəmiz vardı, o qədər əzab-əziyyətimiz iflasa uğramışdı ki, bu irəliləmənin nə demək olduğunu yaxşı başa düşürdük.

Qasim Fərruxi sözünə davam etdi: "Döyüş yerində Kərbəla qopmuşdu. İraq artilleriyası hirslənib bir an da dayanmadan atəş açırdı. Saatda 100 raket atəşini 500-ə çatdırmışdı. Əvvəlki mövqeyinə qayıtmaqdan ötrü çapalayırdı, amma uşaqların fədakar müqaviməti nəticəsində heç nə edə bilmədi".

Bəhmənşir çayı üzərində körpü salınandan, uşaqlar o taya keçəndən sonra bölgədə sabitlik gücləndi. Çayın o tərəfi də Zülfüqari cəbhəsi sayılırdı. Ordu birləşmələri Quruculuq cihadının uşaqlarına kömək məqsədi ilə Zülfüqari xurmalıqlarının sonunda 3-4 metr məsafələrlə bir neçə cərgə istehkam qurmuşdu. Uşaqlarla, daha çox İlahə, Əşrəf və Bilqeyslə birgə səhərdən axşamüstünə qədər döyüş yerində olurduq.

Quruculuq cihadının uşaqları Abadanda yerləşib cəbhəyə dəstək işini üzərlərinə götürmüşdülər. Onları görüb ikili hiss keçirirdim. Biri həsrət hissi idi. Bu qədər canlı qüvvənin Abadana köməyə gəldiyini görəndə heyfsilənirdim ki, nə üçün Xürrəmşəhr üçün belə bir iş görülmədi. Onda da belə həmrəylik olsaydı, uşaqlarımız canlı qüvvə və silah-sursat baxımında təmin olunsaydılar, şəhər heç vaxt işğal olunmazdı. Digər hissim də ümid hissi idi. Hər gün ürəyimdə bu ümid və arzu alovlanırdı ki, bu imkanlarla hücuma keçsək, Xürrəmşəhri düşməndən geri alarıq.

Polkovnik Mənuçöhr Kəhtəri ilə Bəhmənşir çayının o tayında tanış olduq. O, Abadanda yerləşən Xorasan diviziyasının İkinci briqadasının 153-cü batalyonunun komandiri idi. Təxminən 45 yaşı olardı. Saçının çoxu ağarmışdı. Bizimlə ağır və nəzakətli davranırdı. Əlbəttə, o vaxta qədər rastlaşdığımız bütün ordu

hərbçilərindən hörmətli rəftar görmüşdük, ancaq Polkovnik Kəhtərinin davranışı hamısından yaxşı idi.

Polkovnikin döyüşün qızğın yerində də parlayan çəkmələri hamının diqqətini cəlb edirdi. Səliqəli görkəmindən çox xoşum gəlirdi. Fikirləşirdim ki, zahirindən dəqiq və nizam-intizamlı adama oxşayır.

Bizi ilk dəfə görəndə yaxınlaşıb səmimi şəkildə salamlaşdı. Dedi ki, bacılarının vətən torpaqlarını müdafiə etməyə gəldiklərini görüb qürur hissi keçirir. Hicabımızdan da çox xoşu gəlmişdi, tez-tez deyirdi: "Afərin siz hicablı bacılara!" Danışıq tərzi özünəməxsus idi. Komandirlik ona həqiqətən, yaraşırdı.

Olduğumuz müdafiə mövqeyi Polkovnik Kəhtərinin əmri ilə yaradılmışdı. Həmin istiqamətdəki İslam fədailəri, korpus uşaqları və könüllü qüvvələr ona tabe idilər. Atəş və irəliləmə əmri yalnız onun tərəfindən verilirdi.[1]

Polkovnik hərbçilərinə əmr etmişdi ki, özlərinə səngər qazsınlar. Əsgərlər də çantalarından kiçik bellərini çıxarıb işləyirdilər.

Bəhmənşir çayının o tərəfində xurmalıq bitir, göz işlədikcə səhra uzanırdı. Özümüzə səngər və sığınacaq düzəltməli idik. Orada kimsə mənə də bir bel verdi və yeri qazmağa başladım.

---

[1] General rütbəsinə nail olmuş və Böyük Rəhbər tərəfindən Zəfər ordeninə layiq görülmüş Kəhtəri sonralar müsahibəsində deyirdi: "Düşmən Bəhmənşir çayından qovulandan sonra bir müdafiə mövqeyi yaratdıq. Orada polislər, İslam fədailəri və müxtəlif vilayətlərin cümə imamları tərəfindən göndərilmiş xalq könüllüləri vuruşurdular. Mən onların hamısını silahlandırmağa məcbur idim. Prezident Bəni-Sədr yazılı şəkildə bildirmişdi ki, korpus döyüşçülərinə və xalq könüllülərinə silah versəm, məni müharibə məhkəməsinə verəcək. Belə bir məhkəmənin qanuni olmadığını, heç vaxt heç kimi mühakimə etmədiyini bildiyim üçün işimə davam etdim. Mən vətənlərini, torpaqlarını müdafiə edən insanlara silah verirdim və bundan ötrü məni heç kim mühakimə edə bilməzdi. Buna görə Bəni-Sədr mənimlə çox tərs düşmüşdü".

İlk dəfə idi bellə işləyirdim. Bu işə həqiqətən, canım yox idi. Nə qədər güc vururdumsa, çox az torpaq qopurdu. Yer quru və bərk idi, bel batmırdı. Sonralar öyrəndim ki, bizim də özümüzə səngər qazmalı olduğumuzu Polkovnik Kəhtəri tapşırıbmış.

Digər qızlar da mənim kimi yer qazırdılar. Bunu nə İlahə, nə də Bilqeys düz-əməlli bacarırdı. İki əsgər gəlib belləri bizdən alanda və biri zarafata: "Məgər novruz piknikinə gəlmisiz ki, belə oynaya-oynaya belləyirsiz?!" – deyəndə çox xəcalət çəkdik.

Səngərlərinin dərinliyi 1 metrdən çox idi, bizsə cəmi 20-30 sm qazmışdıq. Üstəlik, əlimin içi çox ağrıyırdı. Qasim Fərruxi ilə Həsən Sorxu da əsgərlərə kömək etməyə gəldilər. Qasim Fərruxi zarafata deyirdi: "Özünüzə havayı fəhlə tapmısız! Əlmuzdu nə qədər verəcəksiz?" Dedim: "Söz verirəm ki, inşallah şəhid olsaz, cəsədizi yerdə qoymaram!"

Dedi: "Yox, Sabah bacı, zəhmət çəkmə. Elə yaxşısı budur pulsuz işləyək!"

Biz gülüşdüyümüz yerdə yanımızdan keçən korpus döyüşçülərindən biri tərs-tərs baxıb dedi: "Məgər gəzməyə gəlmisiz, deyib-gülürsüz?!"

Gülüşümüz dodaqlarımızda qaldı. Yazıq doğru deyirdi. Qasim Fərruxiyə dedim: "Sənin günahındır, danışıb güldürürsən!" Dedi: "Məgər nə etdik ki?! Biz əzadarlığa gəlməmişik, vuruşmağa gəlmişik. Kim deyir ki, gülmək günahdır?!" Dedim: "Yazığı borclu çıxardın!"

Bu bizim birinci və axırıncı zarafatımız oldu. Bizə təxminən 2 metr uzunluğunda, 1 metr enində bir səngər qazdılar. İçinə üç-dörd nəfər yerləşirdi. İlk dəfə idi öz səngərimiz olurdu. Yavaş-yavaş klassik döyüşləri təcrübə edirdik. İçinə girəndə yaxşı hisslər keçirirdik. Fikirləşirdik ki, daha ordu və korpus döyüşçüləri ilə fərqimiz yoxdur. Bizdən 5-6 metr irəlidəki səngər də Polkovnik Kəhtərinin səngəri idi.

Günortaya az qalırdı. Səngərdə namaz qılmalı idik. Yanımızda bir qədər su vardı. Uşaqlara dedim ki, gəlin təyəmmüm yerinə dəstəmazla namaz qılaq. Hamı razılaşdı. Bilqeys su tökdü, mən tozlu və qanlı əllərimi yudum. Sonra kömək etdim, o da əllərini yudu. Sonra da hamımız dəstəmaz aldıq. Bir müddətdən sonra ilk dəfə idi cəbhədə təyəmmüm yerinə dəstəmaz alırdıq. Yerimiz dar olduğuna görə növbə ilə oturaq halda namaz qıldıq.

Polkovnik Kəhtəri ilə qonşu olduğumuza görə gecə səngərdə rahat yatdıq. Sübh çağı tualet və dəstəmazdan ötrü bizimlə ondəqiqəlik məsafədə olan torpaq evlərdən birinə getdim. Səngərə qayıdanda qərara gəldik ki, ayaq üstə namaz qılaq. Səngərimiz kiçik idi, dünən də növbə ilə qılmışdıq. Səngərimizdən bir neçə metr aralıda bir quru ağacı olan açıq ərazi vardı. Uşaqlara dedim ki, gedək ora, ağacın arxasında namaz qılaq.

Namaza başlamazdan öncə raket qəlpəsi uşaqların ikisini yaraladı. Tez səngərlərinə gedib yaralarını bağladıq. Səngərləri böyük olduğuna görə rahatsız olmadıq. Birinin buduna qəlpə dəymişdi, birinin də çiyninə. Yaraların üstünü tamponlayıb dedik ki, ilk fürsətdə geri göndərsinlər.

Namaz qılmaq üçün həmin quru ağacın yanına getdik. Üçümüz yan-yana dayanıb namaza başladıq. Polkovnik Kəhtəri məsuliyyətli adam idi, mövqeyə və döyüşçülərə nəzarət etdiyi kimi, bizə də göz qoyurdu.

Birinci rəkətin səcdəsində birdən yer titrədi. İraq artilleriyası vurmağa başlamışdı. Namazımızı kəsmədik. Ardıcıl partlayış səsi bütün çölü bürüdü. Hər üçümüz qünut tutduğumuz yerdə birdən bizdən bir neçə metr aralıya bir raket düşdü, əl-boyda qırmızı bir qəlpə önümüzdən keçib yerə düşdü. Qəlpənin fiti qulağımda qaldı.

Döyüşçülərin bir neçəsi qışqırmağa başladı:

- Bu necə namaz qılmaqdır?! Oturub qılın. Vallah, oturub qılsanız da Allah qəbul edər. Gedin səngərlərinizdə qılın!

Biz namazı bitirincə hərə bir söz dedi.

Namazı bitirib səngərə qaçdıq. Hamımız baş vermiş hadisədən danışırdıq. O qəlpə bir neçə sm yaxından keçsəydi, Allah bilir, nə baş verərdi və indi hansımız üfüqi vəziyyətdə idik! Qəlpənin qızartısı bir an da gözlərim önündən getmirdi.

Raketlər ətrafımızda yeri şumlayırdı. Hər neçə saniyədən bir yer titrəyir, sonra alov, tüstü və toz-torpaq qalxırdı. Polkovnik Kəhtəri qışqırırdı ki, səngərlərinizə girin. Bir saata qədər gözlədik. İraq artilleriyası bizə nəfəs almağa macal vermirdi. Qazdığımız səngərlərin necə işimizə yaradığını onda bildim. Canımızı onlara borclu idik. Əks-təqdirdə, qəlpə yağışı altında aşsüzənə dönərdik!

O hadisədən sonra Polkovnik Kəhtəri əsgərlərinə əmr etdi ki, bizə daha böyük səngər qazsınlar. Yeni səngərin eni o qədər idi ki, iki nəfər üz-üzə rahat otura bilirdi. Zülfüqaridəki evdən çox uzaqda olduğumuza görə ora gedib-gəlmək çətin idi və uzun zaman alırdı. Rahat gedib-gəlmək üçün maşınımız yox idi, xurmalıqla təxminən iki-üç saat piyada getməli olurduq. Əlbəttə, döyüş yerində qalmaq o qədər enerjimizi alırdı ki, hər iki-üç gündən bir evə qayıtmağa məcbur idik. Döyüş yerində olanda gözlərimizə yuxu getmirdi. Uşaqlarla qərara gəlmişdik ki, növbə ilə oyaq qalaq, ancaq heç birimiz yata bilmirdik. Təmas xəttinin stresi o qədər güclü idi ki, hətta çox yorğun olanda da gözləri yummaq olmurdu. Buna görə hər iki-üç gündən bir evə qayıdıb yatırdıq.

Döyüşçülərə nə gətirirdilərsə, bizə də verirdilər. Ən çox çörək, pendir, lobya, balıq konservi və içməli su gətirilirdi. Əlbəttə, biz həmişəki kimi, az yeyib-içirdik. Elə tənzimləmişdik ki, hər gün sübh namazından qabaq bir dəfə yaxındakı evlərə tualetə getməyimiz kifayət edirdi.

Döyüş yerinə gəlişimizdən üç-dörd gün sonra ordu uşaqlarına isti paltar gətirdilər. Hava soyumuş, yağışlar başlamışdı. Polkovnik Kəhtəri bizim də hərəmizə bir gödəkcə verdi. O soyuqda bir manto ilə çətinlik çəkdiyimizi görürdü. Gödəkcə böyük idi, dizimə yaxınlaşırdı. Qolunu da qatlamışdım.

Bir neçə gündən sonra düşmən hücumunun qarşısını almaq üçün çoxlu döyüşçü irəli getdi; həm bizim tibbi yardım qrupumuzdan, həm İslam fədailərindən, həm də Polkovnik Kəhtərinin əsgərlərindən. Hücumun başlanmasından təxminən bir saat sonra Əlivəndlə başqa bir döyüşçü beş iraqlını əsir tutub yanımıza gətirdi. Əsirlər əllərini başlarına qoyub dayanmadan yalvarırdılar: "Dəxil Xomeyni! Dəxil Xomeyni!"

Əsirlərin biri yaralı idi. Əlivənd onu bizim səngərimizə gətirdi, ardınca da təcili yardım üçün gəlmiş doktor Mustəfəvini çağırdı. İlahə ilə Keşvər səngərdən çıxdılar ki, onlara yer olsun.

Əsirlərin ikisi qaradərili idi; hətta dodaqları da qara idi. Xuzistanda dərisi tam qara olanları çox görmüşdüm, amma bunlar fərqlənirdi. Üzlərinin dərisi gecənin qaranlığında da parlayırdı, görkəmləri iraqlılara bənzəmirdi. Saçları qıvrım idi, başlarının dərisinə yapışmışdı, başa düşmədiyimiz dildə danışırdılar. Yalnız Sudan sözünü başa düşürdük. Görünür, sudanlı idilər.

İraqlı yaralının ağrısı çox idi. Sinəsində 2-3 sm dərinliyində bir yara açılmışdı və qan gəlirdi. Tənəffüsü də anormal idi. Ağrı və qorxudan alnında iri tər damcıları vardı. Ən çox otuz yaşı olardı. Digər iraqlılar kimi enli və qalın qara bığı vardı.

Doktor Mustəfəvi qanaxmanın qarşısını almaq üçün yaranın üstünə iki tənzif qoyub bıçaqla içinə salmağa çalışırdı. Oturub səngərin divarına söykənmiş əsir bir qədər geri çəkildi və "Dəxil Xomeyni" qışqırmağa başladı. Doktor Mustəfəvi onun

qorxusuna məhəl qoymadan bıçağı yavaşca yaraya saldı. İraqlı qışqırırdı.

Çarəsiz əsirin gözləri qorxudan az qala hədəqəsindən çıxacaqdı. Bədəni söyüd yarpaqları kimi əsirdi. Digər əsirlərin vəziyyəti də ondan çox fərqlənmirdi. Elə bilirdilər ki, doktor Mustəfəvi bıçağı sinəsinə batırıb onu öldürəcək. Qorxudan bağrının yarılacağını görüb doktor Mustəfəviyə dedim:

– Nə edirsən?!

– Yarasını bağlayıram.

– Bu şəkildə?!

– Bəs necə? Gərək tamponlayıb qanaxmasının qarşısını alım.

– Axı bıçaqla?! Görürsən ki, qorxudan öləcək.

– Nədir, bəlkə ona yazığın gəlir?! İstəyirsən onu əzizləyə-əzizləyə yarasını bağlayım?!

Sözünə təəccübləndim.

– Yox, belə bir şey gözləmirəm. Ancaq belə də etmək olmaz. Onu ya gərək öldürəsən, ya da əsir tutmusansa, yaxşı rəftar edəsən. Bədbəxtə belə əzab vermək olmaz, - deyib əlavə etdim: "Onun üzünə, gözlərinə bax. Az qalır qorxudan canı çıxsın. Bu, Allaha xoş getməz".

– Özünü qoyunluğa vuran bu adamlar bizim uşaqlarımızı qanlarına qəltan edirlər, sən də deyirsən ki, bunlarla yaxşı rəftar edək!

– Məsələ fərqlidir, artıq bunlar əsirdirlər.

Əsirlər gözlərini bizdən çəkmirdilər. Yəqin fikirləşirmişlər ki, onları necə öldürmək barədə danışırıq. Doktor Mustəfəvi bıçağı kənara qoyub dedi: "Gəl, özün bağla". Dedim: "Mən ona əl vura bilmərəm. Özün bir az irəli çək, de ki, əlini yuxarı qaldırsın. Sonra da yarasına bir ovuc tənzif qoy, sinəsini bintlə bağla. Sən ki bunu məndən yaxşı bilirsən".

Doktor Mustəfəvi könülsüz halda əsirin yarasını dediyim kimi bağladı. Yazıq bir az özünə gəldi, amma hələ də qorxurdu.

Onu öz yaralılarımızla birgə geri göndərməli idik. Doktor Mustəfəvi onu qaldırdı, yavaşca səngərdən çıxdılar, bizdən bir neçə səngər geridə yerləşən yaralı səngərinə aparıb tez qayıtdı.

Əsirlərdən bir ultra qırmızı durbin götürmüşdülər. Əlivənd onu bizə verdi, bir-bir baxdıq. Çox sevinirdik. Hərbi imkanlarımıza bir durbin əlavə olunmuşdu.

Ertəsi gün təxminən sakit keçdi. İraqlılar bəzən atəş açır, uşaqların cavab atəşləri ilə qarşılaşırdılar. Yaralı da çox deyildi. Günortaya yaxın ratsiya ilə Seyid Haşimiyə əkiz uşaqlarının dünyaya gəldiyini xəbər verdilər. Sevinib ucadan təkbir deməyə başladı. Yoldaşlarının biri dedi: "Gərək indi xanımının yanında olaydın!"

Haşimi dedi: "Xanımımın təkliyi İmam Hüseynə (ə) fəda olsun! Bu Xomeyni Kərbəlasının Hüseyn Kərbəlası ilə fərqi yoxdur. Mənim burda olmağım da bir şərəfdir. Dua edin, Allah qəbul etsin".

Sonra bizə yaxınlaşıb sevincək dedi: "Bacılar, sizə yaxşı bir xəbərim var. İndicə dedilər ki, Allah mənə əkiz oğul verib".

Onu təbrik etdik. Polkovnik Kəhtəri də gəlib Haşimiyə əl verdi, üzündən öpüb təbrik etdi. Biz səngərlərimizə qayıtdıq. Haşimi məddahlığa başladı. Yaxşı səsi vardı.

Təxminən bir saatdan sonra iraqlılar yenidən atəş açmağa başlayanda irəliləmə əmri gəldi. Polkovnik Kəhtəri şəxsi heyət arasında qaçıb qışqırırdı: "Yalla! Hərəkət edin! Tərpənin! Vaxt itirmək olmaz!"

İlahə və Keşvərlə birgə səngərə qaçıb tibbi ləvazimatı yığdığımız iki qutunu götürdük. Qutuların birini Keşvərlə mən götürdüm, birini də İlahə ilə bir döyüşçü. Qutular ağır idi, yol yeriyəndə sürətimizi azaldırdı. Güllə və qəlpələrdən qorunmaq üçün əyilə-əyilə gedirdik. O şəraitdə həm də əlimiz silahda olmalı, atəş açmalıydıq. Bir qədər irəliləyəndən sonra üç döyüşçü çətinlik çəkdiyimizi görüb qutuları bizdən aldılar.

Qutuları verib yola düşdük. Hələ bir neçə addım atmamış yerə bir mərmi düşdü, qəlpəsi bizdən bir neçə metr aralıda gedən bir döyüşçünün qumbaraatanının barıtına dəydi. Barıt dərhal alışdı. Yaxınlığındakı bir neçə nəfər əvvəlcə şoka düşdülər, mərminin partlayacağından qorxub bir neçə addım geri çəkildilər, ancaq sonra biri dilləndi: "Barıt hissəsini ondan ayırın!"

Döyüşçülərin biri onun yanına qaçdı. Bunun üçün böyük cəsarət lazım idi. Mərmi hər an partlaya bilərdi. 17-18 yaşlı gənc döyüşçü kürəyi üstə yanan barıtın üstünə uzanıb qışqırırdı. O şəraitdə digərlərinin həyatını düşünürdü, elə uzanmışdı ki, mərmi partlasa, ətrafa xəsarət yetirməsin. Köməyə gedən döyüşçü cəld mərmi çantasının kəmərini onun bədənindən açdı, yanan qumbaraatanın da barıtını ayırmağa başladı. Xoşbəxtlikdən, cəld idi və bu işi yaxşı bacardı.

Oğlanın belində qan görüb İlahə ilə yanına qaçdıq. Belinə qəlpə dəymişdi. Normal tənəffüsündən və rənginin qaçmamasından bildik ki, ürəyinə və ağciyərinə xəsarət yetirməyib. Yarasına bir neçə tənzif qoyub sıxdım. "Allahu-əkbər" qışqırırdı. Binti bir neçə dəfə belinə dolayıb tamponu bərkitdim. Qanaxması dayandı. Yanımızda təcili yardım maşını vardı. Xızır məqamına gedən magistraldan çox uzaqlaşmamışdıq. Yaralı döyüşçünü tez təcili yardım maşınına qoyub geri göndərdilər.

Yolumuza davam etməyə başladıq. Təxminən iki saatdan sonra bir neçə istehkamdan keçib yeni mövqeyə yerləşdik. İraqlıların səngərlərinə çatmışdıq. Səngərləri möhkəm tikmiş, bəzilərinin yerinə evlərdən xalça gətirib sərmişdilər. Səngərləri müxtəlif konservlərlə və şokolad kimi yeyinti məhsulları ilə dolu idi.

Yeni mövqedə iki gün qalandan sonra qızlarla Zülfüqariyə evə qayıtdıq. Bir gecə istirahət edəndən sonra uşaqlarla birgə döyüşçülərin yanına yollandıq. Bu dəfə Bilqeys də gəldi.

Qayıtdığımız gün sübh çağı birdən-birə 200 metr aralıda iki İraq tankı peyda olub guruldaya-guruldaya bizə yaxınlaşmağa başladı. Bir anlığa bütün bədənimə istilik gəldi, ürək döyüntüm çoxaldı. Onları görəndə döyüşçülərimizin arasına da vəlvələ düşdü. Bizə çatsaydılar, həmin istiqamətin işi bitəcəkdi. Tank mərmi, pulemyot, hətta tırtılları ilə hamımızı məhv edə bilərdi. Bundan əlavə, həm tankın ekipajı vardı, həm də yanında bir neçə piyada bizə atəş açа-açа gəlirdi. Onları dərhal durdurmaq lazım idi.

Tank ovu xüsusi cəsarət istəyir, hər kəsin işi deyil. Qasim Fərruxi ilə Həsən Sorxu bir an da düşünmədən RPG qumbaraatanını götürüb tankları vurmaq qərarına gəldilər. J3 silahlarına da tank əleyhinə qumbaralar qoydular. O qumbaralar badımcan boyda idi və ona bənzəyirdi. Doktor Mustəfəvi də pulemyot götürdü. Mən Qasim Fərruxiyə yaxınlaşdım. RPG-yə mərmi bağlayırdı. Ona dedim:

– Biz də gəlirik.

– Hara inşallah?!

– Sizin getdiyiniz yerə.

– Bəyəm halva ehsanı verirlər?! Tanklardır! Gəlib nə edəcəksiz?

– Ən azı, sizi qoruyacağıq.

– Biz tək getməyəcəyik. Uşaqlar bu işi görəcəklər.

Daha bir söz demədim. Polkovnik Kəhtəri hərbçilərdən bir neçəsini tanklara qarşı hazırladı. Hamısı "Allahu-əkbər" deyə-deyə qaçıb təxminən 100 metr öndə dayandı. Həyəcandan nəfəs almırdıq. Tank və piyadalar dayanmadan uşaqlara atəş açırdılar. Dodaqaltı zikr və salavat deyirdim.

Uşaqların ilk mərmisi hədəfə dəymədi, amma bir neçə saniyədən sonra tankların birini vurdular. Tank yanmağa başladı. "Allahu-əkbər" səsi bütün çölü bürüdü. İkinci tank bunu görüb geri qayıtmağa başladı; piyadalar da həmçinin. Allah qəlblərinə böyük qorxu salmışdı. Çünki həmin bir tankla da mövqeyi bizdən ala bilərdilər. Onlar geri qaça-qaça uşaqlara atəş açırdılar. Döyüşçülərin bir neçəsi tez özlərini Qasim Fərruxigilə çatdırıb düşmənə atəş açmağa başladılar. Bir qədər sonra uşaqlar sevinib gülə-gülə yanımıza qayıtdılar. Polkovnik Kəhtəri onları qarşılayıb bir-bir qucaqladı. Gözəl anlar idi. Allahın yardımı ilə mövqe qorundu və Polkovnik Kəhtəri yenə irəliləmə əmri verdi.

Əşyalarımızı götürüb yola düşdük. Yanan tankın yanından keçib getdik. Təxminən 200-300 metr irəlidə yenə düşmən səngərləri gördük. Görünür, yenə tələsik qaçmışdılar; bəzi əşyaları səngərdə qalmışdı. Polkovnik Kəhtərinin əmri ilə oraya yerləşdik. Döyüşçülər səngər qazmağa başladılar. Düşmən səngərlərinin üzü bizim cəbhəyə tərəf idi, işimizə yaramırdı. Polkovnik Kəhtəri tapşırdı ki, bizə də səngər qazsınlar.

Orada bir gün qaldıq. Ertəsi gün günbatana yaxın qərara gəldik ki, evə qayıdıb bir qədər istirahət edək. Hamımız çox yorulmuşduq. Yavaş-yavaş gedirdik. Həm yuxusuz qalmışdıq, həm də irəliləmə bütün enerjimizi almışdı. Silahlarımızı yerlə sürüyürdük. Qasim Fərruxi yenə zarafata başlayıb dedi: "Əsgərlikdə bizə deyirdilər ki, bu silahlar şərəfinizdir, namusunuzdur, gərək onları qanınız kimi qoruyasız... İndi gəlib görəydilər ki, bu şərəf və namus bel dəstəsi kimi xırçıldaya-xırçıldaya yerlə sürünür!" Sonra ilk dəfə eşitdiyim yeni bir şeiri oxumağa başladı:

“Gərək qan çayında üzək! Gərək qatarla səfər edək!”

Həzrət Xızır məqamı ziyarətgahından və Zülfüqaridən keçdik. Qasim Fərruxi dedi: "Ay Allah! Nə olardı, qarşımıza

təkəri partlamış bir köhnə velosiped çıxaraydın, bir qədər az piyada gedəydik! Əcəb bəxtsiz adamlarıq biz!"

Bu iki qardaşın xarakterləri həqiqətən, yerlə-göy qədər fərqli idi. O biri qardaşı çox ciddi idi, bu birisi isə gülən və zarafatcıl! Dözə bilməyib sözümü dedim:

- Siz iki qardaş necə də fərqlisiz! Rəhmətlik Mahmud o qədər ciddi idi ki, yanında səhv buraxmaqdan qorxurduq, sənsə bu qədər zarafatcılsan!

- Hə, düz deyirsən. Mahmudla mən uşaqlıqdan bir-birimizdən fərqli idik. O, uşaqlıqdan çox ciddi və rəsmi adam idi, mən də həmişə deyib-gülürdüm. Böyüyəndə də həmin xarakterlər qaldı. Mən o qədər zarafatcıl idim ki, çoxları dindar olduğumu düşünmürdülər. Bəzi dostlarım məni tanıyana qədər bir müddət çəkdi.

Danışanda sanki yol qısalırdı. Xosrovabadın yaxınlığında bir maşın gəldi. Qasim Fərruxi əl yelləyib maşını saxladı. Vanet idi, şəhərə gedirdi. Ona minəndən sonra Qasimə dedim: "Deyəsən, Allah duanı qəbul etdi, köhnə velosiped yerinə sənə vanet göndərdi!"

Dedi: "Hə, doğru deyirsən! Kaş dualarım həmişə belə tez qəbul olaydı!"

# On beşinci fəsil:

## *Bəlalı səfər*

Əşrəflə birgə Zülfüqaridəki evin qapısının ağzında dayanmışdıq. Doktor Mustəfəvi gəlib dedi ki, bir iş üçün Sərbəndərə gedirəm, istəsəniz, mənimlə gələ bilərsiz. Qərara gəldik ki, biz də gedək. Eşitmişdim ki, Zəhra Hüseyni Sərbəndərdə anasıgilin yanına gedib. Beləliklə, həm Məryəm xalamgilə baş çəkmiş olardım, həm də ona. Anamgil uzaqda olduqlarına görə, ən azı, xalamı görə bilərdim. Bəlkə onlardan xəbəri də vardı. İlahəyə də təklif etdim, amma dedi: "Qorxuram, gəlsəm, atam yenə qayıtmağa qoymayacaq".

Abadan tamamilə düşmən mühasirəsində olduğuna görə ondan yeganə çıxış yolu Çuebdeh adlı kənddən keçirdi. Çuebdeh Abadanın kor nöqtəsi idi, cənub-şərqdən onun sonunda, Fars körfəzinin sahilində yerləşirdi. Adı xəritəyə düşməmişdi. Mahşəhr korpusunun uşaqları bu yolu ora alış-verişə gedən abadanlı ərəblərdən öyrənmişdilər. Çuebdeh kəndi canlı qüvvənin, yaralıların və ərzağın daşındığı yerə çevrilmişdi.

Soraqlaşandan sonra bildik ki, təcili yardımçı kimi Abadandan çıxa bilərik. Əlavə müalicəyə ehtiyacı olan

yaralıların başqa yerə köçürülməsi tibb bacılarının və təcili yardımçıların işi idi. Yaralıları Abadandan çıxarmaq üçün xəstəxanaya ad yazdırmalıydıq. Əşrəflə və doktor Mustəfəvi ilə birgə təcili yardımçı kimi OPD xəstəxanasına müraciət etdik.

İcazə vərəqəsini yalnız Müharibə otağı verirdi. Xoşbəxtlikdən, vərəqəmiz elə həmin gün hazır oldu. Neft şirkətinin OPD xəstəxanasına yaralı aparmağa gəlmiş bir neçə avtobus xəstəxanaya girdi. Avtobusların oturacaqlarını çıxarıb yerinə döşək sərmişdilər. Hər avtobusa təxminən 10-12 yaralı yerləşirdi. Yaralıları avtobuslara yerləşdirib Çuebdehə doğru yola düşüncə günorta saat iki oldu. Biz də avtobusların birinə mindik.

Avtobuslar Xosrovabaddan keçib təxminən iki saatdan sonra Çuebdehə çatdı. Yolda bəzən xəstələr qışqırırdılar. Çoxu huşsuz vəziyyətdə idi.

Tibb bacıları daim yaralıların arasında gəzir, onlara fikir verirdilər. Xüsusi qulluğa ehtiyacı olan yarasıaçıq xəstə olmasa da, bəzi yaralılara bəlli saatlarda iynə vurulmalı və ya dərman verilməli idi. Bu iş onları aparan tibb bacılarına tapşırılmışdı. Hər avtobusda üç tibb bacısı gedirdi. Ölkədə hələ hicab qanunu qəbul olunmadığından hamısı köynək-şalvar və ya köynək-yubka geyinmişdi. Nə ayaqlarında corab vardı, nə də başlarında örpək. Yalnız bir jaket geyinmişdilər ki, soyuqdan üşüməsinlər.

Çuebdeh palçıq evləri olan bir kənd idi, əsas yolunu Quruculuq cihadının uşaqları yaxınlarda asfalt etmişdilər. Təxminən bir cərgədə yan-yana düzülmüş kənd evlərinin önündə bir neçə hektarlıq boş torpaq sahəsi vardı, ondan sonra isə Fars körfəzi başlayırdı. Avtobusdan enəndən ilk kənd evinə qədər beş-on dəqiqə piyada getdik. Ora bizdən başqa da çoxlu adam toplaşmışdı. Camaatın arasında korpus və ordu hərbçilərindən tutmuş tibb bacısına, feldşerə, yaralıya və mülki insanlara qədər hər cür adam vardı. Bunlardan əlavə, çadır,

sellofan və taxtalarla örtülmüş çoxlu böyük qutular da vardı. Onların içində nə olduğunu bilmirdik.

Çuebdehdə gəmidən əlavə, hoverkraft adlı bir nəqliyyat vasitəsi də vardı. Mən o vaxta qədər yalnız adını eşitmişdim. Təxminən yarım saatdan sonra qəribə bir nəqliyyat vasitəsi peyda oldu. Yumurtaşəkilli böyük qırmızı bir şey idi, bütün dövrəsində enli bir kəmər kimi böyük qara boru vardı. Hoverkraft onun üstündə gedirdi. Bu nəqliyyat vasitəsi həm suda, həm də quruda hərəkət edə bilirdi. Suda olanda boru hissəsi hava ilə dolu olurdu, quruda isə havanı boşaldırdılar. Sudan quruya çıxanda gurultu və toz-torpaq qopdu. Quruda dayanıb qapılarını açdı.

Hərbçilər öz yükləri və bizdən tez gəlib növbədə dayanmış bəzi adamlarla birgə hoverkrafta mindilər. Yer doldu və biz növbəti hoverkraftın gəlişini gözləməli olduq. Nə qədər gözləyəcəyimizi isə heç kim bilmirdi.

Əşrəflə və doktor Mustəfəvi ilə birgə Fars körfəzinin sahilində gəzməyə başladıq. Bir saata yaxın heç nə danışmadan gəzib günəşin qürubuna tamaşa etdik. Xürrəmşəhrin darıxdırıcı qürublarının tam əksinə olaraq, Fars körfəzinin qürubu olduqca əzəmətli və gözəl idi.

Hava qaralmağa başlayanda Əşrəfə dedim: "Əşrəf, sabaha qədər hoverkraft gəlməsə, nə edəcəyik? Bu qədər kişinin içində necə qalacağıq?" Əşrəf dedi: "Hə, düz deyirsən. Amma gedəsi bir yerimiz yoxdur". Dedim: "Gəl kənd evlərinin birinə gedək. İki qız olduğumuzu görsələr, əmin ol ki, bizə yer verərlər. Belə çox yaxşı olar".

Doktor Mustəfəvi dedi ki, orada qalıb hoverkraftı gözləyəcək. Onunla sağollaşıb kənd evlərinə tərəf yola düşdük. Qorxurduq ki, hoverkraft gələr və biz yoldan qalarıq. Hərçənd, gələndə o qədər gurultu qoparırdı ki, xəbərsiz qalmamız mümkün deyildi.

Birinci evin yanında bir qoca kişi ilə qoca arvad dayanmışdı. Ərəb idilər. Kişinin üzü günəşdən yanmış, qırışmışdı. Salam verib dedim: "Ata can, biz Mahşəhrə getmək istəyirik. İcazə verirsiz bu gecə sizdə qalaq?"

Kişi əlini gözlərinin üstünə qoyub dedi: "Əl-Uyuni!"[1]

Arvad da dedi: "Fəduliç!"[2] Çox mehriban idilər, bizi çox səmimi qarşıladılar. Kənddə qalanların çoxunun ya getməyə yeri yox idi, ya da mal-qarasına görə qalmışdı.

Evə girdik. Tualetə gedib dəstəmaz aldıq və namaz qılmağa başladıq. Arvad gözlərini bizdən çəkmirdi. Ərəblərin xarakterinə bələd idim. Örpək bağlayanlara və namaz qılanlara xüsusi hörmət edirdilər. Namazdan sonra arvad süfrə sərdi, pendir-çörək gətirdi. Çoxdandır süfrə başında oturmadığımıza görə bizə əsl ziyafət oldu.

Şam yeməyindən sonra xurma ilə çay gətirdilər. Mən xurma və kişmiş kimi şeyləri çox da xoşlamırdım, yalnız anamın qışda düzəltdiyi müəssəldən bir az yeyirdim. Anam xurmanın toxumlarını çıxarıb ona zəncəfil, darçın və küncüd vurur, axırda da üstünə xurma şirəsi töküb yaxşıca qarışdırırdı. Ona müəssəl deyirdik. Yaxşı dadı vardı; həm şirin idi, həm də acı.

Gecə vaxtı iki tibb bacısı da bizə qoşuldu. Onlar da bizim kimi gecəni qalıb səhər çağı Mahşəhrə getmək istəyirdilər. Onlardan yaralıları soruşdum. Fikirləşirdim ki, birdən bütün tibb bacıları bunlar kimi kəndə gələrlər. Dedilər ki, çoxu yaralıların yanında qaldı, yalnız biz bir neçə nəfər gəldik.

Arvad bizə adyal gətirdi. Gözlədiyimizdən də tez yuxuya getdik.

Sübh çağı arvad bizi namaza oyatdı. Sonra səhər yeməyinə süfrə sərdi. Axşamkı ev çörəkləri, bir stəkan çay və bir qədər pendir bizim səhər yeməyimiz oldu. Hava işıqlaşana qədər

---

[1] Gözlərim üstə!

[2] Sizə qurban!

gözlədik, sonra arvadla kişiyə təşəkkür edib sağollaşdıq. Arvad əllərimizi tutub qəliz ərəb ləhcəsi ilə tez-tez bizə dua edirdi.

Sahilə gəlişimizdən çox keçməmiş hoverkraft gəldi. İşçilər əvvəlcə ağır yaralıları ehtiyatla yerləşdirdilər, sonra digər yaralıları. Xəstələr arasında hansısa orqanı kəsilənlər daha çox narahat idilər, yaralarının keyiməsi getdiyinə görə hoverkraftı gözləyəndə əziyyət çəkmişdilər. Əksəri cavan idi. Onlara çox yazığım gəlirdi.

Hoverkraftın işçiləri yaralıları yerləşdirəndən sonra dedilər ki, əvvəlcə təcili yardımçı bacılar minsinlər. Bunu deyən kimi bizimlə gəlmiş tibb bacıları qaşlarını çatdılar. Onlar rəsmi xəstəxana işçiləri idilər, ancaq əvvəlcə bizə yer verildiyinə görə üz-gözlərini turşutdular. Əvvəl biz mindik, sonra onlar.

Hoverkraftın kənarlarında qırmızı dəri çexollu bir cərgə oturacaq vardı. Onların üstündə oturduq. Hoverkraftın materialı sıxılmış plastik və rezindən idi, gördüyüm qədərincə dəmir və metal işlənməmişdi. Yüngül olsun deyə belə düzəldilmişdi.

Yaralıları yerə uzatdılar. Ən kiçik yerdən də istifadə edirdilər, əsla boş yer qalmadı. Bizdən sonra minmiş doktor Mustəfəvi də gəlib yanımızda oturdu. Əbd Məhəmmədi də yanında idi. Onunla salamlaşdıq. Əbd Xürrəmşəhrin İslami Şura Məclisindəki deputatı Yunis Məhəmmədinin qardaşı idi. Anaları Xürrəmşəhrin işğalından öncə came məscidində yemək bişirir və digər işlərə kömək edirdi. O, Sərbəndərə anasıgilə baş çəkməyə gedirdi.

Hoverkraftın mühərriki işə düşdü, yenidən gurultu qopdu, toz-duman qalxdı. Hoverkraft yerdən qalxıb yavaşca Fars körfəzinin üzərinə oturdu və yola düşdü. Təxminən beş dəqiqədən sonra hoverkraftın yaxınlığımızda oturmuş hərbçi işçisinə dedim: "Qardaş, biz bayıra çıxa bilərik? Fars körfəzini yaxından görmək istəyirəm".

Razılaşıb qapını açdı. Əyilib bayıra çıxdım. Kuzovun bir hissəsi üzərində ehtiyatla oturdum. İki işçi də ardımca gəldi.

İran körfəzinin genişliyi və sakit dalğaları möhtəşəm idi, üfüqə elə düyünlənmişdi ki, baxanda su ilə səmanı bir-birindən ayırmaq olmurdu. Bu sakitlik ona füsunkar gözəllik bəxş edirdi. Mən Ərvəndin, Karunun, Bəhmənşirin bulanıq və tələtümlü dalğalarında belə gözəllik görməmişdim.

İnqilabdan öncə televiziyada Amerikadakı afrikalı qaralar və quldarlıq barədə bir serial verilirdi. O serialda gördüyüm acı səhnələr uzun müddət yadımdan çıxmır, bütün beynimi məşğul edirdi. Serialın bir yerində varlı bir amerikalı axşam içib keflənir, afrikalı quluna əmr edir ki, həyətdə ocaq qalayıb üstünə böyük bir qazanda su qoysun. Su qaynayandan sonra səndələyə-səndələyə qula yaxınlaşıb əmr edir ki, qaynar suyun içinə girsin. Bədbəxt qul onun əl-ayağına düşüb yalvarmağa başlayır. O nə qədər acizlik göstərirsə, sahibi bir o qədər israr edir. Axırda onu qaldırıb qazanın yanına aparır, deyir ki, ya öz ayağınla suya girməlisən, ya da mən səni atacağam. Qulun yalvarıb ağladığı yerdə tapançasını çıxarıb başına bir güllə vurur və qul başı üstə qaynar suyun içinə düşür.

Bu səhnəni görəndən sonra bir müddət halım o qədər pis oldu ki, misli yox idi. Bir filmə baxmağa taqətim çatmadığı halda artıq bir aydan çox idi sərt kişi xarakterlərinə yiyələnmişdim. Öz əllərimlə yerlilərimin parça-parça olmuş bədənlərini toplamış, cəsədlərini morqa qoymuşdum.

Bir döyüşçü yaralananda hamıdan qabaq başı üstə qaçırdım. Kəsilmiş əl-ayaqları, parçalanmış kəllələri, dəlik-deşik olmuş, yırtılmış sinələri, şəhadətlə nəticələnən dəhşətli qanaxmaları və başqa yüzlərlə üzücü səhnəni görmək hərzamankı işim olmuşdu.

Belə bir şəraitdə Allahın bəşər əli dəyməmiş təbiətinə, firuzə kimi gözəl mavi rəngdə olan İran körfəzinin sakit və səbirli dalğalarına tamaşa etmək mənə olduqca xoş təsir bağışladı.

Bir anlığa özümə gəlib gördüm ki, təxminən on beş dəqiqədir iki nəfəri işindən etmişəm. Onlara dedim: "Qardaşlar, nə üçün burda dayanmısız? Məndən ötrü işinizdən olmayın. Siz girin içəri, mən də bir azdan gəlirəm".

Biri dedi: "Bacı, nə qədər ki siz burdasız, biz də burda qalmalıyıq".

Onlar bunu deyəndə fikirləşdim ki, birdən məni beşinci kolondan zənn edər, nəsə etmək üçün gəldiyimi düşünərlər; məsələn, elə bilərlər ki, hoverkraftı dəlməyə gəlmişəm! Tez dedim: "Onda gedək. Körfəzə tamaşa etməmə icazə verdiyiniz üçün təşəkkür edirəm". Dedilər: "Yox, tələsmirik, istəyirsizsə, qalın. Biz də burdayıq".

Dedim: "Yox, sağ olun. Artıq kifayətdir. Sizi bundan artıq işinizdən etməyim".

Həmin bir neçə dəqiqədə yorğunluğumun çıxdığını hiss edirdim. İçərinin havası darıxdırıcı və yorucu idi. Qarşıda uzun yolumuz vardı. Yaralıların iniltisi də bitmirdi.

Günorta vaxtı bizə balıq konservi gətirdilər. Oturduğumuz yerdə namaz qıldıq. Abadan mühasirədə idi, hoverkraft düşmən hədəfindən uzaqlaşmaq üçün yolunu uzaqdan salmağa məcbur olurdu. Normal şəraitdə iki saat çəkən bir yol o qədər uzandı ki, İmam Xomeyni limanına gecənin yarısı çatdıq. Nə edəcəyimizi, hara gedəcəyimizi bilmirdik. Gecənin o vaxtı Sərbəndərə maşın getmirdi. Biz də səhərədək küçədə qala bilməzdik. Əşrəfə dedim ki, gəl, bu yaxınlarda bir məscid tapıb səhərə qədər qalaq. Doktor Mustəfəvi də bizimlə gəldi.

Məsciddə qiyamət idi. İçəridə o qədər adam vardı ki, iynə atsaydın, yerə düşməzdi. Gecənin o vaxtı hamı məscidə sığınmışdı. Ailələr sıx-sıx oturub səhərin açılmasını

gözləyirdilər. Şəbistanın bir tərəfində güclə bir yer tapıb oturduq. Məsciddə çoxlu adam olsa da, havası soyuq idi, adyalsız yatmaq olmurdu. Dizlərimi qucaqlayıb divarın küncünə qısıldım.

Əşrəf də üşüyürdü, ancaq mən uşaqlıqdan soyuğa həssas olduğuma görə səhərədək çox çətinlik çəkdim və soyuqdan dondum. Allaha dua edirdim ki, bu vəziyyətdə xəstələnməyim. Sübh azanının səsinə yuxudan oyandıq. Şəbistandan çıxıb dəstəmaz aldıq. Namaz qılıb havanın işıqlanmasını gözlədik, sonra məsciddən çıxdıq.

Yerli sakinlərdən Sərbəndərin yolunu soruşduq. Bir prospekti göstərib dedilər ki, buradan gedin. İmam Xomeyni limanından çıxmalı idik. Piyada yola düşdük. Noyabrın ortaları və hava soyuq idi. Gecə də o qədər soyuqda qalmışdım ki, iliyimin donduğunu hiss edirdim. Soyuq səhər yeli dəyəndə bütün bədənim biz-biz olurdu. Xuzistanın qızmar günəşinin, isti və rütubətli gündüzlərinin yeri görünürdü. Örpəyimin aşağısı ilə ağzımla burnumu bükmüşdüm, nəfəsimlə isinməyə çalışırdım. Təxminən yarım saat piyada gedəndən sonra bir vanet gəldi. Sərbəndərə gedirdi.

Zəhragilin B kampında qaldıqlarını eşitmişdik. Mahşəhrdə yaponlar iki kamp tikmişdilər: A və B kampları. Birincisi vəzifəli işçilərin, mühəndis və texniklərin, ikincisi isə fəhlələrin idi. Hər ikisi Yeni Mahşəhrdə yerləşirdi. Köhnə Mahşəhr də qədim yerlərdən ibarət idi. Zəhragil Mahşəhrlə Sərbəndərin arasındakı B kampında qalırdılar.

Sürücü bizi B kampına apardı. Kamp dəmir torla hasarlanmışdı, bir giriş qapısı vardı. İlk baxışdan bir-birinə bənzəyən krem rəngli kiçik otaqlardan ibarət idi. Otaqlar əslində, müxtəlif ölçülərdə tikilmiş hazır konteynerlər idi.

Kampın qapısını döydük. Gözətçi qapını açıb kiminlə işimiz olduğunu soruşdu. Dedik ki, Hüseyni və Məhəmmədi ailələri

ilə işimiz var. İcazə verdi və içəri girdik. Konteynerlər şimali və cənubi olmaqla iki cərgədə düzülmüş, kiçik bir küçə əmələ gətirmişdi. Orada konteynerlərin həcminə nisbətən bir neçə dəfə çox adam yaşayırdı. Səhər tezdən olsa da, həyətdə çoxlu kiçik uşaq oynayırdı. Ayaqları yalın, üst-başları çirkli uşaqlar torpağın, palçığın, daşın üzərində oynayırdılar. Enli paltarlarından bilinirdi ki, özlərininki deyil.

Otaqların arasındakı səkilərin üstünə qaz ocağı qoyulmuşdu. Otaqların önündə bu başdan o başa qədər çoxlu ip çəkilmişdi, asılmış paltarlar kampın mənzərəsini korlayırdı. İrəlilədikcə gördüyüm bərbad vəziyyətdən ürəyim sıxıldı. Bir müddət qabaq bu ailələrin hər birinin evi vardı, indi isə belə acınacaqlı durumda yaşayırdılar. Bu səhnələri görüb gözlərim yaşardı.

Kiçik bir qız uşağı gördüm. Gözəl rəngli axan saçı səliqəsiz qayçılanmışdı, əynində köhnə paltar dostlarının ardınca qaçırdı. Görünür, anası hövsələsizlikdən, ya da naşılıqdan saçını belə qısaltmışdı. Əlbəttə, təkcə o belə deyildi. Su və digər imkanlar olmadığından əksər qızların saçı qısaldılmışdı.

Kampın hər yerindən yoxsulluq yağırdı. Çox çalışdım ki, özümü saxlayıb ağlamayım, amma həqiqətən, mümkün deyildi. Tez-tez əlimi yanaqlarıma çəkib gözlərimin yaşını silirdim. Bir gecənin içində xuzistanlıların başına nələr gəlmişdi!

Kanallarda qalmış su yosunlamış, pis qoxusu ətrafı bürümüşdü. Allah bilir, orada hansı xəstəliklər yayılmışdı. Kampda əsla belə səhnələrlə üzləşəcəyimi gözləmirdim. Qaçqınlıq və didərginlikdən beynimdə qalmış təsəvvür ailələrin came məscidində əşyalarının yanında dayanmaları idi.

Mat-məəttəl qalmışdım. Əşrəf də eyni vəziyyətdə idi. O da bu səhnələri görüb şoka düşmüşdü, üz-gözündən narahatlıq yağırdı. Deməyə sözümüz yox idi. Ürəyimdə Səddama qarğış edirdim. Kampın kişiləri rezin çəkələklər və uzun ərəb

köynəkləri ilə oyan-buyana gedirdilər. Bəzi qadınlar əllərində çaydan səhər yeməyi hazırlayırdılar.

Zəhragilin evlərinin harada olduğunu bilmirdik. Soruşmağa başladıq. Axtardığımız yerdə uzaqdan Zəhranın yavaş-yavaş bizə doğru gəldiyini gördüm. Bir-birimizə əl yelləyib qaçmağa başladıq. Çoxdan idi ayrılmışdıq, bir-birimizə həqiqətən, darıxmışdıq. Qucaqlaşıb ağlaşdıq. Öz əlimdə deyildi, göz yaşlarım dayanmırdı.

Zəhranı ayaq üstə gördüyümüzə görə çox sevinirdik. Allaha şükür, istirahət etdiyi müddətdə yarası yaxşılaşmışdı. Əbd Məhəmmədi və doktor Mustəfəvi də Zəhra ilə salamlaşdılar. Leyladan anasını və uşaqları soruşduq. Dedi ki, Allaha şükür, onlar da pis deyillər. Ondan Əlinin şəhid olduğunu anasına söyləyib-söyləmədiyini soruşdum. Dedi ki, atamın ölümü onu sarsıdıb, Əlini görməyə o qədər ümid bəsləyir və tez-tez soruşur ki, hələ deməyə cəsarət etməmişəm.

Əlinin dəfnini xatırladım. Həmin gün ona nə qədər yalvardım ki, anana de, gəlib onu görsün. Dedim ki, ana ilə oğulun görüşünü qiyamətə saxlama. Ancaq razılaşmadı, onun xəbər tutmasına imkan vermədi. Deyirdi ki, mən anamı hamıdan yaxşı tanıyıram, əgər Əlinin şəhid olduğunu bilsə, davam gətirə bilməz.

Ürəyimdə dua edirdim ki, zavallı qadın bizdən oğlunu soruşmasın. Bilirdim ki, bizim Əli də cəbhədə olduğundan mütləq soruşacaq.

Zəhraya dedim:

– Zəhra can, vallah səhv etdin. Əgər ilk gündən ona desəydin, indiyə birtəhər vəziyyətlə barışmışdı. Axı bir ananı belə gözüyolda qoymaq Allaha da xoş getməz!

Zəhra yenə əvvəlki sözlərini təkrarladı.

– Sabah, bilirdim ki, buna dözə bilməyəcək. Axı ona necə deyəydim ki, dörd-beş gün qabaq ərin öldü, indi də oğlun?! Sən

ki onun Əliyə necə bağlı olduğunu bilirsən. Onun canı Əlidə idi. Allah eləməmiş, başına bir iş gəlsəydi, bu qədər kiçik uşağı kim böyüdərdi?!

– Əgər indi məndən Əlini soruşsa, nə deyim?

– Siz Allah, soruşsa, deyin ki, yaxşıdır.

– Axı bunu necə deyə bilərəm?! Axı həqiqəti nə vaxt demək istəyirsən? Bəlkə saxlayıb ilində deməyi düşünürsən?

– Yox, qırxında deyəcəm. İstəyirəm ki, qohumları toplayıb Əliyə bir məclis keçirim. Belə olsa, onların arasında rahat əzadarlıq edər, tək olmaz və daha rahat qəbul edər.

Deməyə sözüm yox idi. Evlərinə getdik. Qapıdan girən kimi Leyla ilə anası ayağa qalxıb bizi qarşıladılar. Salamlaşıb hal-əhval tutandan sonra ilk olaraq, bunu soruşdu: "Sabah, mənim Əlimdən xəbərin var? Təzəlikcə görməmisən?"

Özümüzdən asılı olmadan Leyla ilə baxışımız toqquşdu. Yazıq fikirləşirdi ki, birdən vəziyyətdən xəbərim olmaz və həqiqəti söyləyərəm. Dedim: "Əli də yaxşıdır. O biri döyüşçülərin yanındadır".

O, kürd və ərəb ləhcəsi ilə dedi: "Bəs nə üçün bizə baş çəkmir? Bu uşaqların ataları üçün necə darıxdıqlarını bilmir?! Heç olmasa, gəlsin, bir dəfə onu görək". Dedim: "Əlinin korpusda mühüm vəzifəsi var. İndi müharibə gedir, cəbhəni buraxıb gələ bilməz. Əmin ol ki, vaxt tapan kimi mütləq gələcək".

Leyla rahat nəfəs alıb tez mövzunu dəyişdirdi, xürrəmşəhrli uşaqları soruşdu. Anası dedi ki, bu sözlərin yerinə qalx, yeyib-içməyə bir şey gətir. O, şübhələnmiş adamlar kimi qane olmadı, eyni sualı Əbd Məhəmmədiyə də verdi. Əbd də mənim sözümə bənzər bir cavab verdi. O isə yenə inanmadı. Bunu öz-özünə pıçıltılarından başa düşmək olurdu. Tez-tez dodaqaltı deyirdi: "Bəs nə üçün gəlmir?.. Bəs Əli niyə gəlmir?.." Sanki anaya nəsə ilham olunmuşdu.

Həsəni, Səidi və Zeynəbi ilk dəfə onda gördüm. Zeynəbi çağırıb qucağımda oturtdum, onunla danışmağa başladım. Gözəl, məzəli qız idi. Yumru ağ üzü, badam gözləri vardı. Kiprikləri qara və sıx idi.

Günorta azanına qədər söhbətləşdik. Azan veriləndə təxminən ikinci-üçüncü sinif şagirdləri olan Həsənlə Səid dəstəmaz alıb namaza başladılar. Onların namaz qılmalarından çox xoşum gəldi. Günorta yeməyinə toyuq bişirmişdilər. Xörək ləzzətli idi, birlikdə nahar etməyimiz çox ürəyimcə oldu. Yeməkdən sonra Əbd Məhəmmədi sağollaşıb getdi, doktor Mustəfəvi isə qaldı.

Zəhra dedi ki, səhiyyə evində işləyir. Kampın kiçik səhiyyə evi konteynerlərin birində yerləşir, bir-iki feldşer tərəfindən idarə olunurdu. Qərara gəldik ki, ora da baş çəkək.

Feldşerlərin biri əvvəllər Aslan və Günəş xəstəxanasında işləmiş abadanlı gənc idi. Hər gün səhərdən günortaya qədər bir həkim gəlib xəstələrə baxırdı. Konteynerin yerinə kovrolit döşəmişdilər, bayırda ayaqqabılarımızı çıxarmalı idik. Zəhra dedi: "Kampın mühiti o qədər çirklidir ki, ayaqqabı və çəkələklə girməyə icazə verilmir".

Konteynerin bir otağını müayinəyə, birini də iynə vurmağa ayırmışdılar.

Zəhra dedi: "Burda uşaqlar çox tez xəstələnirlər, qulaq və boğazları tez-tez ağrıyır. Gündüzlər hava isti olur, gecələr soyuq. Bu yazıqların da yalnız bir dəst paltarları var. Buna görə çox vaxt soyuqlayırlar, boğazları iltihab edir".

Orada bir neçə dəqiqə qalıb yenidən Zəhragilə qayıtdıq. Tez Abadana dönmək istəyirdik. Xalamgilə baş çəkməyi də planlaşdırmışdım, amma qorxdum ki, xalam məndən İlahəni soruşar. Ona nə qədər yaxşı olduğunu desəm də, inanmayacaq, deyəcək ki, yaxşı olsaydı, sənlə gələrdi, yəqin başına bir iş

gəlib. Bu baxımdan, nə qədər fikirləşdimsə, onlara getməyə cəsarətim çatmadı.

Zəhra ilə Leyla da bizimlə gəlmək istədiklərini dedilər. Dedim: "Bizimlə gəlsəz, əlbəttə, çox sevinərik, amma icazə vərəqəsi olmadan Abadana buraxacaqlarını sanmıram. Biz bura gəlmək üçün rəsmi tibb işçisi kimi xəstəxanaya adımızı yazdırdıq, sonra icazə vərəqəsi aldıq". Zəhra dedi: "Allaha təvəkkül! Gələrik, bəlkə buraxdılar".

Zəhranın bu sözündən sonra dərhal anası dilləndi:

- Mən də gəlirəm.

Zəhra yerində donub qaldı, sonra dedi:

- Hara gəlirsən?!

- Gedib Əlini görmək istəyirəm. O gələ bilmirsə, mən gedib onu görərəm.

- Sən gəlsən, uşaqların yanında kim qalacaq?! Elə Allahın ümidinə buraxıb gəlmək istəyirsən? Həm də görürsən ki, deyirlər heç kimi buraxmırlar. Bizə də icazə verib-verməyəcəklərini bilmirik.

Zavallı razılaşıb daha bir söz demədi.

Şam yeməyinə mərci şorbası bişirdilər. Günortakı kimi çox dadlı idi. Yeməkdən sonra çox söhbətləşdik. Ehtiyatla danışırdıq ki, ağzımızdan Əlinin şəhadətinə dair söz qaçırmayaq. Zəhra yenidən cəbhəyə qayıdacağına görə sevinirdi. Bunu onun üzündən bilmək olurdu. Biz də yenə bir yerə toplaşacağımıza görə çox sevinirdik. Yorğunluqdan meyit kimi uzandım, nə vaxt yuxuya getdiyimi, səhərin nə vaxt açıldığını bilmədim.

Zəhranın anası sübh namazından sonra böyük bir çaydanda qaynar su gətirib çay dəmlədi. Möhsün, Mənsur və Həsən də səhər yeməyinə gəldilər. Biz gecə rahat yataq deyə, onlar dayısıgilə getmişdilər. Doktor Mustəfəvi də onlarla getmişdi.

Səhər yeməyi yediyimiz yerdə birdən Zeynəb ağlayıb atasını istəməyə başladı. O, atasının cəsədini görmüşdü, şəhid olub

torpağa tapşırıldığından xəbəri vardı, ancaq beş-altı yaşda olduğuna görə hər yadına düşəndə darıxdığını gizlədə bilmirdi. Zəhra Zeynəbi qucağına götürüb ayağının üstə oturtdu və ona şeir oxumağa başladı:

“Biz "Ata çörək verdi" demirik daha! Ata qan verdi! Ata qan verdi!”

Bu şeiri Zeynəbə çox oxumuşdu. O, ağlaya-ağlaya yavaşca təkrar edirdi. Bu səhnədən sonra səhər yeməyi mənə zəhrimar oldu. Qəhərdən boğulurdum, amma çalışırdım özümü saxlayım, uşaqların qəlbindəki odu bir az da alovlandırmayım. Zeynəb mənə Muna qədər əziz idi. Onu qucaqlayıb öpəndə öz kiçik bacımı öpdüyümü hiss edirdim. Buna görə onun ağlamasına dözə bilmirdim, ciyərim yanırdı.

Səhər yeməyindən sonra sağollaşıb getmək istəyirdik, evdən çıxanda Zeynəb Zəhranın ayağından tutdu, getməyə qoymurdu. Zəhra oturub onunla danışmağa məcbur oldu. Ona dedi: "Biz dadaş Əlidən xəbər öyrənib gələcəyik".

Zeynəb də təkrarlayırdı: "Onda mən də gəlirəm!"

Nəhayət, anasının vasitəçiliyi ilə Zəhranı buraxdı. Doktor Mustəfəvi aşağıda bizi gözləyirdi, Əbd isə anasının yanında qalmışdı.

Axşam yağış yağmış, yer palçıq olmuşdu. Bir qədər gedəndən sonra palçıq ayaqqabılarımızın altına yapışdı, yol yerimək çətinləşdi. Dua edirdik ki, bir maşın gələydi, minib gedəydik. O vəziyyətdə yol yerimək çox çətin idi. Elə də oldu. Bir mikroavtobus gəldi, ona mindik. Mikroavtobus hərbçilərlə dolu idi. Camaat sıx dayanmışdı, iynə atsaydın, yerə düşməzdi.

Biz dörd gənc qız idik, o qədər kişinin arasında dayanmağımız düzgün deyildi. Bir neçə dəqiqədən sonra sürücüyə dedik ki, saxlasın, enək. Yeni Mahşəhrə doğru yenə piyada yola düşdük.

Təxminən 10 dəqiqədən sonra bir vanet gəldi. Əl elədik, saxladı. Sürücüyə dedik ki, Mahşəhr korpusuna getmək istəyirik. Dedi ki, minin. Əvvəlcə Zəhra ilə Leylaya icazə vərəqəsi almalı idik. Qərara gəlmişdik ki, əvvəlcə Mahşəhr korpusuna gedək, işimiz alınmasa, Quruculuq cihadına gedərik.

Mahşəhrə çatdıq. Maşından enib soruşa-soruşa korpusun qərargahına getdik. Komandiri görmək, Abadana getmək üçün icazə vərəqəsi almaq istədiyimizi söylədik. Dedilər: "Bu haqda danışmağa dəyməz! Hərbi bölgəyə getməyə icazə verə bilmərik". Təcili yardımçı olduğumuzu, evimizin orada yerləşdiyini nə qədər söylədiksə, razılaşmadılar. İsrarlı xahişimizi görüb dedilər: "Abadana giriş-çıxış icazəsi bizim səlahiyyətimiz daxilində də deyil. Biz özümüz də ora getmək üçün Müharibə otağından çətinliklə icazə vərəqəsi alırıq".

Suyumuz süzülə-süzülə korpusdan çıxdıq. Dedik ki, Quruculuq cihadının Mahşəhr şöbəsinə gedək, bəlkə orada işimizi düzəltdilər. Ancaq onlar da korpusda eşitdiyimiz sözləri dedilər. Ürəyimizə dağ boyda qəm-kədər çökdü. O vaxta qədər düşünürdük ki, dördümüz birlikdə qayıdacağıq, ancaq çənə vurduqca məyus olurduq. Dedik ki, Qızıl Aypara Cəmiyyətinə gedək, bəlkə orada istədiyimizə nail olduq.

Orada da alınmadı. Hamısı eyni sözü təkrarlayırdı. Həqiqətən, çarəsiz qalmışdıq. Son ümidimiz Müharibə otağı idi. Ora da baş vurduq. İki xüsusi təyinatlı nə istədiyimizi soruşdu. Dedik ki, icazə vərəqəsi almaq istəyirik. Bizi kobud şəkildə bayıra çıxardılar. İcazə vərəqəsi ala bilmədiyimizi görüb fikirləşdik ki, İmam Xomeyni limanına gedək, bəlkə oradakı hərbçi və dənizçilər arasında tanış tapılar və hoverkrafta minməyə icazə verərlər.

Estakadada iki xüsusi təyinatlı gördük. Biri Zəhranın qohumu idi. Onu Ağaydi çağırırdı. Məsələni ona danışdıq. Dedi ki, özümüz icazə vərəqəsi almağa çalışırıq, sizin də adlarınızı

yazarıq. Çox sevindik. Bu qədər ora-bura qaçandan sonra üzümüzə ümid qapısı açılmışdı. Artıq gözləməli idik. Hamımız dua edirdik ki, problem yaranmasın. Günorta namazına qədər estakadada qaldıq. Orada kiçik bir otaq vardı, namazxana kimi istifadə olunurdu. Dəstəmaz alıb namazlarımızı qıldıq. Axşamüstünə qədər ac-susuz oyan-buyana gedib-gəldik, nəhayət, Ağaydi dostu ilə gəlib dedi ki, icazə vərəqəsi hazırdır. Sanki dünyanı bizə verdilər. Səhərdən çəkdiyimiz əziyyətlərin yorğunluğu canımızdan çıxdı. Artıq dayanıb hoverkraftı gözləməli idik. O qədər gözlədik ki, axşam oldu. Liman yaralı və tibb bacılarından əlavə, hərbçilərlə də dolu idi. Çoxlu silah-sursatları da vardı.

İcazə vərəqələrimizi göstərib mindik. Zəhra ilə Leyla hamıdan çox sevinirdi. Nəhayət, çətinliklə olsa da, cəbhəyə gedirdilər. Ancaq Fars körfəzi üzərində yolçuluğumuzdan 45 dəqiqə ötməmiş burnumuza yanıq iyi gəldi, yavaş-yavaş ağ tüstü görünməyə başladı. Bir neçə dəqiqədən sonra işçilər dedilər ki, hoverkraftın bir hissəsi yanır və biz İmam Xomeyni limanına qayıtmağa məcburuq.

İnana bilmirdik. Bu qədər əzab-əziyyətdən sonra indi də bu problem qarşıya çıxmışdı və yenidən evə qayıdırdıq.

Hoverkraft sürətlə dövrə vurub geri döndü. Tüstü və yanıq iyi getdikcə çoxalırdı. Limana çatandan sonra hoverkraft quruya çıxmadı, suyun içində, estakadanın yaxınlığında dayandı. İşçilər cəld bir neçə böyük taxta düzüb estakadaya körpü saldılar. Sərnişinlər quruya çıxmağa başladılar. Taxta ayaqlarımızın altında laxlayır, su dizlərimizə qədər sıçrayırdı.

Hoverkraftdan uzaqlaşandan sonra arxa hissəsindən alov qalxdığını gördük. Allah çox rəhm eləmişdi. Əgər uzun yol getmiş olsaydıq, hoverkraft bizi endirəcək yer tapana qədər alov hər yeri yandırardı. Hoverkraftın işçilərindən bir neçəsi

yanğınsöndürən balonla alovu söndürürdü. Problem aradan qalxana qədər gözləməli idik.

İşçilərin birindən onun nə vaxt düzələcəyini soruşdum. Dedi: "Ciddi problem yaranıb, hərəkəti təhlükəlidir. Gərək təmirə saxlayaq. Nə vaxt düzələcəyi bəlli deyil". Soruşdum ki, bəs növbəti hoverkraft nə vaxt gələr? Dedi: "Güman ki bizdən sonra gəlib sərnişinləri aparıb. Sabaha qədər gəlməz".

O qədər hərbçinin arasında qalmaq düzgün deyildi, ancaq getməyə yerimiz də yox idi. Təxminən bir saatdan sonra Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlı Diversiya-Kəşfiyyat Mərkəzinin komandirlərindən biri bizə yaxınlaşıb dedi: "Bacılar, növbəti hoverkraft sabah səhər gələcək. Səhərədək burda qalmanız məsləhət deyil. Özünüz çox əziyyət çəkərsiz. Saat 12-yə qədər gözləyin, sonra bizim kampa gedin. Orada sizə bir otaq verərəm, istirahət edərsiz. Hoverkraft gələndə də özüm sizə xəbər verərəm".

Poqonları polkovnik, daha doğrusu birinci dərəcəli kapitan olduğunu göstərirdi. Yaşı qırxa yaxın olardı, ağır-ağır danışırdı. Gördük ki, pis təklif deyil. Bundan əlavə, soyuq da bizi çox incidirdi. Fars körfəzinin sahilində rütubət o qədər yüksək idi ki, bütün paltarlarım nəmlənmişdi, külək əsəndə soyuqdan titrəyirdim. Bununla yanaşı, matros kampında gecələmək də bizə çətin gəlirdi. Yazıq zabit o qədər danışdı ki, axırda razılaşdıq. Doktor Mustəfəvi də bizimlə gəldi.

Diversantların kampı estakadadan çox da uzaqda deyildi, amma gecənin qaranlığında bizə çox uzaq göründü. Kamp yan-yana qoyulmuş ağ rəngli hazır otaqlardan ibarət idi. Dam örtükləri mavi metaldan idi, ətrafı həmişəyaşıl ağacla hasarlanmışdı.

Komandir yolda söhbətə başlayıb adımızı və işimizi soruşdu. Özümüzü təqdim edib dedik ki, təcili yardımçıyıq. Ailəmizdən soruşdu, sonra da özünü təqdim edib dedi: "Biz Müdafiə

Nazirliyinin hərbi birləşmələrindənik. İnqilabdan öncə İngiltərədə ikiillik diversiya-kəşfiyyat təlimləri keçmişik. Amerikada da kurslar keçmişik".

İçəri girəndən sonra kiçik bir dəhlizə, oradan da böyük bir zala daxil olduq. Oradan beş-altı otağa qapı açılırdı. Matroslar cəld komandirə hərbi salam verdilər.

Birinci dərəcəli kapitanın bizə göstərdiyi otaq kovrolitlə döşənmiş beşçarpayılı təmiz otaq idi. O dedi: "İndi deyəcəm çarpayılara döşək sərsinlər".

Otaqdan çıxıb döşəklərin gətirilməsini gözlədik. Qapının ağzında dayandığımız yerdə Müharibə otağında bizə icazə vərəqəsi verməyən iki xüsusi təyinatlı oraya gəldi. Yaşları çox deyildi, uzaqbaşı 24-25 olardı. Bizi orada görüb çox təəccübləndilər. Bizdən bir neçə metr aralıda dayanıb bir-biri ilə danışmağa başladılar. Biz eşidək deyə ucadan danışırdılar. Müharibənin başlandığına görə narahat idilər və onu inqilabın boynuna atırdılar.

Bilmədim necə oldusa, başlarına qışqırmağa başladım: "Xəyanətkar sizsiz ki, İslam Respublikasının çörəyini yeyirsiz, amma cəsarət göstərmək zamanında ağzıza gələni danışırsız".

Hərə bir söz dedi. Mübahisə uzananda diversantların bir neçəsi də ora gəldi. Bir-ikisi bizi müdafiə edib onlara dedi: "Siz nə danışırsız?! Biz nə vaxt müharibəyə başladıq?! Məgər bizə necə qəfildən hücum etdiklərini görmədiz?! Biz nə etməli idik?! Dayanıb onlara baxmalıydıq?!"

Çırtma vursaydılar, bizdən qan çıxardı. Dövlətin silahlı qüvvələrinin başı olan, müharibədə sevə-sevə fədakarlıq göstərməsi gözlənilən xüsusi təyinatlıların İslam Respublikasını müharibə tərəfdarı adlandırması bizə çox ağır gəlirdi. Üstəlik, bu çərənləmələrlə digərlərini də yoldan çıxarır, iradələrini zəiflədirdilər.

Bu sözlərin haradan qaynaqlandığını bilirdim. Bu müddətdə Səddam bir neçə dəfə atəşkəs təklifi vermişdi, amma beynəlxalq sərhədlərə qayıtmaq istəmədiyinə, işğal etdiyi minlərlə kilometr ərazini özününkü saydığına görə İmam Xomeyni qəbul etməyib demişdi ki, bizim torpaqlarımızda bir İraq əsgəri də qaldığı təqdirdə müzakirə və atəşkəsdən söhbət gedə bilməz. Bundan sonra BBC-dən tutmuş digər radio və televiziya kanallarına qədər bütün beynəlxalq təbliğat şəbəkəsi Səddamı humanist və sülh tərəfdarı, iranlıları isə müharibə tərəfdarı kimi qələmə verməyə başlamışdı.

Daha bir söz demədim. Komandir gəldi. Onun ardınca iki əsgər bizə döşək gətirdi. Doktor Mustəfəvi bayırda, bizim otağımızın qapısının arxasında yatdı. Biz də içəri girdik və qapını kilidləyib yatdıq. Nədənsə həyəcanlı idim, səhərə qədər bir neçə dəfə yuxudan diksindim. Sübh azanında komandir qapını döyüb dedi: "Hoverkraft bir-iki saata çatacaq. Yavaş-yavaş hazırlaşın".

Dəstəmaz alıb namaz qılandan sonra bayıra çıxdıq. Komandir kampın həyətində bizi gözləyirdi. Onunla birgə yola düşdük. Dünənki xüsusi təyinatlılar da yanında idilər. Təxminən qırx dəqiqə piyada gedəndən sonra bir neçə cərgə avtobus dayanmış bir əraziyə çatdıq. Komandir dedi ki, burada səhər yeməyimizi yeyib gedək. Hərbçilərdən biri yerə süfrə sərdi. Hamımız oturduq.

Bir neçə dəqiqə keçməmiş Xürrəmşəhrin işğalından söz düşdü. Polkovnik dedi: "Heyif ki, Xürrəmşəhr işğal edildi!"

Diversantların biri onun sözünü təsdiqlədi. Bunun Bəni-Sədrin xəyanətinin nəticəsi olduğunu söyləmək istəyəndə komandir yerindən yay kimi atıldı, tapançasını çıxarıb bizə tuşladı. Biz də ayağa qalxdıq. Diversantlar dərhal silahlarının çaxmağını çəkib bizi dövrəyə aldılar. Komandir bizə dedi: "Tez avtobuslara tərəf qayıdın və əllərinizi maşının üstünə qoyun".

Sonra diversantlara dedi: "Tez onları yoxlayın". Qışqırdım: "Siz naməhrəmsiz. Heç kəs bizə toxuna bilməz!"

Bədənimizi yoxlamadan bir maşın gətirib bizi mindirdilər. Polkovnik hirslə dedi: "Müharibə otağına təhvil verin. Bunlar münafiqdirlər, beşinci kolondandırlar, tez barələrində ölçü götürülsün".

Əsla belə bir reaksiya gözləmirdik. Axşamdan bizə o qədər hörmət etmişdi, indi isə kobud şəkildə Müharibə otağına təhvil verirdi.

Bizi ordunun Müharibə otağına apardılar. Yolda danışmağa icazə vermədilər. Sanki həqiqətən, əsir tutmuşdular. Müharibə otağında bizə bir neçə sual verdilər, Xürrəmşəhr və Abadandakı fəaliyyətlərimizi və pasdar ailələrindən olduğumuzu bilib dedilər: "Bunların bizə dəxli yoxdur. Mahşəhr korpusundakı İnqilab məhkəməsinə aparın. Orda hökm çıxarılmalıdır".

Korpusa getdik. Xüsusi təyinatlılar bizi təhvil verib getdilər. Hər birimizi tək-tək dindirməyə apardılar. Əvvəl doktor Mustəfəvini apardılar, sonra Zəhranı. Dindirən adam Zəhranı tanıdı. O, bayıra çıxanda gördük ki, ağlayıb. Qardaşı Əlinin pasdar vəsiqəsi əlində idi. Ona dedim: "Zəhra, nə üçün ağlamısan? Biz bir şey eləməmişik ki, narahat olasan".

Növbə mənə çatanda içəri girdim. Dindirən adam sıx qara saqqallı, otuz yaşlı bir gənc idi. Günəş üzünü yandırmışdı. Başında toxunma papaq da vardı. Adımı soruşdu. "Vətənxah" - deyən kimi dilləndi: "Sən Əlinin bacısısan? Yəqin xəbərin var, Əli yaralanıb. Bəs nə üçün burdasan, ailənin yanında deyilsən?"

Əlinin yaralandığını eşidib özümü itirdim, amma tez toparlandım. Qardaşımın başına nə gəldiyini, yarasının hansı həddə olduğunu bilmirdim, amma bu barədə soruşmağın yeri deyildi. Ona dedim: "Anamgil Bürucerddədir, mən də Abadan cəbhəsində təcili yardımçıyam. İndi də ora getmək istəyirəm".

Dedi: "Lazım deyil cəbhəyə gedəsən? Gedin, nə vaxt ehtiyac olsa, özümüz xəbər verəcəyik".

O qədər amiranə tərzdə danışırdı ki, bir söz deyə bilmədim. Sonra bayıra çıxıb adamlarının birinə dedi: "Bunları Mahşəhrə evlərinə apar".

Maşına mindik. Birbaş Zəhragilə getmədik. Evimizin yerini öyrənmələrini istəmirdik. Sərbəndər kiçik yer idi, söz tez yayılırdı. İstəmirdik camaatın arasında söhbət gəzsin ki, bu qızları beşinci kolon kimi tutubmuşlar. Dedik ki, evimiz Yeni Mahşəhrdədir. Orada sürücünü bir az sağa-sola döndərib bir evin önündə dedik ki, buradır. Bir qədər gözlədik, sürücü gedəndən sonra kampa yola düşdük.

Zəhranın anası evdə deyildi, Sərbəndərə alış-verişə getmişdi. Zəhra ilə Leyla kampda qaldılar. Biz də qərara gəldik ki, nə yolla olursa-olsun, Abadana gedək. Zəhra artıq qalmağa razılaşmışdı. Deyirdi ki, bəlkə hoverkraftın yanması da Allahın işi imiş. Sağollaşanda qucaqlaşdıq, çox ağladı. Onu başa düşürdüm.

Şadiqan üçyoluna qədər maşınla getdik. Magistralın qalan hissəsi iraqlılarda olduğuna görə irəliləyə bilmədik. Abadana getmək üçün İlahənin etdiyi kimi, bütün yolu magistralın kənarındakı çöllüklərlə piyada getməli idik. Bu isə asan deyildi. Və biz ən çətin yolu seçməyə məcbur idik.

Əsirlik təhlükəsi yorğunluqdan, aclıq-susuzluqdan - hər şeydən əhəmiyyətli idi. Abadanın yolunu soruşduğumuz hərbçi demişdi ki, küləyin əsdiyi istiqamətə getməliyik. İraqlılar əks tərəfdə idilər. Uşaqlarla məsləhətləşib piyada getmək qərarına gəldik. Ondan qabaq bir qumquma tapıb özümüzlə götürdük. Yağış yağdığına görə çöllük palçıq olmuşdu, ayaqqabılarımıza yapışıb hərəkətə mane olurdu. Çətinliklə olsa da, yolumuza davam etdik.

İki saatdan sonra qırmızı bir cadillac bizə yaxınlaşıb yanımızda dayandı. Maşında ailə vardı. Sürücü soruşdu ki, hara gedirsiz? Dedik ki, Abadana. Dedi: "Belə getsəz, gecə də çata bilməzsiz. Üstəlik, yolun ətrafını raketlə vururlar. Gəlin, estakadaya qədər birlikdə gedək".

Başqa bir yol da olduğunu bilmirdik. Elə bildik ki, məqsədi İmam Xomeyni limanının estakadasıdır. Dedik: "Bizim icazə vərəqəmiz yoxdur, oradan gedə bilmərik". Dedi: "Biz gəmi ilə gedəcəyik. Buna icazə lazım deyil".

Doktor Mustəfəvi öndə oturdu, biz də birtəhər arxaya sığdıq. Onları Allah yetirmişdi. Əks-təqdirdə, Allah bilir, nə vaxta qədər çöllükdə əsir olacaqdıq.

Günortaya yaxın kiçik, amma qələbəlik bir estakadaya çatdıq. Camaatı və gəmiləri görüb çox sevindik. Sanki bədənimizə yeni can gəldi. Estakadaya gedib bir gəmiyə yaxınlaşdıq. Oradakıların çoxu korpus uşaqları və könüllü döyüşçülər idi, Müdafiə Nazirliyi onlara icazə vərəqəsi vermirdi. Bütün vücudumuzla Allaha şükür etdik. İstirahət üçün bir tərəfdə oturduq. Ayaqlarımız çox ağrıyırdı. Yorğunluğumuzu çıxarandan sonra dəstəmaz alıb namazlarımızı qıldıq. Namazdan sonra dedilər ki, Çuebdehə kiçik gəmi gedir, gərək tez minək. Estakadadan təxminən üç-dörd metr aralıda idi, taxtadan kiçik körpü düzəltmişdilər. Körpü təhlükəli idi, hər addım atanda tərpənirdi. Əşrəflə əl-ələ tutub ehtiyatla keçdik.

Gəminin hər yeri taxtadan idi. Üç-dörd qülləsi vardı. Yerində anbara qapı açılırdı, camaat əşyalarını ora qoyurdu. Bunlardan əlavə, bir kapitan otağı da vardı. Gəmiyə təxminən 200 nəfər mindi və bir saatdan sonra yola düşdük.

Bizi gətirən maşındakı xanımla və başqa bir neçə qadınla birgə yüklərin arxasına keçdik. Belə daha rahat idik. Doktor Mustəfəvi də kişilər tərəfə getdi.

Hoverkraftdan fərqli olaraq, gəminin təkanları çox güclü idi. Bilmirdik ki, yüngül olduğundan Fars körfəzi üzərində oynayır, yoxsa dalğalar sərtləşib. Bu təkanlardan qorunmaq üçün bir-birimizə yapışmağa məcbur idik. Gəmidə olduğumuz bir neçə saatda səhərki piyada yolçuluğumuz qədər yorulduq. Korpus uşaqları "İlahi əzuməl-bəla" duasını oxuyurdular. Onların yanında olduğumuza görə qorxmurduq.

Təxminən dörd-beş saat gedəndən sonra təkbir və salavat səsi gəldi. Çuebdehə çatmışdıq. Allahın köməyi ilə macəra dolu səfərimiz xeyirlə bitdi və nəhayət, Abadana gedə bildik.

Gəmidən enəndə yenə körpü əvəzi qoyulmuş taxtanın üzərindən keçdik. İşçilərin bir neçəsi böyük rezin şinlərlə yaxınlaşdılar ki, kimsə suya düşsə, tez ona atsınlar. Salavat deyə-deyə taxtanın üstündən keçdik.

Enəndən sonra camaatla birgə piyada Abadana yola düşdük. O qədər camaatı yerbəyer etməyə maşın yox idi. Yenə piyada getməyə məcbur idik. Səhərki piyada yolçuluğumuzun və gəmi təkanlarının yorğunluğu canımızdan çıxmamışdı, ancaq döyüş yerinə çatmağa ümidlə addım atırdıq.

Bir qədər gedəndən sonra Xosrovabad magistralına çatdıq. Ümidimiz vardı ki, ən azı, ondan sonra bir nəqliyyat vasitəsi tapıb gedəcəyik. Yolun kənarında dayandıq. Qərara gəldik ki, bir neçə dəqiqə gözləyək, maşın tapmasaq, yenə piyada gedək. Beş-altı dəqiqə sonra uzaqdan ordu hərbçiləri ilə dolu bir ZiL göründü. Doktor Mustəfəvi əl eləyib maşını saxladı. Arxasında tutumundan iki dəfə artıq adam vardı, amma yenə qalxdıq, hərbçilər sıxlaşıb bizə ayaq üstə dayanmağa yer verdilər.

Hər üçümüz Karvansara otelinin yanında maşından enib içəri girdik. Əşrəflə birgə mətbəxə bacılarımın yanına getdim. Ailə üzvlərimizin hərəsi bir tərəfdə olduğuna görə Fevziyə ilə Şahnazı görüb ruhlanırdım. Gecəni oteldə uşaqların yanında qaldıq.

# On altıncı fəsil:

## *Yaralı bəsicilər*

Ertəsi gün Əşrəf və İlahə ilə birgə Zülfüqariyə getdik. Döyüşçülər dedilər ki, iraqlılar bir neçə dəfə hücuma keçiblər, axşama doğru hücumlarının artacağı gözlənilir. Belə olan təqdirdə təcili yardıma böyük ehtiyac olacaqdı. Qərara gəldik ki, gecəni səngərimizdə qalaq.

Axşam namazlarımızı qılandan az sonra iraqlılar atəşə başladılar. Qaranlıq səmanı yaran raket və güllələrin qırmızı izini başlarımız üstə görürdük. Güclü atəş yağırdı, qradların səsi bir an da səngimirdi. Düşmən artilleriyası dayanmaq bilmirdi. Bütün atəş boyu İraq fişəngləri çölü gündüz kimi işıqlandırırdı. Tankların səsi gəlirdi. Kəlmeyi-şəhadətimizi oxuduq.

Ətrafımızı qatı tüstü və toz-torpaq bürümüşdü. Qumbaralarımızı əlimizdə tutmuşduq ki, iraqlılar yaxınlaşsalar, özümüzlə birgə onları da bitirək. Şərait o qədər qorxulu idi ki, hamımız silahlarımızın çaxmağını çəkib hər an düşmənin başımız üstə peyda olacağını gözləyirdik. Vəziyyət iki-üç saat belə davam etdi. Bir neçə dəfə səngərimizin yaxınlığına mərmi düşdü, başımıza torpaq töküldü, amma bizə qəlpə dəymədi. Qəribə idi. Atəşin belə güclü olmasına baxmayaraq, yaralımız

yox idi. Görünür, hamı səngərdə olduğuna görə idi. Polkovnik Kəhtəri və başqa bir neçə nəfər qışqırırdılar ki, hamınız səngərlərinizə girin.

Sübhə yaxın ətrafdakı səs-küy və atəş dayandı. Sübh namazımızı qılıb qurtarandan sonra İslam fədailəri döyüşçülərindən bir neçəsi bizim səngərimizə qaçıb qışqırdılar: "Təcili yardım! Təcili yardım!"

Tez səngərdən çıxdıq. Tövşüyə-tövşüyə dedilər ki, iki yaralımız var. Onların ardınca təxminən yeddi-səkkiz dəqiqə qaçdıq. Birdən döyüşçülərin biri qışqırdı: "Hamınız dayanın! Bura minalanmış sahədir".

İlk dəfə idi minalanmış sahə görürdüm. Geniş ərazi idi. İkinci dünya müharibəsinə aid filmlərdə çəllək boyda minalar görmüşdüm. Onları dənizə, İngiltərənin hərbi gəmilərinin yoluna qoyurdular. Hamımız dayandıq. Həmin döyüşçü dedi: "Bacılar, ayaqlarınızın altına baxın. Oradakı parıltılı simlər minalarındır. Ehtiyatlı olun, ayağınız onlara dəyib dartmasın".

Hava işıqlanmış, günəşin minalanmış sahənin mis simləri üzərindəki inikası gözəl mənzərə yaratmışdı. Sanki yerə qızılla xətlər çəkmişdilər. Ən kiçik səhv kollektiv ölümə səbəb ola bilərdi.

Birdən böyürlərimdən, qabırğalarımın altından güclü ağrı başladı. Bilmirəm sürətlə qaçdığıma görə belə olmuşdum, yoxsa minanın qorxusundan. Ayaq üstə qala bilmirdim. İlahəyə dedim:

- Vay! İlahə, ağrıdan ölürəm.

İlahə təəccübləndi.

- Doğrudan?! Birdən-birə nə oldu, Sabah?

- Bilmirəm. Ancaq böyürlərim və qabırğalarımın altı ağrıdan öldürür.

- İndi heç nə edə bilmərik. Bir az döz, görək başımıza nə gəlir.

Ağrıdan qarnımın bütün əzələləri qıc olmuşdu, yavaş-yavaş əyilirdim. Əzab-əziyyətlə və ağır-ağır irəliləyib bir neçə metr öndə dayandıq. İki yaralı çox ağır vəziyyətdə yerə yıxılmışdı. Ayaqlarının altında mina partlayıb onları dəlik-deşik etmişdi, bud və baldır sümükləri sınıb bayıra çıxmış, bədənlərindən çoxlu qan axmışdı. Ayaqları dizdən dəridən asılı qalmışdı, əmin idim ki, kəsiləcək. Birinin əli biləkdən kəsilmişdi, qopmasına az qalırdı. O vaxta qədər müxtəlif yaralar görsəm də, onların yarası bir başqa idi. Şişmiş, saçaq-saçaq olmuş yaraları bədənlərini qorxunc hala salmışdı. Əzilmiş sümükləri ət və dəridən çıxmışdı.

Əli biləkdən sallanan yaralı sinə və qarın nahiyələrindən də qəlpə yarası almışdı. Onun vəziyyəti olduqca ağır idi, bir neçə dəqiqədən sonra şəhid olacağına şübhə etmirdim. Bütün paltarı, sinəsi, qarnı və böyürləri qana bələşmişdi. Hər ikisi 18-19 yaşlı gənc idi. Onları görəndə öz bədənimin ağrısı yadımdan çıxdı.

Hansından başlayacağımızı bilmirdik. Bəsici yoldaşlarından biri narahat halda dedi: "Bunlar fişəng çətirlərini yığmaqdan ötrü komandirə xəbər vermədən bura gəlmiş, minaya düşmüşlər".

Bunu eşidib çox narahat oldum: Axı belə şey olar?! Məgər canlı qüvvəmiz o qədər çoxdur ki, bu şəkildə itiririk?!

Sarğı taxtalarımızı çıxarıb diqqətlə onlara yaxınlaşdıq. Yerdəki simlərdən çox ehtiyatlanırdıq. Yaralılar o qədər qan itirmişdilər ki, yavaş-yavaş özlərindən gedirdilər, səsləri azalırdı. Sarğı taxtalarını qoymaq istəyəndə əllərimiz əzilmiş ətə və sümüyə batırdı. Çətin iş idi. Onlara ürəyim yanırdı. Allah bilir, necə əzab çəkirdilər! Çox fikir verirdik ki, xəsarət almış bədən üzvləri qopub düşməsin. Onlara çox çətinliklə bir qədər tibbi yardım göstərə bildik.

Hər ikisini ehtiyatla xərəyə qoyub gəldiyimiz yolu qayıtdıq. O vaxta qədər yaralıların fikri beynimi o qədər məşğul etmişdi

ki, iraqlıların geri çəkildiyini hiss eləməmişdim. Qəribə idi; gecədən səhərə qədər başımıza o qədər atəş yağdırıb bizi tərpənməyə qoymamışdılar, səhər çağı da irəliləmək yerinə geri çəkilmişdilər! Təəccüblə səngərlərinə baxıb bu qələbəyə görə Allaha şükür edirdim. Bir neçə gün idi düşməni geri qovub irəliləyirdik.

Yaralıları geri göndərdiklərinə əmin olandan sonra qərara gəldim ki, istiqamət komandirini tapım. Camaatın balalarının tikə-tikə olmuş əl-ayaqları bir an da gözlərim önündən getmirdi. O vaxta qədər bəlkə ondan dəfələrlə üzücü səhnələr görmüşdüm, amma səhlənkarlıq və məsuliyyətsizlik məsələsi ortaya gələndə dözmək olmurdu. İslam fədailəri döyüşçülərinin birindən soruşdum:

– Bu istiqamətə kim rəhbərlik edir?

– Bu zona korpus uşaqlarının nəzarətindədir.

– Bilirəm. Komandiri tanıyırsan?

– Bəli. Adı Mürtəza İsfahanidir.

– Səngəri hardadır?

Təxminən 10-15 dəqiqəlik məsafədə bir yeri göstərdi. Oraya yollanıb soruşa-soruşa komandirin səngərini tapdım. Bilirdim ki, minaya düşmüş uşaqların komandiri ağa Haşimidir, ancaq istiqamətə rəhbərlik korpus uşaqlarına tapşırıldığından mövqeyə və canlı qüvvəyə diqqətlə nəzarət etmələri lazım idi.

Komandir səngərin yanında dayanmışdı. Danışana qədər elə bilirdim ki, xuzistanlı uşaqlardandır, dərisini günəş yandırıb. Ancaq danışmağa başlayanda bildim ki, isfahanlıdır.[1] Salamlaşıb hal-əhval tutandan sonra özümü təqdim edib dedim: "Mən Xürrəmşəhrdən təcili yardımçıyam. Bura sizdən azca gileylənməyə gəlmişəm".

---

[1] Onda bilmirdim ki, Mürtəza İsfahani Səddam tərəfindən başına pul qoyulan Qara Mürtəza və ya Qara qartal Mürtəza Qurbanidir. O, indi general-leytenantdır.

– Nə olub, bacı?

– Axı iki cavan oğlanın üç-dörd fişəng çətrinə görə ölməsi düzgündür?! Onlara kimsə nəzarət etməli deyil?!

– Nə olub? Aydın danışın, görüm nə baş verib.

Hadisəni danışdım. Çox narahat oldu.

– Neçə nəfər idi?

– İki nəfər. Birinin vəziyyəti olduqca ağırdır. İnanmıram sağ qala. O birinin də mütləq əl-ayağı kəsiləcək.

– Bacı, xəbər verdiyinə görə sağ ol. Uşaqlara tapşıraram daha diqqətli olsunlar. İndi adam göndərərəm, görüm onların taqım komandiri kim imiş və nə üçün səhlənkarlıq edib.

Ona təşəkkür edib sağollaşandan sonra öz səngərimizə qayıtdım.

Şəxsi heyətə irəliləmə əmri verildi. Hamı yola düşdü. Minalanmış sahədən keçib 500-600 metr irəlilədik. İraqlılar öz mövqelərindən geri çəkilmiş, Fəyyazi cəbhəsinə və yeddinci stansiyanın arxasına keçmişdilər.

Həmin andan cəbhəmiz dəyişdi və biz pasterizə edilmiş süd zavodunun yaxınlığına yerləşdik. Polkovnik Kəhtərinin əmri ilə yenə hamı səngər qazmağa başladı. Bu dəfə də əsgərləri bizə kömək etməyə göndərdi. Zavod bizimlə düşmənin arasında qaldı. Bu irəliləməyə çox sevindik. Hamıdan çox polkovnikin özü sevinirdi. O, xüsusi bir itki vermədən bir neçə kilometr irəliləyə bilmişdi.

# On yeddinci fəsil:

## *Qasim Fərruxinin şəhadəti*

İlahə bir aydan çox idi Abadana gəlmişdi. Bir gün dedi ki, Sərbəndərə gedib anasıgilə baş çəkmək istəyir. Ona dedim: "İlahə, getsən, ola bilər, bir də qayıda bilməyəsən". Dedi: "Eybi yoxdur. Çoxdandır onlardan xəbərim yoxdur. Darıxmışam. Gedim, baş çəkim. Gəl, birlikdə gedək. Sən də bir az istirahət elə, havanı dəyiş, sonra gələrsən".

Gördüm ki, pis fikir deyil. İcazə vərəqəsi barədə düşünməli idik. Məsələni Qasim Fərruxiyə danışdım. Dedi ki, sizə icazə vərəqəsi alaram.

İcazə vərəqəsinin adı çəkiləndə halım pis olurdu. Zəhra ilə Leylaya icazə vərəqəsi alanda çəkdiyimiz əzab-əziyyətlər, acı xatirələr yadımdan çıxmırdı. Qasim Fərruxiyə dedim:

– İcazə vərəqəsini hardan alacaqsan?

– Xürrəmşəhr korpusundan.

– İnanmıram bu rahatlığa verələr. Taliqani xəstəxanasına təcili yardımçı kimi müraciət etsək, bəlkə daha asan olar.

– Mən korpusa müraciət edim, alınmasa, siz deyən kimi edərik.

Onunla birlikdə Xürrəmşəhr korpusunun Persiya otelində yerləşən qərargahına yollandıq. Persiya oteli Karvansara otelindən təxminə yüz metr aralıda idi, çox gözəl binası vardı. Həyəti, üstünə metal nərdələr düzülmüş yarım metrdən qısa bir divarla hasarlanmışdı. Giriş qapısının yanında qarovul otağı vardı. Otelə çatanda Qasim dedi: "Siz burda gözləyin, mən indi gəlirəm".

İlahə ilə birgə yolun o tərəfinə keçib gözləməyə başladıq. Bir neçə dəqiqədən sonra qardaşım Əli oteldən çıxdı. Onu görməyimə o qədər sevindim ki, yolun o tərəfindən qışqırdım: "Əli! Əli!"

Əli səsimi eşidib üz-gözünü turşutdu, deyinə-deyinə yaxınlaşmağa başladı: "Siz burda nə edirsiz? Axı sizin yiyəniz yoxdur?!"

Onun üçün çox darıxmışdım, iki ay idi görmürdüm, o isə ətrafdakı adamlara fikir vermədən başıma qışqırırdı. Yaxınlaşanda dedim: "Əli can, sən Allah, bir az yavaş, hamı bizə baxır, ayıbdır".

Bozumtul-yaşıl korpus forması geyinmiş, başına narçiçəyi rəngdə yun papaq qoymuşdu. Hiss elədim ki, son görüşümüzdən sonra boyu bir qədər ucalıb. Sanki hər gün daha da kişiləşirdi. Onu sağ-salamat gördüyümə çox sevindim.

Hirslə dedi: "Elə bilirsiz xəbərlər mənə çatmır?! Elə bilirsiz bilmirəm hardasız?! Deyim ki, hansı gün Zülfüqari cəbhəsinin harasında olmusuz? Allaha and içmişdim, sizi döyüş yerində görsəm, özüm bir güllə vuracam ki, iraqlıların əlinə keçməyəsiz. Məgər kişilər ölüb ki, döyüş yerinə siz gedirsiz?!"

Yaralanması haqda soruşmaq istəyirdim, amma o qədər hirsli idi ki, danışmağa imkan vermirdi. Belə olacağını gözləməli idim. Görünür, Zülfüqaridə mənimlə çox soyuq rəftar edən, salamımı güclə alan pasdar dostları ona hər şeyi demişdilər.

Onun davranışından çox narahat oldum. Başımıza qışqırdığı yerdə Qasim Fərruxi gülərüzlə əlində icazə vərəqələri gəldi. Əliyə əl verib salamlaşdı, halını soruşdu. Sonradan bildik ki, Ərəb Xalq Döyüşçüləri Komitəsinin iğtişaşları zamanı tanış olublar. Əli ona fikir vermədən deyinməyə davam edirdi. Qasim Fərruxi dedi: "Nə olub, Əli can? Niyə bu qədər narahatsan?"

Əli dedi: "Niyə narahatam?! Görmürsən bunlar nə edirlər?! Axı cəbhə qızların yeridir?! İraqlıların əlinə keçsələr, mən nə edərəm?!"

Qasim Fərruxi dedi: "Yavaş ol, qardaşım, bundan ötrü hirslənməyə dəyməz. Bax, bu icazə vərəqələri bunlarındır. Burdan gedirlər. Söz veriblər ki, bir də gəlməyəcəklər!"

İcazə vərəqələrini görən kimi elə bil, od üstünə su tökdülər. Sakitcə dedi: "Ver, görüm".

Xürrəmşəhr korpusunun komandiri Məhəmməd Cahanaranın imzaladığı icazə vərəqələri idi. Kağıza yazılmışdı: "Allahın adı ilə. Xürrəmşəhr Mühafizəçilər Korpusundan Müştərək Qərargaha: Bununla bacılar Sabah Vətənxaha və İlahə Hicaba Abadandan çıxmağa icazə verilir".

Əli Qasimə dedi: "Əllərinə sağlıq! Məni rahatlaşdırdın. Allaha and içmişdim ki, Sabahı döyüş yerində görsəm, özüm vuracam".

O qədər ayrılıqdan sonra digərləri önündə mənimlə kobud davranmasına baxmayaraq, nədənsə ona zərrə qədər də kin bəsləmədim. Sakitləşəndən sonra dedi ki, anamgil Sərbəndərə gəliblər, get onların yanına. Dedim: "Hardan bilirsən? Axı onlar Bürucerddədirlər". Dedi: "Bürucerdə gedib anamı Şiraza atamı görməyə apardım. Atam xəstəxanadan çıxmışdı, Nemət əmigildə yatırdı. Sonra də Bürucerdə qayıtdıq, uşaqları da götürüb Sərbəndərə gəldik".

B kampı və onun acınacaqlı şəraiti dərhal gözlərim önündə canlandı. Anamla uşaqların o şəraitdə yaşadıqlarını düşünüb pis oldum. Fikirləşdim ki, bəs nə üçün onları orada görmədim,

Zəhra Hüseyni də demədi. Ondan soruşdum: "Kampa gediblər?" Dedi: "Yox, Sərbəndərə".

Əli ilə sağollaşdım, onu Allaha tapşırıb dua etdim ki, növbəti görüşümüz tez olsun. Sağollaşanda dedi: "Sizi bir də bu tərəflərdə görməyim ha!"

Bir söz demədən gülümsədim. Karvansara otelinə getdik. Uşaqlarla sağollaşıb əşyalarımızı toplamaq istəyirdik. Əlbəttə, xüsusi bir şeyimiz yox idi. Mənim bir qənimət çantam vardı, İlahədə isə o da yox idi.

Otelə qayıtdıq. Şahnazla Fevziyəyə Əlini gördüyümü dedim. Çox sevindilər. Sağ-salamat olduğuna görə Allaha çox şükür etdik.

Uzun müddətdən sonra bacı və qardaşlarımın yanına əliboş getmək istəmirdim. Zülfüqaridə olanda iraqlıların səngərindən Abbasa bir qutu kiçik fişəng, Möhsünə də bir qutu RPG barıtı götürmüşdüm. Bilirdim ki, onları yandırıb oynamaq çox xoşlarına gələcək. Onda döyüşçü uşaqlar evə gedəndə belə şeylər aparırdılar.

Səhər tezdən uşaqlarla sağollaşıb getmək istəyəndə Qasim Fərruxi ilə doktor Səadət dedilər ki, Çuebdehə qədər biz də sizinlə gedəcəyik.

Orada bildik ki, İmam Xomeyni limanına hoverkraftla deyil, helikopterlə gedəcəyik. Sərnişinlər bir tərəfdə toplaşmışdılar. Bir neçə dəqiqədən sonra Çuebdeh estakadasında sərnişinləri yerbəyer edən zabit gəlib dedi ki, əşyalarınızı yoxlamalıyıq. İlk dəfə idi belə şey görürdüm. Əvvəllər yoxlanış olmurdu.

Zabit həmkarlarına tapşırdı ki, sərnişinlərin əşyalarını axtarsınlar. Çantası axtarılan ilk şəxs uzun saçını at quyruğu kimi bağlamış, ağ jaketlə cins şalvar geyinmiş hicabsız bir tibb bacısı idi. Az sonra hərbçilərin biri çantadan bir betadin çıxarıb gözləri önündə tutdu və dedi: "Bunu apara bilməzsən". Tibb bacısı dedi: "Nə üçün? Bu özümündür, xəstəxananın deyil".

Hərbçi dedi: "Bizə tapşırıblar ki, heç kim dərman və hər hansı tibb ləvazimatı aparmasın". Tibb bacısı dedi: "Mən bunu öz pulumla aptekdən almışam, nə üçün apara bilmərəm?"

Hərbçinin səbri yox idi, səsini ucaldıb dedi: "İcazə yoxdur! Əgər sənə çox önəmlidirsə, getmə!"

Onların mübahisəsini görüb uşaqlara apardığım fişəng və barıt yadıma düşdü. Bir betadin aparmağa qoymurdularsa, onları necə qoyardılar?! Üstəlik, son günlərdə Xalq fədailəri partizan qrupunun cəbhələrdən silah-sursat apardığına dair xəbərlər dolaşırdı.

Bir anlığa canıma pis qorxu düşdü. Düşündüm ki, birdən mənə başağrısı yaranar. Mahşəhrdəki ittihamlara əsasən, bizi çox asanlıqla beşinci kolon üzvü adlandırardılar və bu dəfə əllərindən qurtara bilməzdik. Fikirləşdim ki, onları götürəndə nə üçün problem yarada biləcəyini düşünməmişəm. Hələ bunlardan əlavə, İlahə də bir süngü götürüb mənim çantama qoymuşdu. Təmas xəttində bizə süngü vermişdilər. Mənim süngüm silahıma qoşulurdu, İlahəninki isə ayrı idi. Gələndə silahlarımızı Əlivəndə təhvil vermişdik. Mənim süngüm silahın üstündə qalmışdı, İlahə isə qardaşı Rzaya aparırdı.

İlahə də hərbçinin tibb bacısı ilə rəftarını görüb hər şeyi başa düşdü, üzü ağappaq ağardı, yavaşca dedi: "Sabah, nə edək? Əgər çantamızı axtarsalar, bədbəxt olarıq". Dedim: "Sən qorxma, həyəcanlanıb özümüzü itirsək, daha pis olar. Gözlə, görək nə edirik".

Tibbi bacısı ilə aramızda üç-dörd nəfər vardı, gizlətməyə imkan yox idi. Dodaqaltı "Vəcəəlna"[1] ayəsini oxuyub çantama üfürdüm. Bu ayə inqilab günlərinin yadigarı idi. Yürüşlərdə polis və SAVAK əməkdaşlarından qorxanda onu oxuyurduq. Özümü hər cür reaksiya və təhqirə hazırlamışdım. Növbəmiz

[1] Yasin, 9: "Biz onların önlərinə və arxalarına sədd çəkib (gözlərini) bağlamışıq. Buna görə də görmürlər".

çatanda hərbçi tibb bacısından fərqli olaraq, çox nəzakətlə dedi: "Bacı, lütfən çantanızı açın".

Yavaşca əlimi aparıb çantamın zəncirini açdım. Süngü və patronlar çantanın dibində idi, üstündə bir köynəklə şalvar vardı. Əsgər əlini salıb şalvarı çıxardı, sonra da gözucu çantanın içinə baxıb şalvarı yerinə qoydu və dedi: "Buyurun, minin".

Bu asanlığa işini bitirdiyinə inana bilmirdim. Nəzakətli davranışını hicabımıza borclu idik. Ondan iki-üç addım uzaqlaşandan sonra İlahə əlimi bərk sıxıb dedi: "Ay... Allaha şükür, yaxşı keçdi".

Üzünə baxmadan dedim: "Sss! Sakit!"

Qasim Fərruxi ilə doktor Səadət bizi ötürməyə gəlmişdilər. Onlarla sağollaşıb helikopterə mindik. Kiçik helikopter idi, cəmi iki cərgə oturacaq düzülmüşdü, ən çox on nəfər sığardı. Yola düşməzdən öncə pilot köməkçisi gəlib bizi salamladı, bildirdi ki, uçuş zamanı bir qədər ürəyiniz bulana bilər, ilk dəfə helikopterə minən üçün təbiidir.

Helikopter qalxandan sonra çox qorxmağa başladım. Qəribə hiss idi. Atamın gözündən uzaq yelləncəyə minib çox sürətlə yellənəndə elə olurdum. Atam üçün çox darıxırdım; o və xüsusi fikirləri üçün. Uşaqlıqda heç vaxt bizi yellənməyə qoymurdu, bunu çox ayıb sayırdı. Deyirdi ki, ilk yelləncəyi şeytan düzəldib, mancanaqla həzrət İbrahimi (ə) alova atmaq istəyəndə. Biz də guya sözünə qulaq asırdıq, ancaq o olmayanda harada yelləncək görsəydik, doyunca yellənirdik.

Helikopter göyə qalxdı. Abadan xurmalıqları ayaqlarımızın altında qaldı. Helikopter çox yuxarı-aşağı gedir, manevr edirdi. Hərbçilərin biri dedi ki, iraqlıların radarına düşməmək üçün belə etməyə məcburdur. Xurmalıqlardan sonra uzun müddət Fars körfəzinin üstündə olduq. Sonra bir parça quruluq göründü. Pilot helikopteri bir qədər endirdi. Quruluq getdikcə

böyüyürdü. Bildik ki, ora İmam Xomeyni limanıdır. Bir neçə dəqiqədən sonra yerə endik.

Ayağım yerə dəyəndən sonra rahat nəfəs aldım. Oradan Mahşəhr limanına, Mahşəhrdən də Sərbəndərə getməli idik. Yolun kənarında maşın gözləməyə başladıq. Pulumuz olmadığına görə hər maşına minə bilmirdik. İmam Xomeyni limanında həyat öz axarı ilə gedirdi, maşınların çoxu sərnişin daşımaq üçün pul alırdı. Gözləməli idik ki, özümüz kimi bir qaçqın gəlsin, bizə yazığı gəlib aparsın.

Sərbəndərə yaxınlaşdıqca anamı görməyə səbirsizlənirdim. Cəbhədən ayrılıb yola düşəndə başa düşmüşdüm ki, bu qədər uzaq qalmaq çox çətindir. Təxminən iki ay idi heç birini görmürdüm. İlk dəfə idi onlardan bu qədər ayrı qalmışdım.

Nəhayət, uzaqdan bir hərbi toyota göründü. Əl yelləyib saxlatdırdım. Sürücüyə dedim: "Qardaş, bizi Sərbəndərə apararsan?" Dedi ki, minin.

Toyota pikapının arxasına mindik. Sərbəndər bazarının yanında maşının kuzovuna vurdum, sürücü əyləcə basdı. Yerə enib ona təşəkkür etdik.

Sərbəndər bazarı Sərbəndər meydanının ətrafında idi. Mağazaların qapıları meydanın kənarındakı üstüörtülü səkiyə açılırdı. İlahə ilə qərara gəlmişdik ki, əvvəl onlara gedək, xalamı və digərlərini görsün, sonra bizə gedək. Həm də anamgilin dəqiq ünvanını Məryəm xala bilirdi.

Qapını Məryəm xala açdı. Bizi görüb çox sevindi, qucaqlayıb öpdü. Əslində, İlahə evdən icazəsiz getdiyinə görə belə yaxşı rəftar gözləmirdik. İçəri girdik. Xalam İlahəyə dedi:

- Qız, bu nə iş idi gördün?! Demədin ki, biz yarıcan olarıq?!

- Mən Rzaya demişdim ki, cəbhəyə Sabahgilin yanına gedirəm.

- Elə bu?! Rzaya dedin, bəs elədi?! Başqa bir adama demək lazım deyildi?! Axı ata deyiblər, ana deyiblər... Daha heç kim adam deyildi?!

- Ana can, sizə desəydim, qoymayacaqdız. Ona görə məcbur oldum.

- Qız, bizim beynimizə min cür fikir gəldi. Əlimiz də bir yerə çatmırdı. Hara gələydik ardınca?

Mən dedim: "Xala can, daha keçdi. İndi İlahə sağ-salamat yanındadır, Allaha şükür elə". Mövzunu dəyişdirməkdən ötrü əlavə etdim: "Xala, eşitmişəm anamla uşaqlar Bürucerddən Sərbəndərə gəliblər. Bilirsən harda qalırlar?" Xalam dedi: "Hə, qızım, Sərbəndər məscidinin arxasında kiçik otaqlar var, orda yer veriblər". Dedim: "Onda icazə ver, mən tez gedib onları görüm. Çox darıxmışam". Xalam dedi: "Hara?! İndi günortadır. Nahar yeməyini ye, sonra get. İndi ki bu qədər gözləmisən, bir-iki saat da gözləyərsən".

Yemək hazır olunca hamama girib çıxdım. Yeməkdən sonra xalamla və İlahə ilə sağollaşıb məscidə yola düşdüm. İlahə də gəlmək istəyirdi, amma hələ Hicab əmi gəlmədiyindən xalam dedi ki, qal, atan gəlib səni görsün, sonra hara istəsən, gedərsən.

Məscidin minarələri bazarın arxasından görünürdü. Bazardan keçəndən sonra səyyar satıcılıqla məşğul olan kiçik uşaqları gördüm. Bir neçə ədəd kağız dəsmalı qutudan çıxarıb kiçik sellofanlarda satırdılar. Birindən soruşdum ki, neçəyə satırsan? Dedi: "Beş tümənə. Sən Allah, birini al". Təşəkkür edib dedim ki, ehtiyacım yoxdur. Onda kağız dəsmalların bir qutusunun qiyməti uzaqbaşı, iki tümən olardı, onlar bu işlə hər qutudan ən azı, on tümən pul çıxarırdılar.

Müharibə və qaçqın həyatı belə bir vəziyyət yaratmışdı. Bir dəsmal qutusu bu qədər əzizləşib bahalaşmışdısa, gör digər zəruri və gündəlik mallar necə bahalaşardı! Məscid və qaçqınlara verilən otaqlar barədə heç bir bilgim olmadan

Sərbəndər came məscidinə çatdım. Yolda fikirləşirdim ki, necə olsa, burada vəziyyət B kampından yaxşı olar.

Məscidə girdim. Şəbistanın həyəti müxtəlif məişət avadanlıqları və böyük qutularla dolu idi. Onları qaçqınlara göndərmişdilər. Məscidin xuddamını soruşdum. Bir qoca kişini göstərdilər. Yaxınlaşıb salam verəndən sonra qaçqınların yerini soruşdum. Dedi ki, arxa həyətə açılan bir qapı var, oradakı otaqlarda bir neçə ailə qalır.

Ortasında balaca bir hovuz olan kiçik həyətə girdim. İçəri girən kimi Firdovs məni görüb qışqırdı: "Ana, Sabah gəldi!"

Dayandığım yerin sağ tərəfində bir otaq vardı, anamla Muna tələsik otaqdan çıxıb mənə sarı qaçdılar. Anamı qucaqlayıb öpdüm, ətrini canıma çəkdim. Anamın xüsusi ətri vardı, yalnız ona məxsus idi. Üzümdən öpüb dayanmadan deyirdi ki, Allaha şükür, salamatsan. Sonra dedi: "Gedək otağımıza".

Güclə 6 kv metrə çatan bir otaq idi, içindəki tək çarpayıda atam uzanmışdı. Firdovsun səs-küyündən gəldiyimi bilmiş, məni görmək üçün başını bir qədər qaldırmışdı.

Ona yaxınlaşıb üz və əlindən öpdüm, əlini gözlərimə çəkdim. Atam da anamın köməyi ilə çətinliklə üzünü yaxınlaşdırıb alnımdan öpdü. Abbasla Muna da gəldi. Üzlərindən öpdüm. Hamı başıma toplaşdı. Onları görməyimə olduqca sevinirdim, amma sanki divarlar üstümə gəlirdi.

Tavanın suvağının bir hissəsi qopmuş, yerə çürümüş kovrolit sərilmişdi. Bir tərəfdə bir neçə kiçik qazan, kasa və boşqab düzülmüşdü. Sement divarlar otağı qaranlıq edirdi. Otaqda pəncərə də yox idi, kiçik bir lampa ilə işıqlanırdı.

Ailəmin acınacaqlı vəziyyətini görüb çox pis oldum. Mən fikirləşirdim ki, kampda olmadıqlarına görə yəqin, nisbətən yaxşı yerdədirlər. Vəziyyətlərinin bu qədər acınacaqlı olduğunu bilmirdim. Anam atamın çarpayısının yanında oturub əlimdən tutdu, yavaş-yavaş ağlamağa başlayıb dedi: "Qızım, Fevziyə ilə

Şahnazdan nə xəbər var? Əli necədir? Bu yaxınlarda görmüsən?"

Bir anlığa Zəhranın anasını xatırladım. O da məndən oğlu Əlini soruşmuşdu. Ürəyimdə dedim ki, gələndə Əlini görməyim nə yaxşı oldu, indi anamla atama deməyə sözüm var.

Boğazımı qəhər tutmuşdu. Çox çalışdım ki, ağlamayım, lakin onların şəraitlərinə görə o qədər narahat idim ki, bacara bilmədim. Yavaşca ağlamağa və danışmağa başladım. Mən danışırdım, anam da əllərimi tumarlaya-tumarlaya qulaq asırdı. Dedim: "Allaha şükür, Əli yaxşıdır. Dünən günorta Abadanda gördüm. Sağ-salamat idi".

Anam inanmayıb dedi: "Sən Allah, düzünü de. Əgər bir şey olubsa, de. Bəlkə yaralanıb?" Dedim: "Yox, Allah haqqı, öz canımçün, sağ-salamatdır. Deyirəm ki, dünən görmüşəm. Orada qaldığıma görə də çox hirsli idi".

Sonra Şahnazla Fevziyə haqda danışıb dedim ki, Karvansara otelində mətbəxdə işləyirlər, yerləri yaxşıdır. Bizim ağladığımıza görə atam da pis olmuşdu, amma özünü saxlayırdı. Yazığın rəngi özündə deyildi, üzü saralmışdı. Yaralandığı gündən bəri çox arıqlamışdı. Soruşdum:

– Ata can, sən necəsən? Yaran necədir?

– Yaxşıyam, qızım, amma nəfəsim çox daralır. Düz-əməlli nəfəs ala bilmirəm.

– Ata, inşallah günbəgün yaxşılaşacaqsan. Ağciyərinə qəlpə dəyib, zarafat deyil.

– Allaha təvəkkül!

Anamdan Bürucerd və Şiraz barədə soruşdum. Dedi:

– Heç nə, qızım. Bürucerddə dedilər ki, atan yaralanıb. Əli gəlib bizi Şiraza aparana qədər məndə can qalmadı. Allah bilir nə əziyyətlə Şiraza getdik. Maşın tapa bilmirdik. Bir neçə maşın dəyişdik. Bir gecə İsfahanda qaldıq. Nə qalmağa yerimiz vardı, nə də mehmanxanaya verməyə pulumuz. Əli və Abbasla birgə

gecəni məsciddə yatdıq. Hava o qədər soyuq idi ki, dişlərimiz bir-birinə dəyirdi. Məscidin yerindəki palazları adyal kimi üstümüzə örtməyə məcbur olduq.

Çəkdiyi əziyyətləri eşidəndə yenə gözlərimdən yaş süzüldü. Anam sözünə davam edi:

– Allah şahiddir ki, Abbasın soyuqdan taqqıldayan dişlərinin səsi hələ qulağımdadır. Sonra avtobusla Şiraza getdik. Yazıq əminlə əmidostun çox əziyyətimizi çəkdilər. Atan xəstəxana xörəklərini yeyə bilmədiyinə görə əmidostun hər gün ona ev yeməyi aparırdı. Üstəlik, Xürrəmşəhrdən onlara çoxlu qaçqın gəlmişdi, hamısı birlikdə kiçik idarə evində qalırdı. Atan xəstəxanadan buraxılandan sonra da başqa yerə aparmağa qoymadılar. Bizi bir neçə gün də saxladılar, qulluğumuzda durdular. Yenə gəlməyə qoymurdular, amma mən razılaşmayıb dedim ki, uşaqlarımın yanında olmalıyam. Dedim ki, Əli, Sabah, Fevziyə, Şahnaz və Salehə cəbhədədirlər, onlardan bu qədər xəbərsiz qala bilmərəm. Əli bizi Sərbəndərə Məryəm xalagilə qoyub cəbhəyə qayıtdı. Məryəmin qızı Nahiddən eşitdim ki, məsciddə qaçqınlara otaq verirlər. Məscidə gəlib problemimizi dedim, atanın yaralandığını söylədim. Onlar da bu otağı verdilər. Sonra Hüseyn dayın uşaqları Bürucerddən gətirdi.

– Burada da vəziyyətiniz yaxşı deyil.

– Hə, amma neyləyə bilərik?! Başqa yolumuz yoxdur. Gecələr otağı qızdırmaq üçün ələddin lampası yandırırıq. Soyuq olmasın deyə qapını da örtürük. Gecənin yarısı içərinin havası o qədər ağırlaşır ki, nəfəs almaq olmur, atan öskürməyə başlayır.

– Uşaqlar nə edirlər? Bu kiçik otaqda əziyyət çəkmirlər?

– Gündüzlər birtəhər başlarını qarışdırırlar. Mənim əsəblərim korlanıb, istiyə görə o qədər narahatam ki, xörək də bişirə bilmirəm. Abbas bizə həm alış-veriş edir, həm də yemək bişirir.

– Bəs Firdovs?

– O, günün çoxunu məsciddə keçirir; məscidin işlərinə, qaçqınlara yardımların bölgüsünə kömək edir. O da özü üçün məşğuldur.

Problemlər anamı o qədər sıxmışdı ki, daha müharibədən öncəki 43 yaşlı gümrah qadın kimi görünmürdü. Gəlməzdən öncə onların yanında iki-üç gün qalıb qayıtmağı düşünürdüm, amma vəziyyəti gördükdən sonra bu tezliyə qayıtmaq olmazdı. Onlarla çox qalmalı idim ki, əhval-ruhiyyələri bir qədər yaxşılaşsın. Bilirdim ki, bütün qaçqın ailələrinin vəziyyəti eynidir. Qaçqınlığın nə demək olduğunu yavaş-yavaş anlayırdım. Bu, həqiqətən də ən pis qarğışdır!

Atamın halı əsla yaxşı deyildi. Sinə və belindəki yaraların xarici görünüşü yaxşı idi, amma hər hərəkət edəndə ləhləyirdi. Tualetə gedib dəstəmaz alandan sonra bir neçə dəqiqə istirahət edib özünə gəlirdi. Bacı və qardaşlarımın vəziyyəti də pis idi. Daha Möhsünün ürəkdən gülüşlərini eşitmirdik. O, çoxgülən və şən uşaq idi, üzünə, gülüşlərinə baxanda bütün qəm-qüssəmiz yadımızdan çıxırdı. İndi isə gülüşləri çox sönükmüşdü.

Munanı qucaqlayıb saçını daradım. Təzə köynək geyinmişdi. Anamdan soruşdum ki, bunu məsciddən veriblər? Dedi:

– Yox, dayın Bürucerddə uşaqlar üçün bir qədər alış-veriş etdi. Hərdən məsciddən bəzi şeylər gətirirlər, amma qəbul etmirəm, deyirəm ki, hələlik hər şeyimiz var, ehtiyacı olanlara verin.

– Ana, yeyib-içmək xərcinizi nə edirsiz?

– Atanda nağd pul var, ondan xərcləyirik. Allaha şükür, hələlik kimsəyə əl açmamışıq.

Bu günlər yatsaydıq, yuxumuza girməzdi. Bir ömür rifah içində yaşamışdıq. Atamın yaxşı işi vardı, hətta çoxlarına əl tuturdu. Yeganə çətinliyimiz onun işinə görə bir şəhərdən o birinə daşınmaq idi. İndi isə vəziyyət o yerə çatmışdı ki, hamımız 6 kv metrlik boş bir otağa doluşmuşduq.

Gecə otaqda bir-birimizin yanında sıxışıb uzandıq. Balaca bir otaqda atam, anam, Firdovs, Abbas, Möhsün və Muna ilə birgə yatdım. Gecənin yarısı birdən bir şey tappıltı ilə alnıma düşdü. Həyəcanla oyanıb yerimdə oturdum. Tavanın suvağının kiçik bir hissəsi idi. Daha uzanıb yata bilmədim, divarın küncündə oturub dizlərimi qucaqladım və o vəziyyətdə yatmağa çalışdım.

Birinci və ikinci gün həyətdən bayıra çıxmadım. Hətta məscidə də getmədim. Atamın, anamın və uşaqların yanından ayrılmaq istəmirdim. Onlar üçün çox darıxmışdım.

Üçüncü gün qərara gəldim ki, kampa gedib Zəhraya baş çəkim. Kamp yaxında idi. Sərbəndər meydanından maşınla getdim. Zəhra evdə deyildi, səhiyyə evinə getmişdi. Gedib onu tapdım. Məni görüb çox sevindi, gəlişimin səbəbini soruşdu. Anamgilin Sərbəndərə gəldiyini söylədim.

Zəhra cəbhədən qonağı gəldiyini söyləyib icazə aldı, birlikdə onlara getdik. Ondan soruşdum: "Əli barədə anama bir söz dedin?" Dedi: "Hələ imkan yaranmayıb".

Nahar yeməyini onlara qonaq oldum. Axşamüstü sağollaşıb Sərbəndərə yola düşdüm. Qayıdanda Əbuzər qrupunun uşaqlarından birini gördüm. Mənə Şəhid Cəfər Musəvi adlı birinin ünvanını verib dedi ki, imkan olanda ailəsinə baş çək, gör vəziyyətləri necədir? Ertəsi gün səhər çağı həmin ünvana getmək qərarına gəldim.

Soruşa-soruşa evi tapdım. Magistralın kənarında torpaq və qamışlardan bir daxma tikib yaşayırdılar. Mən çatanda şəhidin anası belində odun gətirirdi. Şəhidin atası da evdə idi. Özümü təqdim edib yanlarında oturdum. Həqiqətən, acınacaqlı vəziyyətdə idilər. Onlara çox ürəyim yandı. Qoca arvad qırdığı odunlarla ocaq qalayıb mənə çay hazırladı.

Vəziyyətlərini soruşdum. Heç kimləri yox idi. Xüsusən ərzaq baxımından çox çətinlik çəkirdilər. Bir qədər oturandan sonra

sağollaşıb getdim, ancaq fikrim onlarda qaldı. Onlar üçün nə edəcəyimi bilmirdim.

Bir-iki gün sonra yenə kampa Zəhranın yanına gedəndə camaatın Sərbəndər meydanının bir tərəfində bir konteynerin başına yığışdığını gördüm. Qaçqınlara isti xörək paylayırdılar. Camaat bir qab xörəkdən ötrü bir-birini itələyirdi.

Bu səhnəni görüb çox pis oldum. Bir müddət öncəyə qədər bu adamların normal həyatı vardı, indi isə bir isti xörəkdən ötrü necə haray-həşir salırdılar! Camaatın önündə bordürün üstündə oturub başımı dizlərimə qoydum. Başım ağrıdan sancırdı. O halda birdən səs gəldi:

– Bacı, bağışlayın. Bacı...

Başımı qaldırıb yanımdakı 24-25 yaşlı gənci gördüm.

– Bəli.

– Halınız pis oldu?

– Yox, bir şey yoxdur.

– Xörək almağa gəlmisiz?

– Yox, xörək verildiyini bilmirdim, adamları görüb gəldim.

– Soruşduğum üçün bağışlayın. Mən Şəhid fondunda işləyirəm, şəhid ailələrinə baş çəkməyə gəlmişəm. Dedim bəlkə sizin üçün əlimdən bir iş gələr.

Bu fondun adını ilk dəfə idi eşidirdim. Dedim:

– Məgər Şəhid fondu da var?! Onun işi nədən ibarətdir?

– Bəli, bacı, işimiz şəhid ailələrinə və müharibə yaralılarına yardım etməkdir.

– Yəni bir şəhid ailəsinin problemi olsa, siz həll edə bilərsiz?

– Bəli, bacı, bizim işimiz budur. Ancaq hələ tam oturuşmamışıq, camaat bizi tanımır. Özümüz şəhid ailələrini axtarırıq.

Bir anlığa kampın acınacaqlı şəraiti və Şəhid Musəvinin ailəsi yadıma düşdü.

– Mən burda iki şəhid ailəsi tanıyıram, pis şəraitdə yaşayırlar; xüsusən də biri.

– Adlarını deyin, bəlkə bizə müraciət ediblər. Olmasa, özüm onlara baş çəkərəm.

– Onları tanıyacağınızı zənn etmirəm. Biri Şəhid Hüseyninin ailəsidir, B kampında yaşayırlar; biri də Sərbəndərdə Şəhid Musəvinin ailəsidir, vəziyyətləri olduqca pisdir. Şəhid Hüseyninin ailəsinin başçısı ölüb, Şəhid Musəvinin ailəsindən də oğulları Cəfər.

Hüseyni ailəsinin iki şəhid verdiyini söyləməyə cəsarət etmədim. Qorxdum ki, Əlinin şəhadət xəbəri anasının qulağına çatar.

Bu iki ailənin heç birini tanımırdı.

– Tez bir zamanda onlara baş çəkəcəm, – deyib əlavə etdi: "Əgər cəbhədə yaralanmış adam da tanıyırsızsa, bizə deyin".

– Mənim atam Xürrəmşəhrdə çiynindən və belindən yaralanıb, bir müddət Şiraz xəstəxanasında yatıb, amma vəziyyəti yaxşı deyil.

– Ünvanınızı deyə bilərsiz?

Ünvanımızı verdim. Dedi ki, mütləq gəlib atama baş çəkəcək. Sonra sağollaşıb getdi.

Gəncin danışdığı fondun bu tezliyə bir iş görəcəyinə inanmırdım. Problem bir-iki deyildi ki, həll etmək mümkün olsun.

Sərbəndərə yerləşmiş bəzi qaçqın ailələrinin başsız qalması onlara böyük sıxıntı yaratmışdı, çoxlu gənc qız kimsəsiz qalmışdı. Çoxlu ailələrin ataları və böyük oğulları ya şəhid olmuşdular, ya da döyüşdə idilər. Bəzən 12-13 yaşlı bir qızın 50 yaşlı kişiyə ərə verildiyini eşidirdik. Soruşanda öyrənirdik ki, ailəsi bu mühitdə qızının qorunması və bir yeyənin azalması üçün bu işi görmüşdür.

Həmin gənclə söhbətdən sonra Zəhragilə gedib axşamüstünə qədər qaldım. Ertəsi gün İlahə bizə gəldi. Onu görüb soruşdum: "Hicab əmi səni görəndə nə dedi?" Dedi: "Heç nə. Əvvəl çox deyindi, danladı, sonra isə peşman olub üzümdən öpdü, ağladı, məndən ötrü çox nigaran qaldığını, ona çox çətin keçdiyini söylədi".

İlahə ilə onlara getdim. Nahidlə Punə də orada idi. Nahidin həyat yoldaşı hələ Amerikada idi. O, həm zəng vurub, həm məktub yazıb Nahidə Amerikaya qayıtmasını söyləmişdi; demişdi ki, dərsi bitəndən sonra birlikdə İrana gələrik. Nahidsə razılaşmayıb, - anamgil yerbəyer olmayınca gedə bilmərəm - demişdi.

Məndən dörd-beş gün sonra Salehə də Sərbəndərə gəldi. Ondan iki-üç gün qabaq da Şahnaz İsmət Canbozorgi, Əfsanə və Pərvanə Qazizadə ilə gəlmişdi. Anam çox sevinirdi. Yenidən bir yerə toplaşmışdıq. Salehəni təxminən üç ay idi görmürdüm. Onun üçün çox darıxmışdım. Bir-birimizə sarılıb öpüşdük.

Salehə özü ilə iki adyal, bir ələddin lampası, bir qırmızı kovrolit, bir neçə kasa və boşqab gətirmişdi. Bunları korpusdan vermişdilər. Onlar kənar adamlarla çox təmasda olmadıqlarından, atamgilin Sərbəndər məscidində qaldıqlarını korpus uşaqlarından öyrənmişdi. Salehə danışmağa başlayıb dedi: "Biz EBK şirkətindəyik. Ailələri yaxında olanlara məzuniyyət verirlər".

EBK şirkəti Sərbəndərlə Mahşəhrin arasında yerləşirdi. Salehənin dediyinə görə, əvvəl xaricilərin olmuş, inqilabdan sonra korpusun ixtiyarına keçmişdi. Salehəyə dedim ki, məni də ora aparsın, dostlarını görüm. Onun bəzi dostları ilə müharibədən öncə tanış olmuşdum, Rübabı, Səkinə Hurisini, Fatimə Deyhimi, Banuyini, Kübra Arifzadəni, Fatimə və Nərgiz Bəndəri bacılarını tanıyırdım.

Ertəsi gün səhər çağı Salehə ilə birlikdə EBK-ya getdik. Cəbhə söhbətlərim korpus qızlarına maraqlı gəlirdi. Məni dövrəyə alıb dayanmadan sual yağdırırdılar. Cəbhə və son üç ayda baş verənlər barədə bilmək istəyirdilər. Axırda soruşdular ki, bəs nə üçün burada qalmısan, cəbhəyə qayıtmırsan? Dedim: "Həm ailəmi görməyə gəlmişəm, həm də Zülfüqari cəbhəsi sabit bir yerə çevrilib, vəziyyət təxminən stabildir və orada olmağımın çox da faydası yoxdur".

İki gün orada qalıb evə qayıtdım.

Bir müddət idi Fevziyə Karvansara otelinin mətbəxindən çıxıb Taliqani xəstəxanasına getmişdi, təcili yardımçı kimi tibb bacılarına kömək edirdi. O, Sərbəndərə gələndə anam plovla gümüş balığı bişirmişdi. Biz bir yerə toplaşandan sonra anamın əhval-ruhiyyəsi çox yaxşılaşmışdı, artıq bişir-düşürlə məşğul olurdu. Fevziyə süfrə başında dedi: "Doğrudan, Sabah, məndə bir xəbər də var: Qasim Fərruxi şəhid oldu. İki gündür cəsədini gətiriblər. Xəstəxananın morqundadır".

Ağzımdakı tikə boğazımda qaldı. O qədər güclü şok yaşadım ki, tikəni uda bilmirdim. Anam bir stəkan su verib kürəyimdən vurdu. Onun şəhid olduğuna inana bilmirdim. Qəhərdən bütün boğazım yanırdı. Birtəhər özümü ələ alıb soruşdum: "Fevziyə, əminsən?" Dedi: "Hə, özüm gördüm".

Bir anlığa iki gün qabaqkı yuxumu xatırladım. Görmüşdüm ki, Bilqeys, Qasim Fərruxi, Abbas Əlivənd və doktor Səadətlə birgə səngərdə oturmuşuq. Birdən nə olduğunu bilmədiyim iti bir şey başıma bərk dəydi, bütün kəlləmi yandırdı. Zərbə o qədər güclü və ağrılı idi ki, yuxudan oyandım. Səhərdən də güclü başağrım oldu, günortaya qədər özümə gələ bilmədim. Yuxum yozulmuş, Qasim Fərruxinin şəhadət xəbəri gürz kimi başıma dəymişdi. Fevziyəyə dedim: "Yəni hələ dəfn etməyiblər?" Dedi: "Biz gələnə qədər morqda idi. Yəqin ki bu

gün, ya da sabah dəfn edərlər. Atası gəlib Kaziruna aparmalıdır".

Sanki otağın oksigeni bitmişdi və mən boğulurdum. Bayıra çıxdım. Doyunca ağlayıb yüngülləşmək üçün sakit bir yer axtarırdım. Qasimin mehriban, gülər üzü gözlərim önündən getmirdi. Onunla tanış olandan bəri yaşadığımız bütün xatirələr film kimi gözlərim önündən keçirdi. Həyətdə divara söykənib ağlamağa başladım. Göz yaşlarım bitmək bilmirdi. Şəhadət ona həqiqətən, yaraşsa da, xəbəri eşidəndən ürəyim od tutub yanırdı. Otağa qayıtdım. Özümü ələ almağa çalışırdım. Atamla anama dedim: "Əgər icazə versəniz, Abadana Qasim Fərruxinin dəfninə getmək istəyirəm. Biz Zülfüqari cəbhəsində döyüş yoldaşı olmuşuq".

Yazıqlar bir söz demədilər. Salehə dedi: "Fatimə Bəndəri ilə korpusdan məzuniyyət götürüb Abadana gedirik. Gəl, birlikdə gedək". Anam dedi: "Heç olmasa, qalın, sabah səhər gedərsiz".

Razılaşdıq. İcazə vərəqəsi ala bilməyib limanda əziyyət çəkməmiz də mümkün idi.

Bir neçə gün qabaq çəkdirdiyim sənəd şəklini almaq üçün fotoatelyeyə getdim. Şəklim hazır idi. Onu götürüb evə qayıtdım. Silah gəzdirmə kartı üçün çəkdirmişdim. Çoxdan idi bu kartı hazırlayırdım. Darxuindəki səhra xəstəxanasına yaralı aparanda silahımı almış, kartım olmadığına görə qaytarmamışdılar. Onu Conşanla birgə Abadan polisindən almışdım və o vaxtdan silah gəzdirmə kartı almaq istəyirdim.

Səhər yeməyini yeyib Quru Qoşunların İmam Xomeyni limanındakı aviabazasına yola düşdük. Helikopterlər Abadana oradan uçurdular. Mən icazə vərəqəsi ilə gəldiyimə görə asanlıqla dönüş icazəsi alacaqdım, ancaq Salehə və Fatiməyə problem yarana bilərdi. Fatimənin gödəkcəsinin qolunda korpusun loqosu olduğuna görə ona icazə vərəqəsi vermədilər, dedilər ki, gərək korpus vasitəsilə vərəqə alsın. Salehə də

korpusdan idi, amma mülki gödəkcə geyindiyinə görə ona vərəqə verdilər. Sanki Qasimin ruhu gəlib bizə Abadandan getməyə icazə alırdı. Gələndə də işimizi tez həll etmiş, həmişəki çətinlik olmadan icazə vərəqəsi almışdı. Beləliklə, Fatimə Bəndəri bizimlə gələ bilmədi.

Helikopteri təxminən 40 dəqiqə gözlədik. Çuebdehə çatanda günorta olmuşdu. Oradan Xosrovabad magistralına doğru piyada yola düşdük. Bir toyota gəldi, minib birbaş Karvansara otelinə getdik. Salehə uşaqların yanına getdi, mənsə həyətdə qaldım. Orada Əlivəndi gördüm. Salam verib dedim: "Düzdür ki, Qasim şəhid olub?" Dedi: "Hə, düzdür". Dedim: "Necə şəhid oldu? Sən bilirsən?" Gözləri yaşardı.

– Srağagün axşam irəli getmişdi. Snayperlə alnından vurmuşdular, yerindəcə şəhid olmuşdu. Ondan bir gün qabaq yeddi düşmən öldürmüşdü.

Bilirdim ki, qorxusu yoxdur. Bəzən üç-dörd gün yoxa çıxırdı, sonradan bilirdik ki, kəşfiyyata gedibmiş.

– İndi hardadır?

– Taliqani xəstəxanasının morqunda... Xoş halına! Ən azı, şəhid olmadan qardaşının qisasını aldı.

Əlivənd danışa-danışa bütün üzündən yaş axırdı. Dedim:

– Burda Mahmudun yanında dəfn etmək istəyirlər?

– Yox. Ağa Fərruxi deyir ki, bunu Kaziruna anasının məzarının yanına aparmaq istəyirəm.

Xanım Fərruxi kazirunlu idi, müharibəyə görə qızları ilə birgə oraya getmişdi. Dedim:

– Cəsədlə kim gedəcək?

– Bilmirəm. Mən ağa Fərruxi ilə gedəcəm. Başqa kimin gedəcəyini bilmirəm.

– Olar ki, mən də sizinlə gəlim?

– Yox, Sabah bacı, olmaz. Hələ bilmirik özümüz necə gedəcəyik.

Əlivəndlə sağollaşıb Taliqani xəstəxanasına getdim, morq növbətçisindən icazə alıb içəri girdim. Oranın morqu da böyük deyildi. Girən kimi sol tərəfdə yerdə Qasimin cəsədini gördüm. Yanında dizi üstə oturdum. Alnından başqa bütün bədəni sağlam idi. Başının tük bitən yerindən 2-3 sm yuxarıda dərin çuxur vardı, beyninin bir hissəsi görünürdü. O vaxta qədər şəhid olduğuna inanmamışdım, fikirləşmişdim ki, bəlkə bir yanlışlıq var.

Gözləri yarıaçıq vəziyyətdə idi, sanki məni görürdü. Üzünə baxanda birdən ağa Fərruxinin çöhrəsi yadıma düşdü. Yazıq iki ay ərzində iki oğlunu şəhid vermişdi.

Qasimin cəsədinin yanında oturduğuma inana bilmirdim. O, inqilabçı və cəsarətli gənc idi, cəbhədə heç vaxt şəhadət istəyindən danışmazdı. Çoxları cəbhəyə şəhid olmağa gəlmişdilər, o isə belə deyildi. Hər dəfə şəhadətdən söz düşəndə deyirdi: "Qorxmayın, mənə bir şey olan deyil". Kəşfiyyata gedəndə uşaqlar ondan ehtiyatlı olmasını istəyirdilər, o isə deyirdi: "Əmin olun ki, sağ-salamat qayıdacam". Sözlərində həmişə ümid vardı.

Morq alaqaranlıq idi, yüzvoltluq lampa yanırdı. Havanın sərinliyi və qaranlığı adamın canına qəribə qəm-kədər salırdı. Morqun sükutu içində ağlayıb onunla danışırdım. Qasim Fərruxi ilk şəhid idi ki, onunla vidalaşırdım. Ona dedim: "Qardaşım, görüşümüz qalsın qiyamətə. Necə ki burda, cəbhədə bizdən muğayat olurdun, söz ver ki, o dünyada da bizi yaddan çıxarmayacaqsan... Söz ver ki, bizə şəfaət edəcəksən..."

Bunları deyib ağlayırdım. Artıq bu dünyada olmayan biri ilə danışdığımı hiss etmirdim. Sanki Qasim önümdə oturub sakitcə sözlərimi dinləyirdi.

Qasimlə birgə yaşadığımız təhlükəli anlar bir-bir yadıma düşürdü. Bir dəfə Zülfüqaridə yaxınlığımıza bir raket düşdü, o və İlahə yerə uzandılar, mənsə yalnız dizi üstə oturdum.

Etirazla qışqırdı: "Sabah, sən necə dikbaşsan! Raket atılanda niyə uzanmırsan?! Nə papaq qoyursan, nə yerə uzanırsan!" Səsi qulağımda idi. "Dikbaş" sözünü elə hirslə demişdi ki, imkanı olsaydı, yaxınlaşıb bir sillə də vurardı.

Qasim mənə qardaş qədər əziz idi, danlaqlarından incimirdim. Onun gedişi ilə qəlbimə ağır qüssə çökdü. Əmin idim ki, yeri həmişə görünəcək. O, cəbhədə bizim arxa-dayağımız idi. Yanımızda olanda silah-sursat və yemək fikri çəkmirdik. Nə yolla olursa-olsun, problemlərimizi həll edirdi.

Daha qala bilməzdim. Morqun mühiti imkan vermirdi. Adətən, ora gələnlər çox tez bayıra çıxırdılar. Qasimlə sağollaşıb yavaş-yavaş otelə qayıtdım.

Oteldə ağa Fərruxini gördüm. İslam fədailəri qrupunun döyüşçüləri başına yığışmışdılar. Hərə bir söz deyir, hamı ağlayırdı. Qasim hamıya əziz idi. Onun kimi bir dostu itirmək kiçik məsələ deyildi. Ağa Fərruxinin tək qalmasını gözlədim. Bir neçə dəqiqədən sonra döyüşçülər getdilər və mən ona yaxınlaşdım. Çox çalışdım ki, danışanda ağlamayım. Ağa Fərruxini təbrik edib başsağlığı verdim, soruşdum ki, dəfn üçün planınız nədir? Dedi: "Qasimi Kaziruna aparmaq istəyirəm". Soruşdum ki, nə vaxt gedirsiz? Dedi: "Bu gün Abbas Əlivənd və Əkbər Ləklə birgə yola düşürük".

Əlivənd doğru deyirdi. Bütün sərnişinləri kişilərdən ibarət olan bir təcili yardım maşınında Abadandan Kaziruna qədər uzaq yolu gedə bilməzdim. Bir anlığa yenə Qasimi xatırladım. Süd zavodunun yanında bizə səngər qazanda demişdi ki, bizə nə qədər əlmuzdu verəcəksiz? Demişdim ki, söz verirəm, şəhid olsan, cəsədini yerdə qoymaram. Onda kim fikirləşərdi ki, zarafatım bu tezliyə gerçək olacaq və mən Qasimin dəfnində iştirak etməyin həsrətini çəkəcəyəm.

Özüm Karvansara otelinə qayıtdım, ancaq ürəyimi Qasimin dəfn mərasiminə yolladım. Əmin idim ki, onu ömrüm boyu unutmayacağam.[1]

Xanım Purheydərinin yanına getdim. Bu şəraitdə məni sakitləşdirəcək ən uyğun adam idi. O bizim anamız yerində idi, bütün uşaqlar onun yanında özlərini rahat hiss edirdilər. Özümü onun qucağına atıb ağladım. Qasimin şəhid olduğunu hamı eşidib kədərlənmişdi. Xanım Purheydəri əllərimdən tutub danışmağa başladı. "Allah yolunda öldürülənləri əsla ölü zənn etmə! Əslində, onlar diridirlər, onlara Rəbləri yanında nemət verilir"[2] ayəsini oxuyub dedi: "Sabah can, biz Qasim kimiləri itirməmişik, qazanmışıq. Allah Özü buyurub ki, onlar diridirlər, Mənim yanımdadırlar".

Sözləri adamın ruhunu oxşayırdı. Dediklərinə hamıdan qabaq özü əməl edirdi. Əri əsir düşəndə çox səbirlə Allahın iradəsinə təslim olmuşdu. Bir qədər sonra tibbi yardım qrupunun uşaqlarının yanına qayıtdım. Qasimə görə hamı narahat idi, ən çox Bilqeys ağlayırdı. Biz döyüş yerində çox vaxt Qasim Fərruxinin yanında olurduq. Həmin günlərin bütün xatirələri bir film kimi gözlərimiz önündən keçirdi.

Həmin gecə acı və ağır gecə oldu. Dodaqaltı müharibəni və onun əclaflığını lənətləyirdim. Halım əsla yaxşı deyildi. Ağlamaqdan nə vaxt yuxuya getdiyimi bilmədim.

---

[1] Qasim Fərruxini bu günə qədər unutmamışam... Yazıçı xatirələrimi yazıb qurtardığı gecə – təbii ki, mən bunu bilmirdim – Qasimi yuxuda gördüm. Gümrah idi. Sevinc içində mənə əsərin bitdiyini söylədi. Onun bu kitabla maraqlandığını bilib çox ruhlandım.

[2] Ali-İmran, 169.

# On səkkizinci fəsil:

## *Məzlum müqavimət*

Döyüşçülərimiz Zülfüqari cəbhəsindəki və Bəhmənşir çayının ətrafındakı mövqelərini bərkitmişdilər, orada döyüş dayanmışdı. Döyüş dayananda isə yaralı az olur, bir neçə qızın orada qalması mənasını itirirdi. Bu baxımdan, daha ora qayıtmaq istəmirdim.

Digər tərəfdən, İraq Abadanı bombalayırdı. Neftayırma zavodu, xəstəxanalar, bazarlar, məscidlər, Minu adası və Kutşeyx dəfələrlə bombalanmış yerlərdən idi. Tibbi yardıma ehtiyacı olan yaralıları xəstəxanaya aparırdılar. Mən də kömək edə bildiyim yerdə olmaq istəyirdim.

Gündüzlər OPD xəstəxanasına yardıma gedirdik. O, çox uzaqda idi, maşınla gedib-gəlməli və birbaşa maşın getmədiyindən, bir neçəsini dəyişməli olurduq. Bəzən yolun bir hissəsini piyada gedirdik. Tibbi yardım uşaqlarını Zülfüqaridəki evə köçürdüyümüzdən daha Karvansara otelinə bizdən başqa heç kim qayıtmırdı. Orada da yalnız mətbəx uşaqları qalmışdılar.

Bəzi korpus uşaqları ailələri ilə birgə Ariya qəsəbəsində qalırdılar. Bir gün Salehə ilə oraya getdik. Oradakı evlər çox

böyük varlı evləri idi. Uşaqların qaldıqları evin xarici hissəsi bahalı mərmərdən idi, böyük zalı, beş-altı otağı vardı. Həyətdə çoxlu gül əkilmiş böyük bağça vardı. Təhlükəsizliyi təmin etmək mümkün olsun deyə hamını orada bir yerdə saxlayırdılar.

Hurisi bacıları, Fatimə Bəndəri və Səham Taqəti də orada idilər. Bir neçə ev aralıda, həmin evlərin birində onların və xürrəmşəhrli döyüşçülərin bir qisminin yoldaşları qalırdılar. Orada qapının ağzında Məsud Pakini gördüm. Salamlaşandan sonra ondan soruşdum: "Hara yerləşmisiz? Zülfüqaridəsiz, yoxsa başqa yerdə?" Dedi: "Yox, siz gedəndən sonra bütün xürrəmşəhrli uşaqlar ordan çıxıb Kutşeyxə getdilər".

Onunla sağollaşıb qızların yanına yollandım. Bir-birimizi görüb çox sevindik. Bətul Kaziruni şən, incə qız idi. Onunla Quruculuq cihadında tanış olmuşdum. Korpusda xidmət edən həyat yoldaşı Saleh Musəvi də çox gümrah və şuxtəb adam idi, bir-birinə yaraşırdılar. Xürrəmşəhrin işğalından sonra ilk dəfə idi bu uşaqlarla bir yerə toplaşırdıq. Danışmağa çoxlu sözümüz vardı. Xüsusən həyat yoldaşları cəbhədə olanlar çoxlu maraqlı xatirələr bilirdilər.

Bir gün Taliqani xəstəxanasına getdim. Kömək etmək istəyirdim. Xəstəxana adamla dolu idi. Ora OPD xəstəxanasına nisbətən olduqca çox adam müraciət etdiyinə görə işi də çox idi. Ondan sonra qərara gəldim ki, OPD-yə deyil, Taliqani xəstəxanasına köməyə gedim.

Ertəsi gündən EBK-dan gəlmiş Salehə, Bətul Kaziruni və Fatimə Bəndəri ilə birgə səhərlər Taliqani xəstəxanasına gedir, axşamlar Ariya qəsəbəsinə qayıdırdıq. Bütün yolu piyada gedirdik. Artıq uzun müddət piyada gəzməyə öyrəşmişdik.

Dekabrın ortaları idi. Taliqani xəstəxanasının tibb heyəti azalmışdı. Biz yaralıları Təcili yardım şöbəsindən palataya və ya

rentgen şöbəsinə aparmaqdan tutmuş evlərinin telefon nömrələrini almağa qədər əlimizdən gələn hər bir işi görürdük.

Əvvəllər tibb bacıları yaralılara iynə vurmağa icazə vermirdilər. Cəbhədə damar tapmağımız çox dəqiqləşmişdi, adicə iynə vurmaq isə bir şey deyildi. Həm də yaralılar bəzi tibbi bacılarının hicabsızlığından əziyyət çəkirdilər. Onlar iynə vurmaq və ya təzyiq ölçmək üçün döyüşçülərin köynəklərinin qollarını qatlayanda əlləri ilə onlara toxunur, yaralılar da etiraz edirdilər. Bəzən bundan ötrü mübahisə etdiklərini də görmüşdük. Bizsə istər döyüş yerində, istər xəstəxanada çox ehtiyatlı olub döyüşçülərin qollarına toxunmurduq.

Xəstəxanada Məsumə Ramhörmüzi və Məryəm Fərhanian kimi bəzi uşaqlarla tanış oldum. Məryəm Fərhaniangil Abadandan bir neçə bacı idilər. O, bacısı Fatimə ilə birgə Taliqani xəstəxanasına gəlirdi. Məryəm çox sakit, Fatimə isə aktiv qız idi. Fatimə Məsumə Ramhörmüzi ilə eyni yaşda idi, davranışları da bir-birinə bənzəyirdi; hər ikisi fəal və qıvraq idi. Bu səbəbdən səmimi dost olmuşdular. Sakit qız olan Məryəm isə xəstəxanada çox da qalmadı. Şəhid ailələri əzizlərinin ziyarəti üçün Abadana gələndə onlara verilən yerə getdi. Deyirdi ki, şəhid ailələrinə xidmət etmək istəyirəm.

Taliqani xəstəxanasında işə başlamağımdan iki-üç gün sonra Şahnazla Fevziyə də ora köməyə gəldilər. Dedilər ki, mən Qasimin dəfnində iştirak etmək üçün Abadana gəldiyim gün Əli Qasim Mədəni adlı bir dostu ilə Sərbəndərə gedibmiş.

- Əli məzuniyyətə gəlmişdi. Cahanara ona ikihəftəlik həvəsləndirici məzuniyyət vermişdi. Əli deyirdi ki, bir peşəkar düşmən qumbaraatanı Kutşeyx cəbhəsinin qarşı istiqamətindən, yəni Seyf bazarı və milli bank yaxınlığından korpus uşaqlarının yerləşdiyi coca-cola zavodunun arxasına bir neçə dəqiqədən bir mərmi atıb can alırdı. Bir neçə gün idi nə qədər edirdiksə, onu vura bilmirdik. İtkimiz günbəgün çoxalırdı. Nəhayət, bir gün

komandirimə dedim ki, icazə ver, gedib onu öldürüm. Komandir razılaşdı.

Əli deyirmiş ki, onu vurmaqdan ötrü qarşısındakı yarımçıq divarın arxasına keçməli idim. Min cür əzab-əziyyətlə özümü ora yetirdim. Düz 24 saat göz qoyandan sonra hansı yolla gəldiyini, hara yerləşib atəş açdığını öyrəndim. O qədər diqqətlə baxır, gözlərini o qədər gec-gec qırpırmış ki, gözləri quruyurmuş. Nəhayət, bir də uşaqları vurmaq istəyəndə alnının ortasından bir güllə vurmuşdu.

Bu uğuruna görə Əliyə ikihəftəlik məzuniyyət verib evə göndərmişdilər. Əli Qasim Mədəni ilə bir gün onlarda qalmış, sonra da birlikdə Sərbəndərə anamgili görməyə gəlmişdilər. Həmin gün Qasimə deyibmiş ki, bir gün qalıb qayıdarıq. Qasim etiraz edibmiş ki, 15 gün məzuniyyətimiz var, qoy bədənimizin təri qurusun, sonra qayıtmaqdan danış. Əli də deyib ki, camaatın uşaqları atəş altındadırlar, sənsə 15 gün qalmaq istəyirsən?! Artıq bəsdir, gərək qayıdaq. Bir gün qalıb getmişdilər.

Əli ilə Qasim Mədəninin srağagün Abadana yola düşdüklərini eşidəndə çox həyəcanlandım. Dünən radiodan eşitdiyim bir xəbər yadıma düşdü. Salehə ilə birgə Ariya qəsəbəsindən OPD xəstəxanasına gedəndə kiçik radiomu açmışdım. Xəbərlərdə dedilər ki, dünən Abadana sərnişin aparan bir mikroavtobus Şadiqan-Abadan üçyolunda iraqlılar tərəfindən əsir alınıb. Diktorun dediyinə görə, içində neft şirkətinin və yanğınsöndürmə məntəqəsinin işçiləri də varmış. Şahnazla Fevziyəyə dedim: "Əminsiz ki, Əli Abadana çatıb?" Dedilər ki, indiyə çatar.

Eşitdiyim xəbər barədə onlara bir söz demədim, amma ürəyimə həyəcan doldu. Çox pis oldum. Şahnaza dedim ki, korpusa gedib Əlinin orada olduğundan əmin olaq. Fevziyə xəstəxanada qaldı, Şahnazla birlikdə Persiya otelinə yollandıq.

Otelin qarşısında Yasin Mədənini gördüm. O da korpus uşaqlarından idi. Salamlaşandan sonra Əlini görüb-görmədiyini soruşdum. Sözümüzü eşidib gülməyə başladı.

– Ay Allah! Bilmirsiz Əli hardadır?

– Yox. Hardadır? İki gün qabaq Sərbəndərdən Abadana yola düşüb.

– Əli gedib arvad almağa.

– Qardaş, zarafat eləmə. İndi zarafat vaxtıdır?! Ondan xəbərin varsa, de.

Yenə güldü.

– Zarafat niyə olur?! Gedəndə özü dedi ki, bu iki həftədə İsfahana gedib evlənəcəm.

Şahnaz hirsləndi.

– Necə yəni evlənmək, arvad almaq?! Yəni bunu siz bilirsiz, ailəsindən heç kim bilmir?!

Mən dedim:

– Boş ver, Şahnaz, yəqin zarafat edib, hamı da inanıb. Gedək, ondan xəbər öyrənək.

Şahnazla Zülfüqariyə yola düşdük. Onu görüb arxayınlaşmaq istəyirdik. Zülfüqaridə Polkovnik Kəhtərinin yanına getdik. O bizimlə çox səmimi salamlaşıb hal-əhval tutdu, soruşdu ki, haradasan, nə edirsən. Dedim ki, daha cəbhədə deyiləm, çox vaxt Taliqani xəstəxanasında oluram, bəzi günlərdə də OPD-də. Əli haqda danışıb məsələni ona söylədim. Dedi ki, iki-üç gündür belə bir döyüşçü görməmişəm.

Çox narahat olduq. Onunla sağollaşıb korpus uşaqlarına yaxınlaşdıq. Heç biri Əlini görməmişdi. Kutşeyx cəbhəsindəki uşaqlardan da soruşduq. Heç kimin xəbəri yox idi.

Xəstəxanaya qayıtdıq. Fevziyə orada idi. Ona dedim: "Fevziyə, Əli su olub yerin dibinə girib. Bu iki-üç gündə onu heç kim görməyib".

Mən bunu deyən kimi Fevziyə dilləndi: "Sabah, Əli əsir düşüb! Mən əminəm ki, əsir düşüb".

Şahnazla birgə hirslənib dedik: "Bu nə sözdür danışırsan?! Allah eləməsin! On beş gün məzuniyyəti var, yəqin başqa yerə gedib. İnşallah bugün-sabah bir xəbər çıxar".

Fevziyə əmin adamlar kimi sözünü təkrarlayırdı. Heç bir dəlil-sübutu yox idi, ancaq deyirdi ki, əminəm. Müharibədə hər bir ehtimal var, əsirlik də onlardan biridir. Ancaq Şahnazla mən bu sözə inanmaq istəmirdik. Əli müxtəlif cəbhələrdə olmuşdu, kiçik bir yaradan başqa başına bir iş gəlməmişdi, bu asanlığa necə əsir düşə bilərdi?! Ümumiyyətlə, əvvəllərdə İraq tərəfi əsir saxlamırdı. Əsir düşən döyüşçünü ya yerindəcə öldürürdü, ya da o qədər işgəncə verirdi ki, canı çıxsın. Əli ilə Qasim pasdar idi. Əsir düşsəydilər, bizim eşitdiyimiz yırtıcı düşmən onlara ən ağır işgəncələri verərdi.

Dekabrın 22-də anam xəstəxanaya zəng vurdu. Biz xəstəxanaya yerləşəndən sonra arabir Sərbəndər poçtuna gedib zəng vurur, halımızı soruşurdu. Onu nigaran qoymaq istəmirdik, amma Əlidən xəbəri olub-olmadığını soruşmaya bilməzdik. Düşünürdük ki, bəlkə Abadana gəlməyib, yenidən Sərbəndərə anamgilin yanına qayıdıb. Anam dedi ki, Əlidən xəbəri yoxdur, Qasimlə birgə gedəndən sonra onu görməyib.

Zaman ötdükcə daha çox narahat olurduq. Şahnazla birgə OPD xəstəxanasına getdik, dedik ki, birdən yaralanmış olar. Bütün xəstəxananı, hətta morqu axtardıq, tibb bacılarına nişanlarını söylədik ki, belə bir yaralı və ya şəhid gətirsələr, bizə xəbər versinlər.

Taliqani xəstəxanasında da Əlidən əsər-əlamət yox idi. Morqda onu axtarmaq asan deyildi, amma başqa çarəmiz qalmadı. Onu şəhidlərin arasında axtaranda ürəkdən arzu edirdim ki, Fevziyənin proqnozu düz çıxsın və heç olmasa, əsir düşmüş olsun.

Həmin günlərin birində Taliqani xəstəxanasına qayıdanda Fevziyə dedi: "Anam zəng vurmuşdu. Soruşurdu ki, Əlidən bir xəbər öyrəndiz, yoxsa yox. Dedim ki, ana, bir xəbər var, eşitməyə hazırsan? Dedi ki, hə, de görüm nədir? Mən də dedim ki, Əli əsir düşüb. Anam telefonda ağlayıb-sızlamağa başladı, sonra da dəstəyi qoydu".

Fevziyəyə dedim: "Nə üçün belə etdin? Hələ əmin olmadığımız bir şeyi niyə dedin? Heç olmasa, tədricən deyərdin ki, yazıq şoka düşməsin". O isə yenə sözünü təkrarlayıb deyirdi ki, Əli əsir düşüb, şübhəniz olmasın.

Ağır günlər yaşayırdıq. Bir tərəfdən Əlidən xəbərsiz, bir tərəfdən də yurdsuz-yuvasız qalmışdıq. Ailə üzvlərimizin hərəsi bir dərədə idi. Bunlar kiçik məsələlər deyildi. Xuzistanın yağış fəsli də başlamışdı. Bəzən bir neçə gün dayanmadan yağış yağır, darıxdırıcı əhvalımızı bir az da pisləşdirirdi.

Bəzən bekar olanda xəstəxananın yaxınlığındakı dondurma zavodunun buzxanasına baxmağa gedirdik. Bir müddət idi orada şəhid cəsədləri saxlanırdı. Oradan əliboş çıxandan sonra Abadanın Şəhidlər gülzarı məzarlığına gedib dəfnlə məşğul olanlardan soruşurduq. Bu müddətdə bir şey dəqiqləşdi: Əli ilə Qasim ikisi birlikdə yola çıxmışdı.

Xəstəxanada işlədiyimiz günlərin birində doktor Səadət və doktor Sadiqi adlı bir şəxs yaralanmış gənc bir qızı xəstəxanaya gətirdilər. Doktor Səadəti görüb çox sevindim; o da həmçinin. Bir müddət idi ondan və qrupumuzdakı digər qardaşlardan xəbərsiz qalmışdıq. Axırıncı dəfə onunla sağollaşanda Qasim Fərruxi ilə birgə süd zavodunun ətrafındakı cəbhədə idi.

Yaralı barədə soruşanda dedi:

– Bu xanım Tehrandan bura təcili yardımçı kimi gəlib. Bir gün Zülfüqariyə yanımıza gəlib dedi ki, irəli getmək istəyirəm. Biz çox dedik ki, bura qədər gəlmən də düzgün deyil, gərək qayıdasan, o isə az eşitdi. Deyirdi ki, daha irəli gedib öndəki

döyüşçülərə çatacam, birdən orada təcili yardımçı olmaz. Qaçanda da onu çağırdıq, amma qayıtmadı. Bu zaman iraqlılar güllə ilə onu vurdular. Uşaqlarla qərara gəldik ki, gedib onu gətirək, amma kim ayağını ora qoyurdusa, vururdular. Deyəsən, qızın diri olduğunu bilib əsir tutmaq istəyirdilər.

Doktor Səadət əlavə etdi: "Onu geri gətirməkdən ötrü iki şəhid verdik, uşaqların iki-üçü də yaralandı. İki döyüşçü sürünə-sürünə gedib onun ayağından tutmuş, geri dartmışdılar. Onlar deyirdilər ki, ən kiçik hərəkət edəndə bütün ətrafımıza güllə yağdırırdılar. Hətta əlimizi bir qədər yerdən qaldıranda, ayaqlarımızı tərpədəndə də vururdular. Qısası, bir gün əlləşəndən sonra çox çətinliklə bunu geri gətirə bildik".

Çox hirsləndim. Qız hamının başını dərdə salmışdı. Ürəyim dözmədi. Bir-iki günə yaxşılaşandan sonra yanına gedib söhbətə başladım, sonra narazı halda dedim: "Bu nə işdir görmüsən?! Nə üçün öz istəyindən ötrü bir neçə döyüşçünün canını təhlükəyə atmısan?"

Səhvini başa düşür, dayanmadan ağlayırdı. Əvvəl elə bildim ki, yarasına görə ağlayır. Ancaq sonra dedi: "Mənim xamlığıma və inadkarlığıma görə canından olmuş iki döyüşçüyə görə ağlayıram".

Ona döyüş yerinə getməyimiz haqda danışdım. Dedim ki, biz də bir tibbi yardım qrupu idik, bacılarla birgə müxtəlif cəbhələrə gedirdik, ancaq şəraiti də nəzərə alırdıq. Cəbhədə iştirakımızın hansısa döyüşçünü narahat etdiyini hiss edəndə orada qalmırdıq. Ona dedim ki, müharibənin ilk günlərindən Xürrəmşəhrdə idik, ancaq cəbhəyə 10-15 gündən sonra və döyüşçülərin nəzarəti altında getdik. Çox yerdə ürəyimiz istəyirdi ki, gedək, amma icazə verilməyəndə özbaşına hərəkət etmirdik.

Deməyə sözü yox idi, yalnız ağlayırdı.

***

Yanvarın əvvəlləri idi. Bir axşam Həmid Xoşnud Ariya qəsəbəsindəki evə gəlib gündəlik fəaliyyətləri barədə korpusa məruzə yazmağa kömək istədi. Məruzələri mənim yazmağımı istəyirdi. Razılıq verdim. Xəstəxanada işimi qurtarandan sonra bizdən bir neçə ev aralıdakı qərargahlarına gedirdim. Məsud gəlib tez-tez rəqəmləri söyləyib gedirdi. Mən dediklərindən qeydlər götürür, o gedəndən sonra istifadə olunmuş silah-sursatın, yaralı və şəhidlərin sayını rəsmi cümlələrlə başında korpusun loqosu olan kağızlara yazırdım.

Bu, çox maraqlı iş idi, eyni zamanda bir çox məsələləri bilmək mənə əzab verirdi. Xürrəmşəhrdə boş əllə vuruşduğumuz müddətdə uşaqların məzlumluğunu, müdafiə çatışmazlıqlarını görmüşdüm, bu məruzələrlə də müharibənin mahiyyətinə bələd oldum. Əksər günlərdə atəş açmaq üçün uşaqların hərəsinə cəmi beş patron verilirmiş!

Xəstəxanada bu rəqəmlər barədə düşündüyüm günlərin birində tanış bir adamın dəhlizin o başından mənə doğru gəldiyini gördüm. Gözlərimi qıyıb gördüm ki, Məryəm Əmcədidir. Yaxınlaşdıqca gözləri təəccübdən böyüyürdü. Bir neçə addımlığımıza çatanda qaçıb qucaqlaşdıq. Gözlərim yaşardı. Onu sağ gördüyümə inana bilmirdim. O da mənim hələ sağ olduğuma təəccüb edir, tez-tez deyirdi:

– Sabah, həqiqətən, özünsən?! Mən elə bilirdim, oktyabrın 16-da şəhid oldun. Həmin gün o qədər itki verdik ki, dedim yəqin, sən də onlardan birisən.

– Mən də elə bilirdim ki, sən şəhid olmusan. 106 mm çaplı topu daşıyan pikapda görəndən sonra səndən xəbərim olmadı. Sanki birdən-birə yoxa çıxdın. Düşünürdüm ki, yüz faiz şəhid olmusan.

Sürməyi rəngli manto geyinmiş, başına gözəl mavi örpək bağlamışdı. O qədər sevinirdim ki, ondan gözümü çəkmirdim. Dedi:

– Doğrudan?! Bəs bilmirsən ki, nə üçün Xürrəmşəhrdən getdim?

– Yox. Hardan bilim?!

– Həmin günlərdə bir dəfə qardaşım Əli gəlib dedi ki, Məryəm, gedək evə, uşaqlara bir az pal-paltar götür, aparıb verək. Biz də evə gedib iki çamadan paltar yığdıq. Mən şəhərdən çıxmaq istəmirdim, amma Əli özüm bilmədən məni yavaş-yavaş çıxardı. Əvvəlcə dedi ki, Abadana gedib çamadanları birinə verəcəyik ki, Gəçsarana aparsın. Anamgil onda Gəcsaranda bir qohum evində qalırdılar. Abadana çatandan sonra dedi ki, bunları verməyə adam yoxdur, özümüz bir yerə qədər aparaq, görək kimi tapırıq... Qısası, beləcə məni Gəçsarana apardı. Orada nə qədər yalvardım ki, məni də qaytar, amma razı olmadı. Beləliklə, özüm istəmədən Xürrəmşəhrdən getməli oldum.

Məryəm həmin gündən xəstəxanaya yerləşdi. O, olduqca sirsaxlayan qız idi. Xürrəmşəhrdə təxminən bir ay tapançası vardı, həmişə bir yerdə olsaq da, mən bilmirdim. Məsuda dedim ki, bundan sonra Məryəm də məruzə yazmağa kömək edəcək. Etiraz etmədi. O vaxtdan etibarən günortadan sonralar mənimlə birgə Ariya qəsəbəsinə gedirdi, birlikdə məruzə yazırdıq. Təhvil alınmış və sərf olunmuş sursatın siyahısını görəndə dərin ah çəkirdik. Vəziyyət hətta Xürrəmşəhrdəki müqavimət günlərindən də ağır idi. Döyüşçülərə sutkada bir daraq patron atmağa icazə verilmirdi. Uşaqlarımız məzlum idilər, məzlum halda da vuruşurdular və səsləri çıxmırdı.

# On doqquzuncu fəsil:

## *Mürdəşir*

Əlidən heç bir xəbər yox idi. Bir gün Şahnazla qərara gəldik ki, korpusun qərargahına Cahanaranın yanına gedib ondan xəbər öyrənək. Persiya otelinin qapısında kiminlə işimiz olduğunu soruşdular. Dedik: "Biz Əli Vətənxahın bacılarıyıq. Bir müddətdir ondan xəbərimiz yoxdur. Gəlmişik ki, qardaş Cahanaradan xəbər öyrənək". Qapıçı təsdiq əlaməti olaraq, başını yelləyib dedi: "Buyurun. Qardaş Cahanaranın otağı üçüncü mərtəbədədir".

Persiya oteli Karvansara otelindən çox kiçik idi, foyedən sonra pilləkənə və otaqlara gedən dəhliz kimi bir girişi vardı. Pəncərələr qum kisələri ilə örtüldüyünə görə dəhliz alaqaranlıq idi. Tək-tük pasdarlar gedib-gəlirdi. Qapıçıdan Cahanaranın otağının nömrəsini soruşmağı unutmuşduq. Üçüncü mərtəbəyə qalxdıq.

Birinci otağın qapısını döyüb cavab gözləmədən açdım. Bir neçə gənc pasdar kovrolit üzərində dairəvi şəkildə oturmuşdu. Biri televiziya reklamlarından birini yamsılayıb bir parça şeir oxuyurdu, digərləri də gülüşüb əda çıxardırdılar. Məni görüb bir anlığa yerlərində dondular. Çox xəcalət çəkib tez otağın

qapısını bağladım. Yazıqları qəfil yaxalamışdım. İki xanımın otaqlarının qapısını açmalarını əsla gözləmirdilər. Mənim günahım idi, qapını elə tələsik açmamalı idim.

Nə edəcəyimizi fikirləşdiyimiz yerdə otaqların birinin qapısı açıldı, Mustafa İmadi adlı bir pasdar bayıra çıxdı. Onu inqilab zamanı və Xürrəmşəhr iğtişaşlarında çox görmüşdüm. Yaxınlaşıb salamlaşandan sonra nə üçün gəldiyimizi soruşdu. Əli barədə danışıb dedim: "Gəlmişik ki, görək Cahanaranın Əlidən və Qasim Mədənidən xəbəri var, yoxsa yox". Dedi: "Gəlin, sizi onun yanına aparım".

Mustafa bir otağın qapısını döyüb içəri girdi. Səsini eşidirdik: "Əli Vətənxahın bacıları gəliblər, qardaşları haqda danışmaq istəyirlər". Cahanara dedi ki, gəlsinlər.

İçəri girdik. Məhəmməd Cahanara təxminən 12 kv metrlik bir otaqda masanın arxasından ayağa qalxdı. Arxasında İmam Xomeyninin gözəl bir şəkli çərçivəyə keçirilmişdi. Otağında iş masasından başqa bir şey yox idi.

Başım aşağı idi, amma özümdən asılı olmadan bir anlığa gözlərim üzünə sataşdı. Onun çöhrəsini görüb təəccübləndim. Öncədən Xürrəmşəhrdə gördüyümdən dünya qədər fərqlənmişdi. Saqqalı dolmuş, saçı təxminən uzun və qıvrım olmuşdu. Üzünün rəngi sarıya çalırdı. Çox arıqlamışdı, məncə, yaşından çox göstərirdi. Korpus geyiminin üstündən yaşıl sviter geyinmişdi, ayağında çəkələk vardı. Görkəmi gecə-gündüz yorulmadan çalışdığını car çəkirdi. Salamlaşandan sonra dedi ki, buyurun, qulluğunuzdayam.

Dedim:

- Düzü, haçandır qardaşım Əlidən xəbər yoxdur. Hər yeri axtarmışıq, sanki su olub yerə hopub. Əsir düşdüyündən əminik, amma hələ İraq radiosundan bir şey eşitməmişik. Dedik bəlkə siz, ya da döyüşçüləriniz bir şey bilərlər.

Cahanara Əlini yaxşı tanıyırdı. Dedi:

- Vallah, Əli on beş günlük məzuniyyətdədir. Bəlkə harasa başqa yerə gedib.

- Yox. Məzuniyyətin yalnız iki gecəsini Sənbərdərdə anamgilin yanında qalıb. Nə qədər israr etdiblərsə, deyib ki, indi məzuniyyət zamanı deyil, cəbhədə ehtiyac var və tez qayıtmalıyıq. Qasim Mədəni də onunla idi. İndi nə ondan xəbər var, nə də Qasimdən. Biz bütün cəbhələri, hətta xəstəxana və morqları axtarmışıq. Onlardan əsər-əlamət yoxdur.

Cahanara başını aşağı salıb barmağını stolun kənar hissəsində oynadırdı. Ağır və vüqarlı gənc idi. Dedi:

- Əsir düşdüyünə hardan əminsiz?

- Onlar Abadana gələn gün iraqlılar Şadiqan üçyolunda bir mikroavtobus tutublar. Siz bizdən yaxşı bilirsiz. Bunu radiodan bir neçə dəfə eşitdik. Dedik yəqin, Əli də orada olub.

Biz Əlidən danışdıqca Cahanara narahat olurdu. Qaşlarını düyünlədi.

- Bu xəbərə həqiqətən, narahat oldum. Onun əsir düşdüyünü gözləməzdim. Həmişə fikirləşirdim ki, bir hadisə baş versə, şəhid olar. Əli cəsarətli və qorxmaz uşaqdır. İki həftəsi bitəndən sonra gəlməyəndə fikirləşdim ki, yəqin, bizdən inciyib, bugün-sabah gələr.

Əli Sərbəndərdə anamla Şahnaza demişdi: "Bəzi korpus uşaqları ilə birgə gecə vaxtı çayın o tayına kəşfiyyata getmək istəyirdim, ancaq Cahanara qoymadı; dedi ki, hələlik gözlə, vaxtında özüm səni göndərəcəm. Mən də dedim ki, belədirsə, daha sizinlə işləməyəcəm". Güman ki buna görə incimişdi, ancaq daha sonra iraqlı qumbaraatanı vurmuşdu. Qorxurduq ki, sözünə görə onu korpusdan çıxararlar. Buna görə Şahnaz dedi: "Qardaş Cahanara, bəs pasdar olmaq məsələsi nə olacaq?"

Cahanara dedi: "Əli əvvəlki kimi bizim pasdarımızdır. Bu baxımdan, narahat olmayın. O, gəncdir, hirslənib bir söz deyib, biz ciddiyə alan deyilik. İnşallah tezliklə sağ-salamat olduğunu

eşidərik. Ondan xəbər öyrənsəniz, lütfən bizə də məlumat verin. Biz də bir şey öyrənsək, sizə deyəcəyik".

Əlinin korpusda saxlanmasına dair Cahanaraya bir ərizə yazmışdım. Onu verdim, sonra sağollaşıb xəstəxanaya qayıtdıq. Artıq heç bir ümidimiz qalmadı.

Bir anlığa ürəyim Əlini istədi. Əli, Abbas və Firdovsla çərpələng oyununu çox sevirdik. Hamıdan çox Əli ilə mən sevirdim. Həmişə əlimizdə bir parça kağız, həsir və yapışqan olurdu. Çərpələngi adətən, mən düzəldirdim.

Bürucerdin Kəlcu kəndində qalanda iki qəşəng çərpələng düzəldib Əliyə dedim ki, gedək, damda uçuraq. Çərpələng uçurmağın xüsusi üsulu var. Damda qaçıb çərpələngləri uçurduğumuz yerdə qapını görməyib oradan yerə düşdüm. Kənd evlərinin hündürlüyü üç metrdən çox olurdu. Bəxtim onda gətirdi ki, anbardakı saman tayasının üstünə düşdüm. Əli isə məndən xəbərsiz damda qaça-qaça çərpələngini uçururdu.

Çox qorxmuşdum. Saman anbarı alaqaranlıq idi. Gözlərim qaranlığa alışandan sonra sağ tərəfimdə bir neçə ağ küçük gördüm. Uzaqbaşı, bir-iki aylıq olardılar. Damdan düşmək qorxusu bir yana, it qorxusu bir yana! Hər an anaları gəlib məni görə bilərdi. O qədər qorxdum ki, dilim tutuldu, heç kimi çağıra bilmədim. Qorxudan yerimdən də tərpənmirdim.

Az sonra anam anbarın qapısını açıb başına vura-vura içəri girdi. Ardınca da Əli ilə Fevziyə gəldi. Anam qorxmuşdu, tez-tez əlimi və ayağımı sıxıb soruşurdu: "Ağrın var?" Mən də çox qorxmuşdum, amma Allaha şükür, heç bir ağrım yox idi.

Əliyə darıxanda bütün xatirələr bir-bir yadıma düşürdü. Vücudumda ondan bir iz axtarırdım; darıxmağımı bir qədər azaldacaq iz.

Xəstəxanaya və Ariya qəsəbəsinə gedib-gəlməkdən yorulmuşdum. Bir gün xəstəxananın daxili müdiri ağa Həsəninin yanına getdim. O, Abadanın Quruculuq cihadının

ixlaslı və gənc kadrlarından idi. Ona dedim: "Haçandır gündüzlər xəstəxanadayam, yaralılar üçün əlimdən gələni edirəm, axşamlar da Ariya qəsəbəsinə uşaqlarımızın yanına gedirəm. Əgər mümkünsə, elə edin, biz xəstəxanaya yerləşək və axşamlar getməyə məcbur olmayaq".

Həsəni təklifimi bəyənib dedi: "Bəlkə siz məni yaxşı tanımırsız, amma mən haçandır sizin burda necə əziyyət çəkdiyinizi görürəm. Daim yaralı gətirir, çoxlu işlərə kömək edirsiz. Sizə xidmət göstərmək bizim üçün şərəfdir".

Sonra soruşdu: "Hansı şöbədə işləmək isəyirsiz?"

O vaxta qədər ilk tibbi yardım və iynə vurmaq kimi işlərdə ixtisaslaşdığıma görə dedim: "İcazənizlə Təcili yardım şöbəsinə getmək istəyirəm. Məncə, orada daha faydalı ola bilərəm".

Təcili yardım şöbəsinə getdim. Fevziyə ilə Əfsanə Qazizadə də Cərrahiyyə şöbəsində işləyirdilər. Nahar vaxtı bir yerə toplaşanda Şahnazla Fevziyə əməliyyat otağının bərbad vəziyyətindən danışırdılar. Yaralıların bədənindən axan qan dəri döşəyi çarpayıya elə yapışdırıbmış ki, qopmurmş. Bəzən yaralı o qədər çox olurmuş ki, əməliyyat otağının işçiləri alətləri yaxşı təmizləməyə vaxt tapmır, suya çəkib avtoklavda dezinfeksiya edirmişlər. Belə ki hətta maqqaşlarda qurumuş qan da təmizlənmirmiş. Deyirdilər ki, əməliyyat otağının qapı və divarlarını ülgüc, pambıq və savlon kremi ilə təmizlədik. Çox əziyyət çəkib hər yeri parlatmış, sonra da cərrahiyyə alətlərini təmizləməyə başlamışdılar. Deyirdilər ki, alətlərdə qurumuş qanları iynə ilə qoparırdıq.

Əfsanə də buna bənzər sözlər danışırdı.

- Bir yaralıya baxanda üfunət iyi duydum. Döşəyin mələfəsini kənara çəkdim. İylənəcək bir şey yox idi. Ancaq döşəyi qaldıranda gördüm ki, altında irili-xırdalı çoxlu qurd oynayır. Ürəyim kabab oldu. Camaatın balaları vətəni qorumaqdan ötrü canlarını verirlər, ancaq onların günlərinə bax! Çarpayıya o

qədər qan və çirk axmış, o qədər baxımsız qalmışdı ki, qurdlamışdı.

Cərrahiyyə şöbəsində işləyən uşaqlar gecələr cərrahiyyə hazırlığı otağında yatırdılar. Yataq yerim olmadığından mən axşamlar Ariya qəsəbəsinə getməli olurdum. Həsəni ilə danışandan sonra isə xəstəxananın üçüncü mərtəbəsində tibb bacılarının otağında yatmağa başladım.

Taliqani xəstəxanasına yerləşəndən sonra saçımın tökülməsi o qədər çoxalmışdı ki, hər gecə balışıma çoxlu tük yığılırdı. Gördüm ki, yavaş-yavaş keçəlləşirəm. Bilqeys saç kəsməyi bacarırdı. Saçımı o qədər qısaltdı ki, tüklərin uzunluğu zorla 2 sm-ə çatırdı. Çox narahat oldum, amma başqa yolum yox idi.

Təcili yardıma gətirilən yaralılar daha çox Zülfüqari, Həffar, Minu adası, Fəyyazi, Kəfişə, yeddi və doqquzuncu stansiyalar, Körpüaltı cəbhələrinin və Seyid Abbas bölgəsinin döyüşçüləri idi. Həmişəki kimi çoxu azyaşlı döyüşçülər idi, aralarında tək-tük otuz yaşa yaxınları olurdu. Sınmış sümüklər, kəsilmiş damar və orqanlar, qəlpədən aşsüzənə dönmüş bədənlər mənə yeni deyildi. Belə yaralarla o qədər adi şəkildə qarşılaşır, cəld və soyuqqanlılıqla tibbi yardım göstərirdim ki, özüm də təəccüb edirdim. Sanki bir ömür işim bu olmuş, bunlarla böyümüşdüm.

Təcili yardım şöbəsinə yerləşəndən bir neçə gün sonra Fatimə Bəndəri ilə Nuşin Nəccar gəlib dedilər: "Müdirlə danış, biz də bura gələk. OPD xəstəxanasında kifayət qədər tibb bacısı var, orda xüsusi bir işimiz yoxdur, burda isə daha çox ehtiyac var".

Həsəni ilə danışdım. Dedi: "Yəqin ki müharibə zamanı müalicə məkəzlərinin necə həssas olduğunu bilirsiz. Bu yerlərə düşmənin hər cür nüfuz ehtimalı yüksəkdir, yeni kadrları çox ehtiyatla seçmək lazımdır. Buna baxmayaraq, siz dostlarınız olduğunu, onları yaxşı tanıdığınızı deyirsizsə, gəlib yanınızda Təcili yardım şöbəsinə yerləşsinlər". Uşaqlar bunu eşidib çox sevindilər.

Doktor Səadət cəbhədə olsa da, xəstəxanaya çox gedib-gəlir, yaralı gətirirdi. Onu Təcili yardım şöbəsində tez-tez görürdüm. Salehə də bizim yanımızda işə başlamışdı. Xürrəmşəhr korpusu işçilərini Persiya otelinə yerləşdirmiş, xanımları Sərbəndərə göndərmişdi. Əlbəttə, Sərbəndər və EBK-dakı korpus qızları sərbəst olduqlarına görə ailələrinə baş çəkə bilirdilər. Salehə məhz buna görə bəzi dostları ilə birgə Taliqani xəstəxanasına gəlmişdi.

Bir gün sübh azanına yaxın başdan-ayağa toz-torpağın içində bir yaralı gətirdilər. Onu çarpayıya uzadıb həyat əlamətlərini yoxlamağa başladıq. Nə nəbzi vurur, nə ürəyi döyünürdü. Şəhid olmuşdu. Bütün bədənini yoxladım. Ən kiçik yara izi də yox idi, bədənində hətta bir damla qan görünmürdü. Təcili yardım şöbəsinin həkimi dedi: "Axı onun şəhadət səbəbi olaraq, nə yazım?"

Onu gətirmiş iki döyüşçüyə yaxınlaşıb soruşdum: "Yoldaşınız necə şəhid oldu?" Biri dedi: "Vallah, biz də bilmirik. O, səngərdən bayıra çıxdı, bir az sonra düz səngərin üstünə bir raket düşdü, o da bizim önümüzdə yerə yıxıldı. Bilmirik ki, partlayış dalğası vurdu, yoxsa başqa bir şey oldu".

Çox qəribə idi. Hər halda, şəhadəti üçün bir səbəb tapmalıydıq. Bir qədər pambıq götürüb su ilə üzünün torpağını təmizləməyə başladım. Şəhidin üzünün o şəkildə qalmasına ürəyim dözmədi. Əvvəlcə alnını təmizlədim, sonra gözlərini. Burnunu təmizləyəndə gördüm ki, burun sümüyündə darı boyda çox kiçik bir qəlpə yeri var, təsadüfən, qanaxması da olmayıb.

Həkimə yaxınlaşıb dedim ki, üzündə xırda bir qəlpə yeri tapdım. Həkim yaraya baxıb dedi ki, qəlpə buradan beyninə girib.

Ertəsi gün uşaqlara baş çəkmək, lazım olsa, kömək etmək üçün əməliyyat otağına getdim. Şöbəyə qayıdanda İsmətin

qaynı Əlirza da oraya gəldi. Ağzı qurumuş, rəngi qaçmışdı. Salamlaşandan sonra titrək səslə İsmətə dedi: "Nadir şəhid oldu. Mən təkəm. Gedək, cəsədini alıb dəfn edək".

Nadir Əlirzanın qardaşı, İsmətin o biri qaynı idi. İsmət Canbozorgi Ahənkub ailəsinin gəlini idi, yoldaşı Məhəmmədrza müharibənin əvvəllərində əsir düşmüşdü. O gündən vəziyyəti yaxşı deyildi, depressiyaya düşmüşdü. Çox fikrə gedir, əksərən sakit qalır, ləng hərəkət edir, çox vaxt tək qalmağa çalışırdı.

Oktyabrın 11-də iraqlılar Əhvaz-Abadan magistralını tutdular. İsmətgil həmin gün magistralda, Şadiqan üçyolundan sonra iraqlılar tərəfindən saxlandılar və həyat yoldaşı əsir düşdü. İraqlılar mikroavtobusun önünü kəsəndə sürücü ərəbcə onlara demişdi ki, qoyun gedək, bunlar arvad-uşaqlardır, hərbçi deyillər. İraqlılar da sürücünün başından bir güllə vurub şəhid etmişdilər.

İsmətin yoldaşının pasdar kartı üstündə imiş. İsmət deyirdi ki, əvvəlcə kartını aldım, sonra tez üzüklərimizi çıxardıq. Yazıq qorxurmuş ki, ər-arvad olduqlarını bilsələr, işgəncə vermək məqsədilə hörmətsizlik edərlər. Sonra iraqlılar hamını mikroavtobusdan endirib yolun kənarında oturtmuş, kişiləri bir maşına mindirib aparmışdılar.

Kişiləri aparandan sonra iraqlıların hərəsi əlində bir qumbara qadınları dövrəyə alıblar. Komandirin əmrindən sonra qumbaranı çəkib atacaq, onları öldürəcəkmişlər. Az sonra komandir atəş əmri verməyib döyüşçülərinə deyir ki, dağılışın. Sonra iki-üç əsgərə tapşırır ki, qadınları Şadiqan üçyoluna yönləndirsinlər.

İraq tərəfi müharibənin ilk günündən oktyabrın 11-nə qədər tutduğu hər əsiri ən ağır işgəncə altında şəhid edirdi. İlk dəfə idi təbliğat məqsədi ilə, özlərini humanist göstərməkdən ötrü əsirlərimizi azad etmişdilər. Bu xəbəri mediaya çıxarmaqla

Səddamın mənfur, cinayətkar simasını ört-basdır etməyə çalışırdılar.

İsmət deyirdi ki, Şadiqan üçyolunda hamımız yerə endik. Yerdən torpağı götürüb başımıza tökür, qışqırırdıq ki, bədbəxt olduq, yoldaşlarımızı, uşaqlarımızı apardılar. Qadınlar özlərini elə vururmuşlar ki, az qala öləcəkdilər. Ordu hərbçiləri onları Abadanın Piruz məscidinə aparmışdılar. Bəziləri Xürrəmşəhrə qayıtmışdı, İsmət kimi bir neçəsi də Abadanda qalmışdı.

Müharibə başlamazdan bir neçə ay qabaq İsmətin qayınanası xanım Ahənkub mətbəxdə qaz balonunun partlamasından yanıb dünyasını dəyişmişdi. Müharibə başlayandan sonra Əhvazın Cündi Şapur universitetində təhsil alan böyük qızı Nahid bacısı Nida ilə birgə Mahşəhrə nənəsigilə getmişdi. Məhəmmədrza əsir düşəndən sonra bu ailə çox əziyyət çəkmişdi. İndi də Nadir şəhid olmuşdu, 16-17 yaşlı yazıq Əlirza ailəyə başçılıq etməli idi. Gedib qardaşının cəsədini təhvil alacaq, dəfn edəcəkdi.

Şahnaz, Fevziyə və İsmətlə birgə Əlirzaya qoşulub Mihən dondurma zavodunun buzxanasına getdik. Əlirza şərt kəsdi ki, orada ağlayıb səs-küy salmayaq. Görünür, ailəsinin və dostlarının narahat olduğunu kiminsə görməsini istəmirmiş. Buzxanaya girib Nadirin cəsədini tapmalıydıq.

Morqa ilk girişim olmasa da, bu dəfə buzxananı gözəl ətir bürümüşdü. O ətrin haradan gəldiyini bilmək istəyirdim. Qardaşım Əlidən ötrü də məyus halda şəhidlərin üzünə baxırdım.

Şəhidlərin arasında gəzdiyim yerdə qəlpədən bir-birinə tikilmiş ata və oğulun cəsədi diqqətimi çəkdi. Uzun ərəb köynəyi geyinmiş qırx yaşlı ata üç-dörd yaşlı oğlunu qucağına götürmüşdü, uşağın üzü çiyninin qarşısında qalmışdı. Əl boyda böyük bir qəlpə uşağın çiynindən girib atanın sinəsində

dayanmışdı. Ata-oğul bir-birini qucaqlayan vəziyyətdə şəhid olmuşdu.

Atanın bədəninin yuxarısı və uşağın bütün bədəni qanın içində idi. Qanın bir qədəri cəsədlərindən bir metr aralıya qədər axmış, yerdə donmuşdu. Qəribə səhnə idi. Hər ikisi çox məzlum və qərib şəkildə şəhid olmuşdu. Heç bir söz demədən ata ilə oğulun cəsədinə baxırdıq. Allah bilir, uşağın anası harada idi! Dodaqaltı növbəti dəfə Səddamı lənətləyib cəsədlərin yanından keçdim.

Təzyiqimin düşdüyünü hiss edirdim. Barmaqlarımın ucu donmuşdu. Xəstəxanada imkan olanda təzyiqimi ölçürdüm. Heç vaxt 80-dən yuxarı qalxmırdı.

Əlirza mömin oğlan idi. Üzündəki iman nurunu həqiqətən, görmək olurdu. Qardaşı Məhəmmədrza əsir düşəndən sonra korpusa gedib onun yerini doldurmuşdu. Başıaşağı, gülərüz gənc idi. Yaşı çox olmasa da, sözlərində ağıl və mətanət vardı, ürəyindəki qəm-kədərin ağırlığı duyulurdu. Qısa müddət ərzində iki böyük qardaş itirmək sadə məsələ deyildi.

Morqa acı və uzun sükut hakim idi, heç kim danışmırdı. Əlirza bizdən beş-altı addım öndə idi. Ona yaxınlaşıb dedim: "Bacın Nahidə xəbər vermisən?" Dedi: "Yox, hələ heç nə deməmişəm. Anamın ölümü və Məhəmmədrzanın əsirliyi onu çox sarsıdıb. Demək istəmədim. Bilirdim ki, qalxıb bura gələcək".

Əlirza Nadirin cəsədini tapıb yavaşca digər şəhidlərin arasından çıxardı, yanında dizi üstə oturdu, əlini başına çəkib üzünü öpdü. Nadir korpus formasında idi. Əlirza şəhid qardaşı ilə çox mətanətlə və ağır-ağır danışmağa başlayıb dedi: "Nadir can, yeni mənzilin mübarək! Şəhadətin mübarək! Xoş halına!"

Nadir Ahənkubu birinci və axırıncı dəfə morqda gördüm. Üzündən Əlirzaya oxşayırdı, ancaq daha qarabuğdayı, boyu da bir qədər uca idi. Sinəsinə qəlpə dəymişdi.

Morqda ağlamamağımızı təkidlə tapşırsa da, hamımız səssizcə ağlayırdıq. O da özünü saxlamağa çalışırdı, amma bacarmırdı. Morqun işçiləri ilə birlikdə Nadiri təcili yardım maşınına qoyub Abadanın Şəhidlər gülzarı məzarlığına yola düşdük. Əlirza Nadiri yuyucu yerinə apardı. Biz də bayırda gözlədik.

Hələ Nadirin cəsədini çıxarmamış içəridən gənc bir oğlan çıxıb bizə yaxınlaşdı.

- Bacılar, siz Allah, bizə kömək edin. İki gündür bir şəhid qadın gətiriblər, qadın ölüyuyan olmadığına görə dəfn edə bilmirik. Xahiş edirəm, biriniz bu Allah bəndəsini kəfənləyin, dəfn edək. Ölünün bu qədər yerdə qalması günahdır.

Bir-birimizə baxdıq. Bu müddətdə hər cür iş görmüşdük, bircə bundan başqa. Bir anlığa vicdan əzabı çəkməyə başladım. Cəsədin iki gün yuyucu yerində qalması Allaha xoş getməzdi. Bu müddətdə çoxlu şəhid cəsədləri görsəm də, ölüdən qorxum hələ tam keçməmişdi. Bununla yanaşı, gənc oğlana dedim: "Yaxşı, mən gəlirəm. Ancaq indiyədək belə bir iş görməmişəm, gərək nə edəcəyimi deyəsiz".

Fevziyə ilə Şahnaz mənim belə bir iş görəcəyimə inana bilmirdilər. Fevziyə dedi: "Sabah, bəs qorxmursan?" Dedim: "Başqa yol varmı, bacı?! Yazıq iki gündür əllərdə qalıb. Biz də etməsək, bu tezliyə kim ona qüsl verib kəfənləyəcək?! Çox qorxmayım deyə, siz də gəlib yanımda dayanarsız".

Oğlan dedi: "Allah köməyin olsun, bacı! Allah işlərini düyünə salmasın!"

Onun ardınca yola düşdük. Ətrafa o qədər mərmi düşürdü ki, gözləyirdik biri də qəbiristana düşəcək. Qadınların yuyucu yerində qapıdan əlavə böyük bir pərdə də asılmışdı. Pərdənin yanına çatanda oğlan dedi ki, gözləyin, gedib qayçı və parça gətirim.

Bədənim biz-biz olmuşdu. Dua edirdim ki, öhdəsindən gələ bilim. Bir qədər sonra oğlan sidr, kafur, ağ parça, bir qayçı və bir qab torpaqla gəldi, onları mənə verib dedi: "Bacı, mən naməhrəməm, içəri girə bilmərəm. Siz girin, mən nə edəcəyinizi burdan deyəcəm".

İçəri girdik. Sement divarlı qaranlıq bir dəhlizdən keçdik. Dəhlizin solunda böyük bir otaq vardı, içində daşdan stol kimi hündür bir yer hörülmüşdü. Otaq alaqaranlıq idi, cəmi bircə kiçik pəncərəsi vardı.

Yuyub kəfənləməli olduğum şəhid orada idi. Uşaqlar qapının ağzında dayandılar, mən yavaşca içəri girib cəsədin yanında oturdum. Şəhid normal bədənli bir qadın idi, xırda qırmızı və mavi gülləri olan qara şalvar-köynək geyinmişdi. Ayaqları və bədəninin yuxarı hissəsi sağlam idi, qəlpə üzünün yarısını aparmışdı, digər yarısından da qəribə bir şey qalmışdı. Ağız boşluğu həddən artıq böyümüş, qaralmışdı. Ona ilk dəfə baxanda qaranlıq bir mağara kimi dərin olduğunu düşündüm. Mən normal vəziyyətdə də ölüdən çox qorxurdum, belə bir cəsədlə qarşılaşmaq isə xüsusi cəsarət tələb edirdi. Qadının toz-torpağa, külə və qana bulaşmış saçı o qədər sıx idi ki, bütün üzünü örtmüş, başına və üzünə dolanmışdı. Üzünün yalnız sağ tərəfini qəlpə aparsa da, sol tərəfdə də nə göz vardı, nə qaş, nə yanaq. Burnu da ağzı ilə birləşmişdi.

Üzüm cəsədə doğru idi. Göz bəbəklərimin qadının qorxulu üzündən qaçmaq istədiklərini hiss edirdim. Bir anlığa Zəhra Hüseyni yadıma düşdü. O, necə də ürəkli idi! Bütün vaxtını ölüləri yumaqla keçirirdi. Müharibə başlayandan Cənnətabad məzarlığı bağlanana qədər çox zəhmət çəkmişdi. O, şəhidlərin qüsl və dəfnindən çoxlu xatirələr danışırdı.

Hər yeri acı sükut bürümüşdü. Uşaqların heç birindən səs çıxmırdı. İçəri girib qapının yanında dayanmışdılar. Üzlərinə baxmaq istəmirdim. Düşünürdüm ki, cəsədi görüb qorxmuş

olarlar, mən də onların üzünü görüb vahiməyə düşər, işimi görə bilmərəm.

Yeniyetməliyin bir dönəmində ölüm və ölü anlayışları mənə o qədər qaranlıq idi ki, bu barədə fikirləşməməyə çalışırdım. Soyuqdan barmaqlarım donanda qorxub fikirləşirdim ki, yəqin barmaqlarım ölüb, ruhsuzdur. Bu qorxudan qurtulana qədər çox çəkdi. İndi də adi ölü ilə deyil, şəhidlə üz-üzə qaldığıma görə bu qədərini bacarırdım. Bibimin sözü yadıma düşdü: Uşaqlıqda ondan eşitmişdim ki, hər bir müsəlman yeddi ölüyə qüsl verməlidir. O şəraitdə həmin söz məni ruhlandırırdı.

Ölüyuyan oğlan dedi: "Bacı, əvvəlcə niyyət elə ki, meyitə qüsl əvəzinə təyəmmüm verirsən, sonra əllərini verdiyim qabdakı torpağa vur, hər ikisini onun üzünə çək. Sonra sağ əlini onun sağ əlinə, sol əlini də onun sol əlinə çək. Bunu elə, sonra necə kəfənləyəcəyini deyim".

O vaxtacan elə bilirdim ki, şəhidə qüsl verməliyəm. Fikirləşirdim ki, suyu bədəninə tutaram, özümsə toxunmaram. Bu sözdən sonra bildim ki, üzünə və əllərinə toxunub ona təyəmmüm verməliyəm. Allaha təvəkkül edib yavaşca "Bismillah" dedim. Qabın qapağını açıb hər iki əlimi torpağa vurdum. Yumşaq torpaq idi, qum kimi.

Əllərimi qaldırıb şəhidin üzünə yaxınlaşdırdım; bir zaman alnı olmuş hissəyə. Onun üzü ilə mənim əllərim maqnitin əks tərəfləri kimi bir-birini itələyirdi. Əlim onun saçına və üzünün dərisinə dəyəndə, bədəninin soyuqluğunu hiss edəndə sanki məni üçfazalı elektrik cərəyanı vurdu. Bədənimin bütün molekulları qurudu. Bütün vücudumu elə qorxu bürüdü ki, ayağa qalxıb qaçmağa hazırlaşdım. Ancaq başımı qaldıran kimi hər üçü qara çadrada olan Şahnaz, Fevziyə və İsmətin yerində üzlərini görmədiyim hicablı və vüqarlı qadınların dayandığını hiss etdim. Üzlərini görmürdüm, ancaq bir dəstə qara geyimli

adam kölgəsi görünürdü. Onlardan utanıb yenidən yerə oturdum.

Daxilimdən bir səs dedi ki, Sabah, bunlar səni gözləyirlər, cəsədi təhvil alacaqlar. Normal şəraitdə belə bir səhnənin təsəvvürü də qorxmağıma kifayət edərdi, amma o xanımları görüb nəinki qorxmadım, əksinə, çox rahatlaşdım və ruhlandım.

Yavaşca əllərimi yuxarıdan şəhidin üzünə çəkdim. Sonra sağ əlimi sağ əlinin üstünə, sol əlimi də sol əlinin üstünə çəkdim. Ölüyuyan oğlanın tam dediyi kimi etdim. Əllərinə təyəmmüm verəndə bildim ki, gənc imiş. Ölümündən iki gün ötsə də, dərisinin zərifliyindən təxminən otuz yaş vermək olardı.

Gənc ölüyuyan dedi: "Bacı, bitdi?"

Sanki quyunun dibindən çıxan səslə dedim: "Bəli, təyəmmüm bitdi". Dedi: "Allah ömrünü uzun eləsin! İndi kafuru götür, bədəninə sürt, sonra da sidri. Onları səcdə vaxtı yerə toxunan yeddi bədən üzvünə vurmalısan: bir qədərini alnına, bir qədərini əllərinin içinə, bir qədərini ayaqların baş və digər barmaqlarına, bir qədərini də dizlərinə".

Dedim: "Əynində paltar var, dizlərinə necə sürtüm?" Dedi: "Verdiyim qayçı ilə paltarını kəs, sonra kəfənlə. Kəfəni bağlamazdan qabaq sidrlə kafuru bədəninə sürt". Dedim ki, yaxşı.

Yenə dilləndi: "Bacı, yaxşı qulaq as, gör nə deyirəm. Əvvəlcə böyük parçanı başından bədəninə keçirməlisən, sonra aşağı hissəsinin parçasını, sonda da örpəyə oxşayanı başına salmalısan".

İstəyirdim ki, imkan daxilində şəhidin hörməti qorunsun və digərlərinin gözü önündə paltarını çıxarmayım. Əvvəlcə böyük kəfən parçasını cəsədin yanına sərdim, sonra cəsədi onun üstünə itələdim. Yerbəyer edəndən sonra başını yavaşca qaldırıb kəfənin yuxarısındakı baş yerinə keçirdim. Sonra kəfəni

köynək kimi aşağı çəkib düzəltdim. Birinci parça onu təxminən dizlərinə qədər örtdü.

Sonra qayçını götürüb kəfənin altından paltarlarını kəsməyə başladım. Paltarı pambıqdan idi, amma üstündəki qan quruduğuna görə nişastalı tül kimi bərkimişdi. Paltarını kəsib çıxardım. Sidr və kafuru ölüyuyanın dediyi yerlərə vurub kəfəninin iplərini bağladım, sonra da örpəyə bənzəyən son parçanı başına bağladım.

Başımı qaldıranda gördüm ki, Şahnaz, Fevziyə və İsmət ayaq üstə tərpənmədən mənə baxırlar. Dedim: "Allaha şükür, bitdi. İndi gəlin, dördümüz götürüb aparaq".

Elə də etdik. Ölüyuyan oğlan yenə çox təşəkkür və dua edib dedi ki, gərək tez dəfn olunsun. Zənnimcə, yuyucuxanada işləyən bir kişi qabaqda, biz də onun arxasında dayanıb meyit namazı qıldıq. Sonra cəsədi qəbrin yanına apardıq. Ölüyuyan oğlan dedi: "Bacı, bura qədər zəhmət çəkmisən, buna da kömək elə".

Qəbrə girdim. Uşaqların köməyi ilə cəsədi məzara qoyduq. Ölüyuyan kişi dedi: "Zəhmət olmasa, üzünü aç, torpağın üstünə qoy. Ona təlqin oxuyacam. Mən oxuyanda onu tərpədərsən".

Dediklərini elədim. Əhləd daşını qoyanda ürəyimdə dedim: "Əvvəldə çox qorxdum, amma nə etdimsə, halalın olsun. O dünyada mənə əl tutarsan".

Bu müddətdə Nadirin kəfəni və dəfni də bitmişdi. Karvansaraya qayıtdıq. Ölüyə əl vurduğuma görə boynuma qüsl gəlmişdi. Şahnazla otelin həyətində görünməyən bir yerə getdik. Şahnaz çadranı tutdu, mən o havada soyuq su ilə qüsl verdim. Soyuqdan donurdum. Bütün bədənim əsir, dişlərim taqqıldayırdı. Ondan sonra xəstələnməmək də bir möcüzə idi.

# İyirminci fəsil:

## *Tehran*

Yanvarın axırları idi. Hələ də Əlidən xəbər yox idi. Artıq hamımız onun əsir düşdüyünü qəbul etmişdik. Anamla atam da sakitləşmişdilər, bir-birinə təskinlik verib vəziyyətlə barışmağa çalışırdılar. Anamın adı Firəngbanu idi, atam onu Firəng çağırır və deyirdi: "Firəng, fərz elə ki, Kərbəla səhrasındaydıq, biz də ağa İmam Hüseynə (ə) bir oğlumuzu qurban verdik".

Atamın dilindən bu sözü eşitmək çox gözəl idi. Onun Əlini necə sevdiyini bilirdik. Əli uşaq olanda israrla velosiped istəyir, amma atam almırdı. Nə qədər ağlayıb yalvarırdısa, ürəyi yumşalmır, razılaşmırdı. Bir dəfə bunun səbəbini soruşanda dedi: "Bu uşaq dəcəldir. Qorxuram ki, velosiped alsam, Allah eləməmiş, maşın vurar, bir şey olar".

İndi isə həmin kişi anamı oğlunun itkinlik və əsarət qəminə hazırlayırdı. Allah bilir, ürəyində necə tufan idi! Uşaqların vəziyyəti də yaxşı deyildi. Möhsünlə Abbas əvvəllər o qədər nadinclik edirdilər ki, anam onlara "cin" deyirdi. Ancaq bu hadisədən sonra onlar da depressiyaya düşmüşdülər.

Əli itkin düşəndən sonra Sərbəndərə daha çox gedir, növbə ilə olsa da, anamı tək qoymurduq. Lorlar oğul övladlarını çox

sevirlər. Anama da Allah bir neçə qızdan sonra Əlini vermişdi, canı ona bənd idi. Namazda və dua məclislərində çox vaxt anama səbir diləyirdim. Əli elə uşaqlardan idi ki, yeri çox görünürdü, xatirələri gözlərimiz önündən getmirdi.

O, çox şən idi. Biz qızlar bir yerə toplaşanda ortaya girib ələ salmağa başlayırdı. Elə sözlər deyir, elə zarafatlar edirdi ki, bəzən gülməkdən uğunur, bəzən də etiraz edirdik. Bu zaman anam bir kəfgirlə Əlini qabağına qatır, Bürucerd ləhcəsi ilə zarafata deyirdi:

- Gəl bura, görüm! Bu qədər qızın arasına niyə giribsən? Nənəxanım olmusan?!

Əli qaçmağa başlayırdı. Ancaq bacarmaq olmurdu, bir azdan yenə gəlirdi.

***

Şahnazla Sərbəndərə getmək istəyirdik. Onda Conşan xəstəxanaya gəlib-gedirdi. Bizim Sərbəndərə getmək istədiyimizi eşidib dedi: "Mən dustaqları Abadandan Əhvaza aparacam. Gəlin, Çuebdehə qədər bir yerdə gedək".

Nədənsə bir anlığa ağlımızı itirib razılaşdıq. Heç fikirləşmədik ki, dustaq və cinayətkarlarla yol yoldaşı olmaq düzgün iş deyil. Avtobusa minib arxada oturduq. İçəridə ağır ab-hava vardı. Həbsxanadan iki silahlı polis də orada idi. Conşan yanımıza gələndə yavaşca dedim: "Bunları nə üçün Əhvaza aparırsız? Cinayətləri nədir?" Dedi: "Bunlar oğru və qaçaqçılardır. Müharibədən sui-istifadə edib həbsdən qaçıblar, aparıb Əhvaz həbsxanasına təhvil verəcəyik".

Şahnazla bir-birimizə baxdıq. Həm bu yoldaşlarla yola çıxdığımıza görə qorxurduq, həm də işimizə gülür, çox peşmanlıq hissi keçirirdik. İmkanımız olsaydı, avtobusdan enərdik. Conşan dedi: "Əhvazda hamısına qamçı vurulacaq. Alıb bir-iki qamçı vurarıq, ürəyimiz soyuyar". Şahnaz dedi: "Ürəyiniz soyuyar?! Məgər ürəyiniz soyusun deyə, onlara qamçı

vura bilərsiz?! Bu ki haramdır!" Conşan dedi: "Kim deyir haramdır?! Gərək onların dərisini soyaq!"

Dedim: "Təbii ki, haramdır. Cəza Allahdan ötrüdür, vuran da Allahdan ötrü vurmalıdır, ürəyini soyutmaqdan ötrü yox!"[1]

Köhnə avtobusla Çuebdehə çatana qədər sanki bir gün keçdi. Oradan Chinook helikopteri ilə Sərbəndərə getdik.

Atamın vəziyyəti pisləşmiş, bir az da arıqlamış, rəngi solmuşdu. Deyirdi ki, nəfəs almağı çox çətinləşib, sanki sinəsinə ağır bir şey qoyub boğurlar. Şahnaza dedim: "Gəl, atamı xəstəxanaya aparaq. Bəlkə də ağciyərində başqa bir problem yaranıb. Yaralanmasından dörd ay ötür, indiyə sağalmalıydı".

Şahnaz da çox narahat idi. Dedi ki, lazım olsa, Tehrana apararıq.

Onu Mahşəhr xəstəxanasına apardıq. Orada dedilər ki, biz Şirazda və Abadanda göstərilən xidmətdən yaxşısını edə bilməyəcəyik, yaxşısı budur, onu Tehrana aparasız. Bizə dedilər: "Sərbəndərin Şəhid fonduna gedin, özləri atanızı Tehrana göndərəcəklər".

Şəhid fonduna getdik. Orada atama yaralanma qovluğu açdılar, sonra Tehranın Şəhid Mustafa Xomeyni xəstəxanasına təqdimat yazdılar.

Məryəm xalamla Hicab əmi bir ay öncə Tehrana getmişdilər. Hicab əminin Tehranda dost-tanışı vardı, orada iş tapmaq istəyirdi. Tehranda Qaçqın komitəsinə gedib 17 Şəhrivər prospektindəki məktəbdə bir sinif götürmüşdülər. Qərara gəldik ki, anamla və Şahnazla birlikdə atamı Tehrana aparaq, lazım olsa, bir neçə gün Məryəm xalagildə qalaq.

Uşaqları Firdovsa tapşırdıq. Məscidin həyətində abadanlı xanım qonşumuz vardı. Adı Pəri idi. Yoldaşı Abadana gedəndə itkin düşmüşdü; nə əsir olduğu bilinirdi, nə də şəhid olduğu. Biri üç-dörd yaşlı oğlan, biri də südəmər qız olmaqla iki kiçik

[1] Ondan sonra bir də Conşanı görmədim.

uşağı vardı. Qadın səhərdən axşama qədər bərkdən ağlayırdı. Anam və biz nə qədər danışıb təskinlik verirdiksə, sakitləşmirdi, dayanmadan zarıyırdı. Gedəndə anam ona tapşırdı ki, bizim uşaqlara da fikir versin.

Bürucerdə avtobus bileti aldıq. Sərbəndərdən Tehrana birbaşa avtobus getmirdi. Bir gecə Bürucerddə qalacaq, ertəsi gün Tehrana gedəcəkdik. Şahnaz, Abbas, anam və atamla birgə avtobusa minib Bürucerdə yola düşdük. Gecəni Hüseyn dayıgildə qaldıq. Dayım özü səhər tezdən bizə Tehrana bilet aldı. Birbaşa getməsək də, yazıq atam yolda çox əziyyət çəkdi, təngnəfəsliyi onu çox incitdi.

Tehranda birbaş Məryəm xalagilin qaldığı yerə getdik. Lorzadə prospektində bir məktəbin ünvanını vermişdilər. Məktəbə və Məryəm xalagilin qaldığı sinfə girəndə çox pis oldum. Onlar Xürrəmşəhrin imkanlı ailələrindən idilər, bir neçə ay öncə yoldaşı ilə birgə İngiltərəyə gedib oğulları Əhmədlə Mahmudun yanında üç ay qalmışdılar. Əhməd İngiltərədə memarlıq oxuyurdu, Mahmud da inşaat. Üç ay gəzəndən sonra İrana qayıtmışdılar, sonra da müharibə başlamışdı. Onların geniş və lüks evləri kiçik bir siniflə əvəzlənmişdi. Xalam bizi görməyinə çox sevinsə də, əhval-ruhiyyəsindən çox əzab çəkdiyi bilinirdi.

Nahar yeməyini xalamgildə yedik. Xalam qızı İlahə də təklikdən çıxdı, əhval-ruhiyyəsi çox yaxşılaşdı. Xalam deyirdi ki, bu bir ayda qanadları qırılmış quş kimi olub. Başını qarışdırmaqdan ötrü bir liseyə ad yazdırmışdı. Günorta yeməyindən sonra anam xalamgildə qaldı, Şahnazla mən atamı Şəhid Mustafa Xomeyni xəstəxanasına apardıq.

Mahşəhrin Şəhid fondunun təqdimatını Ürək və ağciyər şöbəsinin tibb bacılarına göstərdim. Dedilər ki, gərək əvvəlcə atanızdan bəzi analizlər götürək, şəkillər çəkək, bir-iki günə hazır olandan sonra mütəxəssisin rəyi ilə xəstəxanada yatırdaq.

Atamın işi bir-iki saat uzandı. Öncədən Şahnazla danışmışdıq ki, atamın işi qurtarandan sonra Xürrəmşəhrdən millət vəkili olan Yunis Məhəmmədi ilə görüşək. Ondan ev məsələsində kömək istəyəcəkdik ki, bizi Sərbəndərdəki qaranlıq və rütubətli otaqdan xilas etsin. İşləri bitəndən sonra atamı xalamgilə apardıq. Yazığın tənəffüsü o qədər çətinləşmişdi ki, məktəbin pilləkənlərindən qalxanda ortada dayanıb dedi: "Gözləyin, daha bacarmıram. Sanki canım çıxır".

Məktəbdən çıxıb Həsənabad meydanına, İmam Xomeyni prospektinə getdik. Parlamentin qapısı açıq idi, istəyən içəri girirdi. Qapıçı kiminlə işimiz olduğunu soruşanda dedim: "Biz Xürrəmşəhrdənik, millət vəkilimiz Məhəmmədi ilə işimiz var".

Çantamıza baxdılar, bir xanım bədənimizi yoxladı və içəri girməyə icazə verdi. Müharibə vaxtı olduğuna görə qaçqınlar öz millət vəkillərinin yanına gedib problemlərini deyirdilər; işsizlik, evsizlik və qaçqınlıq problemlərini. Deputatların işi həqiqətən, çox idi. Maraqlı idi ki, o qədər işlə camaatın sözünü hörmətlə və diqqətlə dinləyirdilər.

Yunis Məhəmmədini tapdıq. Hal-əhval tutandan sonra problemlərimizi dedik. Bizi Kərrubi adlı bir ruhaninin yanına aparıb dedi ki, bu cənab Şəhid və əlillər fondunun sədridir. Bizi də ona təqdim etdi. Ağa Kərrubi salamlaşandan sonra vəziyyətimizi soruşdu. Vəziyyətimiz haqda qısa məlumat verib axırda Əlinin itkin düşdüyünü də söylədik. Dedik ki, bəziləri onun əsir düşdüyünü düşünürlər, ancaq indiyədək ondan məktub almamışıq, İraq radiosundan elan edilən əsirlərin arasında da adını eşitməmişik. Əlinin adı çəkiləndə pis olurdum. Ondan xəbərsiz qalmağımız bizi çox incidirdi. Bəzən düşünürdüm ki, şəhid olduğunu eşitsəydik, hətta öz əllərimizlə onu dəfn etsəydik, bu qədər əziyyət çəkməzdik.

Kərrubi dedi: "Firdovsi prospektində Kuşk adlı bir bina var. Bu bina Şəhid fondunun ixtiyarındadır. Xuzistanın qaçqın

ailələrindən bir qismini ora yerləşdirmişik. Sizə bir məktub verəcəm. Şəhid fonduna gedin, deyin ki, qaçqınıq və müvəqqəti olaraq orada qalmaq istəyirik".

Onunla sağollaşdıq. Gedəndə Yunis Məhəmmədi dedi: "Əgər Tehranda yeriniz yoxdursa, axşam hamınız bizə gəlin". Ona təşəkkür edib dedik ki, hələlik xalamgildə qonağıq. O, çox təvazökar adam idi, evini heç bir xürrəmşəhrlidən əsirgəmirdi. Uşaqlardan eşitmişdim ki, evi hətta bir gecə də qonaqsız olmur, qapısı qaçqınların üzünə həmişə açıqdır.

Soruşa-soruşa Şəhid fondunun binasını tapıb Qaçqınlar şöbəsinə getdik. Yeni qovluqları yazan Əli Mazandarani adlı gənc, gülərüz bir oğlan idi. Kərrubinin məktubunu və Sərbəndərin Şəhid fondundan atama verilən tibbi qovluğu ona verdik. Vəziyyətimizi və şəraitimizi soruşdu. Şahnaz da Əlinin itkinliyi barədə məlumat verdi.

Mazandarani qovluq açandan sonra dedi ki, bir neçə gündən sonra Şəhid fondunun vəsiqəsini almağa gələk. Sonra da dedi: "Qardaşınızın itkinliyi barədə isə Qızıl Aypara Cəmiyyətinə gedib qovluq açmalısız". Cəmiyyətin ünvanını aldıq.

Oradan çıxanda Mazandarani bizə bir kağız verib dedi: "Hafiz prospektində Şəhid fondunun bir mağazası var. Bu kağızla ordan zəruri əşyaları pulsuz ala bilərsiz. Həm də ordan alış-veriş etmək üçün sizə bir qədər talon verəcəklər. Bu talonlarla gündəlik ehtiyaclarınızı endirimlə ala biləcəksiz".

Ədəb-ərkanlı gənc idi. Səsi sakit və hörmət dolu idi. Şəhid və qaçqın ailələri ilə ünsiyyət üçün münasib adam seçmişdilər. Problemləri dinləmə qabiliyyəti də yüksək idi.

Onunla sağollaşıb mağazaya yollandıq. Orada ailə üzvlərimizin sayını soruşub hərəmizə bir adyal, bir balış, bir böyük kovrolit, bir qədər düyü və yağ verdilər. Ünvanımızı soruşub dedilər ki, özümüz gətirəcəyik. Biz Kuşk binasının ünvanını verdik.

Firdovsi prospektinə gedib Kuşk binasını tapdıq. Binanın girişindəki kiçik gözətçi otağında Zeynəddin adlı bir kişi oturmuşdu. Kərrubinin məktubunu ona göstərdik. Bizi gülər üzlə qarşılayıb dedi ki, mənimlə gəlin. Liftlə dördüncü mərtəbəyə qalxdıq. Mənzillərin birinin qapısını açdı, içəri girdik. Dedi: "Bura sizin ixtiyarınızdadır. Bu da açarı. Mən aşağıdayam, bir işiniz olsa, deyin".

Yeni yerimiz təxminən 40 kv metrlik bir mənzil idi. Böyük bir zalı nazik divarla ikiyə bölmüşdülər. Evin yerinə boz kovrolit döşənmişdi. Pəncərələrin şüşələri dumanlı idi, üstünə çarpaz formada yapışqan lent vurulmuşdu. Pərdələr boz rəngli jalüzdən ibarət idi. Zeynəddinə dedim: "Bura kimin olub?" Dedi: "Bura şah vaxtı Proqram və Büdcə Nazirliyinin olub".

Orada çox qalmayıb Taliqani prospektində yerləşən Qızıl Aypara Cəmiyyətinə getdik. Qapıçıya dedik ki, İtkinlər idarəsinə getmək istəyirik. Bizi Əsir və itkinlər idarəsinə yönləndirdi. İdarənin sədri bizi yandakı otağa qovluq açmağa yolladı. Otağa girəndə Əmirə Məhəmmədinin iki bacısını gördük. Bir-birimizi görməyə çox təəccübləndik. Ayağa qalxdılar, görüşüb-öpüşdük. Əmiräni soruşdum. Dedilər ki, yaxşıdır. Onlar da bizim kimi qaçqın idilər, Tehranda yaşayırdılar. Bir tanışları onları Qızıl Aypara Cəmiyyətində işə düzəltmişdi.

Əlinin itkin düşməsini söylədim, qovluq açıb adını qeyd etdilər. Dedilər ki, bundan sonra ayda bir-iki dəfə ora baş çəkək, Əlidən xəbər olsa, öyrənək. Evlərinin ünvanını alıb dedim ki, münasib vaxtda Əmirəyə baş çəkəcəyəm.

Xalamgilin yanına qayıdıb gördüyümüz işlər barədə xəbər verdik. Qərara gəldik ki, nahar yeməyindən sonra Kuşka gedək.

Günortadan sonra ora yollandıq. Heç bir şeyimiz olmasa, həyatımıza sıfırdan başlamalı olsaq da, Sərbəndər məscidinin rütubətli və qaranlıq otağından çıxdığımıza görə sevinirdik.

Günortadan sonra birdən-birə atamın nəfəsi daraldı, üzü göyərdi. Nə edəcəyimizi, onu hara aparacağımız bilmirdik. Bir yer də tanımırdıq. Şahnazla aşağı maşın tutmağa qaçdıq. Hava qaralmaq üzrə idi. Atam qərib şəhərdə əldən gedirdi. Bir taksi tutub ən yaxın xəstəxanaya getmək istədiyimizi söylədik, yuxarı qalxıb atamı endirdik. Anam da bizimlə gəldi. Sürücü Firdovsi meydanından Sədi prospektinə döndü. Orada Əmir Ələm adına bir xəstəxana vardı.

Atamın üzü göyərmişdi. Hiss edirdim ki, boğulur. Xəstəxananın önündə maşından endik. Atam bordürün üstündə oturdu. Təcili yardım şöbəsindən əlil arabası gətirib atamı içəri apardım.

Tez oksigen qoşub iynə vurdular. Bir neçə dəqiqədən sonra vəziyyəti yaxşılaşdı. Həkimə yarası barədə qısa məlumat verdim. O dedi: "Burada ona xüsusi bir iş görə bilmərik. Bizim müalicəmiz nəfəs yolunu açmaq həddindədir. Mütləq imkanlı bir xəstəxanaya aparmaq lazımdır".

Serumu bitəndən sonra atamı evə qaytardıq. Səhər tezdən Mustafa Xomeyni xəstəxanasına aparıb axşamkı vəziyyətini danışdıq. Təsadüfən, analizlərin cavabı və döş qəfəsinin şəkli hazır idi. Atamın həkimi ovaxtkı prezidentin qardaşı oğlu olan ağciyər mütəxəssisi Bəni-Sədr idi. Rentgenin və analizlərin cavabını görüb xəstəxanada yatmasına dair rəyini yazdı. Atamız sarıdan arxayın olandan sonra uşaqların yanına getmək qərarına gəldik. Şahnazla Abbas Tehranda atamın yanında qaldılar, anamla mən avtobus bileti alıb Bürucerdə yola düşdük. Bir gecə Hüseyn dayıgildə qalıb ertəsi gün günortadan sonra Mahşəhrə getdik. Hava qaralanda Dezfula çatdıq. Arxamızdakı oturacaqda təxminən on səkkiz yaşlı bir gənc oğlan bibisi ilə oturmuşdu. Axşam düşəndən anlaşılmaz pıçıltılar söyləyirdi. Bir qədər keçəndən sonra səsi yüksəlib aydınlaşdı. Bibisi tez-tez

deyirdi: "Sən Allah, yavaş, camaat nə günah edib ki, səs-küyə dözməli olsun?! Bir qədər sakit!"

Oğlan deyirdi: "Günəşə deyərəm, səni yeyər ha! Günəşə deyərəm, səni yeyər ha!" Sonra dərviş kimi "hu-hu" etməyə başladı. Anama dedim ki, yəqin dərvişdir, öz aləminə qərq olub. Anam arxaya baxıb dedi: "Ayı göstərib deyir ki, günəşə deyərəm, səni yeyər".

Bir qədər sonra anam bibisinə dedi: "Qardaşın oğlu dərvişdir?" Bibisi dedi: "Yox, əşi! Qardaşımın evi Dezfulda idi. Bombardman zamanı evlərinə raket düşdü, bütün ailə üzvləri şəhid oldular. Təkcə bu sağ qalıb. Şok keçirdiyinə görə bu hala düşüb". Ona çox yazığım gəldi. Çox güclü şok keçirmişdi. Allah bilir, bu vəziyyəti nə vaxta qədər davam edəcəkdi!

Təxminən günorta Sərbəndərə çatdıq. Firdovs məsciddə idi, yardımları bölməyə kömək edirdi. Möhsünlə Muna həyətdə oynayırdılar, bizi görən kimi yanımıza qaçdılar. Muna anamın qucağına atıldı. Möhsün dedi: "Bəs ata hanı?" Dedim: "Atanı xəstəxanada yatırtdıq. İndi də sizi aparmağa gəlmişik".

Möhsün sevincindən atılıb-düşdü. O və Abbas Məryəm xalanın oğlu Rza ilə oyun yoldaşları idilər, yenidən bir yerə toplaşacaqlarını bilib çox sevindilər.

Xüsusi bir şeyimiz yox idi. Bir ələddin lampasını, bir neçə adyal, kasa, boşqab və qazanı da özümüzlə bir yerə apara bilməzdik. Bəlli deyildi özümüz necə gedəcəyik, o ki qala onları aparmağa.

Pəri xanımla sağollaşdıq. Anam ələddin lampasını və aparması çətin olan artıq qazan, kasa və boşqabları ona verdi. Getdiyimizə görə çox narahat oldu. Biz Tehrana gedib-gəlincə ərinin şəhid olduğunu söyləmişdilər. Demişdilər ki, əri Abadan yolunda raket atəşindən şəhid olub. Hər halda, bilməsi yaxşı oldu, başa düşdü ki, daha ərini gözləməməlidir. Belə olduqda həm də Şəhid fondunun himayəsi altına keçib başsızlıqdan,

yoxsulluqdan, uşaqlarının qarnını necə doyurmaq fikrindən azad olacaqdı. Yazıq iki azyaşlı uşaqla matəm saxlayırdı. Ona kömək eləməyi çox istəyirdik, amma o şəraitdə həqiqətən, əlimizdən bir şey gəlmirdi.

Avtobusa minib yola düşdük. Axşam Xürrəmabadda toyuq soyutması yedik. Atam Qız körpüsünə və Xürrəmabada ezamiyyətə gedəndə çox vaxt bizə ondan alıb gətirirdi. Bişirilmə tərzi və xüsusi ədviyyatlar dadını çox məşhurlaşdırmışdı.

Yanvarın sonları idi. Gecə vaxtı Bürucerdə Hüseyn dayıgilə çatdıq. Ertəsi gün Tehrana yola düşdük, günbatana yaxın artıq Kuşk prospektindəki yeni evimizdə idik. Möhsün evi görüb çox sevindi, Abbasla güləşməyə başladı, qəhqəhəsi evi başına aldı.

Bir müddət idi onun uca və şən gülüşlərini eşitmirdim. Sanki uşaqlar Xuzistandan uzaqlaşdıqca rahatlaşmışdılar. Elə birinci axşam az qala lifti xarab edəcəkdilər. Lift onlara maraqlı gəlirdi, onu oyuncaqla səhv salıb yuxarı-aşağı gedirdilər. Anam hirslənib deyinəndən sonra əl çəkib evə girdilər.

Özümüzə gəlincə gecə saat on ikiyə yaxınlaşdı. Hələ heç nə yeməmişdik, şam yeməyinə də heç nə yox idi. Anama dedim ki, indi Möhsünlə gedərəm, görüm yeməyə nə tapıram. Möhsünlə yola düşüb bir küçədən o birinə getdik. Kuşk prospektinin özündə market yox idi. O qədər gəzdik ki, sonradan İstanbul dördyolu olduğunu öyrəndiyim bir yerə çatdıq. Dördyolda böyük bir supermarket vardı. İçinə girdik. Qəhvədən tutmuş qatılaşdırılmış südə, konservə, qarğıdalı çubuğuna qədər hər şey vardı. Biz Xürrəmşəhrdə qəhvəni çaydan çox içirdik. Xüsusən imtahan axşamlarında səhərə qədər oyaq qalıb dərs oxuyurduq. Bizdə çox çay içən təkcə atam idi.

Bir neçə balıq və lobya konservi, bir qədər çörək və şokolad Tehrandakı ilk market alış-verişimizi təşkil etdi. Evə çatanda saat bir olmuşdu. Anam dedi: "Gözləməzdim ki, gecənin bu

vaxtı bir yer açıq olsun və nəsə ala biləsiz". Dedim: "Ana, bura paytaxtdır, hər şeyi fərqlidir".

Birlikdə şam yeyib yatdıq. Həmin gecə başımızı quru kovrolit üzərinə qoyduq, ibtidai məişət əşyalarımız da yox idi, amma əmin-amanlıq hiss etdiyimizə görə halımız yaxşı idi. Əmin-amanlıq son bir neçə ayda dadmadığımız bir hiss idi. Onun qədrini biz qaçqınlardan başqa bəlkə heç kim bilməz.

Tehrana gəlişimizdən təxminən bir həftə ötürdü. Bəzi günlərdə Şahnazla birgə avtobusla Təcrişə alış-verişə gedirdik. Firdovsi meydanında avtobusa minib birbaş Təcrişdə enirdik. Ondan başqa bir yeri tanımırdıq. Tərəvəz meydanının meyvə və göyərtiləri çox təzə və rəngarəng olurdu. Əvvəlcə İmamzadə Salehi ziyarət edir, sonra bazara gedirdik.

Bir gün alış-verişdən qayıdanda lift xarab olmuşdu. Bir qədər gözlədik, gördük ki, bu tezliyə düzələn deyil. Otağımız dördüncü mərtəbədə yerləşirdi. Yolumuz uzun, yükümüz ağır idi, ancaq başqa çarəmiz də yox idi. Yavaş-yavaş pilləkəndən qalxdığımız yerdə birinci mərtəbədə gözüm Zəhranın anasına sataşdı. Birinci mərtəbədə bir mənzilin qapısı açıq idi, xanım Hüseyni evdə oturub göyərti təmizləyirdi. Sevinc və təəccüblə Şahnaza dedim: "Şahnaz, bax, Zəhragil də bura gəliblər". Qapılarına yaxınlaşdıq. Bu zaman Zəhra da anasının yanına gəldi. Bizi görən kimi qapıya qaçdı. Allah bilir, onu orada görməyimə və qonşu olmağımıza nə qədər sevindim! Səs-küylə və çox həyəcanla qucaqlaşıb öpüşdük. Xanım Hüseyni ilə görüşəndə məndən gileylənib kövrək səslə dedi: "Sabah, sən mənim Əlimin şəhid olduğunu bilirdin, amma demədin. Əlini səndən o qədər soruşdum, necə ürəyin gəldi həqiqəti gizlətməyə?"

Birdən tutuldum. Deməli, Zəhra Əlinin şəhid olduğunu söyləmişdi. Heç vaxt bu an barədə düşünməmişdim. Özümdən asılı olmadan, Zəhraya baxdım, nə cavab verəcəyimi bilmirdim.

Zəhra araya girib dedi: "Anacan, ona mən demişdim ki, sənə bir söz deməsin. Sabah həmişə deyirdi ki, anana de, amma mən o şəraitdə qorxurdum".

Zavallı qadının gözlərindən yaş axdı. Dedi: "Yox! Kaş oğlumu görə biləydim! Mən Əlini görmədim. Uşağımı torpağa tapşırdılar, ancaq mən onu görə bilmədim!"

Səsində qəribə yanğı vardı. Yazıq haqlı idi. Əlini görmək arzusu ömrünün sonuna qədər ürəyində qalacaqdı. Zəhra söhbəti dəyişib dedi: "Sabah, siz nə vaxt bura gəldiz? Mənziliz hansıdır?" Dedim: "Bir həftəyə yaxındır burdayıq. Mənzilimiz də dördüncü mərtəbədədir. Siz nə vaxt gəldiz? Necə oldu ki, bura daşındız?" Dedi: "Biz təxminən bir aydır burdayıq. Şəhid fondu buranı bizə verdi".

Məryəm xalagillə Zəhragil Tehrandakı yeganə dostlarımız idilər.

Xanım Hüseyni mənzilə girdi. Zəhradan soruşdum ki, Əlinin şəhid olduğunu necə söylədin? Dedi:

- Tehrana gəlməzdən öncə Məlaviyə babamla bibimə baş çəkməyə getdik. Onlar çadır şəhərciyində qalırdılar. Əlinin şəhid olduğunu əvvəlcə babaya söylədim; dedim ki, özü birtəhər anama desin. Bamam bir gün namazdan sonra həzrət Əli Əkbər rövzəsi oxumağa başladı. Bizim gəldiyimizə görə, təxminən bütün qohumlar ora yığışmışdılar. Rövzə bitəndən sonra baba qısa bir girişlə Əlinin şəhid olduğunu söylədi.

- Bəs yazıq anan nə etdi?

- Heç nə. Yaxınlığında bir taxta vardı, götürüb başına çırpdı. O qədər möhkəm vurdu ki, başı yarıldı, üzünə qan axmağa başladı. O halda həm ağlayıb zarıyır, həm də özünü vururdu. Bir neçə nəfərlə onu saxlaya bilmirdik. Nəhayət, çox çətinliklə ayağa qaldırıb poliklinikaya yarasını tikdirməyə apardıq. İki-üç gündən sonra özünə gəldi. Hey özünü vurub ağlayır, Əlini

çağırırdı. Allah bizə rəhm elədi, bir qədər sakitləşdi. İndi də çox şükür, yaxşılaşıb.

Ananın Əliyə görə narahatlığından, onu hamıdan soruşmasından ona necə bağlı olduğu bəlli idi, ancaq şəhid olduğunu eşidəndən sonra belə edəcəyini təsəvvür etməzdim. Yazıq Zəhra nəsə bilirmiş ki, Xürrəmşəhrdə ona Əlinin şəhid olduğunu söyləmirdi.

Zəhra aldıqlarımıza baxıb dedi:

- İndi hardaydız? İmam Hüseyn (ə) meydanına getmişdiz?

- Yox, Təcrişə getmişdik. Təxminən iki gündən bir, bəzən də hər gün ora alış-verişə gedirik.

- Vay! Hər gün Təcriş meydanına qədər gedirsiz?! Bəs nə üçün İmam Hüseyn (ə) meydanına getmirsiz? Çox yaxındır, üstəlik, hər şey var.

Şahnaz dedi: "Düzü, başqa yer tanımırıq. Həm də orda əvvəlcə ziyarətə gedirik, sonra alış-verişə. Bununla bu qərib şəhərdə bir qədər ürəyimiz açılır".

O zaman soyuducumuz yox idi, gündəlik alış-veriş etməyə məcbur idik. Tehrana gəlişimizdən təxminən iki həftə sonra qapımızı döydülər. İki kişi idi. Biri dedi: "Mən Hacı İslaminin bacanağı Danapuram. Onun tərəfindən gəlmişəm ki, sizə baş çəkim, bir çatışmazlığınız varsa, həll edim".

Anam onları içəri dəvət etdi. Təxminən bir saat oturdular. Danapurla Şükuhi Xürrəmşəhrin İslam Təbliğatı Komitəsinin sədri Hacı İslaminin bacanaqları idilər, Tehranda yaşayırdılar. Danapurun bazarda santexnika malları mağazası vardı, Şükuhi də Əmlak komitəsində işləyirdi. Bizim ibtidai yaşayış tərzimizdən nəyə ehtiyacımız olduğu bəlli idi. Danapur iki-üç gündən sonra kiçik bir yük maşını ilə məişət əşyaları gətirdi. Bizə qaz sobası, xalça, ventilyator, soyuducu və bir qədər mətbəx avadanlığı almışdı. Ağa Şükuhi bu dəfə də onunla

gəlmişdi. Yazıqlar çox zəhmət çəkmişdilər. Zarafata anama deyirdik ki, sənə cehiz gətiriblər.

Atamın ümumi vəziyyəti yaxşılığa doğru getsə də, doktor Bəni-Sədr deyirdi ki, ağciyərinə xəsarət yetirmiş qəlpədən əlavə, ürəyinin qapağı da böyümüş, problem yaratmışdır. Doktor Bəni-Sədr savadlı həkim idi. Onun göstərişi ilə atamı Rəcai adına ürək xəstəxanasına apardıq. Doktor deyirdi ki, orada ürəyini daha yaxşı müalicə edəcəklər, ağciyərində isə ciddi problem qalmayıb. Görünür, ağciyəri yaxşılaşmışdı. Atamı oraya apardıq, bir neçə gün sonra da evə buraxdılar.

Atam evə gələndə Muna onun qucağına qaçdı. Munanın altı yaşı vardı, atamla bir-birini çox istəyirdilər. O, dünyaya gələndə anamın südü olmadığından ona quru süd verirdilər. Muna o vaxt ən yaxşı quru süd olan Guigoz quru südünə öyrəşmişdi. Atam hər dəfə Tehrana gedəndə ondan bir qutu alıb gətirirdi ki, birdən qurtarar, uşaq da südünü dəyişib xəstələnər.

# İyirmi birinci fəsil:

## *Görüş həsrəti*

Tehranda qalmağımızın ən böyük təcəllisi İmam Xomeynini ziyarət etmə imkanı idi. 1979-cu ildə Quma gedib onu yaxından görəndən sonra hər gecə o şirin anları yadıma salırdım. Ailəmizdə məndən başqa Firdovs da 15 yaşında olanda imamı yaxından görmüşdü. Dekabrda Qaçqın komitəsi arxa cəbhədə fəaliyyət göstərən qız və qadınların bir avtobusunu onunla görüşə aparmışdı.

Dəqiq yadımda deyil, bir gün hansısa işdən ötrü Şəhid fonduna getmişdim. Gördüm ki, bəzi ailələrə İmam Xomeyni ilə xüsusi görüş vərəqi verirlər. Fondun müvafiq işçisinə yaxınlaşdım, ailəmizin vəziyyəti barədə məlumat verib dedim ki, hamımız İmam Xomeyni ilə görüşməyi çox istəyirik. Dedi ki, hələlik kömək edə bilməz, gərək növbə gözləyək. Yalvarıb dedim ki, qardaş, mən Tehranla Xuzistan arasında gedib-gəlirəm. Bəlkə növbəmiz çatanda burda olmaycağam. Bir də gördün, Abadanda işlədiyim xəstəxananı vurdular və imamla görüş arzum qiyamətə qaldı.

O qədər yalvardım ki, axırda görüş blankı verdi. Blank hazır idi, yalnız görüş tarixini və görüşəcək adamların sayını qələmlə

yazmaq lazım idi. Görüşənlərin sayı yerinə “dörd nəfər” yazdı. Dərin ah çəkib narahat halda dedim: “Ağa, nə üçün dörd nəfər?” Dedi: “Bəs neçə nəfər, bacı?” Dedim: “İndi mən özümlə kimi aparım? Ailə üzvlərimizdən kimi aparsam, o birisi narahat olacaq”. Dedi: “Bunu çox xahiş etdiyinə görə yazdım, əslində, digərləri kimi gözləməli idin”.

Nə qədər danışdımsa, faydası olmadı. Yazıq hövsələdən çıxıb dedi ki, yenə israr etsən, əlindəki blankı da alacam.

Evə gəlib məsələni danışdım. İmamı görməyi hamımız istəyirdik, lakin yaranmış vəziyyətdən hamı istifadə edə bilməyəcəkdi. Kimsə dedi: “Dördün yanından bir yazıb on dörd edək, beləliklə, on dörd nəfər imamı ziyarət edər”.

Çox sevindik. Tez mavi qələm götürüb dördün yanından bir yazdım. Beləliklə həm özümüz gedə, həm də Məryəm xala ilə İlahəni apara bilərdik. Görüş tarixi növbəti həftəyə idi, gəlib çatınca sevincdən yerə-göyə sığmırdıq.

Görüş günü atam, anam, Fevziyə, Şahnaz, Salehə, Firdovs, Məryəm xala, İlahə, qardaşım Casimin qızı Məhnaz, Zəhra, Leyla və xanım Hüseyni ilə birgə Cəmarana getdik. İsfahan ləhcəsi ilə danışan bir pasdar qapıda blankı alıb baxdı, sonra bir dəftəri açıb nəyisə yoxladı. Sonra başını qaldırdı. Qaşları düyünlənmişdi. Üzünü mənə tutub dedi: “Sizə kim icazə verib görüşənlərin sayını dəyişdirəsiz?!”

Bir anlığa yerimdə quruyub qaldım. İşimizin üstü çox tez açılmışdı. Dilim topuq vurmağa başladı. İnkar etmək yeri deyildi. Dedim: “Bəs mən nə edəydim?! Ailə üzvlərimizin hamısı imamla görüşmək istəyir!”

Acıqla dedi: “Saxtakarlıqla görüşmək olar?! Demədin ki, bu blankların rəqəmlərini bizə də verə bilərlər?!”

Deməyə sözüm yox idi. Adam haqlı idi. Anam xahiş etməyə başladı. Çox üzr istəyib dedi: “Qızım bizə görə belə edib, indi ki gəlmişik, bizi geri qaytarma, icazə ver, içəri girək”.

Pasdar dedi: “Əsla mümkün deyil. Əgər belə etməsəydiz, hamınızı içəri keçirərdim, amma bu vəziyyətdə olmaz”. Dedim: “Heç olmasa, dörd nəfəri buraxın”. Dedi: “Artıq olmaz! Blankda dəyişiklik etməsəydiz, olardı”.

Əsəbiləşdim və narahat halda dedim: “İndi ki imamı görmək həsrətini bizim ürəyimizdə qoydun, Allah şəhadət həsrətini də sənin ürəyində qoysun!”

Kor-peşman evə qayıtdıq. Çox narahat idik. Səhər necə həvəslə evdən çıxmışdıq, indi isə hansı halda qayıdırdıq!

Əlidən hələ də xəbər yox idi. Hərdən Qızıl Aypara Cəmiyyətinə baş çəkir, hər dəfə əliboş qayıdırdıq.

Cümə axşamları Firdovs, Şahnaz və Zəhra ilə birgə Tehran universitetinə Kumeyl duasına gedirdik. Duanı çox vaxt Höccətül-İslam Şeyx Hüseyn Ənsarian oxuyurdu. O, dua və rövzələrdə cəbhədəki döyüşçüləri çox yada salırdı, buna görə duaları adamın ürəyinə otururdu. Bundan əlavə, hər cümə günü Kuşk binasına Şəhid fondu tərəfindən altı avtobus gəlib ailələri Behişti-Zəhra (ə) məzarlığına aparırdı.

Şahnaz çox istəyirdi ki, Behişti-Zəhraya (ə) gedib İmam Xomeyninin 1 fevralda məşhur çıxışını etdiyi yeri yaxından görsün. Mən də Ayətullah Taliqaninin məzarını ziyarət etmək istəyirdim. O, inqilab dövrünün mübarizlərindən idi, inqilabdan öncəki fəaliyyət və mütaliələrdə onun fikirləri ilə tanış olmuşdum. Onunla eyni zamanda Doktor Şəriəti və Ustad Mütəhhəri ilə də tanış olmuşdum. Ustad Mütəhhərinin Hicab və Doğruların dastanı kitablarını çox sevirdim.

Ayətullah Taliqaninin arxasında namaz qılmaq mənim arzum idi. Lakin qismət olmadı. İnqilabdan öncə və sonra onun həyatı ilə bağlı Şahnazın bir neçə broşürü əlimə keçmişdi. O, mübarizə zamanı çoxlu çətinliklər çəkmiş, işgəncələr görmüşdü. Bu səbəbdən ona yorulmaz, xarizmatik lider kimi baxır, xüsusi hörmət bəsləyirdim.

Ayətullah Taliqani inqilab yolunda həbs olunmuş, sürgün edilmişdi. Ona İnqilabın Əbuzəri ləqəbini vermişdilər. Bütün bunlara görə onun məzarını ziyarət etmək istəyirdim. Behişti-Zəhra (ə) məzarlığına getdiyim ilk yer 24-cü sıra oldu. Orada Əli Qəyurəslinin məzarını tapdım. Yenə də Əlinin sözlərini xatırladım. Onun keçdiyi təlimləri tərifləyirdi. Ona fatihə oxuyandan sonra Ayətullah Taliqaninin məzarını tapıb yanında dayandım. Məndən bir neçə metr aralıda bir neçə gənc dayanmışdı. Onlar birdən Bəni-Sədr əleyhinə şüar verməyə başladılar. Şahnazla mən də onlara qoşulub şüar verdik. Öncədən planlaşdırılmamış bu mitinqin başlanmasından bir neçə dəqiqə sonra bir neçə pasdar gəlib hamını dağıtdı. Şahnazla onlara yaxınlaşıb etiraz etdik: "Məgər siz bu adamın xəyanətinə şübhə edirsiz?! Kim də bilməsə, biz xürrəmşəhrlilər onun şəhərimizi iraqlılara necə verdiyindən xəbərdarıq..."

Pasdarların biri dedi: "Bəlkə də sözünüz doğrudur, amma belə toplaşıb şüar vermək ölkənin xeyrinə deyil".

Mübahisə etməyə hövsələm yox idi. Sözlərinə fikir vermədən Şahnazla oradan uzaqlaşdıq.

Biz Tehranda olanda Salehə Cahanaranın müavini Əbdülrza Musəvinin xahişi ilə korpusun Persiya otelindəki ofisində çap işlərini görürdü. Dediyinə görə O, qardaşların korpusunda işləyən yeganə qız idi.

Bir gün ağa Şükuhi gəlib dedi ki, Əmlak komitəsinin rəhbərliyi ilə danışaraq mənə iş tapıb. Onlar mənim Quruculuq cihadındakı və cəbhədəki fəaliyyətlərimi bilib təkliflə razılaşmışdılar. Ağa Şükuhi dedi ki, istəsəm, sabahdan işə başlaya bilərəm. O şəraitdə yaxşı təklif idi, amma dedim ki, qəbul edə bilmərəm. Təəccüblənib səbəbini soruşdu. Dedim: "Mən burda qalan deyiləm, indiyədək ata-anamın vəziyyətinə görə dözmüşəm. Onların bu şəraitə alışdıqlarına və mənə

ehtiyacları olmadığına əmin olan kimi bir dəqiqə də gözləməyib Abadana qayıdacam".

Ağa Şükuhi çox israr edir, deyirdi ki, nazirlikdə işləməyin gələcəyi var. Ancaq mən də öz sözümü təkrarlayıb deyirdim ki, indi mənə cəbhədə daha çox ehtiyac var, ora qayıtmağı üstün tuturam.

Abadana dönməkdən ötrü səbirsizlənir, son günlərdə isə çox darıxırdım. Bəzən evdə o qədər sıxılırdım ki, bayıra çıxıb bir qədər gəzişir, özümə gəlirdim. O günlərdə başımıza gələnlər haqda fikirləşməyə daha çox imkan yaranırdı. Şəhid və yaralı döyüş yoldaşlarımla xatirələri yada salıb kədərlənirdim.

Tehranın vəziyyəti məni narahat edirdi. Orada hicabın vəziyyəti yaxşı deyildi. Hələ hicab qanunu qəbul olunmamışdı, hər kəs istədiyi kimi bayıra çıxırdı. Bəzi qız və qadınların ifrat tərzdə bəzəndiklərini, açıq yaxa, qısaqol köynək və tökülmüş saçla gəzdiklərini görəndə dözməyib yanlış etdiklərini söyləyirdim. Bəziləri utanıb bir söz demir, özlərini düzəldirdilər, bəziləri ilə isə mübahisə başlayırdı. Qoca da, cavan da eyni gündə idi. Bir dəfə küçədə Şahnazla birgə arxadan bir qadını gördük. Yaraşıqlı yubka-pencək geyinmişdi, səliqə ilə ütülədiyi çox gözəl uzun saçını çiyninə tökmüşdü. Şahnaza dedim: "Bunun saçı belə gözəldirsə, gör üzü necə olar!"

Maraq üzündən yerişimizi sürətləndirib ona çatdıq. Üzünə baxanda isə təəccüb etdim. O, üzü qırışmış səksən yaşlı bir qadın idi. Bu yaşda özünə belə qulluq etdiyinə inana bilmirdim. Belə tipləri görəndə həqiqətən, narahat olurdum, şəhidlərimizi, onların istəklərini xatırlayırdım. Çoxu vəsiyyətnaməsində hicabı tapşırmışdı. Onların bu sözlərini çox eşitmişdim: "Bacım, sənin hicabın mənim qanımdan kəsərlidir!"

Hicab məsələsindən əlavə, münafiqlər də öz qəzetləri və sapqın fikirləri ilə xalq arasında gəzir, küçələrdə qarşıdurma yaradırdılar. Bu toplantı və mübahisələr daha çox Vəliəsr

prospektində baş verirdi. Gənc qızların hərəsi əlinə bir qəzet götürüb qışqırır, fikirlərini camaata sırımaq istəyirdi.

Bu səhnələr Xürrəmşəhrdə çayın sahilindəki xatirələri yadıma salırdı. O zaman Xürrəmşəhrin inqilabçı oğlan və qızları ilə birgə çayın sahilində özlərinə bazar açmış bu tip adamlarla mübahisə edir, insanların düşüncələrini korlamağa imkan vermirdik. Tehranda da bu məsələyə qarşı laqeyd deyildik, yolumuz düşəndə Şahnazla birgə onlarla saatlarla mübahisə edirdik.

Yaralılar yadımdan çıxmırdı. Onların dadına çatacaq adam yox idi. Xəstəxanada gördüyümüz işləri xatırlayırdım. O vaxt xəstəxananın imkanları o qədər az idi ki, məsələn, serum şüşəsi boşalandan sonra onları atmağa heyfimiz gəlirdi; yuyub sinə borusu üçün istifadə edirdik. Hətta cərrahiyyə əməliyyatının əlcəklərini də tullamırdıq. Hər əməliyyatdan sonra onları yuyub avtoklava qoyurduq, dezinfeksiya edəndən sonra pudralayıb yerinə qoyurduq ki, yenidən istifadə etsinlər. Beləliklə, bir cüt əlcək bir neçə dəfə istifadə olunurdu.

Bir dəfə Rudsərdən bir neçə təcili yardımçı qız Taliqani xəstəxanasına köməyə gəldi. Onlar bu çatışmazlıqları görəndən sonra gedib Rudbarın cümə imamına söyləmişdilər. Bir qədər sonra onların zəhməti və cümə imamının tövsiyəsi nəticəsində bizə çoxlu manto, şalvar, örpək və mələfə gətirdilər.

Cəbhə üçün çox darıxan günlərdə təkbaşına İmamzadə Saleh ziyarətgahına gedirdim. Orada ürəkdən ağlayır, yüngülləşəndən sonra evə qayıdırdım. Namaz üçün çox vaxt Şahnazla birgə Sədi prospektinin əvvəlində yerləşən Qaim məscidinə gedirdik, bəzən də İranşəhr prospektindəki Cəlili məscidinə.

Anam israr edirdi ki, Tehranda qalım və Şükuhinin təklifi barədə fikirləşim. Mənsə öz sözümü təkrarlayırdım.

Bir müddət idi məndə güclü başgicəllənmə və təngnəfəslik yaranmışdı. Ən kiçik fəaliyyətdən sonra boğazım qıc olub ağrıyırdı, boğazımdan başımın dalına qədər bir damar sancırdı. Xüsusən də elektrik enerjisi kəsiləndə və pilləkəni qalxanda bu ağrı şiddətlənirdi. Bütün bunlar müharibə başlayandan sonrakı iki-üç ayda fiziki baxımdan zəiflədiyimə görə idi.

Bəlkə də anam bu məsələlərə görə Abadana qayıtmağımı istəmir, məni orada saxlamağa çalışırdı. Yazıq çox qayğıma qalırdı. Yadımdadır, Kuşk binasına yerləşdiyimiz ilk günlərdə bir-iki dəfə qırmızı ət alıb xörək bişirdi, amma mən yemədim. Əti görəndə halım pis olur, yaralı və şəhidlər yadıma düşür, iştahım küsürdü. Yazıq bunu biləndən sonra balıq və meyqu bişirməyə başladı. Hərdən də yeməkxanadan kabab alırdı.

Fevralın 9-u idi. Abadandan və xəstəxanadan ötrü çox darıxırdım. Atamın xəstəliyi müəyyən həddə nəzarətə götürülmüşdü, anamla uşaqlar da Kuşk binasına yerləşmişdilər. Şahnaza dedim: "Gəl, atamla anamı razı salıb Abadana qayıdaq".

Atamla söhbət edəndə dedi: "Sabah getsin, Şahnaz qalsın".

Şahnaz etiraz edib dedi: "Ata, mən nə üçün qalım?" Atam dedi: "Sabah yaralılara yardım göstərməyə gedir, amma səndə belə işlərə ürək yoxdur. Ananla uşaqların yanında qal".

Şahnaz əvvəlcə narahat oldu, sonra fikirləşdi ki, o şəraitdə ailənin yanında qalması daha yaxşıdır. Sevincimdən yerə-göyə sığmırdım. Avtobus bileti alıb Bürucerdə, oradan da Mahşəhrə və Abadana yola düşdüm.

# İyirmi ikinci fəsil:

## *Əlidən məktub*

1981-ci ilin 11 fevralı yaxınlaşırdı. İnqilabın ildönümünü hətta müharibə şəraitində də qeyd etmək istəyirdik. Uşaqlarla qərara gəldik ki, xəstəxanada bir teatr nümayiş etdirək. Mən, doktor Səadət, Fevziyə, Əfsanə və başqa bir neçə nəfər toplaşıb fikir mübadiləsi apardıq. Əməliyyat otağından Kargər soyadlı birinin belə işlərə dair çoxlu ideyaları vardı. O, Həmədandan doktor Əfşarın həkim heyəti ilə Abadana gəlmişdi. Bizim teatr üçün iki-üç gözəl rəsm tablosu çəkdi.

Rəsm iraqlıların bombardmanı altında olan Xürrəmşəhrin mənzərəsi idi. Üstünə yazılmış "Xürrəmşəhr" sözü rəsmdə iki yerə bölünmüşdü, bir növ şəhərin durumunu əks etdirirdi.

Qərara gəldik ki, Abadanın korpusundan və Quruculuq cihadından İmam Xomeyni, inqilab və müharibə barədə bacardıqca şəkil və poster toplayaq. Abadandan çoxlu uşaqlar, o cümlədən Fərhanian bacıları, xüsusən də Məsumə Ramhörmüzi bundan ötrü çox zəhmət çəkdilər. Təcili yardım şöbəsindən on-on iki addım öndə əvvəllər gül mağazası olmuş kiçik bir dükan vardı. Uşaqlarla birgə oranı mədəniyyət mərkəzi etdik, içinə bacardığımız qədər mədəni məhsullar, o cümlədən kitab, kaset,

şəkil, “İslam keşikçisi” və “Sıra” jurnalları qoyduq. Dükanın açarı məndə olurdu. Orada bir maqnitofonumuz da vardı. Bəzi günlər Əbdül-Basitin Quran qiraətini oxudub dükanın arxasındakı səsucaldandan verirdik. Kitab və ya başqa bir şey istəyənlər də gəlib məndən əmanət götürürdülər.

Qəzetlərdən mühüm manşetləri - şahın getməsini, imamın gəlməsini, inqilabın qələbə çalmasını və müharibənin başlanmasını ayırdıq. Müxtəlif şəhərlərin bombalanmasına dair bəzi şəkilləri kəsib götürdük. Sonra hamısını yuxarı hissədən bir ipə bağlayıb dükanın iki tərəfindən ağaclardan asdıq.

11 Fevralda mərkəzimizin səsucaldanından inqilabi marşlar yayımladıq. Hər bir neçə dəqiqədən bir mikrofonla xəstələri və xəstəxanada olanları sərgiyə baxmağa dəvət edirdik. İnqilabi mahnılar çox xatirəli idi və xüsusi ab-hava yaradırdı. Ahəngəranın “Ey Xuzistanın qanına qəltan olan şəhidləri, salam” növhəsini də yayımladıq. Bu növhəni çox sevir, çox vaxt xəstəxanada qızlarla oxuyurduq. 11 Fevral da belə keçdi.

***

Xürrəmşəhrli uşaqlardan Firiştə Süleymani liseyin son sinfində sinif yoldaşım olmuşdu. O, inqilabdan öncəki hicablı uşaqlardan idi, təzəlikdə xəstəxana uşaqlarına əlavə olunmuşdu.

Novruz bayramı yaxınlaşırdı. Müharibə ən əzizlərimizi bizdən alsa, heç kimdə bayram həvəsi qalmasa da, yaralı və döyüşçüləri ruhlandırmaq məqsədilə xəstəxananın ab-havasını dəyişdirmək, ona bahar ovqatı qatmaq istədik. Bir gün Fevziyə dedi:

- Sabah, kaş xəstəxanada səməni qoyardıq!

- Çox yaxşı fikirdir, amma qabı hardan tapaq? Bilirsən, nə qədər qab lazımdır?!

- Qab var, buğda yoxdur!

- Qab hanı?

- Dünən Əfsanə ilə xəstəxananın yuxarı mərtəbəsinə qalxmışdıq. Orda dibçəyin altına qoymaq üçün çoxlu plastik qab vardı. Onları görəndə beynimizdən səməni qoymaq keçdi. Kaş uşaqların köməyi ilə bir iş görə biləydik!

Taliqani xəstəxanası dördmərtəbəli idi. Kişi palataları ikinci, qadın palataları üçüncü mərtəbədə yerləşirdi. Dördüncü mərtəbə müharibədən sonra istifadəsiz qalmışdı. Ora çox qorxulu idi. Bilmirəm Fevziyə hansı cəsarətlə ora qalxmışdı! Bütün şüşələrinin qara boya ilə örtülməsindən, hər yerin qaranlıq olmasından əlavə, xəstəxana işçiləri arasında yayılmışdı ki, orada həm cin var, həm də xəstəxananın təsisçisi Professor Cavadinin ruhu gəzişir. Tibb bacılarından eşitdiyim qədərincə, Professor Cavadi pulpərəst adam imiş, onun üçün pul hər şeydən, hətta xəstələrin canından da dəyərli imiş. Ölüm ayağında olan bir xəstə gətiriləndə də pul verməyincə yardım göstərilməsinə icazə verməzmiş.

Professor Cavadinin ölümündən sonra bəzi tibb bacıları deyirdilər ki, camaat onun qəbrindən bir it çıxdığını görüb. Deyirdilər ki, pis adam olduğuna görə bərzəx aləmində əzabdadır, sərgərdan ruhu xəstəxananın yuxarı mərtəbələrində dolaşır!

Fevziyəyə dedim:

- Səməninin buğdası məndən.

- Bu qədər buğdanı hardan tapacaqsan?

- Sənin işin olmasın, tapacam.

Xanım Ənqalidən qardaşı oğlu Abbasın Quruculuq cihadında işlədiyini eşitmişdim. Fikirləşdim ki, gedib onu tapar, buğda istəyərəm. Abadanın onuncu prospektinə, cihadın ofisinə yollandım. Xanım Ənqalinin qardaşı oğlundan öncə cihadın sədri cənab Cəzairini gördüm. Saçları ağarmış qoca kişi idi. Hal-əhval tutandan sonra gəlişimin səbəbini söylədim. Gülümsəyib dedi: "Nə yaxşı işdir, qızım! Bu yaxşı iş üçün əlbəttə, buğdamız

var. Biz də xalqın cəbhələrə bayram çərəzlərindən ibarət yardımlarını torbalara bölürük".

İşçilərindən birinə tapşırdı ki, mənə bir kisə buğda versin və istədiyim yerə aparsın. Buğdadan əlavə iki kisə çərəz və şokolad da verdi ki, torbalara töküb səmənilərlə birgə döyüşçülərə verək.

Buğda, çərəz və şokoladları xəstəxanaya gətirdim. Fevziyə ilə Əfsanə onları görüb çox sevindilər. İşə başlayıb təxminən əlli-altmış səməni qoyduq. Qabları xəstəxananın dördüncü mərtəbəsinə yığdıq. Bayrama təxminən iki həftə qalırdı. Qərara gəldik ki, səmənilər cücərəndən sonra xəstəxanadan əlavə, müharibə bölgəsindəki döyüşçülərə də aparaq.

Səmənilər hazır olandan sonra xürrəmşəhrlilərin adətinə uyğun olaraq, doktor Ənsari, doktor Səadət və Fevziyə ilə birgə Minu adası tərəfdən novruz süfrəsinə lazım olan bitkiləri topladıq.

Minu adasının mənalı adı vardı. Ora həqiqətən də cənnət kimi idi. Xurma və qınlarının ətri şümşad və mərsin ətirləri ilə qarışıb müharibə ab-havasını və barıt qoxusunu adamın yadından çıxarırdı. Minu adasında Zülfüqari xurmalıqlarını xatırladım, ora da yaşıl və təravətli idi, gül və bitkilərin ətri adamı məst edirdi. Zülfüqari yada düşəndə də şəhid yoldaşlarım yada düşürdü; Əhli-beyt imamlarından hansınasa qonaq olan Qasim Fərruxi kimi şəhidlər.

Mərsinləri xəstəxanaya gətirib uşaqların köməyi ilə kiçik dəstələrə böldük. Bir dəstə mərsin, bir səməni və kiçik bir çərəz və şokolad torbası ilə bayram hədiyyəsi hazırladıq. Əvvəlcə xəstəxananın işçilərinə və xəstələrə ayırdıq, sonra uşaqlarla 2-3 komandaya bölünüb döyüş mövqelərinə yola düşdük. Mən Fevziyə, Əfsanə, Bilqeys, Zöhrə Fərruxnejad, doktor Ənsari və doktor Səadətlə birgə Fəyyaziyə getdim. Marşrutumuz oradan başlayıb Kutşeyxdə bitirdi. Məsumə Ramhörmüzi kimi bəzi

uşaqlar da bayram hədiyyələrinin qalanını başqa döyüş mövqelərinə apardılar.

Həmin gün cəbhədə təxminən sakitlik idi. Maşını bir-birindən 10-20 metr aralıda qazılmış səngərlərin arasında saxlayıb döyüşçülərin yanına gedir, salamlaşıb hal-əhval tutandan, bayramlarını təbrik edəndən sonra hədiyyələrimizi verirdik. Hədiyyələri alanda döyüşçülər çox sevinirdilər, inana bilmirdilər ki, güllə və raket yağışı altında kimsə bu barədə fikirləşə bilərmiş. Onların sevindiyini görüb çox həzz alırdıq. Bəzi döyüşçülər bizdən səngərlərinin yanında onlarla şəkil çəkdirməyimizi istəyirdilər.

İşimiz bitəndən sonra Abadanın Xaksütununa getdik. Xürrəmşəhrin işğalından sonra ora bizim xəlvət yerimiz olmuşdu, şəhərimizə və ailəmizə darıxanda ora gedib şəhidləri ziyarət edirdik. Şəhidlərin məzarına bir neçə dəstə mərsin apardıq.

Xaksütundan qayıdanda top səsi gəldi və zenitlər atəş açmağa başladı. Əvvəl elə bildik ki, hava hücumu başlayıb. Lakin zenitlərdən qalxan işıqla qaranlıq səmada 60 yazıldığını görüb bildik ki, hicri-şəmsi ili dəyişilib, top atəşi də yeni ilə görə imiş. Uşaqlarla görüşüb-öpüşdük, yeni ili təbrik etdik. Ancaq ürəklərimiz qəm-kədərlə dolu idi; qoruya bilmədiyimiz şəhərin və hərəsi bir tərəfə səpələnmiş ailə üzvlərimizin qəm-kədərilə.

Ötənilki və ondan öncəki novruz bayramlarını xatırladım. Necə də təzə paltarlar geyinmişdik! Süfrəmiz qüsursuz idi. Atam öncədən çoxlu çərəz və şirniyyat alırdı; o qədər çox alırdı ki, uşaqların gözləri tam doyurdu. İl dəyişən kimi, radiodan ilin dəyişməsi münasibətilə atılan topun səsini eşidəndə hamımız atamla anamın əlini öpür, onlardan bayramlıq istəyirdik. Atam bizə pul verirdi, sonra zarafatlaşıb gülə-gülə süfrədəki çərəz və şirniyyata daraşırdıq. Hamı püstə ilə badamı sevirdi. Anam da

hirslənib deyirdi: “Axı bu necə çərəz yeməkdir! Hər şeydən yeyin!”

Xəstəxanaya qayıtdıq. Orada da tibb bacıları ilə görüşüb bayramlarını təbrik etdik. Hamımız arzu edirdik ki, bu, müharibə şəraitində keçən son novruz bayramı olsun.

***

Novruz bayramından iki-üç gün ötürdü. Məzuniyyət götürüb Tehrana anamgilə baş çəkməyə getməyə hazırlaşırdım. Bayramda evdə ola bilmədiyimə görə, ən azı, bayram günlərində bir qədər onlarla qalmaq istəyirdim. Şirazdan Zöhrə Fərruxnejad adlı bir qız vardı, o da ailəsini görmək istəyirdi. Mənə dedi ki, birlikdə gedək. Bahar fəslində Şirazı yenə görmək istəyirdim.

Zöhrə ilə Çuebdehə getdik, oradan helikopterlə Mahşəhrə uçduq. Mahşəhrdə də Şiraza avtobus bileti aldıq.

Zöhrəgilin evi Şirazın Zənd prospektində yerləşirdi. Yaxınları onu görüb çox sevindilər. Onun üç bacısı, üç qardaşı vardı. Anasının tam əksinə olaraq, atası sakit və səbirli adam idi. Anası həyəcanlı və söhbətcil idi. Xarakter baxımından Zöhrə atasına çəkmişdi, Zəhra da anasına.

Zöhrə ilə Şahçıraq ziyarətgahına, Hafiziyyə və Sədiyyəyə getdik. Hər üçü gözəl yer idi. Xüsusən Sədi Şirazinin məqbərəsinin hovuzunda qəşəng balıqlar vardı. Şiraz gəzintisi uşaqlıq xatirələrimi yadıma saldı. Onda Hüseynabad kəndində qalırdıq, atam həftəsonu bizi Şiraza gəzməyə aparırdı.

Vəkil bazarına getdik. Hələ özümə heç nə almamışdım. O günə qədər ümumiyyətlə, pulum olmamışdı. Ancaq bir müddət idi Abadan korpusu xəstəxananın təcili yardımçı qızlarını Bəsicin himayəsinə keçirmişdi, ayda 1500 tümən maaş verirdi. Əksər uşaqlar bu pulla portoğal şirəsi, xarici albalı turşusu, xurma və alça alırdılar, mənsə 2-3 ay idi puluma əl vurmamışdım, özümə çadra almaq istəyirdim.

Vəkil bazarından çadralıq parça, bir şalvar və bir cüt ayaqqabı aldım. Zöhrənin anası elə həmin gün çadranı tikdi və mən 7-8 aydan sonra yenidən başıma çadra atdım. Zöhrəgildə iki gün qaldım. Mən getməzdən öncə Fevziyə əmimgilə zəng vurub demişdi ki, Sabah Şiraza sizi görməyə gəlir. Onlara da baş çəkib məzuniyyətimin qalanını Tehranda anamgilin yanında keçirmək istəyirdim. Zöhrə də mənimlə gəlmək istədiyini söylədi. Anasıgillə sağollaşıb təşəkkür etdim. Həmin iki-üç gündə onlardan çox qonaqpərvərlik gördüm.

Fevziyə zəng vurduğuna görə əmimgildə hamı məni gözləyirdi. Əmimlə yoldaşı məni görüb çox sevindilər. Nicat bibim də orada idi. Onu bir neçə il idi görmürdüm. Neft şirkətindən Nemətulla əmiyə kiçik bir ev vermişdilər. Ev zorla 80 kv metrə çatsa da, əmimin xarakteri elə idi ki, hamını öz başına toplayırdı. Əmidostum da əri kimi qonaqpərvərlikdə əlindən gələni əsirgəmirdi. Xürrəmşəhrdəki qaçqın qohumlarımızın təxminən hamısı bir müddət onlarda qalmışdılar.

Əmimgildə bir gün qalandan sonra Tehrana avtobus bileti aldıq. Şirazdan Tehrana qədər 19 saat yolda olduq. Çox yorulmuşduq. Sanki bədənimizin bütün sümüklərini həvəngdəstədə əzmişdilər. Tehrana çatanda daha avtobusla getməyə halımız qalmadı. Ürəklənib Cənub terminalından taksi tutduq, bizi Kuşk binasına apardı. Gəlişimizlə evdə qiyamət qopdu. Hamı çox sevindi. Anamgil Zöhrəni çox yaxşı qarşıladılar. Sanki uzun müddətdən sonra öz qızlarını görürdülər. Şahnaz deyirdi ki, builki bayram axşamı çox sönük keçdi; nə alış-veriş oldu, nə ev təmizliyi. İl dəyişəndə hamımız ağladıq; biri ucadan, biri səssiz. Əlinin yeri görünürdü. Hamıdan çox anam ağlayırdı.

Novruz bayramından təxminən iki həftə, Tehrana gəlişimizdən də iki-üç gün ötürdü. Zöhrəni İmamzadə Saleh

ziyarətgahına və Behişti-Zəhra (ə) məzarlığına apardıq. Bir gün nahar yeməyini yeyəndən sonra qapı döyüldü. Muna qapını açdı. Hüseyn dayı həyəcanla içəri girib qışqırdı: "Bacı! Bacı! Muştuluq ver! Muştuluq ver! Əlidən məktub gətirmişəm..."

Dayım bu sözləri deyən kimi hamımız qışqırıb yerimizdən atıldıq. Dayım onsuz da həyəcanlı adam idi, o ki qala mühüm bir xəbər gətirməyə! Anam dayıma doğru sıçrayıb məktubu qamarladı, bir söz demədən qoxulayıb ağlamağa başladı. Hamımız sevincdən ağlayırdıq. Dayıma danışmağa, məktubu haradan gətirdiyini söyləməyə macal vermirdik.

Vaxtımız bir qədər həmin həyəcanla ötdü, sonra bir yerdə oturduq. Dayım dedi ki, dünən Bürucerdin Qızıl Aypara Cəmiyyəti tərəfindən gəlib bu məktubu veriblər. Bizim Bürucerddə olmadığımızı, Tehranda yaşadığımızı biləndən sonra isə çox təkidlə tapşırıblar ki, Qızıl Aypara Cəmiyyətinə gedib əsirimizdən məktub aldığımızı söyləyək.

Anam məktubu heç kimə vermirdi, sinəsinə sıxıb bahar buludu kimi gözlərindən yaş tökürdü. Atam da ağlayıb tez-tez deyirdi ki, İlahi, şükür, uşağım salamatdır. Bu məktubdan sonra Əli itkin deyil, əsirlər siyahısına salındı.

Bu, ömrümdə aldığım ən yaxşı bayram hədiyyəsi oldu. Əlinin məktubu gələndən sonra evimizdə əsl bahar ovqatı hiss olunmağa başladı. Dayım məktubu alıb bərkdən oxudu. Əli məktubu dayıma yazmışdı. Əvvəli bu ayə ilə başlayırdı: "(Yer) üzündə olan hər kəs fanidir!"[1]

Yazmışdı ki, həm özü, həm də Qasim Mədəni yaxşıdır. Sonra hamının halını soruşmuşdu; bütün ailə üzvlərimizdən tutmuş Məryəm xalaya, Hicab əmiyə və uşaqlarına qədər. Məktubun axırında anamla atama demişdi ki, əsirlik onun qisməti imiş. Daha sonra yazmışdı ki, narahat olmayın.

[1] Ər-Rəhman, 26.

Məktub qırmızı xətləri olan ağ vərəqə yazılmış, İraqın Rəmadi vilayətindən göndərilmişdi. Kağızda yazmağa yer çox deyildi. Məktubun aşağı hissəsi boş idi. Dayım deyirdi ki, cavab yazmaq üçündür.

Məktubun arxasında da göndərənin və göndərilənin ünvanı yazılmışdı. Əli bizim harada olduğumuza əmin olmadığına görə Hüseyn dayıgilin Bürucerddəki ünvanını yazmışdı.

Ertəsi gün Şahnazla birlikdə Qızıl Aypara Cəmiyyətinə getdik. Novruz bayramında əksər idarələr tətil olsa da, cəmiyyətin bəzi işçiləri orada idilər. Məhəmmədi bacılarının yanına gedib məsələni danışdım. Əlidən məktub gəldiyinə, əsir düşdüyü bilindiyinə görə bizi təbrik etdilər. Sonra Əlinin adına bizə bir vəsiqə verib ona əsir qovluğu açdılar. Ünvanımızı və məktubu onlara verdik. Vərəqdə yer az olduğuna görə yalnız halını soruşmuş, hamımızın yaxşı olduğumuzu və Tehrana yerləşdiyimizi yazmışdım.

Bizə dedilər: "Əgər xüsusi bir hadisə baş verməsə, əsirlər adətən, hər 45 gündən bir məktub yazırlar. Məktubu bizə çatan kimi tez əlaqə saxlayacağıq ki, gəlib alasız". Telefonumuz olmadığına görə qapıçı Zeynəddinin telefon nömrəsini verdik.

Əmirə Məhəmmədinin bacılarından biri dedi ki, Əlinin adı Qızıl Aypara Cəmiyyətinin itkin siyahısından çıxarılıb, siz ondan məktub aldığınızı və İraqda əsirliyinin qətiləşdiyini Şəhid fonduna bildirməlisiz. Özü də bir məktub yazıb Əlinin əsir düşdüyünü təsdiqlədi və bizi Şəhid fonduna təqdim etdi. Dedi ki, orada qardaşınıza əsir qovluğu açacaqlar.

Ona dedim: "Onda əsirliyinin təsdiqi barədə Xürrəmşəhr korpusuna da bir məktub yazın. Xuzistana gedəndə korpusa verərəm, qovluğuna qoyarlar". Qorxurdum ki, özü olmadığına görə onu korpusdan ixrac edərlər. Həm də qərib bir ölkədə əsir

olan adamın korpus kimi bir orqanın himayəsi altında olması çox yaxşı olardı.[1]

***

Bəzən Taliqani xəstəxanasına ağır yaralılar gətirilir, ağır cərrahiyyə əməliyyatları keçirirdilər. Onlar xəstəxanadan buraxılandan sonra vəziyyətlərilə maraqlanmağa çalışırdıq. Bəzilərinin telefon nömrələrini alırdıq, telefonu olmayanların da ünvanını. Bu yaralılardan biri tehranlı seyid hövzə tələbəsi idi. Bu gənc o qədər imanlı idi ki, çox nurlu üzü vardı. Onun yanına gedəndə heç vaxt başını qaldırıb üzümüzə baxmazdı. Yarası ağır idi, qəlpə qoltuğunun altından girib bütün ətini aparmış, yerində qan və çirk dolu böyük bir boşluq açmışdı. Tibb bacıları hər dəfə onun sarğısını dəyişəndə çoxlu qan və çirk axıb adamın ürəyini ağrıdırdı. Yarası elə idi ki, sanki qolu bir dəridən asılı qalmışdı. Sarğısı dəyişiləndə ondan salavatdan, "La ilahə illəllah" zikrindən başqa bir şey eşitmirdik. Bir müddətdən sonra onu Tehrana göndərdilər. Getməzdən öncə evinin ünvanını aldıq.

Bir gün Şahnazla birgə ona baş çəkmək qərarına gəldik. Soruşa-soruşa evlərini tapdıq. Fərmaniyə prospektində böyük bir bağ evləri vardı. Evi görüb çox təəccübləndik, onun belə bir evdən çıxması inanılmaz idi. Qapını döydük. Atası çıxdı. Özümüzü təqdim edib dedik ki, Abadandan oğlunuza baş çəkməyə gəlmişik. Bizi çox səmimi qarşılayıb evə dəvət etdi; lakin əsas evə yox, həyətdəki kiçik evə.

---

[1] Əli əsirlikdən azad olunmayınca Fevziyə qarpız yemədi. Onlar bir-birinə çox bağlı idilər. Anam hər dəfə qarpız dilimləyib Fevziyəyə verəndə fikrə gedirdi, nə qədər deyirdiksə, yemirdi. Deyirdi ki, boğazımdan keçmir, Əli qarpızı çox sevdiyinə görə ancaq o, yadıma düşür. Əli qayıdana qədər Fevziyə elçi də qəbul etmədi. Anam nə qədər israr edirdisə, deyirdi ki, Əli gəlməyincə heç bir işə hövsələm yoxdur, o ki qala ailə qurmağa.

Anası gəldi. Atası bizi təqdim etdi. Anası da istiqanlı idi. Əllərimizdən tutub içəri apardı, vəziyyətləri haqda danışmağa başladı. Dedilər ki, bir tağut adamının evinin xidmətçisidirlər, gənc hövzə tələbəsi də yeganə övladlarıdır. Vəziyyətini soruşanda dedilər ki, çiyninin durumu ağır olduğuna görə Müdafiə Nazirliyinin 501 saylı hospitalında yatır. Abadanda onun qolunu saxlamağa ümid yox idi. Fikirləşirdik ki, indiyə kəsilmiş olar. Soruşanda isə dedilər ki, Allaha şükür, həkimlər qolu kəsilməsin deyə, əllərindən gələni etdilər. İndiyədək də buna görə xəstəxanadan buraxmayıblar. İstəyirlər ki, nəzarət altında qalsın və problem yaranmasın. Xəstəxananın və palatanın ünvanını alıb dedik ki, oğlunuza baş çəkəcəyik.

Orada qaldığımız bir saatda bizimlə çox səmimi söhbət etdilər, bizi və xəstəxananın digər tibb işçilərini çox tərifləyib minnətdarlıqlarını bildirdilər. Oradan birbaş xəstəxanaya getdik. Görüş saatı çatana qədər həyətdə gözlədik. Yaralını görməyə gedəndə bir anlığa yerində quruyub qaldı. Onu görmək üçün bu qədər yol gəldiyimizə inana bilmirdi. Onu yaddan çıxarmadığımızı, ata-anasını da ziyarət etdiyimizi bilib həm çox təəccübləndi, həm də çox sevindi. Halını soruşduq. Dedi ki, Allahın köməyilə qolunun kəsilmə təhlükəsi aradan qalxıb və bir həftəyə xəstəxanadan buraxacaqlar. Bir qədər qalandan sonra onunla sağollaşıb evə qayıtdıq.

Allaha şükür, anamla atamın əhval-ruhiyyəsi çox yaxşılaşmışdı. Bunu hər ikisinin gözlərindəki parıltıdan duymaq olurdu. Şahnazla Abadana qayıtmaq istədiyimizi söyləyəndə də etiraz etmədilər. Onlarla, Məryəm xala və Zəhra ilə sağollaşıb avtobusla Mahşəhrə getdik. Abadana yaxınlaşdıqca halım yaxşılaşırdı. Allahın köməyi ilə problemsiz icazə vərəqəsi ala bildik. Artıq bizi tanıyırdılar. Taliqani xəstəxanasının tibb işçisi olduğumuzu söyləyən kimi verdilər.

Şahnaz və Zöhrə ilə birgə Taliqani xəstəxanasına getdik. Uşaqların çoxu ailələrinin yanına getmişdi, yalnız bir neçə nəfər qalmışdı. Məryəm Əmcədini gördüm. Salamlaşıb hal-əhval tutandan, novruz bayramını təbrik edəndən sonra dedi: "Sabah, bilirsən nə olub?" Dedim: "Yox, mən təzə gəlmişəm, heç nədən xəbərim yoxdur". Dedi: "Məsud Paki də şəhid oldu. Qarnına qəlpə dəymiş, bağırsaqlarının çoxu sıradan çıxmışdı".

Məsud fəal və enerjili oğlan idi. Nisbətən kök idi, qırmızı yanaqları, ağ üzü vardı. Təxminən 17 yaşı olardı, yenicə saqqal çıxarırdı. Yaralanandan sonra onu İsfahan xəstəxanalarından birinə göndərmişdilər. Deyirdilər ki, bir gecə ağrıları çox olub, çarpayıdan yerə yıxılıb. Görünür, yanında heç kim olmadığından köməksiz qalıb, qarnındakı tikişlər sökülüb və halı pisləşib. Bir qədər sonra da şəhid olub. Məsudun kimsəsizliyinə görə ürəyim od tutub yandı. Gülər üzü gözlərim önündən getmirdi. Məryəmlə birlikdə onun məzlumluğuna ağlayırdıq. Çox ürəyim yanırdı, göz yaşlarım bitmək bilmirdi. Özümə gəlincə bir qədər çəkdi.

***

Taliqani xəstəxanasındakı qızlarla özümüzə səhər proqramı qoymuşduq. Təxminən otuz nəfər olardıq. Hava işıqlaşanda xəstəxananın arxasındakı əraziyə toplaşır, təxminən 200 metr aralıdakı morqa qədər piyada gedib orada səhər gimnastikası və idman edirdik.

Axşam namazlarından sonra da xəstəxanada bir yerə toplaşıb siyasi məsələlər haqda danışırdıq. Döyüşçü və tibbi yardım işçiləri xəstəxanaya yerləşdiklərinə görə çox vaxt aramızda bir ruhani olurdu. Belə olanda fürsətdən istifadə edib axşam namazlarından sonra sual-cavab məclisi təşkil edirdik. Belə məclislərdə o zaman çox aktual olan mövzulardan söhbət gedir, cənnət və cəhənnəm, varlıq və digər etiqadi və ideoloji məsələlərdən danışılır, İslam hakimiyyəti, fəqihin mütləq

vilayəti, ibadətin fəlsəfəsi, Bəni-Sədrin düşüncələri və münafiqlərlə işbirliyi barədə fikir mübadiləsi aparılırdı. Müzakirələrdə həm müxaliflər olurdu, həm müvafiqlər.

Taliqani xəstəxanasında Kumeyl və Təvəssül dualarımız da davam edirdi. Orada da duanı doktor Səadət oxuyurdu. Bir dəfə Kumeyl duası oxunacaq gecə çox darıxırdım. Sanki bütün dünyanın qəm-kədəri ürəyimə çökmüşdü. Səbəbini özüm də bilmirdim. Doktor Səadət "Bismillah" deyən kimi ağlamağa başladım. Bilmirəm Xürrəmşəhri itirdiyimizə görə elə olmuşdum, yoxsa durumları biri-birindən ağır olan yaralılarla işlədiyimə görə. Hər nə idisə, ürəyimi çox ağrıdırdı. Dua qurtaranacan o qədər ağladım ki, səsim tutuldu.

Ertəsi gün bir yaralının işinə görə doktor Ənsarinin yanına gedəndə səsimin nə üçün tutulduğunu soruşdu. Dedim ki, deyəsən, soyuqlamışam. Dedi: "Hə, məlumdur ki, bu axşam çox soyuqlamısan!"

Nə demək istədiyini anladım. Hamının diqqətini cəlb edəcək həddə ağladığımı düşünüb çox xəcalət çəkdim. Ətrafımdakılar nə bilirdilər ki, dərdim nədir! Başımı aşağı salıb dedim: "Öz əlimdə deyildi, sanki ürəyimdə nəsə düyünlənmişdi".

Xürrəmşəhr işğal olunandan sonra heç yerdə qərar tuta bilmirdim. Xəstəxanada olanda Tehrana anamgilin yanına getmək istəyirdim, hələ ora çatmamış Abadana qayıtmağı düşünürdüm.

İyunun 21-də Təcili yardım şöbəsinə gedəndə radiodan Doktor Çəmranın Dehlaviyədə şəhid olduğunu eşitdim. Özümdən asılı olmadan ayaqlarımın taqəti çəkildi, hiss etdim ki, daha ayaq üstə dura bilmirəm. Birtəhər qapının yanındakı oturacaqda oturdum. Doktor Çəmranı inqilabdan sonra tanımışdım. Bilirdim ki, Kürdüstandakı iğtişaşları eşidəndən sonra ƏMƏL təşkilatındakı dostları ilə birgə Livandan İrana gəlmiş, Əbu Şərif və digərləri ilə birgə İslam İnqilabının

Mühafizəçiləri Korpusunu yaratmışdı. Doktor Çəmran o zaman Müdafiə naziri və imamın etimad etdiyi şəxsiyyətlərdən biri idi. O, fizika üzrə fəlsəfə doktoru idi, Livana getməzdən öncə ABŞ-da NASA-ya bağlı bir elmi mərkəzdə işləmişdi.

İnqilabda onun kimilər çox deyildi; müharibədə də həmçinin. Silah-sursat baxımından çatışmazlıq olanda və hərbi bilgilər sarıdan korluq çəkəndə Doktor Çəmran dağ kimi bizə ümid verirdi. Onun şəhadəti böyük itki oldu. Əmin idim ki, yeri hələ çox görünəcək.

***

Xəstəxananın tibb heyəti, xüsusilə də tibb bacıları bizdən mülayim İslam rəftarı görəndən sonra tədricən dəyişdilər. Yavaş-yavaş çoxu başına örpək bağladı. Onlar uşaqların həqiqətən, xidmət üçün qaldıqlarına, əllərindən gələn köməyi əsirgəmədiklərinə əmin olandan sonra bildilər ki, onların yerini tutmağa gəlməmişik. Bu dəyişiklik onların danışıqlarından da bilinirdi.

Tibb bacılarının çoxu əvvəllər nə salamımıza cavab verirdilər, nə də bizi sayırdılar. Yanlarından keçəndə dodaqaltı bir-birinə deyirdilər ki, bunlar xəstəxanaya ər tapmağa gəliblər. Dil yarası ilə bizi incitmək istəyirdilər. Lakin sonralar Allahın köməyi ilə zəhmətlərimiz bir-bir bəhrəsini verdi.

Tibb bacıları ilə səmimiləşəndən sonra çoxları bizə ürəklərini açdılar. Deyirdilər ki, bizim hicabsızlığımız bir gündə baş verməyib, bunların çoxunu universitetdə təhsil zamanı müəllimələrimizdən öyrənmişik. Onların müəllimələrinin çoxu yaşlı və subay ingilis tibb bacıları olmuşdu. Deyirdilər ki, hətta xörək yeməyimiz də öz əlimizdə deyildi. Müəllimələrimiz yeməkxanaya girib bizim yemək tərzimizə nəzarət edirdilər. Kimsə icazə veriləndən artıq yeyəndə qışqırırdılar ki, nə üçün bədən quruluşuna fikir vermirsən, kim icazə verib ki, bu qədər yeyəsən?! Sanki tibb bacısı yerinə maneken yetişdirirdilər.

Deyirdilər ki, üst-başımıza çox həssas yanaşır, daim bəzənməli olduğumuzu söyləyirdilər. Hətta öyrətmişdilər ki, ayağımızın arxasına, dabandan bir qədər yuxarı hissəyə ənlik sürtək, gözəl görünsün və diqqət cəlb eləsin. Bir gün bəzənməyəndə bəzi şöbə həkimləri dərhal etiraz edirdilər. Hətta deyirdilər ki, bu gün nə üçün depressiyadasan, özünə qulluq etməmisən.

Onlar bu sözləri deyəndə liseyi xatırlayırdım. Fars ədəbiyyatı kitabımızda Florens Naytingelin "Əlində çıraq olan xanım" əhvalatını oxuyurduq. O, Britaniyanın ilk peşəkar müharibə tibb bacısı idi, İkinci dünya müharibəsində xəstələrə qulluq etmişdi. Onu oxuyanda fikirləşirdim ki, axı biz müsəlmanıq, İslam tarixində Cərrah Nəsibə kimi cəsur və fədakar bir qadınımız olub. O, Peyğəmbərin (s) dövründə yaralılara qulluq edir, hətta o dövrün imkanları ilə yaraları tikirmiş. Bəs nə üçün 1000 ildən artıq tarixi olan Cərrah Nəsibəni yox, Naytingeli oxumalıydıq. Tibb bacıları təhsil mərkəzlərindəki rüsvayçı vəziyyət haqda danışanda çoxlu suallarıma cavab tapırdım.

Tibb bacıları arasında Bağı adlı bir gənc qız vardı, 12 yaşlı qardaşı Abadanda şəhid olmuşdu. Özü şəhid bacısı olsa da, hicabsız idi, saçını həmişə yuxarıda toplayıb bağlayır, üstündən ağ papağını qoyurdu. Bununla üzü daha da gözəlləşir, insanların diqqətini cəlb edirdi. O bizimlə arası olmayan tibb bacılarından idi. Yaralılara yardım zamanı ən kiçik bir səhvə yol versəydik, qışqırmağa başlayırdı ki, siz iş bacarmırsız, nə üçün bura gəlib əl-ayağımıza dolaşırsız?!

Bir gün Fars vilayətindən bir yaralı gətirdilər. Əməliyyata ehtiyacı vardı. Cərrahiyyə əməliyyatından sonra onu palataya apardıq. Onda xəstəni bihuş etmək üçün ketalardan istifadə edirdilər. Bu zaman xəstə beynində olanları dilinə gətirir, bir söz soruşanda özlərindən asılı olmadan doğrunu söyləyirdi. Eşitmişdim ki, SAVAK bəzi inqilabçıları işgəncə ilə dindirə bilməyəndə ketalarla bihuş edir, sonra suallarını verirdi.

Yaralı yarıhuşlu vəziyyətdə dayanmadan deyirdi: “La ilahə illəllah. Bu gecə birinci qəbir gecəmdir... Tanrım Allahdır... Birinci imamım həzrət Əlidir... La ilahə illəllah...” Təxminən 4-5 dəqiqə gözləri bağlı vəziyyətdə bu sözləri təkrarladı. Onu çarpayıya uzadandan sonra yavaşca gözlərini açdı, Zəhra Fərruxnejadı başı üstə görüb dedi: “Mən cənnətdəyəm, siz də hurisiz, düzdür?”

Özümüzü güclə saxladıq. Bircə huri olmağımız çatmırdı! Özü də gör kimə demişdi! Zəhra aramızda hamıdan zarafatcıl idi, əlinə bir mövzu keçəndə əl çəkmək bilmirdi.

Zəhra dedi: “Yox, qardaş, bura xəstəxanadır, mən də tibb bacısıyam, huri deyiləm. Yaralandığız üçün sizi əməliyyat ediblər. İndi də özünüzə gəlmisiz”.

Zəhra sonradan danışırdı ki, həmin yaralı ona evlənmək təklif edibmiş. Ona deyib ki, şəhərimizdə meyvə mağazam var, maddi vəziyyətim yaxşıdır. Zəhra da demişdi ki, evlənmək fikrim yoxdur. Əlbəttə, Zəhranın qisməti müharibə yaralısı ilə evlənmək imiş. Bir müddətdən sonra həmin yaralılardan birinin həyat yoldaşı oldu.[1]

Yaralıların biri də tehranlı hövzə tələbəsi idi. Təxminən 40 yaşı olardı. Qarnına güllə dəymişdi. Onu da əməliyyat etdilər və bir gün şöbədə qaldı. Ertəsi gün Məryəmlə birlikdə onu palataya gətirməyə getdik. Bizə dedi: “Bacılar, hicabınıza və rəftarınıza görə sizi təbrik edirəm. Sizin burda olmağınız xəstəxana üçün həqiqətən, bir nemətdir. Gərək özünüzə çox fikir verəsiz, bəzi tibb bacılarının rəftarı sizə təsir etməsin. Siz onların üzərində təsir buraxmalısız”.

***

1981-ci il, iyunun 28-i idi. Bilqeyslə birgə əməliyyatdan çıxmış bir yaralını palataya apardığımız yerdə radiodan İslam Respublikası Partiyasının qərargahının partladıldığını,

[1] Zəhra bir neçə ildir dünyadan köçüb. Allah rəhmət eləsin!

Ayətullah Behiştinin şəhid olduğunu eşitdim. Oradaca oturub ağlamağa başladım. İnqilabın əvvəlindən Şəhid Behişti əleyhinə çox güclü təbliğat getmişdi. Hətta bu təbliğatların çoxu inqilabçı qüvvələr tərəfindən aparılmışdı.

Behişti televiziyada İslam Respublikasının əleyhdarları ilə çoxlu diskussiyalar aparırdı; həm liberallarla, həm də digərləri ilə. Əlbəttə, o, kəlam elmində də çox güclü idi. Bu diskussiyalarda çoxlu mövzulara toxunurdular. Bəni-Sədrin tərəfdarları ilə Doktor Behiştinin arasında həmişə mübahisə düşürdü. Onun əleyhinə çoxlu sözlər danışırdılar. Yadımdadır, bir dəfə deyirdilər ki, Behişti ingilis və alman dillərində danışanda avropalılara oxşasın deyə qabaq dişini çəkdirmişdir.

Əvvəllər fikirləşirdim ki, İmam Xomeyni bəzi məsələlər barədə fikir bildirmədiyinə görə o da sakit qalmalıdır. Ancaq tədricən başa düşdüm ki, Şəhid Behişti haqqı deyirmiş. Necə ki İmam Əlinin (ə) sükut etdiyi yerdə Əmmarla Əbuzər sakit qalmırdı. Beləliklə, haqqın hansı tərəfdə olduğunu bilir, bir neçə ay idi qəlbim və ağlımla Şəhid Behiştinin haqlı olduğunu anlayırdım.

Onun və yoldaşlarının şəhid olduğunu eşidəndə məzlumluğunu anladım. Hər kəs şəhidliyə layiq deyildi. Yaralı mənə ürək-dirək verib dedi: "Bacı, belə ağlama, düşmənimiz sevinər. Xoş onların halına! Şəhidlik onların arzusu idi. Biz də səbir etməliyik". Doğru deyirdi, xəstəxanada hər qrupdan - həm münafiqlərdən, həm də terrorçu qruplaşmalardan adam vardı. Nə üçün o qədər üzüldüyümü bilmirdim. Şəhid Behiştinin məzlumluğunu təzə anlayır, İslam Respublikası üçün necə mühüm kadr olduğunu başa düşürdüm.

***

1981-ci ilin iyulu ramazan ayına təsadüf edirdi. Xuzistanın istisində cəbhələrdə oruc tutmaq adamın nəfəsini kəsirdi. İraq artilleriyası da son dərəcə əclaflıq edib döyüşçülərin istirahət

vaxtı olan gecədən sübhə qədər atəş açırdı. Şam azanı yaxınlaşanda da insanların toplaşdıqlarını ehtimal etdiyi hər yeri vururdu; Abadanın came məscidindən xəstəxanalara qədər. Beşinci kolon da fəal idi, koordinatları dəqiq ötürürdü. Bəzən gecədən səhərə qədər şəhəri dayanmadan elə vururdular ki, iki rəkət sübh namazını qılmağa macal tapmırdıq.

Bir dəfə xəstəxananın yaxın ətrafını da vurdular. Yuxarı mərtəbələrin çoxlu şüşələri qırıldı, amma Allaha şükür ki, xəstəxana ciddi xəsarət almadı. Zaman ötdükcə Taliqani xəstəxanası daha çox yaralı ilə dolurdu. Bu qaçaqaçda xəstəxanada bir körpə dünyaya gəldi. Onun ağlamaq səsini eşidən hər kəsin üzü gülürdü.

Ana Kəfişədən gənc bir ərəb qız idi, qışqırıq səsi bütün xəstəxananı başına almışdı. Əvvəlcə elə bildik ki, yaralanıb. Yaxınlaşanda gördük ki, hamilədir, uşağı dünyaya gəlir. Xəstəxanada bir mama vardı. Mehriban və gülərüz qadın idi, uşaqlarla, xüsusən də mənimlə çox səmimi idi. Gənc qızı ona təhvil verdik. Tez palataya apardılar. Bir neçə dəqiqədən sonra körpənin səsi şöbəni bürüdü və hamımız gülümsədik. Allaha şükür olsun ki, hər ikisi sağlam idi.

Anası qızının adını oradaca Katyuşa qoydu. O günlərdə Xuzistan ərəblərinin xüsusən oğlan uşaqlarına müxtəlif silahların adlarını qoyduqlarını çox eşidirdik. Xürrəmşəhrdə qonşumuz olmuş bir ana qızının adını İntizar qoymuşdu. Nə üçün bu adı seçdiyini soruşanda demişdi: "Biz Xürrəmşəhrin azad olunmasının intizarını çəkirik, buna görə qızımın adını İntizar qoydum".

Bir gün Bilqeyslə birgə xəstəxanada idik. Bir zabit gəlib dedi: "Bacılar, mən Abadan artilleriyasının komandiriyəm. Bura sizdən kömək istəməyə gəlmişəm". Dedim ki, nə köməyi? Dedi: "Bizim yaxınlığımızda bir ərəb ailəsi var, oranı tərk etmək istəmir. Mən ərəbcə bilmirəm, nə edirəmsə, oradan getməli

olduqlarını başa sala bilmirəm. Siz Allah, gəlin, kömək edin. Bəlkə siz onları razı sala bildiz. Orada qalmaları təhlükəlidir".

Qabaqlar da xəstəxanaya gəldiyinə görə komandiri tanıyırdıq. Bəzən tabeliyində olan yaralıları özü gətirirdi. Təxminən 40 yaşı olardı, başının yan tərəflərində bir neçə ağ tük görünürdü. Müharibənin qızğın çağında balağı dar şalvarı, tərtəmiz və ütülü paltarları ilə seçilirdi.

Bilqeyslə ordu maşınına minib Abadan artilleriyasına doğru getdik. Maşın artilleriyanın yerləşdiyi mövqedən 20-30 metr aralıda dayandı. Qarşımızda bir palçıq ev vardı, həyət qapısı açıq idi. Komandir qapını döydü və biz içəri girdik.

Həyətdə uzun ərəb köynəyi geyinmiş qoca kişi dayanmışdı. Qəliz ərəb ləhcəsi ilə salam verdi. Birtəhər kişiyə başa saldım ki, bura artilleriyaya yaxın olduğuna görə təhlükəli yerdir, hər an mərmilərdən biri evinizə düşə bilər. Biz dayandığımız yerdə evin ətrafını vururdular, mərmi və raket səsləri hər tərəfi bürümüşdü. Həyətdən iki-üç cərgə ip çəkmiş, çoxlu qadın və uşaq paltarı asmışdılar.

Qocaya dedim: "Özünün və ailənin həyatı təhlükədədir. Tez burdan getməlisiz".

Danışdığım yerdə kor bir qadın qucağında bir körpə evdən çıxdı. Ardınca da 7-8 yaşlı bir qız uşağı gəldi. Qadın çox gənc idi, yaşı 20-dən bir qədər artıq olardı, qoca kişidən təxminən 30-40 yaş kiçik idi. Qoca bizim xahişlərimizə cavab olaraq, dayanmadan deyirdi: "Yox, gedə bilmərəm. Getsəm, keçilərimi nə edərəm?! Mən axı hamısını apara bilmərəm!"

Hirslənib qışqırdım: "Axı keçini neyləyirsən?! Ailə və uşaqlarının həyatı təhlükədədir, sənsə keçi hayındasan!" Dedi: "Mən bu keçilərlə dolanıram. Onları nə edərəm?! Mən olmasam, onlara kim ot və su verər?! Hamısı bir gündə tələf olar".

Dedim: "Yəni keçiyə görə özünü, yoldaşını və uşaqlarını ölümə vermək istəyirsən?! Əgər siz olmasaz, bu keçilər nə işə

yarayar?!" Dedi: "Yox, bizə heç nə olmaz. Topxana burdadır. Topxanaya görə bizə heç nə olmaz".

Nə qədər çənə vurduqsa, kişini razı sala bilmədik. Evlərindən çıxanda onu qane edə bilmədiyimə görə çox təəssüflənirdim. Bilirdim ki, bu şəraitdə bugün-sabah başlarına bir iş gələcək.

Hadisədən bir həftə ötdü. Bir gün uşaqlar dedilər ki, İraq artilleriyası bir ailəni vurub, hamısını təcili yardıma gətiriblər. Ürəyim üzüldü, qoca kişini və ailəsini xatırladım. Təcili yardım şöbəsinə qaçdım. İçəri girən kimi gözüm qadının cəsədinə sataşdı. Çox qorxunc şəkildə ölmüşdü.

Qəlpə qadının sinəsindən yuxarı hissəsini çəpəki formada tamamilə aparmışdı, üz, baş və çiyinlərindən əsər-əlamət qalmamışdı. Paltarından qocanın arvadı olduğunu bildim. Uzun qara köynəyi və rəngli güllü şalvarı həmin gün geyindikləri idi. Halım pis oldu. Körpəsi yanında deyildi. Allah bilir, uşaqlarının başına nə gəlmişdi! Qocaya yalvarmağımı xatırladım. Ona nə qədər demişdim ki, orada qalmasın.

Şöbənin önündən qocanın ağlamaq səsi gəlirdi. Bayıra çıxdım. Yerə oturmuşdu, torpağı götürüb başına tökür, ağlayırdı. Ərəbcə anlaşılmaz sözlər deyir, ikiəlli başına vururdu. Özümü saxlaya bilməyib dedim:

- Axırı onları ölümə verdin?! İndi yaxşı oldu?!

Ağlayaraq danışdı ki, biz evdəydik, arvadım həyətdə paltar yuyurdu. Raket qapının yanına düşdü, böyük bir qəlpəsi arvadıma dəyib bu hala saldı. Ona dedim:

- Yenə orda qalmaq istəyirsən?

- Yox, daha qələt edərəm. Qalsam, iki uşağımı da itirərəm.

- Mütləq kimsə ölməli idi ki, ordan getməyə razılaşaydın?! Bu yazıq qadının südəmər uşağı vardı, indi nə edəcəksən? Keçilərin sənə o qədər əziz idi ki, xeyirlərindən keçə bilmirdin!

Əlimdə deyildi, sakit qala bilmirdim. Qadının ölümündə qocanı günahkar sayırdım. Sözlərimlə qadın daha

dirilməyəcəkdi, başa vurmağın da faydası yox idi, amma həmin gün qoca sözə baxsaydı, bu gün yoldaşı yanında olardı. Qadına ölüm şəhadətnaməsi yazıb cəsədini qocaya təhvil verdilər. Daha hara getdiyini, nə etdiyini bilmədim.

Bir dəfə gecə yarısı Təcili yardım şöbəsində idim. Minu adasından iki yaralı gətirdilər. Hər ikisi tehranlı və Tehran Tibb Universitetinin tələbələri idi.

Yaralarını görüb çox təəccübləndik. Yaraları əzilmiş halda idi, sanki üzərinə ağ pudra səpmişdilər. Bunun hansı silah yarası olduğunu bilmirdik. Yaralar şişib qəribə formaya düşmüşdü. Həkimlər onu necə müalicə edəcəklərini də bilmirdilər. Qorxurdular ki, yaraya əl vursalar, vəziyyətləri daha da pisləşər. Qərara gədilər ki, Tehrana göndərsinlər. Biz onları yollayana qədər biri şəhid oldu. Sonralar öyrəndim ki, onlar fosforlu salxım bombalarının yaraları imiş.

***

Mahşəhrdə məscidin arxasında kiçik bir konteyner vardı. Gənc bir ər-arvad Möhsün Qiraəti ilə Şeyx Hüseyn Ənsarianın kitab və broşürlərini satırdılar. Onların Fatimə adlı 4-5 yaşlı şirindilli bir qızları vardı. Üzü dairəvi və qarabuğdayı idi, qara saçı və göz-qaşı vardı. Kiçik dodaqları qırmızı və qəşəng idi.

Üzü və rəftarı adamın ürəyinə yatırdı. Ora gedəndə onunla çox danışırdıq. Qəribə uşaq idi. Kiçik olsa da, çox ağıllı idi. Quranın kiçik surələrindən çoxunu əzbər oxuyur, bəzilərini tərcümə, hətta şərh də edirdi. Dükana iki-üç dəfə baş çəkmiş, Fatimədən çox xoşum gəlmişdi.

Əlbəttə, dindar və inqilabçı ata-anasına görə bunlar gözlənilən idi, amma hamının diqqətini cəlb edən məsələ inqilaba, Qurana və imamlara dair gözəl söhbətləri idi. Onun bu mövzularda həmişə deməyə sözü vardı. Abadana gəlib-gedərkən bir neçə gün Mahşəhrdə qalan bütün uşaqlar məscidə gedir, Fatiməni tanıyırdılar.

Fatimə bir qədər sonra münafiqlərin törətdikləri yanğın nəticəsində diri-diri yanıb şəhid oldu. Bu xəbəri eşidib çox narahat oldum. Bir gün sübh çağı konteynerdə yatdığı yerdə ata-anası məscidə sübh namazını qılmağa gedirlər. Münafiqlər bu fəal cütlüyü öldürmək üçün konteyneri yandırırlar. Ora kitab və kağızla dolu olduğuna görə tez alovlanıb giriş qapısını əridir. Hadisənin şahidləri deyirdilər ki, Fatimə yanarkən elə yanğılı səslə qışqırırmış ki, səsi hələ də qulaqlarımızda qalıb. Onlar çox çalışmış, ancaq içəri girib onu xilas edə bilməmişdilər.

Bunları eşidib hıçqırtı ilə ağlayırdım. Konteynerin yanması, Quranların alovlanması, yanğının istisindən yuxudan oyanmış məsum körpənin atılıb-düşməsi gözlərim önündən getmirdi. Allah bilir, necə qorxmuş, əzab çəkmişdi! Şirin sözləri hələ qulaqlarımda idi. Başına qəribə iş gəlmişdi. Bu uşağın hər şeyi fərqli olduğu kimi, gedişi də fərqli olmuşdu. Bir neçə gün xəstəxanada Fatimədən söz getdi. Uşaqların çoxu onu tanıyırdı.

***

Ramazan ayı başlayandan sonra Taliqani xəstəxanasına Tehrandan gənc həkim heyəti gəldi. Doktor Ükkaşə ilə Həbibullazadə ortoped cərrah idilər, doktor Məhəmmədhüseyn Mandeqarla doktor Zamani isə ürək cərrahı. Bu həkim heyətinin xəstəxanaya və yaralılara göstərdiyi xidmət heç vaxt yadımdan çıxmaz. Onlar xəstəxanaya gələndə mən müvəqqəti olaraq Təcili yardım şöbəsindən Cərrahiyyə şöbəsinə keçmişdim.

Xəstəxanaya gətirilən əksər xəstələr qəlpədən yaralanmış olurdular. Əksər hallarda da raket yerə dəyəndən sonra qəlpəsi döyüşçülərin bədəninə girirdi. Buna görə yara yerləri çox vaxt toz-torpaqlı və çirkli olurdu. Bəzən yaralıların bədəninə çoxlu çör-çöp də girirdi. Belə yaraları əvvəlcə betadinlə yuyurduq. Lakin doktor Ükkaşə xəstəxanaya gələndən sonra xüsusi bir məhlul hazırladı. O məhlul Ükkaşə məhlulu kimi dillərə düşdü. O, bir qədər savlon kremini betadinlə qarışdırıb yaranı

yuyurdu. Deyirdi ki, bu məhlul yaranı tez dezinfeksiya edib cərrahiyyə əməliyyatına hazırlayır. Əməliyyat otağından əlavə, bu məhluldan Təcili yardım şöbəsində də çox istifadə edirdik.

Doktor Ükkaşə heç bir əlin, ayağın və ya barmağın kəsilməsinə imkan vermirdi. Halbuki çoxlu həkimlər o şəraitdə orqan peyvəndinə can atmırdılar. Ükkaşənin komandası gedəndən sonra bir gecə yarısı bir barmağı kəsilmiş yaralı gətirdilər. İnsafsız həkim kəsilmiş barmağı bir tənzifə büküb mənə verdi. Barmağı alıb dedim ki, bunu nə etməliyəm. Dedi: "Bilmirəm. Gördüm ki, dindar adamsız, dedim kəsilmiş barmağı sizə verim, aparıb bir yerdə dəfn edərsiz".

Bilirdim ki, kəsilmiş orqanı 24 saata qədər peyvənd eləmək olar. Həkimin yaralının barmağını bu asanlığa atdığına inana bilmirdim. Onu yenidən sahibinin bədəninə birləşdirmək olardı. Ona dedim: "Doktor, nə üçün kəsdiniz? Bunu peyvənd eləmək olardı..."

Laqeyd halda çiyinlərini çəkib dedi: "Get işinin dalınca!"

Bir anlığa doktor Ükkaşə yadıma düşdü. Kəsilmiş bədən üzvlərindən ötrü necə əziyyət çəkirdi! Bir dəfə xəstəxanada məhdud imkanlarla bir döyüşçünün biləkdən kəsilmiş əlini peyvənd elədi və Allahın köməyi ilə alındı. Gənc yaralının qoluna dirsəkdən aşağıya qədər çoxlu xırda qəlpə dəymiş, əlini kəsmişdi. Vəziyyəti çox ağır idi, əmin idim ki, doktor Ükkaşədən başqa bir həkim olsaydı, o şəraitdə kəsilmiş ələ əhəmiyyət verməzdi.

Yaralını əməliyyata aparanda doktorun yanındakılar deyirdilər ki, kəsilmiş ələ heç nə etmək olmaz. Doktor gəlib bir ələ baxdı, bir də gəncə. Yaralının başı üstə oturdu, başına əlini çəkib dedi: "Heyifdir! Bu hələ çox gəncdir, əlinə ehtiyacı var. Özü də sağ əlidir".

Həkim həmin yaralıdan cəmi on yaş böyük olardı, amma ata qayğısı ilə hamını sakit elədi. Onun göstərişi ilə yaralıya narkoz

tətbiq etdilər. Doktor əli peyvənd etmək qərarına gəlmişdi. Özü də elə qərarlı və iradəli danışırdı ki, sanki əməliyyatın nəticəsini qabaqcadan bilir.

Doktor öz məhlulu ilə yaranı yaxşıca yudu. Əli və saçaq-saçaq olmuş ət və dərilərin arasını çox diqqətlə yuyub-təmizlədi. Təxminən axşam saat on bir idi. Ramazan gecələrindən idi, İraq artilleriyası şəhəri dəli kimi vururdu.

Səs-küy bir an da dayanmırdı. Əməliyyat otağının tavanı hər an başımıza uça bilərdi. Doktor Ükkaşənin o şəraitdə gəncin yarasını səbirlə təmizləməsi möhtəşəm bir şey idi. Adətən, yaranı tibb bacıları və hətta biz yuyurduq, həkimlər bu işi görməzdilər.

Yaranı yuyandan sonra tikib bitişdirməyə başladı. Əvvəlcə iki-üç böyük damarı bir-birinə tikdi. Damarları elə incəliklə birləşdirirdi ki, sanki zərif bir miniatür əsəri yaradır. Əsas damarlardan sonra növbə xırda damarlara və daha sonra ağ vətərlərə çatdı.

Elə məharətlə peyvənd edirdi ki, əməliyyat etdiyi 5-6 saatın bir dəqiqəsində də yanından tərpənmədik. Hamımız lal-dinməz dayanıb doktorun barmaqlarının məharətinə tamaşa edirdik. Bəzən uşaqlar alnının tərini silir, ona su verirdilər.

Əməliyyatın sonu yaxınlaşanda şah əsərindən məmnun halda danışmağa başladı. Dedi ki, inqilabdan öncəki mitinq və yürüşlər pik həddinə çatanda Amerikada təhsil alırmış. Deyirdi ki, orada idim, amma ürəyim xalqımın və ölkəmin yanında idi, inqilab xəbərlərini anbaan izləyirdim. İnqilabdan sonra təhsilim bitdi və İrana qayıtdım. Deyirdi ki, Amerikada qalıb işləməyə yaxşı imkan vardı, amma öyrəndiklərindən xalqı üçün istifadə etmək istəyirmiş.

Əməliyyat bitəndən sonra dərin nəfəs alıb dedi: "Biz bu gəncin əlini həyatda saxlamaqdan ötrü əlimizdən gələni etdik. Bundan sonrası Allahın əlindədir. Əgər məsləhət bilsə, peyvənd

baş tutacaq; məsləhət bilməsə, yəqin, bizim bilmədiyimiz bir hikmət varmış".

Əməliyyatdan sonra yaralının əlini gipslə bağladı. Bir neçə gün ciddi nəzarət altında olsun deyə, Reanimasiya şöbəsinə göndərdi. Səhər saat 6-ya yaxın idi. Səhərin nə vaxt açıldığını bilməmişdik. Ertəsi gün yaralının əli bir qədər şişdi, amma doktor dedi ki, hələlik qorxusu yoxdur.

Əməliyyatdan sonra həkim hər gün yaralıya baş çəkirdi. İlk dəfə barmaqlarının ucuna yavaşca vurub əlin tərpəndiyini, reaksiya göstərdiyini görəndə doktorun gözləri işıldadı, bizə baxıb dedi: "Allaha şükür, peyvəndi tutub. Barmaqlarının hissiyatı var".

Yeddi-səkkiz saatlıq əməliyyatın yorğunluğu canımızdan çıxdı. Allahın köməyi və doktor Ükkaşənin bacarığı nəticəsində o gənc bir ömür təkəlli qalmaq əzabından qurtuldu. Bir neçə gün sonraya qədər xəstəxanada ancaq bu peyvənddən söz gedirdi. Düz Katyuşanın dünyaya gəldiyi, hamının sevinib fərəhləndiyi bir zamanda bu peyvənd əməliyyatının uğur xəbəri hamımızı çox ruhlandırdı. Bəlkə də buna inanmaq çətindir. Bir əl peyvəndinin digərlərini bu qədər ruhlandırması həqiqətən, düşündürücü idi. Sonralar başa düşdüm ki, bunun səbəbi həkimin ixlasındadır.

Düzdür, bəzən doktor hansısa bədən üzvünü kəsməyə məcbur olurdu. Bir dəfə bir yaralının ayağını kəsmək qərarına gəldi. Yazıq ayağı saxlamaq üçün çox çalışdı, amma həqiqətən, imkansız idi.

Həmin gün əməliyyata uşaqların istirahət otağının bacasından baxırdıq. Amputasiya[1] üçün iridişli, qövsvarı polad mişarı vardı. Doktor Ükkaşə mişarı götürüb yaralının dizindən yuxarı hissəyə qoydu və səbirlə sümüklərini mişarlamağa

[1] Hansısa orqanı kəsmək, qoparmaq üçün işlədilən tibbi termindir.

başladı. Mən yerimdə donub qalmışdım, gözümü həkimin əlindən çəkmirdim.

Amputasiyadan dərhal sonra qanaxma verən əsas damarları iti ucu olan kater adlı bir aparatla yandırıb qanaxmanı dayandırdılar. Kater damara toxunanda ondan nazik tüstü qalxırdı. Mən pəncərənin arxasındaydım, nə əməliyyat otağının səs-küyünü eşidirdim, nə də iy duyurdum, ancaq bütün burnum yanmış kabab qoxusu ilə dolmuşdu. Ürəyim bulanırdı, əl-ayaqlarımın taqəti çəkilmişdi. Ondan artıq davam gətirə bilmədim. Yavaşca divarlardan tutub uşaqların yanına qayıtdım.

***

Yeni həkim əməliyyat otağına gedən dəhlizdə yaralının sallanan barmağının dərisini bir ülgüclə kəsib barmağı mənə verdi. Doktor Ükkaşənin və iş yoldaşlarının yeri çox görünürdü. Yeni həkim cəbhədə məcburi bir ayını bitirmək üçün gəlmiş həkimlərdən idi. Mən o barmaqla nə edəcəyimi bilmirdim. Abadan korpusunun xəstəxanadakı döyüşçülərindən birinə yaxınlaşıb barmağı ona verdim. Dedi:

- Bacı, mən bunu nə edim?

- Heç nə. Gərək qüsl verib dəfn edəsiz.

- Axı harda? Necə?

- Bilmirəm, harda olsa. Aparın, ətrafdakı xurmalıqların birində dəfn edin.

Yazığın çarəsi yox idi. Bilirdi ki, özü nəsə fikirləşməlidir. Barmağı götürüb getdi.

Bu həkim kimiləri, hətta ondan da pislərini görmüşdük. Bir dəfə xəstəxanaya bir narkoz həkimi gəlmişdi. Özündən bir neçə yaş kiçik olan gənc bir oğlanı da köməkçi kimi gətirmişdi. Bəzən yemək vaxtı əlini çənəsinin altına qoyub bərəlmiş gözlərini həmin yaşıl gözlü gənc oğlana dikirdi. Sanki baxışından alov

yağırdı. Çox çəkmədən hamı onların arasındakı əxlaqsızlıqdan xəbər tutdu.

Həmin həkim səhərlər təxminən saat 10-da gözləri şişmiş halda, əsnəyə-əsnəyə otaqdan çıxıb dəsmalını çiyninə atır və hamama gedirdi. Hamamdan çıxandan sonra da deyirdi ki, səhər yeməyimi gətirin. Yeməyini bitirib işə başlayana qədər günorta olurdu. Bu şəraitdə onun laqeydliyi bizə və yaralılara təhqir idi. Sanki əməlləri ilə bizi aşağılayır, müharibəni zarafat hesab edirdi.

Biz təcili yardımçıların xəstəxanadakı hicabı və davranış tərzi elə idi ki, heç kəs bizə artıq-əskik söz deməyə cəsarət etmirdi. Ancaq həmin anesteziolоq çox həyasız adam idi, görkəmimizə və rəftarımıza fikir vermədən fürsət düşən kimi onunla çay içmək, yemək yemək təklif edirdi. Onunla nə qədər acıqlı davranır, sözünü cavabsız qoyurduqsa, özünü o yerə vurmurdu; nə inciyir, nə də özünü yığışdırırdı.

O, normal adam deyildi, işləri şübhəli idi. Bir dəfə halı o qədər pisləşmişdi ki, ayaq üstə dayana bilmir, aşırdı. Sonra öz nəbzini və təzyiqini yoxlamaq qərarına gəldi. Əlini nəbzinin üstünə qoyub Fərxundə İsmailiyə dedi ki, nəbzim neçə dəfə vurur?

Fərxundə ilə məsələnin kökünü öyrənmək qərarına gəldik. Belə bir adamın xəstəxanada, özü də Anesteziologiya şöbəsində işləməsi riskli idi. Xəstəxananın arxasına keçib pəncərədən otağına baxdıq. Yerə çoxlu petidin şüşəsi tökülmüşdü. Məsələnin nədən ibarət olduğunu anladıq. O, narkoman idi, kefli olduğundan əməliyyat otağının sakitləşdiricilərinə daraşmışdı; özü də bəzən bir sakitləşdirici tapa bilmədiyimiz ağır şəraitdə. Bildik ki, Fərxundədən nəbzinin sayını soruşduğu gün özünə dozadan artıq iynə vurduğu üçün qorxurmuş.

Məsələni xəstəxananın daxili müdiri olan Həsəniyə söylədim. Araşdıracağına söz verdi. Sonra xəstəxananın Bəsicinə məlumat

verib boş petidin şüşələrini göstərdik. Alıb dedilər ki, araşdıracağıq.

Bir neçə gündən sonra əməliyyat otağına bir yaralı gətirdilər. Qəlpə çənəsini yerindən qoparmışdı, dili sallanırdı, ağzında görkəmsiz boşluqdan başqa bir şey qalmamışdı. Bununla yanaşı, yarası həssas yerdə olmadığına görə yaşayırdı.

Yaralını əməliyyat otağına göndərdilər. Sümük peyvəndi əməliyyatı təxminən 7-8 saat çəkdi. Bu əməliyyat zamanı adətən, xəstənin budundan sümük parçası çıxarıb çənənin yerinə calaq edirlər. Sümük peyvəndi ağır əməliyyat idi, bəzən 11-12 saata qədər uzanırdı. Allahın köməyi ilə əməliyyat yaxşı keçdi və cərrah həkim otaqdan razılıqla çıxdı. Yaralını Cərrahiyyə şöbəsinin cərrahiyyə hazırlığı otağına apardıq.

Narkoz həkimi xəstənin başı üstə gəldi. Bütün əməliyyatlarda yaralının tənəffüsünə nəzarət etmək, yaxşılaşdırmaq üçün boğazından nəfəs yoluna hava zondu salırdılar. Bu, həm yaralının tənəffüsünə kömək edirdi, həm də tənəffüs vəziyyətini həkimə göstərirdi. Bu zond adətən, tam özünə gələnə qədər yaralının ağzında qalırdı, onu palataya aparanda çıxarırdılar. Xəstənin ağız və çənəsində problem olduğuna görə isə daha çox qalmalı, tənəffüs vəziyyətinə nəzarət edilməli idi. Bu təcrübələri əməliyyat otağında öyrənmişdik.

Həkim bütün üzü bintlə bağlanmış xəstəyə baxdı, tibb bacısına dedi ki, zondu çıxarın.

Müalicə otağında məndən və tibb bacısından başqa xatırlamadığım bir nəfər də vardı. Hər üçümüz təəccüblə həkimə baxdıq. Tibb bacısı dedi: "Nə dediz, doktor? Zondunu çıxarım?" Doktor dedi: "Bəli, düz eşitmisən!"

Tibb bacısı mat-məəttəl həkimə baxdı. Mən dedim ki, doktor, bu yazıq hələ özünə gəlməyib. Bu vəziyyətdə zondu çıxarmağa nə lüzum var? Dedi: "Mən yaxşı bilərəm, yoxsa siz?! Dediyimi edin!"

Otaqdakı üçüncü adam dedi: “Çıxarsaq, həyatı təhlükəyə düşər”.

Kompleksli həkim bundan artıq gözləmədi. Özü yaxınlaşıb zondu hirslə yaralının boğazından çıxardı. Bəlkə bir neçə saniyə ötməmiş yaralının halı pisləşdi, əl-qolu titrəməyə başladı. Ürəyim elə döyünürdü ki, yerindən çıxmaq üzrə idi. Xəstənin başı üstə qaçdıq. Camaatın balası gözlərim önündə ölürdü, mənsə nə edəcəyimi bilmirdim. Zondu yerinə qaytarmağın da xüsusi tərzi vardı, mənim və ya tibb bacısının işi deyildi.

Biz tərpənincə cavan şəhid oldu. Bir nəfərin hamının gözü önündə belə asanlıqla insan öldürdüyünə inana bilmirdim. Narkoz həkimi həqiqətən də həddini aşmışdı. Yaralının canı onun üçün dəyərsiz bir şey idi. Ümumiyyətlə, adi halda deyildi, necə xəyanət etdiyinin fərqinə varmırdı.

Qərara gəldim ki, nəyin bahasına olursa-olsun, daha işini bitirim. Bəsicin ofisinə şikayətə gedib baş verənləri söylədim. Dedim ki, əgər keçən dəfə tədbir görsəydiniz, bu gün bu yaralını itirməzdik. Dedilər ki, bu müddətdə boş durmayıb, məsələni araşdırıblar.

Həmin həkimə qarşı tədbir görənə qədər məcburi xidmət dövrü olan bir ay bitdi və cəhənnəm olub getdi.

***

Bir gün iftardan bir qədər sonra bir vanet yük maşını siqnal verə-verə xəstəxananın həyətinə girdi. Təcili yardım şöbəsindəki uşaqların yanındaydım. Siqnalı eşidib hamımız həyətə qaçdıq. Maşının yük yeri qana və torpağa bələşmiş yaralı və şəhidlərlə dolu idi. Sürücü ağlaya-ağlaya dedi ki, Piruz məscidini vurdular.

İraq artilleriyası azandan öncədən atəş açmağa başlamışdı. Partlayış səsi dayanmırdı. Buna görə hamımız hazırlıqlı vəziyyətdə idik. Tez bütün yaralı və şəhidləri maşından endirdik. Şəhidlərin arasında Abadanın Bələdiyyə sədri ağa

Atəşpəncəni görüb dərin ah çəkdim. O, faciəli şəkildə şəhid olmuşdu. Boğazının altından belinə qədər bütün bədəni əzilib bükülmüşdü. Atəşpəncə və onun xanımı ilə bir müddət idi tanış olmuş, bir neçə dəfə Mahşəhrdəki evlərinə getmişdik. Xanımı çox səmimi, mehriban və gülərüz qadın idi.

Atəşpəncə Abadanın fəal dindar kadrlarından idi, məhz həmin gün bələdiyyə sədrliyinə başlamışdı. Yazığın sənədinin möhürü qurumamış şəhadətə qovuşmuşdu. Sürücünün dediyinə görə, məsciddə iftar etdikləri yerdə vurulmuşdular.

Kiçik yük maşınının arxasına təxminən 30 şəhid və yaralı yığmışdılar. Bir neçə dəqiqədən sonra ikinci maşın da gədi. Xəstəxananın həyətində qiyamət idi. Əzizlərini tapmaqdan ötrü xəstəxanaya gəlmiş insanların ağlamaq və qışqırtı səsi Təcili yardım işçilərinin hay-küyünə qarışmışdı.

Bu müddətdə çox peşəkar olmuşduq. Daha ilk günlərdəki kimi mat-məəttəl baxmırdıq. Çox cəld şəkildə oyan-buyana qaçır, işləri yoluna qoyurduq. Şəhidlər arasında Quruculuq cihadının uşaqlarından bir neçəsini gördüm. Yaralıların paltarlarını qayçı ilə kəsdik, bir-bir yaralarını yuyub bağladıq. Bundan öncə bəzilərinin damarlarını tapıb iynə sancdıq və qan təzyiqlərini ölçdük. Təcili yardım şöbəsində tərpənməyə yer yox idi. Digər şöbələrin uşaqları da köməyə gəlmişdilər.

Qurbani şəhidlərin kimliyini təyin etmək üçün ciblərini axtarırdı. Bir kimlik tapanda qeyd edir, ciblərində xüsusi bir şey olanda sellofan torbaya töküb ağzını düyünləyir, ailəsinə vermək üçün kənara qoyurdu. Axırda da şəhidi morqa göndərirdi.

Ramazan ayının əksər gecələrində səhərədək işləyir, yaralıları əməliyyata və ya rentgenə aparırdıq. Başımız o qədər qarışmışdı ki, çox vaxt sübh azanının nə vaxt verildiyini bilmir, hətta bir stəkan su və ya çay içmədən oruc tuturduq.

Həmin gecələrin birində doktor Mandeqar xəstəxananın məhdud imkanları ilə açıq ürək əməliyyatı etdi. Mən axıra qədər əməliyyat otağında qaldım. Yaralı 22-23 yaşlı bir gənc idi, ürək pərdəsinə kiçik qəlpə girmişdi. O, huşsuz vəziyyətdə idi. Doktor Mandeqar sinəsinin şəklini görüb dedi: "Bu cavanın həyatı təhlükədədir, mütləq əməliyyat olunmalıdır. Qəlpə tərpənsə, ürəyinə girib onu öldürəcək".

Bundan əlavə, buduna da böyük bir qəlpə girmişdi, ayağı kəsilmək üzrə idi və tez cərrahiyyə əməliyyatına ehtiyac vardı. Xəstənin vəziyyəti o qədər ağır idi ki, bu əməliyyatların heç birini gecikdirmək olmazdı. Doktor Mandeqar və doktor Həbibullazadə qərara gəldilər ki, hər ikisi eyni zamanda əməliyyata başlasın.

Əməliyyat otağının işçiləri dərhal işə başladılar. Əvvəlcə cəld yaralının sinəsini yuduq. Mən açıq ürək əməliyyatı görməmişdim. Bilmirdim ki, sinədə açılan 2 santimetrlik yarıq əməliyyat zamanı 40 santimetrlik dərin çuxura çevrilir və ona 200-dən çox tikiş atılır. Əllərimizi yuyub üçüncü cərgədə dayanmışdıq. Birinci cərgə həkimlərə, ikinci cərgə texniki yardım işçilərinə məxsus idi. Əməliyyat vaxtı sap, betadin, savlon, serum və ya qan torbası çatışmayanda tez gətirib hazırlayırdıq. Bəzi yaralıların güclü qanaxması olanda və bir neçə yerdən damar tapıb qan vurmağa ehtiyac yarananda da kömək edirdik.

Doktor Mandeqar üçüncü və dördüncü qabırğaların arasını yardı. Sonra ikinci cərgədən iki nəfər qarmağa oxşayan bir aləti qabırğaların arasına yerləşdirdilər. Bu işi elə cəld görürdülər ki, çarpayı və yaralı bərk tərpənirdi. Onların çevikliyini görüb əl-ayağımı itirdim. Qan təzyiqim düşmüşdü, amma əməliyyatın sonuna qədər qalmaq istəyirdim. Həmin alət qabırğaları bir-birindən uzaqlaşdırdı. Qabırğa sümükləri sınmadan bir-

birindən ayrılırdı. Eni-uzunu 20 santimetrə çatan bir boşluq yarandı.

Həkim əllərini boşluğa salıb yavaşca ürəyi çıxardı. Ürək həkimin əlində döyünürdü. O, ürəyi xüsusi bir qaba qoyub kiçik qəlpəni yavaşca götürdü. Biz ürəyi və onun döyüntüsünü görüb necə şoka düşürdüksə, doktor Mandeqar sakitcə və arxayıncasına pərdəni tikirdi. İşi bitəndən sonra ürəyi yavaşca yerinə qoydu.

Digər tərəfdə də doktor Həbibullazadə köməkçikəri ilə birgə yaralının ayağı üzərində işləyir, ayağının kəsilməsinin qarşısını alırdılar. Yaralının dörd açıq damarı vardı: ikisi ayaqda, biri qolda, biri də boyunda. Odur ki qan çatmadı. Bayıra qaçıb bir neçə torba daha gətirdim. Əməliyyat otağında yalnız iki qanqızdıran aparat vardı. Onlara iki qan torbası qoyduq, qalanını da qoltuqlarımızın altında bədənimizin hərarəti ilə qızdırmağa başladıq.

Doktor Mandeqarın işlədiyi müddətdə sorucu aparat yara yerinin qanını sorur, texniklər də sterilizə olunmuş böyük tənziflərlə qalmış qanı cəld qurudurdular. Sonra həkim aləti yavaşca qabırğaların arasından çıxardı və ətraf əzələlərini tikdi. Ayaq əməliyyatı da bitmək üzrəydi. Allaha şükür, yaralı davam gətirmişdi.

Hər iki həkim həqiqətən, möcüzə etdi. Fitri istedadın nə demək olduğunu orada başa düşdüm. Əməliyyat gecənin sonlarına qədər davam etdi. Yaralını təhvil verdik. Əməliyyat otağından çıxanda çiynimlə belim ağrıyırdı. Əsas işi həkimlər görmüşdülər, amma mənim taqətim qalmamışdı.

Mandeqar, Ükkaşə və Həbibullazadə xəstəxanada bir ay qaldılar, icbari xidmət müddətləri bitəndən sonra Tehrana qayıtdılar. Lakin bu müddətdə yaralılara gecə-gündüz elə xidmət etdilər ki, digər həkimlərin fəaliyyətlərindən üç qat artıq səmərəli oldu. Hər üç həkim üç növbə işləyirdilər, yatmağı,

istirahət etməyi yaddan çıxarmışdılar. Onlar gedəndən sonra uzun müddət yerləri göründü.

Həmin ağır əməliyyatın ertəsi günü Şahnazla birlikdə şəhərdə gəzmək və alış-veriş etmək qərarına gəldik. Xəstəxanadan çıxdıq, yolun o tərəfinə keçib maşın gözləməyə başladıq. Bir neçə dəqiqədən sonra uzaqdan korpusun maşını göründü. Yaxınlaşanda əlimi qaldırdım ki, bizi də mindirsinlər, onlarsa məhəl qoymayıb qaza basdılar.

Bu zaman birdən yer titrədi, havanın təzyiqi məni yerimə mıxladı. Hər yeri toz-torpaq və tüstü bürüdü. Yerimdən tərpənə bilmirdim, sanki kimsə ayaqlarımı yerə tikmişdi. Şahnaz da mənim kimi olmuşdu. Xəstəxananın keşikçisinin səsini eşidirdim. Qışqırıb deyirdi: "Kömək edin! Kömək edin! Vətənxah bacıları şəhid oldular!"

Korpus maşınının geri gəlmə səsini eşitsəm də, bir anlığa elə bildim ki, ikimiz də şəhid olmuşuq. Bir qədər sonra toz-duman yatdı, özümə və bədənimə baxdım. Salamat idim, heç bir yara və qan yeri yox idi. Ancaq başım gicəllənirdi, beynim dumanlanmışdı. Şahnazın da yalnız üz-başı tozlanmışdı, yarası yox idi. Birtəhər əl-qolumu tərpədib hərəkət etməyə çalışdım. Bizdən iki-üç metr arxaya raket düşmüş, yerdə çuxur açmışdı. Şahnazı çağırdım, cavab verdi. Soruşdum ki, necəsən? Dedi: "Mən yaxşıyam. Sən necəsən? Salamatsan?" Dedim ki, hə, yaxşıyam.

Qapıçı kişi və iki-üç korpus döyüşçüsü mat-məəttəl bizə baxırdılar. Bu partlayışdan ikimizin də sağ çıxdığımıza heç kim, hətta özümüz də inana bilmirdik. Qoca təəccüblə dedi: "Qızlar, doğrudan da salamatsız?! Allaha şükür! Allaha şükür!"

Təcili yardım şöbəsinin uşaqları gəlib bizi dövrəyə aldılar. Hamı deyirdi ki, həqiqətən, möcüzə oldu. Məgər adamın bu qədər yaxınlığına raket düşsə, salamat çıxa bilər?! Raket yeri yarmış, torpaq bütün qəlpələrini udmuşdu. Bir neçə dəqiqədən

sonra pasdarların biri israr etdi ki, maşınlarına minək və bizi istədiyimiz yerə aparsınlar. Halımız yaxşı idi. Minib şəhərə getdik.

Təxminən iki gündən bir Zeynəddinin ofisinə zəng vurub deyirdim ki, anamı və ya bacılarımdan birini çağırsın. Bir dəfə Salehə gəldi. Salamlaşıb hal-əhval tutandan sonra soruşdum ki, təzə nə xəbər var. Dedi: "Heç nə, Sabah, yerin görünür. Axşam burda olsaydın, nə qədər döyüldüyümüzü görərdin!" Narahat halda soruşdum: "Nə üçün? Məgər nə olub?" Dedi: "Firdovsla birgə Firdovsi meydanına getmişdik. Xalq Mücahidləri Təşkilatının uşaqlarından bir dəstəsi ucadan qışqıra-qışqıra camaata yalanlar uydururdular. Deyirdilər ki, nə üçün övladlarınızı müharibəyə ölümə göndərirsiz? Kim deyib ki, hökumətin bacarıqsızlığının altını biz çəkməliyik?! Ailələr əzab-əziyyətlə övlad böyüdürlər ki, topun-tankın önünə göndərsinlər?!

Camaat toplaşıb onlara tamaşa edirdi. Gördük ki, sakit qalsaq, çox həyasızlıqla qaralamağa davam edəcək və camaatın ürəyinə qorxu salacaqlar. Buna görə onlarla mübahisə etdik. Danışdığımız yerdə birdən bizi döyməyə başladılar. Onlarla tutaşdı. Aralarında peşəkar kunq-fu ustası olan bir qız vardı. Firdovsla məni o qədər təpiklədi ki, birtəhər olduq. Hələ də bədənimiz ağrıyır!"

Məni həm gülmək tutdu, həm də bacılarıma yazığım gəldi. Dedim ki, yaxşı, axırı nə oldu. Dedi: "Heç nə, komitə uşaqları gəlib qızı apardılar. Sabah, inanmazsan, qız o qədər çevik idi ki, komitədən gələnlər də onunla bacara bilmirdilər".

Xalq Mücahidləri Təşkilatının çoxlu üzvlərinin xüsusi təlimlər keçdiyini bilirdim. Bu təlimlərin biri də əlbəyaxa döyüş, karate və kunq-fu idi. Artıq onların biri bacılarımın toruna keçmişdi. Tehranın vəziyyətini soruşdum. Oranın əmin-amanlığı bizə önəmli idi. Tehrandakı sabitlik cəbhədə sabitliyə

səbəb olurdu. Orada əmin-amanlıq çoxlu döyüşçülərin ailələrinin mənəvi-psixoloji əmin-amanlığına bərabər idi.

Digər tərəfdən, Bəni-Sədr kimi bir prezidentin olması bizim üçün kabusa çevrilmişdi, onun işlərinə görə daim narahat idik. Buna görə Tehranın küçələrində iğtişaş və qarşıdurma yarandığını eşidəndə çox pis olurduq.

Belə bir şəraitdə, 1981-ci ilin 29 iyulunda Bəni-Sədrin Məsud Rəcəvi ilə birgə qadın paltarında qaçışı bütün ölkədə rezonans doğurdu. Bu xəbəri harada eşitdiyimi xatırlamıram, ancaq yaxşı yadımdadır ki, sevindiyimdən qışqırmaq istəyirdim. Bəni-Sədr kimi mənfur bir adamın kölgəsinin vətənim üzərindən çəkilməsini eşitmək kiçik məsələ deyildi. Bütün xəyanətləri bir-bir gözlərim önündən keçdi.

Yadımdadır, bir dəfə xəstəxanada bir broşür gördüm. Orada İmam Xomeyninin bir cümləsini Bəni-Sədrin sözləri ilə müqayisə etmişdilər. İmam belə buyurmuşdu: "Mən" deməyin. Deyin ki, mənim məktəbim. Bu "mən" şeytandır". Digər tərəfdən, Bəni-Sədrin müxtəlif yerlərdə "mən filan işi gördüm; mən elə etdim; mən belə etdim" dediyi müxtəlif cümlələrindən təxminən iki səhifə dərc etmişdilər.

Bəni-Sədr gedəndən sonra cəbhələrdə qələbəyə ümid yarandı. Bir tərəfdən də Rəcəvinin kimliyinin üstü açılmışdı. O vaxta qədər hələ çoxları onun əsas mahiyyətindən və azğınlığından xəbərsiz idilər. Lakin onun Bəni-Sədrlə qaçışı heç kimdə bəhanəyə yer qoymadı.

***

1981-ci ilin sentyabrı idi. Mən hələ də xəstəxanada işləyirdim. Atam, anam və uşaqlar üçün çox darıxmışdım. Tehrana gedib onlara baş çəkmək istəyirdim. Bilqeysə dedim ki, birlikdə gedək, sən də havanı dəyiş. O da çoxdan xəstəxanada idi. Zöhrə də Şiraza getmək istəyirdi. Birlikdə Mahşəhrə getmək qərarına gəldik.

Zöhrə dedi: "İndi ki Mahşəhrə gedirik, Şəhid Atəşpəncənin xanımına baş çəkək, sonra gedərik". Çoxdan idi mədəm çox pis ağrıyırdı. Həkim mədəmin rəngli şəklini istəmişdi. Dedim ki, gedib Mahşəhr xəstəxanasında çəkdirərəm. Abadanlı uşaqların bir neçəsi də bizimlə gəldi.

Şəhid Atəşpəncəgilə getdik. Xanımı həmişəki kimi bizi mehriban qarşıladı, israr etdi ki, gecəni qalıb ertəsi gün Mahşəhrə gedək. Gecə bir yerdə oturduq. Mədəmin şəklindən ötrü gənəgərçək yağı içdiyimə görə başqa bir şey yeyə bilmədim.

Ertəsi gün onunla sağollaşıb Mahşəhrə yola düşdük. Onun evindən çıxandan sonra şəhərdə bir hadisə baş verdiyini hiss etdim. Camaatın arasında çaxnaşma vardı. Çoxlu korpus və cihad maşınları gedib-gəlirdi. Uşaqlara dedim ki, məncə, bir hadisə baş verib. Bir neçə dəqiqədən sonra bildik ki, Baş nazirin ofisində bomba partlayıb, Prezident Rəcai ilə Bahünər şəhid olublar. Bu xəbəri eşidib çox narahat olduq. Hələ 72 şəhidin matəmindən çıxmamışdıq. Narahatlıqdan dəli olmaq üzrəydik. Bir neçə ay ərzində məhkəmə və icra hakimiyyətlərinin rəhbərlərini itirmişdik. Bu, inqilab üçün kiçik itki deyildi. Yalnız İmam Xomeyniyə görə məyus olmurduq.

Bir ay öncəni xatırladım. Ağa Rəcai Taliqani xəstəxanasına yaralılara baş çəkməyə gəlmişdi. O, inqilabçı və vilayətçi adam idi. Özü cəmiyyətin yoxsul təbəqəsindən çıxdığına görə xalqı yaxşı başa düşürdü. Bunlar onun xalq tərəfindən sevilməsi üçün yetərli idi. Sadə və əxlaqlı adam idi, zahiri görkəmi, söhbət tərzi cəmiyyətin adi və orta təbəqəsindən seçilmirdi. Bir sadə qəhvəyi şalvar geyinmişdi, bir ucuz çin köynəyi. Sanki ölkə prezidenti və bütün imkanlar onun ixtiyarında deyildi. Müəllimlər kimi ağır-ağır danışırdı, bütün sözləri adamın yadında qalırdı.

Bir müddət öncə doktor Ənsari, Məsumə Ramhörmüzi və Məhbubə İsmaili ilə birgə Fəyyazi cəbhəsinə getmişdik. Orada

ordu uşaqlarından bir neçəsini gördük. Bizi görən kimi ürəkləri açıldı:

- Biz hərbi xidməti 1977-ci ildə başa vurmuşuq. Müharibə başlayandan sonra ordu ümumi səfərbərlik edib bizi altı aylığa cəbhəyə çağırdı. Artıq doqquz aydır ki, cəbhədəyik, amma hələ qayıtmağa icazə vermirlər. Bizə deyirlər ki, hələ sizinlə işimiz bitməyib. Siz Allah, əgər əliniz bir yerə çatsa, bizim problemimizi söyləyin. Haçandır ailə-uşaqlarımızı tərk edib gəlmişik, onların vəziyyətlərindən xəbərimiz yoxdur. Bu vəziyyətin nə vaxta qədər davam edəcəyi də bəlli deyil.

Rəcai gələndə xəstəxananın işçiləri orada qalmaları və xəstəxananın bərbad durumu haqda çox şikayət etdilər. Hamısı deyirdi ki, bizim həyatımız təhlükədədir, ancaq burada qalmağa məcburuq. Deyirdilər ki, ailələrimiz rayonlardadır, biz onlardan kilometrlərlə uzaqdayıq, onlara əlimiz çatmır. Sonra da xəstəxananın çatışmazlıqlarından, aparat və dərman azlığından danışdılar. Hamısı o qədər məyus danışdı ki, təngə gəldik. Rəcai də sözlərini diqqətlə dinləyib deyirdi ki, araşdıracaq və xəstəxananın vəziyyətini aidiyyəti orqanlara söyləyəcək.

Xəstəxana işçilərindən sonra biz təcili yardımçılar onu dövrəyə alıb söhbətləşdik. Uşaqlarla qərara gəlmişdik ki, hamımız bura könüllü şəkildə gəldiyimizi və lazım olduğu qədər qalıb xidmət edəcəyimizi söyləyək. Uşaqlar bir-bir danışmağa başladılar. Öncəki söhbətlərdən fərqli olaraq, Rəcai bizim uşaqları dinləyəndə gülümsəyir, alqış əlaməti olaraq başını yelləyirdi. Mənim növbəm çatanda çox tapşırdıqlarına görə xidmət müddəti bitmiş əsgərlərin problemini söylədim. Dedim ki, yazıqlar yaxşı şəraitdə deyillər, heç kim sözlərini dinləmir. Rəcai orada söz verdi ki, məsələ ilə şəxsən maraqlanacaq.

Biz danışıb qurtarandan sonra Rəcai hamıya müraciətlə dedi: "Burdan gedəndən sonra bu sözü İmam Xomeyniyə əminliklə söyləyəcəm: Nə qədər ki, sizlər burdasız, əsla narahat olmasın!"

Bu sözü eşidəndən sonra nə qədər sevindiyimizi bir Allah bilir. Zəhmətlərimizin imamı sevindirdiyini düşünmək hamımıza enerji verir, iradəmizi möhkəmləndirirdi. Rəcai danışıb qurtarandan sonra fotoaparatımı çıxarıb kollektiv şəkil çəkdirmək üçün ondan icazə istədim. Razılaşdı, birlikdə şəkil çəkdirdik. O gedəndən sonra xəstəxana Bəsicinin sədri gəlib dedi: "Siz kimin icazəsi ilə ağa Rəcai ilə şəkil çəkdirdiz?" Dedim ki, öz icazəsi ilə. Dedi: "Necə yəni öz icazəsi ilə?! Məgər bilmirsiz ki, o, rəhbər şəxslərdəndir və onunla şəkil çəkdirmək olmaz?!"

Cavabını vermək istəyəndə birdən fotoaparatı qamarlayıb lenti çıxardı. Onunla mübahisə edib dedim: "Biz burda yaşayırıq, daim yaralıların başı üstəyik, sizsə deyirsiz ki, təhlükəsizliklə əlaqədar olaraq, onunla şəkil çəkdirmək olmaz?! Bu nə deməkdir?! Yəni bizə inanmırsız?!"

Uşaqlara dedim: "Şəhid Behiştinin dəfninə çatmadım, kaş Şəhid Rəcai ilə Şəhid Bahünərin dəfnində iştirak edəydim!"

Mədə şəklinin xeyrindən keçib Zöhrə, Zəhra Fərruxnejad, Bilqeys və Əşrəflə birgə avtovağzala yola düşdük. Vaxt itirə bilməzdik. Onların Tehranda qalası yerləri yox idi. Qərara gəldik ki, bizə getsinlər. Allahın köməyi ilə dəfn mərasiminə çatdıq.

# İyirmi üçüncü fəsil:

## *"Ciyərim yanır, yezidlər"*

Tehrana gedəndən iki-üç gün sonra Fevziyə dedi ki, həmkarları ilə birgə cihadi iş məqsədi ilə düşərgəyə gedəcəklər. Məndən də gəlməmi istədi. Əvvəlcə Dəmavəndə bəzi əkinçilərin buğdasını biçməyə, sonra isə saray adamlarından birinə məxsus olmuş Firuzə qəsrinə gedəcəkdik. İkigünlük düşərgənin yerləşəcəyi yer ora idi. Fevziyə Tehrana məndən öncə gəlmişdi, bir müddət idi təhsil şöbəsi ilə əməkdaşlıq edirdi. Uşaqlarla birgə Dəmavəndə getdik. Böyük buğda tarlaları ilə dolu bölgə idi.

Səhər tezdən Tehranın Quruculuq cihadının uşaqları ilə birgə biçinə başladıq. Günortaya yaxın birdən gözlərim qaraldı, bədənim zəiflədi. Güclə otura bildim. Bir neçə dəqiqədən sonra Zöhrənin halı pisləşdi. Elə vəziyyətə düşdük ki, uşaqlar bizi bir tərəfdə yerə uzatdılar. Tehranın Quruculuq cihadının uşaqlarından biri zarafata dedi: "Siz əminsiz ki, döyüşçüsüz?! Bəs nə üçün hər ikiniz qəşş elədiz?"

Bu müddətdə nə qədər zəiflədiyimizdən xəbərsiz idilər. Sanki canımız çıxırdı. Fiziki qüvvəmin bu qədər azaldığını əsla düşünməzdim. Uşaqlar bizə şərbət hazırladılar, peçenye

verdilər və daha işləməyə qoymadılar. Axşamüstü qayıdana qədər əkin sahələrinin yanında oturub onlara tamaşa etdik.

Firuzə qəsrinə yollandıq. Ertəsi günümüz bir neçə dərslə keçdi. Günbatana yaxın hamımız evə qayıtdıq. Uşaqlar bir neçə gün bizə qonaq olandan sonra xəstəxanaya qayıtdılar, mənsə evdə qaldım. Xəstəxanadan bir ay yarım məzuniyyət almışdım. Doğrudan da istirahət edib özümə gəlməyə ehtiyacım vardı. Çoxdandır məzuniyyətə çıxmadığıma görə razılaşmışdılar.

Fevziyə Tehranda bir məktəbdə işə düzəlmişdi. Mənə də təklif etdi ki, gedib işləyim. Qəbul etsəydim, Abadanı və Taliqani xəstəxanasını yaddan çıxarmalı idim, ancaq yenə də təklifini bəyəndim. Onunla təhsil şöbəsinə getdik. Döyüşçü keçmişimdən danışanda çox yaxşı qarşıladılar. Məktəbdə işləmək istədiyimi söyləyəndə də fikrimi bəyəndilər. Həmin gün məni bir məktəbə göndərdilər. Sentyabrın ortaları idi, dərs ilinin başlanmasına bir neçə gün qalırdı. Təqdimatımı məktəbə aparıb sentyabrın 23-dən dərsə getdim.

Məktəb Fərəhzadda yerləşirdi, 7, 8 və 9-cu siniflərin bütün din dərslərini mənə vermişdilər. Məktəbimizin direktoru xanım Həsəni soyadlı çevik bir qadın idi. Mənim xuzistanlı və döyüşçü olduğumu bilib hörmət edirdi.

Hava hələ soyumasa da, məktəbin yerləşdiyi bölgənin havası digər yerlərdən soyuq idi. Hər gün səhər mantonun altından çoxlu paltar, üstündən də bir jaket geyinirdim. Buna baxmayaraq, səhərlər məktəbdə soyuqdan titrəyirdim. Saat 12 olanda dözə bilmir, soyuq və alaqaranlıq siniflərdən çıxmaq istəyirdim. İsti xurmalıqlarda böyümüş bir xuzistanlı qızı soyuq bir dağlığa atmışdılar. Fikirləşirdim ki, bir azdan qar və buz başlasa, mən bu yoxuşu necə çıxaram?!

Din dərslərindən əlavə, fars dilini də mənə vermişdilər. Uşaqlarla əlaqəm çox yaxşı idi. Bir sinifdə Fərəhzadə soyadlı bir şagirdim vardı, bugünkülərin dili ilə desəm, hiperaktiv idi.

Sinfə girən kimi arxamca gəlir, masamın arxasına keçənə qədər iki dəfə mayallaq aşırdı. Digər müəllimələr də ondan şikayət edirdilər. Deyirdilər ki, başına söz girmir, hamımızı bezdirib. Dərsi də çox zəif idi. Dəcəlliyinə görə uşaqlardan da uzaq düşmüşdü. Gördüm ki, bu uşaqla "etmə", "otur" dili ilə danışmaq mümkün deyil. Elə bir iş görməli idim ki, özü sakit olsun.

Onu sinif nümayəndəsi etdim. Onda yalnız əlaçı uşaqlar sinif nümayəndəsi olurdular. Bununla onda özünəinam yarandı. Dərslərin ortasında cəbhə xatirələrimdən də danışırdım. Mən danışanda heç kim, hətta Fərəhzadə də gözünü məndən çəkmirdi. Xəstəxanadakı yaralıların məzlumluğuna görə o günlərdə əsəblərim çox pozulmuşdu.

Yaralıların güclü ağrı qarşısında dözümlülüyündən danışanda uşaqların gözləri dolur, ağlayırdılar. Deyirdilər ki, xanım, onların bu qədər dözümlü olması, siz deyən yaralarla səslərinin çıxmaması inanılmazdır.

Əməliyyat otağına dair xatirələrim onlara çox maraqlı gəlirdi. Onlarlıq olsaydı, bütün dərs boyu xatirə dinləyərdilər. Bir-birimizə çox isinişdik. Fərəhzadda İmamzadə Saleh ziyarətgahı vardı, hərdən uşaqları ora ziyarətə və namaza aparırdım. Bəzən Fərəhzadın soyuğundan gileylənəndə deyirdilər: "Xanım, siz hələ nə görmüsüz?! Qışda qar yağanda dağdan canavar gəlir".

Yanvarın 27-si idi. Beş gün idi məktəbə gedirdim. Evə qayıdanda Kuşk binasında çaxnaşma vardı; biri əl çalırdı, biri fit çalırdı, biri də şənlik səsi çıxarırdı. Qonşuların biri şirniyyat paylayırdı. Anam və qonşular binanın dəhlizinə çıxmışdılar. Xanım Huşmənd tez-tez anamı öpüb deyirdi: "Xanım Vətənxah, inana bilmirəm; yəni həqiqətən, Abadanın mühasirəsi yarılıb?! Yəni biz şəhərimizə qayıda, əziz torpaqlarımıza gedə bilərik?!"

Qulaqlarıma inanmırdım. Bir il yarım müharibədən sonra nəhayət, uşaqlarımızın qələbə vaxtı gəlmişdi. İmam Xomeyni

bir müddət idi Abadanın mühasirəsini yarmağı əmr etmişdi. Allahın istəyi ilə əmri həyata keçmişdi. Cəbhə üçün çox darıxdım. Belə bir gündə orada, uşaqlarımızın yanında olmaq istəyirdim. Əgər məktəbə verdiyim öhdəlik olmasaydı, o saat Abadana yola düşərdim.

Xanım Huşmənd abadanlı idi, evləri Abadanın təhsil şöbəsinin yanında yerləşirdi. Abadan şəhəri ötən ilin 27 sentyabrında ilk dəfə bombalananda evləri vurulmuş, ailə üzvləri uçqunun altında qalmışdı. Onun 7 uşağı vardı: 4 oğlu, 3 qızı. Ailə qurmuş iki oğlu bombardmanda yerindəcə şəhid olmuşdu. Doqquzaylıq hamilə olan bir qızı da şəhid olmuşdu. Digərləri isə ağır yaralanmış, yurd-yuvalarından didərgin düşmüşdülər.

Xanım Huşmənd üz və çənə nahiyəsindən ağır xəsarət almışdı, bir il ötməsinə baxmayaraq, yarasının yeri qalmışdı. Onların hamısını Şirazda xəstəxanaya aparmış, oradan da Tehrana İmam Xomeyni xəstəxanasına göndərmişdilər. Ağa Huşmənd bombardmandan 6 ay sonra partlayış dalğasının təsirindən şəhadətə qovuşmuşdu. Xanım Huşmənd indi Abadanın mühasirəsinin yarıldığını eşidib tez-tez anama deyirdi: "Yəni mümkündür?! Yəni mən uşaqlarımın qəbri üstə gedə biləcəm?! Sən Allah, düzdür?! Uşaqlar orda qəribdirlər. Mən dəfnlərində yox idim, heç olmasa, indi onlara baş çəkərəm".

Çox sevinirdim, həddən artıq. Bir Abadanın mühasirəsinin yarıldığına, bir də bu qələbə ilə Xürrəmşəhrin azadlığına ümid yarandığına görə. Xanım Huşmənd ərəblərə xas şənlik səsi çıxarırdı. Müharibədən sonra ilk dəfə idi ətrafımdakıları bu qədər sevincək görürdüm. İki gün sevincimizdən göylərdə uçduq.

Sentyabrın 29-da məktəbə hazırlaşanda qapımız döyüldü. Aşçı Maşallanın böyük oğlu Məhəmməd idi, rəngi qaçmışdı.

Maşallanın Xürrəmşəhrdə bir aşxanası vardı, aşı çox gözəl olurdu. Müharibədən sonra o da ailəsi ilə birgə Kuşk binasına gəlmişdi. Məhəmmədin özü Xürrəmşəhr korpusundan idi, Tehrana ailəsinə baş çəkməyə gəlmişdi. Qapını açan kimi mənə dedi:

- Məhəmməd Cahanara şəhid oldu!

Şok keçirmiş adamlar kimi yerimdə donub qaldım. Dedim:

- Bu nə sözdür danışırsan?! Ayıbdır! Cəmi iki gündür Abadanın mühasirəsi yarılıb, sən də deyirsən ki, Məhəmməd şəhid oldu?!

- Vallah, doğru deyirəm. Məhəmməd şəhid oldu. Bədbəxt olduq! Evimiz yıxıldı...

- Bu nə sözdür?! Bunu münafiqlər deyirlər. Necə də rahat danışırsan!

Sonra cavab gözləmədən qapını üzünə çırpdım.

Anam dedi:

- Sabah, kim idi?

- Aşçı Maşallanın oğlu Məhəmməd.

- Səhər tezdən nə işi vardı?

- Heç, əşi, dəli olub! Səhər tezdən gəlib deyir ki, Cahanara şəhid oldu.

- Kül başıma!.. Bəlkə doğru deyir!

- Yox, əşi. Məgər Cahanara birdən-birə necə şəhid ola bilər?! Bu oğlan ağzına gələni danışır.

Sözünə inanmasam da, halım çox pisləşdi. Yaxşı iş görməmişdim. Həm ona "ayıbdır" demişdim, həm də qapını üzünə bağlamışdım. Lakin heç biri əlimdə deyildi. Anam dodaqaltı salavat deyirdi. Süfrəni sərmişdi, mənə çay süzürdü. Atamla uşaqlar hələ yatmışdılar.

Məktəbə geciksəm də, qərara gəldim ki, səhər saat səkkizin xəbərlərini dinləyim. Saat səkkiz olunca sanki günün yarısı keçdi. Salam verəndən sonra diktorun ilk xəbəri bu oldu:

“Müdafiə Nazirliyinin Quru Qoşunlarının C130 təyyarəsi Tehranın Kəhrizək bölgəsində qəzaya uğrayıb, Fəllahi, Namcu, Fəkuri, Kolahduz və Cahanara kimi yüksək rütbəli bir neçə komandir şəhadətə qovuşub!” Diktorun dediyinə görə, bu komandirlər şəxsi heyətlərinin fəaliyyətlərini İmam Xomeyniyə məruzə etməkdən ötrü Tehrana gəlirmişlər. Yolda təyyarə qəza keçirmiş, hamısı şəhid olmuşdu.

Cahanaranın şəhid olduğunu eşidəndən sonra sanki gürzlə başıma vurdular. Bir anlığa o qədər pis oldum ki, Əlinin əsirlikdə şəhid olduğunu eşitsəydim, o qədər pis olmazdım. Məhəmməd Cahanaranın yaşı çox deyildi, ancaq Xürrəmşəhr korpusunun uşaqları və şəhərin müdafiəçiləri üçün ata əvəzi idi. Bu xəbərə əsla inanmaq istəmirdim.

Artıq həm Xürrəmşəhri itirmişdik, həm də Cahanaranı. Abadanın mühasirəsinin yarılmasının şirinliyi zəhərə döndü. Anamla birgə ucadan ağlamağa başladıq. Onun gedişi ilə sanki böyük bir səngəri əldən vermişdik; elə bir səngər ki, Xürrəmşəhrin azadlığına qədər müqavimət göstərməli idi.

Müqavimət günlərində, şəhərin işğalından sonra, hətta inqilabdan bu günə qədər hər yerdə Məhəmməd Cahanaranın kölgəsi uşaqların başı üstə idi. O, hamımıza arxa-dayaq sayılırdı; hətta onunla birbaş əlaqədə olmayan bizlərə də.

Ürəyimdə tufan idi. Qəribə hisslər keçirirdim. Artıq hiss edirdim ki, doğrudan da Tehranda qala bilmərəm. Ürəyim yerindən qopurdu. Səhər aşçı Maşallanın oğlu ilə davranışım yadıma düşdü, çox xəcalət çəkdim. Allah bilir, yazıq, Cahanaranın şəhid olduğunu hardan öyrənib bizə gəlmişdi. Onda Kuşk binasında Xürrəmşəhrdən çoxlu ailə qalırdı. Lakin bizim ailəmizin bütün üzvləri müharibə ilə yaxından təmasda olan azsaylı ailələrdən idi. Atam yaralanmış, Əli əsir düşmüşdü. Fevziyə ilə məndən başqa Salehə və Şahnaz da bölgədə idilər. Yəqin, zavallı Məhəmməd dərdinə şərik olmağımızı, ona

təskinlik verməyimizi gözləyirmiş. Qərara gəldim ki, onu görüb rəftarıma görə üzr istəyim.

Anama dedim ki, gedib xəstəxanaya zəng vuracağam, görüm vəziyyət necədir. Zeynəddinin ofisindən zəng vurdum. Xəstəxanadakı uşaqların da vəziyyəti bizim kimi pis idi. Sanki hamımız yetim qalmışdıq. Cahanaranın şəhadətindən sonra Xürrəmşəhrin azadlığına ümidimizi itirdik. Onun kimi qayğıkeş birini tanımırdıq ki, şəhəri geri almaq üçün canından keçməyə hazır olsun. Uşaqlar deyirdilər ki, burada ümumi matəmdir. Orada olmağı çox arzulayırdım. Birlikdə olanda belə itkilərə daha asanlıqla dözə bilirdik.

Televiziyadan elan etdilər ki, bu şəhidləri, o cümlədən Cahanaranı Tehranda dəfn edəcəklər. Yoldaşı və uşaqları o vaxt Səttarxan prospektindəki iyirmidördmərtəbəli binalarda qalırdılar.

Əzəmətli bir dəfn mərasimi baş tutdu. Şəhid Məhəmməd Cahanara Behişti-Zəhra (ə) məzarlığının 24-cü sırasında, Şəhid Əli Qəyurəsli kimi komandirlərin məzarlarının yaxınlığında dəfn edildi.

***

Tədrisə başlayandan bir ay sonra qulaqdibi xəstəliyinə tutulub evdə yatdım. Dörd-beş gün güclü qızdırmam oldu, boğazım şişdi. Halım yaxşılaşandan sonra anamla atama dedim ki, Abadana qayıtmaq istəyirəm. Dedim ki, Tehranın ab-havası mənə düşmür, onun soyuğuna dözə bilmirəm. Yazıq anam məktəbdə işlədiyimə, onların yanında qaldığıma görə çox sevinirdi. Əvvəlcə nə qədər dedimsə, razı olmadılar. Deyirdilər ki, heyifdir, indi ki məktəbdə işə düzəlmisən, buraxıb getmə. Deyirdilər ki, müəlliməliyin gələcəyi var, qalsan, bir qədər sonra səni rəsmi işə götürəcəklər.

Doğru deyirdilər, ancaq mən həqiqətən də Tehranda davam gətirə bilmirdim. Tehranın vəziyyəti və havası mənim təbiətimlə

uyğun gəlmirdi. Münafiqlərlə və azğın qruplarla küçə mübahisələri, çoxlu qadın və qızların hicabsızlığı, müharibənin və döyüşçülərin vəziyyətindən heç bir xəbəri olmayan insanların biganəliyi məni incidirdi. Bundan əlavə, şəhərimi itirmişdim, səngər yoldaşlarım bir-bir gedirdilər.

Daha bundan artıq dözə bilmirdim. Uşaqların yanında olub cəbhəyə xidmət etmək istəyirdim. Orada əzizlərimdən kilometrlərlə uzaqda olurdum, amma yaralı və döyüşçülərə xidmət etmək məni sakitləşdirirdi, ən azı, vicdan əzabı çəkmirdim. Mən cəbhə məsələlərinə əsla laqeyd yanaşa bilmirdim. Abadanda olanda Xürrəmşəhrə daha yaxın olduğumu hiss edir, ondan ötrü daha az darıxırdım. Bütün bunlara görə atamla anamı razı salıb qayıtdım.

Məktəbə sağollaşmağa gedəndə uşaqlar məni dövrəyə alıb xahiş edirdilər ki, getməyim. Bəziləri hətta ağlayırdı da. Mən də onları çox sevirdim, onlar üçün darıxacağımı bilirdim. Xanım Həsəni də çox narahat idi, deyirdi ki, buradan getmənizi istəmirəm, həm də indi yerinizə müəllim tapmaq çətindir. Buna baxmayaraq, dedim ki, qala bilmirəm və Xuzistana qayıtmalıyam.

Evdə Firdovsla Möhsün yalvarmağa başladılar ki, bizi də Abadana apar. Çox dedim ki, sizin məktəbiniz var, olmaz; dedilər ki, anam icazə alacaq. O zaman məktəbdə qaçqın uşaqlara qarşı çox da tələbkarlıq etmirdilər, hamı bilirdi ki, evləri başqa yerdədir, bəzən harasa gedib-gəlirlər. Atamla anamın razılığı ilə qərara gəldik ki, onları bir neçə günlüyə Abadana aparım, sonra Tehrana qaytarım.

Abadanın mühasirəsi yarıldığına görə Mahşəhr-Abadan magistralı ilə gedə bilərdik. Buna görə Sərbəndərə avtobus bileti aldım. Oradan Xürrəmşəhr korpusunun uşaqlarından birinin maşını ilə Abadana getdik. Bu magistral bir ilə yaxın idi iraqlılarda idi. Ətrafı düşmən səngərləri ilə dolmuşdu. Onların

möhkəm beton səngərləri bizim səngərlərimizdən çox fərqlənirdi. Yolun kənarında yanmış düşmən tankları da görünürdü. Möhsün tank və səngərləri görüb vəcdə gəlmişdi, dayanmadan danışırdı. Ona hər şey təzə idi. Yanmış tankları Firdovsla mənə göstərir, ucadan "Allahu-əkbər" deyirdi.

Bütün magistral mərmi və raket atəşlərindən yaranmış çala-çuxurlarla dolu idi. Maşın tez-tez çalaya düşürdü. Möhsünün sevindiyini görüb sevinirdim. Onu özümlə apardığıma təəssüflənmirdim. Sürücü də Möhsünün necə sevindiyini görüb həmin istiqamətdəki əməliyyatdan sadə dillə bəzi xatirələr danışırdı. Möhsündən çox xoşu gəlmişdi, deyirdi ki, maşallah, nə şirin oğlandır, Allah saxlasın!

Taliqani xəstəxanasındakı uşaqlar bizi həyətdə qarşıladılar. Abadanın mühasirəsinin yarılması münasibəti ilə təbriklər Cahanaranın şəhadəti münasibəti ilə başsağlığına qarışmışdı. Bununla yanaşı, Abadanın mühasirəsinin yarılmasından yaranmış xoş qələbə hissi hamımızın ovqatına müsbət təsir etmişdi. Salehə bizdən bir müddət öncə Abadana gəlmişdi. Məni və Firdovsla Möhsünü görüb çox sevindi. Uşaqları özümlə gətirəcəyimi gözləmirdi.

Uşaqlarla birgə palataya getdik. Firdovs yaralılara yaxınlaşıb hallarını soruşur, bir şeyə ehtiyacları olub-olmadığını öyrənirdi. Onda cəmi 15 yaşı olsa da, Qaçqınlar komitəsinin Sərbəndər məscidindəki əməkdaşlarına həmişə kömək etmişdi. Söz verdim ki, sabah onları cəbhəyə aparacağam.

Palatadakı xəstələr arasında laparotomiya əməliyyatı olunmuş bir məsihi əsgər vardı, NPO vəziyyətində[1] idi, yaxşı

[1] Güclü enerjili travma almış yaralılar NPO yaralıları adlanırlar. Belə yaralılara su və şərbət kimi qida maddələri vermək olmaz. Aldıqları zərbədən bədənləri qeyri-zəruri üzvlərə qan çatdırma şəbəkəsini dayandırır və nəticədə, mədə vasitəsi ilə heç bir şey bədənə cəzb olunmayıb orada da qalır.

deyildi. Bütün belə xəstələr kimi ona da iki-üç gün maye vermək olmazdı. Tibb bacıları deyirdilər ki, vəziyyəti çox ağırdır, qarnında bir şey qalmayıb, dalağını, bir böyrəyini, mədə və bağırsaqlarının yarıdan çoxunu götürüblər. On iki barmaq bağırsağı da yarılmışdı. Onu palataya yeni gətirmişdilər. Susuzluqdan yanırdı. Bir tənzif isladıb dodağına çəkdim. Faydası yox idi. Dayanmadan yalvarıb su istəyirdi. Hava da çox isti idi, palatada sərinləşdirici bir şey yox idi. Bir parça kartonla ona bir qədər sərin verdim.

Rəngi qaçmışdı, halsız idi. Sanki gözləri hədəqəsindən çıxacaqdı. Dözümsüzlüyü hər an artırdı. Deyirdi ki, bacılar, xahiş edirəm, bir qurtum su verin. Nəmli tənzifi sormağa çalışdı, bir şey çıxmadığını görüb yenidən qışqırdı, su istəməyə başladı. Bir qədər sonra yavaşca dedi: "Yezidlər, axı nə üçün mənə bir qurtum su vermirsiz?!.. Ciyərim yanır, yezidlər... Siz necə rəhimsizsiz..."

Onun sözlərindən sonra ağlamağa başladım. Məsihi olsa da, İmam Hüseynin (ə) susuzluğunu xatırladırdı. Hamımız təsirləndik. Sanki bizə rövzə oxuyurdu.

Daha dözə bilmədim, həkiminə zəng vurub məsələni söylədim. Soruşdum ki, ona stəkanın dibində bir qədər su verim, yoxsa yox? Həkim dedi ki, yalnız stəkanın dibində olsun. Qaçıb bir stəkan götürdüm, dibinə bir qədər su töküb yaralı cavana apardım. Başını qaldırıb azca suyu qurtum-qurtum ağzına tökdüm. Baxışı ilə mənə təşəkkür etdi.

O, yarım saatdan sonra şəhid oldu. Ürəyim yandı, ancaq dünyadan susuz dodaqla getmədiyinə görə sevinirdim.

Axşam Möhsünü korpus uşaqlarının yerləşdiyi evə apardım, Firdovs da xəstəxanada yanımda qaldı. Ertəsi gün uşaqlarla birlikdə Fəyyazi cəbhəsinə getdik. Orada innab ağacları vardı. Xuzistanlılar innabı çox sevirlər. Uşaqlarla birgə bir qədər toplayıb yedik. Möhsün döyüşçülərin səngərini görüb çox

sevinirdi. Yerə dəyib partlamamış raketi görəndə o qədər həyəcanlandı ki, dayanmadan oyan-buyana qaçırdı.

Uşaqlar təxminən on gün qaldılar. Firdovs mənim yanımda qalırdı, Möhsün daha çox Salehənin yanında. Möhsünün həmin günlərdən maraqlı xatirələri var. O deyir: "Çayla üzbəüz evin yerləşdiyi prospektin sonunda qalan ərəb qonşulardan biri daim ərəbcə radionun səsini ucaldırmış. Nə qədər etiraz edirmişlərsə, faydası olmurmuş. Bir gün çayın o tərəfindən qumbaraatanla kişinin evini vururlar. Ev sakinlərindən heç kim xəsarət almır, ancaq maqnitofonun səsi nəhayət, kəsilir".

Uşaqlar Tehrana qayıtmalı idilər. Salehə onlarla qayıtdı. Firdovsun qanı qara idi, qayıtmaq istəmirdi, ancaq başqa yol yox idi.

# İyirmi dördüncü fəsil:

## *Şəhərimin azadlığı*

Abadanın mühasirəsi yarılandan sonra uşaqların çoxu xəstəxanaya qayıtdı. Abbasi bacıları və Xədicə Bazun kimi uşaqlar o vaxta qədər ailələrinin yanında idilər.

Digər şəhərlərə köçmüş abadanlı və xürrəmşəhrli şəhid ailələri yavaş-yavaş Abadana əzizlərinin məzarını ziyarət etməyə gəlirdilər. Buna görə Abadanda üçmərtəbəli bir evdə Şəhidlər oteli adlı bir mehmanxana təşkil etdilər. Hərdən xəstəxanada işimiz az olanda ora şəhid ailələrini görməyə gedir, hərdən də onlarla birgə Abadanın Şəhidlər gülzarı məzarlığına yollanıb yaxınlarını ziyarət edirdik.

Yavaş-yavaş Taliqani xəstəxanasının tibb heyətinin xəstəxanada qalmaları icbari oldu. Əsas heyət qayıtdığına görə işimiz bir qədər yüngülləşdi.

Bir gün Şəhid Hüseyn Ələmülhüdanın anasının xəstəxanaya gəldiyini eşitdik. Hüseyn Ələmülhüda imam xəttinin ardıcılı olan tələbələrdən idi, 1981-ci ilin 6 yanvarında Hüveyzədə şəhadətə qovuşmuşdu. Onun və döyüş yoldaşlarının şəhadəti uzun müddət dilimizdən düşmədi.

Eşitdiyimizə görə, iraqlılar onları tankla mühasirəyə almışdılar. Şəhid Ələmülhüdanın adamları da patronları qurtarana kimi onlarla vuruşmuşdular. Silah-sursatları bitəndən sonra iraqlılar tanklarla onlara doğru irəliləmiş, özlərinin və səngərlərinin üstündən keçmişdilər.

Şəhid Ələmülhüdanın anası mehriban və mömin qadın idi, ürəkaçan üzü iman nurundan parlayırdı. Gülər üzlə və xoş sözlərlə bizimlə görüşə gəldi. Rəftarı elə idi ki, sanki biz onu deyil, o bizi qarşılayırdı. Uşaqlar onu dövrəyə aldılar. Hamı onunla danışmaq istəyirdi.

Təxminən əlliyaşlı bir qadın idi. Deyirdi ki, Abadanın Şəhidlər gülzarını ziyarət etməyə gəlib, əvvəlcə xəstəxanaya baş çəkib işçilərinə təşəkkür etmək istəyib. Yanında bir neçə qadın da vardı.

Xanım Ələmülhüda bir yaralının çarpayısına yaxınlaşdı, dua etdi ki, tezliklə sağalsın. Bir neçə yaralıya da yaxınlaşıb hallarını soruşdu. Yaralılar Şəhid Ələmülhüdanın anasının onlara baş çəkdiyini bilib çox sevinir, ruhlanırdılar. Bizə oğlu Hüseyndən də danışmasını gözləyirdik, amma ondan heç bir söz demədi, ancaq hamıya xeyir-dua verdi. Sözünün kəsəri o qədər güclü idi ki, hər cümləsi eşidənlərin ruhuna hopurdu. Onun gəlişindən sonra xəstəxananın ab-havası həqiqətən, dəyişdi.

Onu həyətdə yola saldıq. Həyət qapısının ağzında üzünü bizə tutub dedi: "Sizdən bir xahişim var. Şəhidlər gülzarına getməzdən öncə xəstəxanadakı şəhidlərin cəsədini görə bilərəm?"

Birlikdə dondurma zavodundakı morqa getdik. Təxminən yeddi-səkkiz nəfər idik. Morqun qapısını açdılar, içəri girdik. Xanım Ələmülhüda salavat deməyə başladı. Birdən üzü qızardı, halı dəyişdi. Həmin halda dedi: "Allah şahiddir ki, ayağımı bu morqa qoyanda Kərbəlada İmam Hüseynin (ə) qətlgahını ziyarət edərkən duyduğum ətrə bənzər bir ətir duydum".

Bunu dedi və gözlərindən yaş axmağa başladı. Hamımız ağladıq. Bir qədər sonra dedi: "Şəhidlərin ruhlarının şadlığı üçün salavat deyin və fatihə oxuyun". Sonra morqdan çıxdıq. Sağollaşanda hamımıza bəzi tövsiyələr verdi:

- Nə qədər ki bədənimizdə can var, gərək inqilabı və imamı qoruyaq. Son ana qədər müqavimətdən əl çəkməyin.

Bu sözləri elə bir adam deyirdi ki, düşmən onun övladını ən pis şəkildə qətlə yetirmişdi. Sözlərinə əməl edən olduğuna görə bütün tövsiyələri ürəyimizə otururdu. Rəftarı doğrudan da həzrət Zeynəb kimi idi.

***

Bir gün xəstəxanada adımı çağırdılar. Tibb bacısı guşəsinə getdim. Dedilər ki, qonağın gəlib, aşağıda səni gözləyir. Çox təəccübləndim. Bizə baş çəkməyə gəlmiş Şahnazı da çağırdım ki, birlikdə gedək. Pillələrdən enə-enə Hacı İslamini gördük.

Hacı İslami İmam Xomeyninin Xuzistan və Lorustan korpuslarındakı nümayəndəsi idi. Onu görüb çox sevindik. Dedi ki, sizi sağ-salamat görməyimə şadam. Sonra ata-anamı və digər bacılarımızı soruşdu. Dedim ki, Allaha şükür, hamısı yaxşıdır, Tehranda qalırlar. Bir problem olub-olmadığını soruşdu. Dedim ki, hər şey qaydasındadır. Bir neçə dəqiqə söhbətləşəndən sonra evinin ünvanını verib dedi ki, mütləq xanımına baş çəkək. Dedi ki, o da təkdir, sizi görüb sevinəcək. Evləri Əhvazın Zeytun qəsəbəsində yerləşirdi.

Bir neçə gündən sonra İslaminin xanımına və uşaqlarına baş çəkmək qərarına gəldik. Yeddinci stansiyada post vardı, körpünün o biri tərəfinə keçmək üçün icazə vərəqəsi almalıydıq; qayıdanda da həmçinin. Şahnazla birgə sırada dayanıb növbəmizi gözləyirdik. Bu zaman yerli ərəblərdən birinin o tərəfdə hirslənib deyindiyini gördük. Post patrulları onu Abadana buraxmırdılar, deyirdilər ki, gərək icazə vərəqən olsun. Kişinin 40 yaşı olardı, uzun ərəb köynəyi ilə bir pencək

geyinmişdi. Yazıq əsəbi halda yalvara-yalvara deyirdi: "Özün burda! Xanımın burda! Uşaqların burda! İşin-gücün burda! Axı niyə qoymursan?"

Demək istəyirdi ki, mən burada yaşayıram, ailəm, evim buradadır, nə üçün məni buraxmırsız? Mən ora gedib-gəlməliyəm, hər dəfə icazə vərəqəsi ala bilmərəm. Bunlara baxmayaraq, onu buraxmırdılar. O da israrla deyirdi ki, mən indicə burdan keçmişəm.

Səsindəki səmimilik ona kömək etdi və postdan buraxdılar. Ciddi yoxlanış beşinci kolona görə yaradılmışdı. Biz də icazə vərəqəsi alıb keçdik. Mikroavtobusla Əhvaza İslaminin evinə getdik. Xanım İslami bizi görüb çox sevindi. Bu qərib şəhərdə dost-tanışlarından kimisə görəcəyini əsla düşünmürmüş.

İslaminin ürəkaçan evi - böyük bir həyəti, dörd-beş otağı və zalın küncündə xəlvət mətbəxi vardı. Xanım İslami dedi ki, yoldaşım evə gələndə bura vəzifəli şəxslərlə dolur. Dediyinə görə, bütün müddəti bişirib-düşürür, qonaqlara qulluq edir. Əlbəttə, öz xarakteri elə idi; daim hərəkətdə idi, bir an da sakit qalmırdı; ya bişir-düşürlə məşğul olurdu, ya təmizliklə, ya da uşaqlara qulluqla. Maşallah, çox zirək qadın idi! O zaman onların beş oğulları vardı: Birinci oğlu Mehdi beşinci snifdə oxuyurdu, ikinci oğlu Möhsün idi, sonra da Hadi və Əhməd adlı əkizlər gəlirdi. Sonuncu oğulları o zaman südəmər körpə olan Mürtəza idi. Beş uşağın işlərini yerbəyer etmək üçün çoxlu vaxt lazım idi, o ki qala bu qədər də qonaq yola salmağa. Axşamüstünə qədər deyib-güldük. Xanım İslami deyirdi ki, gəldiyinizə görə əhvalım çox dəyişdi, çoxdan idi heç kimlə bu qədər həmsöhbət olmurdum.

Axşamüstü İslami evə gəldi. Bizi görüb çox sevindi və çox səmimi qarşıladı. Sonra xanımına dedi ki, hazırlıq görsün, axşama Tehrandan bir neçə qonağı gələcək.

Xanım İslami mətbəxə keçib yemək hazırlamağa başladı. Axşam qonaqlar gəldilər. Mirhüseyn Musəvi bir heyətlə İslaminin qonağı idi. Mətbəxlə qonaq otağının arasında taxta divar vardı, içindən bir neçə rəf çıxarmışdılar. Xanım İslami rəflərə kitab, Quran və canamaz düzmüşdü. Rəflərin arasında kiçik bir dəlik vardı, oradan qonaq otağını görmək olurdu. Xanım İslami ilə birgə qonaqlara baxdıq. Baş nazirin onlara qonaq gəlməsi mənə maraqlı idi. Nə danışdıqlarını, nə iş gördüklərini bilmək istəyirdik. Ağa İslami mətbəxə çay aparmağa gələndə ikimizin də dəlikdən baxdığımızı görüb güldü və dedi: "Siz burda nə edirsiz?! Yaxşı deyil, keçin bu tərəfə". Çox utandım. Fikirləşdim ki, indi deyəcək, bu da qəribə qızdır! Tez kənara çəkildik. Dedim ki, bağışlayın. Xanım İslami dedi: "Baş naziri görmək istəyirdik".

Ağa İslami dedi: "İnsan övladının nəyini görəsiz, xanım?!"

İki-üç gün onlarda qalıb Abadana qayıtdıq.

***

Zülfüqari cəbhəsindən çıxandan sonra doktor Mustəfəvini, Abadanın mühasirəsi yarılandan sonra da doktor Səadəti görmədim. Doktor Mustəfəvinin Şiraza qayıtdığını, yoxsa başqa bir cəbhəyə getdiyini bilmədim. Sonralar öyrəndim ki, doktor Səadət bir səhra hospitalında xidmət edirmiş.

Şahnaz 1981-ci ilin oktyabrında Kürdüstanın Sənəndəc şəhərində bir məktəbdə işə başladı. Müəllimlərə şəhərin hərbi hissələrindən birində yer vermişdilər. Bir dəfə bizi görməyə gələndə onunla Sənəndəcə getmək istədiyimi söylədim. Müvəqqəti aparmağa razı oldu.

Xəstəxananın bütün işçiləri, habelə abadanlı və xürrəmşəhrli təcili yardımçıların çoxu qayıdandan sonra xəstəxananın işi azaldı. Mən də qərara gəldim ki, daha çox və daha faydalı işlər görə biləcək bir yerdə olum.

Bu baxımdan, Sənəndəcdə xidmət ən yaxşı seçim idi. Hörgütlərə, Demokrat partiyasına və onların ağız-ağız dolaşan cinayətlərinə görə ora getmək istəyən az idi. Yalnız böyük bir problem vardı: kəskin soyuq. Mən Fərəhzadın soyuğuna dözə bilmədiyimə görə Sənəndəcin soyuğunda nə edəcəyimi bilmirdim.

Avtobusla Həmədana getdik. Yol təhlükəli olduğuna görə avtobus gecəni Həmədanda qalıb, səhər tezdən Kürdüstana yola düşdü. Günortadan qabaq Sənəndəcə çatdıq. Şəhərdə orduya məxsus bir hərbi hissədə qaldıq.

İki-üç gündən sonra səhər çağı Sənəndəc korpusuna gedib tibb mərkəzində işləmək istədiyimi bildirdim. Bu işlə məşğul olan isfahanlı bir pasdar tərcümeyi-halımı soruşdu. Dedim ki, Xürrəmşəhrdənəm, şəhərin müdafiəçilərindən və təcili yardımçılarından olmuşam, bir neçə ay Abadanın Taliqani xəstəxanasında xidmət etmişəm. Bir qədər də ailə vəziyyətim haqda danışdım.

Sənəndəc kimi təhlükəli bir şəhərdə qalmaqda məqsədimi soruşanda dedim ki, bir bacım buradadır, mən də belə həssas şəraitdə xidmət etmək istəyirəm. Dedi: "İstədiyiz zaman işə başlaya bilərsiz".

Həmin gecə səhərə qədər atışma səsi gəldi. Səhər eşitdik ki, Demokrat partiyasının və hörgütün üzvləri bir kəndə girib məscidin imamını tutmuş, əl-ayaqlarını bağlayıb çoxlu Quran və dua kitabı ilə birgə diri-diri yandırmışlar. Sonra da bir neçə pasdar və bəsici ilə imamı xilas etməyə gəlmiş iki-üç müsəlman kürd peşmərgənin başını kəsmişdilər.

Həmin gün elan etdilər ki, sabah şəhidlərin dəfn mərasimidir. Dəfn günü Şahnaz məktəbə getdi, dedi ki, dəfnə gələcək. Mən də tək getməli oldum. Şəhidləri səhər saat 10-da came məscidindən götürəcəkdilər. Şahnaz yolu göstərmişdi. Hərbi hissədən məscidə qədər taksi ilə bir neçə dəqiqəlik yol vardı.

Deyilən vaxtdan təxminən 40 dəqiqə qabaq ora çatdım. Məscidin önündə heç kim yox idi; nə Şahnaz gəlmişdi, nə də kimsə toplaşmışdı.

Bir neçə dəqiqə məscidin önündə gəzişdim, ancaq heç bir xəbər olmadığını görüb içəri girmək qərarına gəldim. O vəziyyətdə küçədə ondan artıq qalmaq təhlükəli idi. Bir gün qabaq Şahnaz, Məryəm və Hacər adlı dostları ilə birgə parça almağa getmişdik. Mağazaların birində parçadan xoşumuz gəldi və aldıq. Mağazaya girəndən satıcının baxışından çox əziyyət çəkirdim. Mağazadan çıxanda qəliz kürd ləhcəsilə mənə dedi: "Heyif ki, səni qartal yuvasına salıblar, heç kimin əli çatmır. Gərək səni dağa aparaydılar..."

"Qartal yuvası" deyəndə hərbi hissəni nəzərdə tuturdu. Yerli əhali bilirdi ki, məktəblərin gəlmə müəllimələri orada qalırlar. Bilirdim ki, cavabını vermək istəsəm, qalmaqal yaranar. Buna görə dodaqaltı dedim: "Ağılsız əclaf! Qərib adam görüb!" Sonra bayıra çıxdım. Şahnaz satıcının sözündən qorxub qulağıma dedi: "Vay, bacı! Kül başıma! Birdən burda səni oğurlayarlar, bədbəxt olaram!"

Məscidə girdim. Məscidin həyəti də boş idi. Pəncərədən içəri baxdım. Üstünə bayraq çəkilmiş yeddi-səkkiz tabut vardı. Tabutların dövrəsində də bir neçə pasdar oturmuşdu. Pasdarları görüb ürəkləndim, ayaqqabılarımı çıxarıb məscidə girdim. Hələ şəhidlərin tabutuna yaxınlaşmamış pasdarların biri tez yerindən qalxıb mənə doğru gəldi, qeyzlə və qəliz İsfahan ləhcəsilə dedi: "Çıx bayıra, bacı, çıx bayıra! Sizə kim icazə verib bura gələsiz?!"

Üz-gözünü elə turşutdu ki, pis oldum. Sanki məscidi murdarlamışdım. Kövrəldim. Əsla belə rəftar gözləmirdim, özü də bir pasdardan. Məgər hansı günahı etmişdim ki, digərlərinin önündə məni təhqir edirdi?! Artıq orada bir an da qalmaq istəmirdim. Küçəyə çıxıb məscidin önündə dayandım. Şahnazın gəlməsi yarım saat çəkdi.

Həmin pasdarın sir-sifəti və rəftarı gözlərim önündən getmirdi. Şahnaz gələndən sonra baş verənləri söylədim. Təəccüblə mənə baxıb dedi: "Vay canım! Sabah, sənə kim dedi ki, məscidə girəsən?! Məgər bilmirsən ki, burda qadının məscidə girməsinə pis baxırlar?!"

Əsla başa düşmədim. Dedim: "Sən nə danışırsan?! Halın yaxşıdır?! Məgər bunun nə eybi var?!" Şahnaz dedi: "Sən onların ən zəif nöqtələrinə toxunmusan. Burda qadının məscidə girməsinə pis baxırlar, sənsə birbaş kişilərin içinə girmisən!"

Məscidin önünə çoxlu adam toplaşdı. Məzarlıq uzaqda deyildi, ancaq təxminən bir saat zaman aldı. Pasdar və bəsicilər bütün yolboyu camaatın ətrafında gəzirdilər ki, münafiqlərdən kimsə hücum etməsin.

Ertəsi gün Şahnaz məktəbdən icazə aldı, ikimiz də Tehrana qayıtdıq. Şahnazın icazəsi bitəndən sonra mən də onunla qayıtmaq istəyirdim, amma qoymadı. Parçasatanın sözündən çox qorxmuşdu, mənə görə narahat idi. Onunla çox danışdım, amma razı olmadı. Çarəm yox idi. Sənəndəcdə xidmətin xeyrindən keçib bir neçə gündən sonra Abadana qayıtdım.

Bütün qışı Taliqani xəstəxanasında digər uşaqlarla birgə yaralılara yardım etməklə keçirdim. Cahanara şəhadətindən öncə Xürrəmşəhr korpusundakı xanımlardan ibarət təxminən onbeşnəfərlik bir qrupu xəstəxanaya yerləşdirmişdi.

Bu müddətdə yalnız bir neçə günlüyə Tehrana getdim. Tehran korpusundan Məhəmməd Əsami adlı bir pasdar Firdovsu korpusda və Firuzə qəsrində görmüş, evimizin ünvanını tapmışdı. Firdovs onda Şəhid fondu tərəfindən könüllü şəkildə sənədlərin arxivləşdirilməsinə kömək edir, korpusa gedib-gəlirdi. Firdovsa elçi gələndə mən Tehranda idim. Ailəmizdə böyük qızlar evlənmədikcə kiçik qızı ərə vermək adəti olmasa da, Məhəmməd həm şəhid qardaşı, həm də dindar və nəcabətli ailədən idi. Atam araşdırıb dedi ki, yaxşı

ailədəndir. Bütün məsələlər razılaşdırılandan sonra 11 fevral axşamında Tehranda bir oteldə nişan və toyları oldu. Yeni evləri Ceyhun prospektində yerləşirdi.

Firdovsun toyundan sonra xəstəxanaya qayıtdım. Yaralılara yardım işimiz davam edirdi. Bir dəfə xəstəxanaya iki yaralı əsgər gətirdilər. Bir neçə yüngül qəlpə yarası almışdılar. Onlara tibbi yardım göstərəndə biri yaralanma macəralarını danışdı. Qəribə hadisə idi. O deyirdi:

"Altı-yeddi nəfər səngərdə oturmuşduq. Birdən iri bir siçan səngərə girib üstümüzə cumdu. Biz bir-bir səngərdən çıxıb bir qədər aralıda dayandıq, siçanın çıxmasını gözlədik. Bu zaman düz səngərin üstünə bir raket düşdü. İlahi yardımı hamımız öz gözlərimizlə gördük. Həmin siçan Allah tərəfindən göndərilmişdi ki, bizi səngərdən çıxarsın və başımıza bir iş gəlməsin. Bizə yalnız bir neçə qəlpə qismət oldu".

Bir dəfə Təcili yardım şöbəsinə bir neçə yaralı gətirdilər. Yaralıların ikisi qara və quru kömür parçası kimi idi. Zahiri görkəmləri elə qəribə idi və başdan-ayağa elə yanmışdılar ki, özümdən asılı olmadan birinin bədəninə əlimi çəkdim. Biri şəhid olmuşdu, o birinin ağzından da uzun fitə bənzər səs çıxırdı. Cəsəd daş parçası kimi bərk idi, insan ətinə oxşar heç bir şey qalmamışdı, üzü də tanınmaz idi. Yalnız ağ dişləri olduğu kimi qalmışdı.

Zahiri görkəmi elə qəribə idi ki, xəstələrə iynə vuranda da son dərəcə ehtiyatlı olduğum halda onun bədəninə toxundum ki, görüm necədir. Qəribə idi ki, bu qədər yanandan sonra bədəni ovulmamış, olduğu kimi qalmışdı.

Dostlarından onun necə şəhid olduğunu soruşanda dedilər: "Səngərlərimizdə oturmuşduq. İraqlılar başımıza atəş yağdırmağa başladılar. Bir-bir səngərlərimizi vururdular. Bilirdik ki, orada qalmağın mənası yoxdur. Hamımız səngərlərimizdən çıxıb ətrafa yayıldıq. Yalnız bu iki nəfər

çıxmayıb səngərdə qaldı. Bu zaman bir top mərmisi düz səngərin içinə düşdü, ikisi də bu şəkildə yandı. Yarım saatdan sonra o biri yaralının ağzından daha fit səsi də gəlmədi.

1982-ci ilin novruz bayramında, hicri-şəmsi ili dəyişəndə Şahnazla birgə Abadanın Şəhidlər gülzarı məzarlığının yolunda idik. Şahnaz bir-iki gün idi novruz tətilləri üçün Abadana gəlmişdi. Atışma səsi gələndə bir anlığa fikirləşdim ki, beşinci kolon şəhərə hücum edib, lakin top səsini eşidib bildik ki, il dəyişdi. Orada Şahnazla qucaqlaşıb yeni il münasibəti ilə bir-birimizi təbrik etdik.

Baharın gəlişindən iki-üç gün sonra yenə xanım İslamiyə baş çəkmək qərarına gəldik. Fəthülmübin əməliyyatında, Bostan və Sabilə körpüsü geri alınanda onlarda idik. İslaminin dediyinə görə, Fəthülmübin əməliyyatı böyük və uğurlu əməliyyat olmuş, böyük bir ərazi düşməndən geri alınmışdı. Deyirdi ki, çoxlu əsir də tutmuşuq.

İki gün qalandan sonra Abadana qayıtdıq. Şahnaz da oradan Tehrana qatar bileti aldı.

Fəthülmübin əməliyyatından Beytülmüqəddəs əməliyyatının birinci mərhələsinə, yəni aprelin otuzuna qədər xəstəxananın ovqatı çox yaxşı idi, hamıda yüksək əhval-ruhiyyə vardı. Bostan və digər yerlər geri alındığına görə ürəklərimizdə Xürrəmşəhrin azadlığına da ümid işığı yanmışdı. Lakin Xürrəmşəhr, xüsusən də körpü tərəfdən düşmənin hərəkətliliyi çox idi, bəzən Abadanı, daha çox Taliqani xəstəxanasının ətrafını vururdu. Döyüşçülər deyirdilər ki, iraqlılar körpü tərəfdə çoxlu istehkam qurublar. Nə etmək istədikləri bəlli deyildi.

Bir neçə gün idi xəstəxananın ab-havası dəyişmişdi. Qarşıda yeni əməliyyat vardı. Məzuniyyətlər ləğv olunmuşdu və hamı hazır vəziyyətdə idi. Xəstəxananın anbarı tibbi əşya və ləvazimatla doldurulmuşdu. Ciddi hərəkətlilikdən qarşıda mühüm və böyük əməliyyat olacağı bilinirdi. Əməliyyat adı

çəkiləndə Xürrəmşəhri görməyə səbirsizlənirdim. Fikirləşirdim ki, görəsən, bu əməliyyatda şəhərim azad olunacaqmı? Yeni əməliyyatda Xürrəmşəhr korpusunun əksər uşaqları iştirak edirdilər. Müharibə başlayandan o vaxta qədər korpusumuz çoxlu şəhid versə, hətta buraxılma həddinə yaxınlaşsa da, özlərini əməliyyata çatdırmışdılar.

Xanım Purheydərinin oğlu Mürtəzanın şəhid olduğunu eşitmişdim. O, möhkəm və dözümlü bir qadın nümunəsi idi. Onu tanıyandan xüsusi əhval-ruhiyyəsi, xarakterləri olduğunu bilirdim. Xürrəmşəhrin işğalı zamanı əri itkin düşmüşdü, əsir və ya şəhid olduğundan heç kimin xəbəri yox idi.[1]

Xanım Purheydəri Karvansara otelində idi, hələ də mətbəxdə işləyirdi. Bir gün xəstəxanada iş azalanda otelə onu görməyə getdim. Başsağlığı vermək istəyirdim. Həmişəki kimi möhkəm və sakit idi. Ondan Mürtəzanın şəhadəti barədə danışmasını istədim. Ürəyini boşaltmağa fürsət gözləyirmiş kimi dedi:

"Nəzir etmişdim ki, Mürtəzanı özüm cəbhəyə yollayım, döyüş formasını özüm geyindirim, çəkmələrini özüm bağlayım. Qəribə bir yuxu görmüşdüm, amma heç kimə danışmamışdım. Gedən gün köynəyinin düymələrini bağladım, kəmərini bərkitdim, mazlanmış çəkmələrini cütlədim. Çəkməsinin bağını bərkidib qarşısında dayandım. Gözlərim gözlərinə baxırdı. Mürtəza həmin gün həmişəkindən də qəşəng olmuşdu. Bilmirəm, bəlkə də mənə elə gəlirdi.

Əmin idim ki, onunla bu dünyadakı son görüşümdür. Alnından öpüb Quranın altından keçirdim. Heç bir söz demədən işlərimə baxırdı. Ona dua etməyə başladım. Dedim ki, bala, qarşımda bir neçə addım yeri, sənə doyunca baxım. Sözümə qulaq asdı. Bir neçə addım getdi, sonra güldü. Ona baxmaqdan doymurdum. Başından, üzündən, çiynindən,

[1] Ağa Purheydəri 1983-cü ildə İraq dövləti tərəfindən ağır yaralı və əlillərdən bir qisminin azad edildiyi zaman İrana qayıtdı.

bazusundan, sinəsindən və əlindən öpdüm. Qoymurdu, utanırdı. Əlini kənara çəkir, mənim əlimi öpməyə çalışırdı.

Dedim ki, oğlum, sən bu gün şəhid olacaqsan. Bizim növbəti görüşümüz qiyamətə qaldı. Mürtəza can, cəsur ol, oğlum. Hətta bir anlığa olsa da, geri çəkilmək fikri başından keçməsin. Arxana əsla baxma. Sən haqq yoldasan, zərrə qədər də şübhən olmasın. Onu yenidən Quranın altından keçirdim. Bir saniyə də ondan gözümü çəkmək istəmirdim. Əmin idim ki, gənc övladımı bir də belə əzəmətli görməyəcəyəm. Şəhadət xəbərini gözləməyə hazır idim.

Yuxum çin çıxdı: Mürtəza həmin gün şəhid oldu. Onu Xürrəmşəhrdə dəfn etmək istəyirdim, qərib yerdə qalmasını istəmirdim, amma çarə olmadı. Xürrəmşəhr iraqlılarda idi. Onu Abadanda Şəhidlər gülzarında dəfn etməli olduq.[1]

O danışır, biz ağlayırdıq. Son anlarda şəhid oğlu ilə necə mənəvi anlar yaşayıbmış. Bu ananın ürəyindən nələr keçdiyini bir Allah bilirdi. Onun imanına və gözəl səbrinə qibtə edirdim.

***

Mayın 7-si həzrət Əlinin (ə) doğum günü idi. Uşaqların biri bərkdən ağlaya-ağlaya Təcili yardım şöbəsindən palataya gəlib Əbdülrza Musəvinin şəhid olduğunu söylədi. Sanki bir anlığa ürəyimdə nəsə qırıldı. Əbdülrza Cahanaranın müavini idi, Cündi Şapur universitetinin Diş həkimliyi fakültəsinin tələbəsi, ucaboy, qarabuğdayı gənc idi. Qardaşım Əli onun tabeliyində idi, ondan bizə çox söz danışmışdı.

Əbdülrza Musəvi inqilabdan öncə siyasi fəaliyyətlərinə görə həbs edilib Karun həbsxanasına salınmışdı. İnqilabdan sonra da Cahanara və digər korpus uşaqları harada olmuşdularsa, o da orada olmuşdu. Əli deyirdi ki, münafiqlərdən və Ərəb Xalq

[1] Onun Məhəmməd adlı digər oğlu Xürrəmşəhrin azadlığından sonra 25.12.82 tarixində şəhəri minalardan təmizləyərkən partlayış nəticəsində şəhadətə qovuşdu.

Döyüşçüləri Komitəsinin üzvlərindən tutulanların çoxunu Əbdülrza dindirirdi, o qədər heybətli idi, dindirmə zamanı elə peşəkar və ciddi davranırdı ki, adı gələndə inqilab düşmənlərinin bağrı yarılırdı. Əli onu və Şəhid Qəyurəslini çox tərifləyinə görə bu iki insanı təsəvvürümdə bir-birinə bənzədirdim.

Təcili yardım şöbəsinə getdim. Əbdülrzanın cəsədi çarpayıda, acınacaqlı vəziyyətdə idi. Üzünün aşağı hissəsi tamam getmiş, bir əli və bir ayağı kəsilmişdi. Qarnına və sinəsinə elə qəlpə dəymişdi ki, parçalanıb əzilmişdi. Gətirənlər deyirdilər ki, motosikletlə postları yoxlamağa gedəndə qırıcı tərəfindən vurulmuşdu.

Əbdülrzanın solğun üzü, toz-torpaqlı və qanlı saçı ayaqlarımın taqətini çəkdi. Başı qapıya doğru əyilmişdi, yarıaçıq gözləri görünürdü. Daha addım ata bilməyib oradaca gözlərimi ona dikdim. Çox qərib şəkildə şəhid olmuşdu. Məzlumluğu və qəribliyi sanki korpusun bozumtul-yaşıl formasında bir neçə qat artırdı. Nədənsə cəsədini görməkdən şok keçirdiyimi hiss edirdim. Dərin bir ah çəkdim. Onun gedişi ilə Xürrəmşəhrin azadlığına olan-qalan ümidim də puç oldu.

Vəzifəsindən irəli gələrək Əbdülrzaya görə çoxları narahat idi. Döyüşçülərinin bir neçəsi komandirlərinin başına nə gəldiyini görməyə gəlmişdi. Hamısı ağlayıb üz-başlarına vururdu. Deyirdilər ki, yenə yetim, kimsəsiz qaldıq! Doğru deyirdilər. Hələ Cahanaranın matəmindən çıxmamış başımıza bu müsibət gəlmişdi. Taqətsiz və hövsələsiz halda palataya qayıtdım. Göz yaşlarım dayanmırdı. Səssizcə ağlayırdım. Heç kəsə, hətta özümə də hövsələm qalmamışdı. İstəyirdim ki, bir yerə gedib bir neçə gün yatım və bu dünyadan uzaqlaşım.

Əməliyyatın başlanmasından bir neçə gün ötürdü. Xəstəxanaya gətirilən yaralılardan eşidirdik ki, əməliyyat Əhvazın Hüseyniyyə stansiyasından və Əhvaz-Xürrəmşəhr

magistralı səmtindən başlayıb. Get-gedə yaralıların sayı çoxaldı. Yeni yaralılar bizə yaxşı xəbər gətirmirdilər. Dediklərinə görə, Şələmçə istiqamətindən hücuma keçən xürrəmşəhrli uşaqların çoxu şəhid olmuşdu.

Hamımız matəm içində idik. Hər an uşaqlardan daha birinin şəhadət xəbərini gözləyirdik. Palatada olanda Təvəssül duası kitabı əlimizdən düşmür, dayanmadan Allahı çağırırdıq. Bu müddətdə Xürrəmşəhr korpusunun çoxlu döyüşçüləri ailə qurmuş, çoxu da xanımını Abadana gətirmişdi. Təsadüfən, çoxu hamilə olan bu xanımlara həyat yoldaşlarının şəhadət xəbərini söyləmək asan iş deyildi. Rübab Hurisi, Məryəm Banuyi və başqa bir neçə nəfər hamilə idilər, həyat yoldaşlarından xəbər gözləyirdilər.

İlk olaraq, Qulamrza Abkarla qardaşı Əlirzanın şəhid olduqlarını eşitdik. Güclü həyəcan və iztirabım vardı. Hamımız dua edir, dodaqaltı zikr deyirdik. Əməliyyatın nəticəsinə və döyüşçülərimizin həyatına dair bütün streslərimizə baxmayaraq, qələbəyə və Xürrəmşəhrin azadlığına ümid hamımızı ayaqda saxlamışdı. Xüsusən əməliyyatda iştirak edən döyüşçülərin həyat yoldaşları üçün ağır günlər idi. Qorxu və narahatlıq üzlərindən oxunurdu. Zaman ötdükcə Xürrəmşəhr korpusunun şəhidlərinin sayı da çoxalırdı: Şəhid Həsən Tahirianpur, Mənsur Güli, İbrahim Qatei və s. Əksər şəhid və yaralılar güllə ilə vurulmuşdu, çox azına qəlpə dəymişdi. Bu isə o demək idi ki, uşaqlar çox irəliləmişlər.

Bəzi şəhidləri Taliqani xəstəxanasının morquna apardılar. Onları ziyarət etməyə getdim. Qəribə hisslər keçirirdim. Rəşadət və qəhrəmanlıqlarını, Xürrəmşəhrin azadlığından ötrü necə ürəkdən, qeyrətlə vuruşduqlarını eşitmişdim. Onların gedişi Xürrəmşəhr korpusuna ağır zərbə idi. Korpus bu uşaqların yerini bir də necə dolduracaqdı! Əlbəttə, şəhidlərin çoxunun cəsədini gətirməmişdilər. O qədər irəliləmişdilər ki, gətirmək

olmurdu. Uşaqların şəhadətindən sonra Qulam Küveytipur təxminən hər axşam Persiya otelində rövzə oxuyur, mərsiyə deyirdi.

Xəstəxana hələ də tam hazırlıqlı vəziyyətdə idi, böyük həyəcanla işləyirdi. Sanki qaçhaqov bitməyəcəkdi. Mayın 9-da əməliyyat yeni mərhələyə daxil oldu. Aviasiya qüvvələri xəstəxananın önündəki boş ərazini təcili yardım helikopterlərinin eniş yerinə çevirdilər. Gipslə çox böyük bir dairə çəkib içinə H hərfinə bənzər bir işarə çəkdilər. Dedilər ki, yaralıları birbaş bura gətirəcəyik. O qədər qızğın döyüş gedirdi ki, daha təcili yardım maşınları kifayət etmirdi.

Yaralılar arasında 15-16 yaşlı bir gənc vardı. Hər iki ayağı buddan, hər iki əli bazudan kəsilmişdi, "Allaha şükür" və "Əlhəmdülillah" zikrləri dilindən düşmürdü. Hamı ona həsrətlə baxırdı. Fikirləşirdik ki, görəsən, bu vəziyyətdə neçə il yaşaya biləcək?

Mayın 23-də günortadan sonra xəstəxananın bütün binası dəhşətli gurultudan titrədi. Biz həyətə qaçdıq. Səs Fəyyazi cəbhəsindən gəlirdi. Böyük bir alov şölələnir, ardıcıl partlayışlarla daha da güclənirdi.

Aramsız partlayışlardan bildik ki, iraqlılar silah anbarını vurublar. Hər partlayışın özünəməxsus şüası vardı; bəziləri az, bəziləri çox. Partlayışların səsi xəstəxanaya yaralı gətirən helikopterlərin səsinə qarışmışdı. Bildik ki, yaralı gətirirlər. Tez şöbəyə qaçdıq. Həmin bir neçə gündə dayanmadan işlədik, heç kim istirahət etmədi: yaraların şəklini çəkmək, xəstələri palatadan əməliyyat otağına, oradan cərrahiyyə hazırlığı otağına aparmaq, iynə vurmaq, yaranı sarımaq, yaralılara su vermək, sidik torbası hazırlamaq, qusan yaralıların önünə metal qab tutmaq, bədənlərinin hərarətini yoxlamaq, qan təzyiqlərini ölçmək, sarğı taxtası bağlamaq və s.

O vaxta qədər xəstəxanada qırx-əlli yaralı vardısa, həmin müddətdə 300-400 yaralı gəldi. Yuxarı mərtəbənin bütün otaqları istifadəyə verildi. Üz-gözümüz bərbad durumda, əl-qolumuz qan içində idi. Yalnız namaz vaxtı imkan daxilində əl-üzümüzü və paltarlarımızı yuyub-təmizləyirdik. Əllərimizin üstünə savlon kremi tökülәndə qanı qurudur, təmizləməyi çətinləşdirirdi. Birtəhər hazırlaşıb namaz qılır, sonra cəld işimizin başına dönürdük.

Həmin axşam təxminən saat 11-də xəstəxananın ətrafında yenə böyük bir gurultu qopdu. Hamı deyirdi ki, görün Abadanın hansı yerini vurublar. Başımız yaralılara qarışmışdı, xəstəxananın həyətinə çıxmağa da vaxtımız yox idi. Təxminən bir saatdan sonra bir neçə yaralı gətirmiş bir diversantdan partlayış səsinin səbəbini soruşduq. Dedi ki, iraqlılar Xürrəmşəhr körpüsünü vurublar ki, şəhərə canlı qüvvə daxil edə bilməyək. Görünür, uşaqlarımız şəhəri geri almaq üçün o qədər rəşadət göstəriblər ki, körpünü partlatmağa məcbur olublar. Hamımız dodaqaltı dua edirdik. Bəziləri salavat deyir, bəziləri də imkan yaranan kimi Təvəssül duası oxuyurdu. Qəribə gözləmə halında idik. Şəhərin azadlığından ötrü geri sayım başlamışdı.

Mayın 24-də səhər erkəndən günortaya qədər xəstəxanaya yaralı və şəhid gətirən helikopterlərin get-gəli çoxaldı. Görünür, döyüş pik həddə çatmışdı, heç kim hətta bir an da boş durmurdu.

Yaralı və şəhidlərin çoxu Şələmçədən gətirilirdi. Sayları o qədər çox idi ki, xəstəxananın önünün toz-torpağı yatmırdı. Həmin helikopterlərin biri ilə bir neçə iraqlı əsir gətirdilər. Xəstəxananın yuxarı mərtəbəsində bir otağı boşaldıb iraqlı yaralıları yerləşdirdik. Məryəm Əmcədi ilə silahlı olduğumuza görə onların yanında keşik çəkmək bizə tapşırıldı.

Tibb bacıları iraqlı əsirlərlə öz yaralılarımız arasında əsla fərq qoymadan yardım göstərirdilər. Əsirlərin biri çox gənc idi, xüsusi saqqal modeli vardı. Saqqalı çənəsinin altından qulağının dibinə qədər gedirdi. Günorta vaxtı ona yemək apardım. Toyuqplov idi. Boşqabın içindəki toyuq ətini görən kimi mənə dedi: "Şəriətə uyğun kəsilib?"

Sözü mənə od vurdu. Özümü saxlaya bilməyib dedim: "Səddam da kafirdir, sən də kafirsən! İndi gəlib şəriətdən danışırsan?! Allaha and olsun, əgər əsir olmasaydın, səni öldürərdim".

Bir söz demədi. Ayağına güllə dəymişdi, amma dili yaxşı işləyirdi! Başını aşağı salıb yeməyinin hamısını yedi.

Günorta saat 12-dən radiodan əməliyyat marşı səslənməyə başladı. Hamımız səbirsiz idik. Ucundan-qulağından eşitmişdik ki, körpü partladılsa da, uşaqlar Azadlıq adlı başqa bir körpü üzərindən Karun çayını keçib şəhərə giriblər. Lakin xəbər hələ rəsmən elan olunmamışdı, dəqiq deyildi. Təxminən bir-iki saat idi diktor deyirdi: "Əziz dinləyicilər! Diqqət! Diqqət! Əziz dinləyicilər! Diqqət! Diqqət!"

Nəhayət, günorta saat 2-də Xəbərlər proqramı başladı və diktor mühüm xəbəri elan etdi. Xəstəxananın hər yerindən diktorun səsi gəlirdi. O, "Əziz dinləyicilər! Diqqət! Qan şəhəri Xürrəmşəhr azad olundu!" – deyən kimi hamı qışqırmağa, şənlik səsləri çıxarmağa başladı. Döyüşçülər şükür səcdəsi etdilər.

Qaçıb Məryəm Əmcədini qucaqladım. Özümüzdən asılı olmadan, ağlamağa başladıq. Tibb bacılarının bir neçəsi də ağlayırdı. Cahanaranın və Musəvinin şəhadəti bizə çox təsir etmişdi, nə qədər ağlasaq da, yüngülləşməmişdik. Nəhayət, ürəyimizi boşaltdıq. Xürrəmşəhrli uşaqların şəhadət qəmi xəstəxananı çənbərinə salıb canımızı almaq üzrə idi. İndi isə göz yaşlarına çevrilib üzümüzdən axır, ürəyimizi boşaldırdı. Bir-

birimizi qucaqlayıb öpür, hıçqırtı ilə ağlayırdıq. Şəhərimizin azad olunduğuna, oraya yenidən qayıda biləcəyimizə inana bilmirdik. Şəhidlərin və bütün dostlarımızın yeri görünürdü. Kaş yanımızda olub sevincimizə şərik olaydılar!

Bir neçə dəqiqə ötəndən sonra daha ayaq üstə qala bilmədiyimi görüb yuxarıdakı istirahət otağımızda oturmaq qərarına gəldim. Yuxarı qalxıb yerdə oturdum, cib Quranımı çıxarıb oxumağa başladım. Xürrəmşəhr şəhidlərinin üzləri bir-bir gözlərim önündən keçirdi. Sanki onların gülüş və zarafatlarını eşidir, bu qələbə münasibəti ilə təbrik edirdim. Əli yadıma düşdü. Qələbə xəbəri alsaq da, nədənsə ürəyimdə həyəcan vardı. Müharibə başlayandan bəri çəkdiyimiz çətinlikləri və qəribliyimizi xatırladım; evsizliyimizi, didərginliyimizi. Bütün bu qəm-kədər indi Xürrəmşəhrin azadlıq sevinci ilə qarışıb məndə xüsusi hal yaratmışdı. Sevinc, qürur və qəm-kədər bütün vücudumu bürümüşdü. Yerimdən qalxa bilmirdim. Bir qədər tək qalmağa ehtiyacım vardı. Hərə öz aləmində idi. Həyat yoldaşı və ya qardaşı şəhid olan uşaqlar daha pis idilər. İnqilabın qələbə çaldığını eşidəndə də belə olmuşduq. Qələbə sevinci şəhidlərimizi itirmək kədərinə qarışmışdı. Yenə ikili hisslər keçirirdik.

Təxminən yarım saatdan sonra aşağı endim. Xəstəxananın işçiləri və yaralılar arasında şokolad, noğul və şərbət paylanırdı. Kimin nəyi vardısa, gətirmişdi. Məryəmə yaxınlaşıb bir-birimizin boynunu qucaqladıq, ağlamağa başladıq. Hansı halda olduğumuzu yalnız Allah bilirdi.

Təxminən iyirmi gün öncə gördüyüm bir yuxu yadıma düşdü. Görmüşdüm ki, bir yerə çoxlu adam toplaşıb, mən qara bir bayraqla öndə dayanmışam. Narın yağış çiləyirdi. Camaatla birgə yavaşca Xürrəmşəhrə daxil olduq, came məscidinə çatdıq. Camaat məscidə girdi, mən əlimdə bayraq qapının ağzında dayandım. Gözəl hava vardı. Adam gəzişib təmiz hava almaq

istəyirdi. Özümü çox yaxşı hiss edirdim. Oyananda halım o qədər yaxşı idi ki, vəsfə gəlməzdi.

Şəhər azad ediləndən sonra yaralıların daşınması eyni sürətlə davam etdi. Yaralı o qədər çox idi ki, bütün dəhlizlər dolmuşdu. Bəziləri döşək üzərində uzanmışdı, bəziləri də xərəklərdə. Qəribə səhnə idi. Heç kəs bir an da bekar qalmırdı. Giriş zalı, Təcili yardım şöbəsi və yuxarı mərtəbələr yaralılarla dolu idi. Xəstələrin rayonlara göndərilməsi də çox sürətlənmişdi, ancaq xəstəxanaya hər an yeni yaralı gəlirdi.

Kimin əlindən nə gəlirdisə, edirdi. Heç kim üçün xüsusi bir iş müəyyən olunmamışdı. Yaralılara su verməkdən tutmuş serum və sarğıları dəyişməyə qədər hər bir iş görürdük; özü də həmişəki kimi yox, qaça-qaça. Gah burada idik, gah orada. O qədər ayaq üstə dayanmışdım ki, artıq ayaqlarımın ağrısını hiss etmirdim.

Yeni yaralılar gəldikcə əməliyyat barədə məlumatlarımız da yenilənirdi. Onlar uşaqların irəlilədiyini, mövqelərin möhkəmləndiyini söyləyirdilər. Şəhid və yaralıların sayı çox olsa da, əməliyyatın miqyasına görə çox sayılmırdı. Bir neçə gün öncənin əksinə olaraq, bu dəfə döyüş yerindən yaxşı xəbərlər gəlirdi. Uşaqlar get-gedə daha çox irəliləyirdilər. Onlar düşməni Şələmçədən mümkün qədər geri qova bilmişdilər.

Günortadan sonraya qədər ayaq üstə olduq. Başımız o qədər qarışmışdı ki, Xürrəmşəhrin azadlığının sevincini yada salmağa macal tapmırdıq. Öz xəyalımda Xürrəmşəhr küçələrində gəzməyə başlayan kimi bir iş dalınca getməli, bir yaralıya xidmət göstərməli olurdum. Günbatan çağı çox kövrəldim. Qəribə hiss idi; həm sevinir, həm kədərlənirdim. Bir tərəfdən əziz Xürrəmşəhr azad olunmuşdu, biz yenidən ora qayıda, hamımız bir yerə toplaşa biləcəkdik; digər tərəfdən, Xürrəmşəhrin müqaviməti və azadlığı uğrunda gedən

döyüşlərdə bizimlə birgə olmuş uşaqların yoxluğuna dözmək çətin idi. Xəlvətə çəkilib ürəyimi yaxşıca boşaltmaq istəyirdim.

Qasim Fərruxi yadıma düşdü. O, "Qan gölündə üzməliyik" şeirini oxuyub əda çıxarırdı; silahlarımızı göstərib deyirdi ki, xahiş edirəm, bu bellərinizi yuxarı qaldırın. Onun və digər uşaqların yeri görünürdü; Məhəmməd Cahanaranın yeri görünürdü. Kaş həyatda olub Xürrəmşəhrin azad edildiyini eşidəydi və yorğunluğu çıxaydı! Kaş həyatda olaydı, onun rəhbərliyi ilə, xürrəmşəhrli uşaqların ona bəslədikləri məhəbbətlə şəhərimizi yenidən quraydıq; eynilə əvvəl olduğu kimi, hətta ondan da gözəl!

Xürrəmşəhri görməyə səbirsizlənirdim. Zarafat deyil, bir il yarımdan çox idi didərgin düşmüşdük. Dost və qardaşlarımın qanı bahasına yenidən oraya qayıtmaq, həyatımıza başlamaq imkanı yaranmışdı. Şəhərimiz barədə heç bir təsəvvürüm yox idi, işğal altında olduğu müddətdə başına nə gəldiyini bilmirdim.

Xürrəmşəhrin azadlığından təxminən bir ay ötürdü. Bir Allah bilir ki, biz xürrəmşəhrli uşaqlar şəhərimizi görməyi necə səbirsizliklə gözləyirdik. Kimə müraciət edirdiksə, deyirdi ki, hələlik şəhər karantindədir, tam təmizləndiyinə əmin olmayınca bacıları apara bilmərik.

Məryəm bir neçə gün idi korpus uşaqlarından Azərniya soyadlı biri ilə ailə qurmuşdu. Ona dedim ki, yoldaşına de, bir iş görsün, heç olmasa, bir neçə dəqiqəliyə bizi Xürrəmşəhrə aparsın. Məryəm yoldaşına deyəndə cavab vermişdi ki, bir qədər gözləyin, imkan yaranan kimi xəbər verəcəyəm.

Bir gün Məryəm dedi ki, sabah saat 10-da korpusdan bir mikroavtobus gəlib uşaqları Xürrəmşəhri görməyə aparacaq. Sevindiyimdən onu qucaqlayıb üzünü öpdüm. Yuxumuzun həqiqətə çevrildiyinə inana bilmirdim. Sabaha qədər sanki bir il çəkdi.

Taliqani xəstəxanasının önündə mikroavtobusa mindik. Azərniyadan və bir-iki xürrəmşəhrli pasdardan başqa, mən, Məryəm, Nuşin, Bəndəri bacıları, Məryəm Banuyi və başqa bir neçə nəfər Xürrəmşəhrə yola düşdük. Təxminən iyirmi nəfər idik. Sanki Kərbəla ziyarətinə gedirdim. İxtiyarsız olaraq gözlərimdən yaş axırdı. Hamı belə idi.

Xəstəxanadan hərəkətə başlayıb Kutşeyxə çatdıq. Körpünü partlatdıqlarına görə oradan dövrə vurub Həffar xurmalıqlarına girdik. Üzən körpüdən şəhərə daxil olduq. Sonra İcra hakimiyyəti meydanından dövrə vurub qırxmetrlik xiyabanda endik.

Azərniya yolda dedi ki, şəhər partlayıcı qurğular baxımından tam təmiz sayılmır, asfalt yoldan çıxmamalı və heç nəyə əl vurmamalıyıq. Dediyinə görə, iraqlılar Xürrəmşəhri əldən verdiklərini görəndə şəhərin hər qarışına mina qoymuşdular.

Şəhər ilk baxışdan xarabalığa bənzəyirdi. Sanki hər şey ölüm yuxusuna getmiş, illərlə eləcə qalmışdı. Heç bir sağlam yer görünmürdü. Başımı hara çevirirdimsə, dağıntı görürdüm. Əlbəttə, fərqli bir şey gözləmək olmazdı, amma nədənsə bu şəraitlə barışmaq çətin idi. Göz yaşlarım yaralı şəhərimə yaxşı baxmağa imkan vermirdi. Sosial müdafiə idarəsinin binalarına getdik. İraqlılar binaları və ətraflarını molotov kokteylləri ilə dolu olan 220 litrlik çəlləklərlə doldurmuş, aralarından sim çəkmişdilər. Korpus uşaqlarından biri izah etdi ki, bunlar partlayış qurğularıdır, bunlara toxunmayasız.

Mağazaların dəmir jalüzləri dəlik-deşik olub əyilmişdi. Bəzi evlərin qapıları yerindən qopub kənara düşmüşdü. Evlərin tavanı uçmuş, raket və mərmi zərbəsindən divarlarda kiçik və böyük dəliklər əmələ gəlmişdi. Sanki şəhər kiçilmiş, ərimişdi. Uzaqdan came məscidinin vurulmuş günbəzini gördüm. Ürəyim bərk döyünməyə başladı.

Hərə öz aləmində idi. Hamımız göz yaşları içində yavaşca nəsə zümzümə edirdik. Məscidin həyətinə ayağımı qoyanda Xürrəmşəhrin işğalından öncəki bütün xatirələrim canlandı. Sanki anamın, Xosrovun anasının, digər mətbəx uşaqlarının səsini eşidirdim, tələsik döyüşçülərə xörək bişirirdilər. Kimsə siqaret yandıranda döyüşçü uşaqların deyinmələrini, "söndür" qışqırtılarını eşidirdim.

Məscidin içində qələbəlik idi. Məscid mehriban bir ana kimi döyüşçüləri qucağına almışdı. Aralarındakı qaynaşma adama can verirdi. Şəbistanın içindəki dirəyə yaxınlaşdım. Gecələr yatmaq üçün ona söykənirdim. Üstünə əlimi çəkib onu öpdüm. Məscid xəyalımda dünyasını dəyişmiş dostlarımla və döyüş yoldaşlarımla dolu idi. Acı-şirin anları təcrübə edirdim.

Məsciddən çıxıb Səfa bazarından, Mürəbbəə və Heydəri hüseyniyyələrindən keçdik, İnqilab prospektindən Firdovsi prospektinə girdik. Firdovsi prospekti bir qədər yaxşı qalmışdı, binaları digər yerlərdən dəfələrlə sağlam idi. İraqlılar o binalarda qalmış, Milli bankın binası kimi hündür binalardan müşahidə qülləsi kimi istifadə etmişdilər.

İraqlılar digər məhəllələri buldozerlə hamarlamışdılar. Camaatın evlərindən əsər-əlamət qalmamışdı. Evləri dəli kimi dağıtmış, soyuducu və qaz sobalarını həyətin ortasına gətirmiş, bütün döşəkləri həyət və küçələrə tökmüşdülər. İrəlilədikcə onların yırtıcılığından və dəliliyindən gözlərimiz bərəlirdi.

Əhmədzadə meydanının yaxınlığında dəmir dirəklərlə küçələri bağladıqlarını gördük. Dəmir dirəkləri hansısa alətlə əyib kələf kimi bükmüşdülər. Bütün prospektlərin girişi bağlanmışdı, heç bir maşının içəri girmək imkanı yox idi. Hər neçə metrdən bir özlərinə bir nişan qoyub üstünə yazmışdılar: "Mina". Bütün şəhərə mina qoymuşdular ki, İran tərəfi helikopterlə canlı qüvvə gətirsə, minalardan salamat çıxmasınlar.

Milaniandakı İranduxt liseyindən əsər-əlamət qalmamışdı. Tarix dərsində monqolların İrana hücumu barədə eşitdiklərim yadıma düşdü. Şəhəri belə vəhşicəsinə viran qoymuş bu adamların da hansı tayfadan olduğu bəlli deyildi.

Səntap məhəlləsi və gömrük Əhmədzadə meydanının başından görünürdü. Öz evimizi görməyi də çox istəyirdim, amma olmazdı. Korpus uşaqları deyirdilər ki, bütün Səntapa mina qoyulub, ora getmək mümkün deyil. Uzaqdan gördüklərimsə torpaq təpəsindən başqa bir şey deyildi. Bütün məhəlləmizi buldozerlə hamarlamışdılar. Evimizin yerində təpə görəndə dərin ah çəkdim. Özümlə yadigar bir şəkil də götürməmişdim. O evdəki bütün keçmişimiz, bütün xatirələrimiz torpağa gömülmüşdü. Məryəm evimizin Səntap məhəlləsində yerləşdiyini bildiyinə görə soruşdu: "Sabah, eviniz hardadır?" Qəhər içində dedim: "Daha bilmirəm. Gərək bu mina nişanlarının birinin altında olsun".

Seyid Mətuk məqbərəsi salamat qalmışdı. Müqbil meydanından keçib Məryəm xalagilin küçəsinə döndük. İnanılmaz idi. Onların evlərindən əsər-əlamət qalmamışdı, evi asfalta birləşdirmişdilər. Məryəm xalamgilin həyəti çox qəşəng idi: həyətə sarı plitələr döşənmişdi, ortasında mavi rəngli gözəl bir hovuz vardı.

Torpaq təpəsinin üstündən, evin önündəki uçqundan, sınmış plitələrdən və mərmər daşlardan evlərini tanıdım. Mətbəxlərinin yerindəki uçqunun üstündən xalamın nikelli meyvə bıçağını tapıb yadigar götürdüm. Bühəyyir bibinin evi də yaxınlıqda idi, amma onu da eyni kökə salmışdılar, heç bir nişan qalmamışdı.

Hamımız ağlayırdıq. Uşaqların biri dedi: "Daha Xürrəmşəhrə dəstəmazsız girmək olmaz. Bütün küçə və prospektlərinə döyüşçülərin, müdafiəsiz kişi və qadınların qanı tökülüb".

Onun sözündən sonra daha çox ağladıq. Doğru deyirdi. Qərara gəldik ki, Cənnətabada gedək.

Bir neçə dəqiqədən sonra məzarlığa çatanda qəribə səhnə ilə üzləşdik. Bələdiyyənin bütün qırmızı su maşınlarını və çoxlu minik avtomobilini düzünə yerə basdırmışdılar; maşının kapotu və ön təkərləri yerin altında, arxası isə havada idi. Maşınların arasına da bir qədər soyuducu basdırmışdılar. Gördükləri işə görə pis hisslər keçirməyə başladım. Sanki bununla bizi ələ salırdılar.

Məzarlığın arxasında maşınlardan əlavə, bir neçə hektar əraziyə çoxlu metal boru tökmüşdülər. Oğlanlar deyirdilər ki, bütün bunları bizimkilərin helikopterlə döyüşçü daşıma ehtimalına qarşı etmişlər. Lənətə gəlmişlər elə bir iş görmüşdülər ki, şəhər bu tezliyə özünə gələn deyildi. Səddam Xürrəmşəhr əhalisi üçün heç nə saxlamamışdı. Camaat evinin yolunu da tapa bilməyəcəkdi.

Bir prospektdən keçəndə hiss etdik ki, ayaqlarımızın altındakı asfalt pendir kimi yumşalıb süngərə döndü. Yeriyəndə ayaqlarımız batırdı. Yanımızdakı korpus uşaqlarının birindən bunun səbəbini soruşanda dedi: "Evlərin birində çoxlu qənd və şəkər saxlayırmışlar. İraqlılar şəhəri vuranda bir raket həmin şəkərləri şərbətə çevirib, zaman ötdükcə də bu formaya düşüb.

Dərin bir ah çəkdim. Şəhərin işğalından öncəki günlərdə camaat bu şəkərin bəlkə bir qaşığına da möhtac idi. Hansısa Allahdan xəbərsiz bunları evinə yığıbmış. O günlərdə məscidin bəzi icma üzvlərinə səsimi qaldırmam yadıma düşdü. Onlar döyüşçülərə yemək göndərməyə qoymurdular. Onlarla çox mübahisə edirdim. Yadımdadır, bir dəfə birinə dedim: “Bəlkə bu pendirləri saxlamısız ki, bugün-sabah müharibə bitsin, siz də satasız?!”

Günortaya yaxın dedilər ki, qayıtmalıyıq. Xəstəxanaya qayıtdıq. Xürrəmşəhrin və onun küçələrində gördüyüm

səhnələrin təsirindən bir neçə həftə çıxa bilmirdim. Yenidən torpağımızı aldığımıza görə çox sevinib Allaha şükür edirdik, amma gördüyümüz şəhərə qarşı yaxşı hisslərimiz yox idi. Mənim gördüyüm Xürrəmşəhrin müharibədən öncəki vəziyyətə qayıtması imkansız görünürdü. Şəhər həqiqətən, şəhid olmuşdu; torpaq şəhid olmuşdu, ağac şəhid olmuşdu, yaşıllıq şəhid olmuşdu...

Bir neçə gündən sonra Xürrəmşəhr korpusunun şəhidlərini gətirdilər. Mən palatada idim, Təcili yardım şöbəsinin uşaqlarından biri zəng vurub mənə dedi. Tez morqa qaçdım. Allah bilir, bu müddətdə yerlilərimi ziyarət etməyi necə gözləmişdim! Uşaqların cəsədlərini bir vanetin arxasına yığıb üstünə ağ toza bənzər bir şey tökmüş, hər birinin adını ağ kağıza yazıb sinələrinə yapışdırmışdılar.

Cəsədləri görməyə getməzdən öncə özümü hər bir səhnəyə hazırlamışdım. Yadımdadır, bir dəfə iki gün günəşin altında qalmış bir şəhidi gətirdilər. Yazığın burnundan ağ yoğun qurdlar tökülürdü. Bu cəsədlər isə iyirmi gün Şələmçənin isti günəşi altında qalmışdı. Nə halda olacaqlarını proqnoz edə bilirdim.

Cəsədləri morqa aparırdılar. Ayaqlarım əsə-əsə yavaşca onlara yaxınlaşdım. Gördüyüm ilk cəsəd Firiştənin qardaşı Əli Süleymaninin cəsədi idi. Düşündüyümün əksinə olaraq, nə onun cəsədini qurd basmışdı, nə də digər şəhidlərin. Yalnız dərilərinin rəngi qəhvəyi olmuşdu. Əli Süleymanilər ailəsinin yeganə oğlu idi. Onu şəhadətindən öncə çox görmüşdüm. Yaraşıqlı oğlan idi. İri mavi gözləri, xurmayı rəngli axan saçı vardı. Bir dəfə Firiştənin Xürrəmşəhr korpusunda işi vardı. Birlikdə oraya getdik. Qardaşı gəlib işimizi yoluna qoydu.

İndi həmin gözəl üzdən günəş altda yanmış bir şey qalmışdı. Əlbəttə, şəhidlərin heç birindən ən xəfif üfunət iyi də gəlmirdi. Lakin bədən üzvləri qurumuşdu. Sanki bədənlərində heç vaxt

əzələ və ət olmamışdı. Cəsədlərin vəziyyətinə hamı təəccüb edirdi. Hamı iyirmi-otuz parçalanmış və qurdlanmış cəsəd gözləyirdi. Təxminən bütün şəhidlər eyni tərzdə – güllə yarasından şəhid olmuşdu.

Xürrəmşəhr azad edilsə də, ora heç kim gedib-gəlmirdi, şəhidləri dəfn etmək mümkün deyildi. Bu baxımdan, onları həyat yoldaşlarının və ailə üzvlərinin iştirakı ilə Abadanın Şəhidlər gülzarı məzarlığında, ozamankı adətə uyğun şəkildə dəfn etdik. O vaxt adət belə idi: xürrəmşəhrli şəhidləri Abadanın Şəhidlər gülzarında əmanət kimi dəfn edirdik ki, şəhər azad olunsa, cəsədlərini Xürrəmşəhrə qaytarıb orada torpağa tapşıraq.[1]

Dəfn günündən xüsusi bir şeyi xatırlamıram. Yadımda qalmış yeganə səhnə Rübab Hurisinin həyat yoldaşı Şəhid İsmayıl Xosrəvinin dəfnidir. Mən Rübabın yanında oturmuşdum. O, hamilə idi, ona görə çox narahat idim, o isə elə vüqarlı və səbirli idi ki, qibtə edirdim. Lakin bacısı Səkinə çox ağlayıb dözümsüzlük edirdi. Rübabın əlində bir Tea Rose ətri vardı, dəfn etməzdən öncə yoldaşının bütün bədənini ətirləmişdi.

Məzarlığın düşmən tərəfindən vurulma ehtimalına görə, şəhidlərin dəfnindən sonra oranı tez tərk edib xəstəxanaya qayıtdıq. Uşaqların qərib dəfninə görə çox narahat oldum. Axşam Təvəssül duasında doyunca ağlayıb bir qədər yüngülləşdik.

---

[1] Xürrəmşəhr azad ediləndən və xürrəmşəhrlilər oraya qayıdandan sonra şəhid ailələri öz əzizlərinin cəsədini Abadandan aparmaq istəyirdilər. Lakin Abadanın cümə imamı ağa Cəmi onlarla danışıb dedi ki, qəbri açmaq hətta hökmlərinə riayət etməklə belə, məkruhdur. Onlar icazə versinlər, əzizləri abadanlı şəhidlərə qonaq olsunlar. Şəhid ailələri də razılaşdılar.

# İyirmi beşinci fəsil:

## *Universitet macəraları*

Xürrəmşəhrin azadlığından sonra Taliqani xəstəxanasına Tehrandan da çoxlu könüllü köməkçi gəldi. Get-gedə vəziyyət elə oldu ki, daha bizə ehtiyac qalmadı.

Əlirza Ahənkub iyul ayından Abadanda bir ev kirayə etmiş, bacıları Nahidlə Nidanı da gətirmişdi. Xəstəxananın vəziyyətinin yaxşılaşdığını görüb mən də oradan çıxmaq qərarına gəldim. Xürrəmşəhr azad ediləndən sonra sakitləşmişdim. Digər tərəfdən, güclü mədə ağrılarım da dayanmırdı. Xəstəxananın həkimləri deyirdilər ki, bu, sinir ağrılarıdır, bir müddət stresli mühitdən uzaq durmalısan. Bunlardan əlavə, ali məktəbə də hazırlaşmaq istəyirdim.

Bu səbəblərdən Abadan Bəsicinə gedib biraylıq məzuniyyət istədim. Dedim ki, universitetə hazırlaşmaq istəyirəm. Müddətin uzunluğunu əsas gətirib icazə vermədilər. Mədəmdə problem olduğunu, bir müddət xəstəxana mühitindən uzaqlaşmağa ehtiyacım olduğunu söylədim, yenə razılaşmadılar. Mən də belə olduğunu görüb icazəsiz getdim. Qayıdanda nə edəcəkləri önəmli deyildi.

Təxminən bir ay Nahidgilin yanında qaldım. Ev sahibi Əlirzanın bir dostunun qohumu idi, təxminən 600 kv metrlik böyük bir dubleks evi vardı. Evin arxasında xidmətçilər üçün hamamı və tualeti olan kiçik bir ev tikmişdilər. Mən Nahid və Nida ilə birlikdə orada qalırdım. Bəzən Əlirza dostları ilə gələndə əsas villada qalırdılar.

1982-ci ilin sentyabrı gəldi. Əhvaza xanım İslamigilə gedib bir neçə gün qaldım. Tehrana qayıtmaq istəyəndə ağa İslami dedi: "Əhvazda qalmaq istəmirsən? Buranın İslam Təbliğatı Komitəsində işləyə bilərsən. Burda sizin kimi dindar kadrlara çox ehtiyac var". Fikrə getdim. Xürrəmşəhrdə İslam Təbliğatı Komitəsində iş təcrübəm vardı. Burada da xidmət etmək pis olmazdı.

Əhvazın Təbliğat Komitəsində təxminən altı ay işlədim. Qadınlar şöbəsində Tahiri, Höccəti və soyadı yadımda qalmayan başqa bir qız fəaliyyət göstərirdi. 6 kv metrlik kiçik bir otağımız vardı. Əhvazdan Xuzistanın müxtəlif cəbhələrinə ezam olunan ruhanilərə qovluq açırdıq. Şöbənin sədri Hüseyni adlı bir kişi idi. Təxminən bir aydan sonra getdi və Məhəmmədi soyadlı birisi gəldi.

Bir gün komitədə işlədiyimiz yerdə İsmət Canbozorgi gəldi. Orada olduğumu Nahid demişdi. Bir-birimizi görüb çox sevindik. Dedi ki, təhsilini davam etdirib attestat almaq üçün Əhvaza gəlib. Bir ev də kirayə etmişdi. İsmətlə evinə getdik. Əslində ev yox, köhnə evdə kiçik bir otaq idi. Evin pəncərəsi Əli ibn Məhziyarın gözəl məqbərəsinə açılırdı.

İsmətin ev sahibi qoca bir qadın idi. Evində subay bir qız da vardı, iki otağını oğlu ilə gəlininə vermişdi. İsmətin otağının divarları qara sement idi, üstünə mavi neft boyası çəkilmişdi. İçəri o qədə qaranlıq idi ki, gündüz də işıq yandırmaq lazım olurdu. Bir qədər sonra Səham və İsmətin ibtidai məktəbə gedən kiçik bacısı Zəhra da ora gəldilər.

İsmətin yanına daşınmazdan qabaq İslaminin xanımına qonaq idim. Həmin günlərdə atam, anam və Şahnaz bir dəfə onlara mənə baş çəkməyə gəldilər. Onda atamın vəziyyəti yaxşılaşmışdı, korpusda sürücülük edir, ağır maşınla Tehranla cəbhə arasında gedib-gəlirdi. Atam demişdi ki, oğlu əsir düşməzdən öncə korpusda xidmət etdiyinə görə onun bayrağının yerdə qalmasını istəmir. Onlar da bu fikri çox bəyənmiş, atamın ağır maşınlarla sürücülük təcrübəsinə görə onu korpusun Logistika bölməsinə göndərmişdilər.

Noyabr ayında ciddi qərara gəldim ki, ali məktəblərə qəbul imtahanlarında iştirak edəcəyəm. Bir dəfə Tehrana gedəndə kimya və biologiya kitablarını alıb Əhvaza gətirdim. Bu kitablarla inqilabdan öncədən tanış idim. İşim az olanda oxuyur, testlərini cavablandırırdım.

Avqust ayında imtahanlardan öncə İslami üç təyyarə bileti alıb məni, Şahnazı və xanımını Məşhədə yolladı. Əhvazdan Məşhədə birbaşa uçuş vardı. Özü uşaqların yanında qaldı ki, yoldaşı bir qədər istirahət eləsin. Üçgünlük Məşhəd səfəri çox gözəl keçdi, imtahanlara bir neçə gün qalmış Əhvaza qayıtdıq.

Son üç gündə kitablarımı bağlayıb heç nə oxumadım. Özüm imtahandan məmnun halda çıxdım. Əhvazın Cündi Şapur universitetində imtahan vermişdim.

Bir gün radiodan münafiqlərin Tehranın Topxana meydanında terror törədərək bəzi həmvətənlərimizi şəhadətə yetirdiklərini eşitdim. Həmin günlərdə çox vaxt İsmətgildə olurdum. Bəzən xanım İslami etiraz edir, onun yanında qalmamı istəyirdi. Anam halımızı soruşmaq üçün İslamigilə zəng vuranda ondan terror məsələsini soruşduq. Dedi ki, bir gün evdə oturduğumuz yerdə bütün bina titrədi. Sonra bildik ki, münafiqlər bir TIR yük maşınına bomba yerləşdirib Topxana meydanının yaxınlığında partladıblar. Partlayış o qədər güclü olmuşdu ki, həmin zonanın rabitə sistemini çökdürmüşdü.

Yanvarda atam, anam və Şahnaz yenə Əhvaza gəldilər. Fevziyə tədrislə məşğul idi, Salehə də Tehran və Qum korpusunda fəaliyyət göstərirdi. Mən də hələ İslam Təbliğatı Komitəsində işləyirdim. Şahnaz bir həftə məzuniyyət götürmüş, həmkarlarının birindən onu əvəz etməsini istəmişdi. Əhvazda dörd-beş gün qalıb qayıtdılar.

1983-cü ilin 20 martı idi. Şahnaz yenə Abadana tətilə gəldi. Qərara gəlmişdik ki, ötən il olduğu kimi, builki hicri-şəmsi ili dəyişiləndə də Abadanın Şəhidlər gülzarı məzarlığında olaq. Abadana yola düşdük. Kəfişədə düz polis bölməsinin qabağına çatanda havaya güllə və top atdılar. Əhali bir-biri ilə görüşüb-öpüşdü. Orada dayanıb camaata baxdığımız yerdə qarşımızda bir maşın dayanıb hara getdiyimizi soruşdu. Dedik ki, Şəhidlər gülzarına. Bizi də mindirdi.

Xürrəmşəhrli uşaqlar Abadanın Şəhidlər gülzarı məzarlığında bir yerə toplaşmışdılar. Abkar, Musəvi və Ərcəi şəhidlərinin ailələri də orada idilər. Mahmud Fərruxinin məzarı üstə getdik. Fatihə oxuduğumuz yerdə Firiştə bizi çağırdı. Qardaşı Əlinin məzarına yaxınlaşdıq. Anası və iki kiçik bacısı da orada idi. Əl verib öpüşdük. Firiştə anasına dedi: "Ana, Əlini ən son görmüş adam Sabahdır. Sabah, sən Allah, bizə bir qədər Əlidən danış".

Ürəyim üzüldü. Matəmdə olan bir anaya nə deyə bilərdim?! Firiştəyə çox hirsləndim. Nə deyəcəyimi düşündüyüm yerdə anası dedi: "Sabah can, eşitmişəm ki, oğlumun cəsədi iyirmi günə yaxın isti günəş altında qalıb..."

Tez sözünü kəsdim:

- Vallah, ana, indi sizin şəhidinizin vəziyyətindən danışsam, deyəcəksiz ki, bizə görə belə danışır. Ancaq Allaha and olsun, Əlinin və digər uşaqların cəsədi iyirmi gün günəş altında qalmış şəhid cəsədlərinə oxşamırdı. Yəni Allahın istəyi ilə bədənlərinə həqiqətən, heç nə olmamışdı. Yalnız günəşdən bir qədər dəriləri

qaralmışdı. Allah onlara elə nəzər yetirmişdi ki, gül dəstəsi kimi idilər. Məncə, bu, oğlunuzun və digər uşaqların imanlarına görə belə idi. Bunu yalnız mən demirəm, həmin gün orada olmuş uşaqların hansından soruşsaz, bunu deyəcək. Xoş halınıza ki, belə uşaqlarınız olub!

Mən danışırdım, Firiştənin anası səssizcə ağlayırdı. Yazıq gözlərini dodaqlarımdan çəkmirdi. Yeganə oğlunu son dəfə görmək və qucaqlamaq həsrətini gözlərindən oxumaq olurdu. Xanım Hüseyni kimi onun da oğlu ilə görüşü qiyamətə qalmışdı. Fatihə oxumaq üçün Əlinin qəbri üstə oturdum. Dodaqaltı Həmd surəsini oxuduğum yerdə Firiştə dedi: "Doğrudan, Sabah, təbrik edirəm. Universitetə qəbul olmusan".

– Nə? Universitetə qəbul olmuşam?!

– Hə. Bilmirdin? Bu gün qəzetdə adını oxudum. Necə xəbərin olmayıb?

– Bilirdim ki, bu gün çap olunacaq. Burdan gedəndən sonra Şahnazla baxacaqdım. Əminsən ki, adım vardı?

– Hə. Məgər dünyada neçə Sabah Vətənxah var?! Uşaqlar qəzet almışdılar, mən də sənin adını gördüm. Deyəsən, mamalığa qəbul olmusan.

Firiştə Tehran universitetinin İncəsənət fakültəsinin tələbəsi idi. Deyəsən, fotoqrafçılıq oxuyurdu. Dedim: "Həqiqətən?! Nə maraqlı!"

Şahnazla birgə Şəhidlər otelinə getdik. Orada uşaqlardan qəzeti alıb oxudum. Sari şəhərinə mamalığa qəbul olunmuşdum. Bu fakültəni seçəndə barəsində heç bir məlumatım yox idi.

O zaman Abadanın Teleradio şöbəsinin sədri Qulamrza Rəhbərlə tanışlığımdan bir müddət keçirdi. O, Abadan korpusundan idi, korpusa gedib-gələndə onunla tanış olmuşdum. Rəhbər mənim aparıcı kimi Abadan teleradiosunda çalışmamı istəyirdi. Çətin seçim idi. Hansının xeyrimə

olduğunu bilmirdim: Abadanda qalıb teleradioda işləyim, yoxsa Sariyə gedib təhsil alım? Çox fikirləşəndən sonra qərara gəldim ki, Taliqani xəstəxanası ilə sağollaşıb universitetə gedim.

O zaman universitet mühitlərinin münafiqlər və xalq fədailəri partizanları tərəfindən gərginləşdirildiyini bilirdim. Fikirləşdim ki, Teleradio şöbəsindənsə universitetdə olmağım daha səmərəli olar. Rəhbərə təşəkkür edib universitetə qəbul olunduğumu və Sariyə getmək istədiyimi söylədim.[1] İmam xəttində olan bir tələbə fəaliyyətinin həvəsi ilə universiteti seçdim.

Tətillərdən sonra Şahnazla birgə Tehrana getdim. Aprelin 13-də Sariyə ad yazdırmağa getməli idim. Anamla gedəcəkdim, amma ondan iki gün qabaq Firdovsun birinci uşağı dünyaya gəldi. Mərziyə adlı gözəl və şirin bir qız idi. Ailəmizin ilk nəvəsi idi. O vəziyyətdə gəlişi çox yerinə düşdü, hamımız çox sevindik. Bu münasibətlə Şahnazla özümüzü kinoteatra dəvət edib Səfir filmini izlədik. Yaxşı və mənalı film idi.

Bu baxımdan, anam mənimlə Sariyə gedə bilmədi. Firdovsa və uşağına qulluq lazım idi. Firdovsun yoldaşı Məhəmməd dedi: "Mən apararam, işlərini görərsən". Qatar bileti aldıq, Şahnaz və Məhəmmədlə üçümüz Sariyə yola düşdük.

Kupemizdə mənimlə yaşıd olan hicablı bir qız vardı, atası ilə gedirdi. Qatar yola düşəndən bir neçə dəqiqə sonra Məhəmməd onun atası ilə söhbətə başladı. Bildik ki, o da mənim kimi Sari universitetində Mamalıq fakültəsinə qəbul olub, ad yazdırmağa gedir. Qızın adı Nəsrin Xəbiri idi. Atası inqilabdan öncəki mübarizlərdən olmuş, İslam fədailəri qrupu ilə əməkdaşlıq etmişdi. O, bizə xatirələrindən, SAVAK tərəfindən tutulub işgəncə olunmasından danışdı. Nəsrinlə səmimi dostluğumuz orada başlandı.

---

[1] Qulamrza Rəhbər sonralar müharibədə şəhid oldu.

Qeydiyyat işi bitəndən sonra dedilər ki, dərslər aprelin axırlarında başlayacaq. Dedilər ki, hələlik universitetin yataqxanası yoxdur, özümüzə ev tapmalıyıq. Bu məsələ beynimi çox məşğul etdi. Vəziyyətimiz elə deyildi ki, anamgildən mənə ev tutmalarını gözləyim. Tehrana qayıdıb fikirləşməli idik. Dərslərin başlanmasına bir-iki gün qalmış əşyalarımı toplayıb Salehə ilə Sariyə getdim. Qərara gəlmişdim ki, Sari şəhərinin Qaçqın komitəsinə gedib vəziyyətimi söyləyim, bəlkə kömək edə bildilər.

Sari şəhərinin Qaçqın komitəsinə getdik. Bizə bir çıxış yolu göstərmələrindən ötrü çoxlu danışmağa, şəraitimizi söyləməyə məcbur olduq. Dedim ki, qaçqınıq, vəziyyətimiz yaxşı deyil. Düzünü desəm, çox yaxşı rəftar etdilər. Sonra bildilər ki, Xürrəmşəhr qaçqınlarındanıq, onların şəhərlərində universitetə qəbul olmuşam. Bu onlara çox maraqlı gəldi. Nəhayət, rəhmə gəlib dedilər: "Biz sizə burda ev verə bilərik, ancaq gərək Tehranın Qaçqın komitəsindən məktub gətirəsiz ki, hələlik ata-ananızın himayəsi altında deyilsiz və sizə xüsusi qovluq açmalıyıq. Ordan ayrılmalısız ki, burda işlərinizi görə bilək".

Tez Tehrana qayıtdım, dedikləri məktubu alıb gətirdim. Onlar da dərhal işlərimi düzəldib Fərəhabad qəsəbəsində mənə kiçik bir ev verdilər. Universitetlə təxminən yarım saat arası vardı. Allaha şükür, problemim həll oldu.

Evdə 24 kv metrlik bir zal vardı, oradan ikinci mərtəbəyə pilləkən qalxırdı. İkinci mərtəbə nisbətən böyük balkonu olan yarımmərtəbə idi. Yuxarıdakı pəncərə dənizə açılırdı, gözəl mənzərəsi vardı. Ancaq çoxdan idi heç kim qalmadığına görə təmizliyə ehtiyac vardı. Otaqların taxta tavanını hörümçək toru basmış, hər yeri rütubət iyi bürümüşdü.

Salehə ilə işə başlayıb axşama qədər evi gül kimi təmizlədik. Axşam yorğun halda yerə sərildik. Şəxsi əşyalarımdan əlavə, bir

elektrik çaydanı və iki stəkan gətirmişdik. Yemək bişirmək üçün kiçik qazanımız da yox idi.

Nə edəcəyimizi bilmirdik. Oralarda heç kəsi tanımırdıq. Evin açarını verən kişi demişdi ki, yandakı qonşu Qəsri-Şirindən gəlmiş qaçqındır. Bu haqda fikirləşərkən qapı döyüldü. Qapını açdım. Gözəl gənc bir qız salam verdi, dedi ki, qonşumuzdur və adı Şəmsidir. Çox istiqanlı idi. İcazə alıb içəri girdi. Soruşdu ki, nə iş görmüsüz? Dedik ki, səhərdən təmizliklə məşğul idik, işimiz təzə qurtarıb. Dedi: "Axşam yatmağa bizə gəlin. Döşək və adyalınız yoxdur". Onu tanımadığımıza görə razılaşmayıb təşəkkür etdik. Dedi ki, onda hələlik istifadə etmək üçün bizə adyal gətirəcək.

Axşama Salehə ilə birgə aldığımız sendviçləri yedik. Şəmsi bizə adyal gətirdi, ancaq hava o qədər soyuq idi ki, nə qızışa bilirdik, nə də yata. Axırda çaydanı qaynadıb adyalımızın altına saldım. Qaynar suyun buxarı ilə qızışıb mürgüləyə bildik.

Nəsrin də uşaqların biri ilə Sari şəhərinin mərkəzində bir ev kirayə etdi. Atasının Tehranın Kərimxan prospektində dəftərxana ləvazimatları mağazası vardı, maddi durumları yaxşı idi.

Salehə ilə Tehrana bir qədər ev avadanlığı gətirməyə getdik. Anam mənə kiçik bir xalça, bir neçə qazan, qab-qaşıq və ərzaq hazırladı, bu dəfə özü də qatarla Sariyə getdi. Mən yerləşəndən sonra arxayın olub Tehrana qayıtdı.

Dərslərimiz başlandı. Sinifdə hər cür tələbə vardı. Dindar uşaqlarla bir-birimizi çox tez tapdıq: Mən, Nəsrin, Babuldan Mövlud Ağacani, Behbahandan Nahid və Zöhrə Fiqhi bacıları, Qəsri-Şirindən qaçqın olan və Kərəcdə yaşayan Nəstərən Sultani. Adını xatırlamadığım şahrudlu bir ana ilə yeddi nəfər olurduq. Biz düşüncə və inanc baxımından bir-birimizə çox yaxın idi. Hər şeydən öncə kafedranın bir-iki il idi fəaliyyətsiz qalmış İslam birliyini dirçəltdik.

Müəllimlər arasında fədai partizan və Xalq mücahidləri düşüncəsində olanlar çox idi. Onlar sarıdan çox əziyyət çəkirdik. Bəzi müəllimlər bizim düşüncə və əsaslandırmalarımıza cavab verə bilmədiyini görüb qiymətimizi kəsirdi. Çox vaxt aramızda mübahisə düşürdü.

Xoşbəxtlikdən, kafedra müdirimiz olan Tarinqu soyadlı xanım bizdən idi. Özü Qəsri-Şirindən mama idi, dediyinə görə, müharibə başlayandan şəhərin işğalına qədər ordunun hospitalındakı iş yerində xidmət etmişdi, şəhər işğal ediləndən sonra ailəsi ilə birgə Sariyə gəlmişdi. Onu dəyərli bir kadr kimi universitetə qəbul edib vəzifə vermişdilər, amma gördüyümüz qədərincə, çox incidirdilər. Onun fədai partizanların tərəfdarı olan Əhmədi soyadlı bir xanım müavini vardı. Onun xanım Tarinqu ilə necə tərs düşdüyünü hamı bilirdi. O, Tarinqunu vəzifəsindən uzaqlaşdırmaq üçün əlindən gələni edirdi.

Bir dəfə xanım Tarinqunun bir işi çıxdı və universitetdən getməyə məcbur oldu. Xanım Əhmədi idarəyə zəng vurub yoxlamanı məhz həmin gün universitetə dəvət etdi. Yoxlama gəlib kafedra müdirini soruşanda isə Əhmədi onu birbaşa və dolayısı ilə bacardığı qədər pislədi. Bilirdik ki, bununla xanım Tarinqunun universitetdəki karyerasını təhlükəyə salacaq.

Birinci semesterdə ümumi dərslər götürdük: riyaziyyat, ingilis dili, ərəb dili və ədəbiyyat. Ancaq ikinci semesterdən ixtisas dərsləri başlandı. Qadın və körpə xəstəlikləri, rüşeymlə tanışlıq belə dərslərdən idi. Oxuduqca bəzi məsələlərdən qorxum çoxalırdı. Məsələn, bədənin müxtəlif damar və vətərlərini öyrəndikcə uşaqların Təcili yardım şöbəsində çarəsizlikdən yaraları necə naşıcasına tikdiklərini xatırlayıb pis olurdum.

Uşaqlar nəyin ət, nəyin dəri toxuması olduğunu bilmədən yaraları tikməyə başlayırdılar. Yaralıları ancaq və ancaq Allah saxlayırdı. Çünki oxuduğumuz qədərincə, o tikişlərin hamısı

iltihab edib ciddi problem yaratmalı idi. Bu zaman yalnız bir şeyə görə sevinib Allaha şükür edirdim ki, heç vaxt yara tikməyə cəhd etməmişdim. Bu işdən həmişə çəkinirdim. Səbəbini bilmirəm, amma düşünürdüm ki, öhdəsindən gələ bilmərəm, yöndəmsiz tikiş ataram və özümü heç vaxt bağışlamaram.

Təhsil ala-ala düşüncə və arzularımızdan əl çəkmirdik. Bəzən kafedranın vəziyyətinə dözmək çətin olurdu. Mən də sakit qalan adam deyildim. Məsələn, psixologiya fənninin birinci dərsində müəllim inqilabın və inqilabçıların psixologiyasını təhlil etməyə başlayıb dedi ki, cəmiyyətin adi axınına qarşı olan hər bir hərəkət və cərəyan anormal və xəstə fenomen sayılır! Yavaş-yavaş sübut etməyə çalışırdı ki, inqilabçılar dəlidirlər! Bu zaman uşaqlarla müdaxilə edib müəllimlə mübahisəyə başladıq. Sinifdə çaxnaşma düşdü. Mən dedim: "Müəllim, bu nə məntiqdir?! Məgər belə bir şey mümkündür?! İnqilab edənlər bir baxış əsasında inqilab ediblər. Düşünmüş, mütaliə etmiş, cəmiyyətin ehtiyacını və zülmkar sistemi görüb dözməmişlər. Əslində, zülmü görüb səslərini çıxarmasalar, onda cəmiyyətin psixoloji sağlamlığına şübhə ilə yanaşmaq lazımdır".

Müəllimin nə cavab verdiyini xatırlamıram, ancaq bilirəm ki, tez geri çəkilən adam olmadığına görə mübahisəmiz qızışdı.

Bu məsələlərdən əlavə, fiziki zəifliyimə görə sinifdə çox otura bilmirdim. Halım tez pisləşir, başım gicəllənib ağrıyır, gözlərim qaralırdı. Bir neçə dəfə bayıra çıxıb əl-üzümü yumağa məcbur olurdum. Bu zəiflik evdə də məndən əl çəkmirdi. Vəziyyətim həqiqətən, uyğun deyildi, istirahət və qulluğa ehtiyacım vardı. Dərslərim üzərində fikrimi cəmləyə, tapşırıqları yaza bilmirdim. Buna görə birinci semesterdə bəzi dərslərdən kəsildim.

Özümə söz verdim ki, növbəti semesterdə nəyin bahasına olursa-olsun, dərslərimi çatdıracağam. Elə də oldu. Allahın

köməyi ilə fiziki vəziyyətim bir qədər yaxşılaşdı və dərslərimə daha çox vaxt ayıra bildim.

Semesterin ortalarında xanım Tarinqu xəstələndi. O, təzə ailə qurmuş, uşağa qalmışdı. Hamiləlik zamanı onda anemiya yarandı; qan azlığından çox zəifləyir, özündən gedirdi. Get-gedə vəziyyəti elə oldu ki, daha universitetə gələ bilmədi. Əhmədi də bu vəziyyətdən sui-istifadə etdi, kafedraya o qədər yoxlama çağırıb onu pislədi ki, axırda ayağının altını qazıb özü onun yerinə keçdi.

Bu isə bizim problemlərimizin başlanması demək idi. O vaxta qədər xanım Tarinquya görə bəzi müəllimlərlə birtəhər bacarırdıq, ondan sonra başımıza hansı bəlanın gələcəyi bəlli deyildi. Onun gedişi dindar uşaqlara böyük zərbə vurdu. Hər-halda, kafedra müdiri idi, elmi və düşüncə baxımından ona çox arxayın idik.

Birinci semesterdə ortoped mütəxəssisi olan doktor Əfşarın fiziologiya-1 dərsindən kəsilmişdim. Dərs seçimi zamanı bu dərsi yenidən götürmək istəyəndə xanım Əhmədi dedi: "Yenidən sinifdə oturman lazım deyil. Yayın axırında gəl, imtahanını ver, özüm qiymətini yazaram. Ancaq gərək hazırlaşasan". Fiziologiya asan dərs olmasa da, növbəti semesterdəki fiziologiya-2 dərsində qrup yoldaşlarımla bir yerdə olmaqdan ötrü razılaşdım. Yayın axırlarında imtahan verib 10 aldım. Bu qiyməti əvvəlki qiymətin yerinə yazacaqdılar.

Yeni semesterin başlanmasından az sonra iki semesterdə imtahandan kəsildiyimə və universitetdən ixrac ediləcəyimə dair təhdid kağızını önümə qoydular. Az qalmışdı təəccübdən buynuz çıxarım. Mən yalnız birinci termdə kəsilmişdim, ancaq məktubda iki semestrdən kəsildiyim qeyd olunmuşdu. Araşdırıb öyrəndim ki, xanım Əhmədi mənim xəbərim olmadan belə edib və birlikdə iki dəfə kəsilmiş sayılmışam.

Xanım Əhmədi nəhayət, zəhərini tökmüşdü. Bunun səbəbini bilirdim. Bir müddət idi sinfə gəlib başındakı örpəyini etirazla və təhqirlə çıxarıb stolun üstünə atır, deyirdi: "Bu oyunlar nədir?! Mənim hicaba və bu kimi hoqqalara heç bir inamım yoxdur. Nə lüzumu var ki, adam hicab bağlayıb bu qədər əziyyət çəksin?!" Sonra da hicablı xanımları ürəyi istədiyi kimi aşağılayırdı. Sinifdə kişi olmasa da, bu dırnaqarası müəllimin rəftarı başadüşülən deyildi. Bu müddətdə onun barəsində yaxşı məlumat toplamışdıq, bilirdik ki, bəzi fədai partizan dostları ilə birgə Saridə Peykar qəzetini buraxır.

Xanım Tarinqu gedəndən sonra bu məsələləri bir neçə dəfə ona söylədik, o da Əhmədidən şikayət etdi. Onda da kin qalmışdı, bununla əvəz çıxırdı.

Əhmədi ilə çox mübahisə edəndən sonra universitetə şikayət məktubu yazdım, amma rəhbərliklə əlbir olduğuna görə məktubuma heç kim düz-əməlli cavab vermədi. Odur ki, Tehrana və Tibb universitetinə şikayət etdim.

Əlbəttə, Tehrana getməzdən öncə cümə imamının ofisinə məktub yazıb özümü təqdim etdim və məsələni başa saldım. Cümə imamı inqilabçı ruhani idi, dərdimizi başa düşəcəyini düşünürdüm. Ona yazdım ki, bu xanımın şəhərdəki əks-inqilabçı fəaliyyətləri və Peykar qəzetindəki işləri araşdırılmalıdır. Bunu fiziologiya dərsinin qiymətinə görə etmədim. O, xanım Tarinquya qarşı bu işi görmüşdü, indi də mənimlə belə etdiyini görüb çox sıxılırdım. Məqsədi inqilabçı qüvvələri universitetdən sıxışdırıb çıxarmaq idi.

İslam respublikasında əks-inqilabçı bir adamın vəzifə başına keçib ətrafındakı mömin və inqilabçı uşaqları bir-bir sıradan çıxardığını qəbul edə bilməzdim. Bir müddət idi bəzi müəllimlər də onunla əlbir olub kafedramızın dindar uşaqlarını incidirdilər. Elə bir gün olmurdu ki, hansısa tələbə bir müəllimin pis rəftarından şikayət etməsin.

Yavaş-yavaş iş o yerə çatdı ki, vəziyyətimiz cəbhədən də ağırlaşdı. Yaxşı uşaqlarımızın çoxunun praktik dərs qiyməti aşağı oldu. Onların çoxu universitetə yüksək balla qəbul olmuşdular, haqlarının tapdandığı şübhəsiz idi. Odur ki bir iş görmək lazım idi.

Mənim və digər uşaqların şikayətindən sonra nəhayət, cümə imamının ofisində iclas keçirildi. İclasda Sari şəhərindən ovaxtkı deputat, xanım Əhmədi, kafedranın inqilabçı uşaqlarından mən, Nəsrin, Mövlud, Nahid, Zəhra və Nəstərən iştirak edirdik. Təəssüf ki, iclasdan gözlədiyimiz nəticə əldə olunmadı. Xanım Əhmədiyə yüngül xəbərdarlıq etdilər, bizə də dedilər ki, o, böyük və kafedra müdiri olduğuna görə hörmətini saxlamalısız.

İclasın nəticəsindən o qədər narahat oldum ki, hirsimdən əlimdəki qələmi sıxıb sındırdım. İclasdan sonra özü ruhani olan millət vəkili dedi:

- Bacı, siz nə üçün bu qədər hirsləndiz?

- Mən sizə deyirəm ki, o, dövlət və inqilab əleyhinə fəaliyyətlərlə məşğuldur, sizsə deyirsiz ki, böyük olduğuna görə hörmətini saxlayın!

- Bacı, biz hər şeyi başa düşürük, bu sözlərlə vaxt qazandıq ki, fəaliyyətlərini yoxlayaq və yetərli dəlillər toplayaq. Bu qədər hirslənməniz lazım deyil.

- Allah eləsin, dediyiniz kimi olsun.

Səhiyyə nazirliyinin Təhsil şöbəsinin binası Tehranın Vəliəsr prospektində, Sai parkının yaxınlığında yerləşirdi. Tələbələrin təhsil şikayətlərinə orada baxılırdı. Geniş bir məktub yazıb məsələni Hüseyni soyadlı xanıma bildirdim. Şikayətimin nəticəsi ilə maraqlanmaq üçün gedəndə isə mənə dedi: "Xanım Vətənxah, istəyirsən elə indi sənin 10 qiymətini 20 edim?"

Dedim: "Xeyr, belə bir şey istəmirəm, haqsızlığın durdurulmasını istəyirəm. Gərək elə tədbir görəsiz ki, Əhmədi kimilər tələbələrin başına oyun açа bilməsinlər. Mövcud

dəlillərə əsasən, bu xanım əks-inqilabçıdır və universitetdən ixrac olunmalıdır. Mən bunu araşdırdığıma, bildiyimə görə bu xanım mənimlə tərs düşüb və universitetdən qovdurmaq istəyir".

Dedi: "Belə olmaz, xanım. Gərək sözünə dəlilin olsun. Hər kəs müəlliminə etiqadi və ideoloji bir yarlıq vurub ixrac edilməsini istəyə bilməz. Sənin bunlarla işin olmasın, qiymətinlə və təhsilinlə maraqlan".

O qədər gedib-gəldim, axırda yoruldum. Bilirdim ki, hamısı əlbirdir, ancaq sözümü isbat etmək üçün əlimdə əsas yox idi. Məni o qədər incitdilər ki, axırda təhsildən imtina etmək qərarına gəldim. İmtina məktubumu xanım Əhmədinin otağına aparanda özü orada deyildi. Bir neçə dəqiqə gözlədim, ancaq gəlmədi. Otağında gəzişib stoluna yaxınlaşdım. Stolun üstündə bir kağız gördüm. Xanım Əhmədi Səhiyyə nazirliyinin rəhbərlərindən birinə öz xətti ilə məktub yazmış və mənim başıma açdığı oyunu fəxrlə qeyd etmişdi. Yazmışdı ki, mən bu tələbəni cəzalandırmaq üçün imtahandan kəsmişəm.

Tez məktubu qatlayıb cibimə qoydum və otaqdan çıxdım. Məktubun bir neçə surətini çıxarıb korpus nümayəndəsinə, cümə imamına və Səhiyyə nazirliyinə göndərdim. Bir qədər sonra məni nazirlikdən çağırıb dedilər ki, probleminiz həll olub, bu dərsi bir də oxuyub imtahan verməlisiz.[1]

***

Bir dəfə Tehrandan minik maşını ilə Sariyə gedirdim. Mən öndə oturmuşdum, üç kişi sərnişin də arxada. Sərnişinlərin ikisi əsgər idi. Yola düşəndən bir-iki saat sonra maşının radiosundan "Dayə! Dayə! Müharibə vaxtıdır!" mahnısı verildi. Hələ mahnı bitməmiş təxminən otuzyaşlı ucaboy bir sərnişin söhbətə

[1] Universiteti bitirəndən sonra eşitdim ki, xanım Əhmədi Evin zindanında məhbus həyatı yaşayır.

başlayıb dedi: "Mahnını oxuyan müğənninin özü kürddür, bu şeiri qəhrəman İran xalqının mübarizəsi üçün oxuyub. Ancaq bu ağalar mahnını öz müharibələri üçün müsadirə ediblər. Ümumiyyətlə, bizim müharibəmiz bu tərəflədir, İraqla deyil. Gərək yaranmış fürsətdən istifadə edib bu mürtəce dövlətdən haqqımızı alaq. Biz bu tərəfdə bu qədər xalq mübarizələri ilə məşğuluq, bu dövlətsə əsgərlərimizi dəstə-dəstə cəbhələrə göndərib cəsədlərini gətirir".

Əsgərlərin biri dedi: "Yox, ağa, bu nə sözdür?! Biz əsgərik, vəzifəmiz vətənimizi müdafiə etməkdir. Vətən bizim namusumuzdur".

Cavan dedi: "Siz necə sadəlövhsüz! Hansı qeyrət?! Hansı namus?! Bu sözlərlə sizdən sui-istifadə edirlər".

O vaxta qədər sakit qalıb yalnız sözlərinə qulaq asırdım. İstəyirdim ki, əvvəl hansı dəstəyə bağlı olduğunu bilim, sonra özünə uyğun cavabını verim. Əclaf iki əsgər görüb öz çərənləmələri ilə onları şübhəyə salırdı. Başımı geri çevirib dedim:

- Siz necə fədakar xalqçısız ki, ölkənizin xalqını da tanımırsız?!

- Necə yəni, xanım?

- Bayaqdan xalq-xalq deyirsən, amma kürdlə lorun fərqini bilmirsən. Əvvəla, bu şeir lorcadır, kürdcə deyil, ikincisi, kim deyir ki, bunu xalqçı (xalq mücahidləri) mübarizlər üçün oxuyub?! Bir qədər şeirin mənasına qulaq as, sonra çıxışa başla.

Gənc bir qızdan belə söz gözləmirdi. Üzü nar kimi qızardı.

- Bu sözlərdən sənə nə, xanım?

- Nə oldu?! Gözləyirdin ki, sakit oturum, camaatın beynini zəhərləyəsən?! Həqiqətən, bu qədər dayaz düşüncəlisən?! Düşmən ölkəmizə və şəhərimizə hücum edəndə nə etməliyik?! Oturub əlimizi əlimizin üstünə qoymalıyıq ki, məmləkətimizi

talasın, sonra sizin “fədakar” xalq təşkilatınız gəlib yazıq xalqı xilas etsin?!

- Sən nə danışırsan?! Mənim problemim bu tərəflədir! Bunlar düzəlməyincə bizim vəziyyətimiz belə davam edəcək. Bizim düz-əməlli daxili hökumətimiz yoxdur, ona görə hər kəs sərhədlərimizə əl uzadır!

- Boşuna sözü fırlatma. Sən mürtəce sözünün nə demək olduğunu bilirsənmi? “Mürtəce dövlətdən haqqımızı alaq” deyirsən! İrtica sözü bizə yapışmaz. Mürtəce keçmişinə qayıtmaq istəyəndir. Bizsə belə bir şey istəmirik. Bu qədər şəhid vermişik ki, sənin kimilər bizə mürtəce desinlər?! Yəni biz həqiqətən də inqilabdan öncəki dövrə qayıtmaq istəyirik? Ərbab-rəiyyət dövrünə? Heç olmasa, danışanda işlətdiyin sözləri bir qədər araşdır, fikirləş, gör nə deyirsən!

Daha heç bir söz demədi. Sürücüdən və o iki əsgərdən də səs çıxmırdı, sakitcə məni dinləyirdilər. Təxminən bir saatdan sonra sürücü bir restoranın yanında nahar yeməyinə saxladı. Endim ki, bir az gəzişim, sonra bir tərəfə çəkilib anamın qoyduğu xörəyi yeyim. Namazxanaya doğru getdiyim yerdə həmin iki əsgər mənə yaxınlaşdı. Hiss elədim ki, nəsə demək istəyirlər. Dayanıb onları gözlədim. Dedilər: "Bacı, Allah sizdən razı olsun! Bizi bu adamın şərindən qurtardın. Yavaş-yavaş ona inanırdıq. Allah sizi göndəribmiş ki, bizim beynimizi qarışdırmağa qoymayasan. Bilmirdik ona necə cavab verək".

Sözlərimin təsirli olduğuna görə Allaha şükür etdim. Namazdan və nahar yeməyindən sonra maşına mindik. Gördüm ki, kişi yenə söhbətə başlamaq istəyir. Dedim: "Xalqının, dövlətinin və ölkəsinin əleyhinə danışmaq istəyən bir “xalqçı”nın mənim üçün zərrə qədər də dəyəri yoxdur. Düşmən ölkəyə hücum edəndə var gücü ilə müqavimət göstərməyin bütün xalqın borcu olduğunu bilmirsənsə, sənlə danışıb mübahisə etməyin faydası yoxdur!"

Bu sözü deyəndən sonra küsmüş adam kimi sakit qaldı, düz Sariyə qədər ağzını açmadı.

***

İkinci kursdan xəstəxanada praktik dərslər başlandı. Universitetdə keçdiyimiz nəzəri dərsləri Sarinin İmam Xomeyni xəstəxanasında icra edirdik. Bu məqsədlə xəstəxanaya gedəndə Cərrahiyyə şöbəsinə düşdüm. Bəxtimdən müəlliməm xanım Əhmədi idi. O, lazımi fəaliyyətlər barədə qısa məlumat verəndən sonra tibbi yardım üçün hər tələbəyə bir xəstə verdi. Sağalana qədər o xəstələrə biz qulluq etməli idik.

Orada ağa Nəhəng adlı bir xəstə vardı. Adı və fiziki vəziyyəti o qədər fərqli idi ki, heç vaxt yadımdan çıxmaz. Onda boğaz xərçəngi vardı, ağır cərrahiyyə əməliyyatı ilə boğazını götürmüşdülər. O, ağzından qidalanmırdı. Boğazına iki boru salmışdılar: biri tənəffüs üçün, digəri qidalanma üçün. Yarası elə ağır idi ki, sarğısını yalnız həkimi dəyişdirə bilirdi. Buna baxmayaraq, xanım Əhmədi onu mənə tapşırdı. Əmin idim ki, məndən irad tutmaq, uşaqların önündə pərt eləmək üçün bəhanə axtarır. Damar tapmaqda, iynə vurmaqda problemim yox idi. Təkcə sarğı dəyişdirmək qalırdı ki, onu da çox ehtiyatla görməli idim.

Xəstəni bu şəkildə qidalandırmağa Qavaj deyirdilər. Həkim qavaja gələndə yanında dayanıb nə etdiyinə baxmağa başladım. Maye xörəyi yavaş-yavaş şprislə boruya tökdü. İşi qurtarandan sonra bir maqqaş götürüb borunu bağladı. Maqqaş kiçik bir qayçı boyda idi, özünə görə ağır idi. Hiss etdim ki, xəstə maqqaşın sallanmasından əziyyət çəkir. Fikirləşirdim ki, metal maqqaşı yüngül bir şeylə necə əvəz etmək olar. Təxminən hər bir-iki saatdan bir maqqaşı götürüb qavaj edir, sonra yenə borudan sallayırdılar.

Nəhəngi qidalandırmaq işi üzərimə düşəndən sonra mən də borunu bir-iki dəfə maqqaşla bağladım. Sonra isə kiçik bir şpris

götürüb spirtli pambıqla dezinfeksiya etdim və borunu onunla bağladım. Belə çox yaxşı oldu. Bir gün həkimi gələndə soruşdu ki, borunu kim belə bağlayıb? Elə bildim ki, pis iş görmüşəm. Həyəcanla dedim: "Mən bağlamışam, doktor. Gördüm ki, maqqaş ağırdır, xəstəni incidir". Həkim dedi: "Əhsən, qız! Gözəl və kreativ bir işdir".

Arxayınlaşdım. Sonra üzünü mənə tutub dedi: "Bu xəstə tam istirahət rejimində olduğuna görə onu masaj etmək lazımdır. Əks-təqdirdə, yara yatar və digər problemlər yaranar. Yadınızda olsun, bu dəfə hamam vaxtı mütləq masaj edin".

Bir anlığa nə edəcəyimi bilmədim. Bir tərəfdən, naməhrəmin bədəninə əlimi vurmaq istəmirdim, digər tərəfdən, bilirdim ki, xanım Əhmədi haray-həşir salmaq üçün belə bir fürsət gözləyir. Hamam arabalarından birini xəstənin çarpayısının yanına gətirdim. Sonra tibb qardaşlarının birinə dedim ki, bir saat vaxtını ayırıb mənə kömək etsin. Birlikdə Nəhəngin çarpayısına yaxınlaşdıq, hamam əşyalarını ona verib yuyunduranda necə masaj etməli olduğunu öyrətdim.

Biz məşğul olduğumuz yerdə birdən xanım Əhmədi gəldi. Nəhəngi tibb qardaşının çimdirib masaj etdiyini görüb qışqırdı:

– Xəstəni nə üçün bu oğlan çimdirir? Bəs sən nəkarəsən?!

– Mən xahiş etdim ki, kömək etsin.

– Xəstəni çimdirməyə kömək lazım deyil. Göndər getsin, qalanını özün elə.

– Bağışlayın, amma mən naməhrəm bədəninə əl vurmuram.

Bu sözü deyən kimi sanki ona od vurdum. Başıma qışqırdı:

- Naməhrəm nədir, xanım?! Yığışdır bu söhbətləri! Bu oyunlar nədir çıxarırsan?! Belə oyun çıxaracaqdınsa bu ixtisasa gəlməzdin! Xəstəni çimdirib masaj etmək sənin borcundur!

– Bağışlayın, mən mamalıq oxuyuram, bu işlər mənim vəzifəm deyil. Bunlar tibb bacılarının işidir. Mən bu işləri

görmək istəsəydim, birbaş tibb bacılığına gedərdim. Mən bu ixtisası seçmişəm ki, naməhrəmlə üzləşməyə məcbur olmayım.

O vaxta qədər uşaqlarımızın heç biri xanım Əhmədi ilə belə danışmamışdı. Sözüm məntiqli idi. Cavabı yox idi. Məni başdan-ayağa süzüb getdi. Məsələni bu yerdə qoymayacağını bilirdim.

Ertəsi gün həkim Nəhəngin yanına gələndə məndən soruşdu: "Onun yarasını necə bağlamaq lazımdır?!" Dedim: "Yara sürüşkən olduğuna görə əvvəlcə ətrafını yuyub-təmizləmək lazımdır, sonra içini. Bu zaman yaranın içinə mikrob və çirkin girmə ehtimalı minimuma enər".

Həkimin xoşu gəldi, başını yelləyib dedi: "Bərəkallah! Yaxşı bacarırsan, maşallah!"

İkinci kursun axırlarında ilk dəfə doğuş otağına girdim. İlk iki həftədə yalnız doğuş mərhələlərinə baxıb öyrənməli idik. Müəlliməmiz adını unutduğum hicablı bir xanım idi. İlk iki həftədə yalnız təkərli doğuş çarpayısını həkimin yanına sürür, ona lazım olan alətləri verirdik.

Yavaş-yavaş öyrənib özümüz doğuş işinə rəhbərlik etməyə başladıq. Hər tələbə təhsili dövründə səksən doğuşa həkimlik etməli idi. Get-gedə bu iş o qədər asanlaşdı ki, təhsilim bitənə qədər mənim nəzarətim altında səksən deyil, iki yüz doğuş baş tutdu.

# İyirmi altıncı fəsil:

## *Ərakda praktika*

Tələbəlik dövrü xüsusi ab-havası ilə keçdi. Yayda ailələrimiz yanımıza gəlirdilər. Bir də görürdün bir həftə və ya on gündür ətrafımız doludur. Yay fəslində dənizin havası adamı özünə çəkirdi. Gözəl dövr idi.

1985-ci ilin yayında dərsim bitdi, mamalıq diplomu ilə Tehrana qayıtdım. Həsrətlə uşaqlarla sağollaşıb ayrıldıq. Bu müddətdə bir-birimizə çox bağlanmışdıq. 1984-cü ildə Firdovsun ikinci uşağı dünyaya gəlmiş, adını Hüseyn qoymuşdular. Sevimli və şirin uşaq idi, ailəmizə xüsusi sevinc gətirmişdi. İki ildən sonra da Mehdi dünyaya gəldi.

Dərsim bitəndən sonra bir ilə yaxın praktika keçməli idim. Praktikada Ərəka düşdüm. Yataqxanada uşaqların bir neçəsi, o cümlədən Şükufə və Siminlə otaq yoldaşı oldum. Şükufə ümumi terapevt idi, Simin də tibb bacısı. Xoşbəxtlikdən, onlar da mömin və inqilabçı uşaqlar idilər.

Biz Ərakda olanda şəhərlərin bombalanması gücləndi. Bir gün uşaqlarla nahar yediyimiz yerdə qırmızı vəziyyət elan olundu. Bu zaman göydən bir İraq təyyarəsi keçdi. Sonra yenə ağ vəziyyət elan olundu. Uşaqlara dedim ki, hələ vəziyyət

qırmızıdır, sakitləşməyib, əslində, təyyarələr yuxarı qalxıb gözdən itir, sonra yenə qayıdırlar. Uşaqlar dedilər: "Yox əşi! Bu nə sözdür?! Özləri ağ vəziyyət elan edirlərsə, daha təhlükə sovuşub deməkdir!"

Hələ uşaqların sözü bitməmiş dəhşətli bir gurultu qopdu, bütün yataqxana titrədi. Sanki otağımızın divarlarının bütün kərpicləri yerindən oynadı. Simin çarpayının altına girdi, mənsə yerimdən tərpənmədim, orada dayanıb yavaşca kəlməye-şəhadətimi deməyə başladım. Güclü bombardman idi. Bunu binaların titrəməsindən bilmək olurdu. Vəziyyət bir qədər sakitləşəndən sonra uşaqlarla birgə yataqxanadan çıxdıq. Haranı vurduqlarını bilmək istəyirdik. Camaat qorxu içində oyan-bu yana qaçırdı. Bu səhnələr mənə yad deyildi, Xürrəmşəhr və Abadanda az görməmişdim. Bombaların biri yataqxananın düz arxasına düşmüşdü. Şüşələri sınmışdı, ancaq xoşbəxtlikdən, yataqxanaya ciddi xəsarət toxunmamışdı.

Soruşa-soruşa partlayış yerinə getdik. Bomba qaz balonları doldurulan bir dükana düşmüşdü. Bütün balonlar partlamışdı. Bir bomba da mağazanın yanındakı asfaltın ortasına düşüb böyük bir çala açmışdı. Camaat partlayış yerinə toplaşmışdı, hərə bir söz deyirdi. Qadın və uşaqlar qışqırışırdılar. Hamı çox qorxmuşdu. Sanki qiyamət səhrası idi. Həmin küçədə həyətlərin bütün hasarları dağılmış, mağazaların şüşələri və dəmir jalüzləri yolun ortasına tökülmüşdü. Özünü ələ ala bilənlər evlərə qaçıb yaralıları bayıra çıxarır, xəstəxanaya göndərirdilər. Xəstəxanaya qaçdıq. Bilirdim ki, indi ən çox orada köməyə ehtiyac var.

Oraya çatanda bir anlığa Taliqani xəstəxanasındakı gecəni xatırladım. Onda Piruz məscidini vurmuşdular. Təcili yardım şöbəsində qiyamət idi. Dayanmadan yaralı gətirirdilər. Yaralıların çoxu baş, qol və ayaq nahiyəsindən qəlpə yarası almışdı, tikişə ehtiyacları vardı. Cəbhədə kiçik bir tikiş atmağa

da cürət etməmişdim, amma universitetdə bu işin qaydalarını öyrəndiyimə görə qorxmadan tikirdim. Həmin axşam da tez-tez yaraları tikirdim.

Həmin qaçaqaçda xəstəxanaya iki pilot gətirdilər. Üzləri qəribə halda idi, şok keçirib qorxmuş adam kimi çaş-baş halda ətrafa baxırdılar. Şükufə də onları gördü. Ona dedim: "Şükufə, səhv eləməsəm, bunlar iraqlılardır". Şükufə dedi: "Sabah, sənə nə olub? İraqlı harda idi?! Bunlar öz pilotlarımızdır!"

Maraqlanıb Baş tibb bacısından soruşdum. Dedilər ki, bunlar şəhərimizi bombalayan iraqlı pilotlardır. Qayıdanda Ərakın Hava hücumundan müdafiə qüvvələri zenitlə vurmuş, camaat tökülüşüb onları o ki var döymüşdülər. Hətta birinin başı sınmışdı. Korpus müdaxilə edib onları camaatın əlindən almışdı. Gəlib Şükufəyə dedim: "Təxminim düz imiş. Hər ikisi iraqlıdır!"

Gecənin yarısına qədər bir an da istirahət etmədik. Həmin gecə növbətçi idim. O qədər qaçhaqovdan, operativ işdən sonra gecə saat 12-yə yaxın xəstəxanaya bir hamilə gətirdilər. Əsas iş yerim olan doğuş otağına girdim. O qədər yorğun idim ki, özümdən gedirdim. Birdən bütün otaq gözümə qırmızı və qanlı göründü. Diqqətimi toplaya bilmirdim. Mat-məəttəl anaya baxdığım yerdə əraklı uşaqların biri yaxınlaşıb zarafata dedi: "Əlini mənə ver, yaxşı qız. Gəl gedək, bir az istirahət elə". Bunu deyib məni bayıra çıxardı, istirahət çarpayısına qədər aparıb qatı şərbət verdi. Hamısını içənə qədər gözlədi. Sonra məni çarpayıya uzatdı, ayaqlarımın altına iki balış qoyub soruşdu: "Sənə serum qoşum, yoxsa yox?" Dedim ki, yox, ehtiyacım yoxdur.

Bombardman vaxtı xəstəxananın işçiləri və yol yeriyə bilən xəstələrin çoxu sığınacaq yerinə gedirdi. Bəzi həkimlər xəstəxananın yaxınlığındakı Məvutə adlı bir kənddə ev kirayə

etmişdilər, orada yaşayırdılar. Deyirdilər ki, bu kənd xəritədə yoxdur, kor nöqtə və şəhərin hər yerindən təhlükəsizdir.

Xəstəxanaya gəlişimdən bir qədər keçirdi. Hər dəfə qırmızı vəziyyət elan olunanda hamı sığınacağa qaçırdı, mənsə palatada xəstələrin yanında qalırdım. Onları tək qoyub getməyə ürəyim gəlmirdi.

Bir dəfə düşündüm ki, görüm, bu sığınacaq necə yerdir. Bir də qırmızı vəziyyət elan olunanda digərləri ilə birgə oraya qaçdım. Yolda gördüm ki, xidməti işçilərin ikisi qaça-qaça özləri ilə stul aparır. Dedim ki, bunları hara aparırsız? Dedilər ki, xəstəxananın rəisinə və xanımına aparırıq. Xəstəxananın rəisi qadın xəstəlikləri mütəxəssisi, xanımı da uşaq həkimi idi.

Sığınacağa getdik. Xəstəxananın pilləkənlərinin altında yerləşən nisbətən açıq ərazi idi. Arxasında xəstəxananın həyəti yerləşirdi; başdan-başa şüşə ilə sığınacaqdan ayrılırdı. Xəstəxananın benzin və dizel ehtiyatları orada saxlanırdı. Gülünc idi! Məlum deyildi ki, ora sığınacaqdır, yoxsa qətlgah! Həyətdə iki böyük benzin və dizel tankeri vardı, dırnaqarası sığınacağın arasında da böyük şüşə! Orada iki-üç həmkarıma dedim ki, bura sığınacaq yox, xəstəxananın ən təhlükəli yeridir. Yaxşısı budur ki, qırmızı vəziyyət elan olunanda digər xəstələr kimi palatada qalaq. Dedilər: "Vay! Nə üçün?" Dedim: "Çünki burda iki yanacaq tankeri var, ortada da böyük şüşə. Əgər xəstəxananın bir yerini vursalar və bu tankerlər partlasa, hamımız kömür olacağıq. Üstəlik, bu şüşənin qırıqları hamımızı aşsüzənə döndərəcək!"

Həmin gün ötdü. Bir müddət sonra gecə saat 2-də qırmızı vəziyyət zamanı bir qadını doğuşa gətirdilər. Təxminən 35 yaşı olardı. On beş ildən sonra dava-dərmanla uşağa qalmışdı. Qırmızı vəziyyətə və hamının üzündəki qorxu və vahiməyə görə yazıq çox qorxmuş, ağrısı dəfələrlə çoxalmışdı. Uzun müalicədən sonra uşağa qalmış belə xəstələr mütləq qeysəriyyə

əməliyyatı olunmalıdırlar ki, doğuş riski minimuma ensin və uşaq dünyaya sağlam gəlsin.

Şöbədə heç bir cərrah yox idi. Həmin gecə xəstəxananın rəisinin növbəsi idi, yerini xəstəxananın hindistanlı həkimi ilə dəyişmişdi. Qeysəriyyə əməliyyatı edən hindistanlı bir cərrahımız vardı. O da həmin gecə kəndə getmişdi. Xəstəxananın rəisinə zəng vurub məsələni söylədim. Dedi ki, ona bir saat vaxt ver, bəlkə təbii şəkildə doğa bildi. Bir saatdan sonra yenə zəng vurdum. Dedi ki, ona bir saat da möhlət ver.

Qadın dayanmadan qışqırıb ağlayır, yalvarırdı: "Sən Allah, kömək edin! Ölürəm!" Ona görə çox narahat idim. Güclü ağrıdan tələf olurdu.

Hindistanlı həkim bir iş üçün kəndə getmişdi, qayıtmalı idi, amma o qədər gecikdi ki, bütün bədəni göyərmiş kök oğlan uşağı anasının qarnında boğuldu. Çox pis oldum. Yazıq on beş ildən sonra analıq hissini dadmaq istəyirdi, ancaq uşağı ölü doğulmuşdu. Özümə nəzarət edə bilməyib həkimlə dalaşdım. Ona dedim:

- Siz hansı haqla bu qədər gecikdiz ki, axırda camaatın uşağı öldü?!

- Bunun sənə dəxli yoxdur!

- Çox dəxli var. Bu yazıq on beş ildən sonra uşaq gözləyirdi. Nə qədər pul xərcləmiş, çoxlu müalicə almışdı, sizsə səhlənkarlığınıza görə sağlam uşağı öldürdünüz...

- Mənim siz iranlılar qarşısında öhdəliyim yoxdur. Müharibə şəraitində, atəş altında sizə xidmət etməyim böyük yaxşılıqdır!

- Zəhmət olmasa, yaxşılığını apar öz ölkənə, öz xalqına elə ki, küçədə acından ölməsin!

Bu sözümə çox hirslənib oradan uzaqlaşdı. Nə baş verdiyini uşaqlara söylədim. Sonra dedim ki, kaş burada xəstəxana üçün bir sığınacaq düzəldəydilər, belə şəraitlərdə həkimlərə bu qədər

yalvarmazdıq! Uşaqların biri dedi: "Get, bu təklifi söylə". Dedim ki, kimə? Dedi ki, İcra hakimiyyətinin Müharibə şöbəsinə.

Ərak Müharibə komitəsinin İcra hakimiyyətində yerləşdiyini bilirdim. Nömrəsini tapıb səhər çağı zəng vurdum. Kim olduğunu bilmədiyim bir kişi dəstəyi götürdü. Mən də şikayətlənməyə başladım ki, siz ancaq özünüzü düşünürsüz, camaatın canının sizə zərrə qədər də dəyəri yoxdur və s. O, dəstəyi başqa birinə verdi. İkinci adam soruşdu ki, kimsən və haradan zəng vurursan? Dedim ki, xəstəxana işçilərindənəm. Sonra gecə baş vermiş hadisəni danışdım. Allah şahiddir ki, bu sözləri deyəndə niyyətim xəstəxana və sığınacaq barədə tədbir görmələri idi. İstəyirdim ki, belə şəraitlərdə hamı xəstəxanadan çıxmasın və xəstələrin canı təhlükəyə düşməsin. Ancaq bilmirdim ki, bu iş bir növ şikayət etmək sayılır və xəstəxananın rəisi sonra məndən əvəzini çıxacaq!

Müharibə komitəsindəki adam soruşdu: "Qırmızı vəziyyət zamanı həkimlər nə üçün Məvutəyə gedirlər?" Dedim: "Görünür, ora digər yerlərdən təhlükəsizdir".

Sakitcə məni dinləyən adam özündən çıxıb dedi: "Qələt edib ora gedirlər. Heç kim özbaşına xəstəxananı tərk edə bilməz!"

Həkimlərin bu işinin qeyri-qanuni olduğunu, onların belə vəziyyətdə xəstəxananı tərk etməməli olduqlarını bilmirdim. Bilsəydim, əvvəlcə özüm xəstəxananın rəisi ilə danışardım, dinləməsəydi, müharibə otağına və digər yerlərə gedərdim.

Ona dedim ki, xəstəxananın işçi və xəstələri üçün yaxınlıqda təhlükəsiz bir sığınacaq düzəltsinlər, belə vaxtlarda həkimlər uzağa getməsinlər. Sonra da sağollaşıb dəstəyi yerinə qoydum. Bu xəbər xəstəxana rəisinə gözlədiyimdən də tez çatdı. Məni rəisin otağına çağırdılar. Üzü nar kimi qızarmışdı. Dərhal çığırıb-bağırmağa başladı. Tez-tez deyirdi: "Bu həddə çatmısan ki, mənim xəstəxanamdan yuxarılara şikayət edirsən?!"

Uşaqlardan hansısa məni satmışdı. Rəisin imkanı olsaydı, məni vurardı. Mənə ürəyi istəyəni söylədi. Deyirdi: "Sən özünü nə zənn edirsən? Sadə bir mamasan. Gəlib növbəni çəkib getməlisən. Artıq-əskik danışmaq sənə qalmayıb!" Çox dedim ki, vallah, sizdən və xəstəxanadan şikayət etmək niyyətim yox idi, yalnız bu vəziyyətə bir çıxış yolu tapmaq istəyirdim. O isə dinləmir, inanmırdı. Mən çox narahat oldum. Rəftarı həqiqətən, təhqiramiz idi. Ağlamayım deyə özümü zorla saxladım. Otağımdan çıxıb şöbəyə qayıtdım. Bir neçə gün narahat və hövsələsiz oldum. Nəhayət, eşitdim ki, icra hakimi xəstəxananın yaxınlığındakı sənaye qəsəbəsində yerləşən milli ayaqqabı zavodunun zirzəmisini xəstəxanaya verib.

Xəbəri eşidib sevindim. Standart beton zirzəmini görəndə xəstəxana rəisinin bütün təhqir və çığırtıları yadımdan çıxdı. Allaha şükür, etirazım bəhrəsini vermişdi. Zirzəmi o qədər böyük idi ki, bütün xəstəxananı ora köçürdülər. Ondan başqa, həmin qəsəbədə yerləşən bir otelin üçüncü mərtəbəsini də işçilərin istirahəti üçün ayırdılar.

# İyirmi yeddinci fəsil:

## *598 Saylı qətnamə*

1986-cı ilin avqustu idi. Ərakdan təzə gəlmişdim. Bir gün sübh çağı anam məni oyadıb dedi: "Sabah, korpusun mağazasına gedirəm. Yarım saatdan sonra Abbası göndər, gəlib mənə kömək eləsin".

Korpusun mağazası evimizin yaxınlığında, Ustad Nicatullahi prospektində yerləşirdi. Atam halsız olandan sonra evin alış-verişi anamla bizim üzərimizə düşmüşdü. Anam gedəndən təxminən yarım saat sonra Abbası yuxudan oyadıb dedim: "Get, anaya kömək elə. Mağazada səni gözləyir". Tez hazırlaşıb getdi.

Abbas gedəndən beş dəqiqə keçməmiş birdən yer-göy titrədi, binamızın bəzi şüşələri gurultu ilə qırılıb töküldü. Bir anlığa özümü itirdim. Yerimdə mıxlanıb qalmışdım, heç nə fikirləşə bilmirdim. Partlayışın səsi o qədər güclü idi ki, reaksiya imkanını itirmişdim. Bir qədər sonra anamla Abbas yadıma düşdü. Tələm-tələsik hazırlaşıb evdən çıxdım. Təsəvvürümdə ancaq Abbasın parça-parça olmuş bədəni canlanırdı. O yalnız bir neçə dəqiqə idi evdən çıxmışdı. Az sonra Firdovsi meydanının ortasında qolu və başı olmayan bir yol polisinin cəsədi yanında dayanmışdım. Ora çox tez getmiş, hətta komitə

adamlarından da qabaq çatmışdım. Yavaş-yavaş Firdovsi meydanının yaxınlığındakı 9 saylı komitənin uşaqları partlayış yerinin ətrafına toplaşıb ip çəkməyə, camaatı oradan uzaqlaşdırmağa başladılar. Camaat mat-məəttəl baxırdı. Polisin cəsədindən iki metr aralıda, səkinin üstündə bir ana ilə uşaq cəsədi vardı. İkiyaşlı uşağın başının bir hissəsi qopub yola düşmüşdü.

Ətrafıma göz gəzdirdim. Dayandığım yerin sol tərəfində bir avtobus yanırdı. Avtobus meydanda dövrə vurarkən arxa tərəfi bombaya tuş gəlmişdi, arxa cərgələrdəki bütün sərnişinlər şəhid olmuş, öndəkilər yaralanmışdı. Komitə uşaqlarının və polislərin danışıqlarından belə başa düşdüm ki, Firdovsi meydanının şimal-şərq hissəsində bir maşına yerləşdirilmiş bomba partlamışdı.

Yolda dayanıb gözümlə Abbası axtardığım yerdə Zəhra Hüseyni tələsik yanıma gəldi. Partlayış yerinə gedən ilk adam olduğuma və ətrafda Abbası axtardığıma görə komitə üzvləri məndən şübhələndilər. Onların biri mənə yaxınlaşanda bunu başa düşdüm. Həmin adam dedi: "Bağışlayın, bacı, sizə bir neçə sualımız var. Lütfən mənimlə komitənin ofisinə gəlin.

Əvvəlcə adımı və soyadımı, evimizin ünvanını soruşdu. Sonra dedi ki, səhər tezdən Firdovsi meydanında nə işin vardı? Məsələni ona söylədim. Məndən sonra Zəhranı çağırıb bir neçə sual verdi. Cavablarımızda ziddiyyət olmadığını, özümüzün də cəbhə uşaqlarından olduğumuzu görüb üzr istədilər.

Evə getdik. Bir-iki saatdan sonra anamla Abbas gəldi. Partlayış baş verdiyini söylədik. Əlbəttə, biz Xürrəmşəhrdə o qədər partlayış görmüşdük ki, bizim üçün yeni bir şey deyildi, amma tehranlıların reaksiyasını bilmək istəyirdim. Anam dedi: "Sabah, biz talonla satılan malların növbəsində dayanmışdıq. Partlayış səsi ora da gəldi, ancaq inanmazsan, növbə əsla tərpənmədi. Heç kimin vecinə deyildi. Bizi desən, bu şeylərdən

çox görmüşük. Amma bu tehranlılar, maşallah, zərrə qədər də qorxmadılar. Sanki bir neçə metr aralıda bomba partlamamışdı".

Növbəti ilin yanvarında Abbas Kərbəla-5 əməliyyatında iştirak etdi. Bu onun cəbhəyə ilk gedişi deyildi. 1983-cü ildə, 15-16 yaşlı yeniyetmə olanda da Kürdüstana getmişdi. Yeniyetmə bir döyüşçünün hörgüt və demokrat qüvvələri ilə mübarizə xatirələrini eşitmək maraqlı idi. Deyirdi ki, gecələr pusquda duranda yerimiz bilinməsin deyə atəş açа bilməzdik. Bir dəfə bir qaraltının mənə yaxınlaşdığını gördüm. Əvvəlcə elə bildim ki, heyvandır. Nəfəsimi saxlayıb tərpənmədim. Az sonra gördüm ki, kürd paltarı geyinmiş bir kişidir, dişlərinin arasında bir xəncərlə mənə yaxınlaşır.

Nə edəcəyimi bilmirdim. Yavaşca kəlmeyi-şəhadətimi dedim. Bilirdim ki, əlbəyaxa döyüş olsa, məğlub olacağam. Özümü hər bir hadisəyə hazırlamışdım. Gözləyirdim ki, bir neçə dəqiqədən sonra sinəmdə oturub başımı kəsəcək. Yalnız Allaha təvəkkül edə bilirdim. Ürəyimdə Ondan kömək istədim. Bütün ümidim Allaha idi. Ömrümdə heç vaxt Ona bu qədər ümid bəsləməmişdim. Dodaqaltı Allahı çağırdığım yerdə kişi birdən yolunu döndərib başqa səmtə getdi. Orada Allahın lütfünü yaxından hiss etdim.

Kərbəla-5 əməliyyatından sonra bir müddət Abbasdan xəbərimiz olmadı. Nəhayət, bir gün xəstəxana paltarında, qolu sarılmış halda evə gəldi. Baş, sinə və qol nahiyələrinə on beşdən çox qəlpə dəysə də, hamımız, xüsusən də anam onun yaşadığını görüb çox sevindik. Bir qədər sonra hamımız onu dövrəyə aldıq ki, bir ay yarım öncəki əməliyyat barədə danışsın.

Abbas bu əməliyyatda ilk hücuma keçən batalyonların birində olmuşdu. O deyirdi:

"Əməliyyat üçün bizi bir yerə apardılar. Hara olduğunu demədilər. Lakin oradan Bəsrənin neftayırma zavodunun qüllələri görünürdü. Biz irəliləyib keçid açmalı və mühasirəyə

düşmüş diviziya geri çəkilməli idi. Batalyonumuzda 250 döyüşçü vardı. Hamımız hücuma keçdik. Komandirlərimiz deyirdilər ki, orada Səddamın xüsusi təyinatlı qüvvələrindən ibarət bir diviziya var. Əməliyyat başlandı və başımıza atəş yağmağa başladı. Əməliyyat zamanı bəsicilərlə birlikdə bir düşmən xüsusi təyinatlısını tutduq. Ancaq o qədər iri cüssəli və güclü idi ki, on nəfərlə onunla bacara bilmirdik. Nərə çəkib fırlanır, əlindəki kiçik xəncərlə uşaqlara hücum edirdi. Axırda yanımızdakı bir pasdar onu yerə yıxıb işini bitirə bildi.

Kərbəla-5 əməliyyatında ağır döyüşlərimiz oldu. İrəliləmə əmri verildiyinə görə nəyin bahasına olursa-olsun, bütün maneələrdən keçməli idik. Biz irəlilədikcə düşmənin atəşi də güclənir, şəhid və yaralılarımızın sayı artırdı. O qədər irəlilədik ki, 250 nəfərdən yalnız bir neçəsi qaldı. Ondan sonra geri çəkilmə əmri verildi. Çox hirsləndik. O qədər irəliləyəndən, şəhid və yaralı verəndən sonra əliboş geri qayıtmalıydıq. Əsəbdən bədənimiz əsirdi, ancaq tabe olmaqdan başqa yolumuz yox idi.

Qayıdanda da vəziyyət elə idi. İraqlılar hər nəfərimiz üçün ondan çox mərmi atırdı. Kalaşnikov və snayper atəşləri də öz yerində! Axırda iş o yerə çatdı ki, 250 nəfərlik bir batalyondan yalnız üç nəfər yaralı halda qayıda bildik. Geri qayıdandan sonra yaralıları, o cümlədən məni Təbrizə göndərdilər".

Abbas danışıb qurtarana qədər hamımız ağlayırdıq. Yoldaşlarının başına gələnlərə görə o qədər həyəcanlanmışdı ki, bədəni əsirdi. Anam onu əzizləyir, ona qurtum-qurtum şərbət verirdi.

***

Salehə 1987-ci ildə ailə qurdu. Yoldaşı Firdovsun həyat yoldaşı Məhəmmədin dostlarından olan Qulamrza idi. Ticarət idarəsində işləyən yaxşı və mömin gənc idi. Kuşk binasındakı evimizdə kiçik bir qonaqlıq verib bəylə gəlini evlərinə yola

saldıq. O vaxt Tehranda güclü bombardmanlar olduğuna görə camaat geniş toy mərasimlərinə maraqlı deyildi. Ümumiyyətlə, buna şərait yox idi. Onlar Ərbab Cəmşid prospektində kiçik bir ev kirayə etmişdilər.

Möhsün də cəbhəyə getmişdi. O, 1988-ci ilin yanvarında qayıtdı. Danışmağa bir dünya sözü vardı. O, kiçik qardaşımız idi, 18 yaşı vardı, hələ hərbi xidmətə getməmiş könüllü şəkildə cəbhəyə yollanmışdı. Onun Fəth-5 əməliyyatına dair maraqlı xatirələri vardı. İraqın Süleymaniyyə şəhərində keçilməsi çətin olan dağlıq bölgələrdə uzun piyada yolçuluqları, yoldakı qəribə və qorxunc dərələrdən qatırla keçmələri çox maraqlı idi.

O günlərdə Səddam Hələbçəni kimyəvi silahlarla vurmuşdu. Televiziyadan Səddamın vəhşiliyinə və qaniçənliyinə dair üzücü səhnələr göstərilirdi. Bu caninin öz ölkəsinin əhalisi ilə belə rəftar etdiyinə inana bilmirdim. Əlbəttə, əvvəllər eşitmişdim ki, Səddam İraq kürdlərini sevmir, ancaq köməksiz Allah bəndələrini bu şəkildə məhv edəcəyini düşünməzdim.

Ərakda icbari xidmət dövrüm 12 ay çəkdi, sonra Tehrana qayıtdım. Bir yerdə işləmək istəyirdim. Tehran universitetinin işçi götürdüyünü eşidib 1988-ci ilin əvvəllərində imtahanda iştirak etdim. İmtahanın cavabı təxminən iki ay sonra gəldi. Allahın köməyi ilə qəbul olmuşdum. Tehran-Pars meydanında Tehran universitetinin Arəş adlı bir xəstəxanası vardı. Oranın Doğum şöbəsində mama kimi fəaliyyətə başladım.

Birləşmiş Millətlər Təşkilatı ilk dəfə 1987-ci ildə, İran və İraq dövlətlərinə təklif etdiyi atəşkəs qətnaməsində əsirlərin azadlığından söz açmışdı. O vaxta qədər əsirlərdən söhbət getmirdi və biz təxminən hər yeddi-səkkiz aydan bir Əlidən məktub alırdıq. Qətnamə və atəşkəs mövzusu həmişə İranın böyük qələbələr əldə etdiyi zaman ortaya atılırdı. Belə vaxtlarda "humanist" dairələr əl-ayağa düşür, müharibəni bitirməyə dair təkliflərini irəli sürürdülər.

1988-ci ilin 18 iyulunda 598 saylı qətnamənin İran tərəfindən qəbul edildiyini eşidəndə sanki başımıza bir qazan qaynar su tökdülər. Həmin gün xəstəxanada cavabdeh şəxs idim. Bir anlığa yerimdə quruyub qaldım. Eşitdiklərimə inana bilmirdim. Öz-özümə mızıldanırdım ki, niyə indi? Nə üçün Favı aldığımız zaman atəşkəs təklif etmədilər? O vaxta qədər şüarımız bu idi: "Fitnənin kökü kəsilənə qədər: Müharibə! Müharibə! Müharibə!" Səddam adlı fitnənin kökünün kəsilməsinə indi də çox qalırdı. Biz İmam Xomeyninin "Qüdsün yolu Kərbəladan keçir" sözünə inanıb o vaxta qədər səbirlə müqavimət göstərmişdik, Bəəs partiyasının şərinin İraqdan uzaqlaşdırılacağına, Kərbəlanın fəthindən sonra Qüdsə gedəcəyimizə ümid bəsləyirdik. Bu vəziyyətdə qətnamənin qəbul edilməsini həzm edə bilmirdik. İmam Xomeyninin bu qətnaməni qəbul etməklə sanki zəhər içdiyini söylədiyini eşidəndə isə dərdimiz daha da çoxaldı.

O günlərdə atam bir həftə idi xəstəxanaya gedib-gəlirdi. Favda iştirak etdiyinə görə qarın nahiyəsində problem yaranmışdı. Əvvəlcə güclü dəri qaşıntısı ilə özünü göstərdi, get-gedə göynərtiyə və yaraya çevrildi. Qarnının içində də güclü ağrılar vardı. Vəziyyəti yaxşı deyildi. Qətnamə xəbərini eşidəndən sonra isə hirsləndi və halı daha da pisləşdi. Ona çox ürəyim yanırdı. Yazıq gözlərimiz önündə əriyirdi və əlimizdən heç nə gəlmirdi.

Hamımız narahat idik. Onda Firdovs Kuşk binasının dördüncü mərtəbəsində qalırdı. Məhəmməd iki il idi daim cəbhəyə gedib-gəldiyinə görə Firdovsu və uşaqları bizim yanımıza gətirmişdi. Müharibənin bu şəkildə bitməsindən matəmə düşmüş, həm biz, həm də Firdovsgil qapılarımızdan qara bayraq asmışdıq. Qətnamənin qəbul edilməsindən sonra hərə öz təhlilini söyləyirdi. Bəziləri çox sevindiklərindən çırtma çalır, bəziləri də bizim kimi yas saxlayırdı.

***

Qətnamənin qəbul edilməsindən bir neçə ay ötdü. Atamın vəziyyəti günbəgün pisləşirdi. Əvvəllərdə, yəni təxminən il yarım öncədən soyuqlamış adam kimi idi. Köhnə bir soyuqdəymə sanki bitmək bilmir, canına qəsd edirdi. Buna baxmayaraq, korpusda işini davam etdirirdi. Həmin günlərdə bir dəfə komandiri demişdi ki, hacı, sizin soyuqdəyməniz nə üçün sağalmır? Bir həkimə get, analiz ver, gör problem nədir. Sonra özü ona bir həkim adı söyləmişdi.

Həkim atamı ağciyərinin şəklini çəkməyə göndərmiş, sonra ağciyərinin bir hissəsinin qaraldığını bilmişdi. Ona bir analiz də yazıb cavabını gətirməsini söyləmişdi. Onda Fevziyə Tehran universitetinin rəsmi işçisi idi, İmam Xomeyni xəstəxanasının mərkəzi kitabxanasına da rəhbərlik edirdi. O, atamı xəstəxanaya aparmışdı, orada bir neçə analiz götürmüşdülər. Analizlərin cavabı şübhəli idi. Buna görə dedilər ki, ağciyərindən nümunə götürmək üçün Şəriəti xəstəxanasına getməlidir. Orada da dedilər ki, gərək əməliyyata girsin.

Hamımız narahat olduq. Bir soyuqdəymə bununla nəticələnə bilməzdi. Beynim daim məşğul idi. Fikirləşirdim ki, bir şey olar, atamın vəziyyəti yaxşılaşmaz, Əlini görmək həsrəti ürəyində qalar. Qətnamə qəbul olunmuşdu, əsirlərin qayıdışından söhbət gedirdi.

Xəstəxanada dedilər ki, nümunə götürəcəyimiz gün dörd cür qana ehtiyacımız olacaq. Odur ki gələndə özünüzlə qan verməyə dörd nəfər gətirin. Mən, xanım Huşməndin oğlu, Firdovsun yoldaşı Məhəmməd və Fevziyə ilə birlikdə xəstəxanaya getdik. Çarpayıya uzanıb qan verirdim. Şahnaz da başım üstə dayanmışdı. Hiss edirdim ki, qan yerinə damarlarımdan canım çıxır. Bir anlığa ətrafımda hər yer qaraldı. Bu zaman Şahnaz tələsik və həyəcanla otaqdan çıxıb bir tibb bacısı ilə qayıtdı. Tibb bacısı tez rezini qolumdan açdı, torbanı yuxarı qaldırdı ki, qan damarıma qayıtsın. Dedi: "Bunun

özünün qana ehtiyacı var, kim deyib ki, qan versin?!" Dedi ki, əgər öz qanı ilə yaxşılaşmasa, gərək əlavə qan köçürək.

Cəbhədən qayıdışımdan bir neçə il ötsə də, fiziki zəifliyim aradan qalxmamışdı. Qanımı öz bədənimə köçürəndən sonra bir stəkan qatı şərbət də verdilər. Halımın yaxşı olduğunu söyləyəndən sonra evə buraxdılar. Atamın vəziyyətini soruşanda Şahnaz dedi:

– Əməliyyat otağında xüsusi bir iynə ilə arxadan ağciyərinin bir hissəsini götürüb patologiyaya göndərdilər.

– Bu ki ayaqüstü bir əməliyyatdır!

– Hə, xüsusi bir iş görmədilər.

– Bəs üç nəfərdən aldıqları qan nədən ötrü idi?

– Bilmirəm, vallah! Ancaq atama lazım olmadı.

Fevziyə bir neçə gündən sonra patologiyanın cavabını aldı. Məlum oldu ki, 1980-ci ilin oktyabrında dəymiş qəlpənin yeri yaraya və zaman ötdükcə xərçəng vəzisinə çevrilib. Əvvəllər həmişə ağrıdığını söyləyir, biz də fikir vermirdik. Onda yarasının içi hələ yaxşılaşmayıbmış. Allah bilir, bu xəbəri eşidəndən sonra hansı hala düşdük! Bütün həyəcanlar və pis fikirlər yenidən beynimə dolmağa başladı. Qarşıda daha bir imtahanımız vardı. Allahdan istədim ki, bizə kömək etsin.

Atamın müalicəsi başlandı: kimyaterapiya, halsızlıq, solğunluq və saç tökülməsi... Ağır günlər idi. Buna əsla hazırlığımız yox idi. Ailəmizə pis ab-hava hakim idi. Qəriblik və qaçqınlıq bir tərəfdən, atamın xəstəliyi, get-gedə əriməsi də digər tərəfdən bizi çox halsız, hövsələsiz etdi.

Bir gün sübh namazı vaxtı atam evin küncündə səccadə üzərində oturub bərkdən ağlamağa başladı. Çox qorxduq. Elə bildik ki, ağrısı başlayıb. Tez onu dövrəyə alıb nə baş verdiyini soruşduq. Gördük ki, Əli üçün darıxdığına görə ağlayır və dodaqaltı deyir: "Əli can! Mən səni düz-əməlli görmədim, oğlum... Sən balaca olanda mən ancaq bu şəhərdən o şəhərə

gedirdim, evdə tapılmırdım. Böyüyəndən sonra da müharibə başladı, evdə qalmadın ki, boy-buxununa doyunca baxım. On yeddi yaşında da əsir düşdün".

Hamımız ağlamağa başladıq. Sanki rövzə oxuyurdu. Onu heç vaxt belə narahat görməmişdik. Darıxmağı çoxalmış, səbir kasası dolmuşdu. Sübh tezdən hamımız doyunca ağlayıb bir qədər sakitləşdik. Atamın xəstəliyi bir il yarım çəkdi. Son günlərində daim xəbərləri izləyir, ona hər gün qəzet alırdıq. Əsirlərin azad edilməsindən yeni xəbər eşitmək istəyirdi. Lakin bunların heç bir faydası olmadı. Atam 1989-cu ilin 19 yanvarında böyük oğlunun həsrəti ilə dünyadan köçdü. O, evimizin dirəyi idi. Elə kişilərdən idi ki, həyatımızın bütün idarəsi onun əlində idi, sözü qanun idi. Onun yoxluğunu əsla təsəvvür edə bilmirdim. Kaş bu çətin günlərdə Əli yanımızda olaydı!

# İyirmi səkkizinci fəsil:

## *İmam Xomeyninin dəfni*

1989-cu ilin mayında İmam Xomeyninin xəstələndiyini eşitdik. Nədənsə bu xəbəri eşidərkən narahat olmaq yerinə hirsləndim. Həqiqətən, inanırdım ki, bu inqilabın bayrağını İmam Mehdiyə (ə) o verəcək "Xudaya! Xudaya! Mehdinin inqilabına qədər Xomeynini saxla!" şüarına ürəkdən inanırdıq. Buna görə də, imamın xəstələndiyini qəbul edə bilmirdim.

Mayın 26-da televiziyadan İmam Xomeyninin mədə qanaxmasına görə əməliyyat olunacağını eşidəndə bu narahatlıq pik həddinə çatdı. Camaat dəstə-dəstə məscid və hüseyniyyələrə axışıb onun sağalmasından ötrü dua edirdi. Xoşbəxtlikdən, cərrahiyyə əməliyyatı yaxşı keçdi, ancaq ürək narahatlığı davam etdiyinə görə hələ xəstəxanada yatmalı oldu.

İyunun 3-də Arəş xəstəxanasının Qadınlar şöbəsində oturmuşdum. Hövsələsiz idim. Təxminən axşam saat 10-da həmkarımın radiosundan Quran oxunuşu səslənirdi. O, bir neçə dəfə kanalı dəyişdirdi, ancaq hamısında yalnız Quran oxunurdu. Növbəmiz elə idi ki, saat 12-dən 3-ə qədər bir nəfər oyaq qalırdı, 3-dən sübh 6-ya qədər də bir nəfər. Mən həmişə birinci növbədə oyaq qalıb ikincidə yatmaq istəyirdim. Həmin

gecə də planım bu idi. Saat 3-ə qədər gələn xəstələrə baxdım. Bəziləri xəstəxanada yatmalı oldu, digərləri isə evlərinə döndü.

Həmin gecə çox həyəcanlı idim. Gəzişə-gəzişə qulağım radioda idi. Bütün kanallarda Quran oxunurdu. Növbəm bitdi. Çarpayıya uzandım, amma yata bilmədim. Həyəcan xora kimi canıma düşüb məni öldürürdü. Zorla yarım saat uzanıb yenidən qalxdım.

Poliklinikaya gəldim. Orada da Quran oxunurdu. Sübh azanına qədər qanadı qırılmış quş kimi oyan-buyana getdim. Sübh namazımı qıldım. Radiodan yenə Quran verilirdi. Növbəm bitmişdi. Evə qayıtmaq istəyəndə dedilər ki, bir uşaq doğulur. Tez doğuş otağına getdim.

Bütün diqqətim radionun Quran səsində olsa da, qadının başı üstə getdim, yavaşca "Bismillah" deyib işə başladım. Ürəyimdə necə tufan qopduğunu bir Allah bilirdi. Saata nəzər saldım. Yeddiyə az qalırdı. Hələ də radiodan Quran səsləndirilirdi. Özümə təskinlik verib deyirdim ki, yəqin Teleradio şirkətinin sədri, ya da alimlərdən biri vəfat edib.

Hələ uşaq dünyaya gəlməmiş radiodan Həyatinin səsi gəldi: "Ruhullah ruhani aləmə qovuşdu!"

Sanki bir nəfər gürzlə möhkəm başıma vurdu. Bir anlığa bədənimdə güc qalmadı. Bu zaman uşaq dünyaya gəldi. Uşağın ağlamağı mənim və ananın ağlamaq səsinə qarışdı. Üçümüz də ağlayırdıq. Gözlərimi yaş tutmuşdu, işimi yaxşı görə bilmirdim. Qolumla gözlərimi silib davam etdim. İşimi necə bitirdiyimi bilmədim.

Otaqdan çıxdım. Xəstəxananın hər yerindən ağlamaq səsi gəlirdi. Sanki qapı və divarlar da fəryad qoparırdı. Çadramı başıma atıb yaş üzlə xəstəxanadan çıxdım. Baş tibb bacısı bu müddətdə mənə baxırdı. Çox təəccüblənmişdi. Qanuna görə, saat 8-də xəstəxanadan çıxa bilərdik, icazə almadan heç kim ondan tez gedə bilməzdi. O zaman buna çox əhəmiyyətli

yanaşır, qanunu pozanı cəzalandırırdılar. Ancaq mənim halım o qədər pis idi ki, yazıq hara getdiyimi soruşmadı da. Yalnız dayanıb tamaşa edirdi.

Evə getmədim, birbaş Cəmarana yollandım. Çətinliklə özümü Qüds meydanına çatdırdım. Meydanda böyük izdiham vardı, hamı qara geyinmişdi, üz-başına vururdu. Ondan irəli getmək mümkün deyildi. Üç-dörd saatdan sonra Cəmarana çata bildim. Orada dedilər ki, imamın cəsədini müsəllaya aparacaqlar.

Camaatla birgə müsəllaya yola düşdüm. Argentina meydanına çatdıq. Oradan izdihamla birgə müsəllaya getdim. İmam Xomeyninin pak cəsədini müsəllada şüşə soyuducuya qoymuşdular. Qadın-kişi, qoca-cavan üz-başına vururdu. Biz ora gəlmiş ilk qruplar idik. İzdiham get-gedə artır, sanki xalq tələtümlü çay kimi dənizə birləşirdi.

Harada olduğumu evə söyləmədən üç gün imamın cəsədinin yanında oldum. Bilirdim ki, harada olduğumu təxmin edəcəklər. Bu üç gündə yalnız dəstəmaz almaq üçün imamın yanından ayrılırdım. Bundan ötrü də çoxlu yol getməli olurdum. Konteynerlərdə səyyar tualet və dəstəmaz yeri düzəltmişdilər. Elə böyük izdiham vardı ki, əl-ayaq altda qalmamaq üçün çox ehtiyatlı olmalıydıq. Həqiqətən, heç kim özündə deyildi. Həmin üç gündə bir qədər sudan və camaat arasında paylanan iki-üç keks və peçenyedən başqa bir şey yediyimi xatırlamıram.

İmamın cəsədinin başına fırlandığım bütün müddətdə onunla Qumdakı görüşümüz gözlərim önündə canlanırdı. Həmin üç gündə o qədər ağladım ki, gözlərimin quruduğunu hiss edirdim. Kirpiklərim duz bağlamış, göz qapaqlarım şişmişdi. Üçüncü gün günortadan sonra dustaq geyimli qadın və kişilərin imək̈ləyə-imək̈ləyə imamın cəsədinə yaxınlaşdıqlarını gördüm. Deyirdilər ki, bunlar tövbəkar

münafiqlərdir, həbsxanada imamın vəfat etdiyini eşidib onu ziyarət etmək istədiklərini bildiriblər. Onları görəndən sonra daha bərkdən ağlamağa başladım. Rəftarlarında elə səmimiyyət vardı ki, adamın ürəyini yandırırdı.

Meyit namazında birinci sırada dayanmaq, imamın cəsədini görmək istəyirdim. Xam xəyal idi. Axı milyonluq bir izdiham içində buna necə nail ola bilərdim?! İmamın dəfnindən ötrü müsəllaya on milyon insanın toplaşdığını təxmin edirdilər. Çoxu vilayət və rayonlardan gəlmişdi. Bunu onların geyimlərindən və əza tərzlərindən bilmək olurdu.

Yavaş-yavaş namaz sıraları yarandı. O izdiham ki mən görürdüm, namaz qılmağa yer tapsaydım, böyük iş idi! Eləcə dayanıb izdihama baxdığım yerdə ayaqlarım yerdən ayrıldı, dalğa üstündəki adam kimi hərəkət etdim. Camaatla birgə oyan-buyana gedirdim. İxtiyarım əlimdə deyildi. Təxminən bir neçə dəqiqə ötdü. Bir anlığa özümə gəlib gördüm ki, hərəkət dayandı. İnanılmaz idi; düz birinci sıraya çatmışdım. Dodaqaltı dedim: "Xudaya! Mən bura necə gəldim?!" Mat-məəttəl dayandığım yerdə namaz başlandı. İmama cənazə namazı qıldıq. Bütün namaz boyu ağladım. Əziz və sevimli imamımla görüşün bir də qiyamətə qaldığına inana bilmirdim. Bu üç gündə onun getdiyinə və yerinin boş qalacağına inana bilməmişdim. Elə bilirdim ki, yuxu görürəm və kimsə məni oyadacaq.

Namazdan sonra təxminən əlliyaşlı bir qadınla tanış oldum. Türk ləhcəsi ilə bir neçə nəfərə deyirdi: "Axşam Seyid Əhməd Behişti-Zəhraya (ə) gedib, ağanı dəfn etmək üçün bu yeri bir əkinçidən alıb".

Namazdan sonra Behişti-Zəhraya (ə) getmək üçün avtobuslara sarı yola düşdük. Təxminən iyirmi dəqiqə piyada getdik; bəzi yerlərdə sürətlə, əksər yerlərdə isə yavaş-yavaş. Yolda qadının ağa Ərdəbilinin qohumlarından olduğunu

bildim. O qədər getdik ki, izdihamdan ayrılıb avtobusların dayandığı yerə çatdıq. Avtobuslar bizim dayandığımız ərazidə elə düzülmüşdülər ki, aralarından keçməyə də yol yox idi. Avtobuslar göz işlədikcə sıx-sıx dayanmışdı. Sanki bir dəmir səddə çatmışdıq. Çox çətinliklə yol tapıb keçdik.

Avtobusların o tərəfində Şəhid Səyyad Şirazini gördük. Müharibədə, televiziya və qəzetlərdə üzünü dəfələrlə görmüş, rəşadətləri, həmçinin korpus uşaqları ilə əməkdaşlığı barədə çox eşitmişdim. Onu yaxşı tanıyırdım.

Yanında iki mühafizəçi də dayanmışdı. Yazıq yaxınlaşıb bir söz demək istəyən kimi qadın da gəlib yanımda dayandı. O da Səyyad Şirazi ilə bir-birini tanıyırdı. Salamlaşıb hal-əhval tutdular. Səyyad Şirazi dedi: "Siz burda nə edirsiz? Bura necə gəlmisiz?"

Həmin qadın bir nəfərin adını çəkib dedi: "... maşını burdadır?" Səyyad Şirazi dedi: "O, maşını doldurub getdi".

Qadın dedi: "Bəs biz nə edək? Burdan Behişti-Zəhraya (ə) necə gedək?"

Səyyad Şirazi dedi: "Gözləyin, digər uşaqlar gələcəklər. Deyərəm, sizi apararlar".

Az sonra Səyyad Şirazi ərazidən çıxan bir ağ peykanı saxlayıb sürücüsünə dedi ki, bunları da özünüzlə aparın. Maşın dolu idi. Dörd kişi qabaqda, beş nəfər də arxada oturub yola düşdük.

Müsəlladan çıxan dəstə-dəstə adamlardan ağlamaq səsi gəlirdi. Bir anlığa gözlərim müsəllanın bir tərəfindəki ayaqqabı təpəsinə sataşdı. Bəzi insanlar namaz vaxtı ayaqqabılarını çıxarmış, sonra da xeyrindən keçmişdilər. Yazıqlar ya meyit namazında ayaqqabını çıxarmağa ehtiyac olmadığını bilmirmişlər, ya da imama sevgi və hörmətlərinə görə cəsədin arxasınca ayaqyalın getmək istəyirmişlər.

O qədər adam və maşın sıxlığı vardı ki, yarım saatdan sonra hətta 1 km də irəliləməmişdik. Sürücü dedi ki, əsas yolla

getsəm, axşama qədər Argentina meydanına da çatmayacağam, o ki qala Behişti-Zəhraya (ə). Ara və uzaq yollarla izdihamdan qurtulmaq istəyirdi. Biz ara yolla irəlilədikcə, camaat da azalırdı. Təxminən bir saatdan sonra Azadlıq meydanında idi. Evi meydanın yaxınlığında yerləşirdi. Yoldaşını və uşağını evə qoyub Behişti-Zəhraya (ə) yola düşdü.

Biz çatanda nisbətən çoxlu adam toplaşmışdı, ancaq o qədər izdiham yox idi ki, hərəkət etmək mümkün olmasın. İmam və üzük qaşı kimi onu dövrəyə almış izdiham hələ Behişti-Zəhraya (ə) çatmamışdı. Bir yerdən sonra artıq maşın irəliləyə bilmədi. Yolun qalanını piyada getməyə məcbur olduq. Sürücüyə çox təşəkkür edib yola düşdük. Qadınla birlikdə gedirdim. Həmin gün o, mənə Allahın bir neməti idi. Əgər onu görməsəydim, ardınca getməsəydim, yəqin, bu tezliyə Behişti-Zəhraya (ə) çata bilməyəcəkdim.

İçindən keçməyə məcbur olduğumuz əkin sahələri şumlanmışdı, addım atanda ayaqlarımız içinə girirdi. İmamı dəfn edəcəkləri yeri konteynerlərlə əhatəyə almışdılar. Konteynerlərin arasından keçməyə yer yox idi. Pasdar və polislər konteynerlərin ətrafında dayanmışdılar.

Qadınla danışdığım yerdə camaatın səs-küyünü eşitdik. Qarışqa kimi konteynerlərə dırmaşırdılar. Yuxarıdakı pasdar və polislər də heç kimə icazə vermir, camaatın önünü kəsirdilər. Hay-küy qopmuşdu. Ürəyim bərk döyünürdü. Bir də gördüm, qadın yanımda deyil. Nə qədər boylandımsa, tapa bilmədim. Onu itirib tək qaldım. İzdihamın içində, bir tərəfdə dayandım. Nə edəcəyimi bilmirdim. Ətrafıma baxıb konteynerlərin o tərəfinə keçməyə yol axtardığım yerdə iki konteynerin arasında kiçik giriş yerini gördüm. Ora adamla dolu idi.

Oraya çatmağa çalışdım. Dedim ki, bəlkə içəri yol olar. Girişə çatana qədər nə qədər çəkdiyini bilmədim. Oradan keçən kimi bir ağ-qara van avtomobilinin mənə doğru gəldiyini gördüm.

İnsanlar maşının üstünə çıxmışdılar və kənarlarından sallanırdılar. Sanki ətdən zirehi vardı. Mənim önümdən dövrə vurmaq istəyirdi, amma adam o qədər çox idi ki, bacarmırdı. Bir anlığa maşın mənə o qədər yaxınlaşdı ki, keçdiyim konteynerə yapışdım. Maşın mənə çatanda birdən dayandı. Az qala vuracaqdı. Çaş-baş halda maşına baxdığım yerdə imamın cəsədi qoyulmuş xərəyi gördüm.

İmamın başı və sinəsinin bir hissəsi kəfəndən çıxmışdı. 1979-cu ildəki görüşüm yadıma düşdü. Həmin gün sağollaşanda arxadan yavaşca çiynini öpmüşdüm. Həmin anın həzzi illərlə canımda qalmışdı.

Bədənimə lərzə düşdü, dilim tutuldu. Müharibədə o qədər şəhid və ölü görmüşdüm, amma heç biri zərrə qədər də imamın cəsədinə və üzünə oxşamırdı. Öz-özümə dedim: "Xudaya! Məgər ölümündən üç sutka keçən cansız bir bədən bu qədər təravətli və gözəl ola bilərmi?! İmamın üzü dünyaya gətirdiyim bəzi qəşəng körpələrin dərisi kimi təravətli idi. Elə bil, sakitcə yatmışdı, bir azdan oyanıb Cəmaranda xalqla görüşəcəkdi.

Maşın izdihamdan qorxub tez qaza basdı və oradan uzaqlaşdı. O gedən kimi helikopterin səsi gəldi. Gözlərim maşında qalmışdı.

Helikopterin səsindən sonra camaatın konteynerlərin üstündən mənim dayandığım əraziyə girişi bir neçə dəfə artdı. Dəhşətli səhnə idi. Ölümü hər an gözlərim önündə görürdüm. Artıq nəfəsimin kəsildiyini hiss edirdim. İrəli atdığım iki-üç addımı zorla geri qayıdıb konteynerlərin birindən yapışdım. Bir qədər sonra bir neçə əl mikrofonu ilə elan etdilər ki, həddən artıq izdiham səbəbindən dəfn mərasimi ertəsi günə təxirə salınır. Mikrofonla tez-tez bu xəbəri təkrarlayır, camaatdan dağılışmasını istəyirdilər. Çox çətinliklə oradan uzaqlaşdım. Ayaqlarımda taqət qalmamışdı. Aşa-aşa gedir, hər an yerə yıxılacağımı gözləyirdim.

Özümü əkin sahələrinin ətrafında dayanmış avtobuslara yetirdim. Avtobuslar camaatı oradan çıxarırdı. Qiyamət idi. Sanki məhşər səs-küyü vardı. Sürücülər avtobuslarının yanında dayanıb marşrutlarını qışqırırdılar. Avtobusların biri Firdovsi meydanına gedirdi. Ona mindim. Hələ yola düşməmiş yorğunluqdan və halsızlıqdan yuxuya getdim.

Təxminən bir saatdan sonra evə çatdım. Anam evdə televizorun qabağında oturmuşdu. Üz-başımı görüb yerindən sıçradı. Özümü onun qucağına atdım. Hər ikimiz hönkürtü ilə ağlamağa başladıq. Bu üç gündə harada olduğumu soruşmadı. Toz-torpaqlı görkəmimdən və pərişan halımdan harada olduğum bəlli idi. Evdə heç kim yox idi. Dedim ki, uşaqlar haradadırlar? Dedi ki, Behişti-Zəhraya (ə) imamın dəfninə gediblər. Dedim:

- Mən indi ordan gəlirəm. Dedilər ki, sabah dəfn edəcəklər, izdiham və sıxlığa görə.

- Yox, Sabah, gəl, bax. İmamı helikopterlə gətirirlər, indicə dəfn edəcəklər!

Televizorun önündə uzandım. Sanki əl-ayağımdan can çıxırdı. İkinci helikopter də yerə oturdu. Hər iki helikopterin yerə qonmasından təxminən yarım saat sonra ikinci helikopterdən imamın cəsədini çıxardılar. Onu yerə qoyan kimi bütün ərazini qəribə toz-torpaq bürüdü. Sanki bu qəmdən yer-göy tələtümə gəlmişdi. Sanki torpaq da hamı kimi əza saxlayırdı.

Nəhayət, sanki dövrümüzün peyğəmbərini torpağa tapşırdılar. Acınacaqlı durum idi. Bu durum daha heç yerdə təkrar olunmadı. Qanadları kəsilmiş quş kimi bir yerdə qərar tuta bilmirdim. Evdə əsla qala bilmirdim. Dəfn mərasimi bitəndən sonra anama dedim:

- Behişti-Zəhraya (ə) imamın yanına getmək istəyirəm. Ürəyim partlayır. Sanki qəlbimi sinəmdən çıxarırlar.

Evdə qala bilmirdim. Anam halımı görüb dedi:

- Heç olmasa, gözlə, bir tikə çörək gətirim, ye. Rəngin ağappaq olub. Məlumdur ki, bu üç gündə heç nə yeməmisən.

Yerə oturub ayaqlarımı uzatdım. Anam bir qədər pendir-çörək və bir stəkan çay gətirdi. Zorla iki-üç tikə udub ayağa qalxdım, anamla sağollaşıb evdən çıxdım.

Ölkənin hər tərəfindən Tehrana Behişti-Zəhraya (ə) gəlmiş insanların əzadarlığı maraqlı idi. Hərə öz üsulu ilə ağı deyirdi: cənublular bir cür, şimallılar bir cür, kürd bir cür, lor bir cür, əşirətlər bir cür. Camaatın arasında Saridəki qaçqın qonşum Şəmsini gördüm. Ailəsi ilə birgə gəlmişdi.

Təxminən on gündən sonra işə getdim. Xəbərsiz getdiyimə və o dövrün qəribə tələbkarlığından xəbərdar olduğuma görə ixrac ediləcəyimi, ya da cəzalandırılacağımı düşünürdüm. Ancaq belə olmadı. Baş tibb bacısı həmin gün halımı gördüyünə görə bütün on günü məzuniyyət hesab etmişdi.

# İyirmi doqquzuncu fəsil:

## *Əsirlərin azadlığı*

1989-cu ildə Xürrəmşəhr Təhsil şöbəsi müəllimləri öz işlərinə qayıtmağa dəvət etdi. Şahnaz oraya qayıtmaq qərarına gələn ilk adamlardan idi.

Bir dəfə anamla Xürrəmşəhrə Şahnazı görməyə gedəndə Səhiyyə nazirliyinin Allah meydanında bir poliklinika açdığını gördüm. Bir anlığa beynimə bir fikir gəldi, düşündüm ki, görüm, burada işləmək şərtləri necədir. Çox istəyirdim ki, Şahnaz kimi Xürrəmşəhrdə qalıb işləyim. Poliklinikanın rəisi ilə görüşüb özümü təqdim etdim, dedim ki, Xürrəmşəhrdənəm, Tehranda mama işləyirəm. Əgər burada yerlilərimə xidmət imkanım olsa, qayıtmaq istəyirəm.

Sevinib dedi: "Bizim burada sizin kimi dindar şəxslərə ehtiyacımız var. Əgər gəlsəniz, Qadınlar şöbəsini sizə verərəm".

Şöbə sədri olmaq önəmli deyildi, yerlilərimin canından ağrını çıxarmaq imkanı mənə yetərdi.

Tehrana qayıdıb Xürrəmşəhrə yerdəyişmə məktubumu Tehran universitetinin Səhiyyə nazirliyindəki Təhsil şöbəsinin sədrinə verdim. Tehrandan Xürrəmşəhr kimi müharibədən

çıxmış bir şəhərə qayıtmaq istəməyim onlara qəribə gəlirdi. Tez işlərimi görüb qovluğumu verdilər.

İşə başlamaq üçün Səhiyyə nazirliyinin Xuzistan şöbəsindən təqdimat almalı idim. Qovluğumu görüb dedilər: "Gərək yenidən qəbul ediləsən". Dedim: "Mən bir il deyil qəbul olmuşam". Dedilər: "Hər halda, buranın qanunu belədir".

İslaminin və İslam Təbliğatı Komitəsindəki həmkarlarımın bir neçəsinin adını verib dedim ki, eybi yox, mən cavabınızı gözləyirəm. Dedikləri qəbul bir gün, ən uzağı, bir ay çəkərdi. Onlar məni altı ay gözlətdilər. Hər dəfə soruşanda bəhanə gətirirdilər. Bütün bu müddətdə işim dayandı, bir neçə dəfə Əhvaza gedib-gəldim. Məni o qədər incitdilər ki, axırda qovluğumu alıb Tehrana qayıtmağa məcbur oldum.

Bu müddətdən sonra xəstəxanaya yenidən işə qəbul ediləcəyimə ümidim yox idi, ancaq başıma gələnləri rəhbərliyə söyləyəndən sonra işə qayıtmağıma icazə verdilər.

***

1990-cı ilin yayında əsirlər azad olundular. Onların gəlişi ilə bütün ölkəboyu küçələrdə qəribə coşqu yarandı. Əsiri olan çoxlu ailələr kimi biz də Əlini görməyə səbirsizlənirdik. Anam o qədər həyəcanlı idi ki, ondan ötrü narahat olurduq. Müharibə illərində çox çətinlik və stres çəkmiş, Əlinin və atamın yoxluğuna dözmüşdü, bu qədər həyəcan ona yaxşı deyildi, həyatını təhlükəyə ata bilərdi.

Nəhayət, illərlə gözləyəndən sonra Əli döndü. Onunla son görüşümüzdən təxminən on il ötürdü. Bu müddətdə çox dəyişmişdi. Zahiri baxımdan çox kişiləşməsindən əlavə, düşüncə baxımından da xeyli inkişaf etmişdi. Danışmağa dünya qədər sözü vardı. O gələndən sonra qohumlar, dostlar və döyüş yoldaşları bir müddət bizə gəlib-getdilər. Onun söhbətlərini dinləmək, onu doyunca görmək növbəmiz çatmırdı. Bir qədər də gözləməli olduq.

Həmin ildə Bəhruz Dalvənd adlı köhnə dostumuzun oğlu ilə ailə qurdum. Oğlum Müctəba 1991-ci, qızım Məhya da 1993-cü ildə dünyaya gəldi.

2001-ci ilə qədər xəstəxanada işlədim. Uşaqlarımı böyüdə-böyüdə əl-Zəhra (ə) universitetində Sənaye layihəsi ixtisasında təhsil aldım. Mamalığı müharibəyə görə oxumuşdum ki, xəstəxanada və ya hər hansı tibb mərkəzində işləyəndə məni bacarıqsızlıqda və digərlərinin işlərinə müdaxilə etməkdə günahlandırmasınlar. İşimdə uğurlu olsam da, ona ürəkdən marağım yox idi. Zərif texniki işlərə böyük həvəsim və istedadım vardı, bu sahədə fəaliyyət göstərmək istəyirdim. Buna görə sənaye layihəsi üzrə oxumaq qərarına gəlmişdim. Tələbəlik illəri müvəffəqiyyətlə keçdi. Dərslərimi o qədər sevirdim ki, çətinliklərini görmürdüm, əyləncə kimi gəlirdi. Dərsdə olanda halım daha yaxşı olurdu.

Sənaye layihəsi ixtisasında təhsil zamanı 2 kreditli bir dərsdən ötrü bir neçə saat praktik iş olurdu. Müxtəlif sahələr arasında qızılla qəlib düzəltməyi seçib Tehranda müvəffəqiyyətlə başa vurdum. O vaxtdan məndə qızılla işləməyə xüsusi maraq yarandı. Sonralar Texniki Peşə Komitəsinin zərgərlik müəllimliyi kursu qoyduğunu eşidəndə iştirak edib uğurla başa vurdum və kurs açmaq sertifikatı aldım.

Topladığım pulla Tehranın Taliqani prospektində "Gövhəri-dirəxşan" adlı bir təlim mərkəzi açdım. Gözlədiyimdən çox tez bir zamanda mərkəzə çoxlu tələbə toplandı. Səhərlər qadınların, günortadan sonra kişilərin dərsi olurdu. Siniflərdə tələbə sayı iyirmidən az olmurdu. Dulusçuluq sənətinin xırdalıqlarını öyrətməyən çoxlu müəllimlərdən fərqli olaraq, heç bir məqamı öyrətməkdən çəkinmirdim. Kursda gümüşlə təlim keçirdim.

Təlim bitəndən sonra tələbələri öncədən tapdığım zərgərlik sexləri ilə tanış edirdim. İstəyirdim ki, zəhmətlərinin bəhrəsini

görənə qədər yanlarında olum. Onların müstəqil şəkildə gəlir əldə etdiklərini görəndə çox həzz alırdım.

Get-gedə işim o qədər rövnəqləndi ki, başqa bir müəllim gətirməyə məcbur oldum. Təlim mərkəzinin qazancı düşündüyümdən çox oldu. Bununla yanaşı, özümdən razı deyildim. Gecələr yorğun halda yatağa girəndə, gözlərimi yuman kimi Xürrəmşəhrin dağılmış küçə və prospektləri, işsizlikdən və imkansızlıqdan çoxlu problemlərlə üzləşən əhalisi gözlərim önünə gəlirdi.

O günlərdə dövlət adamları Quruculuq devizi ilə işləyirdilər. Lakin bu, ən azı, xürrəmşəhrlilər üçün şüar olaraq qaldı, o bölgənin fədakar və cəsur insanlarına layiq bir iş görə bilmədilər.

# Otuzuncu fəsil:

## *Övladlarım*

İndi o günlərdən illər ötür. Övladlarım böyüyüb, hər biri sevdiyi sahəyə yönəlib. Müctəba İnformasiya texnologiyası və Memarlıq fakültələrində təhsil alıb, əsas həvəsi olan memarlıq sahəsində işləyir. Bu günlərdə evlənmək üzrədir. Məhya da Hüquq fakültəsində tələbədir.

Əli İranın şimalında yaşayır. Şahnaz müəlliməlikdən təqaüdə çıxıb, Fevziyə də İmam Xomeyni xəstəxanasının təqaüdə çıxmış kitabxanaçısıdır. Digər bacı və qardaşlarım da öz işlərindədirlər. Anam hələ də inqilabi ruhiyyəsini qoruyub, hər gün Yəmən və Suriya xəbərlərini izləyir. Az-çox narahatlıqları var, amma səbirlidir və şükür edir.

Keçmiş xatirələrim barədə danışmağa çox maraqlı olmasam da, Müctəba ilə Məhya tez-tez müharibə illərindən və Xürrəmşəhrdəki müqavimət dövründən söz salır, o günlərdən danışmağımı istəyirlər. Döyüş yoldaşlarımın qəhrəmanlıqlarını eşitməyə dair məsum həvəsləri mənə onları uşaq vaxtı Xürrəmşəhrə apardığım günləri xatırladır. Onda da məni sual atəşinə tuturdular:

– Ana, harda vuruşmusan?

– Ana, sənə harda qəlpə dəydi?

– Babamız harda yaralandı?

– Əli dayı harda əsir düşdü?

– Gedib məhəlləmizə baxa bilərik?

– Olar ki, Şahnaz və Fevziyə xala ilə birgə işlədiyiniz xəstəxananı görək?

Onlara həmin günlərdən danışıram. Bu torpağın qadın və kişilərinin rəşadət, məzlumluq və mərdlik hekayəsi o qədər deyilməli, ağız-ağız dolaşmalıdır ki, indiki əmin-amanlığı nəyə borclu olduğumuzu bir an da unutmayaq. Mənim ruhum və canım istəmədən döyüş xatirələri ilə qarışmışdır...

"Və aqibət təqvalılara məxsusdur!" (Qəsəs, 83)

## Mündəricat


Giriş ..... 3
Birinci fəsil: ..... 8
    Uşaqlıq ..... 8
İkinci fəsil: ..... 29
    İnqilaba doğru ..... 29
Üçüncü fəsil: ..... 67
    İmam Xomeyni ilə görüş ..... 67
Dördüncü fəsil: ..... 84
    İdeologiyaların döyüşü ..... 84
Beşinci fəsil: ..... 97
    Müharibə ..... 97
Altıncı fəsil: ..... 113
    Came məscidi ..... 113
Yeddinci fəsil: ..... 135
    Şahnazların şəhadəti ..... 135
Səkkizinci fəsil: ..... 158
    Şəhid ata, şəhid oğul ..... 158
Doqquzuncu fəsil: ..... 193
    İlk döyüş ..... 193
Onuncu fəsil: ..... 225
    Yaralanma ..... 225
On birinci fəsil: ..... 248
    Dik duruş ..... 248
On ikinci fəsil: ..... 283
    Xürrəmşəhrin işğalı ..... 283
On üçüncü fəsil: ..... 292
    Düşmənə doğru ..... 292
On dördüncü fəsil: ..... 314
    Səngərdən səngərə ..... 314
On beşinci fəsil: ..... 335

Bəlalı səfər ..... 335
On altıncı fəsil: ..... 358
Yaralı bəsicilər ..... 358
On yeddinci fəsil: ..... 363
Qasim Fərruxinin şəhadəti ..... 363
On səkkizinci fəsil: ..... 385
Məzlum müqavimət ..... 385
On doqquzuncu fəsil: ..... 395
Mürdəşir ..... 395
İyirminci fəsil: ..... 410
Tehran ..... 410
İyirmi birinci fəsil: ..... 424
Görüş həsrəti ..... 424
İyirmi ikinci fəsil: ..... 431
Əlidən məktub ..... 431
İyirmi üçüncü fəsil: ..... 469
"Ciyərim yanır, yezidlər" ..... 469
İyirmi dördüncü fəsil: ..... 480
Şəhərimin azadlığı ..... 480
İyirmi beşinci fəsil: ..... 506
Universitet macəraları ..... 506
İyirmi altıncı fəsil: ..... 525
Ərakda praktika ..... 525
İyirmi yeddinci fəsil: ..... 532
598 Saylı qətnamə ..... 532
İyirmi səkkizinci fəsil: ..... 541
İmam Xomeyninin dəfni ..... 541
İyirmi doqquzuncu fəsil: ..... 550
Əsirlərin azadlığı ..... 550
Otuzuncu fəsil: ..... 554
Övladlarım ..... 554